**A.N.ABBASBƏYLİ**

# DÜNYA SİYASƏTİ

## (XX əsrin ikinci yarısı - XXI əsrin əvvəlləri)

**Dərslik**

*Azərbaycan Respublikası Təhsil Nazirinin 08.07.2011-ci il tarixli 1287 saylı əmri ilə dərslik kimi təsdiq edilmişdir.*

**BAKI – 2011**

**Elmi redaktorlar:** **Q.H.Məmmədov**
Siyasi elmlər üzrə fəlsəfə doktoru
**R.Ə.Sadıqov**
Siyasi elmlər üzrə fəlsəfə doktoru

**Rəyçilər:** **Z.M.Həsənalıyev**
Tarix elmləri doktoru, professor
**Ə.İ.Əliyev**
Hüquq elmləri doktoru, professor
**A.M.Məhərrəmov**
İqtisad elmləri doktoru, professor
**E.Ə.Nəcəfov**
Fəlsəfə elmləri doktoru, professor

**Abbasbəyli A.N.** Dünya siyasəti
Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011, 584 səh.

Müasir dünya siyasəti XXI yüzilliyin əvvəllərindən etibarən keyfiyyətcə yeni mərhələyə daxil olmuşdur. Dərslikdə yeni dövrün məzmununu müəyyənləşdirən amillər və dünya siyasətinin inkişaf istiqamətləri açıqlanır, ümumdünya problemlərinə, qloballaşma proseslərinin mahiyyət və məzmununa aydınlıq gətirilir, beynəlxalq terrorizmə qarşı mübarizədə beynəlxalq təşkilatların roluna diqqət yetirilir, dünyanın müxtəlif regionlarında – Qafqazda, Avropada, Asiya və Amerikada cərəyan edən hadisə və proseslər müasirlik işığında təhlil edilir, habelə, erməni terror-separatizminin Azərbaycan Respublikasına və Cənubi Qafqaz regionuna gətirdiyi fəsadların mahiyyəti açıqlanır.

Dərslik dünya siyasəti, dünya iqtisadiyyatı, hüquq, tarix və s. sahələr üzrə ixtisaslaşan ali məktəb tələbələri, magistrantlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN: 978 - 9952 - 460 - 19 - 3

© Ağalar Nəriman oğlu Abbasbəyli, 2011

MİMTA

**Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondunun maddi dəstəyi ilə çap edilmişdir.**

# MÜNDƏRİCAT

**GİRİŞ** .......... 7

**I FƏSİL. DÜNYA SİYASƏTİ MÜSTƏQİL ELM SAHƏSİ KİMİ** .......... 13

**II FƏSİL. DÜNYA SİYASƏTİNİN TƏŞƏKKÜLÜNÜN VƏ FORMALAŞMASININ QANUNAUYĞUNLUQLARI** .......... 37

**III FƏSİL. DÜNYA SİYASƏTİNİN MÜASİR ÖLÇÜLƏRİ VƏ PERSPEKTİVLƏRİ** .......... 71

**IV FƏSİL. DÜNYA SİYASƏTİNİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ** .......... 113

4.1. Dünya siyasətində iqtisadi amilin yeri və rolu .......... 113
4.2. Dünya siyasətində hüquq və əxlaq .......... 129
4.3. Müasir dünyanın inkişafında elm və təhsilin rolu ... 147

**V FƏSİL. ÜMUMDÜNYA PROBLEMLƏRİ** .......... 167

5.1. XXI əsrdə geostrategiya .......... 167
5.2. Dünya siyasəti qloballaşma dövründə .......... 175
5.3. İqtisadi diplomatiya və onun beynəlxalq əlaqələrdə rolu .......... 184
5.4. Ekoloji təhlükəsizlik dünya ölkələrini narahat edən əsas problem kimi .......... 189

**VI FƏSİL. BEYNƏLXALQ TERRORİZMƏ QARŞI MÜBARİZƏ** .......... 195

6.1. 2001-ci il 11 sentyabr hadisələri və onların beynəlxalq nəticələri .......... 195

6.2. Beynəlxalq terrorizmlə mübarizənin hüquqi əsasları ........ 210
6.3. Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqı və Avropa Şurası beynəlxalq terrorizmə qarşı mübarizədə ........ 216
6.4. Erməni terror-separatizmi: kökləri, mənbələri və nəticələri ........ 227

**VII FƏSİL. QAFQAZ ........ 242**
7.1. Qafqaz müasir geostrategiyada ........ 242
7.2. Cənubi Qafqaz böyük dövlətlərin geosiyasi maraqlarında ........ 257
7.3. Qafqaz-Xəzər regionu NATO-nun müasir geostrategiyasında ........ 286
7.4. NATO-nun Şərqə doğru genişlənməsi və Azərbaycan Respublikası ........ 293
7.5. Xəzər hövzəsi ölkələrinin hərbi-siyasi təhlükəsizlik problemləri ........ 309
7.6. Müasir dövrdə Azərbaycan-Rusiya münasibətləri ........ 317
7.7. Humanitar sahələrdə Azərbaycan-Rusiya əməkdaşlığı ........ 326

**VIII FƏSİL. AVROPA ........ 332**
8.1. Avropa geostrategiyası müasir şəraitdə ........ 332
8.2. Avropa inteqrasiyasının yaranması, mahiyyəti və ilkin şərtləri ........ 344
8.3. Müasir dövrdə Avropa İttifaqının enerji siyasəti ........ 354
8.4. Almaniya Federativ Respublikasının müasir Avropada yeri ........ 377
8.5. Yuqoslaviya Federasiyasının dağılması və beynəlxalq nəticələri ........ 385
8.6. Kosovonun müstəqilliyinin elan edilməsi və beynəlxalq nəticələri ........ 416

**IX FƏSİL. ASİYA .......................................................425**

9.1. Mərkəzi Asiyada geostrateji qüvvələr nisbəti .........425

9.2. Müasir dövrdə Rusiya ilə Asiya ölkələrinin qarşılıqlı əlaqələri .........................................................435

9.3. İslam dünyasının Rusiyanm xarici siyasətində yeri ..........................................................................449

9.4. Türkiyə müasir beynəlxalq münasibətlərdə ............462

9.5. Müasir şəraitdə Səudiyyə Ərəbistanı-ABŞ münasibətlər ...........................................................470

**X FƏSİL. AMERİKA ...................................................477**

10.1. XX əsrin əvvəllərində ABŞ-ın təhlükəsizlik sisteminin əsasları..............................................477

10.2. Amerika Birləşmiş Ştatlarmın müasir şəraitdə neft strategiyası ..................................................488

10.3. SSRİ-ABŞ hərbi-siyasi böhranı (Karib böhranı) və onun beynəlxalq nəticələri..............................512

10.4. Rusiya Federasiyası – Amerika Birləşmiş Ştatları: əməkdaşlıq və rəqabət..............................522

10.5. Çin-ABŞ münasibətləri..............................................541

10.6. Latın Amerikası dünya siyasətində.........................566

**NƏTİCƏ ..................................................................582**

# GİRİŞ

XX əsrin ikinci yarısı – XXI əsrin əvvəlləri dünya tarixinə mühüm elmi-texniki nailiyyətlər, kompüterləşmə, kosmosun mənimsənilməsi, qloballaşma əsri kimi daxil olmuşdur.

Dünya tarixinin bu zaman kəsiyi çoxsaylı müharibələrlə, təbii fəlakətlərlə və qanlı terror hadisələri ilə zəngindir. Təbiət və insanlıq tərəfindən törənmiş bu hadisələr milyonlarla insan həyatına son qoymuşdur. Bu dövrün əsas xüsusiyyəti ondan ibarətdir ki, keçmiş əsrlərdən fərqli olaraq, baş verməkdə olan hadisə və proseslər, istər kompüterləşmə və qloballaşma, istərsə də zəlzələlər və daşqınlar, sunamilər və qasırğalar, müharibələr və terrorizm Avropa və Amerikada, Asiya və Afrikada tüğyan etməklə dünyanın əksər regionlarını və ölkələrini əhatə etmişdir.

Müxtəlif hesablamalara görə, XX əsrin ikinci yarısında və XXI əsrin əvvəllərində dünyada ümumilikdə 1000-ə yaxın böyük və kiçik müharibə olmuşdur. Onların arasında milyonlarla insan həyatına son qoymuş Koreya və Vyetnam müharibələri, İran-İraq, əfqan-sovet, Əfqan-Amerika, İraq-Amerika, İsrail-Fələstin, çeçen-rus və Ermənistan-Azərbaycan müharibələri xüsusi amansızlığı ilə seçilir. İdeya-siyasi, irqlərarası, dinlərarası və etniklərarası müharibələr heç də az amansız olmamışdır. Onların arasında Kampuçiya, Ruanda, Çad, Anqola, Somali, İraq, Əfqanıstan, Kolumbiya, Boliviya, İndoneziya, Myanma, Pakistan, Gürcüstan, Seylon və Filippin, keçmiş Yuqoslaviyadakı müharibələr xüsusi amansızlığı ilə fərqlənir.

Dünyanın yaşadığı müharibələrin vurduğu ziyana bütün Yer kürəsini öz toruna salmış beynəlxalq terrorizmin qurbanları da əlavə olundu. Hazırda BMT-nin 200-ə yaxın üzv-

dövlətindən təxminən 120-də ölüm, dağıntı və zorakılığı yayan terror qruplaşmaları, birlikləri və s. fəaliyyət göstərir. Müasir dövrdə terrorizm qatarlarda, avtobuslarda, təyyarələrdə, küçələrdə və dünyanın bir çox şəhər və rayonlarında baş verən partlayışlardır. Azərbaycan, Rusiya, Türkiyə, Almaniya, ABŞ, İspaniya, İngiltərə, Fransa, Əlcəzair, Misir, Pakistan, İraq, İsrail, İndoneziya, Livan, Əfqanıstan, Hindistan və s. yaşayış məntəqələrinin yüz minlərlə vətəndaşı terrorizmin qurbanları olmuşdur. ABŞ-dakı 2001-ci il 11 sentyabr hadisələrindən sonra terrorizm ümumdünya hadisəsinə çevrilmişdir.

Müasir dövrdə beynəlxalq terrorizmin suveren dövlətin milli ərazisinin silahlı yolla ayrılmasını öz qarşısına əsas məqsəd kimi qoyan milli separatizm növü xüsusi amansızlığı ilə fərqlənir. Bu, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda erməni milli separatçılarının, terrorçu təşkilatlarının fəaliyyətində özünün konkret təsdiqini tapmışdır. Erməni terror-separatçılarının bu fəaliyyəti Ermənistanın Azərbaycana təcavüzündə və nəticədə Azərbaycan Respublikasının ərazisinin 20 faizinin işğal edilməsində özünün konkret təsdiqini tapmışdır. On minlərlə ölü və yaralı, bir milyon qaçqın və məcburi köçkün bu təcavüzün qurbanı olmuşdur.

Müasir dövrdə, demək olar ki, bütün rənglər qarışmışdır. Burada hər şey vardır: dövlət xadimlərinin öldürülməsi, onların vəzifədən kənarlaşdırılması, yanğınlar və partlayışlar və s. Qurbanlar və əzablar nə qədər çoxdursa, terrorçuların şöhrəti və onların bir çox hallarda kiçik və böyük dövlətlərin çıxış etdiyi donorlar tərəfindən xidmətlərinin əvəzinin ödənilməsi deməkdir.

XX əsr və yeni başlanmış XXI əsrin ilk onilliyi görkəmli dövlət xadimlərinin öldürülməsi hadisələri ilə zəngindir, o cümlədən, adları sadalanan prezidentlər: ABŞ-da – D.F.Kennedi, Misirdə – Ə.Sadat, Çilidə – S.Alyende, Əfqanıstanda – M.N.Təraki, X.Amin, Nəcibulla, Banqladeşdə – M.Rəhman, Nepal kralı – B.B.Mahendra; Baş nazirlər: İsveçdə – U.Palme, Hindistanda – İ.Qandi və R.Qandi, Türkiyədə – A.Menderes,

Pakistanda – A.Z.Bhuto, B.Bhuto, Zairdə – P.Lumumba, BMT Baş Katibi D.Xammerşeld və başqaları. Bu siyahını daha da artırmaq mümkündür.

Həmçinin, diktatorlar, mütləq hakimlər, Kommunist partiyalarmm Baş katibləri, milli müstəqillik uğrunda mübarizə liderləri və ömürlük prezidentlər hakimiyyətdən getdi və ya dünyasını dəyişdi: İ.Stalin, F.Franko, Pinoçet, X.Peron, Çon-Du-Xvan, S.S.Mobutu, İ.B.Tito, N.Xruşov, L.Brejnev, P.Pəhləvi, N.Siyanuk, Kim-İr-Sen, Y.Kadar, Mao-Tse-Dun, N.Çauşesku, A.Sukarno, Çan-Kay-Şi, C.A.Nasir, A.Neto, S.Hüseyn, Bin Ali, H.Mübarək və başqaları.

A.İden, H.Kol, H.Şreder, F.Mitteran, H.Vilson, M.Tetçer, T.Bleyer, R.Reyqan, M.Qorbaçov, R.Nikson, C.Buş, B.Klinton, F.Kastro, A.Şaron, Y.Ərafat, S.Dəmirəl, Q.Makmillan, K.Karamanlis, E.Şevardnadze, B.Beyrut, Çjou-En-Lay, L.Valensa, J.Şirak, N.Mandeyla, V.Yeltsin, T.Çillər, C.Braun, L.Kaçinskix və b. müxtəlif vaxtlarda, fərqli səbəblərdən siyasi arenadan getdilər.

Bununla yanaşı, bəşəriyyət həm öz xalqlarının tarixində, həm də insanlıq salnaməsində gözəçarpan iz buraxmış özünün ən yaxşı oğulları ilə vidalaşdı. Bu magikanlara U.Çerçill, K.Adenauer, Ş. de Qoll, Den-Seo-Pin, D.Neru, ümummilli liderimiz Heydər Əliyevi və başqalarım aid etmək olar.

Minilliklərin qovuşuğunda elm, xüsusilə, kibernetika, EHM və s. öz inkişafmda çox böyük sıçrayış etdi. Ötən əsrin ikinci yarısında onların inkişafı nəticəsində bəşəriyyət hiss edilmədən qloballaşma ilə əhatələndi.

Lakin bu nəhəng dəyişikliklərin fonunda hazırda planetin milyonlarla əhalisi sağalmaz xəstəliklərin qurbanma çevrilirlər: infarkt, SPİD, diabet, müxtəlif növlü qriplər və s. Dünyanm iki əks qütbündə bəziləri artıq qidalanma və piylənmədən, digərləri isə aclıqdan və yoxsulluqdan həlak olur.

XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində dünyada, xüsusilə post-sovet məkanmda yüzlərlə milyonçu və milyarder-

lər əmələ gəlmişdir, halbuki, Yer kürəsində milyonlarla insan adi qida, yaşayış yeri, dərman vasitələri əldə edə bilmirlər. O da parodoksal haldır ki, ABŞ və Qərbi Avropadakı kimi ən varlı və firavan ölkələrdə zamanın əsas şüarı – "insan hüquqlarınm qorunması"dır.

Müasir dövr bəşəriyyətə çoxlu sevinc və ümidsizliklər, müsbət hadisələr və faciələr gətirmişdir. Bir çox arzular elə arzu olaraq qalmışdır.

Müasir beynəlxalq münasibətlərdə cərəyan etməkdə olan siyasi proseslər, onların politoloji və elmi-nəzəri baxımdan təhlili və ümumiləşdirilməsi müasir dünya inkişafınm məzmununu, inkişaf meyilləri və perspektivlərini müəyyənləşdirmək baxımdan mühüm əhəmiyyətə malikdir.

İnteqrasiya və qloballaşma proseslərinin ümumplanet miqyası aldığı müasir beynəlxalq şəraitdə dünyanm inkişaf meyillərində kəsişən və ortaq məqamların müəyyənləşdirilməsi qarşıdurma və ziddiyyətlərin aradan qaldırılmasınm mümkün yollarından biridir.

Dünya siyasət meydanında qüvvələr balansının yaradılması ümumi sülhün və qarşılıqlı anlaşmanm xeyrinədir. Artıq formalaşmış beynəlxalq münasibətlər tarixinin inkişaf yolunun təhlili göstərir ki, eyni tipli dövlət quruluşuna malik dövlətlər arasında müharibələr də daxil olmaqla müxtəlif xarakterli qarşıdurma və toqquşmalardan qaçmaq mümkünsüzdür. Bununla belə, qloballaşma prosesinin müasir inkişafı dövründə dünya siyasətində inkişaf edən proseslər yeni dünya nizamınm formalaşmasına yönəlmişdir.

Hər bir dövr özünəməxsus yeni problemlərlə səciyyəvidir, bu isə siyasi elmlərdən dinamik inkişaf, baş verməkdə olan proseslərə ayıq münasibət və ümumiləşdirmələrin vaxtında aparılmasını tələb edir.

Müasir beynəlxalq münasibətlər mürəkkəb və çoxtəbəqəli daxili məzmuna malikdir ki, burada beynəlxalq siyasi münasibətlər mühüm yer tutur. Bu elə sahədir ki, onu həm dünya

siyasətinə, həm də siyasi proseslər, münasibətlər sahəsinə aid etmək olar. Nəzərə almaq lazımdır ki, dünya siyasəti beynəlxalq münasibətlərdən ibarət təməl üzərində yaranmış və inkişaf etməkdədir.

Sürətlə dəyişməkdə və inkişaf etməkdə olan müasir dünya bəşəriyyətin də öz inkişafmda yeni mərhələyə daxil olduğunu göstərir. Bu elə bir mərhələdir ki, dünya yeni şəraitdə, xaotikləşir, qloballaşır və lokallaşır, inteqrasiya olunur, sürətlə silahlanır və hərbiləşir. Zaman etibarilə o qədər də böyük olmayan XX yüzillikdə baş vermiş çoxsaylı müharibələrin və etnik münaqişələrin ümumi yekunu 196 milyon nəfərdən çox insan həyatına son qoyulması olmuşdur.

Dünya siyasətinin kifayət qədər qloballaşdığı, regional inteqrasiya proseslərinin dünya tamlığının yaradılmasına doğru istiqamətləndiyi müasir şəraitdə dünyanın çoxsaylı siyasi, iqtisadi, beynəlxalq, hüquqi, hərbi, təhlükəsizlik, ekoloji, bioloji, sosioloji, ümumiyyətlə, ümumbəşəri problemləri bunlara diqqət və ehtiyatla yanaşılmasını, səbəb-nəticə əlaqəli təhlil edilməsini, hadisə və proseslər arasındakı fərdi və ümumi xüsusiyyətlərin müəyyənləşdirilməsi yolu ilə fəlsəfi-politoloji, elmi-nəzəri və praktiki ümumiləşdirmələrin aparılmasını tələb edir və "Dünya siyasəti" dərsliyi tələbələri bunlarla tanış etmək məqsədi güdür.

Müasiri olduğumuz inkişaf edən dünya və dünya siyasəti biri digərindən ayrılmazdır. Hegelin ifadəsi ilə desək, "dialektik cütlükdür". Bu isə dünya dövlətlərindən birgə fəaliyyət tələb edir. Lakin müxtəlif mənafe və məqsədlərə malik dünya dövlətlərinin ilk növbədə siyasi fəaliyyətlərinin çarpazlaşdığı müasir dünyada buna nail olmaq o qədər də asan deyil. O, uzunmüddətli araşdırmaların aparılmasını, nəticələrin analiz-sintez süzgəcindən keçirilməsini, kəsişən və ortaq maraqların düzgün müəyyənləşdirilməsini və obyektiv qiymətləndirilməsini tələb edir.

"Dünya siyasəti" dərsliyi ali məktəblərin müvafiq profilli ixtisasları üçün nəzərdə tutulmuşdur. Müasir dünya siyasəti-

nin mərkəzində elə proseslər durur ki, onlar Yer kürəsinin nəinki ayrı-ayrı region və guşələrində, habelə bütövlükdə müasir dünyada baş verir və bunların öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Dərslikdə dünyanın müxtəlif regionları və ölkələri üçün xarakterik olan bəzi problemlərin nəzəri və praktiki baxımdan dərk edilməsinə, müasir dünyanın siyasi mənzərəsinin çoxsaylı problemlərinin sistemli şəkildə araşdırlmasına və işıqlandırılmasına cəhd edilmişdir. Gələcək dünyanın siyasəti xeyli dərəcədə bu proseslərin necə inkişaf etməsindən asılıdır. Müəllifin başlıca məqsədi müasir şəraitdə siyasi elmin qarşısında duran ayrı-ayrı problemlərə elmi-nəzəri aspektdən yanaşma və ümumiləşdirmələr aparmaqdan ibarətdir.

# I FƏSİL

# DÜNYA SİYASƏTİ MÜSTƏQİL ELM SAHƏSİ KİMİ

"Dünya siyasəti" qədim zamanlardan mövcud olsa da, yeni elmi fənn kimi XX əsrdə formalaşmağa başlamışdır. Dünya siyasətinin müstəqil elm sahəsi kimi yaranması prosesini nəzərə alaraq bu anlayışa bir çox hallarda müxtəlif yanaşmaların olduğunu müşahidə etmək mümkündür.

Müxtəlif izahların və fənlərin qovuşuğunda meydana gəlmiş dünya siyasəti beynəlxalq münasibətlər və politologiya ilə daha sıx bağlıdır. O da məlumdur ki, beynəlxalq münasibətlər elmi fənn kimi İkinci Dünya müharibəsinin başa çatmasından sonra meydana gəlmişdir. İkinci Dünya müharibəsindən sonra beynəlxalq münasibətlərə olan diqqət əhəmiyyətli dərəcədə artdı və bu fənn hərtərəfli inkişaf etdi.

Vestfal sisteminə görə xarici və daxili siyasət sahələrinin bölünməsi ilə dünya nizamının qurulması ona gətirib çıxartdı ki, siyasətin öyrənilməsi beynəlxalq münasibətlər və politologiyaya "bölündü" və hər iki elm sahəsi müstəqil inkişaf etdi.

"Dünya siyasəti" termini çox əvvəllər istifadə edilməyə başlamışdır. 1940-cı illərdən başlayaraq ABŞ-da "Dünya siyasəti" adlı xüsusi jurnal buraxılmağa başlanmışdır. Bununla yanaşı, Kenned Uolts "beynəlxalq siyasət" terminini istifadə etmiş və sonralar bu termin neorealistlər arasında geniş yayılmışdır. Neorealistlərdən fərqli olaraq, neomarksistlər "dünya siyasəti" termininin onlar üçün xarakterik olmamasına baxmayaraq, onu "dünya sistemi" kimi təsvir edərək siyasi dünyanın qlobal səviyyədə bütövlüyünü bildirirdilər. Marksist və neomarksist

istiqamətlərdə aparılan tədqiqatlarda sonralar dünya siyasətində daha da inkişaf edən ideya daxili və xarici siyasətin vəhdəti ideyası əsasında izlənilir.

Beləliklə, beynəlxalq münasibətlərin hər üç klassik nəzəriyyəsi dünya siyasi sisteminin bütövlüyündən çıxış edirdi. Lakin neorealistlərə görə siyasi sistem – dövlətlərarası münasibətlər, neoliberallara görə – dövlətlərarası münasibətlər və digər transmilli aktorların münasibətləri, neomarksistlərə görə – sinfi münasibətlər və dünya ölkələrinin siyasi-iqtisadi inkişaf səviyyəsinə görə əsas, periferiya və yarımperiferiyaya bölünməsidir. Dünya siyasi sisteminin struktur vahidlərinin anlaşılmasındakı belə fərqlərlə vahid intizamm yaradılması çox çətindir.

Dünya siyasətinin elmi fənn olması bir çox hallarda 1940-cı illərin sonunda meydana gələn "Beynəlxalq təşkilat" jurnalı ilə bağlıdır. O, transmilli korporasiyaların fəaliyyəti, maliyyə və dünya ticarəti kimi kifayət qədər ənənəvi məsələlərlə məşğul olan müəllifləri öz ətrafında topladı. Bu tədqiqatların inkişafı beynəlxalq sistemin iqtisadi və siyasi proseslərinin qarşılıqlı əlaqələrini, daxili siyasətin və beynəlxalq iqtisadi mühitin tam olaraq öyrənilməsinin zəruriliyinə gətirib çıxardı.

Bütün bu tədqiqatlar beynəlxalq münasibətlər sahəsində mütəxəssislərin əksəriyyətinin iqtisadi proseslərin ideya-siyasi aspektlərinin öyrənilməsinə az diqqət ayırdığı "soyuq müharibə" illərində aparılırdı. Onlar əsas təhlükəni kommunizmdə görərək öz fikirlərini təhlükəsizliyin təmin edilməsinə və ya yüksək səviyyəli siyasət adlandırılan məsələlərin tədqiqinə yönəltdilər. O dövrdə iqtisadiyyat problemləri aşağı səviyyəli siyasət adı alaraq ikinci dərəcəli plana keçirdi.

Eyni zamanda, iqtisadi faktor daha da əhəmiyyətli olurdu. İkinci Dünya müharibəsi zamanı dağılmış bir sıra Avropa ölkələrinin, həmçinin, Yaponiyanın iqtisadiyyatı yüksəlməyə başladı. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında artan iqtisadi uçurum məsələsi daha da kəskinləşdi. 1973-1974-cü illərdəki enerji böhranı və daha sonra, 2008-2009-cu illərdə baş

vermiş maliyyə böhram dünya dövlətlərinin iqtisadi vəziyyətinin gərginliyini daha çox hiss etdirən əlamətlərindən biri oldu. Hər iki halda, neft ixrac edən ölkələr təşkilatı neft hasilatını məhdudlaşdırmışdı. Bu vəziyyətdə ABŞ-ın böyük hərbi-siyasi potensialınm nə isə etməyə gücü yetmədi. Qarşılıqlı güzəştlər yolu ilə problemi nizama salmaq üçün OPEK ölkələri ilə danışıqların aparılmasına ehtiyac yarandı.

Eyni zamanda, 1970-ci illərdə beynəlxalq münasibətlərin öyrənilməsi ilə məşğul olan bir sıra tədqiqatçılar dünyada iqtisadi faktorun rolunun artmasına diqqət yetirdilər. Növbəti illərdə bu sahədə tədqiqatlar aparılır və "Beynəlxalq Siyasi İqtisadiyyat" (BSİ) adı alan elm sahəsi inkişaf edirdi. Bütün bu hadisələrin təhlili "Beynəlxalq Siyasi İqtisadiyyat" adlanan elm sahəsinin formalaşmasma təkan verdi.

Müxtəlif ölkələrin daxili siyasəti və beynəlxalq siyasi iqtisadiyyat arasında qarşılıqlı əlaqələrin üzə çıxarılması üçün politoloqlar tərəfindən aparılan tədqiqatlar digər mühüm istiqamət oldu. Öyrənilən məsələlər, dövlətlərin xarici iqtisadi siyasətinin və müxtəlif korporasiyaların strategiyalarınm determinantlığmın müəyyənləşdirilməsinə istiqamətlənmişdi. Əsərlərin əksəriyyəti empirik xarakterli idi. Onlarda Latın Amerikasında və digər regionlarda baş vermiş konkret hadisələr təhlil olunurdu. Verilən tədqiqatlar göstərdi ki, dövlətin daxili siyasi təşkilatlanması iqtisadi vəziyyətə həm milli, həm də millətüstü səviyyədə əhəmiyyətli təsir göstərir. Xarici və daxili faktorlar arasındakı qarşılıqlı əlaqələrin öyrənilməsi dünya siyasətinin elmi fənn kimi formalaşmasında mühüm rol oynamışdır.

Xarici və daxili siyasət arasındakı sərhədlər daha da şəffaflaşdığına görə, demokratikləşdirmə, münaqişələr və s. bu kimi problemlərin öyrənilməsi ilə beynəlxalq münasibətlər və politologiyanm, xüsusilə, müqayisəli politologiyanm yaxınlaşması prosesi başlandı. Ola bilsin ki, gələcəkdə inkişafın ümumdünya tendensiyalarının nəzərə almması ilə, politoloqlar bir növ "post-Vestfal müqayisəli politologiyası"nı yaradaraq öz diqqətlərini

təkcə müxtəlif ölkələrin siyasi sistemlərinin təhlilinə deyil, eyni zamanda, regionların, şəhərlərin, beynəlxalq təşkilatların və s. müqayisəli öyrənilməsinə yönəldəcəklər.

Politologiya çərçivəsində bir sıra digər qanunauyğunluqlar da aşkar olundu. Məsələn, ictimai siyasət müxtəlif maraqlara sahib olan qrupların toqquşmasınm nəticəsi kimi nəzərdən keçirilməyə başlanır və onları reallaşdırmaq üçün qruplar koalisiyalar yaradırlar. Bununla belə, onlar daimi deyil və konkret şəraitdən asılı olaraq dəyişirdi.

Amerikan alimləri Qrehem Allison və Robert Patnem xarici və daxili siyasət faktorlarmm qarşılıqlı əlaqələrinin izahına əhəmiyyətli töhfələr vermişlər.

Dünya siyasətinin elmi istiqamət kimi formalaşmasına böyük təsir göstərmiş tədqiqatların istiqamətlərindən biri də beynəlxalq institutların öyrənilməsi olmuşdur. İkinci Dünya müharibəsinin başa çatmasından sonra politoloqlarm, iqtisadçıların, beynəlxalq münasibətlər sahəsindəki mütəxəssislərin təhlil obyektinə çevrilən beynəlxalq təşkilatların kəskin şəkildə artması müşahidə olunurdu.

1960-cı illərdə Avropa inteqrasiyası ilə bağlı əsərlər meydana çıxdı. O əsərlərdə təkcə beynəlxalq təşkilatların fəaliyyətinin təsvir edilməsinə deyil, həmçinin, onların müqayisəli təhlillərinin aparılmasına cəhd edilirdi. Əsas diqqət BMT və onun sülhməramlı əməliyyatlarına ayrılırdı. BMT-nin fəaliyyətinin "soyuq müharibə"nin reallıqlarına və fövqəldövlətlərin rəqabətinə adaptasiyası məsələsi müzakirə olunurdu. XX əsrin sonu – XXI əsrin əvvəllərində dünyada 5000-dən çox müxtəlif beynəlxalq təşkilat mövcud olmuşdur.

Transmilli münasibətlərin aşkarlanması, öz roluna görə bir sıra səbəblərə görə dövlətin rolu ilə müqayisə edilə bilən aktorlarm çoxluğu faktının təsdiq edilməsi, qarşılıqlı asılılıq fenomeninin təhlili, beynəlxalq rejimlərin tədqiqi ilə bağlı olan nəzəri tədqiqatlar dünya siyasətinin formalaşmasına əhəmiyyətli töhfə bəxş etmişdir.

Beləliklə, dünya siyasəti aşağıdakı proseslərin birləşməsi nəticəsində yaranmışdır:

- TMA-nın (transmilli aktorlar) fəaliyyəti ilə bağlı olan və beynəlxalq münasibətlər sahəsində dünya siyasi sisteminin bütövlüyünü mühakimə üçün əsas götürən nəzəri tədqiqatlar;
- Xarici və daxili siyasətin qarşılıqlı asılılığı haqqmda təsəvvürlər;
- Beynəlxalq siyasi iqtisadiyyat;
- Beynəlxalq təşkilatlarm təhlil;
- Müqayisəli politologiya üzrə tədqiqatların xüsusilə mühüm olduğu politologiya.

Belə güman edilir ki, yeni qayda asanlıqla təşəkkül tapacaq. Lakin bir sıra çətinliklər meydana çıxdı. İlk növbədə, onlar beynəlxalq tədqiqatlarda müxtəlif nəzəri istiqamətlərin nümayəndələrinin fikir ayrılığı ilə bağlı idi. Müasir dünyanın siyasi sistemində nəyin xüsusilə mühüm olması dövlətlərarası törəmələrin strukturu, qeyri-dövlət aktorlarının aktivliyi və onların dövlətlərlə qarşılıqlı əlaqələri və ya gəlirlərin fərqinin müəyyən edilməsilə dünyanm sinfi prinsiplə bölünməsi ətrafında mübahisələr davam edir. Nəticədə, beynəlxalq tədqiqatlarda nəzəri yanaşmaların cəmi kifayət qədər mozaik şəklində özünü göstərir.

Realist ənənə ilə və onun müxtəlif modifikasiyası ilə razılaşsaq dünyanm siyasi sistemi tədricən təkamül edir, lakin bununla yanaşı, mühüm dəyişikliklərə məruz qalır, dövlət isə çox sadə səbəbə görə olduğu kimi, dünya siyasi sisteminin həqiqətən yeganə mühüm elementi olaraq qalır. Çünki digər aktorlar onunla bərabər çıxış edə bilmirlər və bu halda XX yüzillik ərzində formalaşmış dövlətlərarası qarşılıqlı əlaqələri və s. öyrənmək iqtidarında olan "Beynəlxalq münasibətlər" fənnini əvəz etməyə ehtiyac yoxdur. Yalnız bəzi düzəlişləri daxil etmək və lazım olduğu halda digər transmilli aktorların təsirini nəzərə almaq kifayətdir. Bu ikinci dərəcəli modifikasiyaların sırasına, həmçinin, Vestfal siyasi sisteminin regional səviyyədən dünya

səviyyəsinə qalxmasına baxmayaraq, mahiyyət etibarilə heç bir şeyin dəyişmədiyini aid etmək lazımdır. Müvafiq olaraq, bu halda "Dünya siyasəti" daha çox adət edilmiş "Beynəlxalq münasibətlər" elmi fənninin sinonimi kimi çıxış edir. Doğrudur, o zaman yeni, "Dünya siyasəti" termininin tətbiq edilməsinə gözlənilməz zərurət yaranır.

Neomarksistlərin yanaşma tərzini nəzərdən keçirilməsi zamanı da fikirlərin belə məntiqini qurmaq olar: kapitalist dünya sistemi mövcudluğunu davam etdirirsə, onu öyrənən elmi fənlərin adlarının dəyişdirilməsinə ehtiyac yoxdur. Amma qeyd edildiyi kimi, neomarksistlər dünya siyasəti fənni haqqında danışmırlar.

Neoliberallar tərəfindən qeyd edildiyi kimi, müasir dünya siyasi dəyişikliklərinin ilk növbədə, transmilli aktorların fəaliyyəti ilə əlaqədar olan prinsipial xarakterini qəbul etsək, o zaman iki variant yaranır. Birincisi, "Dünya siyasəti" anlayışı altında müasir beynəlxalq münasibətlərin başa düşülməsindən ibarətdir. Hər iki anlayış, yəni "Dünya siyasəti" və "Beynəlxalq münasibətlər" yenə də, sinonim kimi görünür, ancaq ənənəvi "Beynəlxalq münasibətlər" terminінə adətən, hazırda onların xüsusi xarakterinə işarə edən "müasir" sözü əlavə olunur. Məsələn, amerikan müəllifi Cozef Leonard Qoldşteyn, fransız tədqiqatçısı Mari-Klod Smuts və bir sıra müəlliflər bu cür təsəvvürlərin tərəfdarlarıdır. Fənnin köhnə adının saxlanması məntiqi bu halda qismən aydındır: elmi ənənələri davam etdirmək, elmin inkişafının tarixi köklərini göstərmək lazımdır. Eyni zamanda, belə mövqe qeyri-müəyyənlik, bəzən isə tədqiqatlarda dolaşıqlıq yaradır.

İkinci istiqamət güman edir ki, beynəlxalq münasibətlərin arxasında müasir dünya siyasi sisteminin açar hissəsini təşkil edən dövlətlərarası münasibətlərlə bağlı olan tədqiqatlarm ənənəvi sahəsi saxlanılır. Dünya siyasəti elmi fənn kimi dünyanın siyasi sistemini (makro-siyasi səviyyəni) öyrənir və həm klassik münasibətləri (məs., dövlətlərarası), həm də digər transmilli aktorların fəaliyyətini özündə ehtiva edir.

Bu nöqteyi-nəzər beynəlxalq münasibətlər üzrə Amerika lüğətində öz əksini tapır. Lüğətin müəllifləri olan Qaret Evans və Con Nyunhem qeyd edirlər ki, "beynəlxalq münasibətlərdən və beynəlxalq siyasətdən fərqli olaraq, bu termin, dünya siyasəti kimi nəzərdə tutulur, təkcə dövlətlərarası münasibətlərə aid deyil". Ceyms Rozenau, Kenned Tompson və Gevin Boyd tərəfindən 1976-cı ildə buraxılmış "Dünya siyasəti" dərsliyi müəyyən yeniliyi ilə seçilir. Dərslik dörd hissədən ibarətdir. İlk üç hissəsi dövlətlərin xarici siyasətinin təhlilinə və bir hissəsi dövlətlərarası qarşılıqlı fəaliyyətə həsr edilmişdir. Ümumilikdə, Qərb tədqiqatçıları dünya siyasətində baş verən proseslərin mahiyyətinə daha çox diqqət yetirməyə başlamışlar.

Beləliklə, müasir dünya siyasətinin mühüm transformasiyası haqqında tezisin qəbul edilməsi iki müxtəlif elmi fənnin ayrılmasını zəruri edir: bu gün də əsas rolunu saxlamaqda olan dövlətlərarası münasibətlərin öyrənilməsi ilə məşğul olan beynəlxalq münasibətlər və dünya siyasəti. Sonuncu, beynəlxalq münasibətləri, eləcə də, müxtəlif transmilli aktorların fəaliyyətlərinin nəticəsi olan digər transmilli münasibətlərin təhlilini əhatə edir. Başqa sözlə, dünya siyasətinin beynəlxalq münasibətlərdən daha geniş olduğu məlum olur.

Beynəlxalq münasibətlərlə dünya siyasəti arasında daha bir fərqləndirici kriteriya tədqiqat fokusundan ibarətdir. "Dünya siyasəti" adının özü, ilk növbədə, siyasi aspektlərin fokusda olduğunu nəzərdə tutur. Qalan bütün məsələlər (mədəni, iqtisadi, hüquqi və s.) siyasətin başa düşülməsi üçün lazım olan qədər təhlil edilir. Doğrudur, eyni zamanda, dünya siyasətinin bir tərəfdən politologiya ilə, digər tərəfdən isə beynəlxalq münasibətlərlə əlaqəliliyi problemi meydana gəlir.

Beynəlxalq münasibətlər əvvəllər, əsasən dünya siyasətinin inkişaf etdiyi çərçivədə, hüquq, tarix və iqtisadiyyat kimi fənlərin məlumatlarından və yanaşmalarından istifadə etmişdir. Konkret, eyni zamanda, milli şərtlərdən asılı olaraq, fənlərdən biri xüsusi olaraq nəzərə çarpırdı. Sonralar, elmin

inkişaf etməsi zəminində, beynəlxalq münasibətlərin tarixi, iqtisadi, hüquqi bilikləri özündə əks etdirən fənlərarası xarakteri qeyd edilməyə başlandı. İkinci Dünya müharibəsindən sonra fənlərin əhatə dairəsi əhəmiyyətli dərəcədə genişləndi. Bu fənlərin erkən elmi nəticələri beynəlxalq münasibətlərdə qismən də olsa istifadə edilməsinə baxmayaraq, adları çəkilən elm sahələrinə politologiya, psixologiya, sosiologiya, demoqrafiya, ekologiya və digərləri əlavə edildi.

Fənlərarası prinsip xüsusilə, praktiki işlə məşğul olanlar üçün beynəlxalq sahəyə müxtəlif faktorların təsirini nəzərə almağa imkan verməklə, şübhəsiz ki, müsbət rol oynadı. Kadrların hazırlanması zamanı da bu prinsipə əməl olunması çox vacibdir və buna görə də beynəlxalq münasibətlərin tədris olunduğu universitetlər fənlərarası prinsiplərə istiqamətlənmişdir. Lakin burada siyasi tərkibin digər aspektlərdə "ərimısi" təhlükəsi mövcuddur.

Eyni zamanda, dünya siyasətinin politologiya ilə sıx yaxmlaşması xarici və daxili siyasətin və onları öyrənən elmlərin bölünməsinin tarixən formalaşmış ənənələrinə əsaslanır. Ona görə də, vahid anlayış aparatının, yeni nəzəri işləmələrin yaradılması, eləcə də, əmələ gələn bütün təşkilati çətinliklərlə birlikdə elmin institusional əsaslarının dəyişilməsi (yeni professional assosiasiyaların yaradılması, yeni jurnalların hazırlanması və s.) problemi meydana çıxır.

Nəzərə alınmalı olan milli ənənələr də mövcuddur. Dünya siyasəti ABŞ-da, Avropada inkişaf edərək, "Beynəlxalq münasibətlərin sosiologiyası" formalaşmışdır. Bu terminin özü dünya siyasi sisteminin struktur xarakteristikasını yaxşı əks etdirir və bu zaman siyasi tərkib itsə də bu çox mühümdür.

Digər hallarda terminlərin istifadə edilməsinin qanunauyğunluqlarını müəyyən etmək çətindir. Con Rurke, Robert Cervis və Kenned Uolts kimi bir sıra müəlliflər beynəlxalq siyasət haqqında yazırlar. Digər müəlliflər müasir dünyanın qlobal problemlərinin təhlili zamanı istifadə edilən "qlobal siya-

sət" terminine üstünlük verirlər. Bundan başqa, lokal proseslər dünya proseslərinin bir hissəsini (məsələn, dünya siyasi sisteminin bir hissəsi olmağı) təşkil edə bilər, lakin bu zaman o, qlobal xarakter daşımır.

Elmi ədəbiyyatda, məhz tədqiqatlar haqqında danışanda tez-tez neytral anlayışdan – beynəlxalq tədqiqatdan istifadə edirlər.

Ümumiyyətlə, bu gün həm elmi, həm də praktiki sahələrdə terminoloji bolluq müşahidə olunur. Ona görə də bu və ya digər anlayışın verildiyi kontekst, eləcə də, müəllifin əsaslandığı metodoloji əsaslar çox mühümdür.

XX əsrin sonuncu onilliyində – XXI əsrin əvvəlində baş verən hadisələr humanitar sahələrə, o cümlədən, dünya siyasətinə də çox böyük təsir göstərdi. Bu, həm İkinci Dünya müharibəsindən sonra nisbətən sakit olan Avropanı bürüyən, tez-tez çox ağır münaqişələrdən və böhranlardan keçən, bəzən isə sakit keçən (belə desək, Çexoslovakiyada "məxməri ayrılıq") həm demokratikləşdirmənin, dezinteqrasiyanın yeni dalğası, həm də keçmiş Litva, Latviya və Estoniyanın SSRİ-dən qan tökülmədən ayrılması ilə ilk növbədə, NATO və Aİ-nin öz miqyasına görə çox böyük genişlənmələrinin baş verdiyi Avropada inteqrasiya proseslərinin gələcək inkişafının aydın müşahidə edilməsidir. Bir qism beynəlxalq təşkilatların aktivliyi (xüsusilə, keçmiş Yuqoslaviya və Əfqanıstan ərazisində NATO-nun iştirakı) digərlərinin, ilk növbədə BMT-nin bu problemlərin həlli zamanı zəif təsiri ilə müşahidə edilirdi.

Eyni zamanda, dünya anti-qlobalistlərinin çıxışları, Avropa şəhərlərinin daha çox Asiya və Afrikadan olan immiqrantların üstünlük təşkil etdiyi daha yoxsul məhəllələrində nizamsızlıqla, transmilli terrorizmin təkcə konkret dövlətlərə və ya dövlətə deyil, ümumilikdə bütün dünya siyasi sisteminə qarşı çağırışları ilə qarşılaşdı.

1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində dünyanın siyasi reallıqlarının dərk edilməsi proseslərin inkişafına çata bil-

mirdi. Bir çox müəlliflər bu fakta diqqət yetirmişlər. Amerikan tədqiqatçıları İel Ferqyuson və Robert Mansbeh qeyd edirdilər ki, müxtəlif nəzəri yanaşmalar bir-birinə həddindən artıq ziddir və az əməkdaşlıq edirlər. Nəticədə, elm paradiqmal mübahisə yaşayır və heç kim dünyada baş verənlərə kifayət qədər adekvat izahat təklif edə bilmir.

Amerikan tarixçisi Con Luis Geddis 1992-ci ildə "İnternational Security" jurnalında çap olunmuş "Beynəlxalq münasibətlər tarixi və soyuq müharibənin sonu" adlı aydın və mübahisəli məqaləsində daha kəskin çıxış etmişdir. O, beynəlxalq münasibətlər üzrə tədqiqatçıları, eləcə də politoloqları SSRİ-nin və bipolyar strukturun dağılmasını öncədən söyləyə bilməməkdə təqsirləndirirdi. O qeyd edirdi ki, "təəccüb heç vaxt bizi tərk etmir və "Soyuq müharibənin" qəflətən başa çatması, Fars körfəzində gözlənilməz müharibə, Sovet İttifaqının gözlənilməz süqutu demək olar hamını – hökumət dairələrini, elmi cəmiyyəti, kütləvi informasiya vasitələrini, siyasi analitikləri heyrətləndirdi. Buna baxmayaraq, bütün bu hadisələrdə xüsusi qeyri-adi bir şey yox idi: "Soyuq müharibə" bir vaxt başa çatmalı idi. Yaxın Şərqdə həmişə silahlı toqquşmalar olmuşdur və beləliklə kommunizmin gələcək məğlubiyyəti artıq bir neçə il qabaq aydın idi. Buna baxmayaraq, bu qədər gözlənilməz hadisələrin baş verməsi faktının özü müasir siyasətçilərin və onlardan öncəkilərin dünya siyasətinin gələcəyini müəyyənləşdirən vasitələrin adekvat olmadığını göstərir".

Lakin Con Geddisin fikirləri tam ədalətli deyildi. Robert O. Kohenin qeyd etdiyi kimi, iş təkcə onda deyil ki, bir tərəfdən dünya siyasəti, beynəlxalq münasibətlər və digər tərəfdən onların inkişaf proqnozu oxşar deyil, həm də ondadır ki, əslində XX-XXI əsrlərin qovuşuğunda dünyanın kritik nöqtədə, "sınma" nöqtəsində olduğu bir vaxtda olması, gələcək inkişafın istiqaməti qeyri-müəyyəndir: bu prosesə bir çox faktorlar təsir edir və bu səbəbdən o, tamamilə əks istiqamətdə gedə bilər. Buna görə də keçid dövründə siyasi proqnozlar da xüsusilə çətinləşir.

Daha bir məqamı da nəzərə almaq lazımdır. Açıq-aydın təəccüb və çaşqınlıq ilk növbədə, beynəlxalq münasibətlər sahəsində inkişafın dövlət-mərkəzçi modelinə istiqamətlənınış və dövlətlərin qarşılıqlı əlaqələrində gücə üstünlük verməyə meyilli politoloq və tədqiqatçılarda müşahidə edilirdi.

1990-cı illərdə baş verən dünyanın siyasi inkişafının nəzəri dərk edilməsinə dair qızğın debatlar oldu. Əsas mübarizə dünyanın dövlət-mərkəzçi sisteminin dəyişilməsi haqqında təsəvvürlərə əsaslananlar və bu cür dəyişikliklərin əhəmiyyətsiz, qeyri-prinsipial xarakterindən çıxış edənlər arasında gedirdi. Bu, beynəlxalq tədqiqatlar nəzəriyyəsində, belə desək, "üç böyük debat" və ya mübahisə kimi yer tutmuşdur.

Bu debatlar Birinci Dünya müharibəsinin başa çatmasından sonra idealistlər və realistlər arasında başlamışdır. Növbəti böyük debatlar beynəlxalq münasibətlərin təhlilinin ənənəvi metodlarından istifadə edənlərlə (ənənəçilər) və hadisələrə dəqiq qiymət verməyi bacaran metodların üstünlük təşkil ediyi bir vaxtda onların tədqiqatlarının təbiət elmləri prinsipi üzrə (beynəlxalq münasibətlərdə sayentizm, yəni elmi istiqamət) qurulmalı olduğunu ehtimal edənlər arasında olmuşdur.

Ümumi nəticədə nəzəri yanaşmaların çıxış etdiyi əsas parametrlər prinsip etibarilə, saxlanmışdır. Eyni zamanda müxtəlif məktəb və istiqamətlərin yaxınlaşması baş verdi. Robert O.Kohen və Con Nay "Hakimiyyət və qarşılıqlı asılılıq" adlı kitabm üçüncü nəşrində realizm və liberalizm tərəfdarlarının səylərinin birləşdirilməsinin vacibliyini xüsusi qeyd edirlər.

Həmçinin, dövlətlərin dünya arenasında əsas aktor olaraq qalmasınm etiraf edilməsi əksər tədqiqatçıların yanaşmalarının üst-üstə düşdüyü əsas məqam oldu. Bundan başqa, bu gün çox az adam həm dövlətlərin, həm də beynəlxalq münasibətlər sisteminin 350 ildən çox müddətdə dəyişikliklərə məruz qalmadığını təkid edir.

XX əsrin sonu – XXI əsrin əvvəllərində baş verən hadisələr, eləcə də 1990-cı illərin nəzəri diskussiyaları dünya siyasəti

üçün böyük əhəmiyyət daşıyırdı. Bir tərəfdən, dünyanın müasir siyasi sisteminin mürəkkəbliyi, onun dövlətlərarası münasibətlərə çevrilə bilməməsi aydın oldu. Bu, dünya siyasəti çərçivəsində çoxdan çalışan müəlliflərin əsas çıxış vəziyyətlərini təsdiq etdi, lakin bəzi məsələlərin açıqlanmasına ehtiyac var idi: məsələn, böyük dövlətin xarici siyasəti beynəlxalq münasibətlər sistemini müəyyən etməklə bərabər, hansısa mərhələdə dünya siyasəti sisteminin bir çox parametrlərini irəli sürə bilər. Digər tərəfdən, aşkar olundu ki, dünya siyasəti bütün qarşılıqlı asılılığı və bütövlüyü ilə bərabər, o, son dərəcə müxtəlif materiallardan ibarətdir.

Buradan bir çox çətinliklər və hətta siyasi təcrübənin müvəffəqiyyətsizliyi meydana gəlir. Belə ki, həyat qabiliyyətli dövlət yaratmaq üçün diktatoru devirmək və ümumi seçkilər keçirmək kifayət etmir, dövlətin tarixi təcrübəsini, mədəni ənənələrini və ya ənənələrə hörməti nəzərə almaq lazımdır. Din iqtisadi rifahdan nəinki az, hətta çox əhəmiyyətli ola bilər. Nəticədə, əvvəllər əhəmiyyətli dərəcədə beynəlxalq tədqiqatların periferiyasında olan məsələlər (realizm, liberalizm, marksizm kimi klassik nəzəriyyələr onlarla məşğul olmurdular) – postmodernistlərin tez-tez söylədikləri kimi, müxtəlif mədəniyyətlərin xüsusiyyətləri, müxtəlif aktorlar tərəfindən sülhün qəbulu və s. dünya siyasəti ilə məşğul olan siyasətçilərin diqqətini cəlb etməyə başladı. Beləliklə, dünya siyasəti üçün 1990-cı illərin ən mühüm dərslərindən biri lokal və qlobal, ümumi və xüsusinin qarşılıqlı əlaqəsinin öyrənilməsidir.

Daha çox bilinən yanaşmalardan biri olan konstruktivizm geniş yayılmışdır. Onun gücü yaradıcı mənbədən ibarətdir. Konstruktivizm ideyalarından istifadə etməklə demək olar ki, dünyanın siyasi sistemi öz-özünə qurulmur və bu sistem onu dəyişməklə (bilərəkdən və ya əksinə olması vacib deyil) özləri də dəyişən bütün aktorların səyi nəticəsində yaranır. Burada yaradıcı rolunda olanların məsuliyyəti məsələsi meydana gəlir. Bütün bunlar dünya siyasətinin tədqiqatlarında bir sıra yeni

süjetlər yaratdı. Bundan başqa, müasir dünyanın mürəkkəbliyi, müxtəlif sahələrdə siyasi faktorun güclənməsi öz predmet sahəsinə görə onu öyrənən fənnin bu və ya digər şəkildə siyasətlə bağlı olan fənlərlə daha sıx qarşılıqlı əlaqələrini yaratdı.

Ən yaxşı maraqlı nəticələri daha çox müxtəlif elmlərin qovuşuğunda gözləmək lazımdır. Əgər dövlət aktorlarının diqqət mərkəzində olduğu beynəlxalq münasibətlərdən və o cümlədən, qeyri-dövlət iştirakçılarım da öyrənən dünya siyasətindən danışsaq, əməkdaşlıq çərçivəsində qarşılıqlı əlaqə, dövlət və qeyri-dövlət aktorlarmm qarşıdurması problemi belə bir predmet sahələrinin "qovuşuğudur". Məsələn, münaqişələrin nizama salınması, terror təşkilatlarının və dövlət strukturlarının qarşıdurması zamanı onların əməkdaşlığı və s.

Nəhayət, ayrı-ayrılıqda nə politoloqların, nə də beynəlxalq münasibətlər sahəsindəki mütəxəssislərin baş verənləri adekvat təhlil edə və başa düşə bilməyəcəkləri, xüsusilə də, gələcəkdə baş verəcək ciddi siyasi dəyişiklikləri proqnozlaşdıra bilməyəcəklərinin tədricən dərk edilməsi ötən əsrin sonunun mühüm nəticələrindən biri oldu. Ən yaxşı halda, bu, 1990-cı illərin əvvəllərində Con Geddisin səsləndirdiyi məzəmmətlərə oxşayan növbəti təqsirləndirmələrə qulaq asmaq, pis halda isə qeyri-professionallığm çox baha başa gələcəyi deməkdir.

Bunun başa düşülməsi tədqiqatçıları vahid siyasi elmin yaradılmasınm vacib olduğunu söyləməyə vadar edir. Qeyd etmək lazımdır ki, daxili və xarici siyasət problematikasının, o cümlədən, politologiya və beynəlxalq münasibətlərin (dünya siyasətinin) kəsişməsində yerinə yetirilmiş konkret əsərlər çoxdur. İndiki halda söhbət predmet sahəsi siyasət olan, elmi aparatı olan vahid elmi fənnin yaradılmasından gedir. Xüsusilə, 2000-ci ildə Beynəlxalq Tədqiqatlar Assosiasiyasının prezidenti olduqdan sonra Bryus Bueno de Meskita daha intensiv şəkildə çıxışlar edirdi.

Dünya siyasəti – siyasi fəaliyyətin məcmusunu, müxtəlif transmilli aktorların siyasi münasibətlərini, onlar tərəfindən

formalaşdırılan siyasi institutları və prosesləri öyrənən, intensiv inkişaf edən bir elmi fənndir. O, dünya siyasəti problematikasının bütün spektrlərini əhatə edir.

Dünya siyasəti elmi fənn kimi dünyanın siyasi sistemini, onun aktorlarının təhlilini, bu aktorların fəaliyyəti və qarşılıqlı əlaqələrini, dünyanın müasir siyasi inkişafının əsas tendensiyalarının (qloballaşma, regionlaşdırma, lokallaşdırma, demokratikləşdirmə, bu və ya digər avtoritar dövlətlərin inkişafı, inteqrasiya, dezinteqrasiya) aşkarlanmasını, dünya siyasi sisteminə təsir imkanlarını həmçinin bu təsirlərin məhdudiyyətlərinin, onun inkişaf istiqamətlərinin öyrənilməsini, bütün bu məsələlərin nəzəri şəkildə dərk edilməsini və s. nəzərdə tutur.

Ayrı-ayrı problemlər dünya siyasəti tərəfindən ümumiyyətlə, siyasi sistem səviyyəsində baş verən dəyişikliklərin və dünyanın siyasi inkişafının ümumi kontekstinin nəzərə alınması ilə öyrənilir. Bununla əlaqədar olaraq, təkcə problemin özü (məsələn, təhlükəsizlik) deyil, həm də onun digər məsələlərlə (o cümlədən, beynəlxalq siyasi iqtisadiyyatla, miqrasiya ilə, ekologiya ilə və s.) nə dərəcədə bağlı olması, bu problemlərin hamısının bir-birilərinə və ümumdünya siyasi inkişaf prosesinə, öz növbəsində, bu ümumdünya inkişafının konkret məsələlərə necə təsir etməsi, müxtəlif transmilli aktorların bu məsələlərə münasibətdə öz maraqlarının necə olması, öz maraqlarının reallaşdırılması üçün onların hansı addımlar atması məsələləri vacibdir.

Dünya siyasətində nəzəri yanaşınalar son dərəcə akademik iş sayılmır. Siyasi xadimlər həmişə nəzəri baxışlarla bağlı olan bəzi vəziyyətlərə əsaslanaraq çıxış etsələr, çətin ki, onların hər biri bu və ya digər nəzəri yanaşmaya tam şəkildə" əsaslanarlar. Adətən, təcrübədə müxtəlif nəzəriyyələr birləşdirilir. Belə ki, Cozef Qoldşteynə görə, ABŞ-ın daha mühafizəkar siyasi xadimləri liberal baxışlarını iqtisadi məsələlərə ayırırlar, ancaq bu zaman dövlətin hərbi gücünün möhkəmləndirilməsini mühüm milli maraq hesab edirlər.

Dünya siyasəti təbii ki, digər elm sahələri, eləcə də, mədəniyyətin inkişaf istiqamətləri, texniki innovasiyalar və s. kimi bəşəriyyətə məxsusdur. Bu mənada "xüsusi" Azərbaycan yolu ola bilməz və ayrıca "Azərbaycan dünya siyasəti" mövcud deyil. Digər məsələ – dünya siyasəti üzrə milli tədqiqatların inkişafının spesifikliyi məsələsi və onların ümumdünya siyasətinə olan töhfəsidir.

ABŞ və Şərqi Avropada, keçmiş SSRİ-də beynəlxalq münasibətlər üzrə tədqiqatlar XX əsrin birinci yarısında müstəqil elm sahəsinə çevrilsə də, ölkəmizdə beynəlxalq münasibətlər üzrə milli tədqiqatlar XX əsrin sonunda müstəqil respublikamızın yaranmasından sonra və xüsusilə, 2000-ci illərin əvvəlindən müstəqil elm sahəsinə çevrilmişdir.

Beynəlxalq münasibətlər bütün dövrlər ərzində fənlərarası deyil, daha çox çoxfənli sahə kimi və ya ilk növbədə dövlətlərarası münasibətlərin müxtəlif növlərinin "cəmi" kimi nəzərdən keçirilirdi. Bu, anlayışın özünün tərifində öz əksini tapmışdır. Belə ki, 1984-1986-cı illərdə keçmiş SSRİ-də işıq üzü görmüş üç cildli "Diplomatik lüğət"də beynəlxalq münasibətlər anlayışı "beynəlxalq arenada fəaliyyət göstərən dövlətlər və dövlət sistemləri arasında, əsas siniflər, iqtisadi, siyasi qüvvələr, təşkilatlar və hərəkatlar arasında iqtisadi, siyasi, ideoloji, hüquqi, diplomatik, hərbi və digər əlaqələrin və qarşılıqlı münasibətlərin" məcmusu şəklində verilmişdir.

Bütünlükdə, bir çox onilliklər ərzində rus müəlliflərinin beynəlxalq münasibətlər sahəsindəki əsərlərində ölkələrin və regionların tədqiqinə əsas yer verilməsinə baxmayaraq, bəzən ölkəşünaslıq problematikasından kənara çıxan tədqiqatlar meydana gəlirdi. Məsələn, inteqrasiya prosesləri, beynəlxalq danışıqlar, münaqişələr və digər məsələlər öyrənilirdi.

Təxminən 1960-cı illərin sonu – 1970-ci illərin əvvəllərindən başlayaraq, nəzəri tədqiqatlar maraq doğursa da, ümumi aparılan işlərin sayında onlar az əhəmiyyətli faizə malik idilər. Buna baxmayaraq, onların çərçivəsində beynəlxalq münasibət-

lərin müxtəlif dövlətlər tərəfindən həyata keçirilən siyasətlərin cəminə çevrilə bilməməsi haqqında təsəvvürlər inkişaf etdi.

Beynəlxalq münasibətlərə uyğun olaraq tədqiqat metodları sahəsində də iş aparılırdı. Xüsusilə, hələ 1970-ci illərdə beynəlxalq tədqiqatlarda danışıqların aparılması və münaqişələrin təhlilinin nümunəsində riyazi metodların, kompüter texnologiyalarının və digər innovasiyaların istifadə edilməsi ilə bağlı cəhdlər həyata keçirilirdi.

Dünya siyasəti problemlərin və beynəlxalq əlaqələrin iştirakçılarının həm də qarşılıqlı təsirinin çox geniş dairəsini əhatə edir. Tədqiqatçının qarşısında daim belə bir məsələ dayanır: bir sıra faktorlarla şərtləşən, həmçinin, bir çox aspektlərə malik olan bu və ya digər hadisəni necə izah etmək lazımdır? Belə ki, Barri Büzen yazır ki, "İkinci Dünya müharibəsinin başlanma səbəblərini həm Almaniyanın intiqama can atmasında, həm də Fransanın zəifliyində, eləcə də SSRİ-nin xarici siyasətindəki ziqzaqda və bütünlükdə, 1930-cu illərin sonunda beynəlxalq münasibətlərin qeyri-stabilliyində axtarmaq olar". Başqa sözlə, beynəlxalq həyatda istənilən hadisənin izahı həm ayrı-ayrı siyasi xadimlər, həm dövlətlər, həm də ümumi dünya sistemi səviyyəsində tapıla bilər. Bununla əlaqədar olaraq, səbəb-nəticə əlaqələrinin necə aşkarlanması ilə bağlı metodoloji məsələ meydana çıxır.

Təhlilin səviyyəsinin fərqləndirilməsi ideyasının özü 1950-ci illərin sonunda sayentizm və beynəlxalq tədqiqatların təsiri altında meydana gəlmişdir. Sayentist istiqaməti ayrı-ayrı elementlər və özlüyündə sistem arasında qarşılıqlı münasibətlərin tədqiqatçılar tərəfindən daha dəqiq dərk edilməsini tələb edirdi. Amerikan tədqiqatçısı Devid Sinqerin 1961-ci ildə çap olunmuş "Beynəlxalq münasibətlərdə təhlillərin səviyyəsi problemi" adlı məqaləsi sayəsində "səviyyələrin təhlili" termini geniş istifadə olunmağa başlanmışdır. O, iki səviyyəni ayırırdı: ümumilikdə beynəlxalq sistem və ayrıca dövlətin səviyyəsi. Lakin sistemin və onun ayrı-ayrı elementləri probleminin işlənməsinə əsas töh-

fəni daha əvvəl, 1954-cü ildə, Kenned Uolts "İnsan, dövlət və müharibə" əsəri ilə vermişdir. Doğrudur, o, təhlillərin səviyyəsi haqqında deyil, tədqiqatçının istifadə etdiyi obrazlar haqqında danışırdı.

Hal-hazırda dünya siyasətində bir qayda olaraq, onları 3 növə ayırırlar:

- fərdi səviyyə
- ayrı-ayrı dövlətlərin səviyyəsi
- qlobal səviyyə

Birinci, beynəlxalq arenada siyasi proseslərə cəlb edilmiş insanların fərdi (individual) xüsusiyyətlərinin təhlilini nəzərdə tutur. Bu sahədəki tədqiqatların əksəriyyəti siyasi psixologiya çərçivəsində aparılır. Burada tez-tez iki yarımsəviyyə fərqlənir: siyasi elita və çoxluq.

Siyasi elita yarımsəviyyəsinin öyrənilməsi zamanı siyasi xadimlərin şəxsiyyətlərinə böyük diqqət ayrılır. Bunun üçün psixoloji portretlərin təsiri zamanı tarixi, psixoanalitik və digər metodlar istifadə edilir. Siyasi elitanın tədqiqinin digər istiqaməti qərarın qəbul edilməsi prosesinin təhlilindən ibarətdir.

Bu istiqamət çərçivəsində həmçinin, qavramanm adekvatlılığı R.Cervis və R.Smoukun əsərlərində qərar qəbul edən şəxslərin şəxsi xüsusiyyətləri ilə bağlı problemlər də öyrənilir. Məsələn, Mixail Germanın tədqiqatında Birinci Dünya müharibəsi ərəfəsində siyasi xadimlər tərəfindən qərarların qəbul edilməsində onların şəxsi keyfiyyətlərinin nə qədər əhəmiyyətli olduğu təhlil edilirdi. Psixoloji testlər əsasında o dövrün real siyasi xadimlərinə yaxın olan iştirakçıların seçilməsi ilə oyun təcrübələri aparılması göstərdi ki, real tarixi prosesdə şəxsiyyət faktoru başlıca olmasa da, əhəmiyyətli rol oynamışdır.

Siyasi çoxluqlar səviyyəsində digər xalqların, quruluşların, dəyərlərin, cəmiyyətdə mövcud olan və beynəlxalq sahəyə aid olan təsəvvürlərin qəbul edilməsi kimi məsələlər tədqiq olunur. Bu əsərlərdə münaqişə şəraitində qavramanın formalaşmasına, o cümlədən, informasiyanın sadələşdirilməsi istiqamətində səy-

lərə böyük diqqət yetirilir və gerçəkliyin bütün müxtəliflikləri əks anlayışlar tipi çərçivəsində yerləşdirilir: "qələbə və ölüm", "özünün - özgənin", "biz - onlar", "yaxşı - pis" və s. Bununla bərabər, insanlarda, belə desək, "güzgü kimi" obrazı formalaşır. Bunun mahiyyəti ondan ibarətdir ki, münaqişənin tərəfləri həmin eyni faktları o qədər müxtəlif cür qiymətləndirirlər ki, bu, bir-birinə tamamilə əks, qarşı tərəflərin aydın ifadə olunmuş kəskin mənfi emosional qiymətləri güzgü xarakteri alır. Qarşı tərəflərin istənilən hərəkətlərinin qəzəbli niyyəti kimi izah edilən, "əlavə təhrif" adını almış fenomen də meydana gəlir. Bu fenomen amerikan psixoloqu R.Uayt tərəfindən çox obrazlı şəkildə təsvir edilmiş və onu "düşmənin şeytan obrazı" adlandırmışdır. Ona uyğun olaraq, "şeytan" həmişə qarşı tərəfdə olur, özünün hərəkətləri isə son dərəcə ədalətli kimi qəbul edilir.

Ayrı-ayrı dövlətlərin təhlili səviyyəsində, məsələn, siyasi qərarların qəbul edilməsi prosesləri, artıq psixoloji xüsusiyyətlər nöqteyi-nəzərindən deyil, bu və ya digər ölkədə qərarların qəbul edilməsi mexanizminin necə olması baxımından tədqiq edilir. Tədqiqatlar göstərdi ki, həmçinin, hərbi və vətəndaş simalarının qərarlarm qəbulunda hansı rol oynaması, hökumət strukturunun necə olması və s. çox vacibdir. Bundan əlavə, təhlilin verilən səviyyəsi xarici siyasət kursunun formalaşmasını şərtləndirən və ümumdünya proseslərinə təsir edən iqtisadi, hərbi, daxili siyasət və digər məsələlərin nəzərdən keçirilməsini ehtimal edir. Ayrı-ayrı dövlətlərin səviyyəsinin tədqiqində müqayisəli-politoloji əsərlər böyük əhəmiyyət daşıyır.

Təhlilin qlobal səviyyəsi, bəlkə də daha mürəkkəbdir. O, dünya siyasi sisteminin həm dövlət, həm də qeyri-dövlət iştirakçılarının qarşılıqlı fəaliyyətinin öyrənilməsini nəzərdə tutur. Bu zaman sonuncusu, bir bütöv kimi nəzərdən keçirilir. Bu sistemin formalaşmasında və fəaliyyətində ayrı-ayrı struktur elementlərin rolu üzə çıxarılır, müxtəlif aktorların əməkdaşlığı və rəqabət məsələləri nəzərdən keçirilir, sistemin özünün inkişafının tendensiyaları müəyyənləşir.

Müasir dünya siyasətində təhlilin səviyyələrinin ayrılması kifayət qədər ənənəvidir. Bununla belə, o anlayışlar altında məhz nəyin nəzərdə tutulması ilə bağlı müzakirələr gedir. Bəzi müəlliflər o anlayışlar altında beynəlxalq münasibətləri quran elementləri başa düşürlər, eyni zamanda, digərləri təhlilin səviyyələrində izahat prinsiplərini görürlər. Barri Büzenin fikrinə görə, təhlilin səviyyələrinin müəyyənləşdirilməsinə olan hər iki yanaşma bir-birini istisna etmir, onların hər ikisi bir qəlib əmələ gətirir. Əsas etibarilə, B.Büzen düşünür ki, təhlilin səviyyələrinin ayrılmasınm özü məhsuldar olmuş və alimləri beynəlxalq tədqiqatlarda mövcud olan metodoloji probemlərə böyük diqqətlə yanaşmağa məcbur etmişdir. Lakin beynəlxalq münasibətlərin daha dəqiq başa düşülməsi və onlarm öyrənilməsinin metodoloji əsaslarının dərk edilməsi üçün gələcək tədqiqatlarm aparılması lazımdır.

Beynəlxalq tədqiqatlar üçün digər mühüm komponentlər verilənlərin və metodun seçilməsidir. Dünya siyasəti informasiyaların əldə edilməsinin hər cür əlamətlərindən və tədqiqatların ən geniş metodlar toplusundan istifadə edir.

Birinci və ikinci məlumatların fərqləndirilməsi qəbul edilmişdir. Birinci məlumatlara adətən siyasi xadimlərin bəyanat və çıxışları, rəsmi sənədləri həmçinin başqa informasiya mənbələri aid edilir: statistik məlumatlar, tarixi faktlar və b. İkincilərə isə birinci məlumatlara əsaslanan eyni zamanda elmi nəşrlərdə əks etdirilmiş materiallar aiddir.

Dünya siyasətində, eləcə də beynəlxalq münasibətlərdə tədqiqat metodlarını çox vaxt iki qrupa ayrılır: keyfiyyətli və kəmiyyətli. Birincilər bu və ya digər faktların, proseslərin və b. öyrənilməsi üçün analitik üsullardan istifadə edilməsini nəzərdə tutur. Bu zaman təhlilin keyfiyyətli metodlarından istifadə edən tədqiqatçılar (ənənəçilər) müxtəlif metodoloji və nəzəri yanaşmalara əsaslanırlar. Əvvəllər tarixi məlumatlara müraciəti nəzərdə tutan bu metodlar çox vaxt tarixi-təsviri, eləcə də esse şəklində elmi əsərlərə istiqamətlənmiş intuitiv-məntiqi me-

tod adlanırdı. Buna baxmayaraq, onlar bu gün də dünya siyasətində və beynəlxalq münasibətlərdə geniş istifadə olunur.

Beynəlxalq tədqiqatlarda kəmiyyət metodları keyfiyyət (bu səbəbdən də onlardan istifadə edən alimləri modernistlər adlandırırdılar) metodlarından sonra meydana çıxaraq bu və ya digər say parametrlərinin aşkar edilməsi üçün müəyyən edilirdi. Onların tətbiqi 1960-cı illərdə xüsusilə məşhur idi. O zaman ictimai elmlərin və beynəlxalq münasibətlərin tədqiqinə bir çox riyaziyyatçılar cəlb edilmişdi. O zaman elə düşünülürdü ki, bu cür yanaşma tədqiqatda subyektivizmdən qaçmağa imkan verəcək.

Kəmiyyət metodlarından istifadə edən tədqiqatçılar metodun həqiqətən də lazım olan informasiyanı əldə etməyə imkan verdiyini müəyyənləşdirmək üçün qanunilik, etibarlılıq və s. kimi meyarlara xüsusi diqqət yetirirlər. Metodun seçilməsi zamanı daha bir əhəmiyyətli parametr onun etibarlılığıdır. O, digər tədqiqatçının bu metoddan istifadə etməsi zamanı analoji nəticələr əldə olunacağını ehtimal edir.

Kəmiyyət metodları arasında kontent-analiz (məzmunun təhlili), eləcə də ivent-analiz (hadisələrin təhlili) daha çox yayılmışdır. Amerikan politoloqu Q.Lassuel tərəfindən irəli sürülmüş birinci metod mətnin, orada bu və ya digər açar sözlərin eləcə də söz birləşmələrinin meydana çıxmasının tezliyi nöqteyi-nəzərindən öyrənilməsini özündə əks etdirir. Beləliklə, Q.Lassuel qəzetlərdən birində çap olunmuş məqalələri təhlil edərək, onun faşizmə meyilliliyini göstərdi və bu, qəzetin bağlanması haqqında məsələnin məhkəmə təhqiqatına verilməsi üçün əsas səbəb oldu.

Kontent-analizdən istifadə zamanı açar sözlərin düzgün seçilməsi əhəmiyyətlidir. Kontent-analizdən istifadəyə qoyulan məhdudiyyət kontekst problemi ilə bağlıdır. Əgər məqalə, çıxış, sənəd və s. bu kimi sözün özündən daha çox, kontekstin əhəmiyyətli olduğu mətnlər müəmmalı yazılıbsa, o zaman onların kontent-analiz vasitəsilə tədqiqi çətinləşir.

İvent-analiz müəyyən hadisələrin meydana gəlmə tezliyinin aşkarlanmasına istiqamətlənib. Kontent-analizdə olduğu kimi, ilk növbədə hadisələrin hesaba alındığı və təsnifləşdirildiyi meyarları müəyyənləşdirilir. Başqa sözlə, hadisələrin tezliyini, *intensivliyini, müddətini xarakterizə edən "açar sözlərin"* analoqları aşkarlanır (məsələn, münaqişəli münasibətlərin). Daha sonra, prosesin inkişaf dinamikasını müəyyən edirlər. İvent-analizdən istifadə edərək, eyni zamanda, danışıqlarda güzəştlərin dinamikasını, onların hansı sürətlə yerinə yetirildiyini müəyyənləşdirmək, iştirakçılardan hansının kompromis həllə doğru getdiyini və s. izləmək olar. İvent-analiz metodu bəzi müəlliflərin əsərlərində inkişaf etmiş və kifayət qədər faktlarla dolu məlumat bankının yaradılmasını nəzərdə tutur.

Yuxarıdakı metodlarla müqayisədə koqnitiv planlaşdırma daha az yayılıb. Bu metod Ole Holsti, Robert Akselrod və b. əsərlərində istifadə olunmuşdur. Onun əsasında koqnitiv psixoloqların təsəvvürləri dayanır. Onlara görə davranışın başa düşülməsi üçün insanın əldə olunmuş informasiyanı necə qəbul etməsini və yaratmasını bilmək son dərəcə əhəmiyyətlidir. Beynəlxalq tədqiqatlarda verilən metod ilk növbədə siyasi xadimlərin belə desək, "təbii məntiqinin" öyrənilməsinə istiqamətlənib. Mahiyyət ondan ibarətdir ki, çıxışların mətnlərinin əsasında bu və digər siyasətçinin istifadə etdiyi açar kateqoriyalar aşkar olunur və onlar arasında səbəb-nəticə əlaqələri müəyyənləşdirilir.

Beynəlxalq tədqiqatlarda bir çox istiqamətlər oyunların riyazi nəzəriyyəsinin tətbiqinə istiqamətlənmişdir. O, 1950-ci illərin sonu – 1960-cı illərin əvvəlində ABŞ-da sovet-amerikan münasibətlərinin öyrənilməsi üçün yaradılmışdır. Verilən istiqamətin mahiyyəti ondan ibarətdir ki, iştirakçılar özlərini rasional aparırlar və alternativləri qiymətləndirərək, özləri üçün daha sərfəli olan davranış strategiyasını seçirlər. Oyunlar nəzəriyyəsinə müvafiq olaraq, iştirakçıların davranışlarının bütün müxtəlif variantları əslində 2 tipə aid edilə bilər – əməkdaşlıq və rəqabət.

*Oyunda nəticələr qarşılıqlı əlaqələrin* iştirakçılarına qabaqcadan tapşırılır və məsələn, prioritetlikdən asılı olaraq say formasında ifadə olunur. Mühümdür ki, bu kimi oyunlardan istifadə edərək, müxtəlif beynəlxalq vəziyyətlər öyrənilmişdir: 1962-ci il Karib böhranı, Pakistanın Hindistanda nüvə ambisiyaları, eləcə də Şimali Koreya və İranın belə silahlara yiyələnmək cəhdləri və b. verilən metodun tənqidi əsasən, reallıqda iştirakçılar üçün nəticələrin oyun vəziyyətində olduğu qədər aydın olmaması və onların özlərini mütləq rasional aparmamaları ilə bağlı idi. Bununla belə, oyunlar nəzəriyyəsinin köməyi ilə bir sıra maraqlı nəticələr əldə olunmuşdur. Xüsusilə, R.Akselrod göstərdi ki, praktik olaraq, qeyri-məhdud vaxta malik olan qarşılıqlı təsir zamanı (əslində isə dövlətlər dünya arenasında bir-birilərinə qarşılıqlı təsir göstərirlər) tərəflər daha sərfəli olan kooperativ davranışın məqsədəuyğun olması nəticəsinə gəlirlər.

Təhlilin digər kəmiyyət metodları da mövcuddur. Bu, lap əvvəldən onların tətbiqini məhdudlaşdırırdı. İşlərin ağırlığı problemini müəyyən həddə qədər həll etməyə və kəmiyyət qiymətlərini tez verməyə imkan verən kompüter texnikasının geniş tətbiq edilməsi ilə kəmiyyət metodlarına olan diqqət yenidən artmışdır. Məsələn, mətnin kompüterdə işlənməsi kontent-analizi operativ aparmağa imkan verir. Eyni vaxtda, tədqiqatçılar əldə edilmiş məlumatların təfsiri probleminə diqqət ayırmağa başladılar.

Bu zaman keyfiyyət metodları məcrasına kəmiyyət qiymətləndirməsindən daha çox, tədqiqatların təşkili nöqteyi-nəzərindən rəsmiyyətçilik məqamlarını nəzərdə tutan prosedurlar daxil olmağa başladı. Onun tətbiq edilməsi zamanı bir sıra hallarda təbii elmlər üçün tipik olan, işin təşkilinə, dürüst ifadə edilməsinə, fərziyyələrin əsaslandırılmasına qarşı irəli sürülən tələblər nəzərə alınmağa başladı.

Situasiyaların təhlillərinin aparıldığı, mühüm məqamların aşkarlandığı, eləcə də gələcək inkişafın mümkün ssenarilərinə dair proqnozların tərtib olunduğu ekspert məşğələlərini özündə

əks etdirən situasiya təhlilləri də inkişaf etdi. Situasiya təhlilləri xüsusilə, elmi-praktiki təşkilatlarda və müəssisələrdə geniş yayılmışdır.

Situasiya təhlilləri, mahiyyətcə dünya arenasında konkret hadisələrin tədqiqi zamanı nəzəri mövqelərin tətbiqini nəzərdə tutan konkret vəziyyətlərin təhlili kimi prosedurların tipik olmayan hadisələrini təşkil edir. Məsələn, deyək ki, Kosovoda vasitəçiliyin necə kömək etdiyini (və ya münaqişənin nizama salınmasına kömək etmədiyini) öyrənmək üçün və s. bu kimi konkret vəziyyətin təhlili bir və ya bir neçə tədqiqatçılar tərəfindən aparıla bilər. Əgər situasiya təhlili proqnoza istiqamətlənibsə, o zaman konkret vəziyyətlərin təhlili zamanı adətən hadisələrin inkişafının mümkün ssenari variantları nəzərdən keçirilmir.

Hazırda beynəlxalq tədqiqatlarda bir-birinə çox yaxın olan elmi fənlərin metodları geniş tətbiq olunur – sosiologiyanın, politologiyanın, psixologiyanın və s. Belə ki, Qərbi Avropada və ABŞ-da kifayət qədər yayılmış metod, sosiologiyadan gələn, lakin beynəlxalq münasibətlərə uyğunlaşdırılmış müsahibədir. O, əvvəlcədən planlaşdırılmış ssenari üzrə ekspertlə söhbəti nəzərdə tutur. Müsahibənin xarakteri əvvəlcədən hazırlanmış suallarla sərt şəkildə məhdudlaşdırıla bilər, ancaq tez-tez, kifayət qədər sərbəst formada keçirilir.

Keyfiyyətli metodlar arsenalında sənədlərin, sübutların, statistik məlumatların, analitik materialların öyrənilməsi kimi ənənəvi metodlar da qalır.

İki qrup – kəmiyyət və keyfiyyət metodlar qrupunun yaxınlaşması "məntiqi-təsviri" və "tarixi-intuitiv" yanaşmaların köhnəldiyini göstərdi. Hazırda metodlar kəmiyyət və keyfiyyət olmaqla iki istiqamətə bölünmüşdür. Müvafiq olaraq, tədqiqatçıların da modernistlərə və ənənəçilərə bölünməsi keçmişdə qaldı. Verilən fakta rus və digər xarici alimlər diqqət yetirirlər. Onlar öz çıxarışlarında bir-birini istisna edən deyil, əksinə, tamamlayan kəmiyyət və keyfiyyət metodlarının bir-birinə qarşı qoyulmasının səhv olduğunu qeyd edirlər.

Eyni zamanda, XX əsrin sonunda konstruktivizmin inkişafı ilə pozitivist ənənələrlə bağlı olan metodlar tanındı. Söhbət, hər şeydən əvvəl, sosial reallığın "qurulmasından" gedir. Tədqiqatçı bu və ya digər beynəlxalq problemin həll edilməsi üçün üsulların, mexanizmlərin, institutların və b. işlənməsinə qoşulur və bu vaxt onu öyrənir. Deməк lazımdır ki, bu cür yanaşma tamamilə yeni deyil. "Beynəlxalq mühəndislik" ideyaları, məsələn, Vudro Vilsonun fəaliyyətində, onun Millətlər Liqası əsasında vahid insan cəmiyyəti yaratmaq cəhdlərində izlənilir. Lakin bu metod kifayət qədər ciddi metodoloji əsaslanmaya ehtiyac duyur.

**ƏDƏBİYYAT:**


1. Аббасбейли А.Н. Мировая политика. Б., Техсил, 2008.
2. Аббасбейли А.Н. Политическая палитра современного мира. Б., 2008.
3. Восток-Запад: Региональные подсистемы и региональные проблемы международных отношений. Учеб. пособие / Под ред.: А.Д.Воскресного. М., 2002.
4. Мировая политика: теория, методология, прикладной анализ. М., 2005.
5. Полякова Л.А. Международные отношения на рубеже XXI века: Куба ОАГ, США, Учеб. пособие. М., 2000.
6. Buzan B., Little R. International Systems in World History: Remarking the Study of International Relations. Oxford, 2000.
7. Dinean W.R., Jancar-Webster B., Switky B. World Politics in the. N.Y., 2002.
8. Lamborn A.C., Lepgold J. World Politics into the 21$^{th}$ Century. N.Y., 2002
9. Rourke J.T., Boyer M.A. World Politics: International politics on the World Stage. Mansfield. 2000.

# II FƏSİL

# DÜNYA SİYASƏTİNİN TƏŞƏKKÜLÜNÜN VƏ FORMALAŞMASININ QANUNAUYĞUNLUQLARI

Müasir dünyada baş verən köklü dəyişikliklər yeni şəraitdə beynəlxalq münasibətlərin xarakteri və qanunauyğunluqları məsələsini bütün kəskinliyi ilə qoymuşdur. 1990-1991-ci illərdə "soyuq müharibə" sona çatdı. Bununla eyni vaxtda SSRİ-nin süqutu və dünyanın siyasi xəritəsində yeni müstəqil dövlətlərin meydana çıxması, etnik münaqişələrin kəskinləşməsi baş verdi. Əvvəlki beynəlxalq münasibətlər sisteminin, habelə ona əsaslanan dünya qaydasının dağılması bir sıra mürəkkəb məsələləri meydana çıxarmışdır.

Siyasi elmdə mövcud olan müxtəlif nəzəriyyə və baxışları ümumilikdə, üç paradiqmada ifadə etmək olar:

1. liberal; 2. realist; 3. neomarksist.

Bu paradiqmaların hər biri beynəlxalq münasibətlərin təbiətinə və xarakterinə özünəməxsus yanaşmaya malikdir. Təbii ki, beynəlxalq münasibətlər nəzəriyyəsinin məzmunu sadalanan paradiqmalarla məhdudlaşmır. Son iki onillikdə onun çərçivələri daxilində transnasionalizm və institusionalizm, konstruktivizm və postmodernizm kimi cərəyanlar intensiv surətdə inkişaf edir, beynəlxalq siyasi iqtisad və beynəlxalq münasibətlərin sosiologiyası daha böyük əhəmiyyət kəsb etməkdədir.

Göstərilən paradiqmaların özlərinin daxilində də çox vaxt mühüm fərqlər meydana çıxır. Eyni zamanda, bu gün məhz yuxarıda göstərilən paradiqmalar daha geniş yayılmışdır,

beynəlxalq münasibətlər nəzəriyyəsinə dair diskussiyalarda mərkəzi yeri isə neorealizm və neoliberalizm arasında diskussiya tutur. Bu, yalnız yuxarıda sadalanan üç paradiqmanı beynəlxalq siyasət elmi üçün "təməl" paradiqmalar kimi nəzərdən keçirməyə deyil, həm də onların əsasında həmin elmin vəziyyətini təhlil etməyə imkan verir.

Ötən əsrin 30-40-cı illərində H.Morgentaunun ən görkəmli nümayəndələrindən biri kimi meydana çıxdığı siyasi realizm nəzəriyyəsində mərkəzi yeri "mənafenin hakimiyyət terminlərində ifadə olunmuş anlayışı" və onunla bağlı olan qüvvələr balansı, geosiyasi strategiya və s. anlayışlar tutur. Əsas ideyaları keçən əsrin 70-ci illərinin sonunda K.Uolts tərəfindən ifadə olunmuş neorealizmdə bu vurğular bir qədər dəyişdirilmişdir. Neorealizm qüvvənin struktur anlamını ifadə edərkən, onu hərbi komponentlə məhdudlaşdırmır, onun tərkibinə iqtisadi, informasion-kommunikativ, elmi, maliyyə və istehsal elementlərini də daxil edir. Burada həmin paradiqma üçün yeni olan digər müddəalar, məsələn, qarşılıqlı asılılıq, əvvəlkindən daha səmərəli olan yeni hakimiyyət tipinin ərazilərin fövqündə olan mahiyyəti və s. haqqında müddəalar da özünə yer tapmışdır. Buna baxmayaraq, dünya siyasətini dövlətlərin hökmranlıq və nüfuz uğrunda güzəştsiz mübarizə kimi başa düşən realist yanaşmanın mahiyyəti dəyişməz qalmaqdadır.

"Soyuq müharibə"nin başa çatması ilə siyasi realizmin nüfuzuna güclü zərbə vurulmuşdur. Hətta neorealizmin bəzi nümayəndələri özlərini "liberal realistlər", yaxud "utopik realistlər" adlandıraraq, realist paradiqmanın bir sıra müddəalarına, o cümlədən beynəlxalq münasibətlərin anarxist təbiəti haqqında müddəaya yenidən baxılmasının mümkünlüyünü vurğulamışlar. Belə ki, B.Büzen dövlət çərçivəsində və beynəlxalq aləmdə siyasi qarşılıqlı fəaliyyətin radikal fərqi haqqında realist tezisi şübhə altına almadan, eyni zamanda, belə hesab edir ki, bütövlükdə beynəlxalq münasibətlərin təbiəti "yetkin anarxiya" istiqamətində dəyişməkdədir.

Onun çərçivəsində Qərbin liberal-demokratik dövlətləri beynəlxalq təhlükəsizliyin qarantı rolunu oynamağa qadirdir, tərəqqinin əldə edilməsi isə hamı, o cümlədən zəif dövlətlər və sıravi fərdlər üçün mümkün olur. Lakin tənqidçilər göstərirlər ki, Qərb demokratiyalarımn bir-biri ilə vuruşmaq istəyinin olmaması faktı qismən "yetkin anarxiya" tezisini təsdiqləsə də, bu, onlarla qalan dünya arasında münasibətlərə aid deyildir. Onlar zəngin və güclü demokratik dövlətlərin təhlükəsizliyinə təhlükə yarandıqda digər bölgələrdəki daha zəif dövlətlərə kömək edəcəyinin heç bir təminatının mövcud olmadığını vurğulayırlar.

Bu şəraitdə beynəlxalq siyasət elminin bir növ bipolyar qarşıdurma dövründə unudulmuş liberal-idealist paradiqması yenidən diqqəti cəlb edir, ən müxtəlif formalar kəsb edir. Onun bir çox tərəfdarları razılaşırlar ki, beynəlxalq birlikdə indiyə qədər məcburetmə qüvvəsi mövcud olmadığından, beynəlxalq sistem bu gün də hökmranlıq və tabeçilik baxımmdan anarxik olaraq qalır. Lakin A.Vendtin fikrincə, ideyalarm ilkinliyi və mənafelər balansının əldə edilməsinin mümkünlüyü anarxiyanın dövlətlərin özlərinin siyasətinin nəticəsi olduğunu ifadə edir. Bundan əlavə, beynəlxalq münasibətlərin anarxikliyi artıq onların cəmiyyətdaxili münasibətlərdən fərqi kimi nəzərdən keçirilə bilməz. Belə ki, Y.Ferqyussonun fikrincə, neorealistlərin beynəlxalq münasibətlər sahəsində anarxiyanın hökmranlığı haqqında fikrinə rəğmən, başqa yanaşma daha düzgündür. Rəsmi və qeyri-rəsmi "oyun qaydaları" müxtəlif risk zonalarında anarxiya dərəcəsini məhdudlaşdırır ki, bunun nəticəsində müntəzəmlik yaranır və bir qayda olaraq, işgüzar əməkdaşlıq münasibətləri üstünlük təşkil edir.

Anarxikliyin ikinci aspekti barəsində daha çox tənqid ifadə olunur. Liberal paradiqma tərəfdarlarının mövqeyinə görə, Asiya, Şimali Amerika, Okeaniya və Qərbi Avropanın inkişaf etmiş demokratik ölkələri arasında münasibətlərin "özün özünə kömək et" prinsipi üzrə qurulduğunu ifadə etmək çətindir. Anarxiyanın bir çox labüd görünən nəticələri

daha çox dövlətlərarası münasibətləri idarə edən və qərarların qəbul edilməsi mexanizmlərini tənzimləyən institutların bütöv kompleksi sayəsində aradan qaldırılmışdır.

Bu institutlar dövlətlərarası konsensusun mövcudluğunu əks etdirir və dövlətlərin faktiki bərabərsizliyinin nəticələrini yumşaldan qarşılıqlı məsləhətləşmə və uzlaşmalardan istifadə edərək, onu dəstəkləməyə yardım göstərir. Bundan əlavə, bəzi neoliberalların fikrincə, dünya birliyinin inkişafında yeni dönəm başlamışdır və Qərb-Şərq mübarizəsinin başa çatması ilə idealist konsepsiyalar əsasında beynəlxalq münasibətlərin inkişafı mümkün olmuşdur. Onların fikrincə, əməkdaşlıq ideyaları realistlərin münaqişəyə olan klassik baxışları ilə müqayisədə daha böyük uğur imkanına malikdir.

Liberal paradiqmanın digər tərəfdarları baş verən dəyişikliklərin xarakterindən və uzunmüddətli meyillərindən istifadə etməyə çalışırlar. Belə ki, C.Rozenaunun fikrincə, bu gün yaranan yeni, "postbeynəlxalq" siyasət çərçivəsində müxtəlif strukturlar və aktorlar arasında əlaqələr prinsipcə fərqli surətdə həyata keçirilir. Bizim gözlərimiz qarşısında dövlətlərarası qarşılıqlı əlaqələrin ənənəvi dünyası ilə yanaşı, "ikinci, polisentrik" dünya, "postbeynəlxalq" münasibətlər dünyası yaranır və artıq mövcuddur. O, özünün xaotikliyi və gözlənilməzliyi, eyniliklərin təhrif olunması, yeni nüfuz dairələrinin meydana çıxması, loyallıqların səmtini dəyişməsi ilə xarakterizə olunur. Bu zaman "postbeynəlxalq" münasibətlərin baza strukturları bir növ etatist və polisentrik dünyalar arasında bölünür. Onlar bir-birinə təsir göstərsə də, həqiqi barışıq əldə edə bilmirlər. Liberal paradiqma tərəfdarlarının mövqelərini qiymətləndirərkən, onu da unutmaq olmaz ki, bütövlükdə neoliberallar əsas mövqelər üzrə ənənəvi liberal-idealistlərə nisbətən neorealizmə daha yaxındır.

Neomarksizm də realist paradiqmanın əsas müddəalarının tənqidi ilə çıxış edir. Onun tərəfdarları dünyanı müxtəlif iqtisadiyyatların, dövlətlərin, cəmiyyətlərin, ideologiyaların

və mədəniyyətlərin qlobal sistemi şəklində təsəvvür edirlər. Bu mürəkkəb müxtəlifliyə aydınlıq gətirməyə "dünya sistemi" və "dünya iqtisadiyyatı" kimi təməl anlayışlar kömək göstərir. Sonuncu dünyada iqtisadi münasibətlərin cəmindən daha çox beynəlxalq aktorların iqtisadi cəhətdən güclülərin aparıcı rol oynadığı geniş qarşılıqlı fəaliyyət sistemini əks etdirir.

Dünya iqtisadiyyatınm əsas xüsusiyyətləri istehsalın ümumdünya təşkili, dünyanın təsərrüfat inkişafında TMK-nın əhəmiyyətinin artması, istehsal komplekslərinin əlaqələndirilməsinin güclənməsi, kapitalın beynəlmiləlləşməsi və maliyyə sahəsinə dövlət müdaxiləsi imkanlarınm azalmasıdır. Neomarksistlərin fikrincə, əvvəllər özlərini xarici sarsıntılardan qoruyan dövlətlər bu gün dünya bazarmda rəqabətin şərtlərinə uyğunlaşmaq məqsədilə dünya iqtisadiyyatının tələblərini milli iqtisadiyyata çatdıran agentlərə çevrilirlər. Bu zaman həmin proseslər də müvafiq strukturlar kimi, insanların fəaliyyətinin nəticəsi, tarixin məhsuludur. Eyni zamanda, neomarksistlər vurğulayırlar ki, qloballaşmaya əks proseslər – iqtisadi, siyasi, ictimai, sosial-mədəni və digər təşkilat və strukturların diversifikasiyası, başqa inkişaf yollarının axtarışı baş verməkdədir. Lakin radikal-liberal ideologiya bu prosesləri kölgələməyə çalışır. O, insanlara təlqin edir ki, qloballaşmaya alternativ yoxdur, dünya səhnəsində müşahidə olunan sərt rəqabətin, qarşılıqlı fəaliyyət və xudbinliyin tənzimlənməməsinin əsasında sarsılmaz iqtisadi məntiq durur.

Neomarksizmin görkəmli nümayəndələrindən biri olan R.Koks yazır ki, hiperliberal dünya iqtisadiyyatı onun qaydalarına ehtiram bəsləməyə vadar etməyə qabil olan liderə ehtiyac duyur. "Soyuq müharibə"dən sonra bu rolu ABŞ mənimsəmişdir. O, ABŞ-a beynəlxalq aləmdə ümumi qaydalardan istisnalar kimi imtiyazlara iddia etməyə imkan verir. Dünyada ən böyük borclu olan ABŞ gələcəkdə də kredit almağa ümid bəsləyir və imkanlarından qat-qat artıq xərcləyərək yaşamaqda davam edir. Ölkənin liderləri bunu Birləşmiş

Ştatların qalan bəşəriyyətin təhlükəsizliyini çoxlu təhdidlərdən qorumaq üçün daşımaq məcburiyyətində qaldığı "hərbi yükün ağırlığı" ilə izah edirlər. Əslində isə beynəlxalq münasibətlər ABŞ-dan asılı xarakter kəsb edir. Bu asılılıq yalnız dünya sisteminin ənənəvi zonalarma, yəni "üçüncü dünya"nın zəif inkişaf etmiş ölkələrinə deyil, həm də onun "fəal", yaxud "başlıca" zonalarına, yəni Şərqi Asiya, Şərqi Avropa, Latın Amerikası ölkələrinə, Rusiyaya, Hindistana, habelə, sistemin Yaponiya və Qərbi Avropa kimi ənənəvi "mərkəz"lərinə də aiddir.

Onlar Vaşinqtonun yeritdiyi siyasətin altında gedərək, uzunmüddətli perspektivdə yalnız Yaponiya-Avropa rəqabətinin deyil, həm də son onilliklər ərzində Qərbi Avropa ölkələri arasında yumşalmış ziddiyyətlərin kəskinləşməsi riski ilə üzləşirlər. Bununla yanaşı, neomarksistlərin fikrincə, vəziyyət heç də radikal-liberal "mondiallaşma" nəzəriyyəsi tərəfdarlarınm təqdim etdikləri kimi çıxılmaz deyildir. Dünya sisteminin gələcək təkamülü bir çox cəhətdən "ucqar" ölkələrin və bölgələrin istər daxili, istərsə də beynəlxalq münasibətlər sahəsində onlara qəbul etdirilən inkişaf strategiyasından imtina etmək üçün siyasi iradə və qabiliyyətinin mövcudluğundan, habelə əməkçilərin bu strategiyaya qarşı müqavimətinin səmərəliliyindən asılı olacaqdır.

Müasir beynəlxalq münasibətlərin təbiətinə dair nəzərdən keçirilən paradiqma tərəfdarlarının digər mülahizələrini də nəzərdən keçirmək olardı. Lakin yuxarıda gətirilən misallar qarşılıqlı tənqid nəticəsində hər üç paradiqma nümayəndələrinin bölüşdükləri bir sıra ümumi müddəaların təşəkkül tapdığını göstərmək üçün kifayətdir.

Birincisi, bu, belə bir müddəadan ibarətdir ki, beynəlxalq münasibətlərdə anarxiyanın mövcudluğunu davam etdirməsinə və hətta qismən artmasına baxmayaraq, onların tənzimlənməsi imkanları mövcuddur.

İkincisi, belə bir tezis qeyd olunmalıdır ki, beynəlxalq münasibətlərin iştirakçılarınm sayı artaraq, yalnız dövlətləri və

hökumətlərarası təşkilatları deyil, həm də yeni, qeyri-ənənəvi aktorları – beynəlxalq hökumət və qeyri-hökumət təşkilatlarını, transmilli korporasiyaları, firma və müəssisələri, çoxlu istehsal, maliyyə, həmkarlar və digər birlikləri, habelə sıravi fərdləri ehtiva edir.

Üçüncüsü, bu, indi beynəlxalq münasibətlərin iştirakçılarının qarşılaşdıqları çağırış və problemlərin ümumdünya xarakterinin tanınmasından ibarətdir. Nəhayət, buraya həmin münasibətlərin müasir vəziyyətinin keçid xarakterinin göstərilməsi aiddir. Eyni zamanda, ümumi müddəaların mövcudluğu fərqlərin aradan qalxmasını ifadə etmir.

Onları qəbul edən hər bir paradiqma tərəfdarları, eyni zamanda, məhz onun ənənələrinə yaxın olan aspektləri qabardırlar. Bundan başqa, onlar beynəlxalq qarşılıqlı fəaliyyət təcrübəsinə fərqli şəkildə təsir göstərir, bəziləri dövlət aktorlarının, digərləri isə qeyri-ənənəvi aktorların diqqətini cəlb edirlər. Bununla əlaqədar vurğulamaq vacibdir ki, KİV-in ifadə etdiyi "nəzəriyyələrdən daha çox ayrı-ayrı praqmatik qərarlara və presedentlərə əsaslanan beynəlxalq təhlükəsizlik sisteminin faktiki olaraq öz-özünə formalaşmağa başlaması" haqqında qiymətləndirmələr gerçəkliyi tam əks etdirmir. Beynəlxalq aktorlar istər dövlət, istərsə də qeyri-dövlət səviyyəsində qərar qəbul edərkən, bu və ya digər nəzəri yanaşmalara malik çoxlu ekspert və məsləhətçilərin təsirinə məruz qalırlar. Onların vəziyyətə verdiyi qiymət və onun inkişafı ilə bağlı proqnozları bu və ya digər dərəcədə beynəlxalq aktorların davranışına və nəticə etibarilə beynəlxalq münasibətlərin vəziyyətinə təsir göstərir.

Beynəlxalq qarşılıqlı münasibətlərdə liberal paradiqma tərəfdarlarının diqqət yetirdikləri yeni təzahürlər neorealizm nəzəriyyəçilərini müddəalarından birini yumşaltmağa, digərini isə dəyişdirməyə məcbur etmişdir. Belə ki, Kolin Qrey ən azı nüvə silahı ilə bağlı məsələlərin həllində hərbi gücün əhəmiyyətinin azalmasından söz açır. Digər tərəfdən, Barri

Büzen və Con Mearşaymer qeyd edirlər ki, bu gün neorealizm etnik münaqişələrin və beynəlxalq sistemin transformasiyasına, onların təsirinin öyrənilməsinə diqqət yetirməlidir. M.Breçer "məhəlli" (yəni böyük dövlətlərin mənafeləri çərçivəsindən kənarda qalan) münaqişələrin rolunun təhlili zərurətini vurğulayır. Neorealizmin banisi K.Uoltsun ötən əsrin 70-ci illərinin sonunda ifadə etdiyi neorealizm üçün yalnız iki fövqəldövlətin mövcud olması və bununla əlaqədar neorealizmin yalnız həmin iki dövlətin nəzəriyyəsi kimi çıxış etməsi haqqında müddəası baxımından sadalanan tədqiqatçıların yanaşması ciddi yenilik kimi dəyərləndirilə bilər. Eyni zamanda, "Soyuq müharibə"nin başa çatması ilə bağlı olan ilkin illüziyaların sürətlə məhv olması realist paradiqmanın əhəmiyyətini aktuallaşdırmışdır. Neorealizm həm dövlət liderlərinin, həm də müxalifət siyasətçilərinin tələbatına cavab verməyə başlamışdır. Bu, bir neçə səbəblə bağlıdır.

Birincisi, müasir beynəlxalq vəziyyətin bir çox cəhətləri elə təəssürat doğurur ki, "Soyuq müharibə" başa çatdıqdan sonra dünyada vəziyyət daha təhlükəli olmuşdur və izah edilməsi mümkün olmayan hər bir təzahür təhlükə mənbəyi təşkil edir. Bir tərəfdən, beynəlxalq münasibətlərin əvvəlki mövcudluq mexanizmlərinin yenidən tənzimi, yarım əsr ərzində mövcud olmuş qüvvələr balansının pozulması, dünya səhnəsində yeni dövlətlərin beynəlxalq qarşılıqlı fəaliyyətin qeyri-dövlət iştirakçılarının meydana çıxması, nəhayət, yeni tip çoxlu müxtəlif münaqişələrin tüğyan etməsi ilə əlaqədar həyəcan və şübhələr geniş yayılmışdır. Digər tərəfdən, bütün bu təzahürlər BMT-nin və digər beynəlxalq təşkilatların universal dəyərlərin üstünlüyünə və dövlətlərin ümumi mənafelərinə, münaqişələrin hüquqi tənziminə və kollektiv təhlükəsizlik sisteminin yaradılmasına əsaslanan yeni beynəlxalq qaydanın (nizamın) yaradılması işində səmərəsizliyini aşkara çıxarmışdır.

İkincisi, siyasi realizm ənənəvi surətdə bu və ya digər dövlətin ictimai rəyinin ölkənin milli mənafelərini müdafiə

edən "öz" hökumətinin xeyrinə səfərbər olunması işində səmərəli alət kimi çıxış edir. Bununla da o, ölkənin rəhbərliyinə yalnız cəmiyyət tərəfindən öz hakimiyyətinin dəstəklənməsində deyil, həm də daxili separatizm qarşısında dövlətin vahidliyinin qorunub saxlanmasında kömək göstərir.

Üçüncüsü, siyasi realizm nəzəriyyəsinin hakimiyyət və güc uğrunda mübarizədə mübarizə aləti kimi beynəlxalq siyasət, bu siyasətin başlıca və əslində yeganə iştirakçısı kimi dövlət, dövlətlərin milli mənafelərinin üst-üstə düşməməsi ilə şərtlənən beynəlxalq mühitin labüd münaqişəliliyi və s. haqqında əsas müddəaları Qərbin və ilk növbədə, Birləşmiş Ştatların siyasi elitasınm tələbatlarına cavab verir. ABŞ-da siyasi realizm beynəlxalq münasibətləri Amerikanın milli mənafelərinə cavab verən və onun zərurət yarandıqda iqtisadi, yaxud hərbi gücdən istifadəyə istinadən irəliləyişini təmin etməli olduğu liberal ideallarm məcmusu kimi beynəlxalq qayda (nizam) haqqında Amerika təsəvvürlərinə müvafiq surətdə izah etməyə imkan verir.

Digər ölkələrdə siyasi elitaları siyasi realizm nəzəriyyəsinin belə bir müddəası cəlb edir ki, beynəlxalq aləmdə dövlətin milli mənafelərinin yeganə səlahiyyətli və tamhüquqlu ifadəçisi qismində onun suverenlik əsasında daxili birliyi təmsil etmək, müqavilələr bağlamaq, müharibə elan etmək və s. hüququ üzərində inhisara malik olan hökuməti çıxış edir.

Nəhayət, dördüncüsü, siyasi realizmin əsas anlayışlarının dövlət və siyasi xadimlərin siyasi leksikonunda qorunub saxlanmasında generalitetin və hərbi-sənaye kompleksinin nümayəndələri, istər güc qurumlarınm, istərsə də ali dövlət rəhbərliyinin çoxlu ekspert və müşavirləri, analitik mərkəzlər və ayrı-ayrı akademik tədqiqatlar mühüm rol oynayır. Nüfuzlu sosial qrupların nümayəndələri ya öz hakimiyyətini, öz statusunu qoruyub saxlamağa, ya da dövlət ideologiyaları bazarında tələbatı ödəməyə və bununla onun formalaşmasına təsir göstərməyə çalışırlar. Hər iki halda beynəlxalq münasi-

bətlərin qeyri-sabitliyi dövründə alarmist motivlər, dünya sistemi, o cümlədən, Qərb və ABŞ üçün təhlükələrin artması haqqında mülahizələr daha münasibdir. Bu kontekstdə yenidən dəbə minmiş geosiyasi quruluşlardan, gələcək dünya nizamının müxtəlif ssenarilərindən geniş istifadə olunur.

Əlbəttə, bu, heç də barəsində danışılan bütün ssenarilərin, yaxud araşdırmalarm gerçəkliyə aid olmadığını ifadə etmir. Əksinə, çox vaxt onlar müasir beynəlxalq vəziyyətin və müvafiq ölkələrin xarici siyasət maraqlarının təhlilinə əsaslanır. Eyni zamanda, belə tədqiqatların birtərəfli yönümü tamamilə aşkardır. Buna misal kimi daha geniş rezonans doğurmuş və bəzən yanlış surətdə bu illər ərzində irəli sürülmüş bütün beynəlxalq münasibətlərin təbiətinin dəyişməsi haqqında müddəalarm məhdudlaşdırıldığı iki konsepsiyanı göstərək. Söhbət F.Fukuyamanın "tarixin sonu" və S.Hantinqtonun "sivilizasiyaların toqquşması" konsepsiyalarından gedir. Zahirən onlar rəqib, hətta əks konsepsiyalar təsiri bağışlayır. Həqiqətən, Fukuyamada söhbət Qərb dəyərlərinin zəfərindən, plüralist demokratiyanın, fərdiyyətçilik və bazar iqtisadiyyatı ideallarınm hər yerə yayılmasından gedir. Hantinqton isə Qərb üçün yad və düşmən olan müsəlman və konfutsiçi sivilizasiyalarla əlaqədar Cənubdan gələn təhlükənin artmasından söz açır.

Lakin özünün daxili mahiyyəti etibarilə hər iki konsepsiya çox yaxındır. Hər iki halda nəzəri yanaşmanın əsasmda etnosentrizm, daha dəqiqi, Qərb-mərkəzçilik durur. Qərb nümunəsi əsasında təfəkkürün və həyat tərzinin eyniləşdirilməsinə qarşı çıxan, özlərinin milli, yaxud sivilizasiya dəyərlərini müdafiə edən bütün qüvvələr isə düşmən rolunda təqdim olunur. Hər iki konsepsiya siyasi realizm paradiqması ilə birbaşa bağlıdır. Bu baxımdan diqqətəlayiq haldır ki, hər iki konsepsiya beynəlxalq münasibətlərin təbiətini izah edərkən məhz dünya siyasətində güc bölgüsündən və zorakılığın həlledici rolundan çıxış edirlər. Hər iki konsepsiyada sülhün və demokratiyanın qorunması haqqında mülahizələr birqütblü dünyanın təbliğinə xidmət edir.

Belə yanaşma Qərbin xarici siyasət sahəsində dövlət maraqlarına xidmət edən digər görkəmli ekspertlər və müşavirlər üçün də xarakterikdir. Belə ki, Z.Bjezinskinin və Ç.Krauthamerin fikrincə, Qərbin "Soyuq müharibə"də Sovet İttifaqı üzərində qələbəsinin və iki fövqəldövlətdən birinin səhnədən çəkilməsinin ən mühüm nəticəsi bundan ibarətdir ki, dünyanın taleyinə görə məsuliyyət yeganə fövqəldövlətin – ABŞ-ın üzərinə düşür, onun imkanları isə demokratiya, fərdiyyətçilik və bazar cəmiyyəti ideyalarının nəinki müdafiəsinə, hətta bütün dünyada yayılmasına imkan verir. Bjezinskinin fikrincə, dünya Amerika hegemonluğu ilə barışmaq məcburiyyətindədir. Onun fikrincə, ABŞ-ın "soyuq müharibə"də qələbəsi onun üzərinə, dünyada qüvvələr balansının təmin edilməsi sahəsində yeganə lider kimi çətin, lakin yetərli bir vəzifə qoymuşdur. Eyni zamanda, o, NATO-nun ekspansiyasında ABŞ-ın aparıcı roluna qarşı çıxaraq, bunu ilk növbədə, Qərbi Avropanın daxili işi hesab edir.

Beləliklə, beynəlxalq münasibətlərin təbiəti haqqında müasir təsəvvürlərin nəzərdən keçirilməsi ziddiyyətli bir mənzərəni aşkara çıxarır. Bu baxışların geniş yayılmasına və böyük rezonans doğurmasına baxmayaraq, onlar aparıcı mövqeyə yiyələnə bilməmişdir. Buna görə də həmin təsəvvürlərlə tanışlıq beynəlxalq siyasət elminin vəziyyəti haqqmda nəticə çıxarmağa əsas vermir.

Dünya siyasətinin qanunauyğunluqları problemi elmdə ən az işlənilmiş və ən böyük mübahisə doğuran mövzulardan biri olaraq qalmaqdadır. Bu, ilk növbədə, ictimai münasibətlərin bu sahəsinin spesifikliyi, burada qanunauyğunluqların başlıca əlamətlərinin onların nisbi, təxmini xarakterindən ibarət olması ilə şərtlənir.

Cəmiyyət qanunlarını təbiət qanunları ilə birləşdirən başlıca əlamətlər qismində onların meydana çıxmasını labüdləşdirən qəti müəyyən şərtlərin mövcudluğu, habelə qanunun qüvvədə olma şərtlərinin qismən, təxmini realizəsi çıxış edir.

Bununla əlaqədar vurğulayaq ki, beynəlxalq münasibətlər sahəsində təxminilik dərəcəsinin böyük olması səbəbindən bir çox tədqiqatçılar qanunauyğunluqlardan daha çox bu və ya digər hadisələrin baş verməsi ehtimalından söz açmağa meyillidir. Lakin qanunauyğunluqların mövcudluğu şübhə altına alınmadıqda belə onların məzmunu barəsində fikir ayrılıqları mövcuddur. Burada biz əvvəlcə müxtəlif nəzəri paradiqmaların müvafiq müddəalarını nəzərdən keçirəcək, sonra isə heç bir yanaşma tərəfdarlarında şübhə doğurmayan ümumi qanunauyğunluqları fərqləndirməyə çalışacağıq.

Siyasi realizm nəzəriyyəsinin ən cəlbedici cəhətlərindən birini belə bir fikrin əsaslandırılması təşkil edir ki, beynəlxalq siyasətin əsasında siyasi davranışın kökləri, insan təbiətinə gedib çıxan obyektiv və dəyişməz qanunları durur. Siyasi realizmin mərkəzi anlayışı olan "hakimiyyət terminlərində müəyyən olunmuş mənafe" beynəlxalq münasibətlərin qanunlarını insanların təhlükəsizliyə, firavanlığa və inkişafa olan tələbatı ilə bağlayır və özünün xarici siyasət fəaliyyətində dövləti müdafiə edir.

Siyasi realizmin beynəlxalq münasibətlərin hansısa müsbət ideal baxımından deyil, siyasətin mahiyyəti baxımından nəzərdən keçirilməsinin zəruriliyi haqqındakı digər müddəası da elmi obyektivlik meylini nümayiş etdirir.

Demokratiyaya, universal (ümumbəşəri) dəyərlərə və hüququn aliliyinə əsaslanan ahəngdar və dinc beynəlxalq nizamın yaradılması zərurətini inkar etməyən siyasi realistlər təkid edirlər ki, müasir dünyada beynəlxalq siyasətin başlıca xüsusiyyətlərindən birini daim böyük dövlətlərin dünya səhnəsində mövcud olan vəziyyətin qorunub saxlanmasına və ya öz xeyrinə dəyişdirilməsinə can atması təşkil edir. Öz növbəsində, bu, beynəlxalq münasibətlərin qüvvələr balansı adlandırılan xüsusi konfiqurasiyasına və müvafiq surətdə bu balansın qorunub saxlanmasına yönəlmiş siyasətə aparıb çıxarır. Neorealizmin yaradıcılarından biri olan K.Uolts göstərir ki, sosial formaların psixoloji göstəricilər əsasında izahı

yanlışdır, çünki qrup təzahürləri fərdi davranış xüsusiyyətləri ilə məhdudlaşmır. Buna görə də insan təbiətindən deyil, sosial amillərdən söz açmaq və onları tədqiq etmək zəruridir. Lakin bu, heç də idarəetmə formalarına, siyasi rejimlərə və s. istinadla kifayətlənməyin mümkün olduğunu ifadə etmir. Strateji qarşılıqlı asılılıq şəraitində dövlətlərin davranışı, onların siyasəti yalnız daxili səbəblərlə deyil, həm də digər dövlətlərin davranışı və siyasəti ilə izah olunur. Buna görə də biz belə davranışı başa düşməyə çalışarkən beynəlxalq sistemin xüsusiyyətlərini, onun strukturunun spesifikliyini nəzərə almalıyıq.

Uolts modernistlərin siyasi realizm nəzəriyyəsinə ünvanladıqları iradları – beynəlxalq siyasi reallıqların tədqiqi metodologiyasındakı nöqsanları aradan qaldırmağa çalışır. O, metodoloji dəqiqlik axtarışlarında onların təhlilinə sistemli yanaşmanm zəruriliyi nəticəsinə gəlir. Bu zaman müəyyənedici rol strukturun anlayışına ayrılır. Uolts onu sistemin öz elementləri olan dövlətlərə verdiyi imkan bölgüsü, habelə subyektlərin funksional diferensiasiyası kimi nəzərdən keçirir. Bu gün belə anlam elə geniş yayılmışdır ki, beynəlxalq münasibətlərin sistemli nəzəriyyəsi çox vaxt məhz onunla eyniləşdirilir. Siyasi realizm beynəlxalq "cəmiyyət"in hüquq normaları, yaxud mənəvi dəyərlər əsasında tənzimlənməsi imkanına mənfi yanaşır. Q.Şvarsenbergerin yazdığına görə, ali hakimiyyətin mövcud olmadığı cəmiyyətdə qanunun başlıca funksiyası qüvvənin aliliyinin və hakimiyyətin tətbiqinə əsaslanan iyerarxiyanın qurulmasına yardım göstərməkdən ibarətdir.

Bir çox hallarda beynəlxalq hüquq məhz həmin məqsədlərə xidmət edir. Bu fikir beynəlxalq əxlaq barəsində də ifadə oluna bilər. Dövlət onun başlıca təyinatını öz davranışına nəzarət etməkdə deyil, potensial və real düşmənlərə qarşı mübarizədə güclü alət kimi çıxış etməkdə görür.

Beləliklə, siyasi realizm nəzəriyyəsinə görə, beynəlxalq münasibətlərin əsas qanunauyğunluqları aşağıdakılardan ibarətdir:

– başlıca və əslində yeganə beynəlxalq aktor kimi dövlətin şəksiz və aparıcı rolu;

– dövlətin xarici siyasətinin milli mənafelərlə şərtlənməsi;

– məqsədlərə çatmağın başlıca aləti kimi güc (ilk növbədə hərbi güc);

– dünya siyasətində böyük dövlətlərin həlledici rolu;

– beynəlxalq sabitliyin təmin edilməsi vasitəsi və beynəlxalq qaydanın başlıca tənzimləyicisi kimi qüvvələr balansı.

Neoliberalların fikrincə, qanunauyğunluqlar heç vaxt şəksiz olmamış, son onilliklərdə isə ümumiyyətlə özünün təsirini itirmişdir. C.Nayın fikrincə, bu gün beynəlxalq münasibətlərin bir çox sahələrində xüsusi subyektlər və kiçik dövlətlər əvvəlkindən daha böyük imkanlara malikdirlər. Eyni zamanda, böyük dövlətlərin öz məqsədlərinə çatmaq üçün ənənəvi güc potensialından istifadə etmək imkanları aşağı düşür. Güc daha az tətbiq olunur, onun təsiri və məcburetmə qüvvəsi getdikcə aşağı düşür. B.Badi və M.K.Smuts yazırdılar ki, 90-cı illərin dünyası yeni münasibətlər və yeni subyektlər axtarışındadır. Milli mənafe qanunauyğunluğu özünün əvvəlki əhəmiyyətini itirir. Gücün bir çox müasir elementləri dövlət nüfuzunun təsiri altından çıxır və dövlətlərarası sistemin baş verən proseslərə səmərəli təsir vasitələri getdikcə azalır. Bu isə dolayı və baha başa gələn məcburetmə vasitələrinə müraciət olunması zərurəti yaradır. Müasir beynəlxalq münasibətlər onları dövlətlərarası qarşılıqlı fəaliyyət kimi nəzərdən keçirməyə daha az əsas verir, çünki bu gün dünyanın bölüşdürülməsi üsullarında, onun mövcudluq prinsiplərində mühüm və geri dönməyən dəyişikliklər baş verir. Beynəlxalq nizamın müxtəlif tiplərinin əsaslarını əks etdirən təməl anlayışlar ya öz mənasını itirir, ya da yeni məna kəsb edir.

Dünya siyasətindəki bütün bu yeni meyillərin əsasında mikroelektron inqilabının – rabitə, nəqliyyat və kommunikasiya vasitələrində baş vermiş inqilabın təsiri altında dünyada qarşılıqlı asılılığın artması durur. Bunun nəticəsində dünya siyasətinə yeni, qeyri-ənənəvi aktorlar – qeyri-hökumət təşkilat-

ları, maliyyə şirkətləri, transmilli korporasiyalar, özəl qruplar, demoqrafik axınlar, mafiya strukturları və sıravi fərdlər nüfuz etməyə başlayır. Dövlətlər artıq onların fəaliyyətinə əvvəlki kimi nəzarət edə bilmirlər. Nəticədə bu fəaliyyət çox vaxt dövlət suverenliyindən yan keçir və hətta ona qarşı yönəlir. Buna görə də beynəlxalq münasibətlər üzərində dövlətlərin inhisarı aradan qalxır, geostrateji prioritetlər mənasını itirir. Daxili və beynəlxalq siyasət bir-birinə daha çox nüfuz edir, onların arasındakı sərhəd silinir. Milli hökumət səlahiyyətlərinin daralması, beynəlxalq münasibətlərdə güc amilinin tənəzzülü və "suverenlik fövqündəki aktorlar"ın sayının və növlərinin artması dünya səhnəsində qarşılıqlı münasibətlərin yeni mənzərəsini yaradır.

Beynəlxalq münasibətlər getdikcə daha çox fövqəlmilli münasibətlərə çevrilir və daha az idarə olunur. M.Nikolson bunu "iştirak paradoksu" kimi ifadə etmişdir. Bu yanaşmaya görə, beynəlxalq qarşılıqlı fəaliyyət iştirakçılarının sayı və müxtəliflik dərəcəsi nə qədər azdırsa, beynəlxalq münasibətlər sistemi bir o qədər artıq dərəcədə nizamlanmış olur və ayrı-ayrı iştirakçıların hərəkətlərini, onların nəticələrini əvvəlcədən müəyyən etmək bir o qədər asandır. Beynəlxalq münasibətlərə yeni iştirakçılar qoşulduqca proqnoz vermək və səmərəli fəaliyyət göstərmək çətinləşir.

Beləliklə, beynəlxalq münasibətlərin qarşılıqlı asılılığı və millətlərin fövqünə qalxması, dövlətin dünya səhnəsindəki qarşılıqlı münasibətlərdə əvvəlki aparıcı mövqeyini itirməsi, güc amilinin və qarşılıqlı fəaliyyətin tənzimləyicisi kimi qüvvə balansının tənəzzülü, "suverenliyin fövqündəki aktorlar"ın sayının və müxtəlifliyinin artması və onunla şərtlənən "iştirak paradoksu", daxili və beynəlxalq siyasət arasında sərhədlərin silinməsi beynəlxalq münasibətlərin qanunauyğunluqlarının dərkinə transnasionalizmin töhfəsini əks etdirir.

Neomarksizmə gəlincə, beynəlxalq münasibətlərdə mövcud olan qanunauyğunluqların tədqiqində o, qlobal kapitalist sistemi çərçivəsində mövcud olan iqtisadi və sosial bərabər-

sizlikdən, dünya təsərrüfatının “ucqarlar”ının onun mərkəzindən asılılığından çıxış edir. Dünya iqtisadiyyatının qloballaşması, ən varlı ölkələrin sərvətlərinin artması sosial əlaqələrin pozulmasına, idarəolunmaz demoqrafik dəyişikliklərə və dünya miqyasında varlılarla yoxsullar arasında qütbləşmənin artmasına gətirib çıxarır. Belə bir ehtimal mövcuddur ki, bu proseslər inkişaf edib kəskinləşdikcə ən yoxsul təbəqələr onların mənfi nəticələrinin yumşaldılması üçün öz səylərini əlaqələndirə bilərlər. Belə əlaqələndirmə nəticəsində mərhələli surətdə fərqli cəmiyyətlər, dövlət formaları və dünya nizamı qurulacaqdır.

Neomarksistlərin fikrincə, kapitalist sistemində hökmran olan hiperliberalizm ideologiyası milli suverenliyin rolunu dəyişir. Dövlətin rolu, ilk növbədə, bazar qüvvələrinə dəstək baxımından nəzərdən keçirilir. Əksinə, o, əhalinin sosial müdafiəsi sahəsində rolunu itirir. Yoxsul regionların xeyrinə yenidən bölgü bu ideologiya çərçivəsində bazar məntiqinə zidd olan “proteksionist müdaxilə” kimi nəzərdən keçirilir. Buna görə də regionlar öz mənafelərini mərkəzlə daha az bağlayırlar. Separatçı hərəkatlarla güclənən varlılar yoxsullarla bölüşmək istəmir, yoxsullar isə hesab edirlər ki, ayrılma problemlərin ən yaxşı həll yoludur.

Dünya siyasətinin demokratikləşdirilməsi siyasi prosesi maliyyələşdirən və ictimai rəyə təsir texnologiyalarına malik qüvvələrin onunla manipulyasiya etməsinə, inkişaf etmiş ölkələrin istehlak modellərinin standartlaşdırılmasına və imitasiyasına gətirib çıxarır. Eyni zamanda, o, diversifikasiyaya səbəb olur. O, beynəlxalq münasibətlərin yeni subyektlərinin meydana çıxması və onların öz mənafelərini ifadə etməsi imkanlarını genişləndirir, mədəniyyətin unifikasiyasından (eyniləşdirilməsindən) qaçmaq meylini gücləndirir, fərqli tərzdə yaşayıb işləmək istəyinin meydana çıxmasına təkan verir. Uzunmüddətli perspektivdə isə ictimai inkişaf yollarının diversifikasiyası üçün zəmin yaradılır.

Beləliklə, neomarksist cərəyanın təkidlə irəli sürdüyü başlıca fikir beynəlxalq münasibətlərin qloballaşma, qarşılıqlı

asılılığın və demokratikləşdirmənin inkişafı, dövlət suverenliyinin rolunun dəyişməsi kimi meyillərin ziddiyyət təşkil etməsindən ibarətdir. Onların inkişafı nemətlərin ədalətsiz bölgüsünə aparıb çıxarır və son nəticədə baş verən proseslərin ən azı şüurlu surətdə idarə olunması kimi obyektiv tələb irəli sürür.

Neomarksizmin nümunəsində çox aydın tərzdə nəzərə çarpır ki, müasir beynəlxalq münasibətlərin öyrənilməsində siyasət elmi beynəlxalq münasibətlərin bəzi ümumi qanunauyğunluqlarının mövcudluğunun tanınmasından çıxış edir. Onlardan bütün cərəyanlar tərəfindən tanınan və nisbətən şəksiz görünən bəzi qanunauyğunluqları ifadə etməyə çalışaq.

Birincisi, belə qanunauyğunluqlardan biri müasir dünyada qarşılıqlı asılılığın artması, iqtisadi və maliyyə proseslərinin və ekoloji təhlükələrin qloballaşması, habelə beynəlxalq münasibətlərin demokratikləşdirilməsi və humanistləşdirilməsidir. Qarşılıqlı asılılığı müxtəlif nəzəri ənənə və paradiqmaların tərəfdarları müxtəlif şəkildə başa düşsə də, onun artmasının tanınması faktı öz-özlüyündə göstərir ki, yeni reallıqların təsiri altında ümumi anlayış əldə olunmuşdur: nüvə əsrində hətta ən güclü dövlət belə toxunulmaz qala bilməz. Bu isə onu ifadə edir ki, beynəlxalq münasibətlərdə yalnız birgə səylərlə reallaşdırıla biləcək ümumi mənafelər meydana çıxır.

Transnasionalistlərin xüsusi vurğuladıqları və yalnız marksistlərin deyil, həm də realistlərin qəbul etdikləri digər qanunauyğunluq da bununla bağlıdır. Onun mahiyyəti bundan ibarətdir ki, dövlətlər artıq beynəlxalq münasibətlərin yeganə iştirakçıları deyildir və yeni aktorlar barəsindəki siyasət xarici siyasətin ənənəvi anlayışı üzərində qurula bilməz. Buna görə də beynəlxalq siyasət haqqında suveren dövlətlərin, ilk növbədə, fövqəldövlətlərin rəqabəti kimi təsəvvür tərksilah və kollektiv təhlükəsizliyin formalaşması prosesləri nəzərə alınmaqla dəyişdirilməlidir. Öz növbəsində, transnasionalistlər vurğulayırlar ki, dünya siyasətinin təhlilində hakimiyyət anlayışı özünün təməl mövqeyini saxlayır.

Onların fikrincə, qarşılıqlı asılılıq dünya siyasətinə və dövlətlərin davranışma təsir göstərsə də, hökumətlərin fəaliyyəti də qarşılıqlı asılılıq modellərinə təsirsiz qalmır. Müəyyən fəaliyyət növləri üçün prosedurlar, qaydalar, yaxud təsisatlar yaradarkən hökumətlər millətlərarası və dövlətlərarası münasibətləri tənzimləyirlər. Başqa sözlə, beynəlxalq münasibətlərin iştirakçılarının sayının və növlərinin genişlənməsi, dövlət suverenliyinin "yumşalması" və təhlükəsizliyin məzmununun dəyişməsi dövlətin dünya siyasəti səhnəsindən sıxışdırılıb çıxarılması ilə nəticələnmir, yalnız sabitliyin təmin edilməsində onlarm rolunu dəyişdirir və daha da çətinləşdirir.

Daha bir qanunauyğunluq beynəlxalq hüquqa aiddir. Məlumdur ki, neoliberalların mövqeyindən beynəlxalq münasibətlərin başlıca tənzimləyicisi qismində hüquqi imperativlərə çevrilən universal əxlaq normaları çıxış edir, həmin normalar üzərində beynəlxalq institutlar qurulur. Transnasionalizmin tərəfdarları da yaxın mövqe tutaraq belə hesab edirlər ki, beynəlxalq nizamm əsasını və onun təmin edilməsi vasitələrini fövqəlmilli normalar, strukturlar, institutlar və prosedurlar təşkil etməlidir. Nəzərdən keçirilən paradiqmaların beynəlxalq hüquqa aid mövqeləri özünün ifrat ifadəsində aşağıdakı kimi təqdim olunur: Əgər liberalizmin nümayəndələri beynəlxalq hüququ beynəlxalq münasibətlərin yeganə legitim tənzimləyicisi kimi izah edirlərsə, siyasi realistlər və neomarksistlər belə hesab edirlər ki, beynəlxalq hüququn rolu mütləqləşdirilməməlidir. Çünki o, milli mənafelərə, yaxud xalqlar arasındakı münasibətlərdə ədalətə zidd ola bilər. Bununla belə, hər iki tərəf etiraf edir ki, beynəlxalq hüquqda müasir meyillərin dünya siyasəti ilə sıx əlaqəni nümayiş etdirməsinə baxmayaraq, burada ciddi dəyişikliklərin baş verdiyini inkar etmək olmaz. Əvvəlki əsrlərdə beynəlxalq hüquq bütün suveren dövlətlər üzərində hökmran olub, müharibənin aradan qaldırılması deyil, onun zamana, məkana, aparılma üsullarına görə məhdudlaşdırılması və qüvvələr tarazlığının

yaradılması məqsədi güdürdü. Müasir dövrdə isə beynəlxalq hüquq dövlətlərin müstəqilliyi qorunub saxlanmaqla vahid hüquqi məkanın formalaşdırılması məqsədi güdür.

Universal mənəvi dəyərlərin və ümumi hüquq normalarının təşəkkülü heç də birmənalı proses deyildir. Qlobal həmrəyliklə konkret dövlətin mənafelərinə, konkret mədəniyyətin, yaxud etnomilli qrupun dəyərlərinə meyil arasında münaqişənin yekunu qabaqcadan müəyyən deyildir. Buna görə də beynəlxalq "cəmiyyət"in dövlətlərin, etnoslarm və mədəniyyətlərin dəyər və normaları əvəz etmiş universal dəyər və normalar "cəmiyyət"inə çevriləcəyini hesab etməyə ciddi əsas yoxdur. Buna baxmayaraq, beynəlxalq münasibətlərin universal dəyərlər və ümumi qəbul edilmiş normalar əsasında tənzimlənməsi cəhdləri heç də iflasa məhkum deyildir, çünki dünya siyasətində yalnız güc qanunu deyil, həm də qarşılıqlı təsir qanunu və hətta əlaqələndirmə və uzlaşdırma qanunu mövcuddur.

Növbəti qanunauyğunluq beynəlxalq sistemlərin fəaliyyətinə aiddir. Hər üç paradiqmanın nümayəndələri qəbul edirlər ki, iqtisadiyyatın beynəlxalq sistemdə rolu artmaqdadır, amma bu rol müxtəlif cür başa düşülür. Neorealistlər iqtisadiyyatı hakimiyyət resursu kimi nəzərdən keçirirlər, neoliberallar üçünsə bu, dövlətin firavanlıq və zənginlik amilidir. Belə hesab olunur ki, bütün beynəlxalq sistemlərin ümumi cəhəti onlarda cərəyan edən proseslərin ən güclü dövlətlər tərəfindən və həmin dövlətlər arasında münasibətlərin vəziyyəti ilə müəyyən olunmasından ibarətdir. Beynəlxalq sistemlərin müxtəlif tiplərinin və onların təsnifləşdirilməsi meyarlarının mümkünlüyü nəzərdə tutulur. Bununla əlaqədar xatırlatmaq zəruridir ki, məhz siyasi realizm ikiqütblü, çoxqütblü və imperiya tipli beynəlxalq sistemlər kimi geniş işlədilən anlayışları dövriyyəyə daxil etmişdir. Məlum olduğu kimi, ikiqütblü sistemdə iki ən güclü dövlət hökmran olur. Digər dövlətlər onlarla eyni gücə yiyələndikdə sistem çoxqütblü xarakter kəsb edir. Tarazlaşdırılmış sistemdə, yaxud qüvvələr balansı sistemində bir neçə

böyük dövlət hadisələrin gedişinə təxminən eyni təsiri saxlayır və bir-birinin ifrat iddialarını əngəlləyir. Nəhayət, imperiya tipli beynəlxalq sistemdə öz gücünə görə digər dövlətləri xeyli üstələyən yeganə fövqəldövlət hökmranlıq edir.

Beynəlxalq sistem konsepsiyasının istinad etdiyi başlıca ideyalardan biri onun qanunlarının dərkində strukturun həlledici rolu haqqında ideyadır. Bu ideyanı tədqiqatçıların əksəriyyəti bölüşür. Onun mahiyyəti aşağıdakı kimi ifadə oluna bilər. Öz mənafelərini rəhbər tutan suveren dövlətlərin əlaqələndirilməmiş fəaliyyəti elə bir beynəlxalq sistem formalaşdırır ki, onun başlıca əlamətini məhdud sayda güclü dövlətlərin hökmranlığı təşkil edir, strukturu isə bütün beynəlxalq aktorların davranışını müəyyən edir. K.Uolts yazır ki, bütün dövlətlər hərbi xərclər çəkmək məcburiyyətindədir, hərçənd bu, ehtiyatların ağıllı sərfi deyildir. Beynəlxalq sistemin strukturu, həmçinin, bütün ölkələrə iqtisadi sahədə, yaxud ekologiya sahəsində onların mənafelərinə zidd olan davranış xəttini diqtə edir. Struktur beynəlxalq münasibətlər sistemində fərqli çəkiyə malik dövlətlərin dünya səhnəsində davranış xəttini anlamağa və qabaqcadan söyləməyə imkan verir. İqtisadiyyatda bazarın vəziyyətinin bir neçə iri şirkətin təsiri ilə müəyyən olunduğu kimi, beynəlxalq siyasi struktur da böyük dövlətlərin təsiri, onların qüvvələr nisbətinin konfiqurasiyası ilə müəyyən olunur. Bu qüvvələr nisbətindəki dəyişikliklər beynəlxalq sistemin strukturunu dəyişə bilər, lakin bu sistemin təbiəti dəyişməz qalır.

Beləliklə, məhz beynəlxalq sistemin strukturunun vəziyyəti onun dayamqlığının və dəyişkənliyinin, əməkdaşlığın və münaqişənin göstəricisi kimi çıxış edir. Məhz onda sistemin fəaliyyət və transformasiya qanunları öz ifadəsini tapır. Buna görə də beynəlxalq sistemlərin tədqiqinə həsr olunmuş əsərlərdə həmin strukturun vəziyyətinin təhlilinə birinci dərəcəli diqqət yetirilir. Belə ki, R.Aron beynəlxalq sistemlərin üç struktur meyarını fərqləndirmişdir. Bunlar qüvvələr nisbətinin konfiqurasiyası, müəlliflərin iyerarxiyası

və tərkibin homogen, yaxud heterogen xarakter daşımasıdır. O, siyasi realizm ənənəsinə tam müvafiq surətdə beynəlxalq sistemdə "hakimiyyət mərkəzləri"nin mövcudluğunu əks etdirən, onun əsas elementləri olan suveren dövlətlər arasında qarşılıqlı münasibətlərə təsir göstərən başlıca meyar qismində qüvvələr nisbətinin konfiqurasiyasını nəzərdən keçirirdi. Artıq qeyd olunduğu kimi, qüvvələr nisbətinin konfiqurasiyası başlıca aktorların sayından və onların arasındakı münasibətlərin xarakterindən asılıdır. Belə konfiqurasiyanın iki əsas tipi ikiqütblülük və çoxqütblülükdür.

Aktorların iyerarxiyası beynəlxalq sistemə hərbi-siyasi, iqtisadi, ehtiyatlar, sosial-mədəni, ideoloji və digər təsir imkanları baxımından onların faktiki bərabərsizliyini əks etdirir.

Beynəlxalq sistemin homogen, yaxud heterogen xarakter daşıması aktorlar arasında bu və ya digər prinsiplərə, yaxud dəyərlərə münasibətdə mövcud olan həmrəylik dərəcəsini ifadə edir. Belə həmrəylik nə qədər güclüdürsə, sistem bir o qədər homogen xarakter daşıyır. O, nə qədər homogen xarakter daşıyırsa, bir o qədər sakit və sabit olur. Homogen sistemdə dövlətlər rəqib olsa da, siyasi düşmən deyildir. Əksinə, heterogen sistem dəyərlərin və ideologiyaların antaqonizmi ilə fərqlənir və xaotik, qeyri-sabit, münaqişəli xarakter daşıyır.

Beynəlxalq sistemin daha bir struktur xarakteristikası kimi onun "rejimi", yəni beynəlxalq münasibətləri tənzimləyən formal və qeyri-formal prinsiplərin, normaların, razılaşmaların və qərarların qəbulu prosedurlarının məcmusu nəzərdən keçirilir. Bunlara, məsələn, beynəlxalq iqtisadi mübadilədə hökmran olan qaydalar aiddir. 1945-ci ildən sonra onların əsasında BVF, ÜTT və s. kimi beynəlxalq təsisatların məcmusunun yaranmasını şərtləndirmiş liberal konsepsiya durur.

Beləliklə, aktorların davranışının sistemi struktur xarakteristikalarından asılılığı beynəlxalq sistemlərin ən ümumi qanunauyğunluğu hesab olunur. Bu qanunauyğunluq hər bir belə xarakteristika səviyyəsində konkretləşdirilir, hərçənd elm-

də hələ onların sayı və məzmunu barəsində qəti rəy mövcud deyildir.

Dünya siyasətinin öyrənilməsinə sistemli yanaşmanın evristik xarakteri şübhə doğurmur. O, bunda təzahür edir ki, artıq sistemli qanunauyğunluqların mövcudluğu ideyasının özü həmin münasibətləri bir sıra dövlətlərin ümumplanetar, regional, yaxud subregional səyiyyədə beynəlxalq aləmdə müəyyən siyasi, iqtisadi və ideoloji status-kvonu qəbul etməsinin nəticəsi kimi nəzərdən keçirməyə imkan verir. Bu baxımdan hər bir beynəlxalq sistem müvafiq zaman-məkan kontekstində dövlətlər arasında qüvvələr nisbətinin qeyri-formal institutlaşdırılmasından başqa bir şey deyildir.

Eyni zamanda, belə hesab etmək sadəlövhlük olardı ki, siyasət elmində mövcud olan beynəlxalq sistemlərin mövcudluğu və transformasiyası qanunauyğunluqları onların əsasında səhvsiz proqnozlar verməyə imkan yaradan qətilik dərəcəsinə malikdir. Məsələ burasındadır ki, beynəlxalq münasibətlər sistemi haqqında təsəvvürlərimiz nə dərəcədə dərin olsa da, onlar obyektiv reallığın təkamülünü heç vaxt tam əks etdirmir.

Bu, bütövlükdə beynəlxalq münasibətlərin qanunauyğunluqlarına da aiddir. Onların nəzəri əhəmiyyətini və əməli rolunu qiymətləndirərkən, nəzərə almaq lazımdır ki, beynəlxalq münasibətlər çox mürəkkəb sistem təşkil edir. Burada xaos nəzəriyyəsi ilə müəyyən analogiya mümkündür. Mürəkkəb sistemlər belə bir xüsusiyyətə malikdir ki, sistemin ayrı-ayrı hissələrinə nəzarət hələ bütövlükdə sistem üzərində nəzarətə təminat vermir. Belə sistem çərçivəsində həyata keçirilən bütün hərəkətlər əvvəlcədən müəyyənləşdirilməsi və izlənilməsi çətin olan nəticələr doğurur. Mövcud reallıqlar nəzərə alındıqda aydın olur ki, beynəlxalq münasibətlər sistemi canlı təbiətdən kənarda mövcud olan ən mürəkkəb sistemdir. Bu sistemin ayrı-ayrı hissələri düzgün təhlil olunduqda belə, onların ayrı-ayrılıqda təhlil edilməsi cəhdi çox vaxt yanlış nəticələrə gətirib çıxarır. Buna görə də beynəlxalq münasibətlərin nəzərə

alınmalı olan başlıca qanunauyğunluqlarından biri onların daimi təkamülü, varisliyi və dəyişkənliyidir. Onların tədqiqi xarici siyasət davranışının dar çərçivələrindən kənara çıxmağı, bu sahədə toplanmış bütün nəzəri biliklərdən istifadə etməyi və onların inkişaf etdirilməsini tələb edir.

Müasir dövrdə dünya birliyinin siyasi, iqtisadi, mənəvi həyatında, hərbi təhlükəsizlik sahəsində baş verən dəyişikliklərin qlobal miqyası və radikal xarakteri klassik Vestfal sistemindən başlayaraq keçən əsr ərzində mövcud olduğundan fərqlənən yeni beynəlxalq münasibətlər sisteminin formalaşması fikrini irəli sürməyə imkan verir.

Dünya və ölkə mətbuatında beynəlxalq münasibətlərin məzmunundan, iştirakçılarının tərkibindən, hərəkətverici qüvvələrindən və qanunauyğunluqlarından asılı olaraq onların sistemləşdirilməsinə sabit yanaşma təşəkkül tapmışdır. Belə hesab olunur ki, beynəlxalq münasibətlər Roma imperiyasmm amorf məkanında milli dövlətlərin formalaşması dövründə yaranmışdır. Avropada otuzillik müharibənin başa çatması və 1648-ci il Vestfal sisteminin bağlanması başlanğıc nöqtəsi hesab olunur. Həmin dövrdən etibarən bu günə qədər beynəlxalq qarşılıqlı fəaliyyətin 350 illik dövrü bir çoxları, xüsusilə, Qərb tədqiqatçıları tərəfindən vahid Vestfal beynəlxalq münasibətlər sisteminin tarixi kimi nəzərdən keçirilir. Bu sistemin aparıcı subyektlərini suveren dövlətlər təşkil edir. Sistemdə ali arbitr (münsif) olmadığından, dövlətlər özlərinin milli sərhədləri içərisində daxili siyasətin həyata keçirilməsində müstəqil və prinsipcə bərabərhüquqludur. Suverenlik bir-birinin işlərinə qarışmamağı nəzərdə tutur. Tədricən dövlətlər bu prinsiplər əsasında beynəlxalq münasibətləri tənzimləyən qaydalar toplusunu - beynəlxalq hüququ işləyib hazırlamışlar.

Əksər alimlər belə bir fikri bölüşürlər ki, Vestfal beynəlxalq münasibətlər sisteminin hərəkətverici qüvvəsini dövlətlərarası rəqabət təşkil etmişdir. Dövlətlər arasındakı kolliziyalar belə bir faktla müəyyənləşmişdir ki, bəzi dövlətlərin həyati əhəmiyyətli

mənafeləri digər dövlətlərin milli mənafeləri ilə toqquşmuşdur. Bir qayda olaraq, bu rəqabətin nəticəsi dövlətlər, yaxud onların özlərinin xarici siyasət məqsədlərinin reallaşdırılması üçün daxil olduqları ittifaqlar arasında qüvvələr nisbəti ilə müəyyən olunmuşdur. Tarazlığın, yaxud balansm yaradılması sabit dinc münasibətləri şərtləndirmişdir. Qüvvələr balansının pozulması isə son nəticədə müharibəyə və onun yeni konfiqurasiyada bərpasına gətirib çıxarmışdır. Bu sistemi əyanilik üçün bilyard kürələrinin hərəkəti ilə müqayisə edirlər. Dövlətlər bir-biri ilə toqquşaraq, dəyişən konfiqurasiyalar əmələ gətirir və sonra yenidən fasiləsiz mübarizədə hərəkəti davam etdirirlər. Başlıca prinsip mənafe, başlıca meyar isə qüvvədir.

Aydındır ki, keçən əsrin 1980-ci illərinin ikinci yarısı – 90-cı illərinin əvvəllərindən etibarən beynəlxalq münasibətlərdə baş vermiş köklü dəyişikliklər "soyuq müharibə"nin başa çatmasından və yeni sistemyaradıcı qanunauyğunluqlarm formalaşmasından söz açmağa imkan verir.

Bu gün əsas məsələ həmin qanunauyğunluqlarm nədən ibarət olması, yeni mərhələnin spesifik xüsusiyyətləri, onun Vestfal sistemi ilə ümumi və fərqli cəhətlərinin müəyyənləşdirilməsi, yeni beynəlxalq münasibətlər sisteminin ifadəsi ilə bağlıdır.

Əksər mütəxəssislər "soyuq müharibə" ilə beynəlxalq münasibətlərin müasir mərhələsi arasında sərhədi 1989-cu ilin payızında Mərkəzi Avropa ölkələrində baş vermiş siyasi dəyişikliklər dalğası ilə bağlayaraq, Berlin divarının yıxılmasını onun əyani simvolu hesab edirlər. Əksər tədqiqatlarm adında mövcud beynəlxalq münasibətlər sistemi "Soyuq müharibədən sonrakı dövr" (post-cold war) kimi ifadə olunur. Belə ifadə diqqəti keçən mərhələ ilə fərqin üzərində cəmləşdirir. Bu gün təşəkkül tapan sistemin əvvəlkindən fərqli xüsusiyyətləri "anti-kommunizm" və "kommunizm" arasında siyasi-ideoloji qarşıdurmanın aradan qalxması, "soyuq müharibə" illərində iki qütb - Vaşinqton və Moskva arasmda yaranmış blokların

hərbi qarşıdurmasının başa çatmasıdır. Lakin bu ifadə mövcud mərhələnin yeni mahiyyətini açıqlamır. Buna görə də mövcud beynəlxalq münasibətlərin təhlili zamanı dəyişən beynəlxalq həyat şəraitinin təsiri altmda baş verən yeni keyfiyyət proseslərinə diqqət yetirilməlidir. Son vaxtlar tez-tez belə bədbin fikirlər səslənir ki, yeni beynəlxalq vəziyyət az sabitdir və daha təhlükəlidir.

Vestfal sisteminin açıqlama metodologiyasına əsaslanan beynəlxalq münasibətlər elmi kommunizmin süqutunu və "soyuq müharibə"nin başa çatmasını öncədən görə bilmədi. Sistemlərin dəyişməsi tədrici surətdə baş verir.

Yeni beynəlxalq münasibətlər sisteminin təhlilinə yanaşmada belə bir fikir əsas götürülməlidir ki, "soyuq müharibə"nin başa çatması, prinsip etibarilə, vahid dünya birliyinin yaranması prosesini də başa çatdırmışdır. Bəşəriyyətin tədricən müstəmləkəçilik, ticarət coğrafiyasının genişlənməsi, iki dünya müharibəsi, müstəmləkəçilik sisteminin süqutu, "soyuq müharibə" qarşıdurması, elmi-texniki inqilab keçərək gəldiyi yol dünyanm vahid orqanizmə çevrilməsi ilə yekunlaşmışdır. Dünya birliyi artıq danılmaz gerçəklikdir. Məhz buna görə də son vaxtlar dünyanın qloballaşması məsələlərinə daha böyük diqqət yetirilir.

Görünür, məhz universal meyillərin təhlili dünya siyasətinin və beynəlxalq münasibətlərin dəyişikliklərinin istiqamətini daha dəqiq təsəvvür etməyə imkan verə bilər.

Bir sıra alimlərin və siyasi xadimlərin fikrincə, "kommunizm-anti-kommunizm" qarşıdurmasınm aradan qalxması milli dövlətlər arasında münasibətlərin ənənəvi strukturuna qayıtmağa imkan verir. Bu halda ikiqütblülüyün pozulması çoxqütblü dünyanın yaranmasını nəzərdə tutur. Həmin qütbləri ən qüdrətli dövlətlər təşkil etməlidir. ABŞ-ın keçmiş dövlət katibi H.Kissincer özünün "Diplomatiya" monoqrafiyasında göstərir ki, "soyuq müharibə"nin başa çatmasından sonra formalaşan beynəlxalq münasibətlər daha çox XIX əsr Avropa modelini

xatırladacaqdır. RF-in keçmiş Xarici İşlər Naziri akademik Y.M.Primakov çoxqütblülüyün yaranması fenomeninə böyük diqqət yetirmişdir. Bu, həm də ABŞ başda olmaqla təkqütblü dünyanın formalaşmasına qarşı yönəlmişdir. Belə ki, ABŞ rəsmiləri və tədqiqatçıları "təkqütblülük" ideyasını vurğulamağa üstünlük verirlər.

Geosiyasi baxımdan yanaşdıqda ötən əsrin 90-cı illərinin əvvəllərindən etibarən dünya xəritəsi ciddi dəyişikliklərə uğramışdır. Varşava Müqaviləsi Təşkilatının, Qarşılıqlı İqtisadi Yardım Təşkilatının dağılması Mərkəzi və Şərqi Avropa dövlətlərinin Moskvadan asılılığına son qoymuşdur. Sovet İttifaqının dağılması prinsipcə Avrasiya məkanında geosiyasi vəziyyəti dəyişmişdir. Postsovet məkanında yaranmış dövlətlər öz suverenliyini real məzmunla zənginləşdirərək, beynəlxalq münasibətlərin müstəqil subyektlərinə çevrilməkdədir. Postsovet məkanının beş suveren dövlətə bölünməsi əvvəllər vahid Sovet İttifaqı ilə əlaqə saxlayan qonşu ölkələr üçün də geosiyasi vəziyyəti dəyişmişdir. Əlbəttə, Rusiya Federasiyası postsovet və Avrasiya məkanmda ən güclü dövlət olaraq qalmaqdadır. Lakin onun potensialının Sovet İttifaqı ilə müqayisədə məhdudluğu beynəlxalq münasibətlərdə yeni davranış modelini diqtə edir.

Avropa qitəsində baş verən geosiyasi dəyişikliklər Avroposentrizmin və Qərbi Avropanm inteqrasiya strukturlarmın müstəqilliyinin güclənməsinə təkan verir.

Çinin iqtisadi cəhətdən güclənməsi və xarici siyasi fəallığının artması, Yaponiyanm dünya siyasətində özünün iqtisadi gücünə uyğun yeni yer axtarması Asiya-Sakit okean regionunda geosiyasi vəziyyətin də dəyişməsini şərtləndirir. Dünya siyasətində ABŞ-m xüsusi çəkisinin obyektiv surətdə artması müəyyən dərəcədə digər qütblərin müstəqilliyinin artması və Amerika cəmiyyətində təcridçilik meyillərinin güclənməsi ilə müşayiət olunur.

Yeni şəraitdə əvvəllər "üçüncü dünya"ya daxil olmuş böyük dövlətlər qrupunun xarici siyasət fəaliyyətinin koordinatları da

dəyişmişdir. Bloklara qoşulmamaq hərəkatı özünün əvvəlki məzmununu itirmiş, Cənubun diferensiyası güclənmiş, Şimalın monolitliyi azalmışdır.

Regionalizm çoxqütblülüyün başqa əlamətidir. Regional qruplaşmalar dünyanın geosiyasi xəritəsinin dəyişdirilməsinə özünəməxsus xüsusiyyətlər əlavə edirlər. "Sivilizasiya" məktəbinin tərəfdarları çoxqütblülüyü mədəniyyət-sivilizasiya bloklarının qarşılıqlı fəaliyyəti, yaxud qarşılaşması kimi nəzərdən keçirirlər. S.Hantinqtonun fikrincə, "soyuq müharibə"nin ideoloji ikiqütblülüyünü mədəniyyət-sivilizasiya bloklarının çoxqütblülüyünün toqquşması əvəz edəcəkdir. Həqiqətən, regional proseslər fərqli sivilizasiyalar fonunda cərəyan edir. Lakin dünya birliyinin məhz bu əlamət üzrə bölünməsi ehtimalı hələ konkret institusional, yaxud siyasi reallıqlara əsaslanmır. Hətta İslam və Qərb sivilizasiyalarının qarşıdurması belə tədricən öz kəskinliyini itirir. İqtisadi regionalizm daha əyani xarakterə malikdir. Regional siyasi institutlar da müəyyən dəyişikliklərlə öz əhəmiyyətini saxlamaqdadır.

Bir sözlə, "soyuq müharibə"nin başa çatmasından sonra dünyanın geosiyasi xəritəsində ciddi dəyişikliklər baş vermişdir. Lakin çoxqütblülük yeni beynəlxalq münasibətlər sisteminin mahiyyətindən daha çox onun formasını ifadə edir. Buna görə də iddia etmək olar ki, dünya birliyinin davranışına Vestfal sistemi çərçivəsində ənənəvi surətdə mövcud olanlardan fərqlənən yeni hərəkətverici qüvvələr təsir göstərməyə başlamışdır. Bu tezisi dəyərləndirmək üçün dünya birliyinin davranışına təsir göstərən yeni amillər nəzərdən keçirilməlidir.

Ötən əsrin 80-90-cı illərinin ayırıcında dünyanın sosial-siyasi məkanı keyfiyyətcə dəyişmişdir. Əksər xalqların sosializm birliyindən imtina etməsi və bazar demokratiyası yolunu seçməsi antoqonist sosial-siyasi sistemlərin qarşıdurmasının aradan qalxmasını və dünya siyasətində açıq cəmiyyətlərin xüsusi çəkisinin xeyli artmasını şərtləndirmişdir. Avrasiya məkanının xeyli hissəsində sosial-siyasi quruluşun demokratik

formasının xeyrinə konsensus əldə olunmuşdur. Bu dövlətlərdə islahatlar prosesinin uğurla başa çatması və açıq cəmiyyətlərin təşəkkülü halında Şimal yarımkürəsinin çox hissəsində yaxın sosial-siyasi və iqtisadi prinsiplər üzrə yaşayan, yaxın dəyərlərə istinad edən xalqların birliyi yaranmış olacaqdır. "Birinci" və "ikinci" dünya arasında qarşıdurmanın başa çatmasının təbii nəticəsi kimi avtoritar rejimlərə verilən dəstək zəifləmiş və aradan qalxmışdır. Belə rejimlər artıq ideoloji müttəfiq kimi öz dəyərini itirmiş və dəstəkdən məhrum olmuşlar.

1980-ci illərin ikinci yarısında bütün qitələrdə geniş-miqyaslı demokratikləşmə prosesi başlanmışdır. Braziliya, Argentina, Çili hərbi-avtoritar idarəetmədən mülki parlament idarəçiliyinə keçmişlər. Bu meyil daha sonra Mərkəzi Amerikada vüsət almışdır. Belə bir nümunəvi faktı göstərmək olar ki, Kubanın çağırılmadığı Şimali və Cənubi Amerika ölkələrinin 1994-cü il Zirvə görüşündə iştirak edən 34 dövlət başçısının hamısı demokratik yolla seçilən mülki liderlər olmuşdur. Analoji demokratikləşmə prosesləri Asiya-Sakit okean regionunda (ASR) da müşahidə olunur (Filippin, Tayvan, Cənubi Koreya). CAR-ın aparteid siyasətindən imtina etməsi demokratiyaya doğru böyük addım olmuşdur. Digər Afrika ölkələrində avtoritarizmdən imtina daha aşağı sürətlə baş verir. Lakin Efiopiyada, Somalidə, Uqandada, Zairdə diktatura rejimlərinin süqutu göstərir ki, demokratikləşmə dalğası bu qitədən də yan keçmir. Demokratiya fərqli yetkinlik dərəcəsinə malikdir. Bu, demokratik cəmiyyətlərin təkamülündə əyani surətdə təzahür edir. 80-ci illərin sonunda müxtəlif ölkələrdə sosial-siyasi modellərin dəyişməsi kimi qlobal proses fərqli ilkin vəziyyətdən başlanmışdır, onun nəticələri də fərqlidir.

Lakin bu prosesin vüsəti dünya birliyinin sosial-siyasi məkanının keyfiyyətcə dəyişməsi nəticəsinə gəlməyə imkan verir. Cəmiyyətin təşkilinin demokratik forması müvafiq dövlətlər arasında kəskin ziddiyyətləri, bəzən isə münaqişəli vəziyyətləri aradan qaldırmır. Lakin belə bir danılmaz fakt

mövcuddur ki, bütün tarix boyunca hələ demokratik dövlətlər bir-biri ilə müharibə aparmamışlar.

Bu gün kommunizm sosial-siyasi sistem kimi yalnız Çin, Vyetnam, Şimali Koreya və Kubada qalmaqdadır. Demək olar ki, bütün keçmiş sosialist ölkələrində bazar demokratiyası elementləri tətbiq olunur. Azsaylı kommunist dövlətlərinin digər dövlətlərlə münasibətləri "dinc qonşuluq" vəziyyəti ilə xarakterizə olunur. Xarici siyasətdə praqmatizm üstünlük təşkil edir. Keçən əsrin təcrübəsi göstərir ki, kommunizm sisteminin doğurduğu xarici siyasət demokratik cəmiyyətlərin yeritdiyi xarici siyasətlə ziddiyyətə girir. Əlbəttə, sosial-siyasi sistemlərin radikal surətdə fərqlənməsi faktı labüd surətdə hərbi münaqişəni şərtləndirmir. Lakin bu ziddiyyətlər belə münaqişə ehtimalını istisna etmir.

Bu gün bir sıra dövlətlərdə avtoritar idarəçilik möhkəmlənmişdir. Avtoritar rejimli bəzi müsəlman ölkələri dünya siyasətinə mühüm təsir potensialına malikdir. Avtoritar rejimlərin qalması və onların sayının artmasının mümkünlüyü həmin rejimlərin özlərinin və onlarda demokratik dövlətlərin arasında hərbi qarşıdurma təhlükəsi doğurur. Gələcəkdə ən təhlükəli proseslər məhz avtoritar rejimli ölkələrin demokratik dünya ilə kəsişməsi xəttində cərəyan edə bilər. Avtoritarizmdən imtina etməsinə baxmayaraq, hələ demokratik sistemin möhkəmlənmədiyi ölkələr də münaqişə təhlükəsindən qurtulmayıb. Lakin son vaxtlar təzahür edən başlıca meyil qlobal sosial-siyasi müstəvinin demokratiyanın xeyrinə dəyişdiyini göstərir. Beynəlxalq münasibətlərin gələcək inkişaf yollarının tədqiqi demokratik yetkinliyin fərqli dərəcəsinə malik ölkələr arasında münasibətlərin qanunauyğunluqlarının ətraflı təhlilini ehtiva etməlidir.

Dünya iqtisadi sistemində də ciddi dəyişikliklər müşahidə olunur. Əksər keçmiş sosialist ölkələrinin mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan imtina etməsi bu ölkələrin potensialının da qlobal bazar iqtisadiyyatı sisteminə qoşulmasım şərtlən-

dirdi. Sosializmin iqtisadi strukturları heç vaxt Qərb iqtisadi sistemi ilə ciddi rəqabət apara bilməmişdir. Belə ki, keçən əsrin 80-ci illərinin sonunda QİYŞ üzvü olan ölkələrin dünya ümumi daxili məhsulunda xüsusi çəkisi, təxminən 9% təşkil etdiyi halda, inkişaf etmiş kapitalist ölkələrinin payı 57%-ə çatırdı. "Üçüncü dünya" iqtisadiyyatınm böyük hissəsi bazar sisteminə əsaslanırdı. Buna görə də sosialist ölkələrinin iqtisadiyyatının dünya təsərrüfatına qoşulması vahid qlobal sistemin bərpasının başa çatmasım ifadə edirdi. Keyfiyyət dəyişiklikləri isə hələ "soyuq müharibə" başa çatana qədər müşahidə olunurdu.

Keçən əsrin 80-ci illərində dünya iqtisadiyyatının liberallaşdırılmasına doğru irəliləyiş müşahidə olunurdu. Bu proses bir sıra ölkələrin, məsələn, Sinqapur, Honkonq, Tayvan, Cənubi Koreya iqtisadiyyatımn görünməmiş artım sürətini şərtləndirdi. Türkiyədə aparılan iqtisadi islahatlar bu ölkənin sürətlə modernləşdirilməsinə təkan verdi. Ötən əsrin 90-cı illərində liberallaşma prosesi Latın Amerikası ölkələrini – Braziliya, Argentina, Çili, Meksika və Nikaraquanı əhatə etdi. Hindistanda da islahatlar həyata keçirilməyə başlandı. Çin iqtisadiyyatında xarici dünyaya açıq siyasətin aparılması öz nəticələrini verməyə başladı.

Bu proseslərin məntiqi nəticəsi kimi milli iqtisadiyyatların beynəlxalq qarşılıqlı fəaliyyəti xeyli genişləndi. Beynəlxalq ticarətin artım sürəti dünyada iqtisadi artım sürətini ötüb keçdi. Bu gün dünya məcmu məhsulunun 90%-dən çoxu xarici bazarlarda realizə olunur. Beynəlxalq ticarət dünya birliyinin rifah halının artmasının universal amilinə çevrilmişdir. Ümumdünya Ticarət Təşkilatının yaradılması beynəlxalq ticarətin keyfiyyətcə yeni səviyyəyə qalxdığım, dünya təsərrüfat sisteminin qarşılıqlı asılılığının artmasını nümayiş etdirir.

Son onillikdə maliyyə kapitalının beynəlmiləlləşməsi prosesi də bu istiqamətdə inkişaf etmişdir. Bu, beynəlxalq investisiya axınlarının intensivləşməsində xüsusilə əyani surətdə təzahür edir. Dünyada investisiya mühiti əhəmiyyətli dərəcədə dəyişmişdir.

Demokratikləşmə, siyasi sabitləşmə və iqtisadi liberallaşdırma bir çox regionların xarici investorlar üçün daha cəlbedici olmasını şərtləndirmişdir. "Asiya pələngləri"nin və Çinin örnəyi əksər inkişaf etməkdə olan dövlətləri və keçid iqtisadiyyatına malik ölkələri investisiyaların cəlb edilməsi uğrunda mübarizəyə sövq etmişdir. 90-cı illərinin ortalarında xarici investisiyaların həcmi 2 trilyon dolları ötmüşdür. Bu göstərici artmaqda davam edir. Beynəlxalq bankların, investisiya fondlarının və qiymətli kağızlar birjalarının fəallığının xeyli artması bu prosesi daha da sürətləndirir. Nəticədə transmilli korporasiyaların fəaliyyət dairəsi daha da genişlənir, bu gün onlar dünyanın bütün özəl şirkətlərinin aktivlərinin təxminən üçdə birinə nəzarət edirlər.

Əlbəttə, milli dövlətlərin mənafelərinin təmin edilməsi hər bir dövlətin başlıca vəzifələrindən biri olaraq qalır. Bununla bağlı dövlətlərarası ziddiyyətlər hələ də mövcuddur. Hazırda dünya iqtisadi sisteminin beynəlmiləlləşməsi və qarşılıqlı asılılığının güclənməsi prosesi iki müstəvidə – qlobal və regional inteqrasiya istiqaməti üzrə cərəyan edir. Nəzəri cəhətdən regional inteqrasiya regionlararası rəqabətə təkan verə bilər. Lakin dünya iqtisadi sisteminin bir sıra yeni xüsusiyyətləri bu təhlükəni məhdudlaşdırır. Bu, dünya miqyasında maneələrin radikal surətdə azalmasını şərtləndirir.

Dünya iqtisadi sisteminin yeni keyfiyyətləri – bazar təsərrüfatı zonasının sürətlə genişlənməsi, milli iqtisadiyyatların liberallaşdırılması və onların ticarət və beynəlxalq investisiyalar vasitəsilə qarşılıqlı əlaqəsi, dünya iqtisadiyyatının getdikcə daha çox subyektinin – transmilli korporasiyaların, bankların, investisiya qruplarının beynəlmiləlləşməsi dünya siyasətinə, beynəlxalq münasibətlərə ciddi təsir göstərir. Dünya iqtisadiyyatının bütün iştirakçılarının mənafeləri yalnız iqtisadi sahədə deyil, həm də hərbi-siyasi sahədə sabitliyin qorunub saxlanmasını tələb edir.

Bəzi alimlər dünya iqtisadiyyatının qarşılıqlı asılılığının yeni keyfiyyət səviyyəsini və onun mühüm bir hissəsinin

beynəlmiləlləşməsini sərf-nəzər edirlər. Lakin yeni beynəlxalq münasibətlər sisteminin formalaşması baxımından belə bir fakt önəm kəsb edir ki, yeni dünya iqtisadi birliyinin yaranması prosesi sosial-siyasi sahədəki demokratik dəyişikliklərlə qarşılıqlı təsirə malikdir. Bundan başqa, son vaxtlar dünya iqtisadiyyatının qloballaşması daha çox dünya siyasətinin və təhlükəsizlik sahəsinin sabitləşdiricisi rolunu oynayır.

Bu gün dünya iqtisadiyyatınm əsas problemi sənaye baxımından inkişaf etmiş dövlətlərlə inkişaf etməkdə olan dövlətlər arasında böyük fərqin mövcudluğudur. Qloballaşma prosesi, ilk növbədə, inkişaf etmiş ölkələr birliyini əhatə edir. Bir çox mütəxəssislərin fikrincə, inkişaf etməkdə olan iqtisadiyyatların dünya liderlərinə çatması mümkün deyildir. Planlı sistemdən bazar modelinə keçən iqtisadiyyatlar özünəməxsus xüsusiyyətlərə malikdir.

Şimal və Cənub arasında mövcud olan fərqin dünya siyasətinə təsiri ilə bağlı iki yanaşma mövcuddur. Bir çox alimlər bu fenomeni gələcək münaqişələrin mənbəyi hesab edirlər. Başqa bir yanaşma isə bundan ibarətdir ki, dünya iqtisadiyyatının beynəlmiləlləşməsi Şimal və Cənub arasmdakı iqtisadi fərqin yeni qlobal cəbhələşmə mənbəyinə çevrilməyəcəyinə ümid yaradır.

Dünya iqtisadiyyatının liberallaşmasmm və qloballaşmasınm uzlaşması həm də gizli təhlükələr doğurur. Liberallaşma rəqabət üzərindəki məhdudiyyətləri götürür, qloballaşma isə rəqabət sahəsini genişləndirir. Bu baxımdan dünya iqtisadiyyatında yalnız müsbət meyillərin deyil, həm də mənfi halların qloballaşması müşahidə olunur. İstənilən halda dünya siyasətinin yeni mərhələsi iqtisadi komponenti ön sıraya çıxarır. Son illərdə "səkkizlik", ÜTT, BVF və DB kimi beynəlxalq iqtisadi təsisatların dünya siyasətinə təsiri BMT Təhlükəsizlik Şurasının, regional siyasi təşkilatlar, hərbi ittifaqlarla müqayisə olunur. Beləliklə, dünya siyasətinin iqtisadiləşməsi və dünya iqtisadiyyatının yeni keyfiyyət kəsb etməsi formalaşmaqda

olan beynəlxalq münasibətlər sisteminin əsas parametrlərindən birinə çevrilir.

Soyuq müharibənin başa çatması dünya siyasətində hərbi təhlükəsizlik amilinin yerini və rolunu kökündən dəyişməsi ilə üst-üstə düşmüşdür. Ötən əsrin 80-ci illərinin sonundan etibarən "soyuq müharibə"nin hərbi cəbhələşmə potensialının azalması müşahidə olunur. Dünya üzrə müdafiə xərcləri sabit surətdə azalır. Silahların və silahlı qüvvələrin ixtisarı həyata keçirilir. Hərbi-sənaye kompleksinin çox hissəsinin konversiyası aparılır.

Eyni zamanda, bir sıra regionlarda münaqişələrin fəallaşınası müşahidə olunur. Bu, qlobal müharibə təhlükəsinin azalması ilə müşayiət olunur. Nüvə silahının inqilabi xarakteri bir daha təsdiqini tapır. Belə ki, nüvə silahının yaradılması tərəflərdən birinin qələbəsi imkanını istisna etmişdir. Hələ 1946-cı ildə Amerika alimi R.Broudi nüvə silahının bu keyfiyyət xarakteristikasına diqqət yetirərək bildirmişdi ki, gələcəkdə onun yeganə vəzifəsi və funksiyası müharibədən çəkindirmək olacaqdır. Bütün "soyuq müharibə" dövründə həm ABŞ, həm də Rusiya bu inqilabi reallıqdan yan keçməyə cəhd göstərmişlər. Lakin sonda fövqəldövlətlər belə bir labüd nəticəyə gəlmişlər ki, nüvə silahının tətbiqi yalnız düşmənin məhvi olmayıb, həm də intihara bərabərdir.

Soyuq müharibə illərində nüvə qarşıdurması təcrübəsi və sonrakı illərdə bu sahədə cərəyan edən proseslər aparıcı dövlətlərin qələbənin təmin edilməsi vasitəsi kimi nüvə silahından imtina etməsi nəticəsinə gəlməyə imkan verir. Bununla birlikdə, nüvə tərkisilahının qarşısında bir sıra maneələr mövcuddur. Nüvə silahından tam imtina həm də onun yerinə yetirdiyi çəkindirmə funksiyasının başa çatmasını ifadə edir. Digər tərəfdən, artıq bəzi ölkələr (İsrail, Hindistan, Pakistan) nüvə silahına yiyələnmək istiqamətində tərəqqiyə nail olmuşlar.

Şimali Koreyanın nüvə silahının sınaqlarını davam etdirməsi bu sahədə vəziyyəti dərinləşdirir. Bu gün nüvə silahının yayılmasının qarşısını almaq vəzifəsi prioritet baxımından

strateji silahların ixtisarı vəzifəsini üstələyir. Eyni zamanda, raket hücumundan müdafiə problemi və müvafiq müqavilənin taleyi böyük önəm kəsb edir.

Digər aktual problem lokal münaqişələr fenomeni ilə bağlıdır. "soyuq müharibə"nin başa çatması lokal münaqişələrin fəallaşması ilə müşayiət olunur. Bu münaqişələrin bir çoxu Sovet İttifaqının, Yuqoslaviyanın dağılmasının, etnik ziddiyyətlərin kəskinləşməsinin nəticəsidir. Eyni zamanda, Yaxın Şərqdəki "ənənəvi" münaqişə davam etməkdədir. 90-cı illərin əvvəllərində vüsət alan bir sıra münaqişələrin kəskinliyi indi azalmışdır. Bu, ilk növbədə, beynəlxalq sülhyaratma səylərinin intensivləşməsi ilə bağlıdır. Lokal silahlı münaqişələrin qlobal mənzərəsi də dəyişməkdədir. Əgər 1995-ci ildə 30 belə münaqişə qeydə alınmışdısa, 2006-cı ildə bu rəqəm 12-yə enmişdir.

Bu gün aparıcı Qərb dövlətlərinin, ilk növbədə, ABŞ-ın rəhbərliyi altında həyata keçirilən hərbi əməliyyatlar daha böyük aktuallıq kəsb etmişdir. İraq və Əfqanıstanda aparılan əməliyyatlar buna əyani sübutdur.

Qlobal səviyyədə hərbi cəbbəxanaların ixtisarı aparıcı dövlətlərlə digər ölkələr arasında silahlanma sahəsində keyfiyyət fərqinin yaranmasına səbəb olmuşdur. "soyuq müharibə"nin kateqoriyaları ilə ifadə etsək, Şimal və Cənub arasında hərbi qüvvələr balansı birincinin xeyrinə daha da dəyişmişdir. Bu fonda ABŞ-ın dünyanın əksər bölgələrində hərbi təhlükəsizlik sahəsində vəziyyətin inkişafına təsir imkanlarının artması diqqəti cəlb edir. Bu gün ABŞ hərbi cəhətdən yeganə qlobal fövqəldövlətə çevrilmişdir.

Bütövlükdə qlobal hərbi təhlükəsizlik sahəsində yeni situasiya klassik anlamda müharibədən istifadənin məhdudlaşması meyli ilə müəyyən olunur. Eyni zamanda, qüvvə tətbiqinin yeni formaları meydana çıxır. Hərbi sahədə baş verən dəyişikliklər sosial-siyasi və iqtisadi sahələrdə cərəyan edən proseslərlə birlikdə yeni beynəlxalq münasibətlər sisteminin formalaşmasına ciddi təsir göstərir.

# III FƏSİL

# DÜNYA SİYASƏTİNİN MÜASİR ÖLÇÜLƏRİ VƏ PERSPEKTİVLƏRİ

Bu gün nəinki sadə insanların, hətta beynəlxalq münasibətlər sahəsində işləyən ekspertlərin dilində də dünyanın dəyişilməsi barədə mülahizələr səslənir. Onun müsbət və ya mənfiyə doğru dəyişilməsi rəyini iddia etmək fikrində deyilik. Hesab edirik ki, beynəlxalq siyasətdə müsbət və ya mənfi anlayışlar olduqca nisbi anlayışlardır. Öz qüvvəsini "soyuq müharibə"dən sonra artırmağa başlayan dövlət üçün dünya, şübhəsiz ki, müsbətə doğru dəyişmişdir. Lakin əvvəlki şöhrət və qüvvəsini itirmiş, müxtəlif cəhdlərə baxmayaraq öz əvvəlki status və qüvvəsini bərpa etməyə müvəffəq olmayan dövlət üçün dünya mənfiyə doğru dəyişmişdir.

Ümumilikdə dövlətlərin tarixinə nəzər salsaq, qeyd etmək olar ki, bəşər tarixində zəif və güclü dövlətlərdən ibarət olmyan və güclü dövlətin zəif dövlətə öz iradəsini zorla qəbul etdirməyə çalışmadığı bir dünya mövcud olmamışdır. Digər tərəfdən, dünya hələ ki, bir dövlətin bütün dünya və ya heç olmazsa insanların məskunlaşdığı bütün ərazilər üzərində tam hegemonluğunu həyata keçirdiyi bir proseslə də üzləşməmişdir. Halbuki, bizə müxtəlif tarixi dövrlərdə müxtəlif dövlətlərin dünyada tam hegemonluq yaratmaq cəhdləri də məlumdur. Misal olaraq, Fransanın I Napoleonun hakimiyyəti dövründə apardığı müharibələri, iki dünya müharibəsini və əlbəttə "soyuq müharibə" dövründəki qarşıdurmanı göstərmək kifayətdir. Mahiyyətcə tam hegemonluq cəhdlərini qonşularından güclü olan bütün dövlətlər etmişlər: Makedoniyalı İsgəndərin imperiyası, Roma imperiyası, Monqol imperiyası və s. misal göstərmək olar. Bi-

rinci və ikinci misallar arasındakı yeganə fərq hegemonluğa cəhd etmədəki miqyaslardadır. Bu isə təbii ki, coğrafi kəşflər və ümumilikdə elmin inkişafı ilə bağlıdır.

Yer kürəsinin bugünkü siyasi mənzərəsi bir üstün dövlət, bu status iddiasında olan bir neçə ölkə və bu statusa heç bir zaman nail ola bilməyəcəklərini başa düşən (ərazi və demoqrafik ehtiyatların məhdud olması səbəbindən), özü üçün maksimum qazanc əldə etmək məqsədilə birinci və ikincilərin ziddiyyətləri arasında manevr edən dövlətlərin daxil olduğu dünyadan ibarətdir. "Üstün dövlət" termini ABŞ və SSRİ-nin "Soyuq müharibə" dövründə qarşıdurması zamanı meydana çıxmışdır. Hər iki dövlət hərbi cəhətdən o qədər güclü və qüdrətli idi ki, dağıdıcılığına görə müharibənin nəticələri II Dünya müharibəsinin nəticələrini 10 dəfə aşa bilərdi (xüsusilə də nüvə amilini nəzərə alsaq). Bir sözlə, beynəlxalq siyasət qeyri-mümkün bir dilemma ilə qarşılaşmış oldu – sülh qeyri-mümkündür, müharibə ağılsızlıqdır. Bu ABŞ ilə SSRİ arasmda bir dəfə belə olsun birbaşa hərbi qarşıdurmanın baş vermədiyi bir müharibə oldu. Digər tərəfdən, o zaman dünyada mövcud olan bütün münaqişələr (xüsusilə ideoloji zəmində) bu ölkələr tərəfindən təkan alır və müdafiə edilirdilər. İdeologiya bipolyar dünyada bəzən bir milləti iki mübarizə aparan düşərgəyə bölmək iqtidarında olacaq dərəcədə mühüm rol oynayırdı. Vyetnam, Koreya və Almaniyada baş verən hadisələr bunu bir daha sübut edir.

Ümumilikdə "Soyuq müharibə"nin gedişi və nəticəsini, eləcə də bəşər tarixinin bütün məlum müharibələrini, qarşıdurmalarını və böhranlarını təhlil edərək belə bir qənaətə gəlirik ki, beynəlxalq iştirakçılar hər zaman bir-biri ilə mübarizə aparmış, aparır və aparacaqlar. Bu mübarizə isə öz növbəsində 3 səviyyədə özünü göstərir:

1. Siyasi səviyyə – özünü bir dövlətin digər dövlət qarşısında bütün mümkün metodlar vasitəsilə ya tam siyasi nəzarəti təsbit etməsində ya da ölkədəki siyasi rejimi dəyişmək cəhdlərində göstərir.

2. İqtisadi səviyyə – özünü dövlətin zənginləşmək cəhdlərində göstərir. Bu cəhd istər-istəməz digər dövlətlərin eyni fikri tətbiq etmək cəhdləri ilə üst-üstə düşür, bu isə iqtisadi mübarizəyə gətirib çıxarır. Satış bazarı, hər hansı bir istehsal sahəsi üzərində inhisar nəzarəti, mühüm maddi ehtiyatlara nəzarət uğrunda mübarizə iqtisadi mübarizənin təzahürüdür.

3. Mədəni səviyyə – özünü dövlətin öz mədəniyyətini digər bir dövlətə zorla qəbul etdirmək cəhdlərində göstərir. Qarşı tərəf yeni dəyərlərin öz cəmiyyətinə sirayət etdirilməsinə qarşı hər zaman etiraz etmir. Bəzən dövlətin özü bir qayda olaraq hər hansı siyasi və ya iqtisadi maraqlar güdərək (Türkiyənin Avropa İttifaqına daxil olmaq məqsədilə həyata keçirdiyi fəaliyyət buna misal ola bilər), yeni dəyərləri alqışlayaraq onların daxil edilməsinə yardım edə bilər.

Bəşər tarixində baş verən bütün müharibələrin hər üç səviyyədə baş verməsini hesab etmək yanlış olardı. Müharibə yalnız siyasi səviyyədə baş verə bilər, lakin demək olar ki, hər zaman istənilən müharibədə ideoloji maşın və iqtisadi maraqlar münaqişənin inkişafında əhəmiyyətli rol oynayır. Beləliklə, dövlətlər arasında münaqişə yalnız bir və ya iki səviyyədə də keçə bilər, yaxud bir səviyyə əsas, digərləri isə ikinci dərəcəli rol oynaya bilər.

Siyasi səviyyədə mübarizənin müvəffəqiyyətlə aparılması üçün dövlət hərbi və iqtisadi cəhətdən dünyada güclü təsirə malik qüdrətli subyekt olmalıdır. Siyasi hökmranlığa cəhd əsasən hərbi və iqtisadi qüvvənin artıq olması səbəbi ilə izah edilir.

İqtisadi səviyyədə mübarizə aparılması üçün dövlət digər ölkələrə yatırımlar qoymağa, dünya bazarlarını öz məhsulları ilə doldurmağa və bununla da digər ölkələri özündən iqtisadi asılılığa salmağa qadir güclü iqtisadi bazaya malik olmalıdır. Bundan əlavə bir dövlət digər dövləti kreditlərin verilməsi vasitəsilə də özündən iqtisadi asılılığa sala bilər.

Mədəni səviyyədə mübarizə aparılması üçün dövlət güclü ideoloji təbliğata, mədəniyyətinin cəlbediciliyi və onun ixra-

cı üçün böyük vəsaitlərə malik olmalıdır. Öz mədəniyyətini yaymaq cəhdləri bir çox amillərlə izah edilir. İlk növbədə bu, onunla izah edilir ki, eyni bir mədəni dəyərlərə malik dövlətlər müxtəlif mədəniyyətlərə malik dövlətlərdən fərqli olaraq bir-biri üçün az təhlükəlidir. Bəzi idealist alimlər bu məsələdə bir qədər də irəli gedərək ümumi mədəniyyətə malik dövlətlərin qarşıdurma ehtimalını demək olar tamamilə istisna edir. Beləliklə, məsələn filosof Kant sübut etmişdir ki, həqiqi demokratiyanın mövcud olduğu iki dövlət bir-birinə qarşı mübarizə apara bilməz. O, bu rəyi hökumətin digər bir demokratiyaya qarşı aqressiv siyasəti zamanı xalqın demokratik üsullar vasitəsilə öz aqressiv hökumətini devirəcəyi ilə sübut etməyə çalışırdı. Lakin nədənsə Kantın heç ağlına belə gəlməmişdir ki, demokratik ölkələrdə hökumət öz aqressiyasını xalqa elə təqdim edə bilər ki, xalq dövlətin bütün bəşəriyyətin azad və ya xilas olması uğrunda mübarizə aparmasını fikirləşə bilər.

ABŞ-ın bütün dünya səviyyəsində hərbi əməliyyatları yuxarıda qeyd edilənlər üçün ideal misal ola bilər. Corc Buşun yenidən seçilməsi isə onun öz xalqını ABŞ-ın təcavüzkar deyil, bütün dünyanın xilaskarı olduğuna inandırmağa müvəffəq olduğunu sübut edir. Digər tərəfdən, öz mədəniyyətini ixrac etmək cəhdləri mədəni dəyərlərin idxalçısının ixracatçıdan tam və ya qismən siyasi yaxud iqtisadi asılılığı kimi başa düşülə bilər. Bu cür təzahür özünü "Soyuq müharibə" dövründə iki ideoloji blokun qarşıdurmasında daha aydın şəkildə büruzə verirdi. Kommunist inkişaf modelini seçmiş dövlət nəticədə Moskvadan çox güclü bir asılılığa düşmüş olurdu (rəhbəri Tito olan Yuqoslaviya, gələcəkdə isə Çin istisnalıq təşkil etdilər). ABŞ-ın rəhbərlik etdiyi kapitalist bloku ilə eyni hadisə baş verdi.

Beləliklə, bütün bu səviyyələrin sıx əlaqəsini adi gözlə də görmək mümkündür. Belə ki, məsələn, dövlətlərin iqtisadi qarşıdurmaları nəticədə silahlı münaqişəyə gətirib çıxarar və bununla da qarşıdurmanı siyasi səviyyəyə çıxara bilər. Digər tərəfdən dövlətlər bir səviyyədə əməkdaşlıq edə, digər səviyyədə

isə mübarizə apara bilər. Məsələn, ABŞ və Yaponiya dünyada əsas iqtisadi rəqiblərdir, lakin eyni zamanda ölkələr Sakit okean regionunda başlıca siyasi müttəfiqlərdir.

"Soyuq müharibə" hər üç səviyyədə mübarizənin eyni dərəcədə geniş miqyasda aparıldığı bir qarşıdurma idi. ABŞ-ın qalibiyyəti və SSRİ-nin məğlubiyyəti də hər üç səviyyədə baş vermişdir. Siyasi səviyyədə mübarizənin sonu SSRİ-nin tamamilə dağılması, əsasən proamerika xarici siyasət xətti tutmuş bir çox müstəqil dövlətlərin yaranması ilə bitmişdir, SSRİ-nin varisi Rusiya isə demək olar ki, bir onillik ərzində ölkə daxilindəki siyasi böhranlardan yaxa qurtara bilməmişdir.

Hələ "soyuq müharibə"nin başlandığı dövrdə SSRİ iqtisadi cəhətdən ABŞ-dan xeyli geri qalırdı. SSRİ-ni haqlı olaraq "iqtisadi cırtdan və hərbi nəhəng" adlandırırdılar. Başqa sözlə, iqtisadi mübarizədə SSRİ üzərində üstünlüyü ABŞ hələ "so yuq müharibə" başlandığı vaxtdan əldə etmişdir. ABŞ bazar iqtisadiyyatı şəraitində ən güclü iqtisadi imperiyaya çevrilməyə müvəffəq olmuşdur. İkinci Dünya müharibəsindən sonra ABŞ-ın payına dünyanın ÜDM 50% düşürdü. Nəticədə məhz sonradan siyasi böhrana çevrilən iqtisadi böhran SSRİ-nin dağılmasına səbəb olmuşdur. Beləliklə, demək olar ki, məhz ABŞ-ın iqtisadi səviyyədə qalibiyyəti digər iki səviyyədə qalibiyyətin də təməlini qoydu.

Sözsüz ki, ABŞ ən irimiqyaslı qalibiyyəti məhz mədəni səviyyədə mübarizədə əldə etmişdir. "Soyuq müharibə"nin sonu bir çox sosialist ölkələrinin kommunizmdən imtina etməsi və kapitalist inkişaf yoluna qədəm qoyması ilə yadda qaldı. Kommunizm artıq cəlbedici və rəqabət aparmağa qadir ideologiya kimi görünmür, kommunist olaraq qalan ölkələr isə artıq bu ideologiyanın yayılmasının qeyri-mümkünlüyünü anlayırdılar. Bununla da tədricən bütün dünyada kommunizmin müdafiə edilməsi prinsipindən imtina edib öz xarici siyasətində dinc yaşayış prinsipinə keçdilər. İş o yerə gəlmişdi ki, hazırda Rusiya Federasiyası da daxil olmaqla postsovet respublikaları vətən-

daşlarının böyük əksəriyyəti kommunizmə neqativ şəkildə, bir çox hallarda isə hətta nifrətlə yanaşır.

ABŞ-ın öz yeganə rəqibi üzərində tam olaraq qələbə çalmasına baxmayaraq siyasi mübarizə hələ də davam edir. Yeganə üstün dövlət olan ABŞ dünyada yeganə hegemona çevrilə bilmədi. Bu səbəbdən ABŞ hələ də öz qüvvəsini artırmaqda və dünya üzərində öz təsirini yaymaqda davam edir. Belə ki, layiqli rəqibin və ya heç olmazsa özünün əleyhinə layiqli koalisiyanın olmaması səbəbindən ABŞ dünya üzərində tam hegemonluq uğrunda daha böyük vəchlə və eləcə də dünya ictimaiyyəti tərəfindən tez-tez əsassız və qeyri-düzgün metodlar kimi xarakterizə edilən yeni metodlarla mübarizə aparmağa başladı.

Hazırda dünyada məlum mənada bir mərkəzin tam hegemonluğunun olmamasına baxmayaraq dünyada eyni tipli hegemonluq mövcuddur. Hegemonluq hərfi mənada "bir dövlətin digər dövlət və ya dövlətlər üzərində rəhbərliyində üstün mövqeyi" deməkdir. Dövlətlərin mövcud olma tarixi boyunca güclü dövlətlərin digər dövlətlər üzərində öz hegemonluğunu bərqərar etmək cəhdləri göstərməsinə bir çox misal gətirmək olar. Qədim zamanlarda Roma və Çin imperiyaları regionda öz hegemonluqlarını kifayət qədər müvəffəqiyyətlə bərqərar etməyə nail olmuşlar. Roma imperiyası bütün Aralıq dənizi regionunu, eləcə də ona bitişik əraziləri öz tərkibinə daxil etməyə müvəffəq olmuşdur. Çin imperiyası demək olar həmin dövrdə Asiyanın şimal-şərq hissəsində yeganə hegemona çevrilmişdir. Orta əsrlərdə Monqol imperiyası Avrasiya qitəsinin təxminən ikidə bir hissəsini zəbt etmiş və bununla da ən böyük qitənin şərq hissəsində vahid hegemona çevrilmişdir. Şübhəsiz ki, yuxarıda adı çəkilmiş imperiyalar elə bir dövlətlər idi ki, onların mövcudiyyəti boyunca hegemonluğuna heç kəs şübhə ilə yanaşa bilməzdi. Bu imperiyalar sonralar dünya hökmranlığına iddialı dövlətlərin regional sələfləri olmuşlar. Roma və Çinin imperiya strukturu həm siyasi, həm də iqtisadi cəhətdən yüksək inkişaf səviyyəsinə nail olmuşdur, halbuki mərkəzin geniş vüsət almış

mədəniyyət üstünlüyünün qəbul edilməsi mühüm rol oynayırdı. Əksinə, Monqol imperiyası siyasi nəzarəti əsasən ardınca yerli şəraitə adaptasiya (hətta assimilyasiya) yaradan hərbi istilalara əsaslanaraq qoruyub saxlayırdı.

Daha sonrakı mərhələlərdə Avropa dünya hakimiyyətinin mərkəzi və sülh uğrunda əsas mübarizələr arenasına çevrildi. Əslində isə təqribən üç yüzillik ərzində Avrasiya qitəsinin şimal-qərb hissəsi dəniz sahəsində üstünlük vasitəsilə ilk dəfə olaraq həqiqi dünya hökmranlığına nail oldu və öz mövqelərini dünyanın bütün qitələrində müdafiə etdi. Maraqlısı odur ki, Qərbi Avropanın hegemon imperiyaları xüsusilə onların özlərinə tabe etdiyi dövlətlərlə müqayisədə çoxluq təşkil etmirdi. Yenə də XX əsrin başlanğıcında Qərb yarımkürəsi hüdudlarından kənarda yalnız Çin, Rusiya, Osmanlı imperiyası və Həbəşistan Qərbi Avropanın hökmranlığından azad idi. Lakin hətta bu fakt belə Qərbi Avropa hökmranlığının Qərbi Avropa tərəfindən dünya hakimiyyətinin əldə edilməsinə bərabər olmaması demək deyil. Reallıqda isə Avropa sivilizasiyasının dünyada hökmranlığı və Avropanın qitədə müvəqqəti olaraq hakimiyyəti baş vermişdir. "Avrasiyanın ürəyi" olan quru torpaqların monqollar, sonradan isə Rusiya imperiyası tərəfindən zəbt edilməsindən fərqli olaraq okeanın o tayındakı Avropa imperializmi arasıkəsilməz coğrafi kəşflər və dəniz ticarətinin genişləndirilməsi hesabına əldə edilmişdir. Lakin bu proses həm də aparıcı Avropa dövlətləri arasında okeanda üstünlüklə yanaşı, həm də Avropanın özündə də hökmranlıq uğrunda daimi mübarizədən ibarət idi. Bu vəziyyətin geosiyasi nəticəsi Avropanın dünya hökmranlığının hər hansı bir Avropa ölkəsinin Avropada hökmranlığının olmamasından ibarətdir.

Beləliklə, müxtəlif ölkələrin tarixin müxtəlif dövrlərində öz hegemonluğunu bərqərar etmək cəhdlərini nəzərdən keçirərək bu cəhdlərin nəticələrinə aşağıdakı izahları vermək olar: Roma öz hökmranlığını əsasən daha mükəmməl hərbi struktur və mədəni cazibə vasitəsilə təmin edirdi. Çin ümumi etnik mənsubiy-

yət əsasında qurulmuş imperiyanı idarə edərək öz nəzarətini mədəni üstünlük ideyası hesabına möhkəmlədib əsasən effektiv bürokratik aparata arxalanırdı. Monqol imperiyası öz hakimiyyətinin əsası kimi istilalar zamanı qabaqcıl hərbi taktika və assimilyasiya meylinin tətbiqini birləşdirirdi.

Britaniyalılar (ispaniyalılar, hollandlar və fransızlar kimi) öz üstünlüklərini bayraqları onların ticarət inkişafını müşayiət etməsi boyunca təmin edirdilər: onların nəzarəti həm də daha mükəmməl hərbi struktur və mədəni özünütəsdiqlə qorunurdu. Lakin bu imperiyalardan heç biri həqiqətən də dünya imperiyası olmamışdır. Hətta Böyük Britaniya belə həqiqi dünyəvi ölkə olmamışdır. O, Avropaya nəzarət etmir, yalnız burada qüvvələr nisbətini qoruyub saxlayırdı. Sabit Avropa Britaniyanm beynəlxalq arenada hökmranlığı üçün həlledici əhəmiyyət kəsb edirdi və Avropanın özünüməhvi, sözsüz ki, Britaniyanm baş rolunun sonu demək olardı. Əksinə, Amerika Birləşmiş Ştatlarının vahid dünya dövləti kimi miqyası və təsiri hazırda özünəməxsusdur. Onlar bütün dünya okean və dənizlərinə nəzarət etməklə yanaşı həm də dəniz desant qüvvələri hesabına sahil nəzarəti üçün gözəl hərbi imkanlar yaratmışlar, bu isə onlara böyük siyasi nəticələrlə quruda öz hökmranlıqlarını həyata keçirməyə imkan verir. Onların hərbi legionları Avrasiyanm qərb və şərq hissələrində bərqərar olmuşdur. Bundan savayı, onlar Fars körfəzinə nəzarət edir. Amerika vassalları və bir çoxları Vaşinqtonla daha sıx əlaqələr yaratmağa çalışan tabe dövlətlər bütün Avrasiya qitəsi boyunca yayılmışlar. Ən mühüm fakt isə ondan ibarətdir ki, Amerika texniki münasibətdə müqayisəedilməz silahlı qüvvələr yaradaraq hərbi məqsədlərlə ən yeni elmi kəşflərin istifadəsi sahəsində öz üstünlüyünü qoruyub saxlamış və hətta genişləndirmişdir.

Bütün bu zaman ərzində Amerika iqtisadiyyatın inkişafı üçün həlledici əhəmiyyətə malik informasiya texnologiyaları sahəsində öz üstünlüyünü qoruyub saxlamışdır. Amerikanm hazırki iqtisadiyyatının qabaqcıl sektorlarındakı üstünlüyü yaxın

gələcəkdə onun texnoloji hökmranlığına qalib gəlməsinin çox güman ki, o qədər də asan olmayacağını sübut edir; xüsusilə də nəzərə alsaq ki, amerikalılar Qərbi Avropa və yapon rəqibləri ilə müqayisədə iqtisadiyyatın həlledici əhəmiyyətə malik sahələrində öz istehsal üstünlüklərini qoruyub saxlayır və hətta artırır. ABŞ-ın üstünlüyə malik olduğu yeni tipli hegemonluq Con İnkenberi tərəfindən gözəl təsvir edilir: "O, Birləşmiş Ştatlar ətrafında cəmləndiyi və Amerika nümunəli siyasi mexanizmləri və təşkilati prinsipləri əks etdirdiyinə görə hegemon idi. Bu, qanuni olduğuna və ikitərəfli qarşılıqlı əlaqə ilə xarakterizə olunduğundan liberal idi. Avropalılar (həm də yaponiyalılar) öz cəmiyyətlərini və iqtisadiyyatlarını Amerika hegemonluğuna müvafiq şəkildə yenidən qurmağa və birləşdirməyə müvəffəq oldular, lakin həm də özlərinin muxtar və yarımmüstəqil siyasi sistemləri ilə eksperiment üçün yer saxlamışlar. Bu kompleks sistemin təkamülü aparıcı qərb ölkələri arasında münasibətlərin "nizamlanmasına" yardım göstərirdi. Bəzən bu ölkələr arasında gərgin münaqişələr yaranırdı, lakin əsas mahiyyət ondan ibarətdir ki, münaqişə sabit və daha aşkar siyasi quruluş çərçivəsinə sığsın. Müharibə təhlükəsi artıq aradan qalxmışdır..."

Beləliklə, Amerikanın dünyada hegemonluğu Amerika qlobal sisteminin yaranmasına səbəb olmuşdur. Amerika üstünlüyünün beynəlxalq miqyasda keçmiş imperiya sistemləri ilə oxşarlıq haqqında təsəvvür yaratmasına baxmayaraq bu sistemdəki fərqlər daha əhəmiyyətlidir. Onlar ərazi sərhədləri haqqında məsələdən kənara çıxır. Amerikanın qüdrəti özünü amerikanın daxili təcrübəsini əks etdirən Amerika sayağı qlobal sistem vasitəsilə büruzə verir. Bu daxili təcrübədə mərkəzi yeri həm Amerika cəmiyyətinin, həm də onun siyasi sisteminin plüralist xarakteri tutur.

Keçmiş imperiyalar aristokrat siyasi elita tərəfindən yaradılmış və əksər hallarda mahiyyətcə avtoritar və ya mütləq rejimlərlə idarə edilirdi. İmperiya dövlətləri əhalisinin əsas hissəsi ya siyasi cəhətdən eyni idi, ya da bir qədər əvvəl imperiya emo-

siyaları və simvolları ilə yoluxmuşdular. Milli şöhrətə can atma cəhdləri "ağ insanın yükü", "mədəniyyətyayıcı missiya"dır, biz hələ şəxsi zənginləşmə imkanlarından danışmırıq. Bütün bunlar imperiya macəralarının müdafiə edilməsi və imperiyanın yerarxiya hakimiyyət piramidaların qorunmasının səfərbər edilməsinə xidmət edirdi.

Bu daxili amillər səbəbindən Amerika qlobal sistemi əvvəlki imperiya sistemləri ilə münasibətdə kooptasiya metodlarına xüsusi diqqət yetirir (məğlub edilmiş düşmənlərlə – Almaniya, Yaponiya və sonralar isə hətta Rusiya ilə olduğu kimi). Çox güman ki, o, eyni zamanda öz demokratik prinsiplərinin və institutlarının cəzbediciliyindən mənfəət götürərək asılı xarici elitalara təsirin dolayı şəkildə istifadə edilməsinə əsaslanır. Bütün yuxarıda söylənənlər qlobal kommunikasiya, xalq əyləncələri və kütləvi mədəniyyət sahəsində Amerika hökmranlığının geniş, lakin hissedilməz təsiri ilə, eləcə də Amerikanın texnoloji üstünlüyünün və qlobal hərbi iştirakının potensial təsiri ilə bir daha möhkəmləndirilir.

Amerika inkişaf yoluna bənzəmə tədricən bütün dünyaya sirayət edir və Amerika hegemonluğunun bərqərar edilməsi üçün daha əlverişli şəraitlər yaradır. Daxili Amerika sistemində olduğu kimi bu hegemonluq ardınca konsensusun, hakimiyyət və təsir sferasında nəzərə çarpmayan asimmetriyanın əldə edilməsi üçün nəzərdə tutulmuş bir-birindən asılı institut və prosedurların kompleks strukturunu da göstərir. Amerikanın qlobal üstünlüyü beləliklə, demək olar ki, bütün dünyanı əhatə edən mürəkkəb birlik və koalisiyalar sistemi ilə bir daha möhkəmlənir.

Şimali Atlantika Müqaviləsinin (NATO) təşkili Birləşmiş Ştatları hətta Avropa işləri daxilində əsas simaya çevirərək Avropanın ən inkişaf etmiş və təsirə malik dövlətlərini Amerika ilə əlaqələndirir. Yaponiya ilə ikitərəfli siyasi və hərbi əlaqələr ən qüdrətli Asiya iqtisadiyyatını Birləşmiş Ştatlara bağlayır, belə ki, mahiyyətcə Yaponiya Amerika protektoratı ola-

raq qalır (hər halda hal-hazırda). Amerika həmçinin regionun işlərində əsas təsirə malik simaya çevrilərək iqtisadi əməkdaşlığın Asiya-Sakit okean forumu (ARES) kimi yaranan çoxtərəfli trans Sakit okean təşkilatlarının fəaliyyətində iştirak edir. Qərb yarımkürəsi qitədə mövcud çoxtərəfli təşkilatlarda əsas rol oynamağa imkan yaratmaqla əsasən xarici təsirdən mühafizə edilmişdir. Hətta keçmiş sovet məkanmda belə amerikalılar tərəfindən maddi cəhətdən himayə edilən "sülh uğrunda əməkdaşlıq" proqramı kimi NATO ilə daha sıx və müxtəlif əməkdaşlıq sxemləri də yayılmışdır.

Keçmiş imperiyalardan fərqli olaraq bu böyük və mürəkkəb qlobal sistem iyerarxiya piramidası deyil. Əksinə Amerika qarşılıqlı "kainat" asılılığının mərkəzində yerləşir. Burada hakimiyyət daimi manevr etmə, dialoq, diffuziya və formal konsensusun əldə edilməsinə cəhd vasitəsilə həyata keçirilir; bu hakimiyyət nəticədə vahid mənbədən, daha dəqiq desək Vaşinqton, Kolumbiya dairəsindən irəli gəlir.

Beləliklə, Amerikanın üstünlüyü Amerika sisteminin bir çox xüsusiyyətlərini nəinki təkrarlayan, həmçinin onun sərhədləri xaricində onları həyata keçirən yeni bir beynəlxalq quruluşun yaranmasına səbəb olmuşdur. Onun başlıca elementlərinin tərkibinə aşağıdakılar daxildir:

* kollektiv təhlükəsizlik sistemi, o cümlədən, komandanlıq və silahlı qüvvələr, məsələn NATO, təhlükəsizlik haqqında Amerika-Yaponiya müqaviləsi və s;

* regional iqtisadi əməkdaşlıq, məsələn, ARES, NAFTA (azad ticarət haqqında Şimali Amerika sövdələşməsi) və ixtisaslaşdırılmış qlobal əməkdaşlıq təşkilatları, məsələn Ümumdünya bankı, Beynəlxalq Valyuta Fondu, Ümumdünya Ticarət Təşkilatı;

* hətta birləşmiş Ştatların hakimliyi zamanı qərarların müştərək şəkildə qəbul edilməsinə xüsusi diqqət ayıran prosedurlar;

* mühüm birliklərdə demokratik üzvlüyə üstünlük verilməsi;

* rudimentar qlobal konstitusion və hüquqi struktur (Beynəlxalq Məhkəmədən Bosniyada hərbi cinayətlərə baxılması üzrə xüsusi tribunaladək).

"Amerikan qlobal sistemin"in yaranması heç də o demək deyildir ki, dünyada Amerika imperializminə qarşı müqavimət göstərməyə qadir bir siyasi qüvvə yoxdur. Əksinə, bu qüvvələr getdikcə daha tez-tez özünü büruzə verir, İraqda baş verən sonuncu münaqişə isə ABŞ-ı Almaniya, Fransa və İspaniyanın simasında sadiq tərəfdaşları ənənəvi müxalifətçilər – Çin və Rusiya ilə eyni səviyyədə birincinin militarist siyasətinə qarşı açıq-aşkar çıxış edə bilər. Diqqəti xüsusi olaraq İraq böhranında cəmləmək istərdik, belə ki, mahiyyətcə məhz bu böhran dünyanı "soyuq müharibə"dən sonra ilk dəfə olaraq ziddiyyət təşkil edən tərəflərə böldü.

ABŞ və onun tərəfdaşları Səddam Hüseynin Əl-Qaidəyə aid olması və İraqa daxil olmamışdan əvvəl onda kütləvi qırğın silahının olması haqqında heç bir həqiqi məlumata malik deyildilər. İraqın işğalından sonra bu ittihamların təsdiq olunmaması faktı bir tərəfdən Amerika rəhbərliyinin nüfuzuna zərbə vurdu, digər tərəfdən isə göstərdi ki, ABŞ öz siyasi təsirini hər bir vasitə ilə zorla qəbul etdirməyə çalışacaqdır. ABŞ-ı İraqa zorla soxulmağa vadar edən mümkün səbəblərdən aşağıdakıları göstərmək olar:

1) Ən aydın səbəb neft və İraqın Səudiyyə Ərəbistanından sonra ikinci ən böyük neft dövləti olması faktından ibarətdir. Bu versiyanı həm də ABŞ-ın "soyuq müharibə"nin bitməsindən və SSRİ-nin dağılmasından sonra Yaxın Şərqdə qüvvələr boşluğunun yaranmasından məharətlə istifadə etməsi və Çin kimi yeni yaranmış üstün dövlətlərə qarşı müqavimət göstərməyə qadir olmaq üçün bu boşluğu doldurmağa tələsməsi faktı təsdiq edir. Edd Vilyam öz məqaləsində məhz bu versiyanı müdafiə edir. O, bu zaman Amerika əsgərlərinin 9 aprel 2003-cü ildə Bağdada daxil olduqları zaman onların dərhal effektiv şəkildə Neft Nazirliyini müdafiə etməyə başlaması faktına əsaslanır,

Halbuki onlar Mosulda yerləşən Milli Muzeyin vandallar tərəfindən dağıdılmasına yol verdilər. Ən qədim şəhərlərdən biri olan Ur şəhərinin divarı və bütün dünyada məşhur olan Quran Kitabxanası ilə eyni proses baş verdi. Ölkənin cənubunda yerləşən neft yataqları da öz növbəsində Amerika qoşununun müdafiəsi altına alındı.

2) Daha bir tutarlı səbəb ABŞ-ın bu müdaxiləni Buş administrasiyasının daxili siyasət sahəsində müəyyən çətinliklər çəkməsi səbəbindən həyata keçirməsi və bununla da öz xalqını çətinliklər və kritikadan kənarlaşdırmağa cəhd etməsinə əsaslanır. Prinsip etibarilə bu, dövlətin ilk növbədə əhalini iqtisadi və siyasi çətinliklərdən yayındırmağa, ikincisi isə daxili müvəffəqiyyətsizlikləri xarici qələbələrlə kompensasiya etməyə cəhd etdiyi klassik bir addımdır. Bu versiyaya sübut olaraq kiçik Buşun prezidentliyinin ilk ilinin ABŞ-ın ümumiyyətlə Yaxın Şərqin, xüsusilə də İraqın işlərinə birbaşa olaraq müdaxilə etməsinin kəskin surətdə azalması ilə yadda qalması faktını göstərmək olar. Bunu bir sıra səbəblərlə izah etmək olar:

Birincisi, hələ seçkiqabağı kampaniya zamanı Buşun xarici siyasətdən kənar olmağa meyilliliyi və əsas diqqəti daxili prioritetlərə yönəltmək istəyi aydın şəkildə nəzərə çarpırdı. Bu zaman qeyd etmək lazımdır ki, Buşun beynəlxalq münasibətlərə göstərdiyi soyuq münasibət birbaşa olaraq onun siyasi təcrübəsi və keçmişindən irəli gəlir. İş ondadır ki, ABŞ elə formalaşmışdır ki, prezident olan keçmiş qubernatorlara beynəlxalq münasibətlərin bütün mürəkkəbliklərinə şəxsən daxil olmaq üçün keçmiş hərbi və ya konqresmen karyerası dövründə siyasi bacarıqları artıq möhkəmlənmiş prezidentlərə lazım olduğundan xeyli çox zaman tələb olunur. Beləliklə, əvvəl qubernator olmuş ABŞ prezidentləri Ruzvelt, Reyqan, Karter və Klinton prezidentliyə qədəm qoymazdan öncə beynəlxalq münasibətlər sahəsində məsuliyyətli vəzifəyə başlamazdan əvvəl beynəlxalq təcrübəyə malik olmuş Eyzenhauer, Kennedi, Conson, Nikson, Ford və ata Corc Buşdan az təcrübəli idilər. Beləliklə, prezident

kürsüsünə oturmazdan əvvəl Texas ştatımn qubernatoru olmuş kiçik Corc Buş da beynəlxalq münasibətlər sahəsində böyük təcrübəyə malik deyildi.

İkincisi, 2000-ci ilin noyabrında seçilmiş və yerləri demokratlar və respublikaçılar arasında demək olar ki, bərabər bölüşdürülmüş Konqres heyəti Buş administrasiyasından diqqəti müstəsna olaraq daxili problemlərə yönəltməyi tələb edirdi. Nümayəndələr Palatasında yerlərin iki partiya arasında demək olar ki, bərabər şəkildə bölüşdürüldüyü və Senatda respublikaçıların minimum üstünlük təşkil etdiyi halda, Buş Administrasiyası bu üstünlüyü 2002-ci il Konqres seçkilərində də saxlamağa ümid bəsləyərək xarici prioritetləri daxili prioritetlərə qurban verməyə məcbur oldu.

Və nəhayət üçüncüsü, Yaxın Şərqin "daimi tərəddüdlər" vəziyyətində qalmaqda olmasına baxmayaraq, heç bir faktor regionun ABŞ-ın milli maraqlarına Birləşmiş Ştatların birbaşa müdaxiləsini tələb edə biləcək açıq-aşkar təhlükə yaratmasına dəlalət etmirdi. Beləliklə, Yaxın Şərqdən ABŞ-a və Avropa ölkələrinə azad neft axınının daxil olması şübhə altında idi. Yaxın Şərq və Şimali Afrikanın mötədil rejimləri onların iqtisadiyyatınm acınacaqlı vəziyyətdə olmasına baxmayaraq nisbətən sabit olaraq qalırdı. Səddam Hüseyn Klintonun prezidentliyinin son dövründə maneə olaraq qalmaqda idi. Buşun hakimiyyətdə oluğu ilk dövrlərdə o, öz sələfinin İraq liderinə qarşı geniş miqyaslı əməliyyatlarm aparılmasını istəməməsi fikri ilə razılaşdı və yalnız qüvvəsinin simvolik nümayişi ilə məhdudlaşdı. Halbuki, yuxarıda qeyd edildiyi kimi beynəlxalq birlik ABŞ-ın 2001-ci ilin fevralında İraqa qarşı hava hücumunu yeni administrasiyanın açıq aşkar şəkildə Səddam Hüseyni devirmək tələbi kimi başa düşdü.

1) Bundan əlavə əsas səbəblərdən biri olaraq İsrailin və yəhudi lobbisinin ABŞ-ın xarici siyasətinə təsirini hesab etmək olar. İsrail üçün İraq həqiqətən də bir nömrəli təhlükə idi. İraq ərəbləri İsrailə qarşı müştərək mübarizəyə inadla səsləyən yeganə

ərəb dövlətidir. İraq həm də son 10 il ərzində İsraili raket zərbələri vurmaqla hədələyən (onlar bir neçə dəfə buraxılmış, lakin son həddə ya İsrailin hərbi hücüm qüvvələri ilə vurulmuş, ya da hədəfə çatmamışdır) yeganə dövlətdir. Beləliklə, İsrail və onun lobbisi düşmənə qalib gəlməkdən ötrü hər şeyə əl atmışlar. Öz növbəsində yəhudi lobbisinin Amerika siyasətin də nə dərəcədə təsirə malik olmasını göstərmək məqsədilə bir neçə faktı qeyd etməyə çalışacağıq: birincisi, bu İsrailin özü tərəfindən də gizlədilmir, beləliklə İsrailin əsas qəzeti olan "Maariv" 2 sentyabr 1994-cü il buraxılışında yazır: "ABŞ-da artıq yəhudi olmayan hakimiyyət mövcud deyil. Hazırki hakimiyyətdə yəhudilər bütün səviyyələrdə qərarların qəbul edilməsi məsələsində tam hüquqlu partnyordurlar. Ola bilsin ki, yəhudilərin dini qanunlarının "yəhudi olmayan hakimiyyət" anlayışına aid olan bəzi aspektlərini nəzərdən keçirməyinə dəyərdi, belə ki, onlar ABŞ üçün artıq "köhnəlmişdir". Hamıya məlumdur ki, yəhudi lobbisi hər bir zaman ABŞ-ın daxili və xarici siyasətinə böyük təsir göstərmişdir. Ayrıca olaraq xarici siyasətə gəldikdə isə ABŞ-ın aşağıdakı ölkələrdəki səfirləri olan Amerika vətəndaşlığını qəbul etmiş yəhudiləri göstərmək kifayətdir:

Şimali Amerika: Meksika, Kanada; Avropa: Fransa, Belçika, Almaniya, Danimarka, Norveç, İsveç, İsveçrə, Polşa, Macarıstan, Rumıniya, Belarus,

Digər: Türkiyə, Misir, İsrail, Hindistan, Yeni Zelandiya, Mərakeş, CAR, Sinqapur, Braziliya.

Beləliklə, bu faktları görərək İsrailin İraqa qarşı müharibənin başlanmasında mühüm rol oynamasım güman etmək olar.

2) ABŞ üçün İraqa girməyin bu qədər zəruri olmasının daha bir səbəbi onun Səudiyyə Ərəbistanından asılı olmaq istəməməsidir. Səudiyyə Ərəbistanı Krallığı ən böyük neft ehtiyatlarına malik dövlətdir. Krallıq ərazisində neftin aşkar edildiyi vaxtdan ABŞ ona dərhal böyük diqqət yetirməyə başladı. 1938-ci ildə əvvəllər hər tərəf üçün 50% mənfəətlə neft hasil

edən müştərək ərəb-Amerika neft şirkəti – Aramco (Arabian-American Oil Company) yaradılmışdır. Bu şirkətin fəaliyyətinə Amerikanın Texaco, Standart Oil of New Jersey (Exxon) və Sacony-Vacuum (Mobil) kimi neft nəhəngləri cəlb edilmişdir. Lakin artıq 1988-ci ildə krallığın fərmam nəşr edildi. Bu fərmana əsasən Səudiyyə Ərəbistanı ölkənin bütün neft və qaz yataqlarına tam nəzarət əldə etdi. Beləliklə, Aramco Saudi Aramcoya çevrildi. Lakin bütün bunlara baxmayaraq Amerikanın Səudiyyə Ərəbistanı ilə əməkdaşlığı davam edirdi, belə ki, bir nömrəli üstün dövlət ən iri neft ölkəsinə qarşı biganə qala bilməzdi. Bütün maneələrə baxmayaraq ABŞ bu ölkədən böyük miqdarda neft idxal etməkdə davam edirdi. Bundan əlavə ABŞ bu ölkə ərazisində öz hərbi qüvvələrinə malik idi. Şahzadə Sultan hərbi-hava bazası Yaxın Şərq ərazisində yerləşən ən müasir aviabazadır. İraqa qarşı aparılan iki müharibə zamanı ən yüksək vəzifə məhz bu baza üzərinə qoyulmuşdur. Ümumilikdə bu bazadan bu və ya digər hərbi əməliyyatlarda iştirak etmək üçün 286 min hərbi təyyarə uçmuşdur. 1980-ci ildə bu aviabazanm ümumi məbləği təxminən 1,07 mlrd. dollara bərabər idi.

Eskan qəsəbəsi hərbi bazası da ABŞ-m yüksək səviyyədə təchiz edilmiş hərbi bazasıdır. Lakin ABŞ və Səudiyyə Ərəbistanının iqtisadi və hərbi əməkdaşlığının davam etməsinə baxmayaraq ABŞ bu ölkədə özünü hər zaman narahat və təhlükədə hiss edirdi. ABŞ-ın bu ölkədə yerləşən hərbi bazaları Səudiyyə Ərəbistanının bütün vətəndaşları üçün qadağan edilmiş zonalardır, daha dəqiq desək, bu bazalara bitişik 70 km. ərazi də xüsusi təhlükəli zonalar hesab edilir. Kənar şəxslər tərəfindən bu zonalara nə fotoaparat, nə videokamera gətirilə bilməz. Bundan əlavə ABŞ gözəl başa düşür ki, onun bu ölkədə iştirakı istər-istəməz həm Əl-Qaidə, həm də iki ən başlıca müsəlman ocaqlarının – Məkkə və Mədinənin yerləşdiyi torpaqda kafir əsgərlərin mövcudiyyətini yolverilməz hesab edən digər radikal müsəlman təşkilatları tərəfindən özünə qarşı terrorçu hücumlarını təhrik edir. ABŞ-ın bu misli görünməmiş dərəcədə zəng-

in ölkədən, daha doğrusu, onun neftindən asılılığını azaltmaq cəhdləri bu ölkənin vətəndaşlarına və Avropa ölkələrinin digər nümayəndələrinə qarşı sistematik terrorçu hücumlarının artırılmasına səbəb oldu.

ABŞ-ın İraqa soxulmasından öncə hələ yalnız Küveytin azad edilməsi dövründə Krallıqda aşağıdakı hadisələr baş verdi: 1991-ci ilin fevral və mart aylarında terrorçular Amerikanın hərbi yük maşınlarını partlatmağa cəhd göstərdilər; 13 noyabr 1995-ci il tarixində terrorçuların bir çox hədəsindən sonra Ər-Riyadda – Amerika hərbi-təlim missiyası yaxınlığında 5 amerikalının və 2 Hindistan vətəndaşının ölümü ilə nəticələnən maşın partlayışı baş verdi; 25 iyun 1996-cı ildə daha bir partlayış nəticəsində 19 amerikalı həlak oldu, yüzlərlə insan isə yaralandı. Beləliklə, bütün bunlardan sonra Amerika siyasətini bu şüar altına salmaq olar: "Bizə neft lazımdır, Səudiyyə Ərəbistanı yox", İraqdan başqa harda belə asan şəkildə və böyük miqdarda neft əldə etmək olar.

Bundan əlavə, bu hadisələr hamıdan çox Krallığın hakimiyyətini narahat edir. Bir tərəfdən monarxiyanı devirməyə can atan qüvvələr bu hadisələrdən məharətlə istifadə edir, digər tərəfdən isə o, dünya ictimaiyyəti tərəfindən tənqidlə qarşılanır, belə ki, hesab edir ki, o, terrorçuluğa qarşı qeyri-effektli mübarizə aparır. Bu o yerə gəlib çıxdı ki, Səudiyyə Ərəbistanı Krallığın təhlükəsizliyini qorumaq məqsədilə Amerika qoşunlarının ölkədən çıxarılmasında hamıdan çox marağı olan ölkəyə çevrildi. Bu istək hələ ki şifahi bəyanatla təmin edilmişdir. 29 aprel 2003-cü il tarixində ABŞ-ın müdafiə naziri Donald Ramsfeld və Səudiyyə Ərəbistanının Müdafiə Naziri Şahzadə Sultan Əbdül Əziz bəyan etdilər ki, Səddam Hüseyn rejiminin devrilməsi Amerika əsgərlərinin tezliklə ölkə ərazisini tərk edəcəyinə dəlalət edirdi. Realizm nəzəriyyəsi tərəfdarlarının hesab etdiyi kimi heç bir əxlaqi və hüquqi norma kifayət qədər potensiala malik olduğu halda dövləti öz təsir sahəsini genişləndirməkdən qaçındıra bilməz.

Beləliklə, ABŞ bu nəzəriyyəni terrorizmə qarşı mübarizə şüarı altında həyata keçirməyə başladı. Terrorçular eyni zamanda son dərəcə universal və əlverişli düşmənə çevrildi. Bu düşmən ABŞ-a İraq, İran və Şimali Koreya (müsibət oxu) kimi mənfur düşmənləri öz qara siyahısına daxil etməyə imkan verdi. 11 sentyabr 2001-ci il tarixində baş verən terror aktı ABŞ üçün öz hegemonluğunu daha da genişləndirmək yolunda, həm də qatı düşmənlərilə hesablaşmaq üçün nadir bir şans oldu. İlk öncə ABŞ Ben Ladeni anti-terror əməliyyatının başlıca məqsədi elan edərək əvvəl Əfqanıstana hərbi intervesiyaya hazırlaşır.

Dünya ictimaiyyəti, eləcə də böyük super dövlətlər Amerikanın Əfqanıstana hərbi müdaxiləsini müdafiə etdilər, heç olmazsa, bu hərəkətə qarşı açıq şəkildə etiraz etmədilər; əvvəla ona görə ki, ABŞ-ın Əl-Qaidənin 11 sentyabr terror aktı ilə əlaqəsinin əsaslı sübutu var idi. İkincisi, saysız-hesabsız günahsız insan qurbanları dünya ictimaiyyətini o dərəcədə şoka salmışdır ki, o an ABŞ-ın Əfqanıstana qarşı cəzalandırıcı intervensiyasına qarşı hər hansı bir ölkənin etirazı müsbət halda insaniyyətsizlik, mənfi halda terrorçuluğa yardım kimi qarşılana bilərdi. Üçüncü, Əfqanıstan dünyanın üstün dövlətləri üçün həyati əhəmiyyətli maraq dairələrinə aid olan ölkə deyildi və terakt faciəsini nəzərə alaraq onlar onu Amerikaya bəxş etməyi qərara aldılar.

Beləliklə, Əfqanıstandakı hərbi əməliyyatı 40 ölkə müdafiə etdi. Bu hətta 1991-ci ildə Küveytin azad edilməsi zamanı olduğundan da artıqdır. O zaman ABŞ-ı cəmi 28 ölkə müdafiə etmişdir. Lakin ABŞ başa düşürdü ki, onun təsirinin dünyaya yayılması Əfqanıstanla bitə bilməz və tezliklə elan etdi ki, terrorizmə qarşı müharibə Ben Ladenin məhv edilməsi ilə bitməyəcəkdir. "Üsama Ben Laden hələ də sağ ola bilər. Bu təqdirdə biz onu aradan götürəcəyik. Yox, əgər bu belə deyilsə, demək biz artıq onu aradan götürmüşük. Biz onun haqqında artıq uzun müddətdir ki, bir şey eşitmirik. Onun sağ olduğundan və ya öldüyündən xəbərim yoxdur, lakin bir şeyi dəqiq bili-

rəm: terrorla müharibə bir insandan xeyli böyükdür" deyə ABŞ prezidenti Corc Buş 2002-ci ilin iyul ayında bəyan etmişdir. Beləliklə, siyasi səviyyədə gedən bugünkü mübarizəni aşağıdakı kimi yekunlaşdırmaq olar: ABŞ "soyuq müharibə"dən sonra ilk dəfə olaraq dünyanın bölüşdürülməsi uğrunda irimiqyaslı mübarizəyə başladı.

Dünyanın bölüşdürülməsi uğrunda baş verən əvvəlki müharibələrlə müqayisədə (məsələn iki dünya müharibəsi) ABŞ tərəfindən başlanmış müharibə kəskin surətdə fərqlənir. İkinci Vilhelm və Hitler özlərinin bütün Avropanı, sonra isə bütün dünyanı tabe etmək niyyətlərini gizlətmirdilər. ABŞ isə bu gün bir nömrəli dövlət olaraq yenə də özünün mövcud status-kvosu ilə razı deyil və öz imperiyasınm təsir sahəsini genişləndirmək məqsədilə var qüvvəsini səfərbər edir. Lakin dünyanın bir çox yerlərində öz təsirinin artırılması uğrunda hərbi əməliyyatlar apararaq ABŞ bunu ya demokratiya uğrunda, ya da terrorizmə qarşı mübarizə bayrağı altında edir. Bununla belə ABŞ adətən qeyd edir ki, demokratiyanın bütün dünyada yayılması üçün terrorizmə qarşı mübarizədə olduğu kimi güc tədbirləri münasib şərtdir. MKİ-nin direktoru Ceyms Vulsey 1993-1995-ci illərdə bu məsələ ilə bağlı demişdir: "Amerikanın vəzifəsi hər bir vasitə ilə, hətta müharibə vasitəsilə olsa belə demokratiyanı dünyaya çatdırmaqdan ibarətdir. Yaxın Şərqə də demokratiyanı məhz bu metodlarla çatdırmaq lazımdır".

ABŞ öz təcavüzünü dünya ictimaiyyəti qarşısında gizlətməyə imkan verən bir neçə metoda malikdir. Biz çox tez-tez ABŞ-ın öz qoşunlarını digər dövlətlərin qoşunları ilə birləşdirərək məharətlə problemin hərbi surətdə həllinin kollektiv qərar olması haqqında fikir yaratmasının şahidi oluruq.

ABŞ-ın öz hegemon siyasətini həyata keçirmək üçün daha bir orijinal metodu vardır – ABŞ bunu adətən müstəqil dövlətlər vasitəsilə edir. Məsələn, ABŞ bu siyasəti İsrail vasitəsilə Yaxın Şərqdə, Türkiyə vasitəsilə Qafqazda, Cənubi Koreya və Yaponiya vasitəsilə isə Sakit okean regionunda həyata keçirir.

Misal olaraq bu yaxınlarda baş vermiş hadisəni göstərmək olar: NTV-nin informasiya xidməti məlumat vermişdir: "Türkiyə Gürcüstan Silahlı Qüvvələrinə 2 mln dollar məbləğində qarşılıqsız yardım göstərəcəkdir. Bu barədə bazar ertəsi günü Gürcüstanın Müdafiə Nazirliyinin informasiya departamentində məlumat verilmişdir.

Bu yardımın göstərilməsi barəsində protokol 19 oktyabr tarixində Tiflisdə hər iki ölkənin Silahlı Qüvvələrinin Baş Qərargah nümayəndələri tərəfindən imzalanacaqdır. Buna müvafiq olaraq yardımı Gürcüstan Milli Hərbi Akademiyası, Marneuli Hərbi Aerodromu (Tiflis yaxınlığında), Baş Qərargahın bölmələrindən biri, ölkənin HDQ bölmələri alacaqdır.

Bundan əlavə, İTAR-TASS xəbər verir ki, 19 oktyabr tarixində Türkiyə nümayəndələri xüsusi təyinatlı briqadaya və Gürcüstanın Müdafiə Nazirliyi briqadalarından birinə 7 Landrover avtomaşını, 10 əl ratsiyası, bir stasionar mərkəzi ratsiya, onların təchizat elementlərini verəcəkdir. Müdafiə Nazirliyinin informasiya departamentinin məlumatlarına əsasən, 1998-ci ildən indiyə kimi Türkiyə Gürcüstana 37 mln. 400 min dollar həcmində qarşılıqsız hərbi yardım göstərmişdir".

Bu cür "müttəfiqlik bayrağı altında" həyata keçirilən siyasət nəticəsində bu əməliyyatların istiqamətləndirildiyi ölkələr ABŞ-a rəsmi surətdə öz maraqları üçün təhlükənin yaranması barəsində elan edə bilmirlər, belə ki, bu əməliyyatlar müstəqil iştirakçılar vasitəsilə həyata keçirilir. Beləliklə, dünya ilk dəfə olaraq öz-özlüyündə demokratiyanın gözəl nümunəsi olan və bəzən bu demokratiyanı zor gücünə yaymağa çalışaraq hegemonluq uğrunda mübarizə aparan bir ölkə tərəfindən hegemonluq təhlükəsi ilə qarşılaşır. Eyni zamanda, bu gün dünyada siyasi səviyyədə mübarizə, yaranmış təhlükəni dayandırmaq vasitələrinin və hansı koalisiya və alyanslarda birləşmək yollarının axtarışı səbəbindən şübhə altındadır.

Bu gün iqtisadi səviyyədə mübarizə elə bir mənzərə yaradır ki, biz orada üç iqtisadi mərkəz görürük: ABŞ, Avropa Birliyi

və Yaponiya "böyük triada". Burada da ABŞ bir neçə səbəbə görə mühüm rol oynayır: Əvvəla, ABŞ-ın ÜDM-in iqtisadi göstəriciləri, hətta fərdi qaydada belə aparıcı mövqe tutur. Bu gün ABŞ-ın payına dünya üzrə bütün ÜDM 30 % düşür, ixrac və idxalda isə dünya üzrə birinci yer tutur: hazırda ABŞ-ın ixracı 624,8, idxalı isə 817,3 mlrd. dollar təşkil edir.

İkincisi, Beynəlxalq Valyuta Fondu (BVF) və Ümumdünya Bankı kimi ixtisaslaşdırılmış qlobal beynəlxalq maliyyə institutları amerikalıların əsas mövqe tutduqları təşkilatlardır və onların yaradılmasmda Amerika təşəbbüsləri (xüsusilə də 1944-cü ildə Bretton-Vudsda keçirilmiş konfransda) aydın sezilir. Bu maliyyə təşkilatları demək olar qlobal maraqlara səbəb olur və onların müştəriləri olaraq bütün dünyanı göstərmək olar.

Üçüncüsü, bu "triadada" Yaponiya kimi Avropa İttifaqı ölkələri də ABŞ-dan qismən siyasi asılılıqda və tam hərbi asılılıqdadırlar. NATO qoşunları Avropada bu günə kimi əksər ölkələrdə yerləşir, hətta NATO-nun Şərqə doğru olan sərhədləri Avropa birliyinin sərhədlərinə paralel olaraq uzanır. 1960-cı il Amerika-yapon müqaviləsinin şərtlərinin hələ də qüvvədə olmasını nəzərə alsaq, Yaponiyanın vəziyyəti daha da mürəkkəbdir. Digər tərəfdən, ABŞ-ın "böyük triadada" əsas mövqe tutması heç də onlar arasında rəqabətin olmamasına dəlalət etmir. Əksinə, Avropa ölkələri və Yaponiya artıq uzun müddətdir ki, sənayenin və hətta iqtisadiyyatın müəyyən sahələrində rəhbər mövqe tuturlar. Belə ki, ABŞ öz çoxsaylı cəhdlərinə baxmayaraq bu mövqeyi onların əlindən almağa müvəffəq olmamışdır. Beləliklə, məsələn, Avropa İttifaqı dünyada ən böyük ixracatçı (57%) və idxalçıdır (55%). Bununla yanaşı Avropa ölkələrindən ixrac edilən məhsul "Avropa məhsulları" adlanmaqla yanaşı həm də, "Made in USA" və "Made in Japan" nişanları ilə eyni olaraq "Made in Europe" yazısına rast gəldikdə artıq təəccübə səbəb olmur.

Yaponiya da bir çox iqtisadi göstəricilərə görə birinci yeri tutur. Bu birincilik maşınqayırma sahəsində xüsusilə nəzərə çarpır. Yaponiya bu sahənin eksportunda birinci yeri (67%)

tutur. Lakin ədalət xatirinə qeyd etmək lazımdır ki, hətta iqtisadi sahədə belə "triada"nın daha güclü üzvü yenə də ABŞ-dır. Yalnız ABŞ bütün növ ehtiyatlara və faydalı qazıntılara (böyük neft ehtiyatları da daxil olmaqla), hələ üstəlik öz ərazisində bütün iqlim qurşaqlarına malikdir (heç bir ehtiyatlara və faydalı qazıntılara malik olmayan və hər cəhətdən idxaldan asılı olan Yaponiyadan fərqli olaraq).

Bununla da, "triada"nın üzvləri arasında çox tez-tez "ticarət müharibələri"nə gətirib çıxaran şiddətli rəqabət mövcuddur. Məsələn, ABŞ və AB və onların Latın Amerikası tərəfdaşları arasında 1993-cü ildə baş vermiş "banan müharibəsi". Bu şiddətli rəqabətə baxmayaraq "triada" üzvləri həm də iqtisadi cəhətdən bir-birindən asılı vəziyyətdədirlər. Adətən birinin məhsulu idxal və ixrac prosesində digərininkini tamamlayır. Misal olaraq, elektron texnikası və bu texnika üçün proqramın qarşılıqlı istifadəsini göstərmək olar. Burada proqramların əsas istehsalçısı ABŞ, elektron texnikanın əsas istehsalçısı isə Yaponiyadır və nəticədə hər iki istehsalçı ümumi mənfəət uğrunda əməkdaşlıq etməyə məcbur olurlar. Məhz bu qarşılıqlı asılılıq sayəsində "triada" üzvləri iqtisadi münaqişələrin həll edilməsi üçün yol tapırlar.

Mədəni mübarizədə bu günün danılmaz qalibi ABŞ başda olmaqla qərb mədəniyyətidir. Bu birincilik SSRİ-nin dağıldığı vaxtdan etibarən qorunub saxlanmaqdadır. Bundan əlavə, hazırda Avropa birliyinin güclənməsi tendensiyası üzə çıxmaqdadır, bu isə həm də bu mədəniyyəti ehtiyyatda saxlayacaq və bütün qüvvəsini onun yayılmasına sərf edəcək vahid siyasi və iqtisadi nəhəngin meydana çıxması deməkdir. Eyni zamanda Qərb mədəniyyəti dar və geniş mənalarda da şərh edilə bilər. Dar mənada bu mədəniyyət ABŞ, Kanada, Avropa ölkələri, Avstraliya və Yeni Zellandiyanı əhatə edir. Bu fikri Samuel Xantinqton da təsdiq edir. Lakin hesab edirik ki, Qərb mədəniyyətini geniş mənada dərk etmək daha düzgün olardı. Daha doğrusu, qərb mədəniyyəti demokratiya, bazar iqtisadiyyatı, insan hüquqları,

humanizm, cinsi, irqi mənsubiyyətindən, dərisinin rəngindən, dinindən və s. asılı olmayaraq insanların bərabərliyi kimi prinsiplərin məcmusundan ibarətdir və bir qayda olaraq öz əksini ölkənin qanunvericiliyində və mühakimə üsulunda tapır.

Qərb mədəniyyətinə bu cür yanaşma bizə onun hüdudlarını üç dəfə artırmağa imkan verir. Belə ki, bu gün müstəqil olan dövlətlərin böyük hissəsi ya Amerika konstitusiya modeli ya da hansısa bir Avropa ölkəsinin kostitusiya modeli əsasında yaradılmış konstitusiya modelindən istifadə edir. Yuxarıda qeyd edilənlərdən irəli gələrək Afrika ölkəsi olan CAR-ı cəsarətlə Qərb mədəniyyətinə və ya "Qərb dəyərlərinə" tərəfdar olan ölkə adlandırmaq olar. Bu ölkənin konstitusiyası və qanunvericiliyi bunu sübut edir. ABŞ-ın və Avropa ölkələrinin konstitusiyası kimi CAR-ın da konstitusiyası insan ləyaqətinə, insan hüquqlarına, irqi, dini və cinsi ayrı-seçkiliyin olmamasına əsaslanır, söz azadlığı və s. xüsusi qeyd edilir. Məhkəmə sistemi isə roma-alman hüququna əsaslanır və hazırda demək olar ki, tamamilə holland qanunvericiliyinə müvafiq gəlir. Mədəniyyətlər arasmda qüvvələr nisbətinə bu cür yanaşma bizə bu gün bütün inkişaf etmiş ölkələrin mədəniyyət cəhətdən qərb mədəniyyətinin nümayəndələri olması faktını qeyd etməyə imkan verir. Bu isə öz növbəsində bu mədəniyyətin bütün dünya üzrə birinciliyini göstərir.

Siyasi, iqtisadi və mədəni dünya, şübhəsiz ki, gələcəkdə tamamilə fərqli bir formaya malik olacaqdır. Heç kəs bu formanın nədən ibarət olmasını əvvəlcədən dəqiqliklə söyləyə bilməz. Bu səbəbdən də bütün proqnozlar nisbi xarakter daşıyır.

Bu gün dünyanın siyasi mənzərəsinin, siyasi mübarizənin ətraflı tədqiqi bəzi nisbi xarakterli proqnozlar verməyə imkan verir. Ümumiyyətlə, bu günün siyasi mübarizəsi dünyanın ürəyi hesab edilən Avrasiyada baş verir. Siyasi mübarizənin inkişafının aşağıdakı ssenarisini proqnozlaşdırmaq imkanı yaradır:

1) Orta hissəni Qərbin daim genişlənən orbitinə (Amerikanın rəhbər mövqeyə malik olduğu hissəyə) daxil etsək, cənub

regionunda yeganə hegemonun hökmranlığı bərqərar olmazsa və Şərqin Amerikanı öz dəniz bazalarını tərk etməyə vadar edəcəyi dərəcədə birləşmədiyi halda söyləmək olar ki, Amerika Avrasiyada da demək olar tam hegemonluq əldə edəcəkdir.

2) Lakin əgər orta hissə Qərbə müqavimət göstərərsə, Cənub üzərində nəzarət əldə edərsə və ya iri Şərq dövlətinin iştirakı ilə birlik yaradarsa, Amerikanın Avrasiyadakı birinciliyi kəskin şəkildə daralacaqdır.

3) İki iri Şərq oyunçusunun (Rusiya və Çin) birləşdiyi təqdirdə də eyni hadisə baş verəcəkdir.

4) Əgər Qərb partnyorları Amerikanı Qərb periferiyasından qovsalar, bu avtomatik olaraq Amerikanın Avrasiyada təsirinin sonu demək olacaq, hətta bu belə olsa da nəticədə bu Qərbin orta mövqe tutan dövlətə tabe olunması demək olacaq.

Dünyanın siyasi gələcəyinin müəyyənləşdirilməsinin bu mənzərəsinə açıqlama verməyə çalışaq. Belə ki, qeyd etmək olar ki, yaxın gələcəkdə dünyada əsas siyasi oyunçu yenə də ABŞ olacaq. Lakin digər dövlətlərin imkanlarının və digər subyektlərin qüvvələrinin ABŞ-a qarşı birləşdirilməsi ehtimalının artmasım nəzərə alaraq çox güman ki, ABŞ özündə geostrateji nöqteyi-nəzərdən dinamik dövlətlərlə məqsədyönlü əməkdaşlığı və katalizator dövlətlərlə ehtiyatlı münasibətləri ehtiva edən strategiyanın tərəfdarı olacaqdır. Bununla da ABŞ geosiyasi planda iki maraq güdəcək: yaxm perspektivdə öz müstəsna qlobal hakimiyyətinin qorunmasmı, uzaq perspektivdə isə onun daha qlobal əməkdaşlığa çevrilməsini.

Qədim imperiyaların amansız dövrlərinin terminologiyasından istifadə edərək imperiya geostrategiyasınm üç əsas vəzifəsi: vassallar arasında sövdələşmənin aradan qaldırılması və onların ümumi təhlükəsizlikdən asılılığmın qorunmasından, tabelilərin itaətkarlığının qorunmasından, onların müdafiəsini təmin etməkdən ibarətdir. Beləliklə, ABŞ-ın gələcəyini Henri Kissincer özünün "Diplomatiya" kitabında gözəl

şəkildə yekunlaşdırır: "Çox güman ki, Birləşmiş Ştatlar gələcəkdə dünyada ən güclü iqtisadiyyatı saxlamağa müvəffəq olacaqdır. Bununla Birləşmiş Ştatlar "soyuq müharibə" dövründə belə olmamış iqtisadi rəqabət qarşısında durmuş olacaqdır. Amerika iri və qüdrətli millət olaraq qalacaqdır, lakin artıq onunla rəqabət apara biləcək qüvvələr də olacaqdır; "bərabər millətlər arasında birinci", lakin bununla yanaşı oxşar sıralardan biri. Vilsonun xarici siyasətinin ayrılmaz fundamenti olan Amerikanm müstəsnalığı çox güman ki, gələn yüzillikdə öz əhəmiyyətini xeyli dərəcədə itirəcəkdir".

Digər bir böyük dövlət – Böyük Britaniya da çox güman ki, yaxın gələcəkdə öz xarici siyasətini dəyişməyə hazırlaşmır. Bu gün o özünü Aİ ilə ABŞ arasmda yeganə birləşdirici bənd hesab edir və bununla da onlardan hər biri ilə xüsusi münasibətlərə malikdir. Aİ-yə münasibətdə onun siyasəti aşağıdakı kimidir:

1) Böyük Britaniya siyasi birlik məqsədini rədd edir;

2) Böyük Britaniya azad ticarət əsasında iqtisadi inteqrasiya modelinə üstünlük verir;

3) Böyük Britaniya xarici siyasətin, təhlükəsizliyin və Aİ-nin qeyri-struktur çərçivələrinin müdafiəsinin birləşdirilməsinə üstünlük verir;

4) Böyük Britaniya özünün Aİ-dəki nüfuzundan çox nadir hallarda istifadə edir. Böyük Britaniya bu siyasətə bir tərəfdən o səbəbə görə tərəfdardır ki, o, tarixi cəhətdən özünü Avropadan ayrı bir ada hesab edir (siyasi münasibətdə bu mülahizə Qladstonun "möhtəşəm təcridi" siyasətində aydın şəkildə əks olunmuşdur), digər tərəfdən isə dünyada ən güclü dövlət qarşısında sadiq tərəfdaş ola bilməyəcəyindən qorxur. Şübhəsiz ki, Böyük Britaniya Avropa ilə münasibətlərə nisbətən ABŞ ilə münasibətlərə daha böyük üstünlük verir. Bu həm mədəniyyət və dil cəhətdən yaxınlıq, həm də geosiyasi tələbatla izah edilir. ABŞ-da və Britaniyada adətən bu iki ölkə arasında münasibətləri "xüsusi" münasibətlər (special relations) adlandırırlar. ABŞ öz növbəsində hələ Ruzvelt və Çerçellin dövründən etibarən

bütün xarici siyasi məsələlərdə onun daimi yardımına görə öz ən yaxın müttəfiqini dostcasına qiymətləndirir. Beləliklə, Corc Buş Böyük Britaniya baş nazirinin də iştirak etdiyi Senatdakı çıxışmda bildirmişdir: "America has no true friend than Great Britain" ("Amerikanın Britaniyadan sadiq dostu yoxdur").

Böyük Britaniya da öz növbəsində ABŞ üçün Aİ-də ən sadiq müttəfiqdir. Burada Britaniyanın köməyi ilə Aİ heç zaman tamamilə anti-Amerika siyasi birliyinə çevrilə bilməz. Beləliklə, ABŞ hesab edir ki, xüsusilə Aİ-nin müstəqil siyasi orqanizm kimi güclənməsi şəraitində Avropa işlərində vetoya malik olmaq mühüm amildir. Aİ-nin vahid subyekt kimi güclənməsi istər-istəməz Aİ-nin ABŞ ilə bərabər münasibətlərə can atması ilə nəticələnir. Məhz bu cəhd NATO-nun mövcud strukturunu şübhə altına alır. Beləliklə, hegemon və vassallardan ibarət olan alyans əvəzinə iki bu və ya digər dərəcədə bərabər partnyorlara əsaslanan alyansın yeni reallığına uyğunlaşmasım tələb edir. NATO çərçivəsində Qərbi Avropa Birliyinin (QAB), Qərbi Avropa ölkələrinin hərbi koalisiyasınm rolunun artırılmasına yönəldilmiş 1996-cı ildə görülmüş son dərəcə ciddi tədbirlərə baxmayaraq bu məsələyə hələ indiyə kimi baxılmır. Beləliklə, birləşmiş Avropa lehinə real seçim NATO-nun tamamilə yenidən təşkilinin həyata keçirilməsini tələb edəcəkdir, bu isə alyans çərçivəsində Amerikanın rəhbər rolunun azalmasına gətirib çıxaracaqdır. Bu o deməkdir ki, Aİ və ABŞ hərbi cəhətdən hələ uzun müddət əməkdaşlıq edəcəklər, belə ki, onlar Rusiya və Çinin simasında ümumi potensial düşmənlərə malikdirlər.

ABŞ-ın Avropada əsas geostrateji məqsədi məhz bundan ibarətdir. O, kifayət qədər sadə şəkildə ifadə edilə bilər: daim böyüyən Avropanın beynəlxalq demokratik quruluşun və əməkdaşlığın Avrasiyaya daxil olması üçün daha real tramplinə çevrilməsi məqsədilə daha səmimi transatlantik partnyorluq vasitəsilə Avrasiya qitəsində Amerika meydanını möhkəmləndirmək. Rusiyaya münasibətdə ABŞ və Aİ-nin siyasətini iki Rusiya geosiyasətçisi gözəl şərh etmişlər: "Birləşmiş Ştatlar və

NATO ölkələri Rusiyanın özünə hörmət hissinə hörmətlə yanaşmalarına baxmayaraq Rusiyaya dünya siyasətində Sovet İttifaqına məxsus ikinci üstün dövlət statusunun əldə edilməsinə ümid bəsləməyə imkan verən geosiyasi əsasları məhv edirlər".

Aİ-nin özünə gəldikdə isə onun birləşməsi prosesi hələ də davam edir. Lakin Avropa klubunun 25 üzvdən ibarət olmasına baxmayaraq problemlər hələ də mövcuddur. Problem ondan ibarətdir ki, həqiqi Avropa "Avropası" mövcud deyil. Bu tam reallıq deyil, surət, konsepsiya və məqsəddir. Qərbi Avropanın yeganə siyasi təşkilat olmağına da çox var. Hələ ki siyasi Avropa mövcud deyildir, belə ki, ümumi Avropa konstitusiyası hələ Litvadan başqa heç kim tərəfindən təsdiq edilməmişdir. İraq böhranı Aİ-nin yaxın gələcəkdə vahid siyasi qərarın hakim olduğu siyasi təşkilata çevrilə bilməyəcəyinin bir sübutu oldu. Xüsusilə də ABŞ siyasətinə aid olan məsələlərdə Türkiyənin Aİ-nin üzvü olacağı təqdirdə Aİ siyasi cəhətdən daha da parçalanmış olacaqdır. Acınacaqlı bir fakt ondan ibarətdir ki, Qərbi Avropa və getdikcə həm də Mərkəzi Avropa xeyli dərəcədə Amerika protektoratı olaraq qalmaqdadır, bununla belə müttəfiq dövlətlər qədim vassallar və tabe dövlətlərə bənzəyir. Bu cür vəziyyət nə Amerika, nə də Avropa dövlətləri üçün normal vəziyyət deyil.

Türkiyəyə gəldikdə isə çox güman ki, bu, Avropa üçün mühüm problemlərdən biridir. 80 milyonluq bu müsəlman ölkəsi Aİ-nin üzvü olmaqdan ötrü böyük qüvvə sərf etmişdir. Aİ Türkiyənin üzvlüyü səbəbindən öz siyasi məhvi təhlükəsini dərk edərək böyük bir tərəddüd içərisindədir. Türkiyənin Almaniyadan sonra ikinci böyük dövlət olacağı, Almaniya və Fransanın öz liderliklərini Türkiyə ilə bölüşməyə məcbur olacaqları faktını dərk edən Aİ çox güman ki, Türkiyənin 2004-cü ilin dekabrında üzvlüyə qəbul edilməsi məsələsini təxirə salacaqdır, ya da onu hər hansı bir əməkdaşlıq layihəsinə cəlb edəcəkdir ki, bu da mahiyyətcə "bir az gözlə" demək olacaqdır. Aİ-nin Türkiyə ilə bağlı məsələdə tələsmək məqsədi yoxdur. Ukraynadan fərqli

olaraq onun Avropa tərəfə olmaqdan savayı inkişaf yolu yoxdur. Lakin Aİ-nin də Türkiyə ilə əməkdaşlıq etməkdən savayı yolu yoxdur, buna görə də incidiyi təqdirdə Türkiyə Avropanın "acığına" daha da İslamlaşa bilər.

Avropada isə iki lider mövcuddur ki, bu da Almaniya və Fransadır. Şübhəsiz ki, Almaniya demək olar ki, hər cəhətdən Fransadan üstündür. Onun hakim rolu şübhəsizdir, lakin digər ölkələr, xüsusilə də ABŞ Almaniyanın Avropada liderliyinin açıq şəkildə müdafiə edilməsi məsələsində bir qədər ehtiyatlı davranırlar. Bu liderlik Avropanın şərqə doğru genişləndirilməsi sahəsində alman tədbirliliyini qiymətləndirən Mərkəzi Avropanın bir neçə dövləti üçün faydalı ola bilər və o, Qərbi avropalıları ABŞ-ın birinciliyinin davam etməsi boyunca qane edə bilər, lakin uzunmüddətli perspektivdə Avropanın qurulması ona əsaslana bilməz. Yadda qalan xatirələr hələ ki çoxdur, üzə çıxa biləcək qorxular çoxdur. Berlin tərəfindən təşkil və başçılıq edilən Avropa – həyata keçirilməsi qeyri-mümkün olan bir ideyadır. Məhz bu səbəbdən Fransa Almaniyaya, Almaniya isə Fransaya lazımdır. Kim inana bilərdi ki, III Napoleon və Bismarkın dövründən Almaniyanın qatı düşməni olan, iki dəfə təcavüz qüvvəsini öz üzərində hiss etmiş və iki dəfə Almaniyaya təslim olmuş ölkə olan Fransa 50 il ötməmiş belə Almaniyanın fəal müttəfiqi olacaq və bu ölkənin BMT-nin Təhlükəsizlik Şurasının bərabərhüquqlu üzvü olması, daha doğrusu, BMT-də islahatların aparılması uğrunda mübarizə aparacaq.

Lakin Avropaya fransız-alman qarşılıqlı əlaqəsi lazımdır, ABŞ isə Almaniya və Fransa arasında seçim edə bilməz. Qısamüddətli perspektivdə ABŞ-ın Fransa siyasətinə qarşı taktiki qarşıdurması və Almaniyanın liderliyinin müdafiə edilməsi haqlı idi; gələcəkdə isə əgər həqiqi Avropa doğrudan da reallığa çevrilməlidirsə Avropa birliyi daha xarakterik siyasi və hərbi bənzərliyi qəbul etməyi tələb edəcəkdir. Bu, tədricən səlahiyyətlərin Atlantik orqanları arasında bölüşdürülməsi haqqında məsələnin fransızsayağı şəkildə həll edilməsinə uyğunlaşmağı tələb edir.

Bir dövlətin liderliyi altında vahid Avropanın yaradılması məsələsinə gəldikdə isə bu məsələni qeyri-mümkün hesab etmək mümkündür. Belə ki, nə Fransa, nə də ki Almaniya Avropanı tək öz gücü hesabına qurmağa və ya Avropanın coğrafi məkanının müəyyənləşdirilməsi məsələsində Rusiya ilə qeyri-müəyyənlikləri həll etməyə qadir olacaq dərəcədə qüvvətli deyil. Bu ABŞ-ın, xüsusilə Avropa məkanının müəyyən edilməsində və demək ki, xüsusilə Rusiya üçün Avropa sistemində Baltikyanı və Ukrayna respublikalarının mümkün statusu kimi məsələlərin aradan qaldırılmasmda almanlarla birgə ciddi, gərgin və qəti iştirakını tələb edir.

Eyni zamanda bu, gələcəkdə Fransa ilə Almaniya arasında siyasi münaqişənin tam olaraq aradan qalxması demək deyil. Əgər ABŞ yalnız Almaniyaya böyük yardım göstərərsə, Almaniya isə öz növbəsində Avropanı təklikdə idarə etməyə can atacaqsa, bu halda Fransa Amerikanın Avropa siyasətinin qarşısım almaq və bunu münasib vaxtda yenidən bərpa etmək məqsədilə özünün Rusiya ilə ənənəvi əlaqələrindən taktiki surətdə istifadə edə bilər. Bu siyasi inkişaf variantı yaxın gələcəkdə inanılmaz görünsə də, Avropa ölkələri içərisində siyasi cəhətdən Rusiyaya ən yaxın ölkə olan Fransa bu mövqeyi itirməyə hazırlaşmır. Bu mövqe Fransa tərəfmdən bir daha onun Xarici İşlər Nazirinin 1996-cı ilin avqustunda açıq-aşkar verdiyi bəyanatmda qeyd edildi. O söyləmişdir ki, "əgər Fransa beynəlxalq səviyyəli rol oynamaq istəyirsə, Rusiyanm güclü olması və onun güclü dövlət kimi təkrarən özünütəsdiq etməsində ona yardımın göstərilməsi onun üçün əhəmiyyətlidir" və Rusiya xarici işlər nazirini buna bu cür cavab verməyə vadar etdi: "bütün dünya liderləri içərisində Rusiya ilə qarşılıqlı münasibətlər sahəsində ən konstruktiv yanaşma fransız rəhbərlərinə məxsusdur".

Zənnimizcə ən ağlabatmaz gələcək nəhəng dövlətlərdən Rusiyaya məxsusdur. Məhz o, gözlənilməz olaraq kommunist "müsibətinə" çevrilmiş və gözlənilməz olaraq da bu "müsibəti" tərk etmişdir.

Rusiya kommunizm dövründə fərqli ideologiyaya malik idi, bu isə ona şərəf hissi verirdi. Bu səbəbdən də artıq o zaman Rusiyanın öz ideologiyası olmadan mövcudiyyətini proqnozlaşdırmaq çətin idi. "Əgər ruslar üçün dəhşətli olan hadisə baş verərsə və dövlət hissələrə parçalanarsa, öz min illik tarixi boyunca talan edilmiş və aldadılmış ruslar tək qalacaqlar, bu zaman onların bu yaxındakı "qardaşları" lazım olanları götürüb "milli xilasetmə qayıqlarına" minəcək və əyilmiş gəmidən kənara üzəcəklər; nə etməli, bizim getməyə başqa yolumuz yoxdur... Siyasi, iqtisadi və mədəni cəhətdən "Rusiya ideyasını" təcəssüm etdirən Rusiya dövlətçiliyi yenidən yaradılacaqdır. O, çarizmin mövcud olduğu uzun 1000 il və bir an kimi ötüb keçmiş 70 sovet ili təcrübəsindən ən yaxşı cəhətləri özündə ehtiva edəcəkdir". Bu səbəbdən də Rusiya üçün günümüzə kimi onu dərhal Qərbdən və onun keçmiş qatı düşməni olan ABŞ-dan mədəni cəhətdən asılı vəziyyətə salacaq "demokratik Avropa" örtüyü altına girmək çox çətindir. Dövlət duması deputatlarından biri Rusiyada mövcud olan vəziyyəti bu cür təsvir etmişdir: "Keçmişdə Rusiya özünü Avropadan geridə hesab etsə də, Asiyadan öndə görürdü. Lakin sonradan Asiya daha cəld tempdə inkişaf etməyə başladı... və biz özümüzün "müasir Avropa" və "geridə qalmış Asiya" arasında olmaqdan çox, bir qədər qəribə mövqe tutaraq iki "Avropa" arasında olduğumuzu müəyyən etdik". Sovet İttifaqının dağılmasından heç bir ay keçməmiş ilk Rusiya Xarici İşlər Naziri bəyan etdi: "Messianizmdən imtina etməklə biz praqmatizm kursu götürdük... biz tezliklə anlamağa başladıq ki, geosiyasət ideologiyanı əvəz edir".

Geosiyasət dedikdə, bir çox siyasətçilər ABŞ-ın Şərqə doğru irəliləməsini dayandırmaq və nəticədə özlərinin sağ qalması üçün bütün mümkün vasitələrə əl atmağı başa düşürlər. Buna baxmayaraq aparıcı geosiyasətçilər əvvəlki kimi hələ də "Birləşmiş Ştatlarla konfrontasiya – qaçılması zəruri olan variant" olduğunu sübut etməyə çalışırlar. Bundan əlavə onlar sübut etməyə çalışırlar ki, ABŞ "Nəticədə qitədə bir aparıcı dövlətin

deyil, bir çox orta, nisbətən sabit və orta güclü, lakin mütləq həm birlikdə, həm də ayrı-ayrılıqda Birləşmiş Ştatlarla müqayisədə xeyli zəif dövlətlərin olması üçün bütün Avrasiyada dövlətlərarası münasibətlərin yenidən təşkilinə" can atır.

Lakin eyni zamanda Rusiyanın bir çox siyasətçiləri yenə də ideoloji boşluğu qərb tipli demokratiya ilə doldurmağa razı deyillər. Bu boşluğu Rusiya ideoloqları daha da cəlbedici görünən "yaxın xaricə" doğru olan fokuslu "Avrasiya" doktrinası ilə doldurmağa cəhd etdilər. Terminologiyada mədəniyyət, hətta mistika ilə əlaqələndirilən bu istiqamətin başlanğıc nöqtəsi ondan ibarət idi ki, geosiyasi və mədəni münasibətdə Rusiya tam olaraq nə Avropa, nə də Asiya ölkəsidir və bu səbəbdən də avrasiya dövlətindən ibarətdir, bu isə yalnız ona xas olan keyfiyyətdir. Bu, Rusiyanm Mərkəzi Avropa ilə Sakit okean arasında yerləşən geniş əraziyə nəzarət irsidir, Moskvanm şərqə doğru irəliləməsinin 400 ili ərzində yaratdığı imperiyanm irsidir. Bu irəliləmə nəticəsində Rusiya saysız-hesabsız rus və avropalı olmayan xalqları assimilyasiya etmişdir, bununla da vahid siyasi və mədəni fərdiliyə nail olmuşdur.

"Avrasiyalıq" bir doktrina kimi Sovet İttifaqınm dağılmasından sonra yaranmışdır. O, ilk dəfə XIX əsrdə yaranmış, lakin sovet kommunizminin aydın şərh edilmiş alternativi və Qərbin guya ki, tənəzzülünə reaksiya kimi XX əsrdə geniş yayılmışdır. Rus mühacirləri bu doktrinanı sovet yolunun alternativi kimi xüsusi fəallıqla yayırdılar, belə ki, başa düşürdülər ki, kommunizmin tamamilə iflasa uğraması Böyük Rusiya imperiyasının dağılmasına gətirib çıxarmasınm qarşısım almaq üçün rus olmayan xalqların Sovet İttifaqında milli oyanışı hərtərəfli milli doktrinanı tələb edir. Lakin istənilən halda etiraf etmək lazımdır ki, avrasiyalıq nəzəriyyəsi dövlət ideologiyası olmaq nəzəriyyəsindən uzaqdır. Onu da qeyd etmək lazımdır ki, Rusiya indi də, xüsusilə Ukraynada baş verən hadisələrdən sonra özü üçün Qərb ideologiyasmdan fərqli ideologiyanı götürməyin zəruri olduğunu hiss edir.

İdeoloji müharibədə məğlub olan Rusiya həm də geosiyasi müharibədə də məğlub oldu. Lakin ideoloji müharibədə tamamilə məğlubiyyətdən fərqli olan Rusiya tam geosiyasi məğlubiyyətdən hələ ki, uzaqdır. Bu gün Rusiyanı hər şeydən çox ABŞ-nın hərbi müttəfiqlərinin – NATO-ya üzv ölkələrin sərhədlərinin Rusiyamn sərhədlərinə yaxınlaşması faktı narahat edir. Bu faktı nəzərə alaraq Rusiya mexaniki surətdə ABŞ-ın Avrasiyaya doğru gələcək irəliləməsinə qarşı müttəfiqlər axtarmağa başladı. Öz təsir sahələri olan regionlarda (məsələn, Tayvan) ABŞ-ın hegemonluğu ilə razılaşmaq üçün kifayət qədər güclü ölkə olan Çin Rusiyanm ideal potensial müttəfiqi ola bilərdi. Beləliklə, ABŞ-ın bugünkü militarist siyasətindən narazı olan iki ölkənin daha sıx surətdə yaxınlaşması ehtimalı mövcuddur. Hər iki dövlətin siyasi elitasınm ABŞ-nm yeganə üstün dövlət olmasmdan narazılıq əsasında ikitərəfli Rusiya-Çin münasibətlərinin bərpası 1996-cı ilin başlanğıcında Yeltsinin Pekində səfərdə olduğu və qlobal "hegemon" tendensiyalarını birmənalı şəkildə pisləyən bəyannaməni imzaladığı zaman baş vermişdir. Bu, Rusiya və Çinin Birləşmiş Ştatlara qarşı ittifaqa daxil olması demək idi. 1996-cı ilin dekabr ayında Çinin baş naziri Li Pen cavab səfəri ilə Rusiyada oldu və hər iki tərəf "bir dövlətin hakim olduğu" beynəlxalq sistemin qəti surətdə əleyhinə olduqlarını bir daha təsdiq etməklə yanaşı həm də mövcud ittifaqlarm güclənməsini bəyəndilər. Rusiya politoloqları hadisələrin bu cür inkişafını rəğbətlə qarşılayırdılar. Belə ki, onlar bunu qlobal qüvvələr balansmda müsbət irəliləyiş və Birləşmiş Ştatlar tərəfindən NATO-nun genişlənməsinə dəstəyə cavab kimi qəbul edirdilər.

Bu anti-hegemonçu ittifaqda olan tendensiya hər iki dövlətin sərhədlərində ABŞ-ın hərbi iştirakmın təsdiq olunmasmdan sonra getdikcə daha da gücləndi – Əfqanıstan, Özbəkistan, Baltikyam dövlətlər və İraq. Bundan savayı, bu ittifaq Rusiyaya Çindən çox lazımdır. Bunun səbəbi ondan ibarətdir ki, Rusiya həm iqtisadi, həm də hərbi nöqteyi-nəzərdən daha zəifdir. Bun-

dan əlavə, geosiyasi baxımdan Çin Rusiya üçün ABŞ və Avropadan böyük təhlükədir. Belə ki, ABŞ və Avropanın şərq ərazilərində əhali məskunlaşmamış, əhalinin yerləşdirilməsi üçün daha böyük ərazi axtaran Çində isə həddən artıq məskunlaşmışdır. Bu səbəbdən Rusiya bir tərəfdən ABŞ və Avropa, digər tərəfdən isə Çinlə ittifaq arasında patoloji qorxu qarşısındadır. Rusiya üçün bu Bismark Almaniyası üçün Fransa və Rusiya ittifaqı qarşısında olan dəhşətə bərabərdir. Bir sözlə, Rusiya diplomatiyası bu ittifaqın baş tutmaması üçün Çinin Tayvan məsələsində yardımını və ola bilsin Koreya məsələsində şifahi yardımını da nəzərə almaqla əlindən gələni edəcəkdir (heç olmazsa etməlidir). Digər tərəfdən yaxın perspektivdə bu ittifaqın baş tutması çətin ki, həyata keçsin. Belə ki, Rusiya antihegemon istiqamətli koalisiya üzrə həqiqətən də layiqli müttəfiq olmaqdan ötrü Rusiya-Çin ittifaqına az şey təklif etməyə qadirdir.

Ümumi ideologiyadan məhrum və anti-hegemonçu hisslərlə birləşmiş bu cür koalisiya mahiyyətcə "üçüncü dünya" ölkələrinin bir hissəsinin daha inkişaf etmiş dövlətlərə qarşı ittifaqı olacaqdır. Bu koalisiyanın üzvlərindən heç biri çox şey əldə edə bilməyəcəkdir, Çin isə böyük sərmayə axınını itirmək riskinə gedir. Rusiya üçün isə "Rusiya-Çin ittifaqı kabusu onun yenidən qərb texnologiyası və kapitalından təcrid edilməsi şansını kəskin surətdə artıracaq", deyə bir Rusiya geosiyasətçisi söyləmişdir. Bu cür ittifaq onun bütün iştirakçılarını uzunmüddətli təcrid və onlar üçün ümumi geriləməyə məhkum edəcəkdir.

Bundan əlavə, çox güman ki, Çin Rusiyanın oxşar antihegemonçu koalisiya yaratması cəhdlərində böyük müttəfiq olacaqdır. Əhalisinin çoxluğu ilə fərqlənən, sənaye cəhətdən daha inkişaf etmiş, Rusiyaya münasibətdə öz müəyyən ərazi planlarını daha dinamik və potensial şəkildə nəzərdə tutan Çin ona "kiçik müttəfiq" statusunu verəcəkdir. Beləliklə Rusiya genişlənən Avropa və ekspansionist Çin arasında buferə çevrilə bilər.

Təhlükəli ssenarilərdən biri kimi anti-hegemonçu koalisiyanın ideologiya deyil, bir-birini tamamlayan inciklik əsasında

birləşən Çin, Rusiya və İranın iştirakı ilə yaradılması zamanı baş verəcək hadisələrin inkişafı ola bilər. Qərb tərəfindən Hindistanda Kəşmir probleminin müdafiə edilməsi səbəbindən narazı olduğu halda, Pakistanın Çinlə sıx münasibətlərini nəzərə alaraq bu koalisiyaya daxil olması daha təhlükəli olardı. Beləliklə, ABŞ Pakistanın Kəşmir probleminin həllinin yeganə yolunu Rusiya və Çin birliyində görməməsindən ötrü hər şey etməlidir. Lakin bu proses baş versə belə gec baş verəcəkdir, belə ki Çinin özünün hələ ki Tayvan və Koreyada, Rusiyanm isə postsovet məkanında təsirini itirməsi üzündən problemləri vardır. Bununla belə, Çin, Rusiya, İran və ola bilsin hətta Şimali Koreya simasında ittifaq daha ehtimal olunandır. Öz həcmi və miqyasına görə hadisələrin bu cür inkişafı artıq bir dəfə Rusiya sovet bloku tərəfindən qoyulmuş problemi xatırladır, lakin bu dəfə çox güman ki, Çin lider olacaqdır. Bu blokun yaranmasmın qarşısını almaq üçün ABŞ eyni zamanda həm qərb, həm şərq, həm də Avrasiyanın cənub sərhədlərində geostrateji məharət göstərməli olacaqdır.

Coğrafi cəhətdən daha məhdud, lakin potensial surətdə daha mühüm problem Yaponiyanın dünya problemlərinə baxışının dəyişməsinə səbəb olacaq Uzaq Şərq və Sakit okean regionundakı Amerika mövqelərinin itirilməsindən sonra baş verə biləcək Çin-Yaponiya birliyi, ola bilsin birləşmiş Koreya problemi ola bilər. Bu cür blok iki son dərəcə produktiv xalqm gücünü birləşdirə bilər və birləşdirici Amerika doktrinası kimi "asiyanizm" ("asianism") formasını istifadə edə bilər. Bu cür ittifaq nisbətən uzaq gələcəkdə həyata keçə bilən görünür. Bu proses yalnız Koreyanın birləşməsi və adada Amerika qoşunları haqqında məsələnin qalxdığı zaman başlaya bilər. Bu mənada Amerikanın Cənubi Koreyada iştirakı xüsusi əhəmiyyət kəsb etməyə başlayır. Onsuz müdafiə sahəsində Amerika-Yaponiya sazişinin bu formada mövcud olmasmı təsəvvürə gətirmək çətindir, belə ki, Yaponiya hərbi cəhətdən daha da müstəqil olmağa məcbur olacaqdır. Lakin Koreyanın birləşməsi yolunda atı-

lan hər bir addım çox güman ki, Amerika qoşunlarının Cənubi Koreyada olmasının davam etdirilməsinə yol verməyəcəkdir. Birləşmiş Koreya Amerika hərbi müdafiəsindən imtina etməyi zəruri hesab edə bilər, bu faktiki olaraq Çinin var qüvvəsi ilə yarımadanın birləşdirilməsinə tərəfdar olmasının qiyməti ola bilər.

Bir sözlə, ABŞ-ın Çinlə münasibətlərini tənzimləməsi birbaşa olaraq Amerika-Yaponiya-Koreya "üçbucağı" çərçivəsində təhlükəsizlik sahəsində münasibətlərin sabitliyində əks olunacaqdır. Bu cür "triada"nın mümkünlüyünün daha bir neçə səbəbi vardır. Birincisi, başda Yaponiya, Çin və Cənubi Koreya olmaqla asiya ölkələri sənaye, iqtisadi və hərbi cəhətdən kifayət qədər inkişaf etmiş ölkələrdir, bu səbəbdən də onlar arasında ziddiyyətin olmadığı halda regionda Amerika qoşunlarını saxlamağın nə dərəcədə məqsədəuyğun olması barədə məsələ qoyula bilər. Bu səbəbdən ABŞ bu ölkələr arasında sülhün yaranmaması üçün əlindən gələn hər şeyi edəcəkdir.

İkincisi, bu gün böyük dövlət olan Yaponiya mahiyyətcə yalnız iqtisadi dövlətdir ki, bu da çalışqan və mübariz milləti qane etmir. Beləliklə, 19 yanvar 1960-cı il tarixində Vaşinqtonda 10 il müddətinə imzalanmış, sonra 1969-cu ilin noyabrında qeyri-müəyyən müddətə uzadılmış "qarşılıqlı əməkdaşlıq və təhlükəsizliyin təminatı" haqqında müqavilə Yaponiyaya Versal sülhünün Almaniyaya göstərdiyi təsiri göstərə bilər (xüsusilə də ABŞ-ın quru, hərbi-hava və hərbi-dəniz qüvvələrini Yaponiya ərazisində saxlaması, eləcə də orada hərbi bazaya malik olmaq hüququnu təsdiq edən müqavilənin şərtlərini nəzərə alsaq). Yaponiya öz hərbi potensialını gücləndirməyi və Yaponiyanın rəhbərliyi altında olan ərazilərdə "ümumi təhlükənin dəf edilməsi üçün ölçü" götürməyi öz öhdəsinə götürdü. Müqavilə ilə eyni zamanda imzalanmış ayrı bir sazişdə ABŞ-ın Yaponiyada yerləşdirilmiş silahlı qüvvələrinin statusu müəyyən edildi. Bundan əlavə Yaponiya bu müqavilədən sonra ilk dəfə olaraq öz qoşunlarını İraqa göndərmək üçün böyük qüvvə sərf

etdi, bunun isə iqtisadi dövlət statusu çox güman ki, Yaponiyanı qane etmir.

Üçüncüsü, Yaponiya özünü BMT TŞ-da səsi olmadığına görə də sıxılmış hesab edir. Yaponiyanın bu birlik yolunda olan yeganə maneəsi əsasən ABŞ və Avstraliyadan gələn xammal məhsulunun ixracından tam asılılığıdır. Bu məsələni də zəngin, lakin güclü müttəfiqə ehtiyacı olan Rusiya həll edə bilər.

ABŞ-ın Uzaq Şərqdəki mövcud mövqeyini Zbiqnev Bjezinski gözəl xarakterizə etmişdir: "Cənubi Koreya Uzaq Şərqin geosiyasi mərkəzidir. Onun Birləşmiş Ştatlarla sıx əlaqələri Amerikaya Yaponiya üçün qalxan rolunu oynamağa və bunun vasitəsilə də Yaponiyaya Amerika qüvvələinin orada iştirakı olmadan müstəqil və güclü hərbi cəhətdən üstün dövlətə çevrilməyə yol verməməyə imkan verir. Cənubi Koreyanm statusunda istər onun birləşməsi ilə, istərsə də Çinin genişlənən təsir sahəsinə keçidi səbəbindən baş verən istənilən mühüm dəyişiklik mütləq olaraq Yaponiyanın rolunu da dəyişməklə Amerikanm Uzaq Şərqdəki rolunu köklü surətdə dəyişərdi. Bundan əlavə Cənubi Koreyanın artan iqtisadi gücü onu öz-özlüyündə daha da mühüm bir "məkan"a çevirir. Bu səbəbdən onun üzərində nəzarət daha böyük dəyərə malik olur".

Dünyada böyük əhəmiyyətə malik digər regionlar da mövcuddur. Bu regionlarda nəhəng dövlətlərin mübarizəsi ya baş verir, ya da baş verməsi gözlənilir və bir üstün dövlətin qalibiyyəti zamanı digərinin güclü zərbəsi mütləqdir. Bu regionlardan biri də Ukraynadır. Hələ SSRİ-nin dağılmasından dərhal sonra buraya səfəri zamanı Marqaret Tetçer belə bir nəticəyə gəlmişdir ki, həm RSFSR, həm də müstəqil Rusiya Ukraynanın tam olaraq Rusiya siyasi dairələrinin təsiri altında qalması üçün hər şey edəcəkdir. Bu mülahizə ona görə deyilmişdir ki, Avrasiya məkanmda yeni və mühüm məkan olan müstəqil Ukrayna geosiyasi mərkəzdir, çünki onun bir dövlət kimi mövcudiyyəti belə Rusiyanı transformasiya etməyə yardım göstərir. Ukrayna və Rusiya artıq Avrasiya imperiyası deyil və Ukraynasız Rusiya

hələ ki imperiya statusu uğrunda mübarizə apara bilər, lakin bu zaman o, əsasən Asiyanın imperiya dövləti olardı və çox güman ki, yenicə başını qaldırmış Orta Asiya ilə üzücü münaqişəyə cəlb edilmiş olardı.

Orta Asiya isə bunun baş verdiyi halda bu yaxındakı müstəqilliyini itirdiyi səbəbindən incik düşər və onunla dostluq münasibətlərində olan cənub dövlətlərinin yardımını əldə etmiş olardı. Lakin əgər Moskva 52 milyonluq əhalisi, iri ehtiyatlara və Qara dənizə çıxışa malik olan Ukrayna üzərində nəzarəti qaytararsa Rusiya avtomatik olaraq Avropa və Asiya boyunca uzanan güclü imperiya dövlətinə tez çevrilmək üçün vəsait əldə etmiş olacaq. Bundan əlavə, Belarus kimi Rusiyameylli Ukrayna da Şərqə doğru Avro-Amerikanın irəliləməsi üçün qalxan rolunu oynayar.

Bundan başqa hadisələrdən də göründüyü kimi, ABŞ və Avropa artıq qalib gəlmişlər. Bu isə artıq Qərb tərəfdən postsovet ölkələrində əldə edilmiş ikinci inqilabi qələbədir. Nəticədə bu, digər postsovet ölkələrinə də pis təsir göstərə bilər. Rusiya politoloqu Vitaliy Tretyakovun da qeyd etdiyi kimi: "Ukraynadan sonra bu cür "incə" inqilablar Qazaxıstan, Özbəkistan və hətta Ermənistanda da baş verə bilər".

Zənnimizcə Rusiyanm Ukraynadakı məğlubiyyəti tezliklə onu bütün postsovet ölkələrinə, xüsusilə də Azərbaycan və Qazaxıstana qarşı daha ayıq-sayıq edəcək. Rusiya bu ölkələrin növbəti Ukraynaya çevrilməməsi üçün bütün mümkün tədbirlərdən istifadə etsə təəccüblənməmək olar. Azərbaycan və Qazaxıstan kimi ölkələrin güclü qərb əhval-ruhiyyəsinə malik olduğu halda Rusiya aşağıdakı tədbirlərə əl ata bilər: Qazaxıstandakı şərait böyük rus əhalisi tərəfindən tez sabitləşdirilə bilər. Bu, nəticədə Şimali Qazaxıstanm rus əhalisinin Rusiyaya birləşdirilməsi haqqında məsələni üzə çıxara bilər. Həm də bu birləşdirmə milli özünü müəyyənetmə şüarı altında ediləcəkdir.

Azərbaycanda isə sonuncu təzyiq vasitəsi İranla anti-Azərbaycan ittifaqı ola bilər. Bu ittifaqda hər iki ölkə özünü

aşağıdakı məsələlərdə müdafiə edəcək: Xəzərin statusu, ölkədə yaşayan milli azlıqlar məsələsi və əlbəttə ermənі təcavüzü məsələsi. Beləliklə, hazırki Azərbaycan rəhbərliyi əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və zənnimizcə Azərbaycanı ikinci İraqdan qorumağa qadir yeganə siyasət olan xarici siyasət yolunu tutmuşlar. Ən əsası odur ki, mövcud hakimiyyət bu kursu dəyişməsin, bu xüsusilə NATO qoşunlarını buraya buraxmağa aiddir. Bu gün regionda Rusiyanın keçmiş postsovet ölkələrində bərqərar olmaq cəhdindən ibarət olan geosiyasi mövqeyi, eləcə də İranın həmin şeyi Azərbaycanda da etmək cəhdini və üstəlik bu ölkələrin ABŞ və Qərbə xoşagəlməz münasibətini nəzərə alaraq NATO qoşunlarını heç bir təqdirdə Azərbaycana buraxmaq olmaz. Bu həm də NATO qüvvələrinin köməyilə Ermənistan tərəfindən işğal edilmiş torpaqların bizə qaytarılacağına ümid bəsləyənlərə də aiddir. NATO qoşunlarını Azərbaycana yalmz digər böyük dövlətin Azərbaycana qarşı hərbi müdaxilə hazırlaması haqqında dəqiq məlumata malik olduğumuz halda və NATO qoşunlarının ölkəmizdə bərqərar olub burada NATO bazasının yaradılmasma təbii reaksiya olaraq sərhədlərimizin bağlanması ilə əlaqədar olaraq güclü iqtisadi zərbədən də üstün olan müstəqilliyimizi xilas etmək üçün yeganə yolun olduğu zaman buraxmaq olar.

Yaxın gələcəyin qlobal proqnozunun verilməsi məsələsinə gəldikdə isə burada ABŞ-ın məqsədli şəkildə güclənməsi tendensiyası özünü büruzə verir. Bu tendensiya İraqda, Əfqanıstanda və Özbəkistanda artıq yaranmış, indi Ukraynada yaranır, yaxın gələcəkdə isə ola bilsin ki, İranda, Şimali Koreya və Suriyada, uzaq gələcəkdə isə Səudiyyə Ərəbistanında da yarana bilər. Digər tərəfdən, Amerikanın bu ölkələrdə qüvvə boşluğunu doldurmaq strategiyası İraqdakı yubanma səbəbindən tam olaraq plan üzrə getmir. Bu ölkələri aradan götürməyin bu ardıcıllığı qeyri-real görünür. Bu fikrə ona görə tərəfdar çıxmaq olar ki, İraqa görə böyük dövlətlərin kifayət qədər ziddiyyətini görmüşük və hətta NATO üzvü olan Almaniya və Fransa nəin-

ki ABŞ-nın əleyhinə çıxış etdilər, hətta Fransa İraqa görə ABŞ ilə münasibətlərini də korladı. Digər tərəfdən İraq, üstəlik hələ Ukrayna da Rusiyanı o dərəcədə çox əsəbiləşdirdi ki, böyük həvəslə istər Çinin, istərsə də Avropa ölkələri simasında olsa istənilən anti-amerika müxalifətini müdafiə edəcəkdir. Bütün bunları nəzərə alaraq ABŞ öz növbəti hədəfini elə seçəcəkdir ki, o, Ukrayna ilə olduğu kimi Avropa üçün də düşmənə çevrilməsin. Belə ki, ABŞ Rusiyaya Avropanı və ya Çini vermək seçimi qarşısında qaldıqda, sözsüz ki, Çini seçəcəkdir.

Digər tərəfdən Fransa və Almaniya ABŞ-ın onlara bərabərhüquqlu müttəfiq kimi baxdığı təqdirdə heç də ABŞ-ın "demokratiyam zor gücü hesabına yaymaq" siyasətinə qarşı deyildir. Lakin bu variant həddindən çox şübhəli görünür, belə ki, ABŞ özü üçün Böyük Britaniyadan güclü müttəfiq görməkdən çox güclüdür. ABŞ Britaniya, İtaliya, Polşanm simasında Avropada kifayət qədər sadiq müttəfiqlərə malikdir və onun bütünlükdə siyasi Avropanın özünə qarşı düşmənçiliyi haqqında narahat olmağa əsası yoxdur. Hesab edirik ki, İraqda nisbi sabitlikdən və Ukraynada Yuşenkonun qalibiyyətindən sonra ABŞ özünə İranın simasmda yeni hədəf seçəcəkdir. Lakin ABŞ burada hərbi tədbirlərsiz və Avropa ilə müştərək şəkildə hərəkət etməyə çalışacaqdır. Anti-İran əməliyyatı zamanı ABŞ əsas diqqəti demokratiyaya verəcəkdir və bununla da ona düşmən olan quruluşu içərisindən məhv etməyə çalışacaqdır. Lakin digər tərəfdən isə İran xüsusilə İraqla müqayisədə layiqli rəqib ola bilər. 20 milyonluq əhalisi olan İraqdan fərqli olaraq İranın əhalisi demək olar ki, 70 milyon nəfər təşkil edir. Bu səbəbdən hesab edirik ki, əgər İran ABŞ-ın növbəti hədəfi olsa belə hərbi vasitə sonuncu olacaqdır.

ABŞ bundan başqa öz elmi və maliyyə bazasını rəqabət aparan üstün dövlətlərdən qabağa çıxmaq üçün istifadə edir. Bu tip layihələrdən biri də hazırda National Missile Defence (NMD) – Milli Raket Müdafiəsi adlanan Star Wars yaxud "Ulduz müharibələri" layihəsidir. Bu layihənin adında "müda-

fiə" sözünün olmasına baxmayaraq kosmosda qurulmuş raketlər düşmənlərə hamıdan tez zərbə endirə bilər. Təqdirəlayiq fakt ondan ibarətdir ki, kosmosun hərbiləşdirilməsi beynəlxalq hüquq nöqteyi-nəzərindən qadağan olunmuş əməliyyatdır. Atmosferdə, kosmik fəzada və su altında nüvə silahının sınağının qadağan olunması haqqında 1963-cü il Moskva müqaviləsi, 1967-ci il Kosmos haqqında müqavilə və 1979-cu il Ay haqqında saziş kosmosun hərbiləşdirilməsi – nüvə silahının sınağı, göy cisimlərində hərbi xarakterli bazaların və qurğuların yerləşdirilməsi, kütləvi qırğın silahı obyektlərinin yerətrafı və ya ayətrafı orbitə çıxarılmasının qadağan olunmuş tədbirlər olduğunu açıq şəkildə bəyan etdi.

Hazırda gedən mədəni mübarizə İslam dini simasında qlobal və beynəlmiləl ideologiyanın təsdiq olunması barəsində proqnozlar verməyə əsas verir. İndiki zamanda bu, Qərb ideologiyası kimi özündə tərəfdaşları milli mənsubiyyətindən və dərisinin rəngindən asılı olmayaraq birləşdirir. Bir din kimi İslam dini bütün Qərb üçün əslində bir nömrəli problemdir. O, ən tez surətdə yayılan dindir və bununla da bütün dünyada cəmiyyətin müxtəlif təbəqələrinə sirayət edir. İslam dini həm də ABŞ-da, Qərbdə və Rusiyada tez yayılır. Samuel Hanqtinqton Qərbin İslam dininə münasibətini dəqiq şəkildə qeyd etmişdir: "Qərb üçün İslam fundamentalizmi deyil, bir din olaraq İslam əsas problemdir". Bu bəyanat sadəcə olaraq qəzəb və ya ədavət səbəbindən verilməmişdir, o, kifayət qədər sərt əsasa malikdir. İslam Qərb həyat tərzindən bir çox cəhətdən fərqlənir.

Lakin İslamın Qərbi qane etməməsinin ən əsas səbəbi bu dinin həyatın bütün sahələrinə – iqtisadiyyata, siyasətə, hüquqa, mədəniyyətə və s. cəlb olunmasıdır. İslam həm də birliyə çağırır ki, bu da adətən müsəlmanlara təkan verir və özünü ümumi düşmənə qarşı birləşmək cəhdlərində göstərir. Beləliklə, gələcəkdə İslamın daha da yayılmasının proqnozunu vermək mümkündür, bu isə öz növbəsində İslam Konfransı Təşkilatı (İKT) kimi təşkilatın təsirini, eləcə də İslam ölkələrinin həm-

rəyliyini artırar. Nisbətən uzaq gələcəkdə İslamın güclənməsi bir çox ərəb və qeyri-ərəb ölkələrini bir ittifaqda və ya hətta dövlətdə birləşdirməyə qadirdir. Biz ərəblərin ümumi dilə, mədəniyyətə, dinə və bu qədər müstəqil ərəb ölkələrinə məxsus yeganə millət olduqlarını adətən unuduruq. Nədənsə biz adətən Koreya və Azərbaycan xalqlarınm parçalanması haqqında nə vaxtsa yenidən birləşəcək xalqlar kimi fikirləşirik, halbuki adətən əsrlər boyunca bir dövlət daxilində yaşayan ərəbləri unuduruq. Hesab edirik ki, bu inadcıl xalqı yalmz ümumi İslam dini birləşdirə bilər. Qədimdə İslamdan öncəki dövrlərdə bu xalqı müxtəlif başçılar tərəfindən birləşdirmək cəhdlərinin göstərildiyi kimi, müasir dövrdə də ərəb millətçiləri bu millətin birləşdirilməsi üçün əllərindən gələn səyləri göstərirlər. Lakin hamımız çox gözəl bilirik ki, nə birincilər, nə də ki ikincilər bunu etməyə müvəffəq olmamışlar.

Beləliklə, hesab edirik ki, dünya, İslam və Qərb arasında müəyyən ziddiyyətlər formalaşır. Bir tərəfdən ABŞ tərəfindən İsrailin müdafiə edilməsi, anti-terrorçu əməliyyatların müsəlman ölkələrinə qarşı yönəldilməsi və anti-müsəlman təbliğatı kimi hadisələr, digər tərəfdən isə SSRİ-nin dağılmasından sonra bir çox müsəlman ölkələrinin müstəqillik əldə etməsi, müsəlman ölkəsində nəhəng maliyyə bazarının yaranması, eləcə də böyük neft ehtiyatlarına sahib olma (OPEK-in üzvü olan 15 ölkədən 13-ü müsəlmandır), amerika və avropalıların özlərinin içərisində müsəlmanlarm sayının artması bu prosesi daha da yaxınlaşdırır.

## ƏDƏBİYYAT:


1. Abbasbəyli A. Beynəlxalq münaqişələr: Nəzəri və konseptual yanaşmalar. B., 2006.
2. İsmayılov M. Yaxın Şərq müasir dünya siyasəti aspektində. B., 2002.
3. Аббасбейли А.. Внешняя политика Российской Федерации в XXI веке. Б., 2005.
4. Кингстон-Макклорн. Глобальная стратегия. М., 1959.
5. Тихонов А.В. Современные международные отношеиия, М., 2000.
6. James P. Crisis and War Montreat. 1988 The Word in 2000. The Economist Publications London., 2000.
7. Waltz K. Globalization and American Power. "The National Interest", Spring, 2000.
8. Roskin M. International Relational a New World N.Y., 1998.
9. Bello Walden. People and Power in the Pacifik L., San Francisko: Pluto Press 2000.
10. Chalmers Jonson. The sorrows of empire (Millitarism, secrecy And the End of the Republic). London-New York, 2004.

# IV FƏSİL

# DÜNYA SİYASƏTİNİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

## 4.1. Dünya siyasətində iqtisadi amilin yeri və rolu

İqtisadiyyat və siyasət həmişə bir-birilə sıx bağlı olmuşdur. Dünya siyasətində iqtisadi faktor XX əsrin ikinci yarısında diqqəti cəlb etməyə başlamışdır. 1970-ci illərin enerji böhranı burada əsas stimullardan biri oldu. Bu böhrandan sonra aşkar edildi ki, hərbi güclə müəyyənləşən yüksək səviyyəli siyasət bir çox hallarda iqtisadiyyatın və ya aşağı səviyyəli siyasətin qarşısında gücsüz oldu. ABŞ-ın Vyetnam müharibəsində məğlubiyyəti də burada öz rolunu oynadı və hərbi gücün heç də həmişə bütün problemləri həll edə bilməməsini aydın şəkildə nümayiş etdirdi. Lakin, daxili faktorlar da var idi. Demokratik dövlətlərdə ölkənin iqtisadi uğurları ilə hökumətin şöhrəti arasında asılılıq daha böyük yəqinliklə özünü göstərirdi. Öz növbəsində iqtisadiyyat dünyada qarşılıqlı asılılığın güclənməsi səbəbinə görə beynəlxalq faktorlarla daha çox şərtlənirdi.

İstənilən digər sahələrdə olduğu kimi, burada da nəzəri məktəblər və yanaşmalar mövcuddur. Əsas klassik yanaşmalar arasında adətən iki daha geniş yayılanı – merkantilizm və ya dövlət-mərkəzçi yanaşmanı və ticarət, və ya iqtisadi realizmi ayırırlar.

"Merkantilizm" termini BSİ (Beynəlxalq Siyasi İqtisadiyyat) nümayəndələri tərəfindən onun XVI-XVIII əsrlərdə geniş yayılmış doktrinaların göstərilməsi üçün tez-tez istifadə edildiyi, iqtisadi sahənin dövlətin siyasi maraqlarına tabe

edilməsinə istiqamətlənmiş iqtisadi tarixdən və iqtisadi fikir tarixindən götürülmüşdür. Bu istiqamətin nümayəndələri ona əsaslanırlar ki, iqtisadiyyat siyasətə xidmət etməlidir və dövlətin gücünü qüvvətləndirməlidir. Böyük coğrafi kəşflər, ardınca Avropa dövlətləri tərəfindən yeni ərazilərin istila edilməsi onun inkişafını stimullaşdırır. Var-dövlətin qiymətli metallar şəklində yığılması dövlət qüdrətinin simvoluna çevrilir. XVIII əsrdə merkantilizmin çiçəklənməsi müşahidə edilir. Bu, onu silahlandırmağa başlayan Böyük Britaniyanın uğurları ilə şərtlənirdi.

Merkantilizmin nümayəndələri siyasi realistlərin dövlətin öz maraqlarını, eləcə də iqtisadi maraqlarım müdafiə etməli olması ilə bağlı olan baxışları ilə həmfikirdirlər. Bu məktəbin ardıcıllarının baxışlarına görə, iqtisadi siyasət dövlətin inkişafına istiqamətlənməlidir. Bundan əlavə, iqtisadi fəallıq nəticəsində dövlətin əldə etdiyi gəlirlər hərbi ehtiyaclara daha çox vəsaitin sərf edilməsinə imkan verir. Verilən istiqamətə əsaslanan müəlliflər iqtisadi həyatın dövlət tərəfindən nizamlanmasına, o cümlədən, bazar proseslərinə fəal müdaxilə edilməsinin lehinə çıxış edirdilər.

Merkantilizm ideyaları müasir şərtlərlə neomerkantilizm formasını alır. Burada dövlətin siyasi-iqtisadi həyatda birinci dərəcəli rolu mərkəzi həlqə olaraq qalır, lakin qızıl ehtiyatlarının yığılması əvvəllər olduğu kimi o qədər də əhəmiyyətli deyil, çünki bu gün ölkənin iqtisadi və başqa qüdrəti onlarla uyğun gəlmir. D.Kalduell yazır ki, "merkantilizm" termininin özü öz yaranışına görə iki müəllifə – D.Bleyk və R.Uolsterə borcludur.

Neomerkantilizmin tərəfdarları dövlət quruculuğunda iqtisadiyyatın rolunun çox güclü faktor olduğunu qeyd edərək, Almaniya və Yaponiyanm müharibədən sonrakı inkişafmm uğurlu nümunəsinə əsaslanırlar. Onların qeyd etdikləri kimi, hər iki dövlət məhz iqtisadi inkişafm stimullaşdırılmasında dövlətin aktiv rolu sayəsində müasir dünyada lider yer tuta bilmişlər.

Neomerkantilizm dövlətlər arasında resurslarm və əldə edilən məhsulun öz aralarında müəyyənləşdirilməsində mövcud

olan iqtisadi maraqlardakı müxtəlifliyə diqqəti yönəldir. Bununla əlaqədar olaraq, bu məktəbin nümayəndələri "iqtisadi millətçilər" adını almışdır. Maraqlıdır ki, bəzən "iqtisadi millətçilik" ideologiyasının daşıyıcılarına təkcə iqtisadçılar və ya siyasi xadimlər deyil, eləcə də öz ölkəsində istehsal olunmuş məhsulları almağa üstünlük verən vətəndaşların özləri də aiddir. Bundan başqa, bu cür davranış zamanı reklam kampaniyalarının rolunu nəzərə almamaq olmaz.

Neomerkantilistlər milli istehsalın inkişafı üçün bu və digər bir neçə milli sahələr üçün xüsusi şərtlərin yaradılmasını və onların bazar ünsürlərinin təsirindən müdafiə edilməsini nəzərdə tutan ticarət himayəçiliyi siyasətinə meyilli olmağı təklif edirlər. Dövlətlərin ticarət himayəçiliyi siyasətindən istifadə etməsinin səbəbləri müxtəlifdir. Bu, iqtisadiyyatın bu və ya digər sahələrinin müvafiq maliyyə-sənaye qruplarının lobbiləşdirilməsinin, dünya bazarında özünün hələ ki rəqabət qabiliyyətli olmayan yeni yaranan sahəsinin inkişafına can atmasının və b. nəticəsi ola bilər. Himayəçilik siyasəti müxtəlif iqtisadi metodların tətbiqini nəzərdə tutur. Onlar şərti olaraq iki qrupa bölünürlər – gömrük tarifindən istifadə edilməsinə əsaslanan tarif və kvotaların, subsidiyaların və s. tətbiq edilməsini təklif edən qeyri-tarif metodlardır.

Daxili bazarın qorunmasının daha sadə vasitələrindən biri – xaricdən gətirilmiş mallara rüsumların tətbiqidir. Adətən onlar daxil olan məhsulun bu və ya digər dəyərinə görə qoyulan faiz kimi müəyyən edilir. Nəticədə, daxili bazarda malların qiyməti qalxır. Rüsumlar təkcə idxalı məhdudlaşdırmır, eyni zamanda, dövlətin gəlirlərinin gözə çarpan mənbəyi ola bilər. Milli dövlətlərin gömrük tarifləri, adətən, müxtəlif kateqoriyalara və bir sıra mal növlərinə qoyulan rüsumların mürəkkəb strukturunu nəzərdə tutur.

Daxili bazarların müdafiəsinə köməklik edən digər alətlər qismində kvotalar tətbiq edilir. Xarici kvotalar bu və digər mal növlərinin fiziki və ya dəyər ifadəsində ölkəyə nə qədər daxil

ediləcəyini nəzərdə tutur. Ən son halda milli bazarın müdafiəsi müəyyən malların idxalına qadağa qoyulması yolu ilə həyata keçirilə bilər.

Xarici kvotaların tətbiqinə misal olaraq, 1980-ci illərdə ABŞ-da Yaponiyadan avtomobillərin idxalına qoyulan kvotanın tətbiqini göstərmək olar. O zaman onların özünün avtomobil sənayesi bu ölkədən idxalın təsiri ilə böyük çətinliklər keçirirdi. C.Qoldşteynin qeyd etdiyi kimi, bu halda mənfi məqam kvota idxal edilən avtomobillərin qiymətinin deyil, sayının məhdudlaşdırılması idi. Nəticədə, Yaponiya tez bir zamanda bahalı maşınların tədarükü ilə əlaqədar yeni istiqamət aldı və bu, o avtomobil istehsalçılarına ABŞ-dakı bazarı praktiki olaraq, tam həcmdə saxlamağa imkan verdi.

Məhsulun idxalı dövlət tərəfindən məhsulun sertifikatlaşdırılması ilə bağlı müxtəlif üsullarla nizamlana bilər. Bu, istehlakçıların sağlamlıq və təhlükəsizliyinin asılı olduğu xüsusilə, qida, əczaçılıq və digər sahələrin məhsullarına aiddir.

Daxili bazarın müdafiəsinin bir metodu bu və ya digər sahələrin, məsələn, kənd təsərrüfatı məhsullarının subsidiyalaşdırılmasıdır.

Daxili bazarın müdafiəsinin, həmçinin, digər metodları da mövcuddur. Ümumilikdə, himayəçilik siyasəti iqtisadiyyat üçün pozitiv və neqativ nəticələrə malikdir.

Ticarət himayəçiliyinin digər daha geniş yayılmış arqumenti yeni sahələrin müvəqqəti müdafiəsindən ibarətdir. Onlar inkişaf etdikdən sonra, himayəçilik tədbirləri aradan qaldırılır.

Lakin müasir şərtlərlə öz resurslarına əsaslanan inkişaf son dərəcə mürəkkəb və qeyri-effektivdir. Mahiyyətcə bu cür siyasət avtarkiyanın yaranmasına aparıb çıxarır. Məsələn, vaxtilə Albaniya bu yolla getmişdir. O, 1960-cı illərdən başlayaraq, əvvəlcə siyasi sahədə Çinə doğru istiqamətlənmişdi, sonra isə onunla münasibətlərə son qoydu və tamamilə öz gücünə arxalanaraq inkişaf etməyə başladı və 1990-cı illərin əvvəllərində Avropada ən yoxsul dövlətlərdən biri oldu.

Təkcə öz resurslarına meylli olduqda istehsal olunan malların xərcləri həddindən artıq yüksək olur. Nəticədə, ölkə dünya təsərrüfatına daxil olan zaman əldə etdiyi müqayisəli üstünlüklərdən məhrum olur. Onlar isə dövlətin həmişə bütün xərcləri hesablaya bilməsi, eləcə də müqavilələrin imzalanması və yerinə yetirilməsi xərcləri də daxil olmaqla və ya nəqli xərcləri də nəzərə alınmaqla, digər mallar və xidmətlərdən daha əlverişli olan malı müəyyənləşdirə bilməsi sayəsində yaranır. Məhz bu malların və xidmətlərin buraxılması istiqamətində ixtisaslaşma ölkəyə xarici siyasətdə maksimal uğur qazandırır.

Qeyri-tarif metodlarından istifadənin də, həmçinin, öz məhdudiyyətləri var. Məsələn, milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin nümayəndələri maddi subsidiyaların alınmasına arxayın ola və müasirləşdirmə ilə bağlı tələsməyə bilərlər. Nəticədə, verilən sahələrin dünya səviyyəsindən geri qalması baş verir.

Nəhayət, ticarətin himayəçiliyi siyasəti, bir qayda olaraq, digər dövlətlərdə cavab reaksiyası doğurur. Onlar da öz bazarlarını qorumağa və onların mallarının idxalını məhdudlaşdıran ölkələrə qarşı analoji metodları tətbiq etməyə çalışırlar. İxracı himayəçilik metodunu tətbiq edən dövlətlərə istiqamətlənmiş sahələr bundan zərər çəkirlər.

Ümumilikdə, iqtisadi siyasətin istənilən aləti ilə olduğu kimi, himayəçilik metodlarının effektivliyi onlarm nə dərəcə adekvat tətbiq edilməsindən asılıdır. Himayəçilik siyasəti həqiqətən də, milli sahələrin inkişafına kömək edə bilər, ya da əksinə, onların qeyri-rəqabət qabiliyyətliliyinə və əslində, ləğv olmasına aparıb çıxara bilər.

Merkantilizmin nümayəndələri ixrac və idxalın dəyərinin cəminin nisbəti kimi başa düşülən ticarət balansına xüsusi diqqət ayırırlar. Birinci ikincidən üstün olduqda, ticarət balansı müsbət olacaq və əksinə, idxalın üstünlüyü zamanı o, mənfi olur. Rus müəllifi V.V.Serjenko yazır ki, "tarixə çevrilən merkantilizmin ənənəsinə görə aktiv ticarət balansı çox vaxt birmənalı olaraq müsbət makroiqtisadi göstərici kimi müəyyən-

ləşir, əslində, onun özünü ayrılıqda götürdükdə, heç də həmişə bütünlükdə iqtisadiyyatın vəziyyətini əks etdirmir". Ticarət balansı milli iqtisadiyyatın vəziyyətinin asılı olduğu yeganə indikator deyil. Bir neçə il ərzində dövlət xüsusi neqativ nəticələr olmadan mənfi ticarət balansına malik ola bilər, ancaq belə bir vəziyyətin uzun müddət saxlanması təhlükəli ola bilər.

Bir çox hallarda merkantilizmə zidd yanaşma iqtisadi liberalizmdir. Onun mənbələri Adam Smitin, Con Stüard Millin, David Rikardonun baxışlarından meydana gəlir. Dövlətlərin coğrafi mövqeyinə, iqlim şərtlərinə, təbii resurslarına görə fərqlənməsi və bunun mütləq üstünlüyü şərtləndirməsi ideyası, məhz öz əsərlərini XVIII əsrin sonunda nəşr etdirən A.Smitə məxsusdur. Sonralar D.Rikardo müqayisəli üstünlüklər nəzəriyyəsini işləyib hazırladı. Bu nəzəriyyəyə görə, hətta mütləq üstünlüyə malik olmadan belə, ölkə, istehsalında onun digər ölkələrdən geri qalmasının olduqca az ehtimal edildiyi malların ixracında ixtisaslaşmaqla xarici ticarətdə qazanc əldə edə bilər.

Müasir liberalizm özəl sektorun kampaniyalarını iqtisadi sahənin əsas iştirakçıları kimi nəzərdə tutur və dövlətlərin daha effektiv rolunu onların iqtisadi davranışma çox da qarışmamasında görür. Bu yanaşmanın nümayəndələri, dövlətin siyasəti ilə şərtlənərək azad ticarətə mane olduqlarına görə iqtisadi maneələrin aradan qaldırılmasını qeyd edirlər.

Liberalizmin tərəfdarları merkantilizmin tərəfdarlarından fərqli olaraq, dövlətlərin rəqabətini deyil, əksinə, onlarda ümumi maraqların çoxluğunu, iqtisadi sahədə əməkdaşlığın zəruriliyini və qarşılıqlı mənfəətin əldə edilməsinin mümkünlüyünü qeyd edirlər. Başqa sözlə, liberallar beynəlxalq sahədə iqtisadi qarşılıqlı əlaqələri cəmi sıfırdan yuxarı olan oyun kimi görürlər. Qarşılıqlı faydalılıq, qarşılıqlı əlaqələr hər bir ölkənin malik olduğu müqayisəli üstünlüklə şərtlənir. Belə ki, C.Qoldşteyn enerji və təbii resurslara malik olmayan, 5 milyon nəfər əhalisi olan, eyni zamanda, kərə yağının və "Lego" uşaq kərpiclərinin istehsalı üzrə ixtisaslaşmış Danimarkanı misal göstərir. Bu,

ona kifayət qədər uğurlu mövcud olmağa və zəruri malların idxalını ödəməyə imkan verir. Maraqlıdır ki, merkantilizmin nümayəndələrinin uğurlu dövlət siyasəti nöqteyi-nəzərindən şərh etdikləri Yaponiya və Almaniyanın İkinci Dünya müharibəsindən sonrakı uğur nümunəsini, iqtisadi liberalizmin tərəfdarları bu ölkələrin dünya iqtisadiyyatına fəal qoşulmalarını və digər ölkələrlə əməkdaşlığı ilə izah edirlər. Liberal yanaşmanın tərəfdarları ona əsaslanırlar ki, dövlətlər, həmçinin, beynəlxalq institutlar və təşkilatlar vasitəsilə iqtisadi əməkdaşlıqdan mənfəət əldə edə bilərlər. Bununla əlaqədar olaraq, liberalizm öz diqqətini dövlətlərə məqsədlərinə nail olmağa imkan verən beynəlxalq institutların və rejimlərin tədqiqinə cəmləşdirir.

Bir sıra müəlliflər beynəlxalq siyasi iqtisadiyyatı nəzərdən keçirərək, üçüncü məktəb kimi – iqtisadiyyatın siyasətə münasibətdə ilkinliyinə əsaslanan və siyasi-iqtisadi sahədə dövlətlərin deyil, varlılar və kasıblar arasında mübarizənin getdiyi formaların qarşılıqlı əlaqələrini xüsusi olaraq qeyd edən marksizmi ayırırlar. Hal-hazırda bu istiqamət əsas etibarilə, neomarksizm çərçivəsində inkişaf edir və əsasən "Şimal-Cənub" münasibətləri məsələləri ilə məşğul olur.

Nəhayət, bəzi tədqiqatçılar, xüsusən də, U.Raymond, Barbara Cankar-Vebster, Bob Svitki beynəlxalq siyasi iqtisadiyyatın ictimai seçim nəzəriyyəsi kimi istiqamətinə xüsusi diqqət yetirirlər. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, o, insan davranışının neoklassik iqtisadi nəzəriyyəsinin təsəvvürlərinə əsaslanır və dövlətlərin dünya meydanında iqtisadi davranışında daxili siyasi faktorların rolunu qeyd edir.

Avropanın iqtisadi həyatı XX yüzillik ərzində iki dəfə dünya müharibələrindən sonra acınacaqlı vəziyyətə düşmüşdür və hər iki halda ABŞ açıq-aydın yaxşı vəziyyətdə idi. Ancaq Alan Lemborn və Cozef Lepqoldun qeyd etdikləri kimi, Birinci Dünya müharibəsindən sonra elə avropalıların özlərinin razılığı ilə ümumilikdə, ABŞ Avropaya kömək və onunla qarşılıqlı əlaqələr ideyasını qəbul etməsə də, müharibəsindən sonra hər şey başqa cür idi.

1940-cı illərin ortalarına doğru aydın oldu ki, dünyada yeganə iqtisadi lider ABŞ-dır. Müharibədən sonrakı ilk illərdə ABŞ bütün Qərb ölkələrinin mal və xidmətlərinin yarıdan çoxunu istehsal edirdi. ABŞ iqtisadi cəhətdən daha güclü dövlət olduqdan sonra, rəsmi şəkildə "Marşal Planı" adını almış, Avropa ölkələri və Yaponiya iqtisadiyyatının bərpası üçün yardım edilməsini nəzərdə tutan layihə işləyib təklif etdi. Ona uyğun olaraq, Qərbi Avropa və Yaponiyaya təxminən 15 milyard dollar ayrıldı. Belə maliyyə qoyuluşlarmın məqsədi, ilk növbədə, dünyada kommunizmin yayılmasının qarşısını almaq idi. Müharibədən sonrakı dövrdə ABŞ sonralar onların əsas iqtisadi rəqibinə çevrilən Avropa İqtisadi Birliyinin yaradılmasmı da dəstəklədi.

1944-cü ilin iyulunda Bretton-Vuds (ABŞ) adlı yerdə 44 dövlətin nümayəndələrinin iştirakı ilə, beynəlxalq ticarət sahəsində və maliyyə sistemində yeni dünya qaydalarmın müəyyən edilməsi məqsədilə konfrans keçirilmişdir. O zamana görə, dünyada cəmi 60 dövlətin olduğu vaxtda, iştirakçıların bu sayı həddindən çox nüfuzlu idi. Ancaq nəzərə almaq lazımdır ki, hazırda mövcud olan dövlətlərin əksəriyyəti o zaman müstəmləkə olaraq qalırdılar və onlar qarşılıqlı siyasi-iqtisadi əlaqələrin yeni qaydalarını hazırlayanlar arasında deyildi.

O konfransda imzalanmış müqavilələr Bretton-Vuds adlandırılan sistemin əsası oldu. Görüşün iştirakçıları aşağıdakı məqsədlərə əsaslanırdılar:

- valyutaların mübadilə kurslarım stabilləşdirmək;
- beynəlxalq ticarəti fəallaşdırmaq;
- İkinci Dünya müharibəsi nəticəsində iqtisadiyyatları əhəmiyyətli dərəcədə zərər çəkmiş ölkələrə yardım göstərmək.

Konfransda 44 dövlətin iştirak etməsinə baxmayaraq, əsas razılaşmalar ABŞ, eləcə də bir çox hallarda Böyük Britaniya tərəfindən işlənilirdi. Ümumilikdə, onun əsas iştirakçıları olmuş Qərb dövlətləri B.Haqqesin qeyd etdiyi kimi, dünyanm yeni siyasi-iqtisadi sistemini liberalizm prinsiplərinə əsaslanaraq qu-

rurdular. Eyni zamanda, Britaniya nümayəndə heyətinə tanınmış iqtisadçı və siyasi xadim Con Meynard rəhbərlik edirdi. O, beynəlxalq iqtisadi problemlərin həllinə dövlətlərin daha güclü cəlb edilməsinin zəruriliyini israr edirdi. Valyuta kurslarının və İkinci Dünya müharibəsi nəticəsində iqtisadiyyatı zərər çəkmiş dövlətlərə göstərilən yardımların stabilləşdirilməsi məqsədilə, Beynəlxalq Valyuta Fondunun (BVF), daha çox Dünya Bankı kimi tanınan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının (BYİB) yaradılması haqqında qərarlar qəbul edilmişdir. Bununla müharibən sonrakı maliyyə sisteminin əsası qoyuldu.

Bretton-Vuds sistemi çərçivəsində BMT-nin ixtisaslaşdırılmış müəssisəsi olan, lakin eyni zamanda, kifayət qədər müstəqil olan beynəlxalq institutların – BVF və Dünya Bankınm yaradılması yolu ilə iqtisadi sahənin "siyasətsizləşdirilməsinə" cəhd edilmişdir. Məqsəd, iqtisadi təşkilatlara siyasi təsiri azaltmaqdan ibarət idi. Buna baxmayaraq, bu, reallıqdan daha çox istək olaraq qaldı. Yaradılmış institutlar öz diqqətlərini əsasən, qlobal iqtisadi proseslərin nizama salınmasına cəmləşdirdilər. K.Braunun qeyd etdiyi kimi, onların əsas meyli, texniki problemləri texniki vasitələrlə həll etməkdən ibarət idi. Belə ki, BVF pulları yığmaq qabiliyyəti olan bir dünya bankı institutu kimi deyil, vəzifəsi iştirakçıların oyun qaydalarına əməl etməsini izləməkdən ibarət olan beynəlxalq təşkilat kimi planlaşdırılırdı.

Ümumiyyətlə, C.Qoldşteynin qeyd etdiyi kimi, BVF və Dünya Bankı yarandığı vaxtdan bəri üç qrup vəzifələri yerinə yetirirdi. Əvvəlcə Qərbi Avropa ölkələrində və Yaponiyada müharibədən sonrakı dövrdə maliyyə sisteminin və ticarətin stabilləşdirilməsi ilə məşğul idilər. Onlar bu vəzifənin öhdəsindən uğurla gəldilər. Sonra 1970-80-ci illərdə inişaf etmiş ölkələr, 1990-cı illərdə isə Rusiya da daxil olmaqla, Şərqi Avropa ölkələri onların diqqət mərkəzində idi. Sonuncu iki vəzifənin yerinə yetirilməsi daha problematik oldu.

Bretton-Vuds sistemi azad ticarətin inkişafını nəzərdə tuturdu. İlk əvvəl Beynəlxalq ticarət təşkilatına ümid bəslənirdi.

Lakin o yaradılmadı. Bununla əlaqədar olaraq, 1947-ci ildə Cenevrədə 23 dövlət tərəfindən Tariflər və Ticarət üzrə Baş Sazişin (QATT) imzalanmasının böyük əhəmiyyəti var idi. O, ticarət rüsumlarının aşağı salınması və digər maneələrin azaldılması yolu ilə azad ticarətin inkişafına, eləcə də, ticarət sahəsində arbitraj funksiyasının yerinə yetirilməsinə istiqamətlənmişdi. QATT əvvəlcə hər hansı inzibati institutdan daha çox danışıqlar və maraqların razılaşdırılması üçün forum idi. Maraqlıdır ki, belə bir təşkilatın yaradılması heç də asan reallaşmamışdır. Belə ki, onun ticarət sahəsində həddindən artıq nizamlama və nəzarətə səbəb ola biləcəyi ilə bağlı qorxu var idi.

1995-ci ildə QATT Ümumdünya Ticarət Təşkilatına (ÜTT) çevrildi. Bu, QATT-ın 1986-cı ildən 1994-cü ilə qədər davam edən Uruqvay mərhələsi nəticəsində oldu. Təşkilatın funksiyaları və fəaliyyət sahələri genişləndi. Nəticədə, ÜTT kənd təsərrüfatı, xidmətlərin və intellektual mülkiyyətin ticarəti kimi yeni sahələri əhatə etməyə başladı. Bütün bunlar inzibati strukturdan və eləcə də idarəetmə aparatının genişlənməsindən xəbər verirdi.

Eyni zamanda, ÜTT bir çox hallarda dünyanın iqtisadi qloballaşmasının simvolu oldu və bu da öz növbəsində Yer kürəsinin müxtəlif hissələrində müqavimət yaratdı və bu narazılıq təşkilata qarşı çıxışlarda özünü göstərdi. Onun fəaliyyəti milli biznes və sosial prioritetlər üçün təhlükə kimi qiymətləndirilərək bir sıra hərəkatlar və birliklərin yaradılması ilə müşayiət edilir. Xüsusilə, ekoloji hərəkatlar. Məsələn, BVF-i günahlandırırdılar ki, onun iqtisadi faydalar üçün fəaliyyəti nəticəsində ətraf mühitin qorunması sahəsində milli qanunvericilik pozulur və bu, təbiətə bərpası mümkün olmayan zərər vurur.

Bəzi istehlakçı birlikləri də BVF-in fəaliyyətinə qarşı çıxırlar. Onlar ticarət maneələrinin azaldılması ilə sağlamlıq üçün təhlükəli ola biləcək malların mağazalara düşəcəyindən narazıdırlar. Məsələn, Avropa ölkələrində qida maddələrinin qəbuluna ABŞ-dan daha ciddi yanaşırlar. BVF çərçivəsində fəaliy-

yət isə heç də həmişə vətəndaşların sağlamlığını ciddi şəkildə qorumayan vahid standartlara əməl olunmasını nəzərdə tutur.

Hazırda BVF ticarət sahəsində aparıcı beynəlxalq təşkilatdır. 130-dan çox dövlət BVF-in üzvüdür və onun sayı daim artır. 1999-cu ildə Çinin BVF-ə qoşulması əhəmiyyətli məqamdır. Lakin 13 il davam edən mürəkkəb danışıqlar tələb olunurdu.

Bu təşkilatın əsas prinsipləri sırasında, birincisi odur ki, rüsumların və digər ticarət maneələrinin azaldılması təşkilatın bütün üzvləri üçün nəzərdə tutulur; ikincisi, bu, qarşılıqlı əsasda edilir; üçüncüsü, burada ayrı-seçkiliyə yol verilmir, eləcə də, ixrac edilən mallar, ölkədə istehsal edilən mallarla eyni statusa malikdir.

1970-ci ildən 1998-ci ilə qədər olan dövrdə dünya ticarətinin göstəricisi hər il 4,8% artmış, 1999-cu ildən isə illik artım 5,9% olmuşdur. Ümumilikdə, bu gün beynəlxalq ticarət beynəlxalq rejimlə nizamlanan sahələrdən birinə çevrilmişdir. O, müəyyən normaları, prinsipləri, davranış qaydalarını, eləcə də qərarların qəbulu üsullarını nəzərdə tutur. Onlar müəyyən sənədlərdə qeyd edilmiş və ya nəzərdə tutulmuş hər hansı davranış tipi ola bilər.

Bretton-Vuds görüşünün nəticələrinə görə, həmçinin, qızıl standartının təzələnməsi haqqında da qərarlar qəbul edilmişdir. İlk qızıl standartı 1921-ci ildə Böyük Britaniyada tətbiq edilmişdir. O, milli valyutanın qızıla nisbətini təsbit edirdi. Ona görə də, Birinci Dünya müharibəsinin başlanması ilə qızıl standartının ləğv olunduğu 1914-cü ilə qədər Avropanın maliyyə sistemi çox sadə idi. Londona gələn fransız və ya Fransaya səyahət etmiş ingilis valyutanın mübadiləsi haqqında fikirləşməyə bilərdi. Qızıl vahid ölçü vahidi kimi idi. Başqa cür desək, valyutaların qızıla pariteti təsbit edilmişdi. Ancaq belə maliyyə sisteminin sadəliyinə baxmayaraq, qızılın sərhədlərdən sərbəst hərəkəti potensial problem olaraq qalırdı. Buna baxmayaraq, o zaman onun bir ölkədən digər ölkəyə hərəkəti az əhəmiyyətli idi. London maliyyə mərkəzi idi və dünyada ingilis valyutası üstünlük təşkil edirdi.

Müharibələrarası dövrdə də qızıl standartının olduqca mürəkkəb tarixi olmuşdur. Belə ki, 1920-ci illərin ortalarında Böyük Britaniya qızıl standartını Britaniya imperiyasının böyüklüyünün simvolu hesab edərək ona qayıtmağa cəhd göstərdi. Lakin 1929-1933-cü illərdəki iqtisadi sarsıntılar bu sistemi son dərəcə ağır vəziyyətə saldı və 1931-ci ildə Böyük Britaniya öz valyutasının qızılla mübadiləsindən imtina etdi. Nəticədə, dünya dollar, funt və frankın "hakim olduğu" ticarət zonalarına bölünmüş oldu.

Beləliklə, Bretton-Vudsda qızıl standartı yenidən bərpa edildi. Lakin bu dəfə amerikan dolları, yəni "açar valyuta" meydana gəldi. Qızılın bir unsiyası 35 dollar səviyyəsində təsbit edilmişdi. Eyni zamanda ABŞ hökuməti dolların qızılla mübadiləsinə zəmanət verirdi. Nəticədə (düzdür, təkcə bu səbəbə görə deyil) onlar dünya siyasi-iqtisadi sistemində daha aktiv iştirakçı oldular. Bu mənada məhz İkinci Dünya müharibəsindən sonra Avropanın siyasi-iqtisadi sahədən uzaqlaşması baş verdi. Digər ölkələrin valyutalarının kursları dollara nisbətdə təsbit edilirdi. Valyuta kurslarının koordinasiyası BVF-in vəzifələrinə daxil idi.

Bretton-Vudsdakı danışıqlar nəticəsində yaradılmış iqtisadi sistem təxminən iyirmi illik dövr ərzində Qərbi Avropa ölkələrinin və Yaponiyanın iqtisadi yüksəlişini stimullaşdırmışdır. ABŞ həmçinin, bu dövrdə də kifayət qədər dinamik inkişaf etmişdir. Ümumiyyətlə, 1950-60-cı illərin əvvəllərində dünyada iqtisadi sıçrayış yaşanırdı. Lakin bütün bunlar amerikan iqtisadiyyatına etimadın qorunub saxlanıldığı dövrə qədər olmuşdur.

1971-ci ildə rəsmi məlumatlara görə, ABŞ-ın sərhədlərindən kənarda olan amerikan valyutası amerikan qızıl ehtiyatından 4 dəfə çox idi. ABŞ-ın dolların qızıla konvertasiyası ilə bağlı öhdəlikləri yerinə yetirə bilməyəcəyi aydın oldu. Elə bu zaman ABŞ ticarət defisiti hiss etməyə başladı – orada idxal ixracdan çox idi. Vyetnamda müharibə xərcləri də, həmçinin, özünü göstərdi. Nəticədə elə həmin 1971-ci ildə prezident R.Nikson

ABŞ-ın dolların qızıla paritetini saxlamaqdan imtina etməsini elan etdi. ABŞ qızılın unsiyasını 38 dollar kimi müəyyən edərək, dolları 9% devalvasiya etdi. Həmin ilin dekabrında sistemi xilas etmək məqsədilə, qızıl standartına əsaslanan beynəlxalq konfrans keçirilmişdir. Buna baxmayaraq, 1973-cü ildə o dağıldı. Əksər ölkələr öz valyutaları üçün "üzən kurs" tətbiq etdilər.

ABŞ-ın Bretton-Vuds sistemindən çıxması onun mövcudluğunun son məqamı hesab edilir. Bu addım amerikan iqtisadiyyatına müsbət, eyni zamanda Avropa ölkələrinin, eləcə də Yaponiyanın iqtisadiyyatına mənfi təsir göstərdi. Bütün bunlar 1970-ci illərdəki enerji böhranı və bir sıra Avropa ölkələrində iqtisadi problemlərin kəskinləşməsi ilə üst-üstə düşürdü.

1969-cu ildə BVF xüsusi mübadilə hüquqlarınm tətbiq edilməsi haqqında qərar qəbul etdi. Yeni qayda kağız pullar adını aldı. Xüsusi mübadilə hüquqları emissiyası 1970-1972 və 1979-1981-ci illərdə tətbiq edilmişdir. 1981-ci ildən isə beynəlxalq ehtiyat aktivini yaradan və BVF-in üzv-dövlətləri tərəfindən hesab və hesabaalma vahidi kimi, eləcə də BVF ilə hesablaşmalar üçün istifadə edilməyə başlayan, o cümlədən, beş aparıcı valyutanın əsasında formalaşmış (ABŞ dolları – 42%, AFR markası – 18%, fransız frankı – 13%, yapon iyeni – 13% və ingilis funt-sterlinqi – 13%) pul vahidinə çevrildi.

Xüsusi mübadilə hüquqları çərçivəsində hər hansı malın deyil, yalnız valyutanın alınması həyata keçirilirdi. Digər mühüm məqam ondan ibarət idi ki, valyutaların alınması ayrı-ayrı şəxslərin və ya korporasiyaların iştirakını nəzərdə tutmurdu. Bununla yalnız dövlət mərkəzi bankları məşğul olurdu.

1990-cı illərin əvvəllərində QATT-ın ÜTT ilə əvəz edilməsi haqqında müzakirələrin getdiyi vaxtda Avropa İttifaqı çərçivəsində əhəmiyyətli dəyişikliklər baş verdi və 1991-ci ilin dekabrında "Maastrixt müqaviləsi" imzalandı. 1999-cu ildə Aİ vahid Avropa valyutası – avronu əvvəlcə, nağdsız hesablaşmalarda, 2002-ci ildən isə nağd istifadə üçün tətbiq edir. Onun tətbiqi Avropa ölkələrində kəskin müzakirələrlə müşayiət olunurdu.

Məsələn, Böyük Britaniya vahid Avropa valyutasına keçməkdə tələsməməyə qərar verdi. Buna baxmayaraq, avro dünya maliyyə sistemində əhəmiyyətli hadisə oldu.

Tezliklə, Maastrixt müqaviləsinin bağlanmasından sonra ABŞ, Kanada və Meksika vahid ticarət məkanın yaradılmasını nəzərdə tutan Şimali Amerika Azad Ticarət Zonasınm (NAFTA) yaradılması haqqında müqaviləni imzaladılar. 1994-cü ildən NAFTA-da 15 ilə nəzərdə tutulmuş mərhələli şəkildə milli rüsumların ləğvi prosesi başladı.

ABŞ-ın İkinci Dünya müharibəsindən sonra yaranmış maliyyə sistemindən çıxmaq haqqında qərarı və Bretton-Vuds sisteminin əslində dağılması nəticəsində onun bir sıra törəmə strukturları öz mövcudluğunu davam etdirdi. Bu, ilk növbədə, sistem çərçivəsində yaradılmış institutlar – Beynəlxalq Valyuta Fondu və Dünya Bankı idi. Onlar artıq, tamamilə başqa siyasi-iqtisadi şərtlərlə olsa da, əvvəlki kimi fəaliyyət göstərir, dünya sistemində əhəmiyyətli rol oynayırlar. İkincisi, azad ticarət mexanizmləri yalnız saxlanılmadı, həm də müasir dünyada daha da gücləndi. ÜTT həm iştirakçıların sayı, həm də problemlərin spektrləri üzrə özünün fəaliyyət sahəsini genişləndirdi. BVF 1980-ci illərdə xarici borclarla bağlı böhranı və 1997-1998-ci illərdə beynəlxalq maliyyə böhranı problemlərini həll edən aparıcı beynəlxalq instituta çevrildi. Beləliklə, Bretton-Vuds sisteminin formal olaraq mövcud olmamasına baxmayaraq, onun əsasını təşkil edən ideyalar və bir sıra institutlar inkişaf etməkdə davam edirdi.

Siyasi-iqtisadi inkişafın tendensiyaları haqqında danışarkən, bu gün onlardan əhəmiyyətli olanlar arasından aşağıdakıları qeyd etmək olar:

- inkişaf etmiş ölkələrin iqtisadi inteqrasiyası və həqiqətən qlobal bazarın yaradılması. Bu baxımdan, BVF-in rolu daha əhəmiyyətli sayılır;
- iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin daxilində rəqabət aparan blok-regionların ayrılması: Avropa, Şimali Ameri-

ka və Asiya regionları. Hər bir blokun bazarları blok üzvləri üçün "açıq" (minimal ticarət və digər maneələr) və digər dövlətlər üçün qismən bağlı idi. Başqa sözlə, bloklar öz daxillərində xüsusi liberalizm, xaricdə isə merkantilizm nümayiş etdirirlər. Hər iki meylin eyni vaxtda fəaliyyət göstərməsinə baxmayaraq, telekommunikasiya, eləcə də nəqliyyat xidmətlərinin sayəsində inteqrasiya meyli daha çox üstünlük təşkil edir.

Transmilli korporasiyaların və onların fəaliyyəti ilə bilavasitə bağlı olan dünyanın iqtisadi qloballaşmasının dünya proseslərinə təsirinin güclənməsi müasir şəraitdə əhəmiyyətli meyildir. TMK-nın fəaliyyətinin bir çox mübahisələr yaratmasına baxmayaraq, müxtəlif tədqiqatçıların və analitiklərin fikirlərinin bəzi bəndləri üst-üstə düşür:

- Fəaliyyəti milli sərhədlərdən kənara çıxan firmaların sayı çoxalır (bu gün əslində, istənilən iri kompaniya hər halda, milli çərçivələrin hüdudlarından kənarda fəaliyyət göstərir);
- TMK-nın fəaliyyətinin həcmi getdikcə daha əhəmiyyətli olur, onların sahəsi təkcə malların satışı deyil, həm də xidmətlərin ticarəti vasitəsilə genişlənir;
- Bir çox transmilli korporasiyaların fəaliyyəti yeni kommunikasiya və ya informasiya texnologiyaları ilə bağlıdır;
- TMK-ların əksəriyyətinin fəallığı coğrafi cəhətdən inkişaf etmiş və ya yeni sənaye ölkələrinə daha çox, daha az inkişaf etmiş dövlətlərə isə həddindən az istiqamətlənir;
- Əgər əvvəlcə TMK-ların əksəriyyəti ABŞ-da yaranırdısa, artıq bu gün vəziyyət dəyişib: K.Braunun qeyd etdiyi kimi, ABŞ-dakı xarici vətəndaşlara məxsus olan birləşmiş aksiyaçı kapitalı, onun sərhədlərindən kənarda amerikanlara məxsus olan kapitaldan çoxdur;
- Transmilli korporasiyaların onların əsaslandıqları ölkələrə sıx bağlılığı daha az nəzərə çarpır.

Eyni zamanda, bəzi müəlliflər hesab edirlər ki, TMK öz ölkələrinin sərhədlərindən kənarda milli biznesin bələdçiləridir. Əhəmiyyətli dərəcədə merkantilizm ideyalarını əks etdi-

rən oxşar təsəvvürlər hazırda qloballaşma nəticəsində həqiqətə daha az uyğun gəlir. TMK gəlirin əldə edilməsində maraqlı olduqlarına görə, bir çox hallarda, ilk növbədə, bu və ya digər dövlətin milli gücünün dəstəklənməsinin əhəmiyyətinə deyil, məhz bu fikirlərə əsaslanırlar.

TMK-nın bu xüsusiyyətləri bir çox hallarda müasir iqtisadi vəziyyəti və deməli, onun siyasi inkişafını müəyyənləşdirir. Belə ki, elə həmin Birləşmiş Ştatlar transmilli korporasiyaların fəaliyyətlərinə nəzarət etmək qabiliyyətində deyil. Dünya siyasəti nöqteyi-nəzərindən bu, S.Strencin sözləri ilə desək, dövlətin rolunun əhəmiyyətli dərəcədə azalmasının daha bir sübutudur. Bütün bunlar dövlətləri qlobal iqtisadi proseslərə, yeni təsir metodlarını axtarmağa məcbur edir, o cümlədən, dövlət və biznesin simbiozunu nəzərdə tutan diplomatiya inkişaf edir.

## 4.2. Dünya siyasətində hüquq və əxlaq

Beynəlxalq münasibətlərin nizamsız xarakteri ilk olaraq Vestfal sistemi ilə verilmiş beynəlxalq hüquqla nizamlanır. Amerikan tədqiqatçısı Riçard Folk beynəlxalq münasibətlərdə istifadə edilən hüquq normalarınm əksəriyyətinin əxlaq prinsiplərinə əsaslandığmı qeyd etmişdir. Belə ki, bir dövlətin digər dövlətin ərazisinə soxulması (məsələn, 1990-cı illərdə İraqın Küveyti zəbt etməsi kimi) beynəlxalq hüquqa zidd hal kimi qəbul edilir. Həmçinin, bu, beynəlxalq qarşılıqlı münasibətlərin digər iştirakçıları tərəfindən əxlaq pozuntusu kimi qiymətləndirilir. P.A.Tsıqankov buna oxşar baxışlara əsaslanır. O, hesab edir ki, "hüquq və əxlaq – davranışın hüquqi və ya əxlaq borcu forması həmçinin bu borcun pozulmasma görə məsuliyyət qazanan, beynəlxalq sistemin bütünlükdə insan sivilizasiyasmm mövcud səviyyəsini əks etdirən qaydalardır". Buna baxmayaraq, onlar tamamilə oxşar deyil.

Müasir beynəlxalq hüquq uzun tarixi inkişafın nəticəsi olmuşdur. Əvvəllər müharibənin aparılması hüquqi problemi xalqlar arasmdakı münasibətlərdə çox mühüm yer tutmuşdur. Bu problem qədim dövrün mütəfəkkirlərinin əsərlərində dəfələrlə müzakirə edilmişdir. "Xalqlar arasında hüquq" anlayışı XVI əsrdə hər bir insana münasibətdə xristian məsuliyyəti haqqında danışan ispan F. de Viktoriya tərəfindən irəli sürülmüşdür. Bu anlayışın köklərini isə "insan hüququnun" olduğu Roma hüququnda tapmaq olar.

Avropada "Otuzillik müharibə" dövründə yaşamış holland hüquqşünası və siyasi xadimi Hüqo Qrotsi (1583-1645) "Müharibə və sülh hüququ haqqında" adlı məşhur əsərində mübahisələrin güc yolu ilə deyil, hüquqi yollarla həll edilməsinin zəruriliyini nəzərə çatdırıb. Onun fikrincə, hərbi təsir yalnız özünümüdafiə halında və ya dəymiş ziyanın cavabı kimi mümkün ola bilər. O hesab edirdi ki, məhz bu cür müharibə ədalətlidir.

Həmçinin, beynəlxalq münasibətlərin mənbələrini müəyyənləşdirən ilk işlərdən biri H.Qrotsiyə məxsusdur. Bu, hazırda da fəaliyyət göstərən beynəlxalq hüququn əsasını təşkil edir və H.Qrotsi onun banisi adlandırılır.

Mənbələr haqqında qanunverici orqanı olan dövlətdən fərqli olaraq, beynəlxalq hüquqda belə mərkəzi orqanın mövcud olmaması ilə bağlı sual yaranır. Hazırda Beynəlxalq Məhkəmənin Statutnun 38-ci maddəsinə müvafiq olaraq, "beynəlxalq hüququn mənbələri aşağıdakılardır:

a) mübahisə edən dövlətlər tərəfindən aydın surətdə qəbul edilmiş hüquqları müəyyənləşdirən həm ümumi, həm də xüsusi beynəlxalq konvensiyalar;

b) ümumi təcrübənin sübutu olan, hüquqi norma kimi qəbul edilmiş beynəlxalq adətlər;

c) hüququn mədəni millətlər tərəfindən qəbul edilmiş ümumi prinsipləri;

ç) 59-cu maddədə göstərilmiş qeydə görə, hüquq normalarının müəyyənləşdirilməsi üçün əlavə vasitələr qismində müxtəlif millətlərin ümumi hüququ üzrə daha ixtisaslı mütəxəssislərin məhkəmə qərarları və doktrinalar".

Beynəlxalq hüquq müasir dünyada mühüm əhəmiyyət daşıyır. O, beynəlxalq aləmdə qeyri-müəyyənliyi azaltmağa, beynəlxalq münasibətləri stabilləşdirməyə imkan verir. Beynəlxalq ümumi hüquq və beynəlxalq xüsusi hüquq mövcuddur. Onların hər ikisi beynəlxalq hesab edilən hüquq sahəsini nizama salır. Bu zaman beynəlxalq ümumi və ya sadəcə beynəlxalq hüquq ilk növbədə, dövlətlər arasındakı münasibətləri nizama salmaq üçün qəbul edilmişdir. "Diplomatik lüğət"də o, "dövlətlər arasındakı münasibətləri və onların qarşılıqlı hüquq və vəzifələrini nizama salan hüquqi prinsiplər və normalar sistemi" kimi təsvir edilmişdir. Beynəlxalq xüsusi hüquqa isə beynəlxalq sahədə ayrı-ayrı şəxslərin, korporasiyaların, qeyri-hökumət təşkilatlarının və b. qarşılıqlı əlaqələri ilə bağlı məsələlər aiddir. O, beynəlxalq ti-

carəti, beynəlxalq informasiya mübadiləsini, beynəlxalq turizmi və fəaliyyətin buna bənzər digər sahələrini nizama salır.

C.T.Rurkenin fikrincə, müasir dünyada beynəlxalq hüquq siyasətin aşağı səviyyəsinə aid olan: ticarəti, iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığı, texnologiyanı, informasiyanı, turizmi – əsasən, beynəlxalq xüsusi hüquq sahəsini daha yaxşı nizama salır. Yuxarı səviyyəli siyasətdə, o cümlədən, ümumi hüquq sahəsində işlər mürəkkəbdir. C.T.Rurke yazır ki, həyati əhəmiyyətli maraqlara toxunulduqda, dövlətlər bəzən beynəlxalq normaları pozurlar. Ancaq buna baxmayaraq, təhlükəsizlik sahəsində beynəlxalq hüquq beynəlxalq münasibətlərin mühüm nizamlayıcısıdır. Mövcud beynəlxalq müqavilələr əsasında yeni danışıqlar aparılır. Təhlükəsizlik sahəsində beynəlxalq rejimlərin formalaşmasında çox mühüm elementlərdən biri beynəlxalq müqavilələrdir.

Vestfal sülhünün imzalanmasından sonra beynəlxalq hüquqda dövlətin ona məxsus olan ərazidə hakim səlahiyyətlərə malik olmasını və beynəlxalq məsələlərdə müstəqilliyini bildirən və hazırda da mərkəzi rol oynayan dövlət suverenliyi ideyası qeyd edilir. Ona əsasən, başqa dövlətlərin və ya digər aktorların dövlətin daxili işlərinə qarışmaq hüququ yoxdur.

Suverenlik beynəlxalq hüquqda açar anlayışdır. Nəzəri baxımdan o, dünyanın dövlət-mərkəzçi modeli haqqında təsəvvürlərə əsaslanan siyasi realizm nəzəriyyəsi ilə sıx bağlıdır.

Suverenlik ideyasından əmələ gələn və beynəlxalq hüququn mühüm prinsipi dövlətlərin suveren bərabərliyidir. Bu, ərazisindən, əhalisindən, hərbi, iqtisadi və s. gücündən asılı olmayaraq, dövlətlərin hüquqi baxımdan bərabər olması deməkdir. Bütün dövlətlər eyni hüquqlara malikdir. Verilən prinsip BMT-nin Nizamnaməsinin 2-ci maddəsinin I bəndində qeyd edilmişdir, orada deyilir: "Təşkilat onun üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanmışdır". BMT Nizamnaməsinə (1970) müvafiq olaraq, dövlətlər arasında dostluq və əməkdaşlıq münasibətlərinə aid olan Beynəlxalq hüquq haqqında Bəyannamədə isə bu vəziyyətin məzmunu açılır. Suverenlik sərhədlərin, ərazi

bütövlüyünün pozulmazlığı, daxili işlərə qarışmamaq kimi beynəlxalq hüququn digər prinsiplərinin də əsasında dayanır.

Sadalananlardan başqa, beynəlxalq hüququn prinsiplərinə, həmçinin, beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsi prinsipi, güc tətbiq etməmə və güc tətbiqi ilə hədələməmə prinsipi, əməkdaşlıq prinsipi və b. aiddir. Onlar hamısı BMT Nizamnaməsində, adı çəkilən 1970-ci il Bəyannaməsində və digər beynəlxalq sənədlərdə qeyd edilmişdir. Dövlətlər arasında mümkün mübahisələr danışıqlar yolu ilə və ya hüquqi üsullarla həll edilməlidir. K.Holstinin məlumatlarına görə, 1919-cu ildən 1986-cı ilə qədər dövlətlər arasında münaqişələrin sülh yolu ilə həll edilməsi üçün 168 cəhd həyata keçirilmişdir. Bundan əlavə, Birinci dünya müharibəsinin başa çatmasından sonra dövlətlərarası münaqişələr və mübahisələr uğurla həll edilmişdir.

Dünya meydanında mübahisələrin həlli ya danışıqlar və vasitəçilik yolu ilə ya üçüncü tərəfin iştirakı olmadan, ya da məhkəmə üsulları yolu ilə baş verə bilər.

Beynəlxalq məhkəmə 1945-ci ildə dövlətlər arasında meydana gələn mübahisələrin həll edilməsi üçün BMT-nin məhkəmə orqanı kimi yaradılmışdır. O, Haaqada, Niderlandda yerləşir və BMT Baş Assambleyası və Təhlükəsizlik Şurası tərəfindən böyük səs çoxluğu ilə doqquz illiyə seçilən 15 hakimdən ibarətdir. Hər üç ildən bir hakimlərin tərkibinin 1/3-i yenilənir. Onlar BMT-nin üzvü olan istənilən ölkədən ola bilər, eyni zamanda, Təhlükəsizlik Şurasının daimi üzvlərinin beşi də hakimlə təmsil olunub.

Təhlükəsizlik Şurası və BMT Baş Assambleyası yalnız dövlətlərin özlərinin razılığı ilə mübahisəli məsələlərə baxan Beynəlxalq Məhkəmənin nəticələrini tələb edə bilər. Məsələn, 1992-ci ildə Salvador və Honduras arasında tarixi XIX əsrin ortalarına gedib çıxan ərazi mübahisəsi həll edilmişdir. Hər iki ölkə 1986-cı ildə bu ərazilərin təxminən 2/3 hissəsinin Hondurasa və 1/3 hissəsinin Salvadora məxsus olması haqqında qərar qəbul edən Beynəlxalq Məhkəməyə müraciət edənə qədər bu

məsələni hərbi metodlarla həll etməyə çalışırdılar. Ərazi suları da bu iki ölkə və Nikaraqua arasında bölünmüşdür.

Bir sıra regional məhkəmələr də mövcuddur. Onlardan biri – Strasburqda Avropa Şurası yanında İnsan Hüquqları üzrə Avropa məhkəməsidir. O, 1950-ci ildə qəbul edilmiş İnsan hüquqlarının və əsas azadlıqlarınm müdafiəsi haqqında Avropa Konvensiyası əsasında fəaliyyət göstərir və üzv-dövlətlərin vətəndaşlarınm hüquqlarının pozulması zamanı onların şikayətlərinə baxır. İkinci Dünya müharibəsindən sonra yaradılmış Beynəlxalq Hərbi Tribunal faşist Almaniyası tərəfindən mübarizə aparmış hərbi cinayətkarların təqibi və cəzalandırılması üzrə beynəlxalq məhkəmə orqanı idi. Onun təşkilatlanmış iclası 1945-ci ilin oktyabrında baş tutmuşdur. Onların məhkəməsi Nürnberqdə (Almaniya) keçirildi və "Nürnberq prosesi" adını aldı. Q.Herinq, V.Keytel, E.Kaltenbrunner və digər əsas milliyyətçi cinayətkarlar məsuliyyətə cəlb edildilər. Onlardan 12 nəfər ölüm cəzasına, 7 nəfər uzunmüddətli həbs cəzasına məhkum edilmişdir.

Uzaq Şərq üzrə Beynəlxalq Hərbi Tribunal 1946-cı ilin yanvarında müttəfiq hökumətlər arasındakı danışıqlar əsasında yaradılmışdır. Bu iclas 1946-cı ilin mayından 1948-ci ilin noyabrına qədər davam etmişdir (Tokio prosesi). Tribunalda 11 dövlət, o cümlədən, SSRİ, ABŞ, Böyük Britaniya, Fransa təmsil olunmuşdu.

1993-cü ildə BMT TŞ Qətnaməsinə müvafiq olaraq, Bosniya və Herseqovinada müharibənin qızğın vaxtmda Haaqada keçmiş Yuqoslaviya üçün Beynəlxalq cinayət tribunalı təsis edilmişdir. Qətnamədə beynəlxalq humanitar hüququn ciddi pozulmasında günahkar olanların məhkəmə təqibinin bu ərazidə zorakılığa son qoymağa kömək edəcəyinə inam ifadə edilirdi. Haaqa tribunalında Yuqoslaviyanın keçmiş prezidenti S.Miloşeviç, onun silahdaşları R.Karocış, Mladis və başqaları müttəhimlər skamyasında əyləşmişdilər.

Sonuncu beynəlxalq məhkəmə institutlarından biri 1998-ci ildə Romada keçirilmiş BMT-nin konfransı nəticəsində ya-

radılmış və vəzifələri soyqırım, insan hüquqlarının pozulması və b. ilə bağlı olan məsələlərə baxılması olan Beynəlxalq cinayət məhkəməsi oldu. Onun yaradılmasında beynəlxalq qeyri-hökumət təşkilatları böyük rol oynamışdır.

Beynəlxalq hüquq, həmçinin, diplomatik fəaliyyətlə bağlı olan sahəni də nizama salır. O, diplomatik nümayəndəliklərin – beynəlxalq əlaqələrin xarici dövlət orqanları olan səfirliklərin, missiyaların funksiyalarını müəyyən edir.

Beynəlxalq normalara görə, diplomatlar, olduqları ölkədə diplomatik üstünlüklərdən (üstünlüklərlə yanaşı, imtiyazlar da) və immunitetdən (olduqları ölkənin yurisdiksiyasından ayrılmış müəyyən immunitetlər) istifadə edirlər. Bu, onların olduqları dövlət tərəfindən heç bir müdaxilə olmadan effektiv fəaliyyəti həyata keçirməyə imkan verir. Diplomatik immunitet o cümlədən, xidməti binanın, mənzillərin, nəqliyyat vasitələrinin toxunulmazlığı, eləcə də şəxsi toxunulmazlığı nəzərdə tutur. Diplomatlar vergi ödənişlərindən azaddırlar. Onlar həbs oluna bilməz. Cinayət törədildikdə də diplomat adətən, öz evinə göndərilir ya da o, yalnız öz ölkəsinin razılığı ilə cinayət məsuliyyətinə cəlb edilə bilər. Bununla əlaqədar olaraq, o vaxt Nyu-Yorkun meri R.Culianinin diplomatik nümayəndəlikləri və diplomatları avtomobili düzgün saxlamamağa görə məsuliyyətə cəlb etmə prosesində uğursuz cəhdi kifayət qədər tanınmış hadisədir. Diplomatik immunitetin öz miqyasına görə çox böyük pozuntularından biri 1979-cu ilin noyabrında Tehranda ekstremist qrup tərəfindən amerikan diplomatlarının ələ keçirilməsi və onların bir ildən çox müddətdə əsir kimi saxlanması olmuşdur.

Ölkələr arasındakı diplomatik münasibətləri nizamlayan müəyyən prinsipləri və hüquq normalarının müəyyənləşdirildiyi mühüm dövlət sənədi – diplomatik əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyasıdır. Orada diplomatik əlaqələrin qurulması qaydası qeyd edilərk, diplomatik nümayəndəliklərin dərəcələri müəyyən edilmiş, diplomatın “persona non qrata”,

eləcə də verilən ölkədə arzuolunmaz şəxs və b. elan edilməsi ilə bağlı normalar öz əksini tapmışdır. Vyana Konvensiyasında, eyni zamanda, diplomatik imtiyazların və immunitetin təsviri verilmişdir.

XX yüzillik ərzində beynəlxalq birlik müharibə edən dövlətlərin silahlı fəaliyyəti, vətəndaşların yerləşdirilməsi, hərbi əsirlər və s. ilə bağlı hüquq və vəzifələri müəyyənləşdirən beynəlxalq hüquq normalarına, müharibə və s. qanunlara, adətlərə böyük diqqət ayırırdı. Burada iki böyük məsələ vardır. Birincisi, müharibənin başlanması, ikincisi isə onun aparılmasının xarakterinə əsasən hərbi əsirlərlə, mülki əhali ilə davranışla bağlıdır.

Hərbi fəaliyyətlərin başlanması və müharibənin aparılması qaydalarının hüquqi aspektləri 1899 və 1907-ci illər Haaqa konfransında kifayət qədər ətraflı nəzərdən keçirilmişdir.

Birinci Dünya müharibəsindən sonra hərbi gücdən istifadə edilməsi məsələsi xüsusilə aktuallıq qazanır. Millətlər Cəmiyyətinin Nizamnaməsinin 16-cı maddəsində deyilir: "Əgər Millətlər Cəmiyyətinin üzvü 12, 13 və ya 15-ci maddələrdə qəbul edilmiş öhdəliklərə baxmayaraq, müharibəyə can atırsa, o zaman o, öz-özlüyündə Cəmiyyətin digər bütün üzvlərinə qarşı müharibə aktı törətmiş kimi nəzərdən keçirilir. Sonuncular onunla bütün ticarət və maliyyə əlaqələrini kəsməyi, öz dövlətləri ilə Nizamnaməni pozmuş dövlətin vətəndaşları arasındakı münasibətlərə qadağa qoymağı öz öhdələrinə götürürlər".

Hərbi fəaliyyətin qarşısının alınması yolunda növbəti mühüm cəhd Brian-Kelloq paktının bağlanması olmuşdur. 1927-ci ilin yazında Fransanın Xarici işlər naziri Aristid Brian öz həmkarına – ABŞ dövlət katibi Frenk Kelloqa müharibəni milli siyasət vasitəsi kimi qadağan edən ikitərəfli müqavilənin bağlanması təklifi ilə müraciət edir. Ondan sonra ABŞ, Fransa, Böyük Britaniya, Almaniya, İtaliya, Belçika, Kanada, Avstriya, Yeni Zellandiya, Cənubi Afrika İttifaqı, İrlandiya, Hindistan, Polşa, Çexoslovakiya və Yaponiyanın nümayəndələri tərəfindən 1928-ci ildə Parisdə pakt imzalanmışdır. Daha

sonralar pakta SSRİ və İkinci Dünya müharibəsinin başlanmasına qədər isə 60-dan çox dövlət qoşuldu. Müharibənin başlanması paktın xaricində qalmaqla yanaşı, təcavüzkara qarşı avtomatik sanksiyaları da nəzərdə tutmurdu. Eyni zamanda, onu imzalamış dövlətlər müdafiə hüququna malik idilər. Paktın təşəbbüskarları A.Brian və F.Kelloq sonralar Nobel sülh mükafatma layiq görülmüşlər.

Təəssüflər ki, bütün bu sənədlər və razılaşmalar İkinci Dünya Müharibəsinin başlanmasının qarşısını ala bilmədi. Lakin onun başa çatması ilə, təcavüzə mane ola biləcək tədbirlərin işlənməsi məsələsi özünü çox güclü şəkildə göstərdi. Bu, qəbul edilmiş sənədlərdə də öz əksini tapır. Hər şeydən əvvəl, BMT-nin Nizamnaməsində, onun 2-ci maddəsinin 3-cü bəndində deyilir: "Birləşmiş Millətlər Təşkilatının bütün üzvləri özlərinin beynəlxalq mübahisələrini beynəlxalq sülhü, təhlükəsizliyi və ədaləti təhlükə altında qoymamaq üçün sülh yolu ilə həll edirlər". Sonra 4-cü bənddə BMT-nin bütün üzvlərinin "beynəlxalq münasibətlərdə güc təhlükəsindən və ya onun ərazi toxunulmazlığına və hər hansı dövlətin siyasi müstəqilliyinə qarşı digər yollarla istifadə edilməsindən imtina etməsindən" danışılır.

Eyni zamanda, 51-ci maddə özünümüdafiə hüququna icazə verir. Orada deyilir ki, "Əgər Birləşmiş Millətlər Təşkilatının üzvünün üzərinə silahlı hücum baş verərsə əsl Nizamnamə heç bir halda ayrılmaz fərdi və kollektiv özünümüdafiə hüququna toxunmur". 39-cu maddə isə Təhlükəsizlik Şurasına "sülhə qarşı istənilən təhlükənin mövcudluğunu, sülhün istənilən şəkildə pozulmasım, təcavüz aktını müəyyənləşdirmək hüququnu, 41 və 42-ci maddələrə əsasən hansı tədbirlərin görülməsinin vacib olduğunu müəyyən etmək və ya beynəlxalq sülh və təhlükəsizliyin bərpasını həll etmək üçün tövsiyələr" qeyd edilir. Lakin 41-ci maddə silahlı gücdən istifadə edilməsi ilə bağlı olmayan tədbirləri nəzərdə tutduğu halda, 42-ci maddə BMT Təhlükəsizlik Şurasına "beynəlxalq sülh və təhlükəsizliyin dəstəklənməsi və ya bərpası üçün vacib ola biləcək hava, dəniz və quru qüvvələ-

rinin fəaliyyətinə qərar vermək" hüququ verir. Müharibə qanunları və adətləri ilə bağlı olan hüquqi sahənin inkişafı üçün müharibə qurbanları haqqında 1949-cu il Cenevrə konvensiyası, 1977-ci il əlavə protokolları mühüm əhəmiyyətə malikdir. Bu sənədlər yaralıların, xəstələrin, hərbi əsirlərin, eləcə də hərbi münaqişələr zamanı mülki əhalinin müdafiəsinə istiqamətlənmişdir. 150-dən çox dövlət onların işlənib hazırlanmasının və reallaşmasının iştirakçısı oldu.

BMT Nizamnaməsində və adları çəkilən beynəlxalq sənədlərdə dövlət və ya dövlətlər qrupu tərəfindən potensial təhlükələr qeyd edilir; onların bir-birilə və ya vətəndaşlarla münasibətdə fəaliyyətlərini nizama salır. Bu gün bir sıra dövlətlərin ərazisində yerləşə və fəaliyyət göstərə bilən terrorçu təşkilatlarla, eləcə də terrorizmlə mübarizədə güc tətbiqi hüququ ilə bağlı problemi kəskin şəkildə dayanır. Bəzi anlayışların çox çətinliklə müəyyənləşməsi ilə də əlaqədar olaraq burada çətinliklər yaranır. İlk növbədə, bu, terrorizmə aiddir. Artıq qeyd edildiyi kimi, bəziləri terroru fəaliyyət kimi xarakterizə edir, digərləri isə azadlıq uğrunda mübarizə hesab edirlər. Burada sərhəd olduqca şərtidir. Ona görə də hətta BMT çərçivəsində də terrorizmi müəyyənləşdirmək üçün bütün cəhdlər uğursuz olurdu. Anlayışın qeyri-müəyyənliyi terrorizmlə mübarizə üçün hüquqi bazanın işlənməsi zamanı da çətinliklərə səbəb olur.

ABŞ anti-terror mərkəzinin direktoru Boaz Qarnor iki dövlət arasındakı müharibənin vəziyyətinə aid normativ prinsip – dövlət və qeyri-hökumət təşkilatları arasında münaqişəyə keçirilməsinin mümkünlüyünü təklif etməklə, verilən problemin həllinin maraqlı variantını təklif etmişdir. O, hücum obyektinin nədən ibarət olmasından, yəni partizan müharibəsi zamanı hərbi qüvvənin və ya terror aktları zamanı mülki obyektlərin olmasından asılı olaraq, iki fenomen təklif edir – "partizan müharibəsi" və "terrorizm". Başqa sözlə, terrorçu mülki əhaliyə qəsdən hücum etdiyi halda, partizanların məqsədi – hərbidir. B.Qarnor yazır ki, bu cür fərqləndirmə zamanı, terrorçu təşkilat özünü

milli azadlığa və hər hansı başqa "ali" məqsədə xidmət edən "azadlıq uğrunda mübarizə" hərəkatı kimi göstərə bilməyəcək. Hətta elan edilən "qanuni" kimi verilsə də, mülki məqsədləri "nişan" seçən təşkilat öz mahiyyətinə görə terrorçu olur.

Amerika tədqiqatçıları B.Rassett, D.Kinsell və X.Starr müharibə və sülhün böyük beynəlxalq sənədlərdə toxunulan əsas problemlərinin müqayisəli təhlilini təqdim etmişlər. Bu, XX əsrin əvvəllərində onlardan hansılarının cəmiyyətin diqqət mərkəzində olduğunu və daha sonralar yarananları əyani surətdə nümayiş etdirməyə imkan verir.

Beynəlxalq qarşılıqlı əlaqələrin tarixi inkişafı prosesində beynəlxalq hüquq da inkişaf etmişdir. Bununla belə, dünya siyasəti sahəsində bir sıra tədqiqatçıların fikrincə, mühüm problemlərdən biri hüquq normalarının tətbiqi məsələsi olmuşdur və hələ də qalmaqdadır. İstənilən dövlətdən fərqli olaraq dünya meydanında nə mərkəzi hakimiyyət, nə də polis vardır. Bu səbəbdən Beynəlxalq Məhkəmədə əsasən, dünya cəmiyyəti üçün ikinci dərəcəli olan işlərə baxılır. Salvador və Honduras arasındakı ərazi mübahisəsinin həlli isə daha çox istisna idi.

Beynəlxalq hüquqda həmçinin, qanun yaradan institutlar yoxdur. Buna görə də, bəzi tədqiqatçılar onun faktiki olaraq, dövlətlərin onsuz da əməl etdikləri normaları qeyd etdiyini deyirlər. Məsələn, Stenli Hoffmann bununla əlaqədar olaraq qeyd etmişdir ki, beynəlxalq hüquqda "davranış qaydası" "davranış üçün qayda"ya çevrilir.

Buna baxmayaraq, dövlətlər digərlərindən də bu hərəkəti gözləyərək, beynəlxalq normalara əməl etməyə çalışırlar. Belə ki, İkinci Dünya Müharibəsi zamanı həm SSRİ, həm də Almaniya qeyd edildiyi kimi, kimyəvi silahlara malik olsalar da, yenə də, düşmən tərəfdən cavab fəaliyyətindən ehtiyat edərək onu tətbiq etmədilər və 1925-ci il Cenevrə Protokoluna müvafiq olaraq hərəkət edirdilər.

Dövlətin beynəlxalq əməkdaşlığa qoşulmasına bilavasitə təsir edən beynəlxalq etibar da vacib məqamdır. Beynəlxalq

müqavilələrə bərkidilmiş vəzifələr mövcuddur. Məsələn, BMT Nizamnaməsi onu beynəlxalq sülhün və təhlükəsizliyin pozulması hərəkətlərinə görə nəzərdə tutur. BMT Nizamnaməsinə müvafiq olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid olan beynəlxalq hüququn prinsipləri haqqında bəyannamədə hər bir dövlətin beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirməli olmasına diqqət yetirilir. Digər problem – beynəlxalq hüquq və milli qanunvericilik arasında mümkün ziddiyyətlərdir. Adətən beynəlxalq hüququn prioritetliyindən çıxış edilsə də, suverenlik prinsipi dövlətə məhəl qoymamağa imkan vermir. Xüsusən, keçmişdə Vestfal müqaviləsinə görə kralların ilahi və müqəddəs hüquqları nəzərdə tutulurdu. Nəticədə, vətəndaşlar hakimiyyət strukturları tərəfindən mümkün terrordan müdafiəsiz vəziyyətə qaldılar. Buna baxmayaraq, bu gün də diktatura rejimlərində vətəndaşlar öz əqidələrində qala bilərlər, insan hüquqları isə pozulur.

Beynəlxalq hüquq daxili qanunvericiliyi nizamlamadığına görə, belə dövlətə BMT qətnamələrinin, siyasi rejimi pisləyən, bu və ya digər qrupların hüquqlarını məhdudlaşdıran sanksiyaların (məsələn, Cənubi Afrikada aparteid rejimi olduğu zaman və s.) qəbul edilməsi də daxil olmaqla, yalnız siyasi və iqtisadi təsir ölçüləri tətbiq edilə bilər. Bununla əlaqədar olaraq, Kofi Annan BMT Baş katibi olan zaman 1999-cu ildə BMT Baş Assambleyasına müraciətində ənənəvi anlayışın onlara humanitar fəlakətlərdən qaçmağa imkan vermədiyinə görə suverenlik eləcə də, milli maraqlar anlayışlarına yenidən baxılması üçün çıxış etmişdir.

İnsan hüquqları, xalqların və millətlərin öz müqəddəratını təyin etmə hüququ bir tərəfdən suverenliyin qorunub saxlanması, daxili işlərə qarışmamaq prinsipi isə digər tərəfdən – hazırda daha çox müzakirə edilən, hüquq problemləri çərçivəsindən çıxan məsələlərdir. Bu, Kosovodakı münaqişədə özünü daha aydın göstərdi. Qərb dövlətləri insan hüquqlarının qorunması və oradan da humanitar müdaxilənin zəruriliyi tələbi ilə çıxış edirdilər. Bununla

belə, əsas kimi xüsusilə BMT Nizamnaməsinin bu təşkilatın "hər kəsin irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, insan hüquqlarına və əsas azadlıqlarına ümumi hörmət edilməsinə və qorunmasına" yardımı haqqında danışılan 55-ci maddəsinə, eləcə də BMT üzv-dövlətlərinin "55-ci maddədə göstərilmiş məqsədlərə nail olmaq üçün Təşkilatla əməkdaşlıqda birgə və müstəqil fəaliyyət həyata keçirməyi öhdəliklərinə götürdüklərini" qeyd edən 56-cı maddəsinə isnad edilirdi. İnsan hüquqlarının Ümumi Bəyannaməsi də insan hüquqlarının qorunmasını nəzərdə tutur.

Eyni zamanda, beynəlxalq hüququn milli suverenliyin gözlənilməsi və daxili işlərə qarışmamaq prinsipi də BMT Nizamnaməsində öz əksini tapır. Bundan əlavə, əsaslandırılma onun üzərində qurulurdu ki, əks halda biz təcavüzlə humanitar müdaxilə arasındakı sədlərin silindiyi son dərəcə qeyri-müəyyən yola düşürük. Yeri gəlmişkən, 1956-cı ildə (Macarıstanda) və 1968-ci ildə (Çexoslovakiyada) Qərb ölkələri tərəfindən suverenlik prinsipinə əməl olunması bir çox hallarda potensial qlobal toqquşmadan qaçmağa imkan verdi.

Digər dövlətə mümkün humanitar yardım göstərilmə səviyyəsi məsələsi də mübahisəli olaraq qalmaqdadır. Humanitar fəlakətlər zamanı dərman, ərzaq yardımının göstərilməsi – bir işdir, dövlətin özünün icazəsi olmadan onun ərazisinə hərbi qüvvələrin yeridilməsi tamamilə başqa işdir.

Bütün bu məsələlər hüquq, beynəlxalq münasibətlər üzrə mütəxəssislərin, siyasətçilərin çoxsaylı müzakirələrinə səbəb olsa da, hələ də həll olunmamış qalır. Əsas meyar kimi hansı xüsusiyyətin – dövlətin və ya ayrıca insanın götürülməsi məsələsinin qeyri-müəyyənliyi başlıca olaraq qalmaqdadır. Bu suala cavab verilən zaman bu gün normaların əksəriyyətinin dövlətə istiqamətləndiyini nəzərə almaq lazımdır.

Nəhayət, deyilməsi vacib olan digər bir problem də vardır. Vestfal sülhünün bağlanmasından başlayaraq dövlətlər beynəlxalq hüququn subyektləri olmuşlar. Bu, o dövrün reallıqlarını yaxşı əks etdirirdi. Lakin bu gün dünya meydanında digər ak-

torlar daha fəal fəaliyyət göstərir. O cümlədən, qeyri-dövlət aktorları, ilk növbədə iri maliyyə vəsaitlərinə və siyasi təsirə malik olan Transmilli Korporasiyaları göstərmək olar. Bununla əlaqədar olaraq, bu cür nöqteyi-nəzərlərdən biri, onların beynəlxalq hüquq subyektivliklərinə bölünməli olduğunu göstərir. Əks mövqe isə odur ki, bunu etmək lazım deyil.

Adları çəkilən, eləcə də digər problemlər müasir dünyada beynəlxalq hüququn rolunu heç də azaltmır, yalnız daha mürəkkəb və mübahisəli məsələləri göstərir. Hər hansı digər elm sahəsi kimi beynəlxalq hüquqda inkişaf edir. Məsələn, XX yüzilliyin sonunda dövlətlər arasında mədəniyyət, təhsil, elm sahələrində qarşılıqlı əlaqələrin genişlənməsi ilə əlaqədar olaraq, humanitar hüquq güclü inkişaf etmişdir. Avropa inteqrasiyası əsas diqqətin Aİ üzv-dövlətlərinin milli hüququ və beynəlxalq hüquqla əlaqələri məsələlərinə ayrıldığı Avropa hüququnun formalaşmasına səbəb oldu.

Bəs, beynəlxalq hüquq hansı yeni istiqamətlər üzrə inkişaf edəcək, ən əsası – bu gün dünyanın siyasi strukturunun yaşadığı dəyişikliklərə necə reaksiya vermək lazımdır? Bu gün bütöv kompleks məsələlərlə bağlı bir tərəfdən yüzilliklər ərzində onda qazanılmış bütün müsbət əlamətləri qorumaq, digər tərəfdən isə son bir neçə onillikdə dünyanın siyasi strukturunda meydana gəlmiş yeni keyfiyyətləri nəzərə almaqla qərarların qəbul edilməsinin zəruriliyi daha aydın özünü göstərir.

Dünya siyasətində əxlaq dünya meydanında bu və ya digər fəaliyyətlərin qiymətləndirilməsi, yəni bunun nə dərəcədə yaxşı yaxud pis olması, düzgün və ya səhv olması, ədəbli və ya ədəbsiz olması nöqteyi-nəzərindən nəzərdə tutulur. "Əxlaq" anlayışının özü latınca nəyinsə ümumi qəbul edilmiş – ümumi dəyərlər və ənənələr əsasında tətbiq edilməsi mənasını verən "toqez" sözündən əmələ gəlmişdir.

Əxlaq məsələləri həmişə siyasətçilərin qarşısında dayanmışdır. Onlara müxtəlif cür cavablar verilmişdir. Belə ki, Fukididin "Melos dialoqu"nda afinalılar əxlaqı güclə əlaqələndirirlər

– daha zəif olan, güclünün ona zorla vadar etdiyini qəbul etməlidir. Bu postulat sonralar beynəlxalq münasibətlərdə realist ənənə kimi qəbul edilmişdir.

Siyasətçilər bu gün də, silah alverindən başlamış, daha kasıb ölkələrə yardımın təşkilinə qədər hər addımda əxlaq problemləri ilə qarşılaşırlar. Sonuncu halda sual ortaya çıxır: bu yardım siyasi elitanın əlinə keçməyəcəkmi, əhalinin daha az müdafiə olunan təbəqəsi onlardan məhrum olacaq və ya bu cür hərəkətlər öhdəçiliyin inkişafı üçün əsas olmayacaqmı?

Əxlaq probleminə siyasi və ictimai xadimlərin ritorikalarında kifayət qədər tez-tez rast gəlinir. Bir çox hallarda bu, siyasi xarakter daşıyır. Məsələn, siyasətin mənəvi aspektlərinə müraciət Soyuq müharibə dövründə həmişə izlənmişdir.

Əgər beynəlxalq hüququn əsas banilərindən biri H.Qrotsi qəbul edilirsə, o zaman müasir dünya siyasətinin etik başlanğıcı bir çox hallarda İ.Kant tərəfindən qoyulmuşdur. Filosof sosial qarşılıqlı əlaqələrin (o cümlədən, dövlətlər də) öz təbiətinə görə ilk növbədə, qarşılıqlı mənfəətin əldə edilməsi üçün əməkdaşlığa istiqamətlənməyə əsaslanırdı. Bu zaman onlar yalnız bir-birilərinin maraq və niyyətlərinə hörmət edərək əməkdaşlıq edə bilərlər. Bu zaman onların qaydalar çərçivəsində işləməyə məcbur edən hər hansı hakimiyyət strukturları yaratmasına ehtiyac yoxdur. Bu ideyaları siyasi idealizm məktəbinə mənsub olan ilk tədqiqatçılar və praktiklər rəhbər tutmuşlar. İ.Kantın təsəvvürləri beynəlxalq təşkilatların yaradılması ideyasının əsasını təşkil edirdi. Güman edilirdi ki, ümumi məqsədlər adına əməkdaşlıq sonralar möhkəmlənəcək və bu cür davranış ənənəvi hal olacaq.

Əxlaq normaları universaldır, yoxsa mədəni xüsusiyyətlərlə şərtlənir? Bu sualın cavabına iki yanaşma vardır. Birincisi, bütün bəşəriyyət üçün əxlaqi prinsiplərini yaradılmasının mümkünsüzlüyünə əsaslanır. Əxlaqa bu cür yanaşma dünya siyasətində relyativist adlanır. P.R.Viotti və M.V.Kauppinin yazdığı kimi, bu halda bu və digərlərinin əxlaq qiymətləri yalnız müəyyən edilmiş mədəniyyət kontekstində verilə bilər.

Verilmiş istiqamətin nümayəndələri universal insan norma və hüquqlarının mövcudluğunu qəbul etmirlər. Onlar qeyd edirlər ki, əxlaq prinsipləri bir çox hallarda mədəniyyət və tarixlə şərtlənmişdir. Məsələn, demokratiyanın yaxşı olması, irqi, milli, gender və başqa əlamətlərə görə diskriminasiyanın isə pis olması haqqında geniş qəbul edilmiş təsəvvürlər yalnız XX yüzillikdə həqiqətən də daha çox aktuallaşdı. Onların əsasmda bir çox qərarlar qəbul edilirdi. Eyni zamanda, digər əxlaq prinsipləri hələ ki, hamı tərəfindən qəbul edilməmişdir. Bu, məsələn, bioloji növlərin məhv edilməsinə aiddir. Bir çoxları Yer üzərində yaşayan bioloji növlərin müxtəlifliyinin azalmasında səbəb kimi onun əxlaqi aspektlərini deyil, iqtisadi problemi görürlər (məsələn, farmokologiya sənayesi).

Əks mövqedə dayananlar isə universal ümumbəşəri normaların mövcud olduğunu hesab edirlər. Onlara, xüsusən, liberal məktəbin nümayəndələri aid edilirlər. Amerika tədqiqatçısı Mark R.Amstuç, dünya siyasətində əxlaq normalarının universallığından danışarkən baza təsəvvürlərinin bütün xalqlar üçün bir olması faktını qeyd edir və İ.Kantın qəti qərarına istinad edirlər: "Yalnız o meyara görə hərəkət et ki, eyni zamanda, ona əsaslanaraq onun ümumi qanuna çevrilməsini arzulaya biləsən" və "Elə hərəkət et ki, sən həmişə bəşəriyyətə həm öz simanda, həm də istənilən başqasının simasında yanaşasan".

Veberin əbədi dəyərlərə əsaslanan "əqidə etikası" və siyasi fəaliyyətlərin nəticələrinin mühümlüyünə əsaslanan fərqləndirməsi dünya siyasətində əxlaq məsələləri ilə bilavasitə əlaqədardır. Birinci istiqamətin nümayəndələri beynəlxalq meydanda istifadə edilən məqsəd və vasitələrin əxlaqi olmasını, ikincinin tərəfdarları isə son nəticənin əxlaqi meyara cavab verməsinin zəruriliyini güman edirlər. Məsələn, C.Naya görə əxlaqi prinsiplərə əsaslanan xarici siyasət təşəbbüs göstərilən addımların məqsəd, vasitə və nəticələrini nəzərə almalıdır.

Birinci istiqamət çərçivəsində çətinliklər, dünya meydanında ən xeyirxah məqsədlərlə atılmış addımlar əxlaq qaydalarına

zidd olduğu vaxtda ortaya çıxır. M.Veberin özü heç də təmiz olmayan vasitələrdən istifadə edilməsi ilə barışmağı təklif edirdi. Bəzən nəticələr bir-birinə zidd olur. Belə ki, bu və ya digər layihənin reallaşmasının iqtisadi faydası (məsələn, su elektrik stansiyası) təbiətə vurulan ziyanla təzad təşkil edir. Verilən dilemmanm həlli üçün cavab tapılması heç də asan deyil. Hətta ekspertlər işin faktik tərəfi üzrə razılığa gəldikdə, çox vaxt problemin əxlaqi qiymətlərində onlar arasında fikir ayrılığı olur.

Daha dəqiq qurulmuş nüvə silahlarının istifadəsi məsələsi əxlaqi aspektlər baxımından müzakirəyə səbəb olan son nəticənin birmənalı olmamasına digər misal ola bilər. O, dinc əhali arasında itkiləri azaltmağa imkan verdiyinə görə, həm də daha səmərəlidir. Lakin bu zaman ümumi təsir (o cümlədən, ekoloji, ərazinin radiasiya ilə yoluxmasının ayrı-ayrı nəticələri və b.), eləcə də, bir çox hallarda, cavab zərbəsinə görə mənəvi məsuliyyəti aradan qaldıran nüvə silahınm tətbiqi faktının özü əxlaqi nöqteyinəzərdən ondan istifadə imkanlarınm son dərəcə zəiflədir.

M.R.Amstuç beynəlxalq münasibətlərdə və dünya siyasətində üç əsas əxlaqi ənənələri ayırır:

* əxlaqa münasibətdə skeptisizm
* kosmopolitizm
* kommunitarizm

O yazır ki, skeptisizmin əsasında məsuliyyət etikası, kosmopolitizmin əsasında isə etiqad etikası dayanır.

Əxlaqa münasibətdə skeptisizm siyasi realizmlə bağlıdır. Bu adət, ədəbsizlikdən fərqli olaraq, beynəlxalq meydanda əxlaqi prinsiplərin çoxluğunu inkar etmir. Onun nümayəndələri dünyada əxlaqa münasibətdə vahid standartların olmadığını iddia edirlər. Dövlətlər praqmatizm və ehtiyatlılıq düşüncələrinə əsaslanaraq fəaliyyət göstərməklə, siyasi xadimlər isə öz addımlarının mümkün nəticələrini hesablamaqla rasionallıq prinsipindən çıxış edərək öz milli maraqlarını əldə rəhbər tutmalıdırlar. Xüsusilə, ABŞ-ın keçmiş dövlət katibi D.Açison, məşhur amerikan diplomatı C.Kennan və b. bu ənənənin tərəfdarı olmuşlar.

Kosmopolitizm daha çox Kant ənənəsi ilə bağlıdır. O, dünyada vahid universal əxlaqın mövcudluğuna inama əsaslanır. Bununla belə, dünya siyasətində əxlaqın roluna böyük əhəmiyyət verilir. Kosmopolit ənənənin parlaq nümayəndələrindən biri ABŞ prezidenti Vudro Vilson olmuşdur. ABŞ prezidenti C.Karter də həmçinin, bu baxışların tərəfdarı idi. Bu ənənənin nümayəndələrinə görə əsas əxlaqi problem insan hüquqlarıdır. Bu ənənənin çərçivəsində insan hüquqlarının itməsi hesabına milli maraqların müdafiəsi əxlaqa zidd hesab edilir. Buna görə də insan hüquqlarının müdafiəsi naminə humanitar müdaxilələrlə bağlı hərəkətləri dəstəkləyirlər.

Kosmopolitizm kimi kommunitarizm də bərabərlik, iqtisadi çiçəklənmə və b. kimi vahid əxlaq normaları və ənənələrin mövcudluğu haqqında təsəvvürlərə əsaslanır. Siyasi xadimlər həm milli maraqları, həm də əxlaq düşüncələrini əldə rəhbər tutmalıdırlar. Bu ənənənin tərəfdarları dünya meydanında olan istənilən vəziyyətin mürəkkəbliyini qeyd edirlər. Buna görə də sadə və birmənalı qərarların mövcud olmadığını hesab edirlər.

Dünya siyasətində əxlaq problemi silahlı münaqişə şəraitində xüsusilə kəskindir. M.Nikolson əxlaq paradoksunu misal gətirir. O yazır ki, demək olar ki, istənilən cəmiyyətdə qətl çox vaxt ölüm cəzası ilə cəzalandırılan ağır cinayətlərdən biri kimi, müharibə zamanı düşmənin öldürülməsi isə qəhrəmanlıq kimi nəzərdən keçirilir. Bununla belə, heç də hamı bu nümunədə paradoks görmür. Belə ki, kvakerlər (dini xristian cəmiyyətinin üzvləri) üçün istənilən qətl qətldir və əxlaqi nöqteyi-nəzərdən həmişə hökmə layiqdir.

İstənilən müharibəni inkar edən əxlaq mexanizmləri pasifizm, müvafiq baxışlara inanan yanaşma isə pasifist adını almışdır. Öz köklərinə görə o, erkən xristianlıq dövrünə gedib çıxır və istənilən zorakılıq metodlarından istifadəni inkar edir. Kvakerlərdən başqa, Martin Lüter Kinq, Mahatma Qandi və bir sıra başqa siyasətçilər, ictimai xadimlər pasifist baxışların tərəfdarı idilər.

Dövlətin marağında olan silahlı hərəkatların yol verilən olduğunu və buna görə də haqlı sayıldığını hesab edənlərin müharibəyə münasibətdə əxlaq prinsipləri bir çox hallarda bunlara əks mövqedə dayanır. Onlar dövlətin rolu barəsində realist təsəvvürlərə əsaslanırlar. Bununla belə, yalnız dinc əhalinin arasında silahlı düşmənlərin ola biləcəyini əsas gətirərək bütöv yaşayış məskənlərinin məhv edilməsi haqqında göstərişlərin verildiyi bir çox hadisələr tarixə məlumdur.

B.Rasset, D.Kinsell və X.Starın yazdığı kimi, siyasətdə silahın tətbiqini əxlaqi cəhətdən yol verilən vasitə hesab edənlər bu iki nəzər nöqtəsi arasında "orta" vəziyyəti təşkil edirlər. Onlar kommunitarizmə əsaslanır və hesab edirlər ki, öncə aşağıdakılar aydınlaşdırılmalıdır: birincisi, silah hansı məqsədlə istifadə edilir. Özünümüdafiə, yoxsa istila məqsədilə? – bir məsələdir, istila isə – ikinci məsələ. İkincisi, müharibənin necə aparılması çox mühümdür: dinc əhali əzab çəkirmi, hərbi əsirlərlə necə davranırlar, hansı silahlar tətbiq edilir və s.

## 4.3. Müasir dünyanın inkişafında elm və təhsilin rolu

Təhsil problemi dünya siyasəti baxımından elmi ədəbiyyatda hələ ki, iqtisadi və hüquqi aspektlər qədər ənənəvi mövzuya çevrilməmişdir. Lakin məhz insan özünün bilik və bacarıqları ilə daha aydın şəkildə dünyanın siyasi inkişafında və beləliklə dünya siyasətində də əsas hərəkətverici qüvvəyə çevrilir. O dövrdə iqtisadi faktor hərbini sıxışdırdığı kimi, bu gün insan potensialının inkişafı digər prioritetləri qabaqlayaraq ön plana keçir. Bu da aydındır ki, insan müasir istehsala, iqtisadiyyata, mədəniyyətə, elmə həlledici töhfə verir və gələcək isə, onun özünün necə olacağından, təhsil səviyyəsindən asılıdır. Bu mənada təhsil müasir dünyanın siyasət formalaşdıran faktoruna çevrilir.

Bundan başqa, bilik həmişə sosial inkişafın hərəkətverici qüvvəsi olmuşdur. Hələ XVI əsrin sonu - XVII əsrin əvvəllərində ingilis filosofu Frensis Bekon qeyd etmişdir ki, güc informasiyaya malik olmaqdan ibarətdir və tamamilə haqlı idi. Yalnız bir düzəliş etməklə, yəni təkcə informasiyanın deyil, təhlil etmək, ondan istifadə etməyin əsas güc olduğunu qeyd etməklə onun sözlərini müasir dövrə aid etmək olar.

Postsənaye dövrü – yeni texnologiyalarla və onunla bağlı informasiyalarla, kommunikasiya sahələri, eləcə də biotexnologiyalarla insana keyfiyyətcə yeni tələblər irəli sürür. Təsadüfi deyil ki, postsənaye və ya informasiya çərçivələrində hazırlanan ideyalara istiqamətlənən müəlliflər siyasətdə maariflənmə faktoru haqqında kifayət qədər çox yazırlar. D.Bell, xüsusən də, yaranan yeni informasiya cəmiyyətinin "intellektual texnologiyalar" haqqında biliklərə əsaslanmadığına diqqət yetirmişdir. Digər müəllif, dünya siyasətinin qlobal problemləri sahəsində çox tanınmış mütəxəssislərdən biri L.K.Turou bu yeni sahələri "süni intellektual sahələr" adlandırmışdır.

"İntellektual istehsal"a istiqamətlənmə təhsil sahəsində dəyişikliklərin olmasını tələb etdi. Bu sahədə əhəmiyyətli irəli-

ləyişlər XX əsrin ikinci yarısında qloballaşma prosesi və onunla əlaqədar insana qarşı dəyişilmiş, yüksəlmiş tələblər nəticəsində baş vermişdir. Bilik, eyni zamanda, onu tətbiq etmək, onu inkişaf etdirmək bacarığı əhəmiyyətli yer tutur.

Bilik xammaldan fərqli olaraq, tükənən resurs deyil. Onlar, əksinə, daim artır: hər birinin ardınca başqaları, yeniləri yaranır. Dünya bankının qiymətləndirmələrinə görə, hal-hazırda ənənəvi, "fiziki" kapitalın payı dünya sərvətinin ümumi həcminin yalnız 16%-ni, 20%-ni təbiət, qalan 64%-ni isə insan kapitalı təşkil edir. İnsan kapitalına ilk növbədə ixtisaslaşdırma, o cümlədən də təhsil daxildir.

Biliyin artan rolu xüsusilə, inkişaf etmiş ölkələrdə müşahidə edilməkdədir. Təhsil səviyyəsindəki fərqlər gələcək gəlirlərin əldə edilməsində başlıca meyara çevrilir. Əgər ABŞ-da 1978-ci ildən 1987-ci ilə qədər orta hesabla onlar 17%-ə qədər artdığı halda, kollec məzunlarında 48%-ə çatırdı. Bu zaman ali təhsil almayan şəxslərin gəlirləri 4%-ə qədər azaldı. Beləliklə, insan, yaxşı təhsil almaqla, təkcə yüksək sosial status qazanmır, həm də öz rifahını yaxşılaşdırırdı.

Analoji tendensiya digər inkişaf etmiş və yeni sənaye dövlətlərində müşahidə edilirdi və edilməkdədir. Bu səbəbdən də, orada təhsil həyati prioritetlərdən birinə çevrilir. Belə ki, XX yüzilliyin sonunda Yaponiyada və Cənubi Koreyada demək olar ki, bütün gənc vətəndaşlar məktəbdə oxuyurdular, İndoneziyada onlar – 45-50%, Taylandda isə 40%-dən aşağı təşkil edirdilər.

Beləliklə, XX əsrin sonu – XXI əsrin əvvəllərində universitet məzunu, orta təhsilli həmyaşıdından çox qazana bilər. Bu, artıq dərəcədə dünyada ali təhsilə olan tələbatın kəskin artmasını şərtləndirdi. Orta məktəb məzunlarının daha çox hissəsi ali təhsil müəssisələrinə can atırlar. İnkişaf etmiş ölkələrdə bu rəqəm təxminən 50% təşkil edir, ancaq bununla bərabər, məsələn, Malayziyada 15%-dən azdır.

Bununla əlaqədar olaraq, müasir dövrdə təhsil sahəsində bir sıra problemlər meydana çıxır. Belə ki, biliklərin tez "köh-

nəlməsi", ixtisasından asılı olmayaraq, bütün sahələrdə yeni texnologiyalardan istifadənin vacibliyi insanı aşağıdakılara məcbur edir:

♦ bütün həyatı boyunca əmək bazarmda, zaman tələblərinə asanlıqla uyğunlaşmağa imkan verən yeni-yeni biliklər əldə etməyə;

♦ informasiya və kommunikasiya texnologiyaları sahəsində biliklərə yiyələnməyə, eləcə də ixtisaslaşmadan asılı olmayaraq, onları təkmilləşdirməyi bacarmağa;

Müasir şəraitdə daim biliklərin əldə edilməsi vacib olduğuna görə, böyüklərin təhsili üçün xidmətlərin təqdim edilməsi daha da aktuallaşır. Bazarda bu kateqoriyadan olan insanlar üçün müəyyən edilmiş bir çox proqramlar və xüsusi kurslar meydana gəlir. Məsələn, kompüter biliklərinin mənimsənilməsi üzrə, danışıqların aparılması, xarici dillərin öyrənilməsi, personalın idarə edilməsi, psixologiya üzrə və s.

Yeni texnologiyaların tətbiqi müasir təhsil prosesinin görünüşünü daha çox dəyişir. İnternet – abituriyentlər, tələbələr, müəllimlər, öz-özünə təhsil, ixtisas artırma ilə məşğul olan şəxslər və s. kimi müxtəlif kateqoriyalar üçün informasiyanın əldə edilməsində ən əsas mənbəyə çevrilmişdir. Tədris ədəbiyyatında internet resurslarına istinad edilməsi normaya çevrilmişdir. Bütün böyük universitetlərin özlərinin internet saytı vardır. O saytlarda müvafiq universitetlərin qəbul qaydaları, kursların proqramları, universitetlərin müxtəlif istiqamətli fəaliyyəti haqqında məlumatlar yerləşdirilir. Videokonfransların və videoseminarların keçirilməsi təcrübəsi artıq inkişaf edir. Bu zaman tələbələr və müəllimlər internet texnologiyalar vasitəsilə real vaxt rejimində ünsiyyət yaradırlar.

Yeni texnologiyalar digər yeni imkanlar da yaradır. Belə ki, videoaparatura tibb ixtisaslasları üzrə təhsil alan tələbələrə unikal əməliyyatları, fiziklərə isə nadir aparatların tələb olunduğu mürəkkəb təcrübələri izləməyə imkan verir. Videotreninq ünsiyyət, danışıqların aparılması və s. kimi təcrübə qazandırır. Bu

zaman, təhsil daha da interaktivləşir. Başqa sözlə, tələbə təkcə verilən materialı öyrənmir, həm də adətən yeni texnologiyaların köməkliyi ilə müəllimlər tərəfindən modelləşdirilən bu və ya digər vəziyyətlərdə müstəqil qərarlar qəbul edir. Nəticədə məzunlar təkcə biliklərə deyil, həm də bacarıqlara da yiyələnirlər.

Yüksək texnologiyalarm tətbiqi ilə şərtləşən müasir təhsilin digər xarakteristikalarmdan onun səmərələşdirilməsi, həmin zaman vahidində daha çox öyrənmək imkanlarını və fənlərarası əlaqələrin güclənməsini göstərmək olar. Sonuncu bir çox hallarda qonşu bilik sahələrində informasiya axtarışını əhəmiyyətli dərəcədə asanlaşdıran internet resurslarının sayəsində əldə edilir. Texnoloji innovasiyalar gündəlik təcrübəyə daha da geniş yayılır. Onları bilməyənlər, onlardan istifadə etməyi bacarmayanlar isə rəqabətqabiliyyətli olmurlar. Bu mənada firmaların yeni texnologiyalardan istifadə edilməsi ilə bağlı olaraq sürətli inkişaf etdiyi yeni sənaye ölkələrinin təcrübəsi nümunəvidir.

Buna müvafiq olaraq, təhsil də əhəmiyyətli dərəcədə onlara istiqamətlənmişdir. Nəticədə yeni texnologiyaları mənimsənilməsinin ümumi səviyyəsi kifayət qədər o yüksək oldu, ölkələr özü isə sürətli templə inkişaf etməyə başladılar. Doğrudur, yeni texnologiyaların istifadə edilməsi maarifləndirmə prosesinə məhdudiyyətlər yaradır, o cümlədən, bu vasitələrə yolları, onların tədris prosesində tətbiqi üzrə biliklərin daim təkmilləşdirilməsininin zəruriliyini və s. nəzərdə tutur. Bundan başqa, kompüterdən uzunmüddətli istifadə edilməsi ilə şərtləşən tibbi və psixofiziki problemlər də meydana çıxır. Təhsilin səmərələşdirilməsi, informasiya yüklənmələri, kompüterdən uzun müddət istifadə edilməsi çox vaxt sağlamlığa mənfi təsir edir. Bu məktəblilər və tələbələr üçün xüsusilə ciddi problemdir.

Yeni texnologiyalardan istifadə zamanı eləcə də, müəllim və öyrənən arasında individual əlaqənin çatışmaması hiss olunur. Bu isə maarifləndirmə prosesini simasızlaşdırmağa, orada "insan" amilinin itməsinə doğru aparır. Qeyd edilənlərdən başqa, belə desək "texnologiyanm üstünlüyü" özünü göstərir.

Belə ki, internetdən istifadə kompüter texnologiyalarını zirvəyə qaldırır.

Ümümilikdə, müasir dünyada biz mallarm istehsalından xidmətlərin göstərilməsinə keçidi, təhsil sisteminin təşkil edilməsini, tədqiqatlarm aparılmasını və s. müşahidə edirik. Bunlar yüksək ixtisaslı mütəxəssislərə olan tələbi çox sürətlə artırmasına və ixtisaslaşmamış kadrlara olan tələbatın azalmasına doğru aparır.

Biliklərə və bacarıqlara olan tələblərdəki dəyişiklik ciddi sosial-siyasi nəticələri də özündə ehtiva edir. F.Fukiyama qeyd edir ki, məsələn, müasir dövrdə cəmiyyətdə təhsil səviyyəsinə görə biliklilərdən, bacarıqlılardan və bütün qalanlardan ibarət olan kəskin qütbləşmə inkişaf edir. Bununla yanaşı, biliklərin daha "demokratik" resurs olmasına baxmayaraq, onun əldə edilməsi heç də asan deyil. Həqiqətən də, nəzəri baxımdan onlar hamı tərəfindən əldə edilə bilər. Bundan əlavə, təhsil almaq hüququ bir çox ölkələrin qanunvericiliyində, eləcə də insan hüquqları haqqında ümumi Bəyannamədə öz əksini tapmışdır. Onun 26-cı maddəsində deyilir: "hər bir insanm təhsil almaq hüququ var. Ən azından ibtidai və ümumi təhsil pulsuz olmalıdır". Lakin təhsil almaq yolunda problemlər də mövcuddur ki, bu da yaxşı məktəblərin, universitetlərin mövcudluğu, kitabxanalardan, internetdən istifadə imkanları və s. ilə bağlıdır.

Müasir dünyada təhsilə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artması yalnız yüksək və orta təbəqədən olan insanların yaxşı təhsil almaq imkanlarınm olduğunu göstərir. Yoxsul ailədən olan uşaqlar həm ali təhsil üçün ödənişi verə bilmir, həm də təhsil almağa bir neçə illərini sərf etmirlər. Çünki onların elə həmin sosial qrupdan olan həmyaşıdları ailə saxlamaq üçün pul qazanırlar. Bundan başqa, adətən biliyə yanaşma və dəyərlər uşaq yaşlarından formalaşır və onlar insanın tərbiyə aldığı ailədən və sosial mühitdən asılıdır.

Universitetləri bitirdikdən sonra keyfiyyətli təhsil almaq məqsədilə, eləcə də daha çox ixtisaslaşmış və yaxşı məvacibi

olan işlər üçün Şərqi Avropa, Asiya və s. regionlardan Avropaya və Şimali Amerikaya axınlar artır.

Nəticədə təhsil dünya inkişafının əhalinin miqrasiyası və "varlı Şimal – kasıb Cənub" xətti üzrə polyarlaşması kimi problemlərlə birbaşa bağlıdır. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə təhsil sahəsində mövcud uyğunsuzluq həyəcan yaradır və müxtəlif dövlətlərin əhalisinin sosial bərabərsizliyini artırır. Meydana çıxan problemləri qismən aradan qaldırmaq, gəlir səviyyəsindən asılı olmayaraq təhsili daha əlyetən etmək üçün milli və beynəlxalq səviyyələrdə müvafiq siyasət həyata keçirilir.

Müasir dünyanın başlıca meylləri, əlbəttə ki, təhsildə də özünü göstərir. Hər şeydən öncə, qloballaşma maariflənmə sahəsinə müxtəlif formalarda öz təsirini göstərir. Sərhədlərin şəffaflığı müasir dünyada tələbələrin xüsusilə, öz ölkələrindən kənarda daha nüfuzlu universitetlərdə keyfiyyətli təhsil almağa can atmasına gətirib çıxarır. Öz növbəsində təhsil müəssisələri də orada xarici tələbələrin olmasında maraqlıdırlar. Bu, onlara əlavə maliyyə vasitələri əldə etməyə, bütün dünya üzrə müxtəlif dövlət və qeyri-dövlət strukturlarında məzunlara malik olmağa, digər mədəniyyətlərin, ənənələrin spesifik xüsusiyyətlərini nəzərə alaraq tədris kurslarını təkmilləşdirməyə və s. imkan verir. Bundan başqa, professor-müəllim heyətinin mübadiləsi müəllimlərin peşəkarlıq çərçivəsini genişləndirir, yeni fikir və təcrübələrin mübadiləsinə şərait yaradır. Nəticədə, növbəti abituriyent qəbulu zamanı bu cür universitet daha cəlbedici olur.

Bilik, informasiya – milli sərhədləri asanlıqla aşa bilən sahədir. Buna görə də qloballaşma dövründə ilk növbədə, yeni texnologiyaların verdiyi imkanlar sayəsində distant təhsilin müxtəlif növləri daha da geniş yayılır. Hazırda biliyin əldə edilməsi üçün tələbənin yerləşdiyi məkan prinsipial əhəmiyyət daşımır, eyni zamanda, onun müəllimlə bilavasitə ünsiyyəti aradan qalxır, təhsil "simasızlaşır". Dil maneəsi də mövcuddur. Saytların əksəriyyəti, həmçinin, distant təhsil proqramları ingilisdillidir. Ona görə də ingilis dilini bilməmək, kompüter istifadəçi-

lərinin ən sadə bacarıqlarının olmaması müasir biliklərin əldə edilməsinə ciddi mane olur.

Müasir dünyanın qloballaşma ilə sıx bağlı olan inteqrasiyası bu gün təhsil sahəsində də, əsasən ali təhsil sahəsində özünü göstərir. Bu proses müxtəlif ölkələri nəzərdə tutur: tələbə və müəllimlərin mübadiləsi, təhsil proqramlarının standartlaşdırılması. Ali təhsilin daha intensiv inteqrasiyası Avropa təhsil məkanının birləşməsinə istiqamətlənmiş siyasətin öz əksini tapdığı Boloniya prosesi sayəsində Avropada müşahidə edilir.

Təhsil sahəsində inteqrasiya prosesləri heç də asan getmir. Bu proseslər mədəniyyətlərin, milli ənənələrin müxtəlifliyi, diplomların hüquqi qəbulu, xarici tələbələrin digər ölkəyə sosial-psixoloji adaptasiyası və s. ilə bağlı bir sıra yeni problemlər də ortaya çıxarır.

Təhsil sahəsində inteqrasiya ilə birlikdə dezinteqrasiya tendensiyaları da mövcuddur və bu, xüsusilə təhsilin desentralizasiyasında özünü göstərir. Amerika müəllifi M.Karnoyun yazdığı kimi, bu bir sıra ölkələrdə bir çox təhsilin idarəetmə funksiyalarının ümummilli səviyyədən milli və bələdiyyə səviyyəsinə keçidi deməkdir. Prinsipcə, təhsilin desentralizasiyası dünyanm inkişafının ümumdünya proseslərinin bir hissəsidir. O, bir çox aktorların müasir tələblərinə və qərarların qəbul edilməsi məsələlərinin daha aşağı səviyyəyə keçməsinə cavab verir. Bu şərtlər altında yerli təhsil strukturları dərslərin verilməsi ilə bağlı daha müstəqil olurlar. Bundan əlavə, hər bir tədris müəssisəsinin əmək bazarında məzunların rəqabət qabiliyyətliliyinin yüksəlməsi istiqamətində səyləri stimullaşdırılır. Desentralizasiya təcrübənin xüsusilə, yerli və regional strukturlar tərəfindən olan sorğularına çevik reaksiya verilməsinə imkan verir. O həmçinin, tədris proqramlarınm genişlənməsinə imkan verir, müəllimlərin yaradıcılıqlarının reallaşması üçün perspektivlər açır.

Digər tendensiyalar kimi, təhsil sahəsinin desentralizasiyasının da əks tərəfi vardır. Birincisi, qərarların qəbulu prosesinin daha aşağı səviyyəyə keçməsi onun effektivliyinin avtomatik yüksəlməsini nəzərdə tutmur.

Bəzi hallarda yerli səviyyədə qəbul edilmiş qərarlar çox da optimal olmur, bu isə təhsilin keyfiyyətinə təsir edir. İkincisi, desentralizasiyada müxtəlif tədris müəssisələrinin proqramları bir-birinə tam uyğun gəlmir. Bu, tələbələrin və müəllimlərin mübadiləsinə, təhsil sahəsində inteqrasiya proseslərinin inkişafına mane olur. Üçüncüsü, desentralizasiya zamanı təhsil müəssisələri, bir qayda olaraq, öz məzunlarını tətbiqi aspektlərə istiqamətləndirərək və dünyanın inkişafının ümumi tendensiyalarını diqqətdən kənarda qoymayaraq özəl məsələlərə daha çox diqqət yetirirlər. Bu gün uğurlu peşəkar fəaliyyətin zəruri şərti olan ümumi nəzəri və metodoloji təhsilin çatışmazlığı gələcəkdə digər sahələrdə biliklərin əldə edilməsini çətinləşdirir.

Dövlət maarifləndirmə siyasətini formalaşdırarkən hansı funksiyaların hansı həcmdə yerli səviyyəyə verilməsinin müəyyənləşdirilməsinin zəruriliyi ilə qarşılaşır. Bir çox təhsil mərkəzlərinin nəzəri biliklərin aradan qaldırılması ilə tətbiqi, biliyə istiqamətlənməsi, əsasən iqtisadi faktorun rolunun artması ilə bağlıdır. Tədris proqramlarının tərtib edilməsi zamanı universitetlər və institutlar bazarın tələblərindən əhəmiyyətli dərəcədə asılıdır.

Təhsilin kommersiyalaşdırılması fenomeni onu bütün pillələri (məktəb, universitet), müxtəlif növləri (dövlət, özəl) müxtəlif dövlətlər üçün xarakterik cəhətə çevirir. Bazara istiqamətlənmə şərtilə bəzi müəssisələr, xüsusilə universitetlər təhsil xidmətləri təqdim edərək, başqa şəhərlərdə və ölkələrdə öz filiallarını açaraq, xarici tələbələri cəlb edərək və s. yollarla pul qazanırlar. Onlar təhsillə bir sırada müvafiq istiqamətlər üzrə məsləhətçi, analitik xidmətlər göstərirlər. Bu onlar üçün təkcə əlavə maliyyə vəsaitini deyil, həm də tələbələrə universitetdə təcrübə keçmək imkanı verilməsini təmin edir. Eyni zamanda, müəllimlər də praktiki vəzifələrin həll edilməsi ilə bilavasitə bağlı olurlar. Nəticədə məsləhətçi və analitik xidmətlər universitetlərə bir sıra sahələrdə (məsələn, beynəlxalq münasibətlər, hüquq, iqtisadiyyat, politologiya) əhəmiyyətli siyasi təsir əldə etməyə imkan verir. Bu proseslərin nəticəsi kimi, iri universitetlər böyük maddi və yara-

dıcı resursları toplamaqla özünəməxsus "transmilli korporasiyalara" çevrilir. Belə statusu qoruyub saxlamaq üçün onlar dərhal gəlir götürməyə deyil, uzunmüddətli məqsədlərə istiqamətlənirlər. Ona görə də onlar təhsil və elmi bazanın güclənməsinə can atır, elm aləmində məşhur olan müəllimləri cəlb edir və s.

Digər təhsil mərkəzləri isə başqa yolla gedir. Onlar ilk növbədə qısa müddətdə kommersiya gəlirləri əldə etməyə çalışırlar. Nəticədə bu, təhsilin keyfiyyətinə böyük ziyan vurur. Məktəb təhsili sahəsində bu cür davranış prioritetlərin yerini dəyişməsinə, qarışıqlığa gətirib çıxarır. Uşağın fundamental biliklərə yiyələnən, formalaşan unikal nadir şəxsiyyət kimi qəbul edilməsi əvəzinə, onu daha çox gələcəkdə daha tez iş tapmağa imkan verəcək tətbiqi biliyə istiqamətləndirirlər. Fundamental təhsilin səviyyəsinin azalması etik, mənəvi, sosial ədalət və s. istiqamətə diqqətin yönəldilməsi prosesinin də zəifləməsinə səbəb olacaq. Bu dəyərlər eyni zamanda, professor-müəllim heyətinin də diqqətindən kənarda qalır. Universitetlərin rəhbərliyi sosial ehtiyaclara cavab verən deyil, kommersiya gəlirləri gətirən işlərin yerinə yetirilməsini tələb edir. S.Uolterin qeyd etdiyi kimi, belə tendensiya Yaponiya, ABŞ, Böyük Britaniya, Almaniya, Rusiya, Çin kimi ölkələrdə xüsusilə aydın müşahidə edilir.

Tətbiqi təhsil istiqamətində bu və ya digər profil üzrə, məsələn, kompüter texnologiyaları, menecment və s. üzrə kadrların hazırlanması ilə məşğul olan ixtisaslaşdırılmış mərkəzlərin yaradılması təcrübəsi daha geniş yayılmışdır. Onlar, xüsusilə, ali məktəblərin əksəriyyətinin konkret ixtisaslarda kadrların hazırlanması üzrə ixtisaslaşdığı Latın Amerikasında daha çoxdur. Burada ali məktəbin istehsalatla "qovuşması" aydın görünür. Latın Amerikasında ali təhsil sahəsində fundamental təhsili və güclü tədqiqat bazası olan klassik universitetlər üstün deyil. Amerikan müəllifləri N.Stromkvist və K.Monkmanın qeyd etdiyi kimi, ali təhsillə məşğul olan müəssisələrin 85%-i özəl kompaniyalara məxsus olan dar profilli institutlara bənzəyir. Bu proses təhsilin özəlləşdirilməsi adını almışdır. Kolumbiya,

Braziliya, Çili, Salvador, Dominikan Respublikasmda abituriyentlərin 50-65%-i məhz bu cür müəssisələrə daxil olurlar.

Transmilli korporasiyalar öz məqsədləri üçün kadrların hazırlanmasmda maraqlı olmaqla, çox vaxt orta ixtisaslaşdırma və ali təhsil müəssisələri yaradırlar. Məsələn, "Motorolla", "İntel" və digər kompaniyalar belə ali təhsil müəssisələrinə malikdir. Gələcək mütəxəssislər biliklərlə və istehsalat vərdişləri ilə yanaşı, korporativlik, yəni kompaniyaya məxsusluq hissi əldə edirlər. Digər müsbət məqamlar da vardır. Belə ki, hökumətin təhsilə ayırdığı xərclər azalır. Biznes strukturları kadrların cəlb edilməsində maraqlı olduqlarına görə təhsilin inkişafına böyük vəsait yatırmırlar. Buraya investisiya qoyuluşu getdikcə daha da cəlbedici olur. Həm də nəzərə almaq lazımdır ki, bu, inkişaf etmiş ölkələrdə də baş verir.

Eyni zamanda, TMK-nın təhsil prosesinə nəzarətsiz şəkildə daxil olması, dar profilli ali məktəblərin inkişafı mənfi nəticələrə səbəb ola bilər. Bir çoxu universitetlərdə deyil, texniki kolleclərdə təhsil almaqla, tətbiqi bacarıqlara yiyələnməklə peşəkar karyeranın başlanğıc mərhələlərində bəzi üstünlüklər əldə edə bilərlər. Ancaq gələcəkdə fundamental hazırlığın olmaması çox vaxt peşəkar yüksəlişin qarşısını alır.

Biznes strukturlarının bu və ya digər proqramların sponsorlaşdırılması yolu ilə maarifləndirmə prosesinə qoşulması, eləcə də, bununla bir vaxtda təhsilin desentralizasiyası ilə tədris müəssisələrinin yaradılması dövlətin bu sahəyə daha az nəzarət etməsinə gətirib çıxarır. Bu proseslər nəticəsində idarəetmənin real rıçaqları, tədris proqramları ilə metodiki təminat ayrı-ayrı təhsil strukturlarının və əsas sponsorların, yəni xüsusi kompaniyaların rəhbərliyində cəmləşir. Sonuncular onlardan asılı olan məktəblərdə və ali məktəblərdə təhsili daha çox öz korporativ ehtiyaclarına uyğunlaşdırmağa başlayırlar.

Təhsil sahəsində bazar mexanizmlərinin fəaliyyətinin tərəfdarları bəzən dövlətdə, xüsusilə, inkişaf etməkdə olan ölkələrdə təhsil nazirliklərindəki korrupsiyanın artmasının, idarəetmə

aparatının səriştəsizliyinin və s. mənfi rolunu qeyd edirlər. Onların məntiqinə görə, dövlət kadrların hazırlanması prosesinin nizamlanması imkanını bazarın öhdəsinə verərək praktik olaraq bu sahədən tamamilə getməlidir. Əks nöqteyi-nəzər ondan ibarətdir ki, dövlət əksinə, təhsilin kommersiyalaşdırılması, özəlləşdirilməsi və desentralizasiyası proseslərinə imkan verməyərək onu qəti şəkildə nizama salmalıdır.

Bu iki baxış son dərəcə seçilir. Həqiqətən də, digər sahələrdə olduğu kimi, təhsildə də dövlətin rolunun artması və yaxud azalması deyil, onun dəyişməsi haqqında danışmaq olar.

Bu gün dövlət az nəzarət etsə də, müxtəlif norma və davranış qaydalarını qəbul etməklə təhsil sistemini nizama salır. Bu sahədə nizama salma, ümumilikdə, milli və beynəlxalq standartların işlənib hazırlanmasını, müəssisələrin təyin edilməsini, tədris proqramlarının və materialların sertifikatlaşdırılmasını və s. nəzərdə tutur.

Əksər ölkələrin hökumətləri hazırda dünyada hansı dəyişikliklərin getməsi haqqında hesabat verir, nəticədə isə təhsil sahəsində dəyişikliklərin zəruriliyini başa düşürlər. Bununla əlaqədar olaraq, mövcud tendensiyaların müsbət nəticələrinin gücləndirilməsi və mənfi nəticələrin zəiflədilməsi istiqamətində addımlar atılır. Hazırda bir çox dövlətlər təhsil sahəsində islahatlar aparırlar.

Bir çox dövlətlər, eləcə də beynəlxalq birlik təhsilin elitarlaşdırılınasının güclənməsinin qarşısım almaq üçün ümumilikdə məqsədyönlü maliyyələşdirmə və digər metodların hesabına universitetlərə müxtəlif sosial, etnik və digər qruplardan olan tələbələrin cəlb edilməsinin genişləndirilməsinə səy göstərirlər.

Bununla bərabər, əhalinin əvvəllər təhsil almaq imkanı olmayan kateqoriyasına – qadmlara, milli azlıqlara, əlillərə xüsusi diqqət yetirilir. Sonuncu kateqoriyaya gəlincə, bu gün burada hər şeydən əvvəl çətinliklə hərəkət edənlər üçün internet texnologiyalarm tətbiqi hesabına təhsilin tamamilə yeni imkanları meydana gəlmişdir. Ümumiyyətlə, bu siyasət təhsil sahəsində demokratikləşmənin inkişafına istiqamətlənmişdir.

Dövlətin nizamlayıcı funksiyası həm də zəruri səviyyəni təmin edərək, ümumi təhsil kompleksində özəl təhsilin yerinin, rolunun və digər parametrlərinin müəyyənləşdirilməsində özünü göstərir. Müxtəlif ölkələrdə bu münasibət fərqlidir. Prinsipcə, şagirdlərin 30%-dən çoxunun özəl məktəblərdə oxuduğu ölkələr üçün məktəb səviyyəsində özəl təhsil daha əhəmiyyətli olur. Bu məktəblərdəki siniflərdə şagirdlərin sayca az olması adətən daha yüksək səviyyəli təhsil və tərbiyəni təmin edir. Bu həm uşaqlarla fərdi işə, həm də dövlət məktəblərindən fərqli olaraq burada çalışan müəllimlərə daha çox əmək haqqının ödənilməsinə imkan verir. Eyni zamanda, səviyyə baxımından özəl məktəblərdəki təhsilin dövlət məktəblərindəkindən yalnız bir az yuxarı olması haqqında da məlumatlar mövcuddur (xüsusilə, Çilinin nümunəsində).

Bir çox Qərbi Avropa dövlətləri özəl təhsili tam qəti şəkildə məhdudlaşdırmasalar da, Norveç və İsveç kimi dövlətlər əsasən dövlət təhsilinin inkişafına əhəmiyyətli dərəcədə istiqamətlənirlər. Orada şagirdlərin cəmi 1-2%-i özəl məktəblərdə oxuyurlar. Bu özəl məktəblər dövlətin ciddi nəzarətindədir. ABŞ-da əvvəllər uşaqların yaxınlıqda yerləşən məktəblərə verilməsi üstünlük təşkil etsə də, hazırda məktəbin yerinin və tipinin seçimi valideynlərdən asılıdır. Bundan əlavə, ailənin özəl məktəblərdə təhsil xərclərinin azaldılması məqsədilə ABŞ hökuməti xüsusilə, yüksək gəlirə sahib olmayanlar üçün ixtisaslaşdırılmış istiqrazlar buraxır. Başqa ölkələrdə də belə təcrübə mövcuddur.

Həmçinin, təhsilin inkişaf istiqamətlərinin işlənib hazırlanması, planlaşdırma və s. ilə bağlı məsələlər də dövlət siyasəti sahəsinə daxildir. Burada ciddi problemlərdən biri odur ki, müasir şəraitdə təhsil sahəsində milli siyasətin işlənib hazırlanmasına ayrılan vaxt əhəmiyyətli şəkildə məhdudlaşır. N.Stromkvist və K.Monkmanın qeyd etdiyi kimi, əgər əvvəllər bu dövr 4-5 illə ölçülürdüsə, indi təhsil sahəsindəki proqramlar meydana gəlir və 11-12 aydan sonra "ölür". Bununla əlaqədar olaraq, dövlətlər qarşısında beşillik müddətə hesablanan "strateji planlaş-

dırmadan" baş verən dəyişikliklərə – "daimi çevik reaksiyaya" keçmək vəzifəsi durur.

Bir çox dövlətlərdə təhsil sahəsində siyasət şəxsiyyətin öz biliyini inkişaf etdirməsinin genişlənməsinə, müxtəlif həyat şəraitlərinə insanın adekvat oriyentasiyasını təmin edən dünyanın mənzərəsinin formalaşmasına istiqamətlənmişdir. Təhsilin planlaşdırılması zamanı bir çox ölkələr bütün həyat boyu onun fasiləsizliyinə daha böyük diqqət yetirirlər. Təhsil siyasətinin müəyyənləşdirilməsi dövlətin mühüm vəzifələri ilə şərtlənir. Bu vəzifə, özündə təkcə bu və ya digər fənnə dair biliklərin cəmini deyil, ümumilikdə təhsilə maraq oyatmağa istiqamətlənmiş belə desək, "həvəsləndirici" dərsliklərin yaradılması ilə təhsilə həvəsin artırılmasıdır.

Müxtəlif səviyyəli dərs proqramlarımn dolğun olması da əhəmiyyətli dərəcədə dövlətin siyasət sahəsinə daxildir. Əgər əvvəllər uşaqlarm ilk növbədə oxuması, yazması və hesablaması əsas götürülürdüsə, artıq bu gün kompüter və kommunikativ bacarıqların mənimsənilməsinə ciddi diqqət yetirilir.

Müxtəlif ölkələr öz qarşılarma müxtəlif məqsədlər qoyur və mövcud şəraitdən, inkişaf prioritetlərindən, iqtisadi imkanlardan və s. asılı olaraq milli təhsil sahəsində siyasətin əsas istiqamətlərini fərqli şəkildə müəyyənləşdirirlər. Onlar əhalinin müxtəlif kateqoriyalarına münasibətdə əsas vəzifələri, eləcə də təhsil siyasətini müəyyənləşdirirlər. Bununla yanaşı, inkişaf etmiş ölkələr, təhsilə adətən, inkişaf etməkdə olan ölkələrdən fərqli olaraq, öz ÜDM-in böyük hissəsini sərf edir. Bundan başqa, xərclərin dərəcəsi tez-tez artır. V.L.İnozemtsev çox səciyyəvi bir nümunə gətirir: 1958-ci ildən 1972-ci ilə kimi ABŞ-da təhsilə ayrılan xərclər ümumilikdə, 11,8%-dən 14,8%-ə qədər yüksəlmişdir.

Bu dövrdə, SSRİ-nin kosmonavtika sahəsindəki uğurlarmdan sonra Birləşmiş Ştatların təhsilə diqqət yetirməyə başlaması öz nəticələrini verdi.

Ancaq ölkələrin əksəriyyəti Təhsil üzrə Beynəlxalq komissiyanın XXI əsr üçün təhsilə ayrılan xərclərin tövsiyə etdiyi, yəni

təhsil və ictimai tələbat arasında əlaqəni daha effektiv şəkildə təmin etməyə imkan verən ümumdaxili milli məhsulun 6%-i səviyyəsinə çatmamışdır.

Təhsil sahəsində ölkələrin prioritetləri də müxtəlifdir. Məsələn, inkişaf etmiş dövlətlərdə böyüklərin təhsili artıq kifayət qədər yüksək bilik səviyyəsinə və bacarıqlara malik olan şəxslərin təkmilləşdirilməsinə yönəldiyi halda, inkişaf etməkdə olan ölkələrdə isə məsələ uşaq yaşlarında təhsil ala bilməmiş şəxslərə ibtidai təhsilin verilməsi şəklində qoyulur.

Təəssüf ki, ümumilikdə bu ölkələrdə çox vaxt əhalinin ən aşağı təbəqələrinin təhsilinə ümumiyyətlə diqqət yetirilmir. Bu, xüsusilə, ibtidai təhsilə, həmçinin, böyüklərin təhsilinə aiddir. XX əsrin sonunda təxminən 1 milyard insan, yəni planetin əhalisinin hər altı nəfərindən biri savadsız idi. Başqa cür desək, bu insanların bilik səviyyəsi çox aşağı olaraq qalır, müasir minimal tələblərə cavab vermirdi. Bu, əsasən "qlobal Cənubun" əhalisidir.

Müasir dövrdə dövlət qeyri-hökumət təşkilatları, eləcə də regional və beynəlxalq səviyyədə məktəblər, regionlar, universitetlər yanında yaranan və fəaliyyət göstərən biznes strukturları ilə sıx əməkdaşlıq edir. Onların vəzifələrinə asudə vaxtın səmərəli təşkili, tətillər zamanı gənclərin işə düzəlməsi, məktəblərin, universitetlərin özünüidarəsi və s. daxildir.

Bununla bərabər, çox vaxt məhz dövlət bu cür fəaliyyətin başlıca koordinasiyaçısı olaraq qalır. Təhsilin inteqrasiyası sahəsində də dövlətin koordinasiyaçı funksiyası kəskin şəkildə artır. Boloniya sistemi bunun ən parlaq nümunəsidir.

Təhsilin inkişafı və planlaşdırılmasında hökumətlərarası və qeyri-hökumət təşkilatları aktiv iştirak edir. Birincilər arasında ilk növbədə, BMT və onun ixtisaslaşmış qurumlarını, xüsusilə, Birləşmiş Millətlər Təşkilatının təhsil, Elm və Mədəniyyət məsələləri üzrə qurumu olan YUNESKO-nu, BMT Uşaq Fondu, YUNİSEF, BMT-nin inkişaf Proqramını və s. qeyd etmək lazımdır. Hökumətlərarası təşkilatlar müxtəlif maliyyələşmə mənbələrindən istifadə edirlər. Belə ki, YUNİSEF hökumət və

qeyri-hökumət mənbələrinə, YUNESKO – iştirakçı ölkələrin hökumətlərindən əldə etdiyi maliyyəyə, Ümumdünya Bankı isə kommersiya əməliyyatları vasitələrinə istiqamətlənmişdir.

Müasir Avropada birləşmə ilə bağlı proseslər müxtəlif sahələrə toxunur. Bundan başqa, vahid qanunlarla inkişaf etməyə başlayan yeni sahələr meydana gəlir. Ali təhsil belə yeni sahələrə aiddir. Həm də bu gün Avropa İttifaqı 27 üzvə 60 illik tarixə malik olduğuna görə, 1990-cı illərin sonunda başlanan və Boloniya prosesi adını almış ali təhsil sahəsində inteqrasiya prosesləri hazırda Avropanın 40 ölkəsini əhatə edir. Başqa cür desək, inteqrasiya edən ali təhsil sahəsi, dil məhdudiyyətinə, təhsil sahəsində yüz illərlə formalaşmış milli xüsusiyyətlərin mövcudluğuna və s. baxmayaraq çox intensiv inkişaf edir. Bəs inteqrasiyanın belə sürətli inkişafının səbəbi nədir?

XX əsrin ikinci yarısında Avropa onu digər regionlardan geri qalması problemi ilə üz-üzə qoyan ən azı iki mühüm dövr yaşamışdır. 1960-1970-ci illər Avropa ölkələrinin texnoloji cəhətdən ABŞ və Yaponiyadan geri qaldığı görünür. Növbəti illərdə də bu hal özünü büruzə vermişdir. Nəticədə, Avropada ABŞ-dan fərqli olaraq gec və ya tez vaxtda plastik bank kartları və onunla bağlı xidmətlər tətbiq edildi, mobil telefon şəbəkəsi inkişaf etdi, internet tətbiq olundu. Qeyd etmək lazımdır ki, 1990-cı illərin əvvəllərində inkişaf etmiş Avropa ölkələri bir sıra texnoloji innovasiyaların kütləvi istifadəsinə görə təkcə ABŞ və Yaponiyadan deyil, həm də, məsələn, hələ 1990-cı illərin əvvəllərində bankomat sisteminin geniş yayıldığı, kommunal xidmətlərin ödənişlərinin milli şəbəkə vasitəsilə kompüterlə ödənildiyi, eləcə də mobil telefon şəbəkəsinin inkişaf etdiyi CAR kimi ölkələrdən geridə qalırdı.

ABŞ, eləcə də Avstraliyada təhsil xidmətlərinin geniş şəkildə yayılması avropalılar üçün özünəməxsus "ikinci zəng" oldu. Bu göstərici onun ixracına da imkan verirdi. Avropa təhsilinin geri qalması faktı təkcə iqtisadi təsirə malik deyildi. Avropa özünün universitet təhsilinin təşkil etdiyi çox böyük mədəni tarixi ənənələri ilə məhz bu sahədə geri qalırdı.

Məhz bütün bunlar 1990-cı illərin sonunda avropalıları ali təhsil sahəsində islahatlar aparmağa məcbur etdi. Böyük Britaniya, Almaniya, İtaliya və Fransa onun təşəbbüskarı kimi çıxış etdilər. 1998-ci ildə Sarbonnadakı görüşdə bu ölkələrin təhsil nazirləri Avropada ali təhsil sahəsində inteqrasiyanın başlanğıcını qoyan Sarbonna Bəyannaməsini imzaladılar. 1988-ci ildə qədim Avropa universitetinin 900 illiyinin qeyd edilməsi ilə əlaqədar Boloniyada qəbul edilmiş Universitet Xartiyası onun əsasını təşkil edirdi. Universitet Xartiyası universitetin muxtariyyatını, onun siyasi və ideoloji ehkamlardan asılı olmadığını, tədqiqat və təhsilin əlaqəsini, dözümsüzlükdən imtina və dialoqa istiqamətlənməni nəzərdə tuturdu.

1999-cu ildə Boloniya Bəyannaməsinin imzalanması hadisəsi vahid təhsil məkanının yaradılması prosesinin özünəməxsus şəkildə "rəsmiləşdirilməsi" oldu və prosesin özü də bu cür adlandırıldı. Bu bəyannamənin mahiyyəti aşağıdakılardan ibarətdir:

- iki səviyyəli ali təhsil, birinci səviyyə bakalavr;
- dərəcəsinin, ikincisi isə magistr dərəcəsinin əldə edilməsinə istiqamətlənmişdir;
- kredit sistemi, bütün dövlətlərdə təhsil prosesinin vahid uçotunu nəzərdə tutur (tələbənin hansı kursları hansı həcmdə dinləməsi);
- təhsilin keyfiyyətinə müstəqil nəzarət, onun əsasını sərf edilmiş saatların miqdarı deyil, bilik və bacarıqların səviyyəsi təşkil edir;
- tələbə və müəllimlərin mobilliyi, təcrübənin zənginləşdirilməsi üçün müəllimlərin müəyyən müddət Avropa ölkələrinin müxtəlif universitetlərində çalışınası, tələbələrin isə təhsil alması nəzərdə tutulur;
- Avropa universitetlərinin məzunlarının biliklərinin tətbiq edilə bilməsi imkanları, kadrların hazırlandığı ixtisasların orada tələb olunmasını, hazırlanmış mütəxəssislərin isə işlə təmin olunmasını, yeniliklərin avropalıların, eləcə də digər regi-

onların ölkələrinin Avropa təhsili əldə etməkdə maraqlı olmasına yardım edəcək.

Azərbaycan Respulblikası Boloniya Bəyannaməsini imzalamış və ali təhsildə islahatlar prosesinə başlamışdır. Hazırda ölkənin ali məktəblərinin çoxu Avropa standartlarına uyğun fəaliyyət göstərir. 2009-cu ildə qəbul edilmiş Təhsil haqqında Qanun bu prosesə dəstək verir.

Boloniya prosesinə qoşulmuş bütün ölkələrdə ali təhsilin yenidən qurulması prosesi bir çox səbəblərlə, o cümlədən, mövcud ənənələrin, strukturların, tədris metodlarının "dağılması" zəruriliyi ilə əlaqədar olaraq heç də asan getmir. Boloniya prosesinə qoşulmuş bütün ölkələrdə ümumavropa məkanının inteqrasiyası məsələlərinin müzakirələri aparılır. Belə ki, bu prosesin tərəfdarları ilə yanaşı, həm də əleyhdarları da mövcuddur. Mübahisələrin arxasında nəyin durduğu əsasdır. Bu, ümumavropa təhsil məkanının yaradılmasına səbəb olan sosial-siyasi nəticələrdir.

Şübhəsiz ki, Boloniya prosesi ümumavropa inteqrasiyasını dərinləşdirəcək və genişləndirəcək.

Ali təhsil texnologiyasının başlıca parametrlərinin uyğunluğu (təhsil səviyyəsi, müddətlər və s.) bir tərəfdən məzunların ixtisaslaşdırılması səviyyəsini aydınlaşdırmağa, digər tərəfdən, Avropa çərçivəsində hər bir ixtisas üzrə məzunların bilik və bacarıqlarına ümumi tələbləri formalaşdırmağa imkan verəcək və bu, ixtisaslaşdırılmış işçi qüvvəsinin yüksək mobilliyini təmin edəcək. Bundan başqa, Avropa universitetləri arasında tərəfdaşlıq münasibətlərini nəzərdə tutan Boloniya prosesi vahid Avropa siyasi, iqtisadi, texniki, elmi və s. elitanın formalaşmasına imkan verəcək.

Boloniya prosesində tələbə və müəllimlərin mobilliyi bu prosesə yardım edəcək. Nəticədə, Avropa universitetlərinin məzunları hələ təhsil aldığı müddətdə müxtəlif şəxslərlə, fərqli dövlətlərdən olan tələbə yoldaşları ilə əlaqələrə malik olacaq, peşəkar sahəyə daxil olacaq.

Təhsil sahəsində inteqrasiyanın inkişafı demokratikləşmənin də inkişafına yardım edir. Bir zamanlar Avropada demok-

ratiyanın yaranması və inkişafında universitetlər böyük rol oynamışdır. Bu gün universitetlər Sarbonna deklarasiyasına görə Boloniya prosesinin vahid struktur vahidi olmaqla, yenə də bu sahədə mühüm rol oynamaq üçün potensial imkana malikdir.

Universitet birliyi öz mahiyyətinə görə şəbəkə şəklindədir, demokratiya isə sosial əlaqələr və münasibətlərin şəbəkəsini nəzərdə tutur. Avropanın sosial-iqtisadi və siyasi həyatında təhsilin rolunun yüksəlməsi (müvafiq olaraq, universitetlərin də) müxtəlif sahələrdə şəbəkə münasibətlə-rinin gələcək inkişafına səbəb olacaq.

Hesab edilir ki, Boloniya prosesinin müsbət məqamları ilə yanaşı, bir sıra problemlər də özünü göstərəcək. Bu problemlərin bir qrupunu Avropa cəmiyyətinin müxtəlif cür təbəqələşməsi ilə bağlı olan problemlər təşkil edir ki, bu da prinsip etibarilə digər regionlar üçün də xarakterikdir. Lakin gərgin şəkildə aparılan təhsil islahatları çərçivəsində bu problemlər özünü daha çox göstərə bilər.

Ali təhsilin keyfiyyətinin yüksəlməsi təhsilli elita ilə əhalinin digər təbəqələri arasında fərqin artmasına səbəb olacaq və bu, öz növbəsində, əhalinin daha az ixtisaslaşmış və daha mühafizəkar təbəqələrinin Avropa inteqrasiyasınm gələcək inkişafından imtina etməsinə və millətçiliyin artmasma gətirib çıxaracaq.

Bu təbəqələşmənin artıq aydın şəkildə özünü göstərdiyini nəzərə alsaq, bu proseslərin güclənməsi çox ağır nəticələnə bilər. Amma universitetlərdən çox şey asılıdır. Əgər universitetlərin ali təhsilin inteqrasiyasının mühüm vahidinə çevrilməsinə, onun vətəndaş cəmiyyətinin bir hissəsinə çevrilməsinə imkan verən müxtəlif proqramlar işlənib hazırlanarsa, bu sosial-mədəni uyğunsuzluq əhəmiyyətli şəkildə azala bilər. Universitetin vətəndaş cəmiyyətinin bir hissəsinə çevrilməsi dedikdə, maarifləndirmə, ekspert, məsləhətçi fəaliyyət, eləcə də universitetlərin cəmiyyətə "açıqlığı" nəzərdə tutulur.

Ali məktəb diplomuna malik olan avropalıların sayının artması ərəb, Asiya və Afrika ölkələrindən olan daha az ixti-

saslaşmış işçi qüvvəsinin yeni axınına səbəb olacaq. Avropanın etnik tərkibinin başqa mədəni norma və dəyərlərin yayılması ilə müşayiət edilən dəyişməsi problem sayılır və müvafiq sosial-iqtisadi proqramların işlənib hazırlanmasını tələb edir.

Boloniya prosesi universitetlərin yenidən qurulmasına səbəb oldu və onları ən azı üç tipə bölmək mümkündür: birinci – tamamilə Boloniya sisteminə qoşulmuş, təhsil xidmətlərinin əhəmiyyətli gəlir gətirdiyi daha uğurlu və nüfuzlu universitetlər (ayrı-ayrı istiqamətlər üzrə və ya ümumilikdə) təhsil sahəsini inhisara almağa çalışaraq özünəməxsus "konsorsium" yaradacaqlar. İkinci tip – "birinci dairəyə" qimən aid olan, lakin ona tamamilə daxil olmağa can atan universitetlər. Nəhayət, üçüncü tip – çətinliklə fəaliyyət göstərən, "kənarda qalan" universitetlər. Bu tip universitetlər arasında sərhədlər fəal olacaq və kooperativ əlaqələrdən və münasibətlərdən başqa onlar arasında sərt rəqabət mübarizəsi genişlənəcək. Təbii ki, universitetlər arasında rəqabət bu gün də mövcuddur, lakin korporativ münasibətlər şəraitində o daha sərt xarakter alacaq.

Regionların və şəhərlərin rolunun dəyişməsi Avropada təhsil məkanınm inteqrasiyasının sosial-siyasi nəticəsi ola bilər. Bir tərəfdən, iri universitet mərkəzlərinin yerləşdiyi şəhərlərin gərgin inkişafını, digər tərəfdən, bu universitetlərin şəhər və ya regionun profilindən asılı olaraq ixtisaslaşmasını gözləmək olar (belə ki, bu, bir sıra üstünlüklər qazandırır – yüksək peşəkar mütəxəssislərin universitetlərə dəvət edilməsi, tələbələrin müvafiq universitetlərdə təcrübə keçməsi və s.). Belə ki, beynəlxalq siyasi və iqtisadi münasibətlər sahəsini götürsək, çoxtərəfli diplomatiya, beynəlxalq münasibətlər və çoxtərəfli danışıqlar problemi daha çox Cenevrə universitetlərinin, Avropa inteqrasiyası məsələləri – Brüssel universitetlərinin, beynəlxalq maliyyə isə – London universitetlərinin profilinə uyğun gəlir. Nəticədə, Avropanın regionallaşmasının güclənməsini və onun hətta qitənin sosial-siyasi və iqtisadi simasının əhəmiyyətli şəkildə dəyişməsini göstərən özünəməxsus "meqapolisləşməsini" gözləmək olar.

Avropada Boloniya prosesinin inkişafı təhsilin əsasən regionlarda desentralizasiya edildiyi başqa dövlətlərdə (xüsusilə, ABŞ-da) təhsil məkanının birləşdirilməsi ilə bağlı məsələlərin qoyuluşunu stimullaşdırdı. Bu, Avropa təhsil sisteminin dünyanın digər ölkələrinin və regionlarının təhsil sistemlərinin, ali və orta təhsil sistemlərinin, eləcə də təşkilatların tələblərinin və normaların toqquşmasına səbəb olacaq (məsələn, ÜTT təhsili xidmət kimi nəzərdə tutur).

Beləliklə, təhsilin müasir dövrün daha mühüm sosial-iqtisadi və siyasi problemlərinin öz əksini tapdığı sahəyə çevrildiyi çox dəqiqliklə müşahidə edilir və bu, təhsilin bütün kompleks problemləri üzrə çoxsəviyyəli beynəlxalq danışıqların aparılması vəzifəsini qarşıya qoyur.

## ƏDƏBİYYAT:

1. Abbasbəyli A.N. Müasir beynəlxalq münasibətlər və qloballaşma B., 2008.
2. Аббасбейли А.Н. Теоретические проблемы прогнозирования современных международных отношений. Б, 2006.
3. Бжанов Е.П. Актуальные проблемы международных отношений М., 2001, Т.1-3.
4. Боршиполец К.П. Методы политических исследований, М., 2005.
5. Глобализация и поиски национальной идентичности в странах Востока, М., 1999.
6. Лебедева М.М. Мировая политика: проблемы и тенденции развития. /Мировая политика и международные отношения на пороге третьего тысячелетия / Под. ред. М.М. Лебедевой. М., 2000.

# V FƏSİL

# ÜMUMDÜNYA PROBLEMLƏRİ

## 5.1. XXI əsrdə geostrategiya

Müasir dövrdə sülhün saxlanılması XX əsrin sonunda dünya birliyinin obyektiv vəziyyəti ilə üzvi surətdə bağlıdır. Problemin mahiyyəti ondan ibarətdir ki, yarım əsrlik "Soyuq müharibə"dən sonra, dünya yeni müharibə avantüraları, "kiçik" müharibələr, sürətlə silahlanma, siyasi hökmranlıq kimi səylərə son qoymaq üçün əlverişli imkan qazanmışdır. XX əsr və xüsusilə onun son on ili belə misallarla dolu olmuşdur: 1 milyon insanın həyatına son qoymuş və BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən biri olan Fransanm hərbi müdaxiləsini tələb edən Ruanda (Afrika) hadisələri və yaxud "Qırmızı kxmerlər"in Kampuçiyadakı eksperimenti nəticəsində 3 milyondan artıq insan məhv edildi.

Geosiyasi hökmranlığın parlaq nümunəsi Sovet İttifaqının Əfqanıstana hərbi müdaxiləsində öz əksini tapmışdır. Müharibədə məğlub olan Sovet İttifaqı bu ölkədən çıxmaq məcburiyyətində qaldı, ancaq regional və ya ümumi üstünlüyə can atan müxtəlif güclərə söykənən daxili siyasi qruplar arasında hakimiyyət uğrunda müharibəni miras qoydu.

Güc mərkəzlərinin geosiyasi və geostrateji maraqları ucbatından əfqan xalqı məhv olur. Hadisələrin bu cür cərəyan etməsi onun qonşu ölkələrə də keçmə ehtimalını yaradır. Əfqanıstan münaqişəsi qonşu Tacikistanda da narahatlıq yaradır. Nəticədə Rusiya öz geostrateji maraqlarınm "tapdandığını" görüb cavab tədbiri görür. Rusiya MDB bayrağı

altında "sülhməramlı qüvvələrini" suveren Tacikistana daxil etdi. Bu ordu yüz faiz ruslardan ibarətdir və Rusiya tərəfindən maliyyələşdirilir. Beləliklə, daxili münaqişələr sonu bilinməyən beynəlxalq münaqişələrə çevrilə bilər.

Belə faktlar da məlumdur ki, etniklərarası və millətlərarası zəmində baş vermiş münaqişələrdə yüzlərlə insan ölür və yaralamr. Misal üçün, keçmiş Yuqoslaviyanın tərkib hissəsi olan Bosniya və Hersoqovinada serblər, xorvatlar və müsəlmanlar arasında olan qanlı hadisələr BMT-nin, NATO-nun hərbi müdaxiləsini və böyük dövlətlər tərəfindən qoşunların göndərilməsini tələb etdi. Söylənənlər 2 milyon albanın yaşadığı Kosovoda özünü daha aydın göstərdi. 1998-ci ilin sonu 1999-cu ilin əvvəllərində daimi təqiblər, təzyiqlər, yerli camaatın kütləvi şəkildə öldürülməsi, serb qoşunlarının təkcə bir kənddə 50-yə yaxın adamı – kişi, qadın, qoca və uşaqları qırması albanları silaha əl atmağa məcbur etdi.

Qərbin uzun sürən səyi nəticəsində münaqişə tərəfləri danışıq stoluna oturdular. Bu görüş Fransa Respublikasının prezidenti Jak Şirakın himayəsi altında baş verdi. Nəticədə, uzun və ağır danışıqlardan sonra tərəflər müvafiq sənədi imzalamağa razılaşdılar. Onun layihəsi Serbiyanın və Yuqoslaviyanın ərazisi daxilində Kosovoya yüksək muxtariyyət verilməsini nəzərdə tuturdu. Geosiyasi maraqlar böyük dövlətlərin, ilk növbədə, iki əsrdən artıq müddətdə bu regionu özünün böyük maraq zonası hesab edən Rusiyanın aktiv müdaxiləsinə şərait yaratdı. Hazırda da, Rusiya Avropada öz məqsədlərinin son dayağını qoruyub saxlamağa cəhd etməklə, Serbiyanı istənilən kənar baxışlardan "müdafiə edir" və himayədarlıq göstərir. Rusiyanın keçmiş prezidentləri B.Yeltsin və V.Putin, keçmiş və hazırki xarici işlər nazirləri İ.İvanov və S.Lavrov da daxil olmaqla, yüksək rəhbərlər tərəfindən həmişə Serbiyanın ərazi bütövlüyünün tanındığı və Kosovoya Serbiyaınn ərazi bütövlüyü çərçivəsində muxtariyyat verilməsinin labüdlüyü bəyan edilib. Onlar Serbiyamn ərazi bütövlüyünü dəstəkləyir, dövlət daxilində dövlətin əleyhinə olduqlarını bildirirlər.

Bu prinsip ölkələrin yerləşdiyi ərazidən, dilindən, dinindən və etiqadından, böyük dövlətlərin geostrateji maraqlarından asılı olmayaraq hamıya şamil olunmalıdır. Yalnız bu yolla, Yer kürəsinin istənilən nöqtəsində sülhü və təhlükəsizliyi qorumaq olar. Tərəflərin razılaşdığı və Yuqoslaviya ərazisində sülhün qalib gəldiyi hesab edilirdi. Lakin tərəflərin sülhə yaxın olduğu bir vaxtda Serbiya birgə bəyanatı imzalamaqdan imtina etdi. Onun mahiyyəti ondan ibarət idi ki, Serbiya uzun müddət NATO və BMT-nin ordusunun münaqişə zonasına yerləşdirilməsinə qarşı idi. Serbiyanın imtinasından sonra, NATO qüvvələri Yuqoslaviya ərazisinə aviasiya-raket hücumlarına başladı. Rusiya hər vəchlə buna mane olmağa çalışırdı.

Nəticədə NATO ordusu Yuqoslaviyaya daxil oldu və Kosovo ərazisində yerləşdi. Rusiya, həmçinin, vəziyyətdən istifadə edərək, özünün Bosniyada yerləşdirilmiş sülhməramlı kontingentindən 200 nəfər əsgərini Kosovonun paytaxtı Priştina hava limanına yeritməklə öz "böyüklüyünü" nümayiş etdirdi. Müəyyən müddət keçdikdən sonra, Kosovo albanları 2008-ci ilin əvvəlində ABŞ və Avropa İttifaqının aktiv dəstəyi ilə Kosovonun müstəqilliyini elan etdi. Bu, Serbiya və Rusiya tərəfindən tam ziddiyyətlə qarşılandı. Kosovonun birtərəfli qaydada müstəqillik elan etməsi beynəlxalq hüquqa və BMT Nizamnaməsinə birbaşa ziddir. Qərbin bu prosesdəki mövqeyinin düzgünlüyünü zaman göstərəcək.

Müasir şəraitdə sosialist sisteminin dağılması və dünya birliyinin unifikasiyaya – bazar iqtisadiyyatına, kapitalizmə doğru getməsi nəticəsində dünya bir qədər idarə edilən olur. Aydındır ki, "İnkişaf etməkdə olan dövlətlər" termini qalmaqdadır və onlar gec-tez kapitalizm inkişaf yolunu tutacaq. Məlum olduğu kimi, Laos, Kampuçiya, Anqola, Nikaraquada, daha əvvəllər İndoneziya, Birma, Misir, Suriya, Əlcəzairdə və s. sosializmi qurmaq eksperimentləri uğursuzluqla nəticələnmişdir.

Müxtəlif regionlarda yaşayan və fərqli sosial-siyasi inkişafda olan xalqlar arasında qarşılıqlı-faydalı əməkdaşlığın qurul-

ması indiki şəraitdə bəşəriyyət üçün əsas məsələ hesab olunur. Bu qarşılıqlı-faydalı əməkdaşlıq müxtəlif formalarda ola bilər. Hər bir region üçün beynəlxalq hüququn subyektlərinə diferensial yanaşmaq lazımdır. Beynəlxalq təhlükəsizlik baxımından ziddiyyətlər üçün ümumi fikir tapılmalıdır.

XX əsr belə faktlarla dolu idi. Bununla əlaqədar olaraq, sülhün qorunmasında SSRİ-nin xarabalıqları üzərində qurulmuş gənc və suveren dövlətlərin daxili vəziyyətindən və xarici siyasətindən çox şey asılıdır. Rusiya bu ölkələri özünün geosiyasi maraqları zonası hesab edir. Bu zaman başqa ölkələrin və imperiyaların tarixi ilə analogiya aparılmır. Deyilənləri Rusiyanın Vyetnamda, Kubada, Serbiyada, İraqda, Suriyada və Livanda təsir dairəsində saxlamaq istəyi sübut edir. Rusiya özünü Sovet İttifaqının varisi hesab etdiyi üçün, yuxarıda sadalanan dövlətləri də öz təsir dairəsi çərçivəsində görür. Qüvvələrin universal kapitalizm sisteminin tərəfinə keçməsi qarşılıqlı anlaşma və sülh üçün zəmin yaradır. Tarixdən məlumdur ki, tək sistemli dövlətlərdə beynəlxalq əlaqələr gərginləşəndə toqquşmalar qaçılmaz olur. XX əsrdə iki dünya müharibəsi elə bu cür baş vermişdi.

Sosializm sisteminin dağılması dünyanı bir qədər sakitləşdirdi. Əsasən də, iki əks qütb arasında olan hərbi-siyasi və ideoloji mübarizə yoxa çıxdı. Hər iki blok arasında geostrateji hakimiyyətə son qoyuldu. Ancaq dövlətlərin geosiyasəti qalmaqdadır. Misal üçün, Rusiya bəyan edir ki, o, maraqlarının tapdanmasına imkan verməyəcək. Rusiya İranı, Şimali Koreyanı, Liviyanı silahla təmin etməyə hər zaman hazır olduğunu bəyan edir. Bu haqda Rusiyanın Xarici İşlər Naziri İ.Sergeyev Kosovo münaqişəsi zamanı açıq bəyanat vermişdir. Son 2 ildə Rusiya Şimal dənizində və Sakit okeanda çoxlu sayda super müasir qitələrarası atom kreyserləri, müasir “Topol-1” və “Topol-2” raketlərini döyüş hazırlığına vəziyyətinə gətirmişdir, bunlar isə “ulduz müharibələrinin” komponenti sayılır. Sual olunur: əgər dünyada rəqabət yoxdursa bu silahlar Rusiyaya nə

üçün lazımdır? Bütün bunlar göstərir ki, Rusiya öz geostrateji iddialarından əl çəkməyib. Beləliklə, yenidən silahlanma və "Soyuq müharibə" erası başlayır.

Hər bir dövlət daxili problemini xarici təsir olmadan həll etmək hüququna malikdir. Böyük dövlətlərin öz geosiyasi maraqları naminə kiçik dövlətlərin hüquqlarını pozmağa haqqı yoxdur. Belə hallarda yerli münaqişələr böyük dövlətlərin maraq dairəsində olur. Xarici siyasətlərində əksər dövlətlər belə hallarda zəruri addımlar atırlar. Analoji hallar tarixdə çox olmuşdur. Məsələn, Rusiyanın Baltikyanı dövlətlərə qarşı sərt münasibətini ABŞ dövlət katibi H.Kissincer belə qiymətləndirirdi: "Kremlin ixtiyarı yoxdur ki, 300 il ərzində çarların və komissarların yaratdığı Rusiyada sərhədlərin yaxınlığında yerləşənləri öz təsir dairəsində saxlasın".

Beynəlxalq Təhlükəsizlik müasir dövrdə yerli hadisə sayılmır. Xırda münaqişələrin olmaması üçün ümumdünya vəziyyət nəzərə alınmalıdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin təşəbbüskarları əvvəllər bunu yerli hadisə kimi dəyərləndirirdilər. Hətta onlar bu münaqişəni çoxpilləli variant kimi də təhlil edirdilər. Əsas o idi ki, qoyulmuş məqsədə nail olunsun. İlkin variant problemləri ildırım sürəti ilə həll etmək idi. Bəs sonra? Cavab reaksiyasının revanşı sonu bilinməyən nəticələrə səbəb ola bilərdi. Bu avantüranı ortaya atanlar ancaq məğlub oldular, belə hallar beynəlxalq və dövlətlərarası münasibətlərdə "gizli" diplomatiya sayılır. Bu halda BMT-nin kiçik və böyük dövlətlərin bərabərliyi Bəyannaməsi öz mahiyyətini itirir. Onda belə çıxır ki, böyük dövlətlər kiçik dövlətləri alçalda, öz iradəsinə tabe etdirə və onların hüquqlarını tapdaya bilər. Məntiq belə deməyə əsas verir ki, alçaldilmış və təhqir olunmuş hər bir xalq zamanı gələndə öz ləyaqətini bərpa etməyə çalışacaq. Çox əsrlik dünya diplomatiyasının təcrübəsinə əsaslanaraq demək olar ki, dünən qalib gələn dövlət sabah məğlub olaraq alçaldılmasın.

İngilis alimi C.Kinqston-Maklori "Qlobal strategiya" əsərində yazır ki, müharibə – "dövlət siyasəti üçün bir vasitədir,

onun köməyi ilə dövlət öz məqsədinə çatır və qüdrətini möhkəmlədir". Qarabağ müharibəsində bu fikirlər lap yerinə düşür. Qlobal mənada bu müharibənin təşəbbüskarları öz avantürist məqsədlərinə çatmaq üçün dəridən-qabıqdan çıxırlar. Təşəbbüskarlar öz məqsədlərinə çatmaq üçün XX əsrin sonunda Qarabağ müharibəsini ortaya atdılar. Azərbaycanlılar və ermənilər öldülər. Nəyə görə? Azərbaycanlılar öz torpaqları və Vətəni uğrunda şəhid oldular. Bu müharibənin bizim üçün kənardan gətirildiyi aydındır. Bəs başqaları niyə ölür? Ona görə ki, siyasətbazların məkrli iddialarını həyata keçirmək istəyirlər.

Öz imperiya məqsədlərinə çatmaq üçün bəzi siyasətçilər minlərlə insanı məhv etməkdən, şəhərləri xaraba qoymaqdan belə çəkinmirlər. Başqa xalqların iradəsi və istəyi onları maraqlandırmır. Bir tarixi həqiqət var ki, hər bir kiçik və böyük dövlətin sülh və əmin-amanlıqda yaşamaq hüququ var. XX əsrdə baş vermiş iki dünya müharibəsi də məhz böyük dövlətlərin kiçik dövlətlərlə toqquşması nəticəsində baş vermişdi. Təbii ki, hər iki tərəfin burada öz marağı var. Bunları diplomatik və başqa kanallarla sivil formada həll etmək olar. Vyetnamın cənub tərəfinin arxasında amerikanlar, şimal tərəfinin arxasında isə SSRİ duraraq öz silahlarım sınaqdan keçirirdilər, nəticədə isə vyetnamlılar ölürdü. İndi Vyetnam, ancaq Vyetnam xalqına məxsusdur. Bu da tarixin bir dərsidir. Milyonlarla vyetnamlı ölsə də, öz torpaqlarını və ləyaqətini qorudu.

Sülhü saxlamaq, onu pozmaqdan çətindir. Sonra nə olacaq?

Beynəlxalq təhlükəsizlik mücərrəd anlayış deyil. Hər bir dövlətin milli təhlükəsizliyi onun ərazisinin ölçüsündən, coğrafi yerləşməsindən və əhalisinin sayından asılı olmayaraq təyin olunur. Beləliklə, beynəlxalq təhlükəsizliyi ölçü və məkanda başa düşmək lazımdır. Burada nə düşünülür? Birincisi, beynəlxalq təhlükəsizlik yerli izolə olan münaqişələrdən, insidentlərdən və toqquşmalardan asılıdır, ikincisi, beynəlxalq

miqyasından, dövlətlərarası ziddiyyətlərdən və hərbi toqquşmalardan ibarətdir. Hansını asan həll etmək olar? Yuxarıda qeyd olunanlar hər biri ayrılıqda müxtəlifdir, amma hər ikisi beynəlxalq münaqişələrə və gərginliyə səbəb ola bilər. Bu halda hər iki faktora diqqətlə yanaşmaq və vaxtında həll etmək lazımdır. Geosiyasi təhlükəsizliyi təmin etmək üçün böyük dövlətlərdən belə məsələlərə sivil yanaşma tələb olunur.

Beynəlxalq təhlükəsizliyin qorunmasında birtərəfli yanaşma və simpatiya arzuolunmazdır. Keçmişdə bu cür yanaşmalar faciələrə səbəb oldu. 1930-cu illərdə Stalinin Hitlerə olan simpatiyası nəticəsində imzalanmış məxfi müqavilələr və yaxud Qərbin Hitlerlə gizli sövdələşmələri bəşəriyyətə çox baha başa gəldi. Nəticədə 50 mln. insan öldü.

Ona görə də gərginlik ocaqlarını vaxtında söndürmək lazımdır. Bu halda hiyləgərliyə, separatizmə və dini mənsubiyyətə görə fərq qoyulmasına yer olmamalıdır. Böyük dövlətlər ümumi təhlükəsizlik naminə dar milli maraqlardan çıxış etməməlidir. Nə nəzərdə tutulur? Birincisi, beynəlxalq təhlükəsizlik yerli izolə edilmiş münaqişələrdən, insidentlərdən və toqquşmalardan asılıdır; ikincisi, beynəlxalq miqyasmdan, dövlətlərarası ziddiyyətlərdən ibarətdir. "Əsas nədir?" sualının cavabı aydındır.

Yarı yolda dayanmaq məğlubiyyət demək deyil, öz səhvini başa düşmək zərurətidir. Bu və ya digər dövləti beynəlxalq təhlükəsizliyi pozmağa vadar edən faktorlar müxtəlif ola bilər. Bir qayda olaraq, bunun üçün bir saat, bir gün bəs etmir, illər lazım olur. BMT-nin Nizamnaməsində dünyada sülhü və təhlükəsizliyi təmin etmək, beynəlxalq hüquq rejimi yaratmaq öz əksini tapmışdır. Və hər bir BMT üzvü olan dövlətin milli suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməlidir. Bu həm də Cenevrə Yekun Aktında öz təsdiqini tapmışdır.

Bu qaydalara əməl etmək hər bir dövlətin borcudur. Bir qayda olaraq, bir tərəfli inkaretmə yolverilməzdir. Əks halda bu, dünyanın bu və ya digər regionunda münaqişəyə səbəb

olur. Bənzər situasiyalarda beynəlxalq təşkilatlar gərginlik ocaqlarını söndürməli və gecikmədən reaksiya verməlidirlər. Məlumdur ki, dünya münaqişələri illərlə formalaşır və baş verir. Baş verəcək hadisəni öncədən dərk etmək lazımdır. Əks halda belə nüfuzlu və bahalı beynəlxalq təşkilata nə ehtiyac var. Deyilənləri təhlil edərkən çeçen münaqişəsi yada düşür, hansı ki, dünyanın gözü qarşısında böyüyərək müharibəyə çevrildi. Bu münaqişə öz unikallığı və bir dövlətin tərkibində baş verməsi ilə seçilir. Çeçen müharibəsinin konturlarını nəzəri olaraq bir neçə il qabaqdan da bilmək olardı. Təbii ki, məsələni silah yolu ilə, təzyiqlə, gizli hədə-qorxu ilə deyil, mədəni metodlarla, xalqların milli maraqlarını və istəklərini nəzərə almaqla həll etmək olardı. Əks hallarda qələbə və məğlubiyyət qaçılmazdır. Ona görə də XXI əsrdə heç kimə beynəlxalq təhlükəsizliyi pozmağa imkan verilməməlidir.

## ƏDƏBİYYAT:

1. Нартов Н.А., Нартов В.Н. Геополитика, М., 2007.
2. Киссинджер Г.Дипломатия. М., 1997.
3. Кингстон-Макклори О. Дж. Глобальная стратегия. М., 1959.
4. Клаузевиц К. О войне. М.,1934.
5. Дреер О.К. Глобальные проблемы и третий мир // Общемировые и региональные процессы развития, М., 1991.

## 5.2. Dünya siyasəti qloballaşma dövründə

Sivilizasiyanın inkişafı kontinentlərin, ölkələrin inkişafının müəyyən mərhələsində olan xalqların qarşılıqlı birgəyaşayışını labüd edir. Geostrateji və xırda milli məsələlərin həllinin miqyasından asılı olaraq dövlətləri aşağıdakı kimi təsnif etmək olar:

Öz milli maraqlarını bütün dünyada qorumaq imkanı olan – fövqəldövlətlər. Belə dövlət öz siyasi, iqtisadi, hərbi, ideoloji imkanlarından istifadə edərək müttəfiqlərini onun mövqeyi ilə hesablaşmağa məcbur edər. Keçmişdə Roma, Osmanlı, Britaniya imperiyaları, Hitler Almaniyası, SSRİ və ABŞ bu rola iddia edirdilər. Hazırda ABŞ fövqəldövlət olaraq qalır.

Tək qonşu dövlətlərdə deyil, Yer kürəsinin istənilən regionunda öz maraqları olan – böyük dövlətlər. Böyük dövlətlərin potensialı imkan verir ki, müttəfiqləri onunla hesablaşsın. Belə dövlətlərə Çin Xalq Respublikası və İngiltərə aiddir.

Öz milli və dövlət maraqlarını həmsərhəd ərazilərdə görən – regional dövlətlər. Belə dövlətlərin gücü mövcud situasiyaya təsir etməyə çatır, ancaq ona iqtisadi, siyasi və hərbi müstəvidə kömək etməyə çatmır. Belə dövlətlərə Rusiya, Yaponiya, Almaniya, Türkiyə və b. aiddir.

Dünyada dövlətlərarası tarazlığı saxlamaq üçün balans yaratmaq lazımdır. Müasir dövrdə buna qüvvələr balansı deyilir. Qüvvələr balansı üç formada mövcud ola bilər: bir fövqəldövlət dominantlıq etdiyi – təkqütblü unipolyar; hakim dünya dövlətləri arasında tarazlıq yaratmaqla – ikiqütblü, bipolyar; ümumi tarazlığa qarant verən bir neçə təsir və güc mərkəzləri yaratmaqla – çoxqütblü multipolyar əsasda.

Mövcud balansın pozulması həmişə qeyri-stabilliyə (destabilizasiyaya, müharibələrə, dünyanın yenidən bölüşdürülməsinə) gətirib çıxarır.

Dünyanın yenidən bölüşdürülməsi zamanı yeni oyun qaydaları çərçivəsində beynəlxalq hüquqda dünya düzəni

deyilən vəziyyət yaranır. Yeni dünya düzənində qlobal mənada dövlətlərin rolu və təsir dairəsi müəyyənləşir.

İlk rəsmi dünya düzəni Vestfal sistemi olmuşdur. Bu, Avropada otuz illik müharibənin bitməsi ilə əlaqədar 1648-ci ildə öz hüquqi həllini imzalanmış sənədlərdə tapmışdır. Onun baza prinsipi ideyasına uyğun olaraq, müəyyən olunmuş ərazilərdə mütləq hökmranlıq etmək hüququ verilirdi. Bu isə o demək idi ki, kənar qüvvələrin bu ərazidə hakimiyyəti ola bilməzdi (əsasən, monarxm). Dövlətlərarası əlaqələr bu sxem üzrə qurulmağa başladı "əməkdaşlıq-rəqabət-neytrallıq". Faktiki olaraq bu güc mərkəzlərinin tanınması idi. Kiçik dövlətlər isə bu, güc mərkəzlərinə istinad edirdilər. Dövlətlərarası ittifaqın, əlaqələrin və təsir dairələrinin yaranması belə baş verdi. Vestfal sistemi Böyük Fransa inqilabına qədər davam etdi. Napoleon müharibələri isə Avropada dünya düzənini tam dəyişdi.

Məlum olduğu kimi, 1813-cü ildə Napoleonun məğlubiyyətindən sonra Vyana sistemi adlanan yeni dünya düzəni yarandı. 1814-ci ildə Vyana konqresində hüquqi cəhətdən təsdiq edildi. Böyük Avropa dövlətləri (İngiltərə, Avstriya, Fransa, Rusiya və Prussiya) Avropa monarxlarında və dövlət sərhədlərində stabilliyə zəmanət verirdilər. Vyana sistemi Birinci Dünya müharibəsi başa çatdıqdan sonra yeni güc mərkəzləri (ABŞ və Yaponiya) yeni ideya irəli sürdülər. Bundan başqa daimi fəaliyyətdə olan, Yer kürəsində sülhü qoruyacaq bir orqan – Millətlər Liqası ideyası ortaya atıldı. 1939-cu ildə İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar bu sistem süquta uğradı.

Hitlerin "yeni qaydası" ilə SSRİ, ABŞ, İngiltərə və Fransanın ordularının iştirakım nəzərdə tutan Podstam sülh müqaviləsi sistemi imzalandı. Böyük dövlətlərin Yaltada bağlanmış müqaviləsinə əsasən iki fərqli sosial-iqtisadi sistemin təsir dairələri müəyyən olundu. Bununla da hər iki fövqəldövlət (SSRİ və ABŞ) bir-birinin təsir dairəsi hüququnu tanıyır. 1944-cü ildə beynəlxalq orqan olan – Birləşmiş Millətlər Təşkilatı

(BMT) yarandı. Nüvə silahının yaranması dünyada güc balansı tarazlığım pozdu. ABŞ doktrinası ilə SSRİ-nin, SSRİ doktrinası ilə ABŞ-ın təsir dairələri müəyyən edildi. Avropanı bölən Berlin divarları isə “soyuq müharibə” erasınm rəmzinə çevrildi.

Sosialist düşərgəsinin və SSRİ-nin dağılması Potsdam sisteminin dağılması ilə nəticələndi. SSRİ-nin geosiyasi varisliyi uğrunda mübarizə başlandı. Bu gün milli dövlətlərin suverenliyi şübhə altına alınır. “Məhdud suverenlik”, “Humanitar intervensiya hüququ”, “Beynəlxalq hüquqda insan hüquqlarının qorunması” kimi ideyalar yarandı. Məhz belə ideologiya pərdəsi altında Əfqanıstanda, Yuqoslaviyada və İraqda müharibə başlandı. İndi belə çıxır ki, heç bir dövlət özünü toxunulmaz hesab edə bilmir. Yeni dünya düzəni ABŞ başda olmaqla unipolyar sistemə keçir. Bu rola Birləşmiş Avropa, Çin və Yaponiya iddia edirlər.

Dünyada müharibədən sonrakı dövrdə ikili proses gedir. Hər ikisi də bir-birinə əks tendensiya ilə. Bir tərəfdən inteqrasiya və mərkəzdənqaçma, digər tərəfdən isə dezinteqrasiya və mərkəzəqaçma meyilləri baş verir. Beynəlmiləlçilik iki əsas meyldə özünü büruzə verir: qloballaşma və regionlaşma. Bu nöqteyi-nəzərdən XX əsrin II yarısmı 2 mərhələyə bölmək olar.

Birinci mərhələ – 1940-cı illərin ortalarından – 60-ci illərin ortalarınadək davam etmiş mərhələdir. Bu illərə mərkəzdənqaçma tendensiyaları xasdır. Müstəmləkə imperiyaları dağılaraq yeni müxtəlif müstəqil dövlətlər yaranır. Bu tendensiya spesifik mahiyyət kəsb edirdi.

İkinci mərhələ – 1960-cı illərin sonu 70-ci illərin ortalarım əhatə edir. Bu zaman mərkəzəqaçma tendensiyaları üstünlük təşkil edirdi. Nəticədə Şərqi və Qərbi Asiyanm sənaye potensialı artaraq iqtisadi və siyasi inkişafa səbəb oldu. Beləliklə, Şərq qüdrətlənərək Qərb yarımkürəsinə təsir etməyə başladı. Buna sübut kimi 1980-ci illərin sonu 90-cı illərin əvvəllərində SSRİ-nin dağılmasım göstərmək olar.

Sual olunur: Niyə məhz siyasi təşkilatlar, böyük dövlətlər və imperiyalar çay hövzələrində və dəniz sahillərində mərkəzləşiblər (Mesopotamiya və Qədim Misir, Hindistan və Çin, Karfagen, Roma, Bizans, Osmanlı imperiyaları). Dəniz kommunikasiyalarının və dənizçiliyin inkişafı bu ərazilərdə yerləşən dövlətlərə dünya siyasətində üstünlük verdi. Böyük coğrafi kəşflər Avropadan Hindistana və Şərqi Asiyaya getmək üçün ticarət yollarını açmağa kömək oldu. Təsadüfi deyil ki, türklərin Kiçik Asiyadan və Suriyadan keçməklə Şərqə gedən yolu tam bağladığı vaxt diqqət Atlantikə yönəlmişdi. Böyük coğrafi kəşflər, şübhəsiz, böyük sosial-iqtisadi, siyasi, geosiyasi və psixoloji məna kəsb edirdi.

Yeni ticarət yollarının açılması yeni dövlətlər və xalqlar üçün dünyəvi mahiyyət daşımağa başladı və kapitalizm münasibətləri mərkəzə doğru yayılmağa başladı.

Ticarət yollarının Aralıq dənizindən Atlantik okeanına tərəf dəyişməsi Avropa ölkələrində (İtaliyada, Almaniyanın bir hissəsində) iqtisadi tənəzzülə, digər tərəfdə (Hollandiyada və İngiltərədə) isə inkişafa səbəb oldu. Yeni coğrafi kəşflər əhalinin yerdəyişməsinə, yeni dövlətlərin və Avropa müstəmləkə imperiyasının yaranmasına səbəb oldu.

Sənayedə baş verən inqilab, dəmir yolu nəqliyyatında və quru yollarda olan inkişaf yeni düzəlişlər etmək zərurəti yaratdı. Məhz dəmir yolu nəqliyyatının inkişafı Almaniya, ABŞ və Rusiya kimi imperiyaların yaranmasına səbəb oldu.

Süveyş və Panama kanalının inşası xüsusi əhəmiyyətə malik idi. Süveyş kanalı Aralıq dənizi ilə Sakit okeanı birləşdirdi. Panama kanalı isə Atlantik okeanı ilə Sakit okean arasındakı məsafəni kifayət qədər qısaltdı.

İnsanlar Yer kürəsində dəniz, dəmir yolu və avtomobil yollarını fəth etdikdən sonra hava və kosmik fəzanı fəth etməyə başladılar. Aviasiyanın inkişafı və meydana gəlməsi nəticəsində isə bəşəriyyətin geosiyasi strukturunda yeni düzəlişlər yarandı.

Nüvə silahının yaradılması və Yer kürəsinin hər hansı bir yerinə daşınması asanlaşdı. Müasir dövrdə hərbi-siyasi nöqteyi-

nəzərdən kosmos quru və dənizdən az əhəmiyyət kəsb etmir, əksinə daha vacib rol oynayır.

Dövlətlər və xalqlar arasındakı münasibət kəskin surətdə dəyişdi. İqtisadiyyata, texnologiyaya, informasiyaya və telekommunikasiyaya nəzarət edə biləcək yeni transmilli nəzarət formaları əmələ gəldi. Müasir texnologiyanın gücü qarşısında heç bir divar, maneə və sərhəd tab gətirmir. Belə olan halda, müasir dünyada Makinder formulunun tətbiqi nə dərəcədə hüquqidir: "Avrasiya hartləndinə nəzarət edən, bütün dünyaya nəzarət etmiş olur". Bu isə o deməkdir ki, Şimali Amerika və Asiya-Sakit okean ölkələri periferiya vəziyyətinə düşür.

XX əsrin ikinci yarısı dünyada inteqrasiya tempinin artması ilə xarakterizə olunur. Xüsusilə, bu özünü SSRİ-nin və sosialist düşərgəsinin dağılmasında göstərdi. Müharibədən sonrakı illərdə və "soyuq müharibə"dən sonra yaranan qapalı hərbi-siyasi ideologiyaya söykənən bloklar və ittifaqlardan fərqli olaraq, qloballaşma milli və ideologiya konsepsiyalarını arxa plana sıxışdırdı.

Burada əsas rolu qloballaşmanın özəyini təşkil edən iqtisadi faktor oynayır. Bu halda ideologiya, siyasət və milli maneələr arxa plana keçir, ilk baxışda elə görünür ki, dünyada yenə də iqtisadiyyat əsas rol oynayır. Bu gözəgörünməz hal inkişaf etmiş ölkələrin iqtisadiyyatına daxil olur. Bu, hər şeydən əvvəl Amerika qitəsi ölkələrinə aiddir: ABŞ, Kanada, Braziliya və Çiliyə; Avropada: Almaniya, Fransa, İngiltərə, İtaliya, Belçika, İsveç və Hollandiyaya, Asiyada: Yaponiya, Cənubi Koreya, Malayziya, İndoneziya, Tayland və Sinqapura; Afrikada: Misir, Cənubi Afrika Respublikası və başqalarına. Təbii ki, bu göstərici qloballaşma dövründə dəyişə bilər.

Qloballaşma – maliyyə bazarlarının genişlənməsini, texnologiyaların yayılmasını, informasiya və elmi-texniki biliklərin artmasını, dünya ticarətinin liberallaşmasını, ümumdünya keyfiyyət standartının yaradılmasını özündə birləşdirən çoxpilləli və çoxsahəli bir prosesdir.

Qloballaşma XX əsrin sonu və XXI əsrin beynəlxalq münasibətlərin inkişafında xüsusi əhəmiyyət kəsb edir. Qloballaşma könüllü yaxud məcburi olaraq dünya sənaye nəhənglərinin, bankların və ölkələrin bir xətt üzrə inkişaf etməsini diqtə edir. Qloballaşma – dövlət strukturları ilə deyil, maliyyə-bazar münasibətləri ilə müəyyənləşən bir prosesdir.

Beləliklə, dünya iqtisadiyyatı inteqrasiya edərək bütövləşir. Nəticədə, elmi-texniki yenilikləri və iqtisadiyyatı idarə edə biləcək vahid beynəlxalq sistem yaranır. Bu halda ortaya sual çıxır: Bu, kimin və nəyin hesabına baş verir? Problemin mahiyyəti tək onda deyil ki, texnoloji faktorlar həlledicidir. Təbii sərvətlərin, intellektual güclərin, insan beyninin məhsulu faktoru zəruridir.

Qloballaşma sanki qitələrin, ölkələrin, xalqların onların mədəniyyətinin və dillərinin təbii yolla yaxınlaşmasma kömək edir. Bu isə özlüyündə dövlətləri yazılmamış qanunlarla bir-birinə bağlayır. Digər tərəfdən informasiya və informasiya texnologiyaları sanki yer kürəsini daraldır. O imkan verir ki, yeni ixtiralar dünyanın hər bir guşəsinə tez çatdırılsın.

Müasir yeni informasiya vasitələri müxtəlif qitələrdə yerləşən ölkələrin yaxmlaşmasına və əlaqələr qurmasıa imkan yaradır. Müasir texnoloji vasitələrin köməyi ilə informasiyaları bir neçə saniyəyə Yer kürəsinin istənilən yerinə ötürmək olur.

Bunu Moskva Milli və Regional Münasibətlər İnstitutunun rektoru, görkəmli alim, fəlsəfə elmləri doktoru V.L.Kalaşnikov da təsdiq edir: "Dünyanı beynəlxalq beynəlmiləl mondialist-maliyyə oliqarxiya idarə edir". Bunun mahiyyəti ondan ibarətdir ki, qloballaşma əsrində, beynəlxalq iqtisadiyyatın inteqrasiyası zamanı heç kim öz mövqeyini itirmək istəmir və aparıcı rola iddia edir.

Göründüyü kimi, qloballaşma o qədər də gözə çarpmayan dövlətləri də ön plana çıxarır. Özünü "böyük" və "aparıcı" hesab edən dövlətlər öz mövqeyini tədricən itirirlər. Nəticədə, avtomatik olaraq beynəlxalq münasibətlərdə münaqişəli

situasiyalar yaranır. Deyilənləri 2003-cü ildə İraq ətrafında baş verən hadisələr sübut edir. NATO-nun aparıcı dövlətləri ABŞ, Böyük Britaniya və Fransa-Almaniya arasında olan fikir ayrılığını nümunə olaraq göstərmək olar. Vahid hərbi-siyasi və iqtisadi ittifaqda olmalarına baxmayaraq, qloballaşmada dövlətlər öz milli, iqtisadi, siyasi və ideoloji maraqlarından çıxış edir. Hər bir dövlət mütləq hakim və lider olmağa çalışır. Deyilənləri təsdiq etmək üçün Avropa İttifaqı və "Şengen kriteriyalarına" istinad etmək lazımdır. İlk baxışda sərhəd və vahid valyuta yoxdur. Bu ilk baxışda belədir, ancaq hər bir dövlət hər an "avro"dan öz marağı naminə imtina edə bilər. Qloballaşma şəraitində bazar iqtisadiyyatının inkişafı məntiqlə bax belədir.

Bəs gələcəkdə bəşəriyyəti nə gözləyir? Hazırda maliyyə bazarı qloballaşmada yüksək templə inkişaf edir. Kapitalın qlobal inkişafı 3 əsas hissədən ibarətdir: birinci, maliyyə-kredit axını (idxal-ixrac əməliyyatları), ikincisi, birbaşa xarici investisiyalar, üçüncüsü, qiymətli kağızlar, müəssisələrin aksiyası və s. Qeyd etmək lazımdır ki, başqa dövlətlərə verilən kreditlər və investisiyalar da qlobal kapital axını sayılır. Belə maliyyə axını beynəlxalq maliyyə mərkəzləri, birjaları və transmilli şirkətlər tərəfindən həyata keçirilir. Nyu-York, London, Tokio, Frankfurt, Paris, Sürix, Milan, Sinqapur və s. belə mərkəzlərdəndir.

"ABŞ malıdır", "Yapon malıdır", "Alman malıdır"kimi etiketlər artıq həqiqəti əks etdirmirdi. Məhsullar özünün "milliliyini" itirdi. Bir çox məhsullar xarici filialların və dövlətlərin kiçik biznesinə çevrildi. XX əsrin sonlarında Avropa bazarlarında istehsalçı ölkənin adı deyil, sadəcə" "Avropa malı" və yaxud "Avropa İttifaqı" indeksi göstərildi.

Bununla da qloballaşma vahid forma almağa başlayır. İqtisadiyyat bununla da mədəniyyəti və siyasəti arxasınca aparmağa başlayır.

1995-ci il sentyabr ayında San-Fransisko şəhərində 500 nəfər görkəmli alim, diplomat, biznesmen və hərbi xadimlərin beynəlxalq konqresində bu təsdiq olunmuşdur. Sovet İttifaqı

Kommunist Partiyasının baş katibi və sonralar sonuncu baş katib olmuş M.S.Qorbaçov qurultayda çıxış edərək XXI əsrdə "yeni sivilizasiya"nın yollarını göstərdi.

"Qlobal Beyin Tresti" adlandırılan qurum dünyada təşkilatçılara hələlik məlum olmayan mücərrəd qloballaşmanı beynəlmiləl edirdi. Konqres iştirakçıları "Dünya dövlətləri qloballaşma bayrağından ucadır" kimi şüar irəli sürdülər. Bütün milli mənafelər kənara qoyulmalı, qloballaşma çətiri altında gedilməlidir. Bu mənada onlar birgə hərəkət edirdilər. Hər şey arxa plana keçirdi. Qloballaşma prosesində təbii ki, liderlər də olmalıdır. Onlar həmişə mövqelərinin bərabər olmasına çalışacaqlar. Qloballaşma prosesində bu təhlükəni görmək lazımdır. Bu cür inkişaf isə planetin müxtəlif yerlərində elit dövlətlərin yaranmasına gətirib çıxara bilər.

Müasir inkişaf tempi onu deməyə əsas verir ki, XXI əsrin ortalarında lider dövlət ənənəvi dövlətlər deyil, Çin Xalq Respublikası, İndoneziya, Koreya Respublikası və Tayland kimi dövlətlər olacaq. Digər tərəfdən ABŞ, Almaniya, Yaponiya və b. ənənəvi dövlətlər də liderliyə can atacaqlar. Qloballaşmanın meyvəsi kimi bu yarış bir tərəfdən stabilliyə, qüvvələr balansının bərabərliyinə xidmət edəcəksə də, digər tərəfdən qitələr və ölkələr arasında əlaqələrin soyumasına gətirib çıxaracaq. Bununla da aparıcı dövlətlər ayrı-ayrılıqda öz inkişaf yolunu axtarmağa başlayacaq. Görkəmli amerikan alim V.Meys bunu belə xarakterizə etmişdi: "Zaman gələcək ki, Amerika da öz yolu ilə gedəcək". Bu mümkündür və realdır.

Qloballaşan dünyada hadisələrin belə inkişafı böyük dövlətlərin öz yolu ilə getmələrinə səbəb olacaq. Realhqda isə dünya nailiyyətlərinə sahib olan dövlət başqa dövlətlərə necə yaşamağı diktə edəcək. Belə inkişaf beynəlxalq əlaqələri bəşəriyyətdə sonu bilinməyən nəticəyə gətirib çıxara bilər. Belə hallara yol verməmək üçün BMT öz nüfuzundan və rolundan səmərəli istifadə etməlidir. Ancaq bu halda, XXI əsrdə müasir beynəlxalq əlaqələr yaxşılaşa bilər.

Digər tərəfdən, qloballaşma prosesində, xüsusilə onun liderləri geridə qalan dövlətlərə yardım etməklə arada olan ziddiyyətləri aradan qaldıra və nəticə etibarilə müasir beynəlxalq əlaqələrdə stabillik yarada bilərlər.

## ƏDƏBİYYAT:


1. "Вашингтон пост", 1995, 28 сентября.
2. Калашников В.Л. Славянская цивилизация. М., 2000.
3. Мартин Г.П. и Шуман Х. Западная глобализация. Атака на процветание и демократию. М., 2001.
4. Международные отношения / Под ред. П.А.Цыганкова. М., 1996.
5. "Economist", May, 13, 2000.
6. Maynes Ch.W. America Fading Commintments. ("World Policy Journal", Summer, 1999.
7. "The National Interest", Spring, 1999.

## 5.3. İqtisadi diplomatiya və onun beynəlxalq əlaqələrdə rolu

Çoxəsrlik tarixə nəzər salsaq, müasir şəraitdə iqtisadi diplomatiyanın funksiyasının çətinləşdiyini görərik. Hələ orta əsrlərdə, sənaye inqilabına qədər Venesiya, Barselona, Genuya və s. şəhərlərdə beynəlxalq maliyyə institutları mövcud idi. "Müstəmləkə ekspedisiyaları"nda tez-tez böyük banklar kreditor rolunda çıxış edirdilər. Monarxiya rejimi olan Böyük Britaniya, Hollandiya, İspaniya və Portuqaliyada öz xarici ticarətini və ölkələrinin siyasi maraqlarını qoruyan bir neçə ticarət şirkətləri yaranmağa başladı.

XIX əsrin ikinci yarısından başlayaraq, əsas diplomatiya kapitalın gətirilməsinə yönəldi. Bütün bunlar aparıcı analitiklərin əsərlərində öz əksini tapmışdır. Amerika müəllifləri olan S.Nirinq və D.Fridmanın "Dollar diplomatiyası" əsərində deyilir ki, "iqtisadi güclər gec-tez siyasət sahəsində də uğur qazanacaq. Kapitalın xaricdə yerləşdirilməsi zaman gələcək xarici siyasəti də dəyişdirəcək". Monoqrafiyada ABŞ-ın Yaxın Şərqdə "həyati maraqlarının qorunması"nın siyasi, iqtisadi və hərbi yolları araşdırılır. Müəlliflərə görə, silahlı qüvvələrlə iki məqsəd güdülür: birincisi, iqtisadi maraq olan ölkənin siyasi həyatında fəal rol oynamaq və ikincisi, düşmənlərin bu ölkəyə hücumu zamanı öz kapitalını qorumaq.

Hilferdinqin əsərlərində iqtisadi diplomatiya zamanı öz milli iqtisadi maraqlarının qorunması haqqında deyilir: "İndi diplomatiyanın vacib funksiyalarından biri maliyyə kapitalı nümayəndəliyinin yaranmasıdır". Hobson yazırdı: "Böyük Britaniyanın müasir xarici siyasəti, onun kapitalının əlverişli bazarda yerləşdirilməsindən ibarətdir". Bu, 50 il sonra, V.Uilyamsın araşdırmalarında da öz əksini tapıb, diplomatın işinin böyük hissəsini öz ölkəsi üçün doğru-dürüst informasiyaları toplamaq və ötürmək təşkil etməlidir. Əvvəllər bu

informasiyaları almaq o qədər də asan olmurdu. Toplanmış materiallardan doğru nəticə çıxarmaq bacarığı lazımdır. Öz ölkəsində yaşayanlar xüsusi informasiyalar toplaya bilməzlər. Onlar ancaq başqa ölkələr haqqında kütləvi informasiya vasitələrindən məlumat ala bilərlər. Diplomatik fəaliyyətdə iqtisadi maraqların təzyiqi ilə bir sıra qaçılmaz dəyişikliklər baş verirdi. Bu fakt Erik Klarkın əsərində də öz əksini tapmışdır.

Öz iqtisadi maraqlarını qorumaq üçün informasiya vasitələrindən başqa ölkələrin daxili işlərinə də qarışırdılar. Bu halda "diplomatik müdafiə" prinsipindən istifadə olunurdu.

İngilis diplomatı V.Hayter bunu dəqiq qeyd edirdi. Böyük dövlətlərin iqtisadi diplomatiya praktikasını təhlil edərkən, burada diplomatik yeniliklərin tətbiqini zəruri sayırdı. Bunun ardınca, amerikalı diplomat C.Harr qeyd edirdi ki, iqtisadiyyatın problemləri ilbəil daha çox diplomatiya obyektinə çevrilir. Diplomatik xidmətlər bu dəyişiklikləri və gərginləşmələri birmənalı qarşılamırdılar. Digər tərəfdən, xarici siyasi kurs üçün iqtisadi diplomatiyanın imkanları artırdı. Bu halda peşəkar diplomatlar çətinliklərlə üzləşdiklərini dilə gətirirdilər. Təbii ki, bu cür təkamül prosesi xarici siyasət kadrları qarşısında yeni tələblər qoyurdu.

İlk vaxtlar iqtisadi diplomatiya problemlərini həll etmək üçün xarici siyasət işlərinə birbaşa biznesmenləri cəlb etməklə həllinə səy göstərirdilər. 1960-cı illərdə Böyük Britaniyada "Diplomatik Xidmətin İslahatları" məruzəsində deyilirdi ki, məsələn, hər bir səfir və ali komissar mütləq kommersiya işlərində işləməlidir. Səfirlər və komissarlar kommersiya işlərini öz fəaliyyətlərinin ən ali məqsədi və missiyası hesab etməlidirlər.

Təəssüflə demək lazımdır ki, bu gözlənilən nəticəni vermədi. "Diplomatik qiyafəli" biznesmenlər bu işin öhdəsindən gələ bilmirdilər. Hətta onlar öz maraqları üçün rəqabət aparan qruplarla da üzləşirdilər.

Beləliklə, hər bir dövlət öz iqtisadi diplomatiyası sahəsində yeniliklər etməyə məcbur oldu: xarici işlər nazirliyi öz

funksiyasını genişləndirməyə başladı; iqtisadi və sosial sahədə beynəlxalq fəaliyyətlə məşğul olan dövlət qurumlarının və təşkilatların sayı artırıldı; beynəlxalq valyuta-kredit əlaqələrini gücləndirmək üçün dövlətlərarası təşkilatların fəaliyyəti aktivləşdirildi; beynəlxalq səviyyədə milli və xüsusi təşkilatlara siyasi dəstək genişləndi.

Xarici siyasi xidmət əməkdaşları beynəlxalq mövqelərini və milli biznes maraqlarını təmin etmək üçün bəsit lobbiçilik metodlarından da istifadə etməyə çalışırdılar. Misal üçün, "Uol Street journal" 1997-ci ilin yanvar ayında yazırdı ki, Amerikanın Bonndakı səfiri C.D.Bindengel açıq-aşkar "Makdonalds" firmasını alman istehlakçılarına təqdim edirdi. Bu haqda yerli mətbuatda, səfir Amerika bayrağı fonunda "Makdonalds"la üzbəüz oturaraq hamburger yediyi səhnə təsvir olunmuşdu. Material "Biq Makın diplomatiyası" başlığı kimi verilmişdi. Ancaq materiala şərh başqa cür verilmişdi. Ticarət diplomatiyasının ünvanına söylənmiş xoş sözlərlə yanaşı peşəkar səfirlərin tənqidi qeydləri də yazılmışdı. Amerikanın Yuqoslaviyadakı səfiri bu haqda öz fikrini bildirərkən bu metodun yol verilməz olduğunu bildirmişdi. Amerikanın Yeni Zellandiya və Malayziyadakı səfiri Pol Klivled isə deyirdi: "Amerikanın dünyada ticarət maraqlarını qorumaq üçün xarici dövlətlərə bizim gündəlikdə duran məsələləri çatdırmaq lazımdır. Biznesə olan bu cür dəstək ABŞ-ın milli maraqlarına və təhlükəsizliyinə xidmət edərdi."

Dünyada elə bir siyasi xadim tapmaq olmaz ki, öz ölkəsinin siyasi təhlükəsizliyinin və milli maraqlarının beynəlxalq aləmdə qorunmasında iqtisadiyyatın-ticarətin rolunu inkar etsin. Amerikanın keçmiş Xarici İşlər Naziri M.Olbrayt, senatda beynəlxalq əlaqələr komitəsinin sədri C.Helms və Amerikanın Avropa İttifaqındakı səfiri A.Vernona Vivera da bu mövqedən çıxış edirdilər. Bu fikirlər ABŞ-ın eks-prezidenti B.Klintonun çoxsaylı çıxışlarında da öz əksini tapmışdır. ABŞ-ın iqtisadi diplomatiya sahəsində artan rolunu təsdiq edən

çoxsaylı mülahizələr var. Bunu Avropa İttifaqının keçmiş sədri R.Prodi 2004-cü ilin sentyabr ayında Azərbaycanda rəsmi səfərdə olarkən onun fikirlərində də sezmək olardı.

İqtisadi diplomatiyada dəyişikliklərə təsir edə biləcək faktorların olmasını əsaslandırmaq olar. Təkamülün və dinamik dəyişikliklərin təsiri altında sinfi struktur və buna paralel olaraq, təbii ki, ölkənin sosial-iqtisadi mənzərəsi dəyişir, kapitalın rolu artır və bu əsasda yeni beynəlxalq əmək bölgüsü yaranır.

Diplomatın işi onun "komanda"sında olan yüksək səviyyəli, peşəkar və işgüzar əməkdaşlardan çox asılıdır. Diplomatların fəaliyyətinin əsasını hökumətin təlimatları tutur. Diplomat öz hökuməti tərəfindən verilən təlimatları diplomatik fəaliyyətində tətbiq etmək bacarığına malik olmalıdır. O, öz işinin uğurlu nəticəsi üçün qarşısına çıxan bütün məsələlərdə savadından, biliyindən və taktikasından məharətlə istifadə etməyi bacarmalıdır.

Qeyd olunan inkişaf və yeniliklər diplomatiya, iqtisadi diplomatiya, o cümlədən, dövlətlərin konkret məsələlərinin həllində dövlət siyasətini həyata keçirmək üçün bir vasitə olaraq qalır.

BMT-nin Nizamnaməsindəki iqtisadi diplomatiyanın siyasi standartların müasir dünya birliyi sistemində iqtisadiyyatla siyasətin təmərküzləşməsi kimi qəbul etmək olar. BMT Nizamnaməsinin Preambulasında (girişində) deyilir: "... gələcək nəsilləri müharibələrdən qorumaq üçün insan haqları əsas götürülməli, insan ləyaqəti və şəxsiyyəti qorunmalı, böyük və kiçik millətlərə bərabərlik verilməli və bununla da böyük azadlıq mənasında, beynəlxalq hüquqda öz əksini tapmış ədalət prinsipi qorunmalıdır". Bu məqsədlərə nail olmaq üçün beynəlxalq aparat bütün xalqların sosial və iqtisadi inkişafına çalışmalıdır.

Dünya bazarında qlobal "oyun qaydaları"nın tətbiqi vacib sayılmalıdır. Bu məsələyə bir neçə aspektdən yanaşmaq lazımdır. Beynəlxalq iqtisadi əlaqələrin ayrı-ayrı formalarının inkişafı, "rəqabətə davamlılığın" effektivliyinin yaranması və s.

Bu məqsəd hələ 1994-cü ildə ümümmilli lider Heydər Əliyev tərəfindən imzalanmış və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən "Əsrin müqaviləsində" öz əksini tapmışdır. Azərbaycan xarici siyasətində milli maraqlarından çıxış edərək, ölkənin siyasi və iqtisadi qüdrətinin inkişafına çalışır. Bu halda Azərbaycan qonşu dövlətlərin maraqlarını şübhə altına almadan, ziddiyyət yaratmadan öz məqsədinə doğru irəliləyir. Azərbaycan diplomatiyası əməkdaşlıq və bərabərlik prinsipinə sadiqdir, qonşu dövlətlərlə və təşkilatlarla bütün məsələlərdə konstruktiv mövqedən çıxış edir. Azərbaycan bütün dünya dövlətləri ilə bu prinsipdə iqtisadi diplomatiyasında ardıcıl olaraq sadiq qalır.

## ƏDƏBİYYAT:


1. Дипломатия современного империализма. Люди, проблемы, методы. М. 1969.
2. Организация Объединенных Наций. Основные факты. М., 2000.
3. Рихард Заллет. Дипломатическая служба. Ее история и организация во Франции, Великобритании и Соединенных Штатах. М., 1956.
4. Скотт Ниринг и Джозеф Фримэн. Дипломатия доллара. Ленинград. 1926.
5. Harr J. The Professional Diplomat. 1969.
6. Hauter W. The diplomacy of the Great Powers. L. 1961.

## 5.4. Ekoloji təhlükəsizlik dünya ölkələrini narahat edən əsas problem kimi

Uzun illərdir ki, ətraf mühit insan fəaliyyətini təmin edir və onun inkişafına imkan yaradır. XX əsrin 50-ci illərindən etibarən çətinliklər yaranmağa başladı. Bir tərəfdən ətraf mühitə təsirlərin fərqli ölçülərə keçməsi, digər tərəfdən qarşılıqlı asılılığın artması və dünyanın qloballaşması, yəni, dünyanın bir tərəfində baş verənlərin digər tərəfində baş verənlərə təsir etməsi ekoloji problemi ön plana çıxarır.

Həmin vaxtdan etibarən mübahisələr davam etməkdədir, ekoloji təhlükə böyükdür. Bəziləri qeyd edirlər ki, bu problem şişirdilir, bəziləri isə həyəcan təbili çalırlar. Hər iki tərəf bu fikirlə razıdır ki, iqtisadi inkişaf öz ardınca arzuolunmaz nəticələrə də aparır. Amma optimistlər bildirir ki, müasir elm və texnika, beynəlxalq əməkdaşlıq vasitəsilə bəşəriyyət ekoloji problemlərin öhdəsindən gələ bilər. Əksinə pessimistlər belə hesab edirlər ki, dövlətlərin milli maraqları və ayrı-ayrı korporasiyanın iqtisadi tələbatı abstrakt ümumi maraqlardan daha güclüdür.

Mütəxəssislər nəyə görə ekoloji problemin belə qabarması səbəblərini göstərirlər? Müəlliflərin bir neçəsi bunu əhali sayının artımında yaranan çətinliklərlə izah edirlər. Bəziləri bunu siyasətlə əlaqələndirirlər. Ətraf mühitin qorunması əvvəllər dövlətin daxili işi kimi qeyd olunurdu. Sonra bir sıra ölkələrdə texnogen fəlakətlər bu problemi ölkədaxili sərhədlərdən kənara çıxardı. Ətraf mühitin qorunması ilə bağlı qanunvericilik aktı qəbul etmiş ilk dövlətlərdən biri Böyük Britaniyadır (1956-cı il). Sonra 1970-ci illərdə bir sıra dövlətlər ətraf mühitin qorunması ilə bağlı xüsusi departamentlər və nazirliklər təsis etdirlər.

Problemin aktuallığı ekologiya ilə məşğul olan qeyri-hökumət təşkilatlarının yaranmasını fəallaşdırdı. 1970-ci ildən BMT ekoloji problemlə intensiv məşğuldur. 1972-ci ildə Stok-

holmda BMT-nin ətraf mühitlə əlaqədar ilk konfransı keçirilir və "Ətraf mühit üzrə BMT proqramı" qəbul olunur.

Atmosferin çirklənməsi əsas ekoloji problemlərdən biridir. Bu gün atmosferi ən çox çirkləndirənlər sırasında ABŞ, ondan sonra Çin, Avropa ölkələri və Rusiya göstərilir.

Beynəlxalq Səhiyyə Təşkilatının məlumatına görə 1 milyarda yaxın adam həyat üçün yararlı olmayan yaşayış məskənlərində yaşayır (Mexiko, Bombey, Santyaqo, Kəlküttə daha çox çirklənmiş sahələr hesab olunur). Atmosferin çirklənməsi digər ekoloji nəticələr verir.

Tədqiqatçılar son zamanlar baş verən istiləşmənin səbəbini araşdırmaqda ümumi fikrə gələ bilmirlər. İstiləşmə ölkələrə müxtəlif cür, fərqli təsir edir. Bəziləri istiləşməni dünya okeanmm səviyyəsinin qalxması ilə izah edirlər.

İqlimin dəyişməsilə bağlı 1988-ci ildə Torontoda konfrans keçirilmişdir. 1997-ci ilin dekabrında Kiotoda (Yaponiyada) Kioto protokolu qəbul edilmişdir. O, iqlim dəyişikliklərinə dair BMT-nin Çərçivə konvensiyasına əlavə olaraq qəbul edilmişdir. O, inkişaf etmiş və keçid iqtisadiyyatına malik olan ölkələrdə 1990-cı illə müqayisədə 2008-2012-ci illərdə atmosferə buraxılan tullantı qazların azaldılmasını və ya stabilləşdirilməsini nəzərdə tutur.

26 mart 2009-cu il üçün Protokol dünyanın 181 ölkəsi tərəfindən ratifikasiya edilmişdir. Bu ölkələr atmosferə atılan qazlara görə dünya üzrə 61% təşkil edir. Bu siyahıda ABŞ yoxdur. Protokolun həyata keçirilməsinin birinci mərhələsi 2008-ci il yanvarın 1-dən başlamışdır və 21 dekabr 2012-ci ilə qədər davam edəcək. Daha sonra isə onun yeni razılaşma ilə əvəzlənəcəyi gözlənilir. Kioto protokolu tənzimləmənin bazar mexanizmlərinə əsaslanmaqla ətraf mühitin qorunması üzrə ilk qlobal razılıq olmuşdur. Yəni burada atmosferə atılan tullantıların kvotalarının ticarəti nəzərdə tutulur. Məhdudlaşdırmaların əsas məqsədi atmosferə buraxılan zərərli qazların səviyyəsinin 1990-cı illə müqayisədə 5,2%-ə qədər endirilməsidir. Əsas sənaye ölkələri,

əsasən də istilik effekti verən qazların tullantılarını Aİ -8%, Yaponiya və Kanada – 6%, Rusiya və Ukrayna isə 2008-2012-ci illərdə orta illik tullantıları 1990-cı il səviyyəsində saxlamağı öz üzərlərinə öhdəlik götürdülər. Çin və Hindistan da daxil olmaqla bəzi ölkələr öhdəlik götürmədilər. Əsas məqam ondan ibarət idi ki, əgər hər hansı bir dövlət bu öhdəliyi yerinə yetirə bilməzsə, digər dövlətlərin kvotasından istifadə edə bilər.

1980-ci ildən etibarən Yerin ozon qatının azalması problemi daha bir həyəcandır. Antarktida üzərində ozon dəliyinin yaranması ilə bağlı 1987-ci ildə Monrealda konfrans keçirilir, Monreal protokolu qəbul olunur. 24 sənaye ölkəsi burada iştirak edir. 1990-cı ildə imzalanan London protokoluna əsasən xlorftor kömürünün sənayedə istifadəsinin 50% azaldılması nəzərdə tutulur. Yenə də problem inkişaf etmiş ölkələrlə bağlı yaranır. Belə bir fikir də söylənilir ki, ozon dəliyinin yaranmasma səbəb heç də insan fəaliyyəti deyil, astrofiziki prosesdir və buna arqument kimi ozon dəliyinin məhz insan fəaliyyəti olmayan Antarktida üzərində yarandığını göstərirlər.

Bundan əlavə, turşuluğu çox olan yağışları atmosferin çirklənməsilə əlaqələndirirlər. Bu da planetin bitki və heyvan aləminə mənfi təsir edir. Bunu ilk dəfə Skandinaviya ölkələrində yaşayanlar, sonra isə Almaniyada daha çox hiss etmişlər (1979, 1985, 1988, 1991, 1994-cü illər konvensiyaları məhz bu problemə həsr olunub).

Su ehtiyatlarının çirklənməsi atmosferin çirklənməsi kimi ciddi problemdir. Yer kürəsinin böyük bir hissəsini su təşkil etməsinə baxmayaraq, onun yalnız 2%-i içməyə yararlıdır. İçməli su ehtiyatlarmm məhdud olması münaqişələrə səbəb ola bilər. Bu, xüsusilə, Yaxın Şərq, Cənubi Asiya (Hindistan, Banqladeş), Afrikanın cənubunda (Anqola, Namibiya, CAR) hiss olunmaqdadır. Əsas içməli su mənbəyi çaylar olduğuna görə çox vaxt bu, çaylar ətrafında yerləşən bütün dövlətlərə aid edirlər.

Digər bir problem məhsuldar sahələrin, meşələrin azalması, səhraların artmasıdır. Bu gün bir sıra ölkələr meşə ehtiyatla-

rını demək olar ki, tamamilə itirib. Əsasən inkişaf etmiş ölkələr tərəfindən tropik meşələrin qırılması faktları xoşagəlməzdir. Meşələrin azalması, ekologiyanın korlanması bioloji müxtəlifliyin azalmasına səbəb olur. 1946 və 1987-ci illərdə Kitlərin qırılmasının qarşısını almağa yönəlmiş Konvensiya, 1958-ci il Balıq ovuna qarşı Konvensiya, 1989-cu il fil sümüyünün ticarətini qadağan edən Konvensiya və s. bu kimi konvensiyalar bioloji müxtəlifliyin qorunmasına yönəlmişdir. 1992-ci ildə Rio-de Jeneyroda itməkdə olan bioloji növlərin qorunması üzrə qəbul olunmuş Konvensiya 161 dövlət tərfindən ratifikasiya olunur. Ekoloji problemlər digər problemlərlə qarşı-qarşıya gəldikdə isə fəlakətlər baş verir.

Enerji təhlükəsizliyi də dünyanı narahat edən problemlərdəndir. Energetika hər bir dövlətin iqtisadi və sosial inkişafının mühərrikidir. XX əsrin sonlarında beynəlxalq münasibətlər sistemində dövlətlərarası münasibətlərdə enerji xüsusi rol oynamağa başlamışdır. 1992-2000-ci illərdə neftin qiymətində olan dəyişikliklər dünya enerji təsərrüfatında böhranlı vəziyyətə gətirib çıxartdı. Bu gün enerji faktoru beynəlxalq münasibətlərdə aparıcı yer tutur. Enerji diplomatiyası müasir dövrdə bir sıra məsələləri özündə birləşdirir.

Bu səbəbdəndir ki, milli iqtisadi təhlükəsizlik çərçivəsində milli enerji təhlükəsizliyi ayrılır. Enerji çatışmazlığı şəraitində neft amili beynəlxalq münasibətlərdə daha böyük əhəmiyyət kəsb edir. Neft problemi dünyanın ən çətin və mürəkkəb məsələlərindən biridir. İlk növbədə neftin coğrafi yerləşməsinin qeyri-bərabərliyinin nəticəsi kimi onun beynəlxalq siyasətdə rolunu artırır. Neft çıxəldə edilən ərazilər üzərində nəzarət və təsir sənayecə inkşaf etmiş ölkələr üçün əsas məsələdir. Bu bir-birilə bağlı iki faktorla müəyyən olunur: bir tərəfdən enerj ehtiyatlarının istehsalı və toplanması; digər tərəfdən onların istifadəsidir. İstilik enerji ehtiyatları içərisində daha çox daş kömür təşkil edir. Bu ehtiyatın 5 tirlyard ton təşkil etdiyini qeyd edirlər və əsasən, ABŞ, RF, CAR, Çin və Almaniyada toplandığı qeyd olunur.

Elmi-texniki tərəqqinin, sənaye enerjisinin ən effektli mənbəyi kimi "qara qızıl" daha böyük əhəmiyyət kəsb edərkən kömürü arxa plana keçirir. Kömür istehsalı rentabelliyinin aşağı olması nəticəsində kömürə olan tələbat son illərdə əvvəlki səviyyədə qaldığı halda, neftə olan tələbat dörd dəfə artıb. Amma bir məsələ də var ki, neftin qiymətinin belə sürətlə artması kömürə tələbatın artmasım şərtləndirə bilər.

Qərb dövlətlərinin neftlə zəngin Yaxm və Orta Şərq, Latın Amerikası ölkələri ilə münasibətlərində neft daha çox əməkdaşlıq obyekti hesab olunur. Enerji ehtiyatalırının əsas istifadəçiləri sənayecə inkişaf etmiş ölkələr (ABŞ, Almaniya, Fransa, İtaliya, Yaponiya, Çin) olduğu halda ixrac edənlər isə inkişaf etməkdə olan ölkələr, keçid iqtisadiyyatına malik olan ölkələr, eyni zamanda inkişaf etmiş Norveç, Niderland, Kanada, Avstraliya kimi ölkələrdir.

Bu səbəbdəndir ki, enerji faktoru müasir beynəlxalq münasibətlərdə əsas faktor kimi önə çıxıb və enerji diplomatiyası bir sıra dövlətlərin xarici siyasətində əsas rol oynamağa başlayıb. Bu sahədə aktorların öz maraqları var; məsələn, belə aktorlardan ən fəalı ABŞ-dır. ABŞ borularla daşınmanm təhlükəsizliyinin təmin olunmasma xüsusi diqqət ayırır.

Bu gün qloballaşma və inteqrasiya şəraitində dövlətlər böyük və ya kiçik milli enerji təhlükəsizliyi strategiyası işləyib hazırlayırlar. Xüsusilə Çin, Yaponiya, Hindistan və Türkiyə. Lakin yenə də hər bir dövlətin enerji diplomatiyasmın özünəməxsusluğu, öz təbii ehtiyatlarına uyğunlaşdırılır.

Müasir dövrdə beynəxlaq aləmi narahat edən əsas məsələlərdən biri də ərzaq problemidir. Mütəxəssislərin hesablamalarına görə planetimiz hələ bundan sonra 20 milyard nəfərə qədər əhalini ərzaqla təmin etmək imkanlarına malikdir. Lakin ərzaq heç də planetin hər yerində bərabər miqdarda paylanmamışdır. Məhz bu ərzaq təhlükəsizliyi, əhalinin ərzaqla təminatı probleminə qlobal mahiyyət verir.

Hazırda bu problemlə BMT-nin 3 ixtisaslaşmış qurumu – Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Dünya Ərzaq Proqramı (WEP), Kənd Təsərrüfatı Üzrə Beynəlxalq İnkişaf Fondu (İFAD) məşğuldur. İqamətgahları Romada yerləşən bu təşkilatlar səmərəli əməkdaşlıq şəraitində dünyada baş verən prosesləri nəzarətdə saxlayır, dünya ərzaq problemlərinin cari və perspektiv strategiyasını hazırlayır.

# VI FƏSİL

# BEYNƏLXALQ TERRORİZMƏ QARŞI MÜBARİZƏ

## 6.1. 2001-ci il 11 sentyabr hadisələri və onların beynəlxalq nəticələri

Qloballaşan dünyanın mübarizə apardığı problemlərdən biri də terrorizmdir. Hər il, hətta hər gün yüzlərlə günahsız insan terrorun qurbanına çevrilir. Beynəlxalq terrorizmin növlərini araşdırarkən onlar arasında "dövlət terrorizmi" adlanan növünü müəyyən etmək mümkündür. Bir çox ölkələrdə bu işlə məşğul olan təşkilatlar belə mövcuddur. Məsələn, ABŞ-da MKİ (Mərkəzi Kəşfiyyat İdarəsi), İsraildə MOSSAD, Rusiya Federasiyasında FTB (Federal Təhqiqat Bürosu) və s. 2001-ci il 11 sentyabr hadisələrinin baş vermə ardıcıllığı, dövlət rəsmilərinin ziddiyyət təşkil edən müsahibələri, üst-üstə düşməyən faktlar və ümumilikdə bu hadisələrə qeyri-ABŞ münasibəti böyük maraq doğurur. Həmçinin, terror aktında günahlandırılan Üsəma Bin Ladenin həyatının, ABŞ-la əlaqələrinin, hadisələrdə nə kimi rol oynadığının, terror hadisələrindən sonra ABŞ-ın daxili qanunvericilik siyasətindəki dəyişikliklərin (demokratiya carçısı olan ABŞ birdən-birə daxili sistemində mühafizəkar qaydalar tətbiq etməyə başlayır, KİV-ə qadağalar qoyur), Əfqanıstana və İraqa girməsi prosesinin (hadisələrin sonrakı gedişi göstərir ki, müharibə bir tərəfdən rəsmi versiyalarda səsləndiyi kimi terrora cavab idisə, digər tərəfdən, enerji amili ilə də bağlı idi) və s. kimi məsələlər xüsusi maraq doğurur. Ümumiyyətlə, terror və buna bənzər hadisələr

çox vaxt məqsədə çatmaqda vasitə olmaqdan başqa bir şey deyil.

2001-ci il 11 sentyabr hadisələri dünyanı dəhşətə gətirən terror aktlarından biridir. Bu terror aktı zamanı ümumilikdə 2974 nəfər həlak olmuş (terrorçular istisna olmaqla), 24-ü itkin düşmüşdür.

Gəlin hadisələrə yenidən nəzər salaq. İlk olaraq Pentaqona olan hücumla başlayaq. Hadisələr o qədər gözlənilmədən baş vermişdi ki, rəsmi variantdakı fikir ayrılıqlarını həmin anda görmək mümkün olmamışdı. Hadisə yerinə birinci gələn REYTERS agentliyinin üzvləri Pentaqonun helikopter tərəfindən partladıldığı haqqında xəbər yayır, bu xəbər Assoşieyted Press agentliyi tərəfindən - Pol Beqaloy tərəfindən təsdiq olunur. Bir qədər sonra isə Müdafiə Nazirliyi məlumata düzəliş edir: Partlayış səbəbkarının təyyarə olduğu bildirilir. Məlumatı təsdiqləyən şahidlər də tapılır. Senator Bob Neyin parlament köməkçisi Freyd Hey Pentaqon yaxınlığından keçərkən təyyarənin düşməyini gördüyünü bildirir. Bu şahidlər sırasına senator Mark Kerki də əlavə etmək olar.

Pentaqon isə dünyanın ən böyük inzibati binasıdır, burada hər gün 23.000 adam çalışır. Onun adı da konstruksiyası ilə bağlıdır, beş konsentrik beşbucaqlıdan ibarətdir. Maksimum zərbə endirmək üçün təyyarə Pentaqonun tavanına zərbə endirməli idi. Terroristlər isə zərbə üçün fasadı seçmişdilər, baxmayaraq ki, hündürlüyü 24 metr idi. Təyyarə üfüqi vəziyyətdə şaquli eniş edir və şossedəki fənərləri belə zədələmir. Çəkisinə və sürətinə baxmayaraq, təyyarə binanın birinci halqasına zərbə yetirir, yanacaq ehtiyatları qanadlarında olduğu üçün yanğın tez bir zamanda binaya yayılmağa başlayır. Maraqlı odur ki, təyyarə binanın məhz təmirdə olan hissəsinə həmlə edir, həmin hissəyə Dəniz Donanmasının Mərkəzi Komandanlığını köçürməyə hazırlaşırdılar. Digər kabinetlərdə də işçi yox idi, yalnız sıravi vətəndaşlar idilər ki, onlar da təmirçilər idi.

Peyk antenaları ilə hazırlanan şəkillərdən görünür ki, BOİNG-in yalnız burun hissəsi binaya daxil olub, gövdəsi və qanadları isə kənarda qalıb. Bu o deməkdir ki, təyyarə qəfil dayanıb və qanad fasada dəyməyib və sonradan təyyarəyə aid heç bir qalıq tapılmayıb (bir neçə naməlum metal qırıntıları istisna olmaqla). Pentaqon yaxınlığındakı videokameralarda da təyyarə ilə bağlı videolent yoxdur. Nəzərə alsaq ki, təyyarənin gövdə hissəsi adi maşınlarda istifadə olunan metal materiallarından ibarətdir, o zaman heç olmasa bu hissələr qalmalı idi. Çəkilən fotolarda da təyyarəyə aid heç nə yoxdur.

İndi isə dövlət rəsmilərinin terrorla bağlı versiyalarına baxaq: Qaçırılan təyyarə qırıcı F-16-nın təqibindən qurtulub və Vaşinqtona istiqamətlənib, üfüqi eniş birinci mərtəbənin fasadını zədələyib, yalnız burun hissəsilə binaya daxil olub və qanadları ilə dəyəcək anda dayanıb. Onun gövdəsi həmin anda əriyib və qanadları lazım olan anda yanıb ki, binada yanğın təbili çalısın, sonra isə qalığa çevrilib. Bu ifadələr, yeni versiyalar bir-birinin ardınca yaramrdı.

İndi isə hadisə baş verərkən telekanalların bunu necə çatdırdığına baxaq: CNN dərhal efiri dəhşətli xəbərlə dayandırır, əlində qəza haqda yetərli məlumat olmasa da, görüntülərdə yanğın tüstü təbəqəsinin şəhəri bürüdüyünü görmək olurdu. CNN hadisənin bədbəxt hadisə olmadığını təkrarlayır, bunun terror aktı olduğuna işarə edirdi. Buna bənzər hadisə 1993-cü il 26 fevralda Ticarət Mərkəzinin yeraltı avtomobil dayanacağı hissəsində baş vermişdi. Furqonun partlaması nəticəsində 6 nəfər ölmüş, minlərlə insan yaralanmışdı. Hadisənin səbəbkarı kimi İslam təşkilatının rəhbəri Ömər Abdal Rəhman göstərilir. CNN teleşərhçilərinin fikrincə bu terror aktıdırsa, deməli, hər hansı İslam təşkilatının və ya daha dəqiq Üsamə Bin Ladenin işidir. 1996-cı il avqustun 23-də Üsamə ABŞ və İsrailə qarşı cihad elan etmiş, 1998-ci ildə ABŞ səfirliklərinə (Kenya, Tanzaniya) qarşı terror aktı hazırlamışdı. Federal Araşdırma Bürosu (FTB) onun başına 5 mln. dollar vəd etmişdi. Artıq ABŞ-da ümumi düşmən obrazı hazır idi.

Günortadan başlayaraq Bin Ladenin nümunəsində terror aktı ssenariləri qurulmağa başlayır. Ssenariyə əsasən 5 nəfərdən ibarət dəstə yaradılıb ki, onlar karton kəsən bıçaqla silahlanıblar və nəticədə özlərini qurban verərək Ticarət mərkəzinin binasına təyyarə ilə zərbə endiriblər. Maraqlıdır ki, hücum sifarişçisi öz adamlarını odlu silahlarla deyil, soyuq silahla təmin edərək əməliyyatın iflas olması ilə risk edib. Həm də xüsusi hazırlanmış silahla detektoru keçmək daha asandır, nəinki bıçaqla. Cəmiyyətin təsəvvüründə ərəblər kəsib-doğramağı sevən insanlardır. Burada da bıçaq məsələsi aktı törədənlərin hamısının ərəb olmasına işarə edir.

Nyu-Yorka yaxınlaşarkən təyyarələr hündürlüyü azaltmalı idilər ki, pilotlar binanı üstdən deyil, yandan görə bilsinlər. Binanın eni 63 m. 70 sm., BOİNG-in qanadının eni isə 47 m. 60 sm. idi. Şəkillərdən də görünür ki, mərkəzə zərbə çox dəqiq idi; yüngül yerdəyişmə, 55 m. 65 sm.-dən bir qədər yayınma bütün planı məhv edərdi. 55 m. 65 sm. nədir? Binanın eninin yarısı 31 m 85 sm, təyyarənin qanadlarının yarısı 23 m. 80 sm., onların cəmi: 55 m. 65 sm. - Mərkəz xətt bu idi. Orta sürətlə 700 km/saatla bu məsafəni 30 saniyəyə uçmaq olar. Nəzərə alsaq ki, belə tip təyyarənin ani dönüşü çox çətindir, o zaman pilotun həqiqətən çox təcrübəli olduğu aşkara çıxır. Birinci təyyarə külək istiqamətində, ikincisi isə küləyin əksinə manevr etməli idi. Hər ikisi manevrləri çox dəqiq yerinə yetirmişdilər.

Digər tərəfdən, hədəfi vurmaq üçün başqa bir vasitə mayaklardan istifadədir. Ticarət Mərkəzində radiosevərlər tərəfindən siqnalları tutan mayak var idi, bu siqnalları binadakı teleantenalarla tutmaq olurdu, ola bilsin ki, siqnal son anda işə salınıb ki, onu əvvəlcədən tapıb məhv etməsinlər. Hər halda terror aktı törədənlərə yerdə müttəfiqlər lazım idi. Ümumiyyətlə isə Global Hauk texnologiyası sayəsində pilot olmadan da təyyarəni idarəyə almaq mümkün idi. Əkiz binaların uçmasından sonra heç bir zərbəyə məruz qalmayan bina uçur. Bəzi nəzəriyyələrə görə, həmin bina digərlərinin təsiri

ilə güclü titrəmə nəticəsində uçub. Bu nəzəriyyəni Nyu-York Yanğın Assosiasiyası istisna edir. Onlar qeyd edir ki, binanın konstruksiyası yanğına dözümlü olduğu üçün bu fərziyyə mümkünsüzdür, onlar iddia edirlər ki, binanın özülündən partlayış səsi gəlib. Texnologiya İnstitutunun eksperti Van Romero iddia edir ki, belə uçma yalnız partlayıcı qurğu ilə baş verə bilər.

Bu məsələdə Corc Buşun fikirləri daha maraqlıdır. Müsahibə 4 dekabr Orlandoda alınmışdır. "Sual: Terror aktı baş verərkən nə hiss etdiniz? Corc Buş: Mən Floridada idim, sinif otağında oxu ilə bağlı vacib proqram barədə söhbət aparırdıq. Bu zaman mən təyyarənin binaya necə dəydiyini gördüm, televizorla, əlbəttə ki". Özü də dediyi kimi, prezident təyyarənin binaya necə dəydiyini görüb. Amma bu kadrlar Hedeon qardaşlarının çəkdiyi kadrlar ola bilməz, çünki onların çəkdiyi kadrlar hadisədən 33 saat sonra Gamma Agentliyi tərəfindən yayımlanıb və ilk kadrlar məhz onların çəkdikləri idi. Burada söhbət gizli çəkilişlərdən gedir ki, dərhal Buşa çatdırılmışdı. Onlar bu kadrları çəkibsə, deməli, hadisənin olacağından xəbərləri var idi. Bu cür əməliyyat planı hər hansı Əfqan mağarasında hazırlana bilərdimi və dağ islamçılar tərəfindən rəhbərlik edilə bilərdimi?!

Qaçırılan təyyarələrdən biri də 93 reysi ilə hərəkət edən təyyarə idi. Burada da 5 terrorçunun olduğu göstərilir, amma onlardan biri Zəkəriyyə Mussoi ABŞ-da yaşama ilə bağlı sənədlərindəki problemə görə saxlanılmışdı. Əvvəl FTB iddia edirdi ki, səma casusları özlərini qurban vermək üçün yetişdirilirlər. Daha sonra Üsamə Bin Ladenin kasseti aşkar olunduqdan sonra məlum oldu ki, casuslar kamikadze olublar. Müsəlman isə kamikadze ola bilməz, çünki İslam birbaşa olaraq intiharı qadağan edir, fundamentalistlər özlərini ölümə fədai kimi verə bilərdilər. Bu barədə 3 sənəd tapılmış və ərəbcədən tərcümə edilmişdi. Onlardan biri Məhəmməd Attəyə, digəri Nauafoma, üçüncüsü isə Əlhəzmiyə aid idi.

FTB (Federal Təhqiqat Bürosu) Məhəmmədi əməliyyatların lideri kimi təqdim edir. 33 yaşlı bu şəxs İsveçdə yaşayıb.

Təhqiqatçıların sözlərinə görə o, burada aldığı bıçaqların hesabını bank kartı ilə ödəyib. Almaniyada iki terrorist dostu ilə elektronika öyrənib, sonra ABŞ-a gələrək Floridada öz həmfikirlərinə qoşulub, pilot kursları keçib və hətta Mayamidə özünü bu sahədə smaqdan keçirib. 11 sentyabrda daxili reyslə Bostona gəlir, 2 reys arasında vaxt az olduğu üçün onun yükü (baqajı) gecikir. Yoxlama zamanı BOİNG-lə keçdiyi məşqlərə aid video materiallar və fədai kimi ölmək istədiyi haqda məktub tapılmışdı. Attanı terroristlərin başçısı kimi stüardessa göstərmişdi (telefonla zəng edərək, yerdən o qədər uzaq məsafədə telefon xətlərinin necə işləməsi də başqa bir məsələdir).

Qurbanların siyahısına nəzər salsaq görərik ki, səma casuslarının adı yoxdur, onların adı sanki bilərəkdən götürülüb ki, yalnız günahsızların adı saxlanılsın. Onlar: American Airlines - 11 reysi: 78 sərnişin (şimal qütbünə dəyən təyyarə); United Airlines - 175 reysi: 47 sərnişin (cənub qütbünə dəyən təyyarə); American Airlines - 77 reysi: 51 sərnişin (Pentaqona dəyən təyyarə) United Airlines 93 reysi: 36 sərnişin (Pensilvaniyadan qayıdan təyyarə). Bu siyahı 11 sentyabrdan sonrakı, daha dəqiq, 13 sentyabrdakı siyahıdır. 11 sentyabr siyahısına əsasən isə Aviaşirkətlərin təqdim etdiyi siyahı belə idi: American Airlines - 11 reysi: 81 sərnişin; United Airlines - 175 reysi: 56 sərnişin; American Airlines - 77 reysi: 58 sərnişin; United Airlines 93 reysi: 38 sərnişin.

Fiziki olaraq 11 nömrəli reysdə 3-dən artıq terroristin olması mümkün deyildi, 93 reysində isə 2-dən artıq ola bilməzdi, onların adlarının siyahıda olmaması o demək deyil ki, terroristlərin adı siyasi korrektliliyə görə götürülüb, sadəcə onlar təyyarədə olmayıb. Attanı çıxmaq şərtilə, çünki onun oturduğu yerin nömrəsi (8D) stüardessa tərəfindən telefon əlaqəsi zamanı deyilmişdi.

Hadisələrdən 6 gün sonra Aviaşirkətlərin səhmləri enməyə başladı: United Airlines 42%, American Airlines 39%. Başqa bir məsələ terroristlərin müdafiəsi idi. Hədəf yenə də Üsamə

Bin Laden idi. Baxmayaraq ki, onun bank hesabları 1998-ci ildən dondurulmuşdu, lakin maliyyə problemi yaşamırdı. Bəs Üsamə Bin Laden kim idi?! O, ABŞ-ın dostu yoxsa düşməni idi? Üsamə Bin Laden Şeyx Məhəmməd Bin Ladenin 54-cü uşağı idi. O, 1931-ci ildə Saudiyya Binladen Group (SBG) adlı holdinq yaratmışdı. ABŞ-da bu holdinqi Adnan Kəşşaqi təmsil edirdi (Şeyxin kürəkəni), maliyyə məsələləri ilə Carlyle Group məşğul olurdu. SBG həm də vəhhabi rejimi ilə sıx bağlı idi. Uzun müddət Mədinə və Məkkədə obyektlərin tikintisi və idarəsi ilə imzalanan müqavilələrdə tərəf kimi çıxış edirdi. 1968-ci ildə Məhəmmədin qəfil ölümündən sonra mirası böyük oğlu Səlim əldə edir. O da 1988-ci ildə Texasda yol qəzasında həlak olduqdan sonra SBG-nm idarə olunması Məhəmmədin ikinci oğlu Bakirə keçir.

Üsamə 1957-ci ildə anadan olub, Əbdül-Əziz adına Universitetin Menecment və İqtisadiyyat fakültəsini bitirib. 1979-cu ildə Şahzadə Türki-əl-Feysal ona MKİ-nın gizli əməliyyatlarının maliyyə bölməsi ilə məşğul olmağı təklif edir (Əfqanıstanda). 10 il ərzində MKİ SSRİ-nin süqutu üçün Əfqamstana 2 mlrd. investisiya qoymuşdu. Səudiyyə Ərəbistanı Amerika xüsusi xidməti ilə birgə islamçıları yığır, təlim keçir və əllərinə silah verərək cihada göndərir. Üsamə Bin Laden ƏL-Qaidə adlanan (hərfi mənası özül, baza deməkdir) sistemləşmiş informasiya vasitəsilə bu təlimatları idarə edir. SSRİ-nin məğlubiyyətindən sonra ABŞ Əfqanıstana marağını itirir. Əfqanıstan mücahidlərin, hərbçilərin əlində qalır.

İslamçılar çox keçmədən iki qrupa bölündülər: Səudiyyə ilə ABŞ tərəfdarları və onlarm əleyhdarları. Bin Laden Sudan lideri Həsən-əl Turabinin başçılıq etdiyi qrupa daxil oldu. 1992-ci ildə BMT mandatına əsasən ABŞ Somalidə aclıq çəkən əhaliyə "Restore Hope" - "Ümidlərin bərpası" adı ilə daxil oldu. Bu zaman Əfqan müharibəsinin veteranları Amerika əsgərlərinə atəş açdı. 17 əsgər həlak oldu, bu əməllərə görə Üsamə günahlandırıldı. Kütlənin nəzərində əvvəl rusları

məğlub edən Bin Laden indi də Amerikaya qalib gəlmişdi. Nəticədə o, Səudiyyə Ərəbistanının vətəndaşlığından məhrum olundu və Sudana yerləşdi. Ailəsi ilə əlaqələri kəsən Üsamə miras olaraq 3 mlrd. dollar alır. O, pulu banklara, firmalara sərmayə kimi qoyur. Sudanda yaşadığı müddətdə aeroport tikdirir, yollar çəkdirir. Bütün bunlara baxmayaraq, Misirin təzyiqi ilə onu Hüsnü Mübarəkə sui-qəsddə ittiham edirlər, Bin Laden Sudandan qovulur və Əfqanıstana qayıdır. 1996-cı ildə Səudiyyə Ərəbistanının Kobbar hərbi bazasına hücum təşkil olunur. Hücum zamanı 20 ABŞ əsgəri həlak olur, hadisələrin səbəbkarı kimi yenə də Üsamə Bin Laden göstərilir. Bunlara cavab olaraq Üsamə ABŞ və İsrailə qarşı "Çoxallahlıları ərəb torpaqlarından qovun" adı altında cihad elan edir. 1998-ci ildə Misir lideri Əymən-əl-Zavahiri ilə birgə yəhudi və xaçpərəstlərə qarşı Beynəlxalq islam cəbhəsi yaradılır. 1998-ci il 7 avqustda ABŞ-ın Tanzaniya və Keniyadakı səfirliklərində terror aktı törədilir. ABŞ sifarişçi kimi Bin Ladeni göstərir (mənbə FTB).

Onun başına 5 mlrd. dollar vəd edir, bütün bank hesabları dondurulur. 2001-ci il 8 mayda Donald Ramsfeld elan edir ki, ABŞ-ın bir nömrəli düşməni nəinki baktereoloji və kimyəvi silahlara malikdir, hətta atom bombası atmağa hazırlaşır. "Frontline" jurnalına müsahibəsində Milton Birden deyir: "Üsamə Bin Laden haqda artıq mifologiya uydurulub. 1991-ci ildə SSRİ-nin süqutundan sonra ABŞ-ın heç bir milli düşməni yoxdur və mən düşünmürəm ki, terror aktları haqda uydurmalar birbaşa Üssəma ilə bağlıdır. Məncə, bu, sadəcə bizim xoşumuza gəlir". ABŞ 11 sentyabrda da Bin Ladeni günahlandırdı.

2001-ci il 10 noyabrda gözlənilməz hadisələr baş verdi. Günahkara qarşı yavaş-yavaş dəlillər tapılır. Sandi Teleqraf videokaset tapıldığını elan edir. Kasetdə baş verənlərin Üsamə Bin Laden tərəfindən törədildiyi göstərilir: "Buş və Bler yalnız təcavüz dilini başa düşürlər. Biz də onların dilindən danışırıq. Hər dəfə onlar bizi öldürəndə biz də cavab verəcəyik". Kaset

Əl-Cəzirə kanalı tərəfindən çəkilmiş və CNN-ə təqdim olunmuşdu.

Növbəti sensassiya 9 dekabrda baş verir. "Vaşinqton Post" yeni videokasetin mövcudluğu barədə xəbər verir. Kasset 11 sentyabrda Bin Ladenin düşməni tərəfindən çəkilib. Materialda Bin Laden baş verənlərdən çox sevindiyini, indiyə qədər baş verənlərin onun əli ilə törədildiyini etiraf edir. Doğrudanmı Bin Laden MKİ ilə əlaqələrini kəsib və ABŞ-ın düşməni olub?! Ola bilərmi ki, bütün baş verənlər MKİ-nin standartlaşdırılmış dəlillərindən başqa bir şey deyil. Somali hadisələrinə bir daha nəzər salaq. Bizi inandırmağa çalışırlar ki, Üsamə 20 nəfərlik döyüşçü ilə dünyanın ən güclü ordusunu Somalidən çıxarıb. Səfirliklərdə baş verən hadisələr zamanı isə ölənlərin yalnız 11 nəfəri amerikalı idi. Tanzaniyada ölənlər arasında isə ümumiyyətlə amerikalı yox idi. Həqiqətdə isə MKİ hər zaman Üsamənın xidmətlərindən istifadə edib. Məsələn, 1999-cu ildə Belqradda kosovolıların üsyanı zamanı, 2001-ci ilin noyabrında Çeçenistan hadisələrində və s. Bir çox araşdırmalarda MKİ ilə Üsamənın əlaqələrinin 1998-ci ildə kəsildiyi göstərilir. Lakin bütün bu dəlillər göstərir ki, xüsusilə də 2001-ci il 4-14 iyul hadisələri (Bin Ladenin xəstələnərək Dubaydakı ABŞ klinikalarından birində müalicə alması) MKİ ilə Üsamənin əlqələrinin 1998-ci ildə kəsilmədiyini üzə çıxarır.

"Fiqaro" jurnalının tədqiqinə əsasən onu ziyarət edənlər arasında MKİ-nin Dubaydakı təmsilçisi də olub. O, liftə minərkən və palataya daxil olarkən izlənilib. Məlumata görə müalicədən sonra Üsamə Bin Laden 11 sentyabrda Pakistandakı hərbi hospitala köçürülüb. Necə olur ki, ABŞ və İsrailə cihad elan etmiş, FTB-nin başına 5 mlrd. dollar vəd etdiyi insan Dubayda Amerika xəstəxanasında müalicə olunur və sonra səssizcə heç nə olmamış kimi Pakistana Ravaldinə köçürülür. Saxtalaşdırmalar, böhtanlar Üsamənın ailəsinə, yaxınlarına qarşı da tətbiq olunur. Amerika rəsmilərinin məlumatına əsasən Sudandakı Əl-Şifə laboratoriyası kimyəvi silahların

hazırlanması ilə məşğul olur, bu səbəbdən də ABŞ tərəfindən 1998-ci ildə bombalanır. Beynəlxalq müşahidəçilərin rəyinə görə isə burada aspirindən başqa heç nə istehsal olunmurdu. Bir tərəfdən Üsamə ABŞ-ın düşməni, digər tərəfdən isə agentidir. Əvvəldə də deyildiyi kimi, SBG-nin maliyyəsini Carlyle Group idarə edir.

Sentyabrın 14-də ABŞ Konqresi 2001-ci il 11 sentyabr hadisələrində birbaşa və ya dolayı yolla əli olan, kömək edən və ya terrorçulara sığınacaq verən hər kəsə, hər bir ölkəyə qarşı öz ölkəsinin təhlükəsizliyi naminə istənilən gücdən, vasitədən istifadə hüququ verdi. Bu qərar hər iki palatada demək olar ki, debatsız və yekdil səslə qəbul olundu. Buş hərbi əməliyyatları başlamadan öncə bu haqda Konqresə məlumat verməli idi. İlk tədbirlər üçün prezident Konqresdən xüsusi kredit istəyir. Hər iki palata istənilən məbləği artıraraq, 40 mlrd. dollar kredit ayırır. Buş həm də səfərbərliyə icazə verir. Müdafiə naziri Donald Ramsfeld 35.500 nəfəri səfərbərliyə çağırır.

Sentyabrın 20-də Buş Konqresdə nitqlə çıxış edir, burada onu Böyük Britaniya Baş naziri Toni Bler müşayiət edirdi. Buş rəsmi olaraq Üsamə Bin Ladeni və onun təşkilatını terror aktlarınm səbəbkarı adlandırır və Taliban rejiminə ultimatum göndərir. Ən əsası Buş "Office of Homeland Security" – "Vətənin təhlükəsizliyi Bürosu"nun yaradıldığını elan edir. Sitat: "Bu yeni orqan ölkəmizi terrordan qorumaq və istənilən təcavüzə qarşı cavab vermək məqsədilə milli strategiyanı idarə və koordinasiya edəcək". Büronun başına isə Pensilvaniyanın keçmiş qubernatoru Tom Ric təyin olunur. Oktyabrın 2-də Müdafiə nazirinin müavini Pit Oldric bütün silah çatdırma bölmələrinə məktub göndərir. Məktubda göstərilir ki, müdafiə məsələlərində gizlilik onların da fəaliyyətinə yönəlib. İlk baxışda önəmli olmayan hər hansı məlumatın açılması Nazirliyin planları və fəaliyyəti haqda çox şeyi üzə çıxara bilər. Oktyabrm 4-də Darlin Dayran Silah çatdırma bölməsinə hansı mövzuda olur olsun jurnalistlərlə ünsiyyətə girməyi, hər hansı müsahibə

verməyi qadağan edir. Qadağa tək ABŞ-da deyil istənilən ölkədə keçərli idi.

Oktyabr ayının 5-də Buş konstitusiyaya zidd olsa da, öz kabinetinin işçilərinə parlamentə informasiya ötürməyi qadağan edir. Bir qədər əvvəl isə FTB aviaşirkətləri mətbuatla kontakta keçməməyə çağırır. Halbuki, onların köməkliyi ilə təyyarədəki casusların adlarının sonradan siyahıdan yox olma səbəblərini araşdıra bilərdilər. Həmin axşam FTB Cul və Hedeon Noed qardaşlarını evlərinin yaxınlığında gözətləyir və onların 11 sentyabr hadisələri zamanı əldə etdikləri 5 saatlıq videoçəkilişləri müsadirə edir. Yalnız 6 dəqiqəlik videoçəkiliş – təyyarənin bina ilə toqquşması hissəsi geri qaytarılır. Beləliklə bütün bölmələrdə, eləcə də hərbi idarəçilikdə media ilə dialoqa girmək qadağan edilir. Belə alınır ki, jurnalistlər nə pilotlar, nə də ki, Barksdeyle və Offut bazasının personalı ilə müsahibə apara bilməzlər. Bu qaydalar 6 ay müddətinə qüvvədə olmalı idi. Halbuki təhqiqat aparmaq üçün bu qədər gözləmək mümkünsüz və gərəksiz idi.

Prezident Buş Konqresin liderləri ilə əlaqə saxlayaraq "11 sentyabr hadisələri ilə bağlı Təhqiqat Komitəsi" yaradılması təklifini irəli sürür. Nəticədə hər iki palata bir təhqiqat qrupunun yaradılması ilə kifayətlənir. Qrupun yaradılmasında əsas məqsəd gələcəkdə bu kimi hadisələrin qarşısım almaq idi. 10 oktyabrda milli təhlükəsizliklə bağlı məsləhətçi Kondoliza Rays Ağ evdə televiziya kanallarının (ABS, CBC, CNN, FOX, FOX NEWS və NBS) direktorları ilə görüş keçirir. Görüşdə jurnalistləri yayılacaq hər hansı xəbərin Amerika xalqının təhlükəsizliyinə zərər gəlməməsi üçün əlbir hərəkət etməyə çağırırlar. Pon Hatting və Don Hatri Buşun xəttini tənqid etdikləri üçün işdən azad edilirlər.

Nəhayət, üç həftəlik debatlardan sonra Konqres "Uniting and Strengthening America by providing Appropriate Tools Required to intercept and obstruct terrorism act" - USA PATRİOT ACT (baş hərflərin birləşməsi). Bu qanun

əsas azadlıqların fəaliyyətini 4 il müddətinə dayandırır ki, administrasiya terrorla effektli mübarizə aparsın. Heç kimin diqqətindən yayınmır ki, bu 4 il Buşun mandatını bütövlükdə əhatə edir. Bir həftə ərzində xarici vətəndaşların saxlanma dövrü başlayır. Nəticədə 1.200 immiqrant qeyri-müəyyən müddətə həbs olunur. 31 oktyabrda isə Ədliyyə Nazirliyi müvəqqəti olaraq saxlanılan şəxslərin öz vəkilləri ilə təklikdə danışıqlarını qadağan edir. Bundan sonra söhbətlərdə gizli kameralar yerləşdirilir ki, sonradan işlənə biləcək sözlər şübhəli şəxsin özünə qarşı istifadə olunsun. 13 noyabrda Buş qərar verir ki, bundan sonra terrorda şübhəli bilinən şəxslərin işinə Federal məhkəmə və Hərbi tribunal deyil, Hərbi komissiya tərəfindən baxılsın. Onların məhkəməsi bağlı qapılar arxasında keçə bilər. Hərbi prokurorlar tutulan şəxsdən və onun vəkilindən təqdim etmək üçün heç bir dəlil tələb etməyəcək və qərarlar yekdil deyil iki-üç səslə də qəbul olunacaq. Elə həmin gün Ədliyyə Nazirliyi qanuni olaraq ABŞ-da yaşayan 5.000 şərqlini sadəcə dinləmə üçün saxlayır.

ABŞ-ın daxili siyasətindəki dəyişiklik BMT-də də özünü göstərir. 1373 saylı qətnamə ilə yaranan Anti-terror Komitəsinə əsaslanaraq BMT üzv dövlətlərdə də ABŞ-da olduğu kimi qərarların qəbul olunmasını irəli sürür. 55 BMT üzvü olan ölkələrdə bir sıra anti-demokratik qərarlar qəbul olunub ki, bu da həmin ölkələrdə terrorla mübarizə yox, ABŞ polislərinin səlahiyyətlərinin həmin ölkələrdə yayılmasını nəzərdə tutur. Məsələn, Böyük Britaniyada anti-terror qanunları terrorda şübhəli bilinənləri istintaq aparmadan tutulmasına icazə verir ki, bu da Avropa İnsan Hüquqları Haqda Konvensiyaya ziddir. Kanadada isə bu qanunla məhkəmə jurnalistləri öz şəxsi mənbələrini təzyiq altında açmağa vadar edir, əks halda onlar həbslə hədələnir. İtaliyada isə gizli fəaliyyət dairələrini milli ərazilərdə mümkün qanun pozuntularına yol verilir (milli təhlükəsizlik maraqları daxilində) ki, buna görə heç bir məsuliyyət daşınmır. İndi isə ABŞ-ın xarici siysətində baş verən dəyişikliklərə nəzər salaq. Əslində

bunu dəyişiklik adlandrmaq olmaz, bu, sadəcə ABŞ-ın məqsədə çatmaqda yeni strategiyası idi.

7 oktyabr 2001-ci ildə Prezident Corc Buş Ağ evin müqavilələr imzalanan zalından çıxış edərək müharibənin başladığını elan etdi. İngiltərə Baş naziri T.Bler də məlumatı təsdiq edərək bu işdə ABŞ-a kömək edəcəyini bildirdi. Bir neçə gün sonra Əl-Cəzirə telekanalı ilə Üsamə Bin Ladenin çıxışı səsləndirilir. Yaranmış polemika onu göstərir ki, elan olunmuş müharibə 11 sentyabr terror aktlarına cavabdır.

SSRİ-nin dağılması, Orta Asiya ölkələrinin müstəqil olması yenidən "Böyük Oyun"u başlatdı. Bu ifadə XIX əsrdə Pedyard Kiplinq tərəfindən ortaya atılıb və "Birbaşa münaqişəyə girmədən regionda öz hakimiyyətini yürütmək" mənasını ifadə edir. ABŞ-ın hədəfində olan region isə neft və qazla zəngin, dağlarda qızıl ehtiyatı olan yerdir. Buna görə Buş Ağ evə girdiyi gündən bu işlə məşğul olacaq komanda yığmağa başladı. Komanda üzvləri bu şəxslərdən ibarət idi: Kondoliza Rays: "Chevron Texaco" şirkətinin keçmiş rəhbəri Daxili işlər naziri Geyl Norton: "BP-AMOCO"nun və "Delta OİL" Səudiyyə kompaniyasının maraqlarının müdafiəçisi. Vitse-Prezident Dik Çeyni: "Halli Burtan" şirkətinin keçmiş prezidenti (şirkət neft avadanlıqlarının çatdırılması ilə məşğul olurdu). Bu şəxslərdən ibarət NEPD (Milli enerji siyasətinin inkişafı) qrupu yaradılır. Analitiklər NEPD-in məqsədlərinin Xəzər dənizinin neft-qaz ehtiyatlarının çıxarılması olduğunu hesab edirdilər. Problem isə bu məqsədə Rusiya və İranı danışıqlardan kənarda qoymaqla necə çatmaqdan ibarət idi. Söhbət isə BTC layihəsindən gedirdi.

Əvvəldə qeyd etdiyimiz kimi "Enduring freedom" əməliyyatı 7 oktyabr 2001-ci ildə başlamışdı və ABŞ-ın qalibiyyəti əvvəlcədən məlum idi. Əməliyyat yekunlaşdıqca kütlənin də baş verənlərə marağı azalırdı. Lakin 12 oktyabrda məqalələrinin birində Sibir xorası ilə bağlı məlumat dərc olunur: "Parlamentarilər və jurnalistlər Sibir xorası ilə bağlı yoluxdu-

rulmuş məktublar alıblar, göndərilən 5 məktubun nəticəsində 5 rəsmi şəxs vəfat edib". Amerikalılarm gündəlik həyatı dəyişir, onlar öz məktublarını əlcəksiz və burunlarına dəsmal tutmadan aça bilmirlər. Bu hadisə Avropa ölkələrinə də təsirsiz ötüşmür. Hər yerdə içərisində ağ toz olan məktublar tapılır. Səbəb isə belə açıqlanır: Əl-Qaidə kimyəvi və baktereoloji silahlarla hücuma keçib və bu texnologiyanı Səddam Hüseynin köməyi ilə əldə edib. Xora əleyhinə vaksinlər hazırlanmağa başlanır. Əslində isə heç nə yox idi, sadəcə ortada 5 məktub var idi, qalan məktublar isə ya əhalinin təşvişi ya da dəhşətli zarafat idi. Onu demək olar ki, bu Sibir xorası ilə yoluxmuş məktublar daxili təhdid idi. Amerika alimləri federasiyasından olan Barbara Hatch Rozenberg qeyd edir ki, yalnız 50 nəfər ABŞ alimi bu ştampları əldə etmək və onları idarə etmək iqtidarında idi.

Təşviş azaldıqdan sonra Müdafıə Nazirliyi əhaliyə terror aktlarını xatırlatmağa başladı. Quantanamo hərbi bazasında terroristlər saxlanıldı. Onları narkotiklə zərərsizləşdirilmiş və oturacaqlara bağlı vəziyyətdə Əfqanıstandan gətirirlər. Elə yerindəcə sensor məhrum etmə proqramına məruz qoyurlar. Müdafiə Nazirliyi vəkilləri gözlərini qırpmadan izah edirlər ki, federal qanunlar işgəncələri qadağan etməsinə baxmayaraq, Kuba ABŞ sərhədlərindən kənardır və bu qanunlar onlara aid deyil. BMT-nin insan hüquqları üzrə baş komissarı Meri Robinson isə etirazını bildirərək qeyd edir ki, Cenevrə Konvensiyasına əsasən hərbi əsirlərlə humanist davranılmalıdır və onların məhkəmə prosesi ədalətli keçirilməlidir. Terrorizm nə dövlət, nə təşkilat, nə də doktrina deyil, o, fəaliyyət prosesidir. O, hakimiyyət tərəfindən istifadə olunduğu kimi, fərdlər tərəfindən də istifadə oluna bilər. Bu baxımdan ABŞ-ın elan etdiyi "Terrorla müharibə" ifadəsi özlüyündə Müharibəyə müharibə anlammda çıxış edir.

2011-ci ilin may ayında Pakistanda Üsamə Bin Laden öldürüldü. Bunun terrorizmin sonu, yaxud yeni mərhələnin başlanğıcı olmasım zaman göstərəcək.

## ƏDƏBİYYAT:

1. Əliyev İ. Azərbaycanın xəzər nefti. B., 2003.
2. Abbasbəyli A. Müasir dünyanın siyasi mənzərəsi B., 2008.
3. Аббасбейли А. Мировая политика Б., 2009
4. Бжезинский З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы М., 1999.
5. Золов А.В. США: Борьба за мировое лидерство (к истории американской внешней политики. XX век) К.,2000.
6. Киссинджер Г. Нужна ли Америке внешняя политика? М., 2002.
7. Беттлер А. Контуры мира в первой половине XXI века и чуть далее. (Теория) М., 2002.

## 6.2. Beynəlxalq terrorizmlə mübarizənin hüquqi əsasları

Müasir cəmiyyət üçün terrorizmin gətirdiyi təhlükələr barədə təkcə bu faktları əsas tutmaq olar ki, dünyanın aparıcı dövlətləri terrorçuluqla mübarizə ilə bağlı qanunlar qəbul edirlər. Bu dövlətlərin başçılarının demək olar ki, bütün görüşlərində terror problemi müzakirə olunur. Mahiyyəti etibarı ilə beynəlxalq cinayət halı yaradan terrorçuluq aktı bütövlükdə beynəlxalq hüquq qaydalarına sağalmaz zərbə vurur. Bütün dünyada terror təhlükəsinin genişliyinə və böyüklüyünə, onun sərhəddaxili (bir ölkənin içində baş tutması) xarakterinə nəzər salsaq görərik ki, praktiki olaraq heç bir dövlət təklikdə bu bəlaya qarşı durmaq qüdrətində deyil. Onunla mübarizədə bütün dünyanın müvafiq qurumlarının gücünü cəmləmək gərəkdir. Buna görə də terrorizmin əleyhinə əməkdaşlıq səmərəliliyi üçün hüquqi bazanın yaradılması gərəkdir.

Müasir beynəlxalq hüquq bir sıra universal və regional xarakterli beynəlxalq sazişlər işləyib hazırlayıb. Bu sazişlərin dəqiq meyarları əsasında beynəlxalq terrorizmlə mübarizədə dövlətlərin birgə əməkdaşlığının hüquqi nizamlama qaydaları qaydaya salınır.

Hələ İkinci Dünya müharibəsindən öncə Millətlər Liqasında Terrorçuluq Aktlarının Qarşısının Alınması və Terrorçuların Cəzalandırılması Barədə Konvensiya (1937), bir də Beynəlxalq Məhkəmənin yaradılması (1945) haqqında saziş işlənib hazırlanmışdı. Bu sənədlərin qəbul edilməməsinə baxmayaraq hər halda belə bir ümumi anlayış formalaşmışdı: iştirakçı dövlətlər terrorizmi cinayət aktı kimi qiymətləndirməyi, o cümlədən, sui-qəsdi, terrora təhrikçiliyi, buna bənzər aktlarda əlbirliyini cinayət saymağı, bəzi hallarda bu cinayətlərdə günahlandırılanları tapıb təhvil verməyi öhdələrinə götürdülər. Terrorizm aktlarının qarşısının alınması və terror fəaliyyətinə görə cəzalandırma barədə Konvensiyada ilk

dəfə olaraq terroriz mlə mübarizə haqqında milli qanunvericiliyin beynəlxalq hüquq normaları ilə uyğunlaşdırılmasının gərəkliliyi göstərilmişdi.

Terrorizmlə mübarizə üzrə dövlətlərarası əməkdaşlıq II Dünya Müharibəsindən sonra aktivləşdi. 1973-cü ildə BMT-nin Baş Assambleyası beynəlxalq müdafiə statusu olan şəxslərə, o cümlədən, diplomatik nümayəndələrə qarşı cinayətlərin qarşısının alınması və cəzalandırma haqqında konvensiya qəbul etdi. Bu konvensiyada qeyd olunur ki, bu cür oxşar cinayətlər "bu şəxslərə təhlükə törətməklə normal beynəlxalq münasibətlərin qorunmasma çox ciddi təhlükə yaradır". Konvensiyada qeyd edilir ki, hər bir iştirakçı dövlət bu cür cinayətlərə uyğun olan cəzaları əsas götürməlidir, həmçinin, cinayətkarların üzərində öz mühakimə hüququnu müəyyən etmək üçün tədbirlər görür.

Hazırda BMT-nin himayəsi altında terrorçuluqla mübarizə ilə bağlı dövlətlərin çoxtərəfli əməkdaşlıq sistemi inkişaf edir. Beynəlxalq birlik hava nəqliyyatının təhlükəsizliyinin təminatı ilə bağlı və ona qarşı terror aktlarının qarşısınm alınması ilə əlaqədar bir sıra konvensiyalar işləyib və qəbul edib. Hava nəqliyyatının bortunda törədilən cinayətlər və buna bənzər aktlar haqqında Monreal konvensiyası (1963), hava nəqliyyatını qanunsuz ələ keçirtməklə mübarizə haqqında Monreal konvensiyası da (1970) bu sıradandır. Həmçinin, mülki aviasiyanın təhlükəsizliyi əleyhinə yönəlmiş qanunsuz aktlarla mübarizə ilə bağlı Monreal konvensiyası (1971) və s.

Sadaladıqlarımıza əlavə edək: Beynəlxalq aeroportlarda qanunsuz zorakılıq aktları ilə mübarizə haqqında Protokol (1988), Nüvə Materialının Fiziki Qorunması Haqqmda Konvensiya (1980) və plastik partlayıcı maddələrin aşkarlanması məqsədi ilə nişanlanması haqqmda Konvensiya (1991). Bu konvensiya həmin maddələrdən istifadə etməklə terror aktı törədilməsinə xəbərdarlıq məqsədi ilə qəbul edilib. 1988-ci ildə Romada dəniz gəmiçiliyinin təhlükəsizliyi əleyhinə yönəl-

dilmiş qanunsuz aktlarla mübarizə haqqmda konvensiya qəbul edilib.

Dünya ictimaiyyəti terrorçuluğun ənənəvi təzahürü olan sərnişinlərin girov götürülməsinə dəyər verərək bütün dünyaya onlarla mübarizə aparmaqla bağlı tədbir görməyi, o cümlədən, uyğun milli qanunlarla mübarizə aparmağı təklif edir.

Beynəlxalq qanunyaradıcılığı fəaliyyəti 2001-ci il 11 sentyabr terror aktından sonra xüsusilə fəallaşdı. BMT TŞ 2001-ci il 28 sentyabrda 1373 saylı qətnamə qəbul edir ki, buna əsasən Anti-terror Komitəsi yaranır. Onun əsas əhəmiyyəti anti-terror əməkdaşlığını inkişaf etdirmək, beynəlxalq ictimaiyyətə hər bir terror aksiyasının beynəlxalq sülh və təhlükəsizliyə potensial qorxu olmasını başa salmaqdır. Bu zaman bütün BMT-yə üzv dövlətlərin terrorizmə qarşı mübarizə üçün vəsait aldıqları praktik tədbirlər çərçivəsinə xüsusi diqqət yetirilir. Komitə dövlətlərin 12 beynəlxalq anti-terror konvensiya və protokollarında hamılıqla iştirakına kömək edir. Üzv dövlətlər terror fəallığının qarşısını almaqda milli orqanların fəaliyyəti barədə məruzələrini komitəyə təqdim edirlər.

"Böyük səkkizlər"in hər sammitində terrorizmin bütün formaları ənənəvi olaraq kəskin tənqid olunur, terrorizmlə mübarizənin zəruri və bu sahədə hər hansı güzəştin qəbuledilməz olması bildirilir.

Terrorizmə qarşı mübarizənin sirayətedici siyasi və hüquqi potensialı regional səviyyədə də yaradılıb. Bu kontekstdə Amerika Dövlətləri Təşkilatının beynəlxalq məzmunlu, ayrı-ayrı şəxsiyyətlərə qarşı cinayət xarakteri daşıyan terrorizm aktlarının qarşısının alınması və səbəbkarların cəzalandırılması haqqındakı konvensiyasını (1971) yada salmaq yerinə düşər. Eləcə də terror aktı törədən şəxslərin təhvil verilməsini nəzərdə tutan, Terrorizmin qarşısınm alınması haqqında Avropa Konvensiyası (1977), Cənubi Asiya Ölkələri Regional Əməkdaşlığı Assosiasiyasının (SAARK) terrorizmin məhv edilməsi haqqmda regional konvensiyası (1988), Terrorizmin

qarşısınm alınması və onunla mübarizə haqqında Afrika Birliyi Təşkilatının (ABT) Konvensiyası (1999), İslam Konfransı Təşkilatının (İKT) Beynəlxalq terrorizmlə mübarizə haqqqında Konvensiyası (1999), Terrorizm, separatizm və ekstremizmlə mübarizə haqqinda Şanxay Konvensiyası (2001), Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) İştirakçı dövlətlərin regional anti-terror strukturunun yaradilmasi haqqında Razılaşma (2002), MDB-yə üzv Dövlətlər arasında Terrorizmlə mübarizədə əməkdaşliq haqqında Müqavilə (1999), MDB dövlətlərinin beynəlxalq terrorizm və ekstremizmin başqa formaları ilə 2003-cü ilədək mübarizə proqrami və b. göstərmək olar.

MDB dövlət başçıları şurasının 25 yanvar 2000-ci il tarixli "ATƏT-in İstanbul Sammitinin nəticələri fonunda Beynəlxalq Terrorizmlə Mübarizə Haqqında" qərarına uyğun olaraq, MDB çərsivəsində "MDB dövlətlərinin Beynəlxalq terrorizm və ekstremizmin başqa formaları ilə mübarizə Proqramı" müntəzəm işlənib hazırlandı. Bu proqram MDB dövlətlərinin terror aktları və ekstremizmin başqa formalarının aşkarlanması, qarşısınm alınması, məhv edilməsi və istintaqı məsələlərində əməkdaşlığın həyata keçirilməsi məqsədi ilə qəbul edilir. Proqrama görə, 2003-cü ilədək qəbul edilmiş birinci dərəcəli tədbirlər kimi aşağıdakılar qeyd olunur: "2000-ci il MDB dövlətlərinin terrorizmlə mübarizəyə istiqamətlənmiş uyğun beynəlxalq müqavilələrə qoşulması, habelə "MDB Anti-terror Mərkəzi"nin yaradılması. ATM MDB-nin beynəlxalq terrorizm və ekstremizm ilə mübarizə sahəsində səlahiyyətli orqanların qarşılıqlı hərəkətlərinin koordinasiyası üçün nəzərdə tutulan, daimi fəaliyyətdə olan xüsusi sahə orqanıdır.

MDB Parlamentlərarası Assambleya ilə birgə terrorizmə qarşı effektiv müqavimət göstərmək üçün vahid hüquq cəmiyyəti yaratmağa cəhd göstərdi. Göstərilən ərazidə model qanunları və digər normativ aktların qəbul edilməsi MDB ölkələrində milli qanunvericiliyin formalaşma proseslərinə təsir göstərir. MDB dövlət orqanlarınm qarşılıqlı əlaqəsinin yaradılmasına

dəstək verən sənədlərə terror aktlarının araşdırılması, onlarla bağlı xəbərdarlıqlar edilməsi məsələləri ilə bağlı olaraq 4 iyun 1999-cu ildə imzalanmış "MDB dövlətlərinin terrorizmə qarşı mübarizədə əməkdaşlığı haqqında razılaşma" sənədi aiddir.

Azərbaycan da bu prosesdən kənarda qalmamışdır. Bölgədə 1999-cu ildə qəbul edilmiş "Terrorizmlə mübarizə" qanunu hakimdir. Azərbaycan əminliyini ifadə edir ki, terrorizmlə mübarizə üçün beynəlxalq əməkdaşlığın əldə olunması və bu məqsədə nail olmaq üçün qlobal beynəlxalq hüquq sənədlərinin işlənilməsi prioritet təşkil edən məsələlərdir.

İlk dəfə Rusiya və ABŞ-da yaradılan birgə işçi qrupları şəklində təzahür edən hüquq-mühafizə orqanları və xüsusi xidmət orqanlarının qarşılıqlı əlaqələri son vaxtlar genişlənmişdir. Bu cür qarşılıqlı əlaqə formalarınm inkişafı nəticəsində Rusiya, Hindistan və Çin, Böyük Britaniya və ABŞ tərəfindən Hindistan və Pakistanla bağlı analoji işçi qrupları yaradılmışdır.

1994-cü ildə BMT Baş Assambleyasınm 49-cu sessiyasında qəbul edilmiş Beynəlxalq terrorizmlə mübarizə bəyannamədə qeyd edilmişdi ki, "heç bir ideoloji, irqi, etnik, dini və başqa motiv terror atmosferi yaratmağa yönəlmiş cinayət xarakterli fəaliyyətlərə haqq qazandıra bilməz". Bu cinayətlərlə mübarizə üçün əsas məsuliyyət milli səviyyədə və öz qanunvericilikləri çərçivəsində tədbirlər görməli olan dövlətə məxsusdur. Terrorla mübarizə ilə bağlı danışıqların əsasında "ya ələ ver, ya cəzalandır" prinsipi dayanır.

Hazırda beynəlxalq terrorizmə müqavimət göstərmə sahəsində ilk planda xoş məram prinsipi dayanır. Terrorizmə müqavimət məsələsinə bütün sivil ölkələr tərəfindən əsas ümumdövlət məsələsi kimi yanaşılır. Bu sahədə fəaliyyətin ən əsas istiqamətləri: terrorizmi dəstəkləyən ölkələrə maksimum təzyiqin göstərilməsi, xüsusi orqanlar arasında qarşılıqlı əlaqə cəhdləri, terrorizm problemi ilə məşğul olan əməkdaşların hazırlanması. Lakin məsələ beynəlxalq əməkdaşlıqdan ibarət olduğundan hüquqi bazanın yaradılması ön planda dayanır.

Hər şeydən əvvəl çoxtərəfli beynəlxalq – hüquqi vasitələrə, eləcə də BMT bəyannaməsinə əsaslanaraq bəşəriyyət müasir təhlükələrə qarşı qlobal müqavimət sistemi yaratmalıdır, onun əsasında üçüncü minilliyin əvvəlində qarşıya çıxan məsələlərə effektiv və adekvat reaksiyalar müəyyən etməlidir.

Hindistan layihəsinin son razılaşdırılmasına və qəbuluna üç faktor mane olur: "Terrorizm" anlayışının təyini məsələsində fikir ayrılığı, hərtərəfli konvensiyada artıq fəaliyyət göstərən anti-terrorizm alətlərinin nisbəti, həmçinin, müxtəlif qrup dövlətlərin "terrorizm" anlayışına, "xalqın öz müqəddəratını təyin etmə hüququ" və "xarici işğalçılarla mübarizə"yə müxtəlif yanaşmalar terror çağırışlarına beynəlxalq birliyin birmənalı koordinasiyalı cavabının mümkünlüyünü ciddi dərəcədə zəiflədir, dünya birliyi müasir şəraitdə bu cavabı verməyə məcburdur.

## ƏDƏBİYYAT:

1. Емельянов В.П. Проблемы ответственности за международный терроризм. Ответственность государств. М., 1998.
2. Закон Азербайджанской Республики "о борьбе с терроризмом", от 30 июля 1999.
4. Колосов Ю.М. Международное право. М., 2000.
3. Ляхов Е.Г. Терроризм и международные отношения. М., 1991.
5. Международное сотрудничество в области борьбы с терроризмом // Сборник правовых актов. М., 1998, №10.
6. Савельев Н.И. ООН и международное сотрудничество. М., 2001.
7. Севдималиев Р.М. Международный терроризм - глобальная проблема современности. Б., 2004.
8. Сурмава Л.Р. Принципы правового регулирования международного сотрудничества области борьбы с терроризмом. http:anthropology. ru/ru/text/surmava/index.

## 6.3. Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqı və Avropa Şurası beynəlxalq terrorizmə qarşı mübarizədə

Hazırda beynəlxalq terrorizm problemi üzrə mövcud razılaşmalar əsas verir ki, terror aktları törədən şəxslərə qarşı milli (dövlətdaxili) səviyyədə cinayət cəzasının qaçılınazlığı prinsipi həyata keçirilsin. Belə ki, müxtəlif ölkələrdə son terror aktlarının baş verməsi beynəlxalq hüquqi bazanın hələ də mükəmməl olmamasını açıq-aşkar hiss etdirir və hələ də çox məsələlər öz həllini gözləyir. Lakin əsas bir şey həll olunub – terrorizmin qeyri-hüquqi olması haqqında ümumbəşəri müzakirə və qəbul prinsipi beynəlxalq cəmiyyət tərəfindən təsdiq olunmuş əsas prinsipdir. Bu prinsipin həyata keçirilməsində atılan birinci əsas addım BMT Baş Assambleyasınm səsvermədən 40/61 saylı qətnaməni 9 dekabr 1985-ci il tarixində qəbul etməsi oldu. Qətnamədə deyilir: BMT sözsüz olaraq, metod və təcrübələri, harada və kim tərəfindən törədilməsindən asılı olmayaraq, bütün dünya ölkələrinin dostluq münasibətlərini və təhlükəsizliyini təhlükə altında saxlayan terroru, bütün cinayət aktları kimi, mühakimə edir. Bu vəziyyətin daha sonra müəyyən qədər hüquqi cəhətdən möhkəmlənməsi 1988-ci il Roma konvensiyasının ınüqəddiməsində öz əksini tapır.

Keçmiş onilliklər ərzində terrorizmin qeyri-hüquqiliyi BMT-nin bir sıra sənədlərində konkretləşdirilərək inkişaf etdirilmişdir. Daha mərkəzləşdirilmiş formada bu məsələ 1994-cü il tarixli BMT Baş Assambleyasınm 49-cu sessiyasında beynəlxalq terrorizmin ləğv edilməsi tədbirləri bəyannaməsində öz əksini tapıb. Bəyannamənin aşağıdakı müddəaları olduqca vacibdir: "Geniş ictimaiyyət arasında terror şəraiti yaratmağa yönəldilmiş yaxud hesablanmış cinayət hərəkətlərinə, o hərəkətlərin bağışlanmasında əsas gətirilən siyasi, fəlsəfi, ideoloji, irqi, etnik, dini yaxud başqa xarakterli mülahizələr haqq qazandıra bilməz".

Bəyannamə, dövlətləri terror fəaliyyətinin təşkilindən, terrora təhrik, onun həyata keçirilməsi və maliyyələşdirilməsindən, yəni terrorizmin sponsorlaşdırılmasından birdəfəlik imtina etməyə məcbur edir, eləcə də onları, terror aktı törədən şəxslərin tutulmasını təmin etməyə, cinayətkarların məhkəmə tərəfindən izlənməsinə və məhkəməyə təhvil verilməsinə şərait yaratmağa, terrora qarşı birlikdə mübarizə aparmağa çağırır. Həmçinin, dövlətlərə, bütün universal beynəlxalq anti-terror müqavilələrdə iştirak etmək təklif olunur.

Göstərilən vəziyyətlərin hamısı hələ beynəlxalq hüququn hamı tərəfindən təsdiq edilən norması olmasa da, onların BMT üzvü olan ölkələr üçün əxlaqi-siyasi məcburiyyəti göz qabağındadır. Ümumiyyətlə görünür ki, bu prinsiplərin konvensiya müstəvisinə keçirilməsi beynəlxalq terror əleyhinə əməkdaşlığın inkişafmda növbəti addımdır.

Beynəlxalq terror əleyhinə mübarizəyə BMT-nin Təhlükəsizlik Şurası da aktiv qoşulmağa başlamışdır. 19 oktyabr 1999-cu ildə Rusiyada baş vermiş hadisələrin ardınca BMT-nin Təhlükəsizlik Şurası Rusiyanın təşəbbüsü ilə 1269 saylı qətnamə qəbul etdi. Bu qətnamədə terrorizmin qəti ittiham olunması, onunla kollektiv mübarizənin mühüm istiqamət və prinsipləri qeyd edilir, habelə dövlətlərin birgə mübarizələrinin hüquqi bazasınm möhkəmləndirilməsi, terrorçulara hər hansı kömək və sığınacaq verilməsindən imtina edilməsi və törətdikləri hər bir cinayət əməlinə görə qarşısıalınmaz cəzanın təmin edilməsi də öz əksinin tapıb.

BMT-nin Təhlükəsizlik Şurasının iclasında 1269 saylı qətnamənin müzakirəsində qeyd edilir ki, hazırda heç bir ölkə terrorizm probleminə göz yuma bilməz, yaxud bu problemi yalnız təkbaşına özü həll edə bilməz. Terrorizm beynəlmiləlçiliyi əksər hallarda ona qarşı çıxan dünya ictimaiyyətini ötüb keçib və öz məqsədlərinə çatmaq üçün beynəlxalq birgə hərəkətlər şəbəkəsi qurub. Qeyd olunub ki, bu miqyaslı təhlükəni istisnasız bütün dövlətlərin birliyi olmadan dəf etmək mümkün deyil.

Terror əleyhinə beynəlxalq mübarizədə BMT-nin fəaliyyətində yeni mərhələ 11 sentyabr 2001-ci ildə Nyu-York, Vaşinqton və Pensilvaniyada baş vermiş terror aktlarından sonra başlayır. 12 sentyabr 2001-ci ildə yekdilliklə qəbul edilən 1368 saylı qətnamədə Təhlükəsizlik Şurası bu terror hücumlarını mühakimə edərək, bütün ölkələri təcili olaraq bu hadisəni törədənləri, təşkilatçıları və sponsorları ədalət məhkəməsinə verməyə, onları dəstəkləyənləri və gizlədənləri məsuliyyətə cəlb etməyə çağırdı. Şura, həmçinin, beynəlxalq ictimaiyyəti terror aktlarının qarşısını almaq üçün səylərini ikiqat artırmağa, həmçinin beynəlxalq terror əleyhinə fəaliyyət göstərən Təhlükəsizlik Şurasının qəbul etdiyi konvensiya və qətnamələri, xüsusilə də 19 oktyabr 1999-cu il tarixli 1269 saylı qətnaməni tam həyata keçirmək üçün əməkdaşlığı genişləndiməyə çağırır. Nəhayət ki, Şura 11 sentyabr 2001-ci il terror hücumlarına qarşı kəskin reaksiya verərək, BMT-nin qanunlarına əsasən bütün növ terror aktları ilə mübarizə aparmaqda bütün addımları atmağa hazır olduğunu bildirdi.

28 sentyabr 2001-ci ildə BMT-nin TŞ-sı ABŞ-da törədilən terror aktlarını kəskin ittiham edən 1373 saylı geniş qətnamə qəbul etdi. Bu qərar, terror fəaliyyətlərinə qarşı mübarizədə BMT-nin mərkəzi koordinasiyaedici rolu ilə çoxşaxəli əməkdaşlığın genişlənməsinə nəhəng tamamlayıcı impuls verir. Qətnamənin əhəmiyyəti hər şeydən öncə ondadır ki, burada ilk dəfə beynəlxalq terrorizm aktları beynəlxalq sülh və təhlükəsizlik üçün təhlükə kimi qeyd olunur.

Qətnamə əvvəllər qəbul edilmiş anti-terror qərarlarını inkişaf etdirərək, beynəlxalq terrorizmin xarici qidalandırıcı mənbələrini müəyyən etməyi bildirir. Onda milli, regional və beynəlxalq səviyyələrdə, bütün ölkələr üçün həlli vacib olan geniş tədbirlər toplusu nəzərdə tutulur. Onlara riayət olunmadığı halda, BMT-nin TŞ-sı qanunu pozanlara qarşı sanksiya tətbiq edə bilər. Bu onunla bağlıdır ki, BMT TŞ-sı beynəlxalq terror hərəkətlərini beynəlxalq sülh və təhlükə-sizlik üçün təhlükə kimi

qeyd etmişdir. 1373 saylı qətnamənin qeyd etdiyi praktik tədbirlər arasında xüsusilə terror hərəkətlərinin maliyyələşdirilməsinin qadağan edilməsi, terrorizmə yardım üçün istənilən dövlətin ərazisində vəsait yığımı ilə bağlı istənilən hərəkətin cinayət elan edilməsi, dövlətlərə terroristlərin ələ alınmasında və silahlandırılmasında hər bir fəaliyyətə son qoymaq tələbi, terroristlərin qanunsuz girişini kəsmək üçün sərhəd nəzarətinin gücləndirilməsi, terrorizmlə mübarizə məsələlərində informasiya mübadiləsi və əməkdaşlığı, BMT-nin terrorizmlə mübarizə üzrə fəaliyyətdə olan beynəlxalq konvensiyalarına bütün dövlətlərin tezliklə qoşulması müddəaları daha vacibdir. Bu zaman nəzərdə tutulur ki, dövlətdaxili qanun və qərarlarda terror hərəkətləri ciddi qanun pozuntusu kimi təsbit olunmalıdır, cəzalar isə belə terror hərəkətlərinin ciddiliyini ehtiva etməlidir.

Qətnamə terrorizmlə mübarizənin bütün aspektlərini özündə birləşdirir. Onun beynəlxalq terrorizmin bütün maliyyə kanallarmı bağlamaq, mütəşəkkil cinayətkarlıqla, narkobizneslə, çirkli pulların yuyulması ilə, qanunsuz silah, eləcə də nüvə, kimyəvi, bakterioloji və digər potensial öldürücü materialların alveri ilə bağlı müddəaları xüsusi əhəmiyyət daşıyır.

ABŞ-da törədilmiş 2001-ci il 11 sentyabr hücumundan sonra BMT TŞ, Baş Assambleya və Baş katibin qəbul etdikləri qərarları tamamlayaraq BMT-nin bir çox üzvləri bəzi dövlətləri terrorizmi dəstəkləməkdən çəkindirmək və terrorizmlə mübarizədə onların imkanlarının möhkəmləndirilməsi sahəsində özlərinin anti-terror fəaliyyətlərini gücləndirdilər. Sənəddə insan haqlarına hamılıqla hörmət olunması zərurəti və terrorizmlə mübarizənin fundamental əsaslarında hüququn aliliyi qeyd olunur.

"Terrorizmlə mübarizədə birlik: qlobal anti-terror strategiyası üzrə məsləhətlər" sənədində deyilir ki, dövlətlər terrorizmi qidalandıran şəraitin aradan qaldırılması üçün tədbirlər görməlidir. Bu şərtlərə uzanan nizamlanmamış konfliktlər, terrorizm qurbanlarının dehumanizasiyası, insan haqlarının yoxluğu, eləcə də etnik, milli və dini diskriminasiya aid

edilir. Qidalandırıcı şərtlərin sırasında siyasi qapalılıq, sosial-iqtisadi haşiyəlilik və uyğun dövlət hakimiyyətinin olmaması da qeyd olunur. Eyni zamanda strategiyada deyilir ki, bu şərtlərdən heç biri terrorizm aktının əsaslandırılması və bəraəti üçün haqq vermir, dövlətlər hərəkət imkanından məhrum etməyə öhdəlik götürürlər. Onlar hamını terror hərəkətlərinin təşkilindən, ona köməkdən, təhrikçilikdən, iştirakdan, maliyyələşdirmədən, mükafatlandırmadan yaxud terror hərəkətlərinə münasibətdə dözümlülük göstərməkdən çəkinməyə çağırdılar.

Strategiyada qeyd olunur ki, dövlətlər bütün tədbirləri görməlidir ki, onların əraziləri öz vətəndaşlarına yaxud başqalarına qarşı yönəlmiş terror aktlarının hazırlanması və təşkili üçün təlim düşərgələrinə və terror obyektlərinin yerləşməsi məkanına çevrilməsin. Strategiya ərazilərin terror iştirakçılarının sığınacaq yerinə çevrilməsinə yol verməməyə çağırır. Strategiyada deyilir ki, "terrorizmlə mübarizə və insan haqlarının müdafiəsi tədbirləri bir-birinə zidd deyil, əksinə bir-birini tamamlayan və möhkəmləndirən məqsədlərdir".

Qətnamənin əsasında TŞ-nın 15 üzvündən ibarət Terrora Qarşı Mübarizə Komitəsi (TMK) yaradılmışdır. Bu komitəyə 1373 saylı qətnamənin yerinə yetirilməsinə nəzarəti lazımi ekspertlərin cəlb olunması ilə həyata keçirmək tapşırılmışdır. Qrafikə əsasən dövlətlər bu məsələ ilə əlaqədar gördükləri tədbirlər haqqında məruzələri bu komitəyə təqdim etməlidirlər. TMK BMT-nin rəhbərliyi altında beynəlxalq terrorizmlə mübarizə sahəsində beynəlxalq səyləri birləşdirmək və koordinasiya etməkdə başlıca rol oynayır. Komitənin əsas məqsədləri anti-terror əməkdaşlığın inkişaf etdirmək, istənilən terror hərəkətinin beynəlxalq sülh və təhlükəsizliyə qorxu olmasını beynəlxalq birliyə başa salmaqdır.

Bu zaman BMT-yə bütün üzv dövlətlərin terrorizmə qarşı mübarizə üçün vəsait aldıqları çərçivədə görülən praktik tədbirlərə xüsusi diqqət yetirilir. Komitə 12 beynəlxalq anti-terror konvensiya və protokollarında hamının iştirakına kömək

edir. Üzv-dövlətlər milli orqanların terror fəallığının qarşısının alınmasında fəaliyyətləri haqqında öz məruzələrini komitəyə təqdim edirlər. Əhəmiyyətlidir ki, TMK yalnız öz fəaliyyətində dövlətlərin terrorla mübarizəyə aid qəbul etdikləri tədbirlər barədə onun sərəncamına təqdim etdikləri məruzələrin analizi ilə məhdudlaşmır. O həm də həmişə dövlətlərə 1373 saylı qətnamə üzrə öhdəliklərin effektiv yerinə yetirmələri üçün zəruri konsultativ və texniki yardım da edir. Bu komitənin yanında beynəlxalq terrorizmlə mübarizə sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi üzrə ekspertlər qrupu yaradılıb. Qrupun işi 6 əsas istiqamətdə aparılır: məsələn, dövlət və beynəlxalq qanunvericilik, qanunvericilik və terrorizmlə maliyyə, hüquqi və gömrük sferalarında mübarizə məsələlərinin praktik reallaşması, eləcə də qanunsuz silah alveri ilə mübarizə sahəsində və b. TMK-nın anti-terrorizm problematikası ilə məşğul olan başqa beynəlxalq qurumlarla sıx əməkdaşlıq yaratmaq sahəsində apardığı fəal işlər də böyük əhəmiyyət daşıyır. TŞ-nın 26 mart 2004-cü il tarixli 1535 saylı Qətnaməsinə uyğun olaraq TMK işlərin gücləndirilməsi və koordinasiya edilməsi məqsədi ilə Terrora Qarşı Mübarizə Komitəsinin İcraçı Direktorluğunu yaratmışdır (TMK-nın İD).

Ümumilikdə BMT TŞ-nın 1373 saylı qətnaməsi beynəlxalq terrorizmlə mübarizə üçün geniş beynəlxalq hüquqi baza yaradır.

1373 saylı qətnamənin qəbul edilməsi təkcə praktik deyil, həm də böyük siyasi əhəmiyyət daşıyır. Bu qərar geniş beynəlxalq anti-terror koalisiyasımn formalaşmasının siyasi-hüquqi əsasını möhkəmləndirdi. O da vacibdir ki, BMT TŞ yaradılmış xüsusi komitənin köməyi ilə bu qətnamənin həyata keçirilməsinə nəzarət etməyə başladı. Bununla da, BMT TŞ-nın öz nizamnaməsinə uyğun olaraq beynəlxalq sülh və təhlükəsizliyin qorunmasında əsas cavabdehliyi bir daha təsdiq olundu.

BMT-nin terrorizmlə mübarizəsinin başqa forması terrorçu təşkilat və qruplara qarşı sanksiyaların qəbul edilməsi, habelə ölkələr tərəfindən bu sanksiyalarm yerinə yetirilməsi monitorinqləri üzrə tədbirlərdir. Məsələn, Nyu-Yorkda faciəli

1999-cu il hadisələrindən sonra TŞ-nin 1999-cu il tarixli 1267 saylı qətnaməsinə uyğun olaraq "Əl-Qaidə"yə qarşı sanksiyalar üzrə Komitə yarandı ki, bu komitə "Taliban" hərəkatına və Ben Ladenin terrorçu qruplaşmasına qarşı sanksiyalara riayət olunmasın nəzarət etməli idi. 2003-cü ilin yanvarında Təhlükəsizlik Şurası 1455 saylı qətnamə ilə Ben Ladenə, "Əl-Qaidə" təşkilatına, "Taliban"a qarşı, eləcə də onlarla əlaqədə olan şəxs və təşkilatlara qarşı tamamlayıcı sanksiyalar çıxardı. Bu və ya başqa şəxsin və təşkilatın bu siyahıya daxil edilməsi o deməkdir ki, onun maliyyə və iqtisadi vəsaiti dondurulmalı, BMT-nin bütün üzvləri onun silah, hərbi texnika və s. almasma mane olmalıdır. Bütün ölkələr "Əl-Qaidə"yə Qarşı Sanksiyalar Üzrə Komitənin siyahısında olan şəxs və təşkilatlara qarşı bütün bu tədbirlərə əməl etməlidirlər. Bu orqan terror fəaliyyəti ilə məşğul olan şəxs və təşkilatların "sanksiya siyahısı"nı aparır və onu bütün dövlətlərə təqdim edir. Dövlətlər bu məqsədlə görülən tədbirlər haqqında ardıcıl hesabat verirlər.

1 oktyabr 2001-ci ildə BMT Baş Assambleyası özünün 56-cı sessiyasında ilk dəfə beynəlxalq terrorizm problemini bütün aspektləri ilə müzakirə etməyə başladı. Buna BMT-nin baş katibi Kofi Annanın müraciəti əsas təkan verdi.

8 sentyabr 2006-cı ildə BMT BA qlobal anti-terror strategiyasını konsensus yolu ilə bəyəndi. Bu strategiya terrorizmin yayılmasına səbəb olan şəraitin aradan qaldırılması və terrorla mübarizə üzrə hərəkətlərin planını nəzərdə tutur. Onda habelə bu sahədə dövlətlərin və BMT-nin potensialımn möhkəmləndirilməsi üzrə addımlar təsbit olunur. Ayrılıqda adamları inandırmaq lazımdır ki, terrorizmdən istifadə və ona dəstəkdən imtina etsinlər, terrorçuları hücum üçün maddi imkanlardan məhrum etsinlər, dövlətlərin terrorizmlə mübarizə sahəsində imkanlarım möhkəmlətməyə kömək göstərsinlər. Sənəddə o da qeyd olunur ki, terrorizmlə mübarizənin fundamental əsası kimi insan hüquqlarına hörmət və hüququn aliliyi götürülməlidir.

Nüvə terrorizmi təhlükəsinə qarşı mübarizə məqsədi ilə atom enerjisi üzrə Beynəlxalq Agentlik üzv ölkələrin ərazisindəki nüvə obyektlərinin təhlükəsizlik sisteminin yoxlanması, onların təhlükəsizlik dərəcəsinin yüksəldilməsi üçün gərəkli tədbirlərin müəyyənləşdirilməsi və bu tədbirlərin reallaşmasından ötrü zəruri işlərin təşkili üçün öz potensialını möhkəmləndirir. Agentlik habelə nüvə materiallarının oğurlanmasının qarşısının alınması üzrə tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədi ilə görülən işlərdə də fəal iştirak edir. Təşkilat, həmçinin, nüvə enerjisinə aid informasiyaların yığılması və yayılması ilə məşğul olan, 115 nəfərdən ibarət Beynəlxalq İnformasiya Sistemindən istifadə olunmasına da cavabdehdir.

BMT-nin başqa əsas tərkib hissələrindən biri olan Kimyəvi Silahların Qadağan Edilməsi Üzrə Təşkilat belə silahların istehsalı üçün istifadə oluna biləcək kimyəvi maddələrin yerdəyişməsini izləyir, kimyəvi silahların potensial istifadəsi ilə bağlı tədqiqatların aparılmasını təmin edir və bu məsələ üzrə məlumatları təqdim edir, habelə Kimyəvi Silahlar Haqqında Konvensiyanın həyata keçirilməsi ilə məşğul olur.

2001-ci il 11 sentyabr hadisəsindən sonra bir neçə ay ərzində aviareyslərin təhlükəsizliyinin yüksəldilməsinə yönəlmiş, aeroportlarda təhlükəsizlik sisteminin qiymətləndirilməsi məqsədi ilə müntəzəm məcburi yoxlamalar rejimini tətbiq edən Mülki Aviasiya Beynəlxalq Təşkilatının yeni strategiyasını dünyanın 154 ölkəsi dəstəklədiklərini bildirdilər.

Beynəlxalq Dəniz Təşkilatınm bir işçi qrupu dənizdə terror aktları ehtimalının azalmasına yönəlik gəmilərdə təhlükəsizlik tədbirlərinin təkmilləşdirilməsi məqsədi ilə 12 təklif işləyib hazırladı. Bu təkliflər beynəlxalq sularda su tutumu 500 tondan yuxarı olan bütün gəmilərdə məcburi avtomatik eyniləşdirmə sisteminin yaradılmasını, eləcə də belə gəmilərdə təhlükəsizliyin təminatı planının və heyətin tərkibində təhlükəsizlik məsələləri əməkdaşlarının olmasını nəzərdə tutur.

Beynəlxalq Əmək Təşkilatı 11 sentyabr hücumundan sonrakı dövrdə turizm sektorunda işgüzar fəallığın kəskin azalmasının sosial nəticələrini yumşaltmağın yolları haqqında sahibkarlarla işçilər və hakimiyyət nümayəndələri arasında informasiya mübadiləsi təşkil etdi.

BMT-nin terrorizmlə mübarizə və onun qarşısının alınması çərçivəsində onun narkotik vasitələr və cinayətkarlıq üzrə BMT İdarəsinin fəaliyyətini də qeyd etmək gərəkdir. Bu idarə millətlərarası və beynəlxalq terrorizmlə mübarizə üzrə geniş proqrama malikdir. Beynəlxalq terrorizmə qarşı mübarizədə Avropa İttifaqının və Avropa Şurasının apardığı mübarizə mühüm əhəmiyyətə malikdir.

2001-ci ildə Avropa İttifaqı belə bir sənəd qəbul etmişdir. Bu sənəddə azad fəaliyyət imkanı öz əksini tapmışdır. Terrorizm və silah satışının genişləndirilməsi və regional konfliktlər Avropa Birliyinə xələl gətirirdi. 2001-ci ilin sentyabrında Brüsseldə Böyük Britaniya interpolun rolunun genişləndirilməsinə dair çıxış etdi. Üç ay sonra 29 dekabr 2001-ci ildə Laaken sammitində qəbul olundu və bu sənəd "Ümumi mövqe" adlandı. Sonra İspaniya tərəfindən həbs üçün vahid "Avropa orderi"nin olması təklifi irəli sürüldü.

Lakin bir neçə ildən sonra məlum oldu ki, xüsusi xidmət qənaətbəxş deyildir, buna görə də 17 fevral 2004-cü ildə Almaniya, Fransa, İtaliya və İspaniyanın Daxili İşlər Nazirlikləri dörd ölkədən ibarət birgə təhlükəsizlik sistemi yaradılmasına dair razılığa gəldilər.

2004-cü ildə İspaniyada keçirilmiş terror aktlarına qarşı koordinator postu yaratmaq planını qəbul etdilər. Bunun da əsasında 2004-cü ildə həbsə vahid Avropa orderi təsis edildi. Əgər order əvvəllər bir il müddətində verilirdisə indi, o, iki ay müddətində verilir.

Avropa İttifaqı vahid polis xidmətinin yaranması məsələsinə hələ 1992-ci ildə Maastrixt razılaşmasında baxılmışdı. 1994-cü il yanvarın 3-də xidmət məhdud şəkildə fəaliyyət göstərirdi:

"Narkotik maddənin qanunsuz dövriyyəsinə qarşı Avropolun bölünməsi". 1998-ci ildə Avropa İttifaqının bütün üzv dövlətləri Avropol haqqında Konvensiyanı təsdiq etdilər və 1 iyun 1999-cu ildə qurumun qanuni fəaliyyətə başladı. Avropa İttifaqı vahid polis qurumunun əsas vəzifəsi beynəlxalq təşkilatların qanunsuz fəaliyyətinin qarşısını almaq və beynəlxalq polis qurumları ilə əməkdaşlığı genişləndirməkdir. Avropolun əsas vəzifələri arasında terrorizmə qarşı mübarizə, qanunsuz silah alveri, narkotik alveri, uşaq pornoqrafiyası və çirkli pulların yuyulması kimi məsələlər əsas yer tuturdu. Hazırda Avropol ümumilikdə Avropa İttifaqının bütün üzv dövlətlərinin polis sisteminin fəaliyyətinə nəzarət funksiyasını yerinə yetirir. Avropolun əsas məqsədi Konvensiyanın 2-ci hissəsindən irəli gəlir. Təbiidir ki, beynəlxalq polis sisteminin əsas prinsipi terrorizmə, narkotik maddə və digər şeylərin qanunsuz dövriyyəsi ilə bağlı mübarizədə əməkdaşlığa yönəldilmişdir. 2002-ci ildən etibarən "Avropol" üzv dövlətlərin araşdırma işlərinə nəzarət etmək eləcə də onlardan araşdırmalarını tələb etmək iqtidarına malikdir. Beləliklə, Avropa İttifaqı terrorizmlə mübarizədə bir qurum olaraq beynəlxalq təşkilatlarla əməkdaşlığını inkişaf etdirməkdədir.

Avropa İttifaqı ilə yanaşı Avropa Şurası da 1949-cu ildən etibarən terrorizmlə mübarizədə, insan haqlarını, ali qanunları və demokratiyanı müdafiə edən qurum kimi birgə əməkdaşlıq göstərməyə başlamışdır. Bunu da qeyd etmək lazımdır ki, hələ XX əsrin 70-ci illərində Avropa Şurası bu məsələ ilə məşğul olmuşdur. 2001-ci ildə ABŞ-a qarşı törədilmiş terror aktından sonra Nazirlər Kabineti Parlament Assambleyası və Ədliyyə Nazirliyi Konfederasiyası terrorizmə qarşı mübarizədə hərəkət planını hazırlamağı və həyata keçirməyi öz üzərinə götürdü. Hazırlanmış plan 2001-ci ildə Nazirlər Kabinetində qəbul olundu. Avropa İttifaqının terrorizmə qarşı mübarizəsi bir neçə istiqamətdə aparılırdı: insan azadlığı, insan hüquqlarının qorunması və terrorizmin yaranmasına ilkin səbəb kimi dini mədəniyyətin inkişafında əməkdaşlıq.

Beləliklə, Avropa Şurası terrorizm əleyhinə yönəldilmiş bütün beynəlxalq sənədləri işləyib hazırladı.

## ƏDƏBİYYAT:


1. Генеральная Ассамблея ООН одобрила глобальную стратегию борьбы с терроризмом. http://un.by/news/world/ 11-09-06-12.html/
2. Декларация о мерах по ликвидации международного терроризма от 9 декабря 1994 года. Статья 1, пункт 3.
3. Департамент общественной информации ООН. Борьба с терроризмом: процесс и вызовы. http://www. casdin.breenet.kr/id=01.05.1.3.J
4. Документы специального заседания Контр-террористического Комитета Совета Безопасности ООН. http://www.cis.minsk.by/main/
5. Козырев А. Совет Безопасности в борьбе против терроризма. http://www.rau.su/observer/№9-2003/9-05.html
6. Организация Объединенных Наций и мировая политика. 1945-2005. ООН и проблема международного терроризма.http://www.barichev.ru/public/oon.5.htm/
7. Терроризм. Правовые аспекты борьбы: нормативные и международно-правовые аспекты с комментариями // Под ред. И.Л.Трунова М., 2005.
9. Борьба с терроризмом. Деятельность Совета Европы. http://antiterunity.org/ru/incolab/booklet.php
10. Доклад Государственного департамента США о терроризме: обзор по Европе и Евразии. "Доклад о терроризме по странам за 2004 год". http://www.state. gov/s/ct/r/s/c14813.htm
11. Европейская система предотвращения терактов. http:// studies/agentura.ru/tr/reform/eurocounterrorism/

## 6.4. Erməni terror-separatizmi: kökləri, mənbələri və nəticələri

Terror hansı formada, hansı ölkədə baş verməsindən asılı olmayaraq beynəlxalq xarakter daşıyır. Terrorizm fərdi və ya kütləvi olmasından asılı olmayaraq o, separatizm yolunun başlanğıcında dayanaraq onunla birləşir və ümumi hərəkət edir.

Terrorizm separatizm kimi, böyük nəticələrlə yekunlaşır və bunlar hal-hazırda dünya birliyinin qarşısında durur. Müasir terror-separatizmin mənbə və kökləri qədim və orta əsrlərə, daha sonralar XVII – XVIII əsrlərə gedib çıxır. Hazırki terror anlayışının əsas inkişafı XIX əsrin II yarısında Rusiya və Osmanlı imperiyalarında geniş vüsət almışdı. Birinci halda bu, rus "narodovolçuları", ikinci halda isə erməni terror-separatçıları idi. Birincinin ikincidən fərqi odur ki, Rusiya imperiyasında terrorçuların fəaliyyəti separatizm xarakteri daşımır və beynəlxalq əhəmiyyət kəsb etmirdi. Sadəcə olaraq, öz kəskinliyi ilə çar rejiminin ayrı-ayrı xadimlərinə qarşı yönəlmişdi. Rus narodovolçuları və daha sonra eserlər, güman edirdilər ki, onlar ayrı-ayrı hakim rejim xadimlərini məhv etməklə sadə xalqın həyat tərzini yaxşılaşdıracaqlar. Bu utopiya, həyatakeçilməz bir arzu idi. Onlardan fərqli olaraq, erməni terror-separatçıları müasir beynəlxalq terrorizmin banisi olmuşlar. Bu da erməni terrorçularına bəşər tarixində, Türkiyə, Almaniya, ABŞ, İtaliya, Livan, Suriya, Rusiya və b. ölkələrdən sonra tüğyan edən bu xoşagəlməz hadisənin baniləri olmaq hüququ verir.

Erməni terrorizmi – bu, tamamilə başqa bir xarakterdə olan istiqamətdir; bir tərəfdən təşkil edilmiş qatı millətçilikdir, digər tərəfdən isə açıq separatizm, siyasi quldurluqdur.

Terror-separatizm XX əsrin ikinci yarısında daha geniş vüsət aldı. Müasir şəraitdə fərdi terrorizm və xüsusi separatizm univer-

sal, dövlət terror-separatizminə çevrilmişdir. Bu iki cərəyan çarpazlaşaraq, bir terror-separatizmin yaranması baş verdi. Klassik formada bu, öz mücəssəməsini 1987-1988-ci illərdə keçmiş SSRİ-də tapdı və öz başlanğıcını Azərbaycan Respublikasının ərazisində, Dağlıq Qarabağ Muxtar Vilayətindən götürdü.

Məhz burada SSRİ-nin prezidenti simasında M.S.Qorbaçovun və Erməni Sovet Sosialist Respublikasının razılıq və bilavasitə iştirakı ilə terrorizm terror-separatizminə çevrildi, bu da öz əksini Ermənistanın Ali Qanunvericilik orqanı – Ali Sovetinin 1 dekabr 1989-cu il tarixli Qətnaməsində Azərbaycan Respublikasının Dağlıq Qarabağ vilayətinin qəsb edilməsi və zorla Ermənistana birləşdirilməsində tapdı. Bu, müasir terrorizmin dövlət səviyyəsində klassik separatizm formasına çevrilməsidir. Bu cür izah nə ilə bağlıdır? Bu, onunla bağlıdır ki, 1987-1989-cu illərdə Sovet İttifaqı hələ mövcud idi və onun bütün vətəndaşları SSRİ Konstitusiyası əsasında yaşayır və hərəkət edirdilər. Bu siyasi avantürizmdə Qorbaçovun şəxsində ölkənin ali rəhbərliyinin razılığı və birbaşa iştirakı olmadan erməni millətçi-şovinistləri heç zaman SSRİ-nin siyasi xəritəsini dəyişməyə cürət etməzdilər.

Belə ki, SSRİ Konstitusiyasında deyilirdi: "Müttəfiq Respublikanın (konkret olaraq Müttəfiq Azərbaycan Respublikası) ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz". M.Qorbaçovun tam razılığı və bəyənməsinə əsasən Ermənistan SSR-in Ali Soveti 1989-cu ildə "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə birləşdirilməsi haqqında" qərar verdi. Qorbaçovun himayədarlığı olmasa idi, SSRİ qanunlarına əsasən oxşar düzəlişin müəllifləri ölkənin ali qanununun – SSRİ Konstitusiyasının pozulmasına görə cinayət daşıyardılar. Lakin bunu SSRİ rəhbərliyi etmədi, çünki bu iş onların razılığı ilə görülmüşdü. Beləliklə, erməni terror-separatçıları ilə yanaşı, Qorbaçovu və onun erməni əhatəsini də dövlət quruluşunun pozulmasına görə müttəhimlər kürsüsündə oturtmaq lazım idi. SSRİ Konstitusiyasının həmin

78-ci maddəsində deyilirdi ki, hər bir müttəfiq respublika öz inzibati ərazi quruluşunu təyin edir və buna görə də DQMV-nin Azərbaycan Respublikasınm tərkibindən çıxarılması respublikanın suverenlik və ərazi bütövlüyünün kobudcasına pozulması idi. Bu, ümumilikdə beynəlxalq hüquq, BMT və ATƏT-in məramına da ziddir. Hər hansı bir BMT-yə üzv ölkənin ərazi bütövlüyü BMT-nin nizamnaməsi ilə qorunur. Çünki, orada deyilir: "... BMT-nin bütün üzvlərinin beynəlxalq münasibətlərdə güc işlətməsi, yaxud güclə istənilən dövlətin ərazi toxunulmazlığına və siyasi müstəqilliyinə qarşı çıxması Birləşmiş Millətlər Təşkilatının məqsədlərinə uyğun deyil.

Daha sonra bu vəziyyət 1975-ci il tarixli Helsinki bəyannaməsində öz təsdiqini tapdı. Avropada təhlükəsizlik və əməkdaşlıq müşavirəsinin yekun aktında deyilir: "İştirakçı ölkələr bir-birinin və eləcə də Avropanın bütün ölkələrinin sərhədlərini toxunulmaz sayırlar, buna görə də indi, yaxud gələcəkdə bu sərhədlərə istənilən müdaxilə yol verilməzdir". Bu sənədlərdə bütün ATƏT-ə üzv ölkələrlə, həmçinin Ermənistan Respublikasınm imzası var. Bütün ATƏT-ə üzv ölkələrin, həmçinin Azərbaycan Respublikasmın ərazi bütövlüyü müzakirə obyekti mövzusu və şübhəli olmamalıdır. Bu, BMT TŞ-nın 30 aprel 1993-cü il tarixli 822 saylı; 29 iyul 1993-cü il tarixli 853 saylı; 14 oktyabr 1993- cü il tarixli 874 saylı ; 12 noyabr 1993 -cü il tarixli 884 saylı qətnamələrində bir daha qeyd edilib. Bundan başqa Dağlıq Qarabağın mənsubluğuna şübhə edənlər BMT-nin TŞ-nın 29 iyul 1993-cü il tarixli 853 saylı qətnaməsinin 9-cu maddəsinə nəzər sala bilərlər. Orada deyilir: "Azərbaycanın Dağlıq Qarabağ regionu". Bu qərar öz təsdiqini dünyanm aparıcı beynəlxalq təşkilatlarınm sənədlərində tapıb. Erməni terrorçuları tərəfindən əsası qoyulmuş, bu günümüzdə baş verənlər başlanğıcını XIX əsrin sonları XX əsrin əvvəllərindən götürür. Bu nəticəyə uzun sürən təhlillərdən sonra Avropa Şurası da gəldi. Şura 2005-ci ilin əvvəlində öz qərarında BMT, ATƏT və AŞ-nın üzvü olan Ermənistan

Respublikasının ünvamna özü kimi eyni hüquqlu başqa bir ölkə ərazisinin 20 faiz torpaqlarını zorla işğal etdiyinə görə "aqressor-işğalçı" kəlməsini yazdı. Nəhayət ki, mədəni Avropa hər şeyi öz adı ilə adlandırdı və müasir dünyada kimin kim olduğunu yekdilliklə təsdiq etdi.

Avropada və bütün dünyada başa düşməyə başladılar ki, erməni terrorçu-separatçıları bütün bəşəriyyətə təhlükə doğuracaq ocağa çevrilir.

Müasir şəraitdə erməni terror-separatizmi öz ardıcıllarım Avropa, Asiya, Amerika və Afrikada meydana gətirdi. Və ermənilər fəxr edirlər ki, bütün dünyada onlara layiq terorrçu qatillər ortaya çıxıb.

Öz xarakterinə görə müasir terrorizm və separatizmin aşağıdakı qruplara bölmək olar:

1. Sol terrorizm – Latın Amerikası ölkələri – Braziliya, Argentina, Peru, Kolumbiya, Boliviya, Nikaraqua; Avropa olkələri – AFR, İspaniya, Fransa, İtaliya, Yunanıstan, eləcə də ABŞ və Yaponiya.

2. Ultrasağ terrorizmi – İtaliya, Fransa, AFR, İspaniya, Portuqaliya, Yunanıstan, Türkiyə, Böyük Britaniya və ABŞ.

3. Milli terrorizm - İrlandiya Respublika Ordusu, Hindistanda və Şri-Lankadakı millətçi separatçılar, Türkiyə və İraqdakı KFP-nin üzvü olan terror separatçıları, erməni və ərəb terrorçuları.

4. İslam terrorizmi – Suriya, Pakistan, Liviya, Livan, İraq, Əlcəzair, Əfqanıstan və b.

Yuxarıdakı bölgüdə erməni terrorizmi xüsusi yer tutur. Müasir şəraitdə terrorizm separatizmlə əlaqəli şəkildə öz rəqiblərinə qarşı siyasi, ideoloji, hərbi və dini təzyiq üsullarını sistemli tətbiq etməsi ilə xarakterizə olunur. Burada ölüm, zor, diversiya, yanğın, sabotaj, boykot, oğurlama və s. nəzərdə tutulur. Erməni terror-separatçıları özünün gündəlik işində mətbuat, televiziya, radio, internet vasitəsilə yayılan eybəcər formalardan, təbliğat oyunlarından, video filmlərdən, disket-

lərdən, vərəqələrdən, çoxsaylı nəşrlərdən, beynəlxalq tribunalardan, erməni diasporundan istifadə edirlər. Əlbəttə, bütün bunlar Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun işğalı üçün aparılan təbliğat müharibəsində öz əksini tapıb. Bu təbliğat müharibəsi Daşnaksütun partiyasının yaranmasından keçən yüz il ərzində daim aparılıb, lakin o XX əsrin 70-ci illərinin sonundan gizli formada və 80-ci illərin sonundan açıq şəkildə, xüsusi kəskinliklə özünü göstərir. Ermənistan və SSRİ-nin ərazisində və xaricdə, xüsusən ABŞ, Fransa, Yunanıstan, İtaliya və Rusiyada qondarma silsilə nəşrlər meydana çıxır. Onların müəlliflərindən Z.Balayan, S.Kaputikyan, S.Qriqoryan, Ş.Aznavur, A.Aqambeqyan, Şaxnazarov, E.Boneri və b. misal çəkmək olar. Bu barədə Rusiya dövlət dumasının sədr müavini S.Baburin BDU-nun professor-müəllim heyəti və tələbələri ilə görüşü zamanı açıq şəkildə bildirdi. Onun sözlərinə görə "Ermənilər Rusiya KİV-də Azərbaycana qarşı materialların nəşri üçün böyük vəsaitlər xərcləyirlər".

Bu, öz təcəssümünü erməni terror-separatçılarının 1987-88-ci illərdə Ermənistandan 300 min azərbaycanlı əhalisinin, sonralar isə Dağlıq Qarabağın 100 mindən artıq yerli əhalisinin azərbaycanlıların qədim Azərbaycan torpaqlarından zorla çıxarılmasında, deportasiya edilməsində tapdı.

İşğal edilmiş zonalarda 6000-dən artıq sənaye, kənd təsərrüfatı və başqa obyektlər bütünlüklə qarət edilib və sıradan çıxarılıb, 1 mln.-dan artıq təsərrüfat – mülk yerləri, 5 su anbarı, 7296 hidrotexniki qurğu, 36 suçəkən stansiyası və 26 suvarma sistemi məhv edilib.

300 mindən artıq xırda-iri buynuzlu mal-qara, eləcə də Azərbaycanın yay otlaqlarının 70%-i erməni işğalı altında qalıb. 700 orta məktəb, 900 məktəbəqədər müəssisə və 500 xəstəxana dağıdılıb. 160 körpü, 800 km avtomobil yolu, 200 km qaz xətti və 240 kanalizasiya xətti partladılıb. Erməni təcavüzkarlığı nəticəsində dəyən ümumi ziyan 25 milyard dollardan çoxdur. 30 mindən artıq azərbaycanlı həlak olub.

Erməni terrorizmi – siyasi məqsədlərə çatmaq naminə aparılan dövlət separatizmidir. Bu, öz əksini Qarabağdan başlayaraq Abxaziya, Cənubi Osetiya, Çeçenistan, Serbiya, Kosovo və s. tapdı. Cənub və Şimali Qafqazda terror-separatizmin başlıca daşıyıcıları ermənilərdir. Onlar arasında ən məşhur iki axın var: Daşnaksütun və ASALA (Ermənistanın azad edilməsi uğrunda gizli erməni ordusu).

Daşnaksütun öz yaşına görə dünyada ən qədim terror – separatçı təşkilatdır. O, XIX əsrin ikinci yarısından fəaliyyətə başlayıb və 1890-cı ildən terror – separatçı partiya kimi formalaşıb. Onun əsas üç fəaliyyət şüarı bunlardır:

- türk dövlətinə və dünyadakı bütün türklərə qarşı mübarizə;
- Ermənistanın azadlığı – Erməni dövlətinin yaradılması;
- Dağlıq Qarabağın Azərbaycandan qopardılması;
- təkcə son 20 il ərzində Daşnaksütun 500-dən artıq terror hadisəsi törədib. Bu terror aktlarının nəticəsində Türkiyənin Avstriya, Yuqoslaviya, İsveçrə və Fransadakı fövqəladə və səlahiyyətli səfirləri, eləcə də Avstriya, Avstraliya, Belçika, Bolqarıstan, Danimarka, İspaniya, ABŞ və BMT-dəki türk diplomatları öldürülüb.

Erməni terrorçu qatilləri Moskvada "Pervomayskaya" metro stansiyasında, Moskvanın Leninsk və Baumansk rayonlarındakı böyük mağazalarda, eləcə də Bakı şəhərinin metro stansiyalarında dəhşətli partlayışlar həyata keçiriblər.

Erməni milli terrorizminin ikinci qüvvəsi – ASALA, erməni ultraterror separatçı təşkilatı 1975-ci ildə Türkiyə ərazisində yaradılıb. Onun məqsədi ərazisinə Şimali Türkiyə, Şimali İran, Cənub-qərbi Azərbaycan və Cənubi Gürcüstan torpaqlarının qatılması nəzərdə tutulan "Böyük Ermənistan" yaratmaqdır.

ASALA-nın əsas bazasını Livanda, Azərbaycan ərazisi – Dağlıq Qarabağda, Gürcüstan ərazisi – Axalkalaki və Cavahetiyada kompakt yaşayan minlərlə ermənilər, Rusiyanın Krasnodar və Stavropol vilayətlərində, Suriyada, eləcə də İran, İraq və Türkiyədə yaşayan, KFP- nın üzvü olan kürdlər təşkil edir.

ASALA Yaxın və Orta Şərqdə, eləcə də bir sıra Avropa ölkələrində fəaliyyət göstərən terrorçu qruplarla sıx əməkdaşlıq edir.

Bu gün Yaxın Şərqdə hər üç terroristdən biri erməni millətinin üzvüdür. Elə təsadüfi də deyildir ki, KFP-nın qərargahı İrəvanda yerləşir və onun filialları Gümrüdə, Gorusda, İran, Türkiyə və Azərbaycanın sərhədlərində yerləşir.

Erməni terrorçuları Yaxın Şərq bazalarında hazırlanır və ASALA da öz növbəsində hər bir erməni terrorçusunun təliminə bir neçə min dollar pul ödəyir. Bu düşərgələrə terrorçuları əsasən Livan, Suriya, Türkiyə, Yunanıstan, Gürcüstan, Rusiya və Azərbaycanın Dağlıq Qarabağ regionundan erməniləri seçirlər.

ASALA-nı erməni diasporu maliyələşdirir və bunun üçün bütün dünya üzrə vəsait yığılması üçün xüsusi qərargahlar fəaliyyət göstərir. Əsas maliyəçilər İtaliya, Fransa, ABŞ, Livan, Suriya, Braziliya və Rusiyanın erməni vətəndaşlarıdır.

Rusiyanın NTV "Nəticələr" informasiya proqramına əsasən erməni lobbiçilərinin kürd terror-separatçıları ilə sıx əlaqə saxlaması ilə əlaqədar olaraq, Kürd Fəhlə Partiyası 1999-cu ilin fevralında Rusiya Federasiyasının Yaroslavl vilayətində bir neçə sotluq böyük ərazini zəbt etdi. Bu ərazilərdə kürd və erməni terrorçularının qanunları qüvvədədir.

Qərb ölkələrinin Ermənistanla ikili standarta uyğun gələn münasibəti ona Azərbaycan torpağını işğal etməyə imkan verdi. Təcavüzkar və erməni terrorçularına aparıcı dünya ölkələri tərəfindən ilk öncə qüdrətli dövlətlər ultraterrorçular üçün hərəkətverici və stimulverici bir qüvvə idilər və 11 sentyabr 2001-ci ildə ABŞ ərazisində bir neçə min günahsız insanın həyatına son qoyan dəhşətli, vəhşi terror aksiyası törətdilər.

Terrorizm müasir dünyanın super dövləti olan ABŞ-ı sarsıtdı. Ölkə terrorun hakimiyyəti altında qalaraq bir neçə vaxt iflic vəziyyətində idi.

Bu vəhşi terror aktı ABŞ Prezidenti Corc Buşu 5 oktyabr 2001-ci ildə aşağıdakıları bəyan etməyə məcbur etdi: "Anti-ter-

ror əməkdaşlığı bu gündən sonra xarici siyasət standartıdır. Gələcəkdə ABŞ xarici münasibətləri yeni standartlarla ölçəcək: ölkələr bizimlədirmi yoxsa terrorçularla. İndi bizimlə çıxış edənlər əmin ola bilərlər ki, gələcəkdə biz onlarla çıxış edəcəyik."

Amma ermənilər ABŞ, Fransa, Almaniya, Rusiya və s. kimi yerlərdə özlərini cəzasız hiss etməsəydilər bütün bunlar baş verməyəcəkdi. Azərbaycan ərazisində erməni cinayətkar qruplarının formalaşması və bu qrupların himayədarlığı digər ölkələrdə öz davamını tapa bilmədi. Sual ABŞ ərazisində bu barbar aksiyaları törədənlərin hansı millətdən olması deyil, sual mahiyyəti beynəlxalq terrorizmin özündədir, amma onların milli mənsubluğu yoxdur. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev həm aparıcı beynəlxalq təşkilatların tribunalarındakı çoxsaylı çıxışlarında və həm də BMT-nin Baş Assambleyasının tribunasında buna işarə etmişdir. Hamıya məlumdur ki, müasir terrorizmin ipi haradan çəkilir və onların ocaqlarından biri də Ermənistandır.

Lakin Qərb onu terrorçu dövlətlərin siyahısına daxil etməkdən böyük səylə imtina edir. Ermənistan parlamenti spikerinin, dövlətin baş nazirlərinin güllələnməsi və canilərin cəzasız qalması, türk və Azərbaycan vətəndaşlarına ermənilər tərəfindən törədilən terror və qətllərin cəzasız qalması Rusiya, Avropa və ABŞ-da terrorizmin azğınlığının əsas səbəblərindəndir. Bəlkə bundan sonra Qərbdə, xüsusən də, ABŞ-da başa düşərlər ki, özgə dərdi olmur, bəlkə ABŞ-ın bəzi politoloq və senatorları, ingilis baronessası Koks və onun kimiləri Dağlıq Qarabağdakı terror-separatçıları dəstəkləməkdənsə, nəhayət ki, başa düşələr ki, kim kimdir və Azərbaycan torpaqlarını kim zəbt edib. Biz ümid edərək inanırıq ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ədalət qalib gələcək və terrorçu ermənilər bizim torpaqlarımızı tərk edəcəklər.

Terror-separatizmə qarşı bütün dünya birləşməsə, o, hər bir ölkəyə, hər bir evə gələcək. Bu gün artıq BMT-nin 200 üzv ölkəsinin 100-də terrorizm fəaliyyət göstərir.

Əgər Rusiya vaxtilə Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində terror-separatizmini mühakimə etsəydi, Çeçenistan, Abxaziya, Osetiya və b. ölkələrdə bu hadisələr baş verməzdi.

## ƏDƏBİYYAT:


1. ABŞ-ın dövlət departamentinin saytı. Beynəlxalq informasiya proqramları. Terrorizm 11.10.2001. www. usinfo.state.gov/russki/topics/ terror/lol-jones.htm.
2. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının yekun Aktı. M., 1987.
3. BMT-nin nizamnaməsi, Nyu-york. 1998.
4. BMT TŞ-nın №822, 853, 874, 884 saylı qətnamələri.
5. BMT TŞ-nın (1993) 29 iyul 1993-cü il tarixli 853 saylı qətnaməsi.
6. Erməni aqressiyası nəticəsində Azərbaycana vurulmuş iqtisadi ziyan //http://www.azerembassy.org.cn/rus/back_ecdam.html.
7. Кожушко Е.Современный терроризм. Минск. 2003.

## 6.5. Beynəlxalq terrorizm və Azərbaycan Respublikası

Əsas ifadə forması terror olan təşkil edilmiş cinayət fəaliyyəti milli sərhədləri aşaraq bütün dövlətlərin milli maraqlarına toxunan qlobal problemə çevrilmişdir. Suveren respublika olan Azərbaycan dünya ictimaiyyətinin bu bəla ilə mübarizəsini tam dəstəkləyir, siyasi, milli, iqtisadi, dini və s. Motivlərdən asılı olmayaraq terrorizmin bütün formalarınm birmənalı şəkildə pislənməsində prinsipial mövqe nümayiş etdirir.

Terrorizmin qlobal hal aldığım nəzərə alaraq onunla mübarizədə bütün dünya ictimaiyyətinin mübarizə aparması çox vacibdir, belə ki, terrorizm nə milli, nə də dini sərhəd tanımır. Müasir terrorizm beynəlmiləl hadisədir. Biz ondan çıxış edirik ki, uzunmüddətli planda terrorizmlə mübarizənin əsas məqsədi yalnız ayrıca terror təşkilatları, qruplaşmaları və ya şəxslərə qarşı deyil, onun köklərinin, mənbələrinin və səbəblərinin araşdırılmasıdır. Terror aktları siyasi cəhətdən təşkil edilən ekstremizmdir və onun əsas cəhəti siyasi məqsədlərə nail olmaq üçün zorakılıq etməkdir.

Terrorizmə qarşı mübarizə mahiyyətcə beynəlxalq münasibətlərdə vəziyyəti dəyişən 2001-ci il 11 sentyabr hadisələrindən sonra yeni səviyyəyə qalxmışdır. Beynəlxalq terror hədəsi və çağırışları dünya ictimaiyyətini dəhşətə gətirdi. Bu faciədən dərhal sonra Azərbaycan Respublikası heç bir tərəddüd etmədən anti-terror koalisiyasına qoşuldu və beynəlxalq terrorizmlə mübarizədə əlindən gəldiyi qədər dəstək olmağa çalışır.

XXI əsrdə Azərbaycan Respublikası terrorizmin dövlət siyasəti səviyyəsinə çatdığı Ermənistan tərəfindən terrorizmə və təcavüzkarlığa məruz qalmışdır. Bir sıra ölkələrdə öz cinayət əməllərinə görə mühakimə edilən bir neçə erməni terroristi hazırda Ermənistan siyasi elitasımn üzvləridirlər və onların "milli ideyalar uğrunda mübarizlər" şüarı rəsmi siyasi dairələr və siyasi partiyalar tərəfindən dəstəklənir.

Yerli müdafiə orqanları cinayətkarları və terrorçuları aşkara çıxarmaq və mübarizə sahəsində mühüm rol oynayır. Son illərdə milli təhlükəsizlik orqanları beynəlxalq terrorizmlə əlaqəli olan 50-yə yaxın xarici vətəndaşı həbs etmişdir. Azərbaycan Respublikasının hüquq-mühafizə və xüsusi xidmət orqanlarının əsas vəzifələrindən biri anti-terror əməliyyatlarından sonra daha geniş vüsət almağa başlamış və kriteriyası əsasında anti-terror təşkilatının üzvlərini yerləşdirmək olan qeyri-qanuni miqrasiya kanallarınm aşkarlanması və təsnif edilməsidir. Bu məsələnin həlli üçün Azərbaycan Respublikası hakimiyyəti miqrasiyanın idarə edilməsi, sərhəd nəzarəti, Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlıq üzrə dövlət proqramının işlənməsi üçün Komissiyanın yaradılmasını təsdiq etmişdir.

Bu təşkilatların əsas məqsədi sərhəd nəzarəti üzrə prosedurun həyata keçirilməsi və həm də Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlıq üzrə Koordinasiya Qrupunu təsis etməkdir. Bu proqramın həyata keçirilməsi üçün ölçülər yalnız daxili fəaliyyəti deyil, həm də beynəlxalq təşkilatlarla əməkdaşlığı, xarici ölkələrin təsisatları ilə sıx əlaqələr qurmaqdan ibarətdir. Beləliklə, Azərbaycan Respublikasmın müvafiq orqanları və Beynəlxalq Miqrasiya Təşkilatı arasında yaxın əlaqələr nəticəsində sərhədlərin qorunması potensialının gücləndirilməsi, sərhədçilər üçün analoqu olmayan təlim mərkəzinin yaradılması, sərhəd nəzarət-buraxılış məntəqələrinin texniki cəhətdən təzələnməsi, "giriş" sisteminin avtomatikləşdirilməsi, Azərbaycan sərhədlərindən keçən bütün miqrantlar barədə vahid məlumatın toplanması sahəsində mühüm addımlar atılmışdır. Bu gün bu şəbəkəyə bir neçə nazirlik, Heydər Əliyev adına Hava Limanı, Bakı Dəniz Portu həmçinin ölkənin şimal və qərbində yerləşən iki nəzarət-buraxılış məntəqəsi daxildir. Yeni abonentlər cəlb etməklə bu sistemin gələcəkdə bütün ölkəni əhatə etməsi nəzərdə tutulur.

Terrorizmə və şəbəkə cinayətinə qarşı milli səviyyədə mübarizə əsasən preventiv, reqressiv və tərbiyəvi xarakterdə

olan dövlətdaxili tədbirlərin tətbiq edilməsi yolu ilə həyata keçirilir. Amma terrorizmlə mübarizədə bu tədbirlər kifayət deyil, bunun üçün dövlətlərlə əməkdaşlıq daha vacibdir. 2002-ci ilin aprel ayında Trabzonda Azərbaycan, Gürcüstan və Türkiyə arasında "Terrorizm, şəbəkə cinayəti və digər ağır cinayətlərlə mübarizə" haqqında razılıq imzalanmışdır. Bu razılılaşma həm də narkotik və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsi, çirkli pulların yuyulması, silah ticarəti ilə mübarizədə dövlətlər arasında əməkdaşlığı nəzərdə tutur. Həmin müqavilənin əsas məqsədlərindən biri regional iqtisadi layihələrin təhlükəsizliyini təmin etməkdir. Burada Azərbaycanın GUAM-la münasibətlərinə xüsusi diqqət yetirmək lazımdır. GUAM dövlətlərinin hüquq-mühafizə orqanları ilə sıx münasibətlər yaranmışdır. GUAM-ın terrorizm, şəbəkə cinayəti, narkotik maddələrin yayılması ilə mübarizə qrupunun sədri olan Azərbaycan Respublikası bu təşkilatı beynəlxalq, regional və subregional təşkilatlarda təmsil edir və burada terrorizmlə mübarizə sahəsində GUAM tərəfindən hazırlanan layihələr barədə ətraflı məlumatlar verilir.

Regional səviyyədə Azərbaycan Respublikası MDB üzv dövlətlərinin Anti-terror mərkəzi ilə informasion-analitik sahədə fəal şəkildə iştirak edir. 2 oktyabr 1998-ci ildə Qara dəniz İqtisadi Əməkdaşlığı Təşkilatı çərçivəsində Azərbaycan Respublikası cinayət, xüsusilə də onun şəbəkə forması ilə mübarizəyə dair razılıq imzalamışdır.

Azərbaycan Respublikası eyni zamanda terrorizmlə mübarizə məsələlərilə məşğul olan kadrların ixtisasının yüksəldilməsi sahəsində NATO/SEAP-la əməkdaşlıq edir. 28-29 oktyabr 2004-cü ildə Bakıda terrorizmlə mübarizəyə həsr olunmuş konfransda NATO xüsusi komitəsinin İşçi Qrupu iştirak etmişdir. 2006-cı ilin iyul ayında NATO-nun növbəti həftəsi çərçivəsində 30 dövlətin 50-dən çox nümayəndəsinin iştirak etdiyi Avro-Atlantik Əməkdaşlığı Şurası formatında terrorizmlə mübarizə sahəsində məsələsinə həsr edilmiş "NATO-

nun Terrorizmə Qarşı Mübarizə Əməliyyatlarında Müttəfiqlərin İştirakı" mövzusunda seminar təşkil edilmişdir. Bu, NATO-nun terrorizmlə mübarizə sahəsində mühüm planıdır və terrorizmlə mübarizə sahəsində dövlətlərin öz fəaliyyətini genişləndirməsini, iştirakçı dövlətlər tərəfindən müxtəlif birgə tədbirlərin həyata keçirilməsini, birgə təlimlər çərçivəsində təcrübə və informasiya mübadiləsinin həyata keçirilməsini nəzərdə tutur. Bundan əlavə həmin plan hər bir dövlətə terrorizmin meydana gəlməsinin mənbələrini, səbəb və xüsusiyyətlərini aydınlaşdırmağa imkan verir. Eyni zamanda daimi əsasda neft kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi üçün birgə tədbirlər həyata keçirilirdi.

Terrorizmin maliyyələşdirilməsi və çirkli pulların yuyulması da Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlıq sahəsində gündəmdə duran məsələlərdəndir. Dövlət Sərhəd Xidməti olan Azərbaycan Respublikası Ədliyyə Nazirliyi özünün Türkiyə, Rusiya, Niderland, Ukrayna və İranda olan əməkdaşları ilə sıx əlaqədədir. ABŞ tərəfindən Azərbaycana terrorizmlə mübarizə sahəsində yardım proqramı çərçivəsində konsultativ və texniki yardım göstərilir.

Bu gün beynəlxalq terrorizm, ona transmilli şəbəkə cinayətinin qoşulması ilə milli təhlükəsizliyə ən böyük hədə olmaqda davam edir. Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidməti öz səlahiyyətləri çərrçivəsində həm birgə, həm də fərdi olaraq terror aktlarınm törədilməsinin qarşısının alınmasında, beynəlxalq terrorizmlə əlaqəsi olan şəxslərin aşkara çıxarılmasında, terror aktlarının törədilməsinə maliyyə yardımı edənlərin tutulmasında preventiv tədbirlər həyata keçirirlər. İnzibati sistem təşkilatlarının terrorizmlə mübarizə sahəsində fəaliyyətinə gəldikdə isə, nazirlik nəzdində neft borularının, diplomatik nümayəndəliklərin müdafiəsi üzrə xüsusi bölmələr, xüsusi nazirlikdaxili işçi qrupu yaradılmışdır. Sonuncu strukturun vəzifələri sırasında aşağıdakıları qeyd etmək olar: respublikada daimi şəkildə operativ şəraitin saxlanılması, kriminogen duruma səbəb olan vəziyyətin öyrənilməsi, dini radikalizm və ekstremizmin aşkara çıxarılması və s.

Azərbaycan Respublikasının xüsusi xidmət orqanları ilə xarici ölkələrin müvafiq orqanları arasında müvafiq sahədə əməkdaşlıq kifayət qədər yüksək səviyyədədir və operativ sahədə əməkdaşlığı nəzərdə tutur. Bu gün Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi 40-dan çox ölkənin və beynəlxalq təşkilatın müvafiq orqanları ilə əməkdaşlıq edir. Son dövrlərdə Avropa və Asiyada baş verən terror aktları bir daha sübut etdi ki, dövlətlər bu bəla ilə tək başına mübarizə apara bilməz və heç bir dövlət özünü terrordan tam sığortalamağa qadir deyil. Azərbaycan xüsusi xidmət orqanları ikitərəfli və çoxtərəfli əməkdaşlığın, informasiya və təcrübə mübadiləsinin vacib olduğunu başa düşürlər. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi 12-dən çox ölkənin xüsusi xidmət orqanı ilə qarşılıqlı yardıma dair 14 Müqavilə və 1 Protokol imzalamışdır. Yuxarıda qeyd edilən sənədlərdə terrorizmlə mübarizə sahəsində qarşılıqlı əməkdaşlığın vəziyyətinin müəyyən edilməsi, xarici müttəfiqlərin əvvəlcədən xəbərdar edilməsi nəzərdə tutulur.

Azərbaycan həm öz ərazisində, həm də sərhəddən kənarda baş verən terror aktının aradan qaldırılmasında, və ya baş verəcək terror aktının qarşısının alınmasında Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi başqa dövlətlər arasında imzalanmış ikitərəfli müqavilə əsasında fəaliyyət göstərir. Azərbaycan tərəfi terror aktının törədiləcəyi barədə məlumat əldə etdikdə dərhal vəziyyəti araşdırır və yardım barədə qarşı tərəfə məlumat verir.

Özünün terrorizmə qarşı mübarizədəki mövqeyində sərt dayanan Azərbaycan Respublikası bu bəlanın qarşısının alınması və kökünün kəsilməsində əlindən gələni əsirgəmir və kontrterror fəaliyyətinin effektivliyinin yüksəldilməsi üçün milli və beynəlxalq səviyyədə müəyyən tədbirlər həyata keçirmişdir.

## ƏDƏBİYYAT:


1. Аббасов. Ф. Р. Роль интерпола в борьбе с терроризмом // Журнал "Qanun". 2005, №5.
2. Армянский терроризм // http://www/ azeriinfo.com/ terror.htm
3. Выступление министра внутренних дел Азербайджанской Республики Р. Усубова на 58 семинаре Роузт-Роут ПА НАТО http:// ww/mia.gov/az/news/ 25.11.2004.20.16. ru.htm.
4. Дополнительный доклад Азербайджана Контртеррористическому Комитету, представленный во исполнении пункта 6 резолюций 1373 (2001) 13.09.2002
5. Закон Азербайджанской Республики "О борьбе с терроризмом", 18.06.1999
6. Закон Азербайджанской Республики "О статусе беженцев и вынужденных переселенцев (лиц, переселенных в пределах страны) от 8 июля 1999 г.
7. "Зеркало", 30.09.06.
8. Конституция Азербайджанской Республики, Б., 2005.
9. Maxmudov G. Азербайджан - надежный партнер в борьбе с международным терроризмом. Интервью агентству "интерфакс-Азербайджан" 17.03.2006 http:// ww/interffax.ru/r/B/0/22/html?id/issue:17480
10. Многосторонняя группа по международному сотрудничеству в борьбе с терроризмом. (GMT). Достижения на национальном уровне // Азербайджан 25.09.2002. http://www.coe.int/gmt

# VII FƏSİL

# QAFQAZ

## 7.1. Qafqaz müasir geostrategiyada

İndiki şəraitdə sülhün qorunması XXI əsrin əvvəlində dünya birliyinin obyektiv vəziyyətindən üzvi surətdə irəli gəlir. Problemin mahiyyəti ondadır ki, 50 illik cəbhələşmə və "soyuq müharibə" erasından sonra, bəşəriyyət onu münaqişəyə gətirib çıxara biləcək müxtəlif növ hərbi avantürlərdən, "kiçik" müharibələrdən, geostrateji yarışlarda hakimlik uğrunda gedən döyüşlərdən, müxtəlif dairələrin siyasi hökmranlıq əldə etmək cəhdlərindən və sairdən qoruya biləcək universal sistem yaratmaq üçün unikal imkan əldə etmişdir. XX əsr, xüsusən də onun sonuncu onilliyi bu cür nümunələrlə zəngindir. Bir milyondan çox insan həyatına son qoymuş və BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən biri olan, Fransa Respublikasının hərbi müdaxiləsini tələb edən Ruanda (Afrika), 3 milyondan çox insanın fiziki məhvinə gətirib çıxaran Kampuçiyadakı "Qırmızı kxemerlərin" təcrübəsini yada salaq.

Geosiyasi hakimliyə parlaq misal olaraq, Sovet hərbi hissələrinin Əfqanıstana soxulmasını göstərmək olar. Sovetlər məğlubiyyətə uğrayaraq, Əfqanıstanı tərk etməyə məcbur oldular. Lakin onlar regional və geosiyasi hakimliyə can atan xarici qüvvələrin arxasında durduğu daxili siyasi qruplaşmalar və müxtəlif dairələr arasında gedən müharibəni özlərindən sonra miras qoydular. Dövlətlərin geosiyasi və geostrateji mənafeləri naminə əfqanlar məhv olurlar. Hadisələrin göstərdiyi kimi, bu, qonşu ölkələrə də yayıla bilər. Bu konfliktin yaxınlığı qonşu

Tacikistanda öz əks-sədasını tapır. Rusiyanın geostrateji mənafelərinin "sıxışdırılması"nı əsas götürərək, onun tərəfindən cavab reaksiyası kimi "MDB-nin sülhməramlı qüvvələri bayrağı altında öz qoşunlarını suveren Tacikistanın ərazisinə yeritdi. MDB-nin "sülhsevər qüvvələr" adlandırdıqları yüz faiz bir ölkənin vətəndaşlarından təşkil olunmuş və bütünlüklə Rusiyanın silahları, döyüş sursatları ilə təchiz, vəsaiti ilə təmin edilir. Sonra vəziyyət daha da gərginləşərək, digər ölkələrin mənafeləri cavab reaksiyasına gətirib çıxara bilər. Beləliklə, daxili konflikt, tarixdə dəfələrlə rastlaşdığımız kimi, gözlənilməz nəticələrlə bitən beynəlxalq konfliktə çevrilə bilər.

Belə faktlar da məlumdur ki, yüzlərlə ölən və yaralıların olması ilə nəticələnən konfliktlər etnik və millətlərarası zəmində yaranır. İndiki şərait, sosialist sisteminin, demək olar ki, mövcudluğuna son qoyması və dünya birliyinin vahid şəklə salınması, yəni bazar iqtisadiyyatı, kapitalizmə keçidlə əlaqədar dünya getdikcə idarəolunmaz olur. Əlbəttə, hələ də "inkişaf etməkdə olan dövlətlər" termini qalmışdır, hansı ki, bu dövlətlər gec və ya tez kapitalist inkişaf yolu ilə gedəcəklər. Laos, Kamboca, İndoneziya, Suriya, Birma, Əlcəzair, Misir və s. sosialist təcrübələri iflasa uğramışdır. İndiki dövrdə bəşəriyyətin inkişafının müxtəlif pillələrində olan dövlətlərin bir-birinə qarşılıqlı fayda verməsi üçün əməkdaşlıq yollarını tapması vacibdir. Bu qarşılıqlı əlaqənin amilləri tamamilə müxtəlif ola bilər. Hər bir ayrıca regiona, xüsusən də Qafqaza, beynəlxalq hüququn dörd subyektinə fərqli yanaşma vacibdir. Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistanın milli və beynəlxalq təhlükəsizliyi naminə gözlənilməz nəticələr gətirəcək ziddiyyətləri deyil, təmas nöqtələrini tapmaq gərəkdir.

XX əsr bu cür faktlarla zəngindir, Allah XXI əsri belə hadisələrdən qorusun. Bununla bağlı olaraq sülhün saxlanılması SSRİ-nin dağılmasından sonra əmələ gələn gənc və suveren dövlətlərin daxili vəziyyətindən, xarici siyasətindən xeyli asılıdır. Dünya hər şeyi "böyük qardaş"ın ümidinə qoyduqda, nə

baş verəcəyini hələ dərk etməmişdir. Hazırki halda bu rolda Rusiya çıxış edərək, həmin ölkələri öz geosiyasi maraqlar zonası hesab edir. Bununla bərabər, digər ölkə və imperiyaların tarixindəki analoqları kənara qoymuşdur. Deyilənləri Rusiyanın Vyetnam, Kuba, Serbiya, İran, Suriya, Liviya, Ermənistan, Belarus, Zaqafqaziya və Mərkəzi Asiyanı öz geostrateji maraqları dairəsində görmək arzusu təsdiq edir. Məntiq sadədir, belə ki, Rusiya SSRİ-nin bütün aktiv və passivlərini öz üzərinə götürərək, özünü SSRİ-nin hüquqi varisi elan etmişdir. Adı çəkilən respublika və regionlar da Sovet nüfuz dairəsinə daxil idi.

Qüvvələrin universal bir sistem olan kapitalizmin xeyrinə dəyişməsi, sülhün və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə imkan yaratmışdır. Əlbəttə ki, beynəlxalq əlaqələr tarixində dəfələrlə olduğu kimi, dövlətlərin eynisistemli və eynitipli olması onların arasında müxtəlif toqquşmaların baş verməsini istisna etmir. Məlumdur ki, XX əsrdə başlanmış hər iki dünya müharibəsi eynitipli, kapitalist dövlətlər arasında baş vermişdir. Əlbəttə ki, biz eynitipli kapitalist sistemində rəqabətin dünyada Qafqaza xüsusi maraq yaratdığını, toqquşmalara gətirib çıxara biləcəyini istisna etmirik. Qafqaz indiki şəraitdə, qüdrətli və iri dövlətlərin geostrateji rəqabətinin əsas sferalarından birinə çevrilmişdir. Bu region sabit sülh zonası və ya dünya kataklizmlərinin mərkəzi ola bilər. Və bu da qanunlardan istisna deyil. Məsələ bundadır ki, mümkün konfliktin əsasında ideoloji baza yer tutmayacaqdır. Mümkün konfliktlərin xüsusiyyəti bundadır ki, ideoloji konfrantasiyanın yoxluğu, onları az-çox gözlənilən hala salır, daha bəşəriyyət bu və ya digər sistemin ideoloji ambisiyaları naminə təhlükəli bir vəziyyətdə hərəkət etmir.

Məlumdur ki, XX əsrin 50-60-cı illərində ideoloji amil dünyada beynəlxalq gərginliyin artmasına səbəb olan əsas istiqamətlərdən biri idi. SSRİ-nin təmsilində sosialist sisteminin və onun bünövrəsinin dağılması dünyanı xeyli təhlükəsiz etmişdir. Əsas iki qarşı duran sistemlərin ideoloji, hərbi-siyasi konfrantasiyası aradan götürüldü. Geostrateji hakimliyə can

atması bu iki bloku bir-birinə qarşı qoyan əsas xətt idi. İndi zidd hərbi-siyasi bloklar olmasa da, geosiyasət qalmaqdadır. Rusiyanın daima dünyanın hər hansı bir nöqtəsində öz maraqlarının sıxışdırılmasına yol veriləcəyini elan etməsi buna nümunədir. Son illərdə Rusiyanm Vyetnamda, Kiprdə, Serbiya, İran və həmçinin Ermənistanda yerləşən SSRİ-nin keçmiş hərbi bazasına yüksək maraq göstərməsini məhz bununla izah etmək olar. NATO Serbiyaya qarşı hərbi əməliyyatları başlayan kimi, Rusiya "adekvat tədbirlər" görəcəyini elan etdi. Bu o deməkdir ki, Rusiya öz mənafeyini tələb etdiyi qədər, İraq, İran, Şimali Koreya və Ermənistanın silahlanmağına kömək etməyə hazırdır. Bu haqda Kosova konfliktinin qızğın çağmda Rusiyanın keçmiş müdafiə naziri marşal İ.Sergeyev açıq bəyan etdi. Onların bəzilərində Rusiyanm hərbi bazalarının olmamasına baxmayaraq onlarda müasir Rusiya silahları var. Bunlara Kiprə satılmış S-300 raketlərini, İrana satılmış müasir işəsalma qurğuları, artilleriyam, sualtı qayıqları və s. aid etmək olar.

Son bir neçə ildə Rusiya Şimal dənizində və Sakit okeanda ən müasir qitələrarası atom gəmilərini və təyyarə gəmilərini yerləşdirmiş və həmçinin "ulduz müharibələri"nin komponentlərindən olan müasir qitələrarası "Topol–M1" və "Topol–M10" raketlərini hərbi növbədə saxlamışdır. Sual yaranır: əgər dünya konfrantasiyası yoxdursa, onda bu silahlar Rusiyaya nə üçün lazımdır. Bu, digər dövlətlər və xüsusilə ABŞ tərəfindən cavab reaksiyası doğuracaq çox təhlükəli və ehtiyatsız addımdır. ABŞ-ın keçmiş prezidenti Corc Buş ABŞ-ın raketə qarşı müdafiə konsepsiyasına və SSM-2 müqaviləsinə yenidən baxılacağını bəyan etdi. Bütün bunlar "soyuq müharibə" erasınm yeni durum və bərpasını göstərir. Suveren ölkələrin üzərindən "geosiyasi çətir"in yaradılması da bununla izah olunur. Bu, hələ 1990-cı illərdə "soyuq müharibə" dünyanı son həddə qədər silahla "doydurmuşdur" və bununla da özündən sonra güclü gec açılan minaları qoymuşdur" deyən E.Xobsbomun uzaqgörən sözlərinə olduqca müvafiqdir.

Məsələ ondadır ki, hər bir ölkə başqa dövlətlərin arzusundan asılı olmayaraq, kənardan təzyiq olmadan öz daxili işlərini həll etmək iqtidarındadır. Bu halda nəhəng dövlətlərin öz geosiyasi cəhdləri naminə digər dövlətlərin, xüsusən də kiçik dövlətlərin mənafeyini sıxışdırmağa haqları yoxdur. Belə hallarda lokal konfliktlər, bütün dünyanın və ilk növbədə iri dövlətlərin maraqlarının episentrinə çevrilir. Bir çox dövlət belə hallarda öz xarici siyasətini araşdırmağa məcbur olur. Rusiyanın suveren Baltikyanı dövlətlərə qarşı siyasəti kəskinləşən kimi, Qərbi Avropa dövlətləri və ABŞ Rusiyanın bu hərəkətlərinin, onun Qərb dövlətləri ilə əlaqələrində özünü mütləq göstərəcəyini bildirdi. Bu mövqeyi ABŞ-ın keçmiş dövlət katibi H.Kissincer dəqiq müəyyənləşdirdi: "Kremlin 300 il ərzində Rusiyanın geniş sərhədlərinin ətrafında çarlar və komissarlar tərəfindən yaradılmış təzyiq dairəsini öz əlinə almaq hüququ yoxdur".

Bununla Rusiyaya XXI əsrin astanasında özbaşına və öz istədiyi kimi hərəkət edə bilməyəcəyini başa saldılar. Beynəlxalq təhlükəsizlik indiki dövrdə lokal deyil. Yerli konfliktlərin olmaması üçün, bütün dünya ümumi vəziyyəti nəzərə almalıdır. Belə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin təşəbbüskarları başlanğıcda onu yerli, lakin mərhələli inkişafda olan hal kimi qiymətləndirirdilər. Bununla bərabər, onlar irəlidə çoxpilləlili variantı da nəzərdən keçirirdi. Lakin əsas olan, qoyulmuş məqsədə nail olmaq idi. İlkin taktika bütün problemləri ildırım sürətilə həll edirdi. Ehtimal etmək olar ki, konfliktin başlanğıcında onlar qoyduqları məqsədə bir neçə gündə müvəffəq olardılar. Sonra necə? Uduzanlar kölgədə qalmazdılar, cavab reaksiyası olaraq onlar gözlənilməz nəticələrlə bitəcək qisas almağa cəhd edərdilər.

Əgər bu və ya digər avantüranı başlayanların məntiqi ilə hərəkət etsək, onda bəşəriyyət təhqirdən başqa heç nə əldə etməz, belə ki, bu cür hallar beynəlxalq və millətlərarası əlaqələrdə qüvvətli "kölgə" diplomatiyasının norması ola bilər. Belə halda BMT-nin bütün kiçik və iri dövlətlərin bərabər hüquqlu-

luğu haqqında bəyanatı öz mənasını, ümumavropa müşavirəsinin sərhədlərin pozulmazlığı haqqında son aktı öz əhəmiyyətini itirər. İri dövlətlər kiçik dövlət və xalqların arzu və iradəsini öz rəyinə əsasən diktə edə, alçalda, nəzərə almaya bilərlər. Dünya birliyinin gələcəyi qeyri-real və gözlənilməz olar. Bu istiqamətdə inkişafda hər bir hüquqları tapdalanmış və təhqir olunmuş xalqın illər və yaxud hətta əsrlər keçdikdən sonra öz şərəfini bərpa etmək, itirdiklərini qaytarmaq səyi olacaqdır.

Dünya diplomatiyasının çoxəsrlik tarixi göstərirdi ki, dünənki qaliblər sonra yenilmiş və alçaldılmış ola bilər. Karl Klauzevits qeyd edir ki, müharibə "yalnız siyasi akt deyil, həm də siyasətin həqiqi aləti, siyasi əlaqələrin davamı, onların digər vasitələrlə aparılmasıdır". Müasir ingilis alimi E.Kinqston-Makklori də bu fikirdədir. "Qlobal strategiya" əsərində o haqlı olaraq qeyd edirdi ki, "müharibə dövlət siyasətinin alətidir ki, dövlət onun köməyi ilə öz məqsədlərinin həyata keçməsinə nail olur və ya öz qüdrətini möhkəmləndirir". Bu sözlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məqsədlərinə bütünlüklə uyğun gəlir. Onun təşəbbüskarları, oyuncaq icraçıları deyil, öz qaşılarına dünya miqyaslı avantürist məqsəd qoymuş və qoyurlar. Qarabağ avantürasının təşəbbüskarları və icraçıları öz məqsədlərinə başqa vasitələrlə çatmadıqlarına görə, XX əsrin qürubunda bu dəhşətli müharibəni başladılar. Azərbaycanlılar, ermənilər, keçmiş İttifaqdan yoldaşlar məhv olurlar. Ancaq bir şey aydındır ki, azərbaycanlılar Vətənin azadlığı uğrunda həlak olur, öz torpaqları uğrunda vuruşurlar. Onlara bu müharibəni kənardan zorla qəbul etdirmişlər, onlar öz torpaqları uğrunda öz torpaqlarında döyüşürlər. Digərləri niyə tələf olur? Keçmiş imperiya əzəməti və imperiya sərhədlərinin arzusunda olan siyasətbazların siyasi ambisiyalarına görə. Onlar bu zaman bu torpaqların vaxtilə imperiyaya zorla hansı yolla yenidən birləşdiyini yaddan çıxarırlar.

Tarixi məsuliyyət, elementar sağlam düşüncə və Allah tərəfindən verilmiş insan həyatı instinkti yer üzündə heç kimə insan

həyatına son qoymağa ixtiyar vermir. Lakin tarixi təcrübə göstərir ki, bəzi siyasətçilər minlərlə insanı, bütöv xalqları, dövlətləri məhv etməyə hazırdılar. Əvəzində imperiya müəyyən dövr üçün yenidən bərpa olacaq, öz keçmiş əzəməti və keçmiş geniş sahəsinin konturları bərpa ediləcəkdir. Digər dövlətlərin arzu və iradəsinə gəldikdə isə, bu, onları çox az narahat edir. Lakin çoxəsrlik bəşəriyyət tarixinin təcrübəsi göstərir ki, sülh və sülh şəraitində birgə yaşayış hamı – iri və kiçik dövlətlər üçün eynidir. Yaddan çıxartmaq lazım deyil ki, XX əsrdə başlayan hər iki dünya müharibəsi iri dövlətlərin kiçik dövlətlərlə toqquşması nəticəsində baş vermişdir.

Tarix siyasi səhvləri bağışlamır və başqalarına dərs verməyə çalışmaqdansa, onun verdiyi ibrət dərsi ilə hesablaşmaq daha məntiqə uyğundur. Əlbəttə ki, hər hansı bir dövlətin mənafeləri ola bilər və bu da təbiidir. Lakin onları sivil yolla, açıq və gizli şantaj, təzyiqə əl atmadan diplomatik və digər kanallardan istifadə edərək həll etmək gərəkdir. Bir vaxtlar Vyetnamda olduğu kimi, cənubluların da arxasında amerikalılar, şimallıların arxasında sovetlər dururdu. İki super dövlətin silahları sınaqdan çıxır, nəticədə isə vyetnamlılar məhv olurdular. İndi Vyetnam vyetnamlılara məxsusdur, hegemonluğa can atan gəlmələr isə öz yerlərinə qayıdıblar. Bu da tarix üçün dərsdir. Milyonlarla vyetnamlı həlak oldu, lakin öz şərəflərini və öz torpaqlarını qorudular. Belə faktlardan danışarkən, biz indiki bəzi siyasətçiləri düşünülməmiş addımlardan çəkindirməyə çalışırıq. Sülhü pozmaq asandır, çətini onu qorumaqdır.

Beynəlxalq təhlükəsizlik mücərrəd anlayış deyildir. O, coğrafi mövqeyindən, ərazisinin ölçülərindən, əhalisinin sayından asılı olmayaraq hər bir dövlətin milli təhlükəsizliyi ilə təyin edilir. Beləliklə, beynəlxalq təhlükəsizlik barədə danışarkən onu geniş başa düşmək lazımdır. İndiki zamanda beynəlxalq təhlükəsizliyin taleyi birincisi təsadüfi, nadir konfliktlər, toqquşmalar, hadisələrdən, ikincisi geniş miqyaslı dövlətlərarası ziddiyyətlər və hərbi toqquşmalardan asılıdır. Nəyi həll etmək daha asandır? Fikirləşirik ki, adı çəkilən hadisələrin hər biri

özlüyündə eyni dərəcədə əhəmiyyətlidir, belə ki, hər ikisi dünya konfliktinə səbəb ola, beynəlxalq şəraitin ağırlaşmasına gətirib çıxara bilər. Bu halda hər iki amil lazımi diqqət və vaxtında həll olunmağı tələb edir. Geosiyasi və təhlükəsizliyin konsepsiyası koordinal əhəmiyyət kəsb edir. Hamı, ilk növbədə iri dövlətlər tərəfindən sivil yanaşma tələb edir.

Ümummilli liderimiz Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, "Toqquşma deyil, ümumi təmas nöqtələrini axtarmaq lazımdır".

Qafqaz xalqları öz seçimlərinə görə deyil, Allah tərəfindən qonşu ediliblər. Deməli, qonşunun ərazisini ələ keçirmədən, ədavətsiz yaşamaq lazımdır. Lakin Qafqazın sülh və əməkdaşlıq zonası olması üçün, ilk növbədə Azərbaycan, Gürcüstan və Rusiyanın ərazisindəki konfliktlərin ocağını söndürmək lazımdır. Ölkələrin ərazi bütövlüyünü və suverenliyini bərpa etmək lazımdır. Bunsuz dördlük ölkələri arasmda iqtisadi əməkdaşlığın mümkün olmadığmı ümumilli lider Heydər Əliyev Rusiyanm Təhlükəsizlik Şurasınm müavini ilə görüşündə qeyd etmişdir.

Bu problemləri həll etdikdən sonra, gələcəkdə Türkiyə, İran, Mərkəzi Asiya və Qafqaz ölkələrinin də cəlb ediləcəyi Qafqaz Ümumi Bazarım yaratmaq olardı. Böyük enerji, mineral ehtiyatlarının, nəqliyyat infrastrukturunun, Böyük İpək Yolunun, telekommunikasiya və s.-nin burada cəmləşdiyini nəzərə alaraq, xarici investorları bura cəlb etmək olar.

Biz Qafqazda inteqrasiya barəsində mücərrəd hal kimi deyil, yuxarıda və aşağıda olanların hamısını əhatə edən, üfüqi və şaquli hərəkat kimi danışırıq. Bütün bunlar regionun dövlətləri, şəhərləri, rayonları, elmi və istehsal mərkəzləri arasında elmi, iqtisadi, mədəni, daha sonra isə siyasi əlaqələrin yaradılmasına imkan verəcəkdir.

Qarşılıqlı mənfəət, könüllülük, iqtisadi əməkdaşlıq hər bir xalqın və dövlətin bərabərliyi Qafqaz Ümumi Bazarının hərəkətverici qüvvələri ola bilərdi. Belə tədbirlərin həyata keçirilməsi Qafqazda rüsumsuz və vizasız zona yaradılmasına gətirib

çıxarardı ki, burada bir növ "Şengen" beynəlxalq əməkdaşlıq zonası əmələ gələrdi.

Bu regionda yerləşən dövlətlərin əməkdaşlığın İnkişaf və Yenidənqurma Bankının yaradılmasına imkan yaradardı. Bütün bunlar isə ümumi maliyyə vasitəsinin, ödəmə və hesablama mexanizminin olmasına, iqtisadiyyatın, elmin, təhsilin, turizmin, nəqliyyatın və s. birinci yerdə olan və perspektivli sahələrin maliyyələşdirilməsinə imkan verərdi. Bunu etməklə, Qafqaz xalqları və dövlətləri müharibəni öz münasibətlərindən birdəfəlik çıxardılar.

Birgə siyasət konfliktlərin təşəbbüskarlarına qarşı ümumi mövqeyi tutmağa, gərginlik ocağını başlanğıcda söndürməyə imkan yaradardı.

Belə halda məkr, dini və geostrateji maraqlar yox olardı. Belə hallarda iri dövlətlər ümumi təhlükəsizlik naminə dar, milliyyət maraqlarına əsaslana bilməzdilər. Birinci beynəlxalq təhlükəsizlik yerli, təsadüfi konfliktlər, hadisələr və toqquşmalardan, ikincisi iri miqyaslı dövlətlərarası ziddiyyətlərdən asılıdır. Fikirləşirik ki, adı çəkilən hadisələrin hər biri özlüyündə eyni dərəcədə əhəmiyyətlidir, belə ki, hər ikisi dünya konfliktinə səbəb ola, beynəlxalq şəraitin ağırlaşmasına gətirib çıxara bilərdi. Beləliklə, hər iki halda problemə dəqiq və operativ yanaşma tələb olunur. Onların gedişatının inkişafı vaxtında və təxirəsalınmaz qərarlar tələb edir. Geosiyasət və təhlükəsizlik mühüm əhəmiyyət kəsb edir, hamının, ilk növbədə isə hadisələr burulğanında iştirak edənlərin və bilavasitə konfliktə cəlb olunanların sivil yanaşması tələb olunur.

Toxunulan problemin incəliyi ondadır ki, o, Qafqazda yaşayan bir çox xalqların və ölkələrin maraqlarına toxunur. Burada uğurlar və müvəffəqiyyətsizliklər olacaqdır. Əsas odur ki, bütün bu çeşidliliyə baxmayaraq, heç kimə və heç yerdə Ümumi Qafqaz evini silkələməyə imkan verilməsin. Qafqaz xalqları əsrlərlə qonşuluq etmişlər və onlar burada yaranmış bütün problemləri sülh yolu ilə həll etmək qüvvəsindədirlər.

Bununla yanaşı, bu və ya digər millət, xalq öz dövlətini yaratmaq hüququna malikdir. Lakin keçmişdə olduğu kimi, indi də dünya praktikasından aydındır ki, hər bir millət doğulduğu yerdən asılı olmayaraq öz müqəddəratını bir dəfə təyin edə bilər, coğrafi vəziyyətinə görə öz müqəddəratını bir neçə dəfə təyin edə bilməz. Erməni milləti artıq bir dəfə öz müqəddəratını təyin etmişdir, həm də özünün şimaldakı hamilərinin köməyi ilə əzəli Azərbaycan torpaqlarında erməni dövləti yaratmış və bu dövlət beynəlxalq hüququn subyektidir. Hazırda Ermənistan Respublikasında deyildiyi kimi, hər bir erməni dünyanın hansı nöqtəsində yaşayırsa-yaşasın, avtomatik olaraq bu respublikanın vətəndaşıdır, deməli, bu və ya digər səbəbdən sıxışdırılan hər bir erməni "azad" Ermənistana gəlib burada yaşaya bilər. Ermənilərin məntiqinə görə, "öz müqəddəratını təyinetmə prinsipini" rəhbər tutmaqla ermənilərin yığcam yaşadıqları yerlərdə ən azı on yeni erməni dövləti yaratmaq olar. Bu halda Gürcüstan, Fransa, ABŞ, İtaliya, Livan, Suriya, Mərkəzi Asiya, Rusiya Federasiyasında (Moskva şəhəri, Rostov vilayəti, Krasnodar və Stavropol diyarlarında və s.) erməni respublikaları yarana bilər. Bu təcrübədən istifadə edərək azərbaycanlılar da öz müqəddəratlarını təyin edər və Gürcüstan, Qazaxıstan, Özbəkistan, Türkiyə, Almaniya, Skandinaviya ölkələri, ABŞ, Kanada və s. ölkələrdə Azərbaycan respublikaları yarada bilərlər. Bu sxemə görə, Avstraliya, Yeni Zellandiya, Cənubi Afrika, Kanada və digər yerlərdə yaşayan ingilislər də öz müqəddəratlarını təyin edə bilərlər. Göstərilən ölkələrin xalqlarının damarlarından ingilis qanı axır.

Öz müqəddəratını təyin etməyin erməni yozumu əsassız və fitnəkar xarakter daşıyır. Həyata keçirilməsi mümkün olmayan arzularını ifadə edən müəlliflər nəyə getdiklərini özləri də bilmirlər. Onlar kənardan köməyə və erməni sponsorlarına bel bağlayırlar.

Dağlıq Qarabağ regionunun Azərbaycana məxsus olmasından şübhələnənlər qoy Ermənistan-Azərbaycan, Dağlıq Qa-

rabağ münaqişəsinə dair BMT Təhlükəsizlik Şurasının 1993-cü il 29 iyul tarixli 853 nömrəli qətnaməsinin 9-cu bəndində deyilir: "Azərbaycanın Dağlıq Qarabağ regionunun ermənilər tərəfindən riayət olunmasının təmin edilməsi...". Bu forma BMT Təhlükəsizlik Şurasının 1993-cü il 14 oktyabr tarixli 874 nömrəli qətnaməsində də təkrar edilmişdir. Burada deyilir: "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda münaqişənin davam etməsindən ciddi narahat olduğunu ifadə edərək...". 1993-cü il 12 noyabr tarixli 884 nömrəli qətnamədə də deyilir: "Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda münaqişənin davam etməsindən özünün ciddi narahatlığını ifadə edərək...". Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Helsinki müşavirəsinin prinsipləri Bəyannaməsində yazılmış bu sözlər – "zor tətbiq etmək və ya zor tətbiq etməklə hədələmək" sözləri suveren Azərbaycan dövlətinin milli ərazisinə göz dikmiş ermənilərə tutarlı cavabdır. Bəyannamədə deyilir: "İştirakçı dövlətlər ümumiyyətlə, bütün beynəlxalq münasibətlərdə olduğu kimi, bir-birləri ilə olan qarşılıqlı münasibətlərdə də Birləşmiş Millətlərin məqsədləri ilə və bu bəyannamə ilə bir araya sığmayan hər hansı bir dövlətin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı zor tətbiq etməkdən və ya zor tətbiq etməklə hədələməkdən imtina edəcəklər. Bu prinsipi pozaraq zor tətbiq etməklə hədələmək və ya zor tətbiq etməyi əsaslandırmaq üçün heç bir mülahizədən istifadə etmək olmaz". Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin hamısında "Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bir daha təsdiq edilir".

Sual oluna bilər: bütün bunlardan sonra Dağlıq Qarabağın mənsubiyyəti məsələsini şübhə altına almaq olarmı?! Əlbəttə yox. Dünyanın ən nüfuzlu təşkilatları Dağlıq Qarabağ regionunu Azərbaycan Respublikasının ayrılmaz hissəsi kimi tanıyır. Beynəlxalq hüquq normalarına əsasən bu məsələ müzakirə oluna bilməz. "Erməni silahlı birləşmələri" deyil, Ermənistan

Respublikası Azərbaycan ərazilərini tərk etməlidir. Ermənistanın himayədarları da, hərbi müttəfiqləri də bunu başa düşməlidirlər.

Eyni zamanda, ermənilərin iddialarından danışarkən beynəlxalq təşkilatların bəzi əsas sənədlərinə də müraciət etmək lazımdır. Erməni nəzəriyyəçiləri və millətçi-şovinistləri bu sənədlərə tez-tez istinad edirlər. Belə ki, milli, etnik, dini və dilə görə azlıq təşkil edən şəxslərin hüquqları haqqında 1992-ci il dekabrın 18-də BMT Baş Məclisinin sessiyasmda qəbul olunmuş Bəyannamədə və BMT Baş Məclisinin 47/135 saylı qətnaməsində deyilir ki, milli azlıqların (bu halda Azərbaycan Respublikasınm Dağlıq Qarabağ regionunda azlıq təşkil edən ermənilərin) öz dinlərini inkişaf etdirmək, öz dillərində danışmaq, öz mədəniyyətlərindən istifadə etmək, öz qruplarının nümayəndələri ilə (dünyanın digər ölkələrində yaşayan ermənilər nəzərdə tutulur) əlaqələr yaratmaq və həyata keçirmək hüququ vardır. Bu, 1993-cü ildə Avstriyanm paytaxtı Vyanada keçirilmiş İnsan Hüquqları Ümumdünya Konfransının sənədlərində də təsdiq edilib. BMT, ATƏT və İslam Konfransı Təşkilatmın və s. sənədlərinin heç birində göstərilməyib ki, milli azlıq bu və ya digər dövlətin tərkibindən çıxa bilər və zorakılıq yolu ilə, ya da könüllü surətdə başqa bir dövlətlə birləşə bilər. Bütün universal beynəlxalq təşkilatların sənədlərində dövlətlərin sərhədlərinin pozulmazlığı və ərazi bütövlüyü prinsipləri təsbit edilmişdir.

Sual olunur ki, əgər dünya birliyi və ya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ATƏT-in Minsk qrupunun 3 həmsədri azərbaycanlılarla birlikdə ermənilərin də yaşadıqları Azərbaycan ərazisinin Ermənistan Respublikasına verilməsi haqqında erməni avantürist və işğalçılarmm dediklərinə əməl etsələr, nə baş verə bilər? Bu halda müasir Avropanın, Amerikanm, Asiyanın və Afrikanm xəritələri yenidən çəkilməli olar.

Bu, açıq-aşkar digər dövlətin ərazisini ilhaq etmək məqsədilə quldurluq və işğal etmək deməkdir. Söhbət təkcə res-

publikamızm ərazi bütövlüyündən getmir. Əvvəl-axır milli suverenliyimizi bərpa edəcəyik. Məsələ burasındadır ki, ermənilərin özbaşınalığı və avantürizmi bəşəriyyətə baha başa gələ bilər. Bu, dünyanın, xüsusən, Asiya və Afrikanm bir çox dövlətini şirnikləndirə bilər. Belə olduqda, yaxın gələcəkdə müasir dünyanın nə vəziyyətə düşəcəyini təsəvvür etmək çətin deyildir. Dünya zor gücünə xəritələrin yenidən çəkilməsi kimi dəhşətli bir vəziyyətlə gərək qarşılaşmasın. Yoxsa bəşəriyyət çox ağır və gözlənilməz nəticələrlə üzləşər. Dünya birliyi XXI əsrin əvvəlində erməni "cəngavərlərini" öz yerində – tarixin onlar üçün ayırdığı yerdə oturtmasa, sabah gec olacaqdır.

Bir problemə də toxunmaq lazımdır. Erməni millətçi şovinistləri bu məsələdə xüsusi inadkarlıq göstərirlər. Söhbət "Ümumi dövlət"dən gedir. Bu ideyanı erməni müşavirlərinin köməyilə Rusiya Federasiyasının keçmiş baş naziri Y.Primakov irəli sürmüşdür. Məsələ isə bundadır ki, dünyada bu cür qurum nə keçmişdə olub, nə də indi var. Bu, federativ dövlətə bənzər bir simbiozdur. Bu halda Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu beynəlxalq hüququn subyekti statusunu alar və istədiyi vaxt sazişi poza bilər. Bu isə o deməkdir ki, bir müddətdən sonra Dağlıq Qarabağ müstəqil dövlət olaraq qanuni yolla və ümumxalq referendumu yolu ilə Ermənistanla birləşəcəkdir. Bədnam "Ümumi dövlət"in bütün mahiyyəti bundan ibarətdir. Belə olduqda cənab Y.Primakova və "Ümumi dövlət" ideyası üzrə onun silahdaşlarına sual vermək lazımdır: Niyə Rusiya Federasiyası Çeçenistan Respublikası ilə "Ümumi dövlət" yaratmasın? Ya da 6 milyon tatar əhalisi olan Tatarıstanla və 5 milyonluq Başqırdıstanla "Ümumi dövlət" yaradılmasın? Rusiya böyük dövlətdir və "Ümumi dövlət" yaratmaqda başqalarına nümunə ola bilərdi.

Konfederasiya quruluşu anlayışı da vardır. Bu halda konfederasiyam yaradan ölkələr beynəlxalq hüququn subyektləri, beynəlxalq təşkilatların üzvləridir, onlar müstəqil xarici siyasət yeridirlər, özlərinin qanunvericilik və icra orqanları vardır. XX

əsrin iknci yarısında Afrikada bu cür qurumlar var idi – Seneqambiya (Seneqal və Qambiya), Birləşmiş Ərəb Respublikası (Misir, Suriya və Liviya), Ərəb İslam Respublikası (Liviya və Tunis). Bir müddətdən sonra bu respublikalar parçalanaraq özlərindən sonra heç bir iz qoymadılar.

Müasir dünyada federativ dövlət anlayışı mövcuddur. Federativ dövlət beynəlxalq hüququn üzvü olmayan ayrı-ayrı dövlətdaxili subyektdən ibarətdir. Əraziləri ayrı-ayrı ştatlardan ibarət olan ABŞ, Braziliya, Meksika, Avstraliya, Hindistan belə dövlətlərdir. Argentina və Kanada əyalətlərdən, İsveçrə kantonlardan, AFR və Avstriya Respublikası vilayətlərdən (torpaqlardan) ibarətdir və s.

Federal dövlətdə subyektlərin silahlı qüvvələri yoxdur, xarici siyasət sahəsində əlaqə saxlamırlar, vahid valyutaları və vahid ümumi federal büdcələri vardır. ABŞ, AFR, Argentina, Kanada, İsveçrə və s. federativ dövlətlərin konstitusiyalarında federasiya üzvlərinə onun tərkibindən çıxmaq hüququ verilməyib.

Nəhayət, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa yüksək status verilməsi məsələsi haqqında ümummilli lider Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün görüşlərdə və ATƏT-in sammitlərində, habelə ABŞ, Rusiya rəhbərlərinin Azərbaycan və Ermənistan prezidentlərinin, ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ-ın, Fransanın və Rusiyanın iştirakı ilə keçirilmiş görüşlərdə və s. tədbirlərdə dəfələrlə söyləmişlər ki, Dağlıq Qarabağın statusunu ən yüksək özünüidarəetmə statusu səviyyəsinə qaldırmaq mümkündür. Söz yox ki, bu zaman Azərbaycan Respublikasının Konstitusiyasında müvafiq dəyişiklik etmək lazım gələcək. Bizə elə gəlir ki, bu halda onun qanunvericilik orqanının sədri avtomatik olaraq Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavinləri ola bilər ki, baş naziri isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Rəyasət Heyətinə daxil edilər, öz daxili problemlərini müstəqil həll etmək hüququ almış olar.

Dağlıq Qarabağ azərbaycanlıları kimi, buradakı ermənilər də özlərinin mədəniyyətini, dilini azad şəkildə inkişaf etdirə bilər, dinindən istifadə edə bilər, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşları ilə ünsiyyət yarada bilərlər. Bütün bunlar aparıcı beynəlxalq təşkilatların əsas sənədlərində qeyd olunmuş beynəlxalq standartlara və insan hüquqlarına uyğundur. BMT, ATƏT və s. təşkilatlar bunlara əməl edilməsinin təminatçıları olardı. Məsələnin mahiyyəti bundan ibarətdir ki, Dağlıq Qarabağ regionu Azərbaycan Respublikasınm ayrılmaz tərkib hissəsidir.

**ƏDƏBİYYAT:**

1. Клаузевиц К. О войие. М., 1934.
2. Кингстои-Макклори О.Дж. Глобальиая стратегия. М., 1959.
3. Киссинджер Г. Дипломатия. М., 1997.
4. Hobsom E. The Age of Extremes. A history of the world. 1914-1991. N.Y. Patheon Books, 1994.

## 7.2. Cənubi Qafqaz böyük dövlətlərin geosiyasi maraqlarında

Klassik geosiyasətdə belə bir şüar var idi: "Kim, Avropaya nəzarət edirsə, o bütün dünyaya nəzarət edir". Lakin tarixi inkişaf nəticəsində dövrün tələblərinin dəyişməsi dövlətlərin xarici siyasətlərində, xüsusilə geostrategiyalarında dəyişikliklərin baş verməsi ilə nəticələndi. Bu dəyişikliklər isə özünü daha çox dövlətlərin xarici siyasət istiqamətlərində, onların məqsədlərində və bu məqsədlərə nail olmaq üçün istifadə etdikləri üsullarda göstərmişdir. Klassik geosiyasətdə o dövrün şəraitinə uyğun yaranmış bu şüarı indi də bu cür dəyişdirmək olar: "Kim enerji resurslarına nəzarət edirsə, o, dünyaya nəzarət edir". Bir qədər də genişləndirsək, bu faktorların sırasına əlverişli coğrafi mövqe və geosiyasi yerləşmə amilini də daxil etmək olar.

Cənubi Qafqaz həmişə dünya adlı orqanizmin həyati əhəmiyyətə malik olan orqanlarından biri olub və hazırda da bu əhəmiyyətini qoruyub saxlamaqdadır. Bu region uzun müddət SSRİ-nin tərkibində xaricdən təcrid olunmuş şəkildə qalmış və belə desək, planetdə öz rolunu oynamaq imkanından məhrum edilmişdir.

SSRİ-nin xarici siyasət konsepsiyası kommunizmin imperializm üzərində qələbəsi ideyası üzərində qurulmuşdu. Bu istiqamət isə Qərb ilə konfrontasiyaya gətirib çıxardı. Düzdür, bu qütbləşmənin və SSRİ-nin özünü beynəlxalq aləmdən təcrid etməsinin tək səbəbi deyildi, amma əsas səbəblərdən biri idi. Sovet İttifaqının süqutu isə SSRİ-nin bir tərkib hissəsi kimi beynəlxalq aləmdən təcrid olunmuş, unudulmuş regionlar, xüsusi strateji və geosiyasi əhəmiyyət kəsb edən tranzit yolları ətrafında yeni siyasi və geosiyasi mübarizənin başlanması ilə müşayiət olundu ki, bu regionlardan biri də Cənubi Qafqaz idi.

Cənubi Qafqaz regionunun geosiyasi mövqeyi həm onun potensialına, həm də coğrafi mövqeyinə görə çox əhəmiyyətlidir.

Başqa sözlə desək, Cənubi Qafqaz regionu "dünyanın dördyolu" rolunu oynayır. Cənubi Qafqazın Şimal ilə Cənub, Şərq ilə Qərb arasında dəhliz rolunda çıxış etməsi bunu söyləməyə əsas verir. Belə ki, Cənubi Qafqaz iki müxtəlif qitəni – Avropa və Asiyanı, iki müxtəlif qütbü birləşdirməklə yanaşı, iki müxtəlif sivilizasiyanı da bir-birinə qovuşduran bir regiondur.

Şimaldan baxdıqda köhnə Sovet imperiyasının ərazisi olmuş bu region SSRİ-nin süqutundan başlayaraq artıq 20 ildir ki, siyasi, iqtisadi, hərbi və ideoloji proseslərin, mübarizənin mərkəzidir.

Cənubdan baxdıqda isə Cənubi Qafqaz müasirləşməsi və yenidən qurulması hələ də tam mümkün olmayan, dünyanın əksər güclərinin müdaxilə etdiyi Yaxın Şərqə bitişikdir. Yaxın Şərq regionunun problemləri isə birbaşa Cənubi Qafqazdakı geosiyasi vəziyyətə təsir edən amildir. Həmçinin, Cənubi Qafqazdakı proseslər də öz növbəsində Cənub-Şərqi Avropa regionundakı proseslərə təsir edir. Buna görə də bəzi tədqiqatçılar haqlı olaraq Cənubi Qafqazı Avropanın bir hissəsi kimi qeyd edir. Bunu Cənubi Qafqaz dövlətlərinin əsas götürdükləri siyasi istiqamət də sübut edir. Lakin bir faktı da nəzərə almaq lazımdır ki, Cənubi Qafqaz tarixi bağlarla Şərqə bağlıdır. Həmçinin, regionun Şərqlə, xüsusən də, Yaxın Şərq regionu ilə sıx əlaqələri vardır və bu da Cənubi Qafqazın Qərb ilə Şərq arasında geosiyasi bir əlaqə kimi rolunu artırır. Cənubi Qafqaz böyük Yaxın Şərq regionunun müasirləşdirilməsi üçün Avropanın işini asanlaşdıracaq yeganə regiondur. Bir faktı da qeyd etmək lazımdır ki, Cənubi Qafqaz regionu ölkələri uzun müddət SSRİ-nin tərkibində olmuş vahidlər kimi öz dövlətçilik xarakterinə görə də Qərbə öz cənub qardaşlarından daha yaxındırlar. Həmçinin, SSRİ-nin tərkibində olmaq faktları regionun bir xüsusiyyətinin də formalaşmasına səbəb olmuşdur. Belə ki, dini ideologiya, dini ekstremizm bu regionda o qədər də güclü deyil və bu xarakterinə görə bu region Avropa dəyərlərinə daha yaxındır. Dünyada demək olar ki, "qlobal problem" olan dini ekstremizm

Cənubi Qafqaz ölkələrinin cənub qonşularında çox yüksək və təhlükəlidir. Bu problemin həllində isə yenə də Cənubi Qafqaz Avropa üçün həyati əhəmiyyətə malik bir geosiyasi məkandır. Həmçinin, Yaxın Şərqdəki dini fanatizmin, dini ekstremizmin zəifləməsi Cənubi Qafqaz ölkələri üçün də bəzi hazırki və gələcək problemlərin aradan qaldırılması deməkdir.

Şərq-Qərb əlaqələri kontekstindən baxdıqda Cənubi Qafqaz yenə də diqqət mərkəzində dayanır. Belə bir fikir də söyləmək olar ki, Cənubi Qafqaz Aralıq dənizi, Qara dəniz və Xəzər dənizi regionunda çox böyük geosiyasi əhəmiyyətə malik bir ərazidir. Aralıq dənizi-Qara dəniz-Xəzər dənizi xəttinin problemləri Cənubi Qafqaz, Mərkəzi Asiya, Balkanlar, həmçinin, Cənub-Şərqi Avropa dövlətlərinin iştirak etdikləri beynəlxalq konfranslarda dəfələrlə müzakirə edilmişdir. Cənubi Qafqaz regionunun başqa bir geosiyasi əhəmiyyəti də qeyd olunmalıdır. Bu rol Avropanın Rusiya ətrafmda Cənub-Şərqi Avropadan Cənubi Qafqaza qədər, hətta lazım gələrsə Çin sərhədlərinə qədər uzanan sanitar kardonu yaratmaq planında Cənubi Qafqazın tutduğu yer ilə bağlıdır. Bu plan Rusiyanın bu regionlardakı mövqeyinə qarşı yönəlmişdir. Burada isə Rus tədqiqatçıları ilə yerli və Avropa tədqiqatçılarınm irəli sürdükləri fikirlər arasında ziddiyyət meydana çıxır. Cənubi Qafqazın bütün ərazisində tarixən Rusiyanın təsiri çox böyük olub. Buraya nəinki sivilizasiya nöqteyi-nəzərdən təsir, həmçinin, iqtisadi, sosial, mədəni və digər sferalardakı təsir də daxildir. SSRİ dövründə məhz Rusiyanın köməyi ilə Azərbaycan, Gürcüstan və Ermənistan sənaye ölkələrinə çevrilmişdilər, öz iqtisadi potensialını artırmışdılar. Bu potensial adları çəkilən ölkələrin müstəqillik qazandıqdan sonra da inkişafının əsas bazası olmuşdur.

Lakin bütün bunlara baxmayaraq Avropanın və ABŞ-ın Rusiyanm qərb və cənub sərhədlərində "körpü", "sanitar kardonu" yaratmaq kimi geosiyasi planları, həmçinin, bu planın reallaşmasına yönəlmiş fəaliyyət Rusiyanın Cənubi Qafqazdakı mövqeyini zəiflətməkdə davam edir. Bu fəaliy-

yətə Cənubi Qafqaz regionu ölkələri, həmçinin, MDB-nin üzvü olan digər postsovet ölkələrin qərblə aktiv siyasi, hərbi, iqtisadi əməkdaşlığa cəlb olunması, Avroatlantik məkana inteqrasiya və s. prosesləri aid etmək olar. Bu proseslər isə Rusiyanın timsalında mənfi imic yaratmaq siyasəti ilə paralel şəkildə gedir. Lakin məsələni araşdırarkən yalnız rus tədqiqatçılarının arqumentləri ilə kifayətlənmək olmaz. Bu fikirlərə əks arqument kimi Azərbaycanın tanınmış siyasətçilərindən olan Vəfa Quluzadənin bəzi fikirlərini söyləmək olar. Vəfa Quluzadə qeyd edir ki, müstəqilliyin ilk illərində, yəni SSRİ dağıldıqdan sonra Cənubi Qafqaz dövlətləri, xüsusilə Azərbaycan demokratiya və bazar iqtisadiyyatına gedən yolda bir sıra maneələrlə üzləşdi. Rusiya və İran kimi dövlətlər Cənubi Qafqazda öz mövqelərini yenidən ələ keçirməyə və möhkəmləndirməyə çalışırdılar. Bu vəziyyətdə Cənubi Qafqaz dövlətlərinin həqiqətən müstəqil dövlət kimi qalmaları üçün Qərbin köməyinə ehtiyacı var idi.

Rus tədqiqatçıları Cənubi Qafqaz regionu ölkələrində bu dövrdə də Rusiyaya qarşı münasibətlərin kəskinləşdiyini qeyd edirlər. Onlar buna səbəb kimi 90-cı illərdən başlayaraq Qorbaçov hökumətinin, sonra isə Yeltsinin Cənubi Qafqaz siyasətləri ilə bağlı yol verdikləri nöqsanları göstərirlər. Həmçinin, onlar Cənubi Qafqazdakı hazırkı geosiyasi vəziyyətin və Qərbin buradakı siyasətinin nə Rusiya, nə də Cənubi Qafqaz ölkələri üçün əlverişli olduğunu qeyd edirlər. Azərbaycan da daxil olmaqla Cənubi Qafqaz ölkələri müstəqilliyin ilk illərində Rusiya ilə əməkdaşlığa meyilli idilər. Lakin Yeltsin hökumətinin bu dövlətlərə qarşı soyuq rəftarı sözü gedən əməkdaşlığa mane oldu. Belə ki, o dövrdə ümummilli lider Heydər Əliyev hökuməti Rusiya ilə iki məsələdə ortaq məxrəcə gəlməyə çalışırdı:

1. Qarabağ probleminin həlli istiqamətində səylərin artırılması;

2. Xəzərin neft və qaz ehtiyatlarının istifadəsində əməkdaşlıq.

Lakin Yeltsin hökuməti bu prosesləri uzatmağa çalışırdı. Hətta görüşlərdən birində ümummilli lider Heydər Əliyev bunları qeyd etmişdir: "Biz sizə dəniz yataqlarımn işlənməsində əməkdaşlıq təklif edirik və siz müxtəlif çətinliklərdən, texnologiya çatışmazlığından damşasınız. Sizdən dəstək ala bilmədikdə biz amerikanlara müraciət edirik, o zaman siz yenə ortaya çıxıb, bunu etmək olmaz deyirsiniz. Sizin istədiyiniz nədir?!".

Bu faktdan da göründüyü kimi, ruslar Azərbaycanm Qərbyönümlü inkişaf yolu götürməsini rus hökumətinin Cənubi Qafqaz siyasətində yol verdikləri kobud səhvlə əlaqələndirirlər. Lakin bu əsaslandırma heç də doğru hesab edilə bilməz. Cənubi Qafqazda dünya əhəmiyyətli geosiyasi məsələlərin həll olunduğu o dövrdə Azərbaycanın, eləcə də digər Cənubi Qafqaz ölkələrinin Qərbə üz tutmalarını Vəfa Quluzadə 1995-ci il 18 martda "Komsomolskaya pravda"ya verdiyi müsahibədə aşağıdakı kimi açıqlayırdı:

"Hələ də öz ekspansionist baxışlarından əl çəkməyən Rusiya Cənubi Qafqaz ölkələrinin, eləcə də Azərbaycanın müstəqilliyini təhdid edən əsas təhlükədir. Mərkəzi Asiya və Cənubi Qafqazın digər dövlətlərindən fərqli olaraq Azərbaycan ərazisində rus qoşunlarının mövcudluğuna son qoydu. Bu isə Rusiyanm Azərbaycam regiona yiyələnməkdə əsas maneə olaraq görməsinə səbəb oldu. Buna cavab olaraq Rusiya İranla səylərini birləşdirərək Azərbaycana təzyiqi gücləndirir".

Bu faktlara əsaslanaraq söyləmək olar ki, Rusiya-Azərbaycan əlaqələrini pisləşdirən faktor əslində o dövrdə Rusiyanın regionla bağlı geosiyasi xətti və Azərbaycanm bunu düzgün qiymətləndirməsi idi. SSRİ dağıldıqdan sonra Cənubi Qafqazda geosiyasi vəziyyətin bir istiqamətini Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşdiyi şəraitdə xarici dövlətlərin, xüsusilə də qonşuların mövqeyi təşkil edir. Ümumiyyətlə müxtəlif tədqiqatçılar Qarabağ münaqişəsinin meydana çıxmasım müxtəlif cür izah edirlər. Bu sahədə əsasən iki istiqaməti fərqləndirmək olar:

1. Bu konflikt xalqları əsarətdə saxlamaq üçün rusların yaratdığını düşünən qərb və yerli tədqiqatçılar;

2. Qarabağ münaqişəsini SSRİ-nin zəifləməsi və millətlərarası ziddiyyətin güclənməsi ilə izah edən rus tədqiqatçıları.

Ümumiyyətlə, SSRİ-nin "miras" qoyduğu etnik münaqişələrdən biri də Qarabağ münaqişəsi idi. Qarabağ münaqişəsindən sonralar SSRİ-nin varisi olan Rusiya Cənubi Qafqazda öz mövqeyini möhkəmləndirmək və region ölkələrinə təsir etmək üçün bir vasitə kimi istifadə etdi və hələ də bunu etməkdədir.

SSRİ dağıldıqdan sonra Cənubi Qafqaz regionundakı geosiyasi vəziyyətə təsir edən digər faktor isə regionun köhnə aktorlarından olan Türkiyənin regionla əlaqəsi idi.

1990-cı ildən başlayaraq Rusiya və İran aktiv şəkildə "Şimal-Cənub" layihələrini həyata keçirməyə çalışır və bu yolda müəyyən qədər işlər də görürdülər. Bu proyektin də əsas hissəsini İran və Rusiya arasında magistral yollar vasitəsi ilə əlaqənin bərpa edilməsi təşkil edir və əlbəttə, bu yollar Azərbaycan ərazisindən də keçir.

"Köhnə" və "yeni" aktorlar anlayışlarını konkret şəkildə bu cür izah edək. Məlumdur ki, SSRİ-nin dağılması Cənubi Qafqazda yeni geosiyasi mübarizənin başlamasına səbəb oldu. Regionda geosiyasi maraqları olan dövlətləri bu maraqların və regionla əlaqələrinin yaranma tarixinə görə iki qrupa bölmək olar:

1. "Köhnə" aktorlar; 2. "Yeni" aktorlar

"Köhnə" aktorlar dedikdə, Cənubi Qafqaz regionu və eləcə də Cənubi Qafqaz ölkələri ilə qədim tarixi əlaqələrə malik olan dövlətlər nəzərdə tutulur ki, bu kateqoriyaya daxil olan dövlətlər, adətən, sözügedən regiona qonşu olan dövlətlərdir. Belə ki, köhnə aktorların Cənubi Qafqaza dair geosiyasi maraqları haqqında danışarkən Rusiya, İran və Türkiyənin regiona münasibətlərindən bəhs olunacaq.

Yeni aktorlara isə SSRİ dağıldıqdan sonra Cənubi Qafqaz regionu ilə bağlı yeni geosiyasi maraqları yaranmış və bu

məqsədə çatmaq üçün yeni geosiyasi istiqamət götürmüş dövlətlər daxildir ki, bu dövlətlər içərisindən də daha çox ABŞ Cənubi Qafqaz regionunda geosiyasi mübarizədə həyata keçirdiyi aktiv siyasəti ilə fərqlənir.

Ümumiyyətlə, Cənubi Qafqaz regionunu nəzərdən keçirərkən və onun beynəlxalq inteqrasiya proseslərində yerini müəyyənləşdirərkən bir fakt ətrafında diqqəti cəmləmək lazımdır ki, Cənubi Qafqaz regionunda suveren dövlətlərin meydana gəlməsi ilə regionda Rusiya, İran, Türkiyə kimi ənənəvi, başqa sözlə desək, "köhnə" oyunçuların maraqlarınm artması ilə yanaşı, regiona yeni aktorların - ABŞ, aparıcı Avropa dövlətləri, Asiya - Sakit okean regionu ölkələri və Yaxın Şərq ölkələrinin maraqları yönəlməyə başladı. Tarixə nəzər saldıqda da görürük ki, Cənubi Qafqaz regionunun tarixi inkişafı yuxarıda adları çəkilən "köhnə" oyunçuların regiona nəzarət etmək və ya onu bölüşdürmək uğrunda apardıqları mübarizə şəraitində getmişdir. Bu da göstərir ki, regionun siyasi statusunda baş verən hər hansı bir dəyişiklik orada "yeni" aktorların meydana çıxmasına gətirib çıxarır. Bu hal XX əsrin əvvəlində Çar Rusiyası dağıldıqda özünü göstərdi.

"Yeni" aktorların regionu öz geosiyasi maraqlarının predmetinə çevirməsi prosesi də məhz bu dövrdən başlayır. Cənubi Qafqazda o dövrdə müstəqil dövlətlərin mövcud olduğu müddət ərzində ABŞ və Avropa ölkələri regiona xüsusi maraq göstərirdi. Məqsəd isə təbii ki, regionda mövqe qazanmaq idi. Burada, xüsusən də, Gürcüstan-Almaniya münasibətləri diqqəti cəlb edirdi. Cənubi Qafqazı dünyadan təcrid edən Sovet İttifaqı dağıldıqdan sonra da bu proses müşahidə olunurdu. "Yeni" aktorlarm Cənubi Qafqaza maraqları nəinki azalmış, hətta yeni məqsəd və metodlarla zənginləşərək artmışdır.

SSRİ dağıldıqdan sonra Cənubi Qafqazdakı regiondaxili vəziyyəti qısa olaraq aşağıdakı kimi xarakterizə etmək olar:

1. Azərbaycan ilə Gürcüstanın mövqelərində yaxınlaşma, sosial-iqtisadi və siyasi münasibətlərin möhkəmlənməsi. Bu

özünü yalnız iki ölkə arasındakı münasibətlərdə yox, həmçinin, NATO ilə əlaqələrin qurulmasında, Avropa və digər beynəlxalq strukturlara inteqrasiyada, öz demokratik institutlarının möhkəmlənməsinə yönəlmiş daxili siyasətdə də göstərirdi.

2. Ermənistanın Azərbaycana, Türkiyəyə və qismən, gizli də olsa, Gürcüstana qarşı tutduğu aqressiv mövqe. Bu mövqe ucbatından Ermənistan öz-özünü regional, qismən də beynəlxalq inteqrasiya proseslərindən kənarda qoyur. Bir sıra beynəlxalq təşkilatların və vasitəçi dövlətlərin təkliflərinə baxmayaraq Ermənistan Qarabağ məsələsindəki aqressiv mövqeyindən əl çəkmir, baxmayaraq ki, həmsərhəd olduğu ölkələrin əksəriyyəti ilə sərhədləri bağlıdır. Həmçinin, Ermənistanın bu mövqeyi onu TRASEKA layihəsinə qoşulmaq imkanından da məhrum etmişdir. Ermənistanın regiondakı pozuculuq siyasəti iki dövlətin marağına xidmət edir. Bu, Rusiya və İrandır. Rusiya və İran SSRİ dağıldıqdan sonra Cənubi Qafqazdakı geosiyasi vəziyyətlə razılaşmaq istəmir. Ermənistan istisna olmaqla, Cənubi Qafqazın digər iki ölkəsi – Azərbaycan və Gürcüstanın Qərb yönümlü inkişaf istiqaməti götürmələri, həm də buna birbaşa müdaxilə imkanının olmaması Rusiyanı qıcıqlandıran əsas məsələ idi.

Həmçinin, İran və Rusiyanın Azərbaycan – Türkiyə – Gürcüstan əməkdaşlıq üçbucağına qısqanclıqla yanaşmaları da qeyd olunmalıdır. İran və Rusiyanın Cənubi Qafqaz regionunda münaqişələrin yaradılmasında və genişləndirilməsində rolu böyükdür və burada əsas məqsəd Şimal-Cənub dəhlizi açmaqla regiona, başqa sözlə Qərb-Şərq, yəni Avropa-Asiya dəhlizinə nəzarətə sahib olmaqdan ibarətdir. Lakin bir həqiqət də vardır ki, tarix boyu Avropa və Asiya arasında tranzit ölkə roluna iddialı olan Rusiya bu mövqedən geri çəkilməkdədir. Bunu TRASEKA layihəsinin reallaşması və Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi bir daha təsdiq edir. Bununla belə, Azərbaycan və Gürcüstan Rusiya və İranla əməkdaşlıq münasibətlərinin saxlanmasında maraqlıdırlar. Rəsmi Bakı Rusiya və İranın quru yolu əlaqələrini möhkəmlədəcək

Şimal-Cənub dəhlizinin yaradılması planına müsbət yanaşır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü ilin fevral ayında Moskvaya səfəri zamanı Vladimir Putinlə görüşdə imzalanmış Moskva deklorasiyası bu mövqeyi bir daha təsdiqlədi. Bütün bunlara baxmayaraq, Rusiyanın hərbi cəhətdən Ermənistanda mövcudluğu, Moskvanın İrəvana təsir göstərməməsi, əksinə, Dağlıq Qarabağda, həmçinin, Cənubi Osetiya və Abxaziyadakı separatçı rejimlərin dəstəklənməsi, Kreml hökumətinin regiondakı münaqişələrin həllində yalnız izləyici mövqe tutması Gürcüstan və Azərbaycanın müasir inteqrasiya proseslərində iştirakına mane olmaq, onlara təsir etmək siyasəti kimi qiymətləndirilir.

Öz növbəsində, İran Xəzərin statusu məsələsində Azərbaycana qarşı aqressiv mövqeyi ilə paralel olaraq Ermənistan ilə siyasi və iqtisadi əlaqələrini genişləndirir və ona kömək edir. Bütövlükdə baxdıqda, SSRİ-nin süqutundan başlayaraq "yeni" və "köhnə" aktorlar Cənubi Qafqaz ölkələrini öz geosiyasi və geoiqtisadi maraqlarının reallaşması üçün istifadə etməyə çalışır.

Beləliklə, ABŞ və Avropa dövlətləri Cənubi Qafqazın sülh və sabitlik zonası olmasını, Qərb ilə Şərq arasında əlaqələndirici rol oynamasını, həmçinin, onların Yaxın Şərq və Asiyadakı maraqlarında aparıcı baza region olmasını istəyirlər. Bu məqsədlə həmin aktorlar Cənubi Qafqaz respublikalarına dövlət quruculuğunda və möhkəmləndirilməsində köməklik göstərir, Qərb yönümlü, demokratik rejimlərin qurulmasına çalışır. Bu strategiyanın nəticəsi idi ki, 2003-cü ilin payızında Gürcüstanda Qərb yönümlü rejimin qurulması ilə nəticələnən "Qızılgül inqilabı" baş verdi.

ABŞ-ın təşəbbüskarlığı ilə NATO Gürcüstan və Azərbaycanda öz bazalarını yerləşdirməyə çalışır ki, bu da Rusiya və İranın timsalında "köhnə" aktorların narazılığına səbəb olmaya bilməz. Prezident İlham Əliyevin 2004-cü ilin fevral ayında Moskva səfərlərinin də bu məsələdən doğduğu

söylənilə bilər. Azərbaycanda Amerika hərbi bazalarının açılması prosesi donduruldu. Bunun da səbəbi Rusiyanın məsələyə sərt reaksiyası olmuşdur. Gürcüstanda heç bir bazanın yaradılmayacağı haqda rəsmi bəyanata baxmayaraq, Vaşinqtona səfəri zaman M.Saakaşvili Gürcüstanda FTB-nin bürosunun açılacağına razılıq verdi. Bu, ABŞ-Gürcüstan hərbi əməkdaşlığının ilk addımlarından idi.

SSRİ dağıldıqdan sonra nəzərləri Cənubi Qafqaza yönəlmiş "yeni" aktorların siyahısına Yaponiya, Çin, Pakistan və Asiya-Sakit okean regionunun digər dövlətlərini də əlavə etmək olar. Adı çəkilən dövlətlərin diqqətini çəkən əsas faktor isə Azərbaycanın enerji ehtiyatlarıdır. Cənubi Qafqazı Qərbə çıxış yolu kimi görən bu dövlətlər aktiv diplomatik demarşlardan qaçaraq "köhnə" aktorlar ilə münasibəti gərginləşdirməməyə çalışırlar.

Lakin regionda yeni müstəqillik qazanmış dövlətlər Qərbi öz müstəqilliklərinin qarantı kimi görməyə başladılar. Avropa və ABŞ ilə əlaqələr əvvəlcə Türkiyə vasitəsi ilə qurulmağa başladı, zaman keçdikcə isə birbaşa əməkdaşlıq xarakteri aldı. Müstəqilliklərinin ilk illərində Rusiyanın mövqeyinin daha möhkəm olduğu dövlət Ermənistan idi. Həmçinin, Rusiya Dağlıq Qarabağ problemində ermənipərəst mövqe tutaraq Azərbaycana da təsir etməyə çalışırdı. O cümlədən, Gürcüstanda etnik münaqişə ocaqlarının yaradılması və bu vəziyyətin kəskinləşdirilməsi də o dövrdə Rusiyanın Cənubi Qafqaz ilə bağlı geosiyasi planlarının bir hissəsi idi. Bu isə yalnız Cənubi Qafqaz dövlətləri üçün təhlükə törətmirdi. Rusiyanın bu siyasəti, atdığı bu addımlar regionda geosiyasi maraqları olan digər dövlətlərin də Cənubi Qafqaz ilə bağlı planlarını təhdid edirdi. Bu dövlətlərdən biri və demək olar ki, birincisi regionda "yeni aktor" kimi xarakterizə etdiyimiz ABŞ idi. Öz "qlobal demokratiya" siyasətində Cənubi Qafqaza xüsusi əhəmiyyət verən ABŞ bu regionu modernləşdirilməsi və demokratikləşdirilməsi vacib olan Böyük Yaxın Şərqə dair planlarının reallaşdırılmasını

asanlaşdıracaq geosiyasi bir istinadgah kimi görürdü. Buna görə də Cənubi Qafqaz regionunda Rusiya ekspansiyasına və İran fundamentalizminə son qoyulması regionun dövlətləri qədər ABŞ-ın da marağında olan məsələlər idi.

Toxunulması vacib olan məsələlərdən biri də SSRİ dağıldıqdan sonra NATO-nun regiona inteqrasiyası və Rusiyanın bu prosesə mane olmaq cəhdləridir. Bu məsələdə isə qeyd olunması zəruri olan siyasi hadisələrdən biri 1992-ci il mayın 15-də Daşkənddə "Kollektiv Təhlükəsizlik Müqaviləsi"nin yaradılmasıdır. Rusiyanm regionda mövqeyinin güclü olduğu yeganə ölkə olan Ermənistana hərbi yardım göstərməsi məsələsinə də toxunmaq lazımdır. Belə ki, təkcə 1997 – 1998-ci illər ərzində Rusiya Ermənistanı S-300 hava hücumundan müdafiə sistemi, habelə hər birinin dəyəri 15-20 milyon ABŞ dolları olan MİQ-29 qırıcı təyyarələri ilə təmin etmişdir. Bu yardımların da əsas məqsədi regionun hərbi balansında Ermənistanm çəkisini artırmaq vasitəsi ilə Cənubi Qafqazda mövqeyini möhkəmləndirməkdən ibarətdir. Bu isə əlbəttə, NATO-nun regiona gəlişinə qarşı gördüyü cavab tədbirlərindən biridir.

Lakin eyni dövrdə Rusiyanın Azərbaycanı əməkdaşlığa cəlb etməyə istiqamətlənmiş aktiv siyasəti də müşahidə olunurdu. Bunun da səbəblərindən biri 907-ci düzəlişin ABŞ - Azərbaycan münasibətlərində gərginlik əmələ gətirməsi idi. Xatırlatmaq lazımdır ki, adı çəkilən düzəliş 1992-ci ildə ABŞ Konqresində "Azadlığı Müdafiə Aktı"na əlavə olunmuşdur. Vətəndaş hüquqlarmın pozulduğu və Ermənistanın blokadada saxlanıldığı müddətdə Azərbaycana hər hansı bir yardımın göstərilməsi dayandırılırdı. ABŞ da bu məsələdə o qədər də riskə getmək istəmirdi. Hətta ABŞ Konqresinin 138 deputatı bu düzəlişin ləğv olunmasınm lehinə səs vermişdilər.

Bütün bunları ümumiləşdirərək söyləmək olar ki, SSRİ dağıldıqdan sonra "köhnə" aktorlarm Cənubi Qafqaz regionu ilə bağlı geosiyasəti yeni bir mərhələyə daxil oldu. Bununla paralel şəkildə Cənubi Qafqaz regionunda geosiyasi maraqları

olan yeni aktorların meydana çıxması prosesi başladı. Bu isə region uğrunda yeni geosiyasi mübarizənin başlaması demək idi. SSRİ dağıldıqdan sonra Cənubi Qafqaz regionu dünya geosiyasətinin episentrinə çevrildi. "Soyuq müharibə" başa çatdıqdan sonra bərqərar olan yeni dünya düzəni, Mərkəzi Asiya, Yaxın və Orta Şərq, həmçinin Xəzər regionuna çıxış üçün körpü rolunu oynaması və digər amillər Cənubi Qafqazı SSRİ dağıldıqdan sonra Avrasiya materikində başlamış geosiyasi mübarizənin əsas meydanlarından birinə çevirdi.

Rusiya Cənubi Qafqaz regionu ilə tarixi, iqtisadi, mədəni əlaqələrlə bağlı olan bir dövlətdir. Rusiyanın bu regionla bağlı həyati əhəmiyyətli maraqlarının olduğunu da haqlı olaraq qeyd etmək lazımdır. Lakin rus tədqiqatçılar Rusiyanın Cənubi Qafqazla bağlı yeritdiyi siyasətə təbii olaraq çox loyal yanaşırlar. Onlar qeyd edirlər ki, Rusiyanın Cənubi Qafqazla bağlı konkret çatmaq istədiyi geosiyasi məqsədlər yoxdur və Rusiyanın Cənubi Qafqaz siyasəti yalnız region dövlətləri ilə əməkdaşlığın artırılmasına yönəlmişdir. Buna səbəb dünyada, eləcə də Cənubi Qafqazdakı müasir siyasi və geosiyasi vəziyyətin Rusiyanın əleyhinə olmasıdır.

Rusiya Cənubi Qafqaza Türkiyə və İranla müharibələr apararaq gəlmişdi. Bu müharibələr tək nüfuz dairələri qazanmaq uğrunda baş verməmiş, Rus imperiyasının genişlənməsi və onun cənub sərhədləri boyu təhlükəsizlik kəmərinin yaradılması üçün aparılmışdır. Onilliklər boyu bu ərazilər Rusiyanm geosiyasi hissəcikləri olmuşlar. XX əsrin inqilabi hadisələri və bunun ardınca başlayan sovet dövrü Rusiya imperiyasını bu ucqarların böyük ittifaqın tərkibində bərabərhüquqlu subyektlərə çevrilməsi ilə nəticələndi.

Qeyd olunan regionların, xüsusilə də Cənubi Qafqaz regionunun bugünkü Rusiyanın sosial-mədəni və iqtisadi səviyyəsinə müsbət yönümdə təsirini görməmək mümkün deyil. Hazırda isə Rusiyanın Cənubi Qafqaz uğrunda mübarizəsinin səbəbi heç də onun bu köhnə ərazilərini yenidən ilhaq

etməyi qarşısına məqsəd qoymasmdan ibarət deyil. Rusiyanın bu aktivliyi Cənubi Qafqazdakı mövqeyinin saxlanmasına və möhkəmləndirilməsinə yönəlmişdir. Bu məqsədin reallaşdırılması isə Rusiya hakim dairələrindən Cənubi Qafqaza dair yeni siyasi xətt tələb edir ki, bu da hələ ki müşahidə olunmur.

Rusiya siyasi elitasının içərisində hərdən bir fikir də səsləndirilir ki, "Bugünkü Rusiya üçün Cənubi Qafqazın problemləri lazımsız baş ağrılarıdır".

Cənubi Qafqazın bir çox siyasətçiləri bütün problemlərin Qərbə inteqrasiyanı sürətləndirməklə və Rusiyadan üz döndərməklə bitəcəyini düşünürlər. Rusiya siyasətçilərinin böyük bir hissəsi bu siyasi istiqaməti yanlış hesab edirlər. Belə ki, Cənubi Qafqaz öz geosiyasi parametrlərinə görə Qərblə Şərq, Avropa ilə Asiya, Şimalla Cənub, İslamla Xristianlıq arasında unikal bir körpüdür. Bu amil Cənubi Qafqaz və rus xalqı üçün çox faydalı ola bilər. Əks halda isə Cənubi Qafqaz dövlətlərin rəqabət meydanı olaraq qala və bundan çox ziyan çəkə bilər. Çünki hazırda Cənubi Qafqaz regionu Rusiya, ABŞ, Avropa İttifaqı dövlətləri, NATO, Türkiyə və İran kimi regional dövlətlərin geosiyasi və geostrateji maraqlarınm kəsişdiyi bir nöqtədir. Rus tədqiqatçıları bu mübarizənin məqsədyönlü əməkdaşlıq münasibətlərini üstələdiyini təəssüflə qeyd edirlər.

Beləliklə, Gürcüstanda M.Saakaşvilinin hakimiyyətə gəlməsindən sonra Rusiya-Gürcüstan münasibətləri birdən-birə soyumağa başladı.

Bir şeyi də qeyd etmək lazımdır ki, Rusiya hökuməti hələ də Gürcüstan hakimiyyəti ilə davranışın optimal bir yolunu tapmayıb. Bunun nəticəsində Gürcüstanm öz daxili problemini həll etmək cəhdinə Rusiya hərbi müdaxilə ilə cavab verdi. Gürcüstan hərbi əməliyyatlara başlayarkən bəlkə də Rusiyanın müdaxiləsini gözləmirdi. Gürcüstanın hərbi təyyarələri, ordunun şəxsi heyəti, hərbi texnikası böyük itkilərə məruz qaldı. Tbilisi hava limanı, bir çox hərbi bazalar, eləcə də Abxaziya və

Cənubi Osetiyadan başqa, Gürcüstanın bir neçə rayonu, mülki obyektləri Rusiyanın avia hücumlarına məruz qaldı. Qori şəhəri Rusiyanın nəzarətinə keçdi. İnfrastruktur dağıdıldı, mülki vətəndaşlar öldürüldü. 2008-ci il avqust müharibəsi regionda bir çox məsələyə aydınlıq gətirdi. Gürcüstan-Rusiya müharibəsi nəticəsində Cənubi Qafqaz uğrunda geosiyasi mübarizə yeni mərhələyə daxil oldu.

Rusiya ilə Ermənistan arasındakı münasibətlər strateji müttəfiqlik xarakteri daşıyır. Bu münasibətlər 1997-ci ildə imzalanmış "Dostluq və əməkdaşlıq haqqında müqavilə"nin imzalanması ilə daha da möhkəmləndirilmişdir. Rusiya faktiki olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Ermənistanı dəstəkləmişdir. Azərbaycanın ərazi bütövlüyünü tanımasına baxmayaraq Rusiya Ermənistanın hərbi potensialının artırılmasına yönəlmiş yardımlar edir, hansı ki, Azərbaycan ərazisinin böyük bir hissəsini işğal etmişdir. Rusiya-Ermənistan hərbi əməkdaşlığının bir hissəsini də "Kollektiv Təhlükəsizlik Müqaviləsi" çərçivəsindəki münasibətlər təşkil edir. Belə ki, Rusiyanın təşəbbüsü ilə NATO hərbi blokunun Cənubi Qafqaz regionuna doğru genişlənməsinə qarşı addım atmaq niyyəti ilə yaranmış Kollektiv Təhlükəsizlik Müqaviləsi Cənubi Qafqazda hərbi balansı öz xeyrinə saxlamaq üçün Rusiyanın əlində olan əsas vasitədir.

1992-ci il may ayının 15-də Daşkənddə imzalanmış bu müqaviləyə əsasən iştirakçı dövlətlər kollektiv təhlükəsizliyin təmin olunmasının vacibliyini başa düşür və buna nail olmaq üçün silahlanmanın və silahlı qüvvələrin artırılmasının qarşısının alınmasına dair razılığa gəlirlər.

Müqavilənin birinci maddəsində dövlətlər güc tətbiqindən və güc tətbiqi ilə hədələməkdən qaçmağı, beynəlxalq problemləri dinc yollarla nizama salmağı özlərinə öhdəlik götürürlər. İştirakçı dövlət hər hansı bir digər iştirakçı dövlətə qarşı yönəlmiş hərbi ittifaqa, dövlətlər qruplaşmasına girməməyi öz üzərinə götürür.

İkinci maddədə müttəfiqlər hər hansı bir beynəlxalq təhlükəsizlik məsələsində və öz maraqlarına toxunan məsələlərdə müzakirələrin aparılmasını vacib hesab edirlər

Müqavilənin dördüncü maddəsində qeyd olunur ki, hər hansı bir iştirakçı dövlətə qarşı aqressiv akt tətbiq olunarsa, bütün üzv-dövlətlər ona bütün vacib köməklikləri göstərməlidirlər. Lakin burada hərbi yardım istisna olunur.

Bu və digər maddələrə baxdıqda aydın olur ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi heç də dinc məqsədlərlə yaradılmamış, əksinə, Rusiyanın geosiyasi və geostrateji maraqlarına birbaşa xidmət edən bir əməkdaşlıqdır. Belə ki, Rusiya bu yolla müttəfiqlərinin sayını artırmağa, həmçinin müttəfiqləri ilə münasibətləri hüquqi şəklə salaraq onların başqa meyillərinin qarşısını almaqla özünü sığortalamağa çalışır. Burada bir məsələ də, müqavilədə hərbi yardım göstərilməsi istisna olunmasına və müharibə getməməsinə baxmayaraq Rusiya Ermənistana ardıcıl hərbi yardımlar göstərməkdə davam edir. Bu yaxınlarda mətbuatda Rusiyanın Ermənistana 800 milyon ABŞ dolları dəyərində silah yardımı göstərməsi məsələsinin qaldırılması da sırf həqiqətə əsaslanırdı. Buna baxmayaraq, Rusiyanın əlaqədar qurumları bu məlumatın həqiqəti əks etdirmədiyini vurğuladılar.

Rusiya Ermənistanla müttəfiqlik əlaqələrini inkişaf etdirməklə yanaşı, Azərbaycan ilə də münasibətləri qoruyub saxlamağa və inkişaf etdirməyə çalışır. Buna səbəb kimi bir neçə faktoru göstərmək olar:

1. Azərbaycanın regionda ən böyük güc olması və onun iştirakı olmadan heç bir iri həcmli layihənin həyata keçirilməməsi;

2. Azərbaycanın enerji ehtiyatları, xüsusən də, təbii qaz ilə zəngin olması və Avropaya qaz ixracında dominionluğu bir strateji silah kimi əlində saxlamağa çalışan Rusiyanın Azərbaycan qazına olan tələbatı;

3.Azərbaycanın əlverişli geosiyasi və coğrafi mövqeyi, İran ilə Rusiyanı birləşdirən quru yolunun Azərbaycanın ərazisindən keçməsi.

Rusiyanı narahat edən və eləcə də son dövrün ən aktual məsələlərindən biri də Rusiyanın təbii qaz ixracatçısı, yoxsa idxalçısı olmasıdır. Belə ki, Rusiya az qala bütün Avropanı qaz ilə təmin etməklə yanaşı, özü də iri qaz idxalçısına çevrilir. Qaz satışında Avropa qiymətlərinə keçilməsi də Rusiyanın üzləşdiyi ikinci bir problemdir. "Qazprom"un prezidenti Aleksey Millerin Bakıya gəlişində söylədiklərindən belə bir nəticə çıxarmaq olar ki, Rusiya Azərbaycandan təklif olunacaq təbii qazın hamısını almağa hazırdır. Bu addımları atmağa Rusiyanı məcbur edən səbəb isə qaz monopoliyasını itirmək təhlükəsidir. Belə ki, Qazprom ildə orta hesabla 550 milyard kubmetr qaz hasil edir ki, bunun da demək olar ki, yarısı ölkə daxilində istehlak edilir və daxildə qaza tələbat getdikcə daha da artır.

ABŞ Cənubi Qafqaz regionunda böyük mövqe sahibi olan və regiondakı vəziyyətə təsir etmək üçün böyük üstünlükləri olan bir aktordur. Vaşinqton və Moskva arasında Cənubi Qafqazda nüfuz dairələri uğrunda SSRİ dağıldıqdan sonra daha da güclənən geosiyasi mübarizə indi də davam etməkdədir. Bu rəqabətə detalları ilə baxsaq görərik ki, Rusiya hələ ki bu mübarizədə uduzmaqda olan tərəfdir.

Artıq Cənubi Qafqazda ABŞ-ın mövqeyinin Rusiyanın mövqeyini üstələdiyi müşahidə olunur. Hətta Ermənistanı da bu məsələdə istisna kimi qəbul etmək çətin olardı. Baxmayaraq ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsinin üzvüdür, özünü Cənubi Qafqazda Rusiyanın strateji müttəfiqi hesab edir və Amerikaya meyil Gürcüstanda olduğu qədər deyil, ABŞ-ın regiondakı mövqeyi Rusiya ilə Ermənistan arasındakı bu müttəfiqliyi təhlükə altında saxlayır. Siyasi meylinə görə Azərbaycanın Qərbə meyil etməsinin səbəblərindən biri də Rusiyanın Qarabağ problemində tutduğu mövqedir.

Bu nöqteyi-nəzərdən Rusiyanın son dövrdə regionda nüfuzunun aşağı düşməsinin tam əksinə olaraq ABŞ-ın timsalında Qərbin regiondakı mövqeyi xeyli möhkəmlənib. 2001-ci ilin iyun ayında Polşaya ilk səfəri zamanı prezident Corc Buş Varşava

Universitetindəki nitqində əsas diqqəti Avropa və Avroatlantik məkana inteqrasiya məsələsinə yönəltdi və qeyd etdi ki, "hər bir Avropa dövləti NATO-ya və Avropa Birliyinə üzv olmaq iddiasında ola bilər, buna heç bir məhdudiyyət qoyulmur. Bu bizim prinsipial mövqeyimizdir". Burada Buş həm Ukraynanı, həm də Cənubi Qafqaz ölkələrini nəzərdə tuturdu ki, Cənubi Qafqaz ölkələri içərisində də ilk namizəd Gürcüstan sayılırdı.

Hazırda ilk baxışda Cənubi Qafqaz ölkələrinin ABŞ üçün vacibliyi bu regionun Böyük Yaxın Şərq regionunun demokratikləşdirilməsi üçün əlverişli geosiyasi mövqe, plastdarm rolunu oynamasıdır. Lakin bu, məsələnin görünən tərəfidir. Faktiki olaraq Cənubi Qafqaza sahib olmaq ABŞ-ın Xəzər-Qara dəniz regionunda, o cümlədən, Mərkəzi Asiyada mövqelərinin möhkəmlənməsini təmin edəcək ki, bu da ABŞ-ın milli təhlükəsizliyi üçün çox vacibdir. Amma bu məqsədə nail olmaq üçün Cənubi Qafqaz ölkələri özləri birinci növbədə demokratikləşmənin və müasirləşmənin obyekti olmalı idilər.

ABŞ-ın Cənubi Qafqazdakı maraqlarınm bir hissəsini də enerji amili tutur. SSRİ dağıldıqdan sonra ABŞ-ın postsovet ölkələrində, xüsusən də, Cənubi Qafqazda fəaliyyəti genişləndi. Rus strateqlərinin "Resurs imperializmi" adlandırdıqları bu siyasətdə ABŞ-ın əsas maraqlarını enerji amili təşkil edir. Region ölkələrinin inteqrasiya proseslərinə cəlb olunmasını, Cənubi Qafqaz ölkələrinin, xüsusən də, Gürcüstanın NATO-ya hazırlanmasını tədqiqatçılar bu siyasətin tərkib hissəsi kimi görürlər. Xəzər nefti Amerikanın neft idxalının diversifikasiyasını təmin edəcək mənbələrdən biridir ki, diversifikasiya da ABŞ-m enerji təhlükəsizliyinin əsas şərtlərindən biridir. Lakin ABŞ regionun enerji ehtiyatlarında marağı olan yeganə aktor deyil. Burada Avropa Birliyi, Rusiya və Çini də xüsusilə qeyd etmək lazımdır. Həmçinin müxtəlif səviyyədə burada regional dövlətlərin – Türkiyə, İran və Ukraynanm da adları çəkilməlidir.

Cənubi Qafqaz ABŞ tərəfindən, həmçinin, hərbi-strateji baxımdan da vacib bir ərazi kimi görülür. Bu ərazi nəinki

ABŞ-a Böyük Yaxın Şərqə ehtimal olunan hərbi müdaxilə üçün baza, həmçinin Mərkəzi Asiyada mövqe qazanmaq və Rusiya ekspansiyasının cənuba doğru genişlənməsinin qarşısını almaq üçün vacib bir platsdarmdır.

ABŞ Rusiya ilə münasibətlərdə Cənubi Qafqaza mühüm əhəmiyyət verir və bu regionla bağlı siyasətini Türkiyənin vasitəsilə koordinasiya etməkdə maraqlı görünür. Buna görə də ABŞ-ın Cənubi Qafqazdakı mövqeyi qismən də olsa Türkiyənin buradakı mövqeyi vasitəsi ilə təmin olunur.

Türkiyə Cənubi Qafqaz regionu ölkələri ilə tarixi əlaqələrlə bağlı olan bir ölkədir. XX əsrin birinci rübündən başlayaraq Türkiyənin Cənubi Qafqazla bağlı siyasəti dəyişməyə başladı. Bunun aşağıdakı səbəbləri var idi:

1.SSRİ-nin Türkiyə sərhədlərinə qədər gəlib çıxması;

2.SSRİ-nin tərkibində olan Cənubi Qafqaz regionunda Azərbaycan türklərinin yaşaması.

Hələ 1933-cü ildə Türkiyə Cümhuriyyətinin 10 illiyi ilə bağlı söylədiyi nitqdə Mustafa Kamal Atatürk bu məsələyə toxunaraq, Sovet İttifaqı ilə dost münasibətlərin mövcud olmasına baxmayaraq onun tərkibində xeyli sayda türk millətinin yaşadığını, gələcəkdə hər hansı bir dəyişiklik baş verərsə (burada SSRİ-nin dağılması ehtimalı nəzərdə tutulur) Türkiyənin borcunun öz qardaşlarına himayədarlıq etmək və onlara hər cür köməkliyi göstərməkdən ibarət olduğunu qeyd etmişdir.

Belə də oldu. SSRİ dağıldıqdan sonra onun tərkibindən çıxıb müstəqillik qazanan dövlətlərin böyük bir hissəsini türk dövlətləri təşkil edirdi ki, bu dövlətlərdən biri də Cənubi Qafqaz regionunda yerləşən Azərbaycan idi. SSRİ dağıldıqdan sonra Azərbaycan yeni müstəqillik qazanmış bir dövlət kimi ilk müttəfiqini Türkiyənin timsalında tapdı.

Müstəqilliyimizin ilk vaxtlarından başlayaraq Azərbaycanla Türkiyə arasında siyasi və iqtisadi münasibətlər quruldu. Bu dövrdə Azərbaycanın xarici siyasətində Türkiyə meyli

xüsusilə artıq dərəcədə diqqəti cəlb edirdi. 1992-1993-cü illər Azərbaycan və Türkiyə arasındakı iqtisadi əlaqələr daha çox birtərəfli xarakter daşıyırdı, Azərbaycandan Türkiyəyə mal axını müşahidə olunurdu. Cənubi Qafqaz dövlətləri müstəqilliklərinin ilk illərində bu müstəqilliklərinə zəmanət ola biləcək "böyük qardaş" axtarışmda idilər. Azərbaycan da o dövrdə Türkiyənin timsalında böyük qardaş görürdü. Lakin Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə bu vəziyyət tamamilə dəyişdi.

Hazırki dövrdə Azərbaycanla Türkiyə həm qardaş ölkə, həm də strateji müttəfiqlərdir. Qarabağ müharibəsi və ondan sonrakı dövr ərzində Azərbaycanın ən çox dəstək aldığı dövlət də məhz Türkiyədir. Türkiyə Cənubi Qafqaz ölkələri üçün NATO üzvü olan, Avropaya inteqrasiya prosesinin ən yüksək pilləsində dayanan bir qonşu dövlətdir. Türkiyə Azərbaycan, Gürcüstan və Ermənistanın Avropaya çıxışıdır. Lakin burada Ermənistan istisna olunmalıdır. Çünki Rusiyanın Cənubi Qafqazdakı vilayəti adlandırılan Ermənistanın Türkiyənin əleyhinə yönəlmiş, uydurma soyqırım təbliğatı və Azərbaycan ərazisinin 20%-ni hələ də işğal altında saxlaması Ermənistanm regional inteqrasiya proseslərindən kənarda qoymuşdur.

Bəs Cənubi Qafqaz regionu Türkiyə üçün nədir? Bu məsələyə bir neçə aspektdən yanaşmaq lazımdır. Cənubi Qafqaz Türkiyə üçün 3 məqamdan əhəmiyyət daşıyır:

1. geosiyasi; 2. geostrateji; 3. iqtisadi.

Cənubi Qafqazın Türkiyə üçün geosiyasi əhəmiyyətindən bəhs edərkən regionda mövqe qazanmanın Türkiyəyə verəcəyi üstünlüklərdən danışmaq lazımdır. Bu üstünlüyü isə Türkiyə Cənubi Qafqaz regionunda Rusiya və İrana nəzərən əldə etməyə çalışır. Yəni Türkiyənin Cənubi Qafqazdakı geosiyasi maraqları Rusiya və İranın regiondakı maraqlarının əksinə yönəlib. Türkiyə Cənubi Qafqazın enerji məhsullarının dünya bazarına çıxarılmasında tranzit ölkə kimi çıxış etməklə Rusiya və İranın regiondakı şanslarını aşağı salır və bir növ regionu onlardan ayırır. Hazırda

isə Ermənistanla Türkiyə arasmda sərhədlərin açılması, iqtisadi əlaqələrin qurulması ətrafında danışıqların getməsi Azərbaycan və qismən də Gürcüstanın xeyrinə olmadığı halda Türkiyəni tam təmin edəcək bir prosesdir. Ermənistanla əlaqələrin qurulması Rusiya və İranın mövqelərinin bu ölkədə Türkiyənin mövqeyi tərəfindən sıxışdırılacağını göstərir ki, bu nəinki Türkiyənin, o cümlədən, NATO və onun timsalında Amerikanın Cənubi Qafqaz uğrundakı geosiyasi mübarizədə Rusiya və onun müttəfiqi olan İran üzərində növbəti qələbəsi olacaq.

Türkiyənin Rusiya ilə münasibətləri Osmanlı imperiyası dövründən başlayan böyük tarixi köklərə dayanır. Türkiyə respublika elan olunduqdan sonra isə bu münasibətlər özünün yeni mərhələsinə daxil olmuşdur. 1924-cü ildən başlayaraq SSRİ-Türkiyə münasibətlərinin inkişaf tempi aşağı düşməyə başladı. Bu dövr Mustafa Kamal paşanın dövrü idi və həmçinin, pantürkizmin güclәndiyi bir dövr idi. Dövrün əsas tezisi isə bu idi: "Sosializmə - hə, ruslara - yox".

XX əsrin 90-cı illərindən başlayaraq isə pantürkizm daha da radikal xarakter almağa başladı və hətta Türkdilli xalqların yaşadıqları əraziləri özündə birləşdirəcək Böyük Turan dövlətinin yaradılması məsələsi də meydana çıxdı. Bu fikirlərin ərazisində 20 milyon müsəlmanın yaşadığı Rusiya üçün təhlükəsini də qeyd etmək lazımdır. 1995-ci ildə Bişkekdə "Manas" eposunun 1000 illiyi münasbətilə təşkil olunmuş böyük tədbirdə Turan məsələsi müzakirəyə qoyuldu, lakin lazım olan dəstəyi almadı.

Bütün bunlardan əlavə, NATO-nun İraqa və İrana qarşı oyunlarında aktiv rol oynadığına görə, Azərbaycan və Ermənistanın işlərinə daima qarışdığına görə, həmçinin çeçen separatçılarım açıq şəkildə dəstəklədiyinə görə Ankaranın Moskva ilə münasibətləri xeyli gərginləşib.

Hazırda Rusiyanın qıcıqlandıran məsələlərdən biri də Türkiyə-Ermənistan arasmda gedən danışıqlardır. Belə ki, Rusiya bu məsələnin tam əleyhinədir və həmçinin, bu məsələdən Azərbaycanı öz tərəfinə çəkməkdə bir vasitə kimi istifadə edir.

İran regiona marağı olan, "köhnə" aktorlardan sayılan İran həm ərazi, həm tarixi faktorlara görə, həm də geosiyasi maraqlarına görə Cənubi Qafqaza bağlıdır.

SSRİ dağıldıqdan sonra Cənubi Qafqaz siyasətində xüsusilə aktivləşən İran rəhbərliyi regional təhlükəsizlik sisteminə dair yeni formul (3+3), yəni Azərbaycan, Gürcüstan və Ermənistan+Rusiya, İran və Türkiyə formulunu irəli sürdü. ABŞ-ın regiona gəlişini əngəlləmək üçün İran hətta Vaşinqtonun müttəfiqi və Tehranın əsrlər boyu bölgədə rəqibi olan Türkiyə ilə əməkdaşlığa hazır olduğunu nümayiş etdirdi.

Türkiyə və İran Cənubi Qafqazda və Yaxın Şərqdə tarixən rəqabət aparan iki qonşu dövlətdir. İki ölkə arasında uzunluğu 450 km olan quru sərhəddi var. Bu sərhəd 1639-cu ildə Osmanlı ilə Səfəvi arasında imzalanan Qəsri-Şirin müqaviləsilə müəyyənləşdirilmişdir. Tarixən Cənubi Qafqaz uğrunda kəskin rəqabət aparan bu iki ölkə arasındakı bugünkü münasibətləri bir sıra məsələlər şərtləndirmişdir. Bu məsələlər aşağıdakılardır:

1. PKK - Bu məsələ 1980-ci illərin əvvəllərindən 90-cı illərin ortalarına qədər iki ölkə arasındakı münasibətlərdə kəskinləşdirici amil rolunu oynamışdır. İran PKK-dan tarixi rəqibi və Qərbin müttəfiqi olaraq qiymətləndirdiyi Türkiyəyə qarşı təsir vasitəsi kimi istifadə etməyə çalışmışdır.

Ancaq 1990-cı illərin sonlarına doğru Türkiyədə siyasi İslamın güclənməsinə və hətta iqtidara gəlməsinə, Türkiyə dövlətinin PKK ilə qərarlı mübarizə aparmasına və son olaraq da PKK-nın İran üçün də təhlükə təşkil etməsinə paralel olaraq bu amilin münasibətləri kəskinləşdirici rolunu azaltmışdır. Xüsusilə 2003-cü ildə ABŞ-ın İraqa müdaxiləsilə birlikdə bölgədə şərtlərin dəyişməsi İranın PKK amilini daha fərqli şəkildə qiymətləndirməsinə səbəb olmuşdur. Türkiyə parlamentinin İraqa müdaxilə zamanı ABŞ-ın bu ölkənin ərazisindən istifadə etməsinə icazə verməməsi səbəbilə Türkiyə-ABŞ münasibətlərində açıqca ortaya çıxan böhran, ABŞ-ın Şimali İraqdakı kürdləri dəstəkləməsi nəticəsində bir az da

dərinləşmişdir. Bu vəziyyət İranın gözündə "Qərbin yaxın müttəfiqi Türkiyə" imicini zəiflədərək İran rejimində "Türkiyənin əməkdaşlıq edilə biləcək qonşu ölkə" kimi görülməsinə imkan yaratmışdır. ABŞ-ın İrana müdaxiləsinin gündəlikdə olması və Türkiyənin də bu baxımdan strateji əhəmiyyət kəsb etməsi də İranı Türkiyə ilə münasibətləri pisləşdirə biləcək PKK məsələsində ehtiyatlı davranmağa sövq etməkdə və hətta PKK ilə mübarizə edərək Türkiyə rəsmilərinin və ümumən ictimaiyyətin gözündə müsbət imic qazanmağa çalışmasına səbəb olmaqdadır.

İranı PKK məsələsində ehtiyatlı davranmağa sövq edən bir digər amil bu ölkəyə qarşı mübarizə aparan və İraqda yerləşən 5 min nəfərlik Xalqın Mücahidləri Təşkilatının qruplaşmasıdır. İraqm işğalından sonra ABŞ-ın bu təşkilatın İraqdakı varlığma göz yumması və hətta gizli dəstək verməsi İranı ciddi dərəcədə narahat edir. İran terrorçu elan etdiyi bu təşkilatla mübarizədə Türkiyənin dəstəyini almaq üçün PKK mövzusunda diqqətli davranmağa çalışır.

2. İraq - ABŞ-ın İraqı işğalı ilə bu məsələ Türkiyə-İran münasibətlərində ən əhəmiyyətli məsələlərdən biri olmağa başlamışdır. Bu iki ölkənin İraq məsələsində bir-biri ilə həm üst-üstə düşən, həm də ziddiyyət təşkil edən məqamlar var. Hər iki ölkə İraqm ərazi bütövlüyünün qorunmasında maraqlıdır. Bunun iki əsas səbəbi var. Birincisi, Türkiyə və İran İraqın bölünəcəyi halda İraqın şimalında (üstəlik də ABŞ-ın dəstəyilə) qurulacaq bir kürd dövlətini özlərinə böyük təhlükə hesab edirlər. Müstəqil kürd dövlətinin qurulmasına mane olmaq üçün İran bir yandan İraqdakı şiə faktorundan istifadə etməkdə, digər yandan da Türkiyə başda olmaqla digər bölgə dövlətlərilə umumi səylər göstərməkdədir. Türkiyə isə bir tərəfdən İraqın bölünmə müddətini sürətləndirən sünnü amilinin silahlı müqavimətdən əl çəkərək vahid İraq siyasi sisteminə inteqrasiyasına çalışmaqda, digər tərəfdən İraq şiələri ilə dialoqu gücləndir-məkdədir. Türkiyənin İraq kürdlərini müstəqillik

fikrindən döndərmək üçün göstərdiyi cəhdlər və bu istiqamətdə ABŞ nəzdindəki fəaliyyətləri isə hələlik nəticəsiz qalmaqdadır. İkinci məqam isə İraqın ərazi bütövlüyünün qorunmasında İran və Türkiyənin mövqeləri arasındakı ziddiyyətli tərəflərdir. İran İraq əhalisinin təxminən 60 faizini təşkil edən şiə amilindən istifadə edərək özünə yaxın bütöv bir İraq istəyir. Belə bir İraq Yaxın Şərqdəki qüvvələr balansını İranın lehinə daha da pozacağı üçün Türkiyədə narahatçılıq yaratmaqdadır. Digər tərəfdən belə bir İraq İranla dünya neft və qaz bazarına güclü təsir göstərəcəkdir. Türkiyə isə şiələrin gücünün sünnülər, qismən də kürdlərlə tarazlandığı bir İraq istəyir. Ancaq bu iki ölkə arasındakı ziddiyyətli məqamlarm əsasən arxa plana keçməsi və İraqın ərazi bütövlüyünün qorunması istiqamətindəki ortaq mövqeyin bir müddət daha bu cür qalacağı gözlənilir

3. İranın nüvə fəaliyyəti; bu proses Türkiyə üçün fürsət və təhlükələri paralel olaraq ortaya çıxarmaqdadır.

Fürsətlər: Bu fəaliyyətlər nəticəsində nüvə silahına sahib olan ABŞ-ın İrana hücum ehtimalı zəifləyə bilər. Bu da ABŞ-ın İraqa müdaxiləsi və apardığı kürd siyasəti nəticəsində bölgədə Türkiyə əleyhinə meydana gələn geosiyasi hadisələrin İrana müdaxilə ilə daha da ağırlaşmasına mane ola bilər. Bundan başqa, İranın nüvə dövləti olması ABŞ və İsrailin gözündə Türkiyənin strateji önəmini artıracaqdır. Bu da ABŞ-ın və İsrailin Türkiyənin bölgə mənfəətləri mövzusunda daha diqqətli davranmaları ilə nəticələnə bilər. Digər tərəfdən, İranın nüvə gücünə malik olması Türkiyənin də öz nüvə proqramını həyata keçirməsi prosesinə təkan verəcəkdir. Türkiyənin 3 nüvə elektrik stansiyası tikmə planını enerji tələbatının ödənməsi arzusu ilə yanaşı, təhlükəsizlik amil ilə də əlaqələndirmək mümkündür. İsrailin və İranın nüvə silahına malik olduğu bir şəraitdə Türkiyənin bölgədəki nüfuzu saxlaması və gücləndirməsi baxımından nüvə silahına sahib olmasının əhəmiyyəti artmaqdadır.

Təhlükələr: İranın nüvə fəaliyyətləri ABŞ ilə İran arasında bir hərbi münaqişənin başlanması təhlükəsini də hər gün daha

da gücləndirir. Belə bir şəraitdə bölgədə hərbi münaqişə və münaqişə sonrası yarana biləcək qeyri-müəyyənlik Türkiyə üçün İraqdakına bənzər təhlükələri özü ilə gətirə bilər. Eyni zamanda, İranın nüvə silahına malik olması, çox güman ki, bu ölkənin Yaxın Şərq, Cənubi Qafqaz və Orta Asiyada nüfuzunun artmasına və beynəlxalq miqyasdakı Rusiya-İran əməkdaşlığının daha da güclənməsinə səbəb olar.

4. Enerji: Türkiyə-İran münasibətlərində enerji amili 1996-cı ildə Türkiyənin Baş Naziri olmuş Nəcməddin Ərbakanın İran səfəri zamanı imzalanan təbii qaz müqaviləsi ilə ortaya çıxmışdır. Bu müqavilə, Türkiyənin 25 il müddətində ümumi qiyməti 20 milyard dollar olan 190 milyar $m^3$ həcmində qaz alınmasım nəzərdə tuturdu. Türkiyə İran qazını 2002-ci ildən bəri almaqdadır. Türkiyə İrandan qazı 2005-ci ilinin sonu etibarilə bir $m^3$-i 253 dollardan satın alır.

Rəsmi Tehran bu sistem daxilində 6 dövlətin (3+3 formulu üzrə) təhlükəsizlik şuralarınm katibləri, parlament sədrləri, həmçinin, iqtisadiyyat və maliyyə nazirləri səviyyəsində görüşlərin keçirilməsini və ümumi baxışların formalaşdırılmasım təklif edirdi. Lakin bu təşəbbüs də region dövlətlərinin dəstəyini qazanmadı. Bu, bir daha göstərir ki, İranın regional təhlükəsizlik məsələlərinə baxışı digər regional ölkələrin mövqeyi ilə üst-üstə düşmür. İranın regional təhlükəsizlik sisteminə dair bir təklifi 2003-cü ilin aprelində gündəmə gətirildi. İranın Xarici İşlər Naziri Kamal Xərrazinin regionun birgə təhlükəsizlik qüvvələrinin yaradılması təşəbbüsü yenə bölgə dövlətlərinin dəstəyini qazanmadı. Tədqiq olunan dövrdə İranın bölgədəki geostrateji məqsədləri aşağıdakı kimi nəzərdə tutulur:

- kənar qüvvələrin (ABŞ və Avropa İttifaqı) Cənubi Qafqazda iştirakını mümkün qədər məhdudlaşdırmaq, onların İran sərhədlərinə yaxınlaşmasına imkan verməmək;
- regional problemləri yalnız məntəqədəki dövlətlərin birgə səylərilə həll etmək;

- Xəzər hövzəsi və Cənubi Qafqaz ölkələrinin birtərəfli addımlarını maksimum neytrallaşdırmaq və proseslərdə birgə iştiraka nail olmaq üçün mexanizm tapmaq;
- Qərb yönümlü siyasət yeridən region dövlətləri ilə münasibətləri yüksək səviyyəyə çatdırmaq;
- geostrateji maraqları İranla üst-üstə düşən regional ölkələrilə əməkdaşlığı daha da möhkəmləndirmək.

İranın regiondakı geosiyasi duruma təsir göstərmək imkanı getdikcə azalır. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələrinin reallaşması, bölgədə bütün layihələrin Qərbin dəstəyi ilə həyata keçirilməsi İranın regiondakı proseslərdən təcrid olunması ilə nəticələnib. Tehranın ciddi müqavimətinə baxmayaraq, ABŞ artıq ölkənin sərhədlərinə yaxınlaşıb. İranla sərhədyanı ölkələrin əksəriyyətində - Türkiyə, Pakistan, Əfqanıstan, İraq, həmçinin, İran körfəzi ölkələrində ABŞ-ın hərbi qüvvələri yerləşdirilib. ABŞ və NATO-nun hərbi qüvvəsi olmadığı İranla həmsərhəd dövlətlər Azərbaycan Respublikası və Türkmənistandır. Bu amil Azərbaycanın İran üçün əhəmiyyətini artırır. İraq müharibəsi başlanandan sonra Tehranın Bakı ilə münasibətlərinə daha çox diqqət yetirməsi təsadüfi deyil.

İranın Azərbaycana dair geosiyasi maraqlarmın digər tərəfini də qısa olaraq bu faktlarla nəzərə çatdırmaq olar: - İran ərazisində 30 milyona yaxın etnik azərbaycanlının yaşadığı bir dövlət olaraq güclü və müstəqil Azərbaycanı özünə təhlükə hesab edir. İranda yaşayanlar mənşəcə azərbaycanlı olmalarına baxmayaraq hazırda onlar özlərini İslam faktoruna görə tanıyır və öz kökləri ilə demək olar ki, o qədər də maraqlanmırlar. Cənubi və Şimali Azərbaycan xalqları arasında hazırda çox dərin fərqlər görünməkdədir və bu fərqlər zaman keçdikcə daha da dərinləşəcək.

İran hazırda böyük məbləğdə investisiyalar yatıraraq Azərbaycana təzyiqini artırmağa və Azərbaycanda İslam fundamentalizmini parçalamağa çalışır. Bu məqsəd məscid-

lərin tikilməsində, Azərbaycanın cənub sərhədlərindəki qaçqın düşərgələrində Quran kitablarının yayılmasında özünü göstərir. Lakin Azərbaycanın Naxçıvana quru yol çıxışının yalnız İrandan olduğunu da qeyd etmək lazımdır. Onu da qeyd etmək lazımdır ki, 70 il SSRİ-nin tərkibində ateizm inancının təzyiqi altında yaşamış azərbaycanlılar arasında İranın bu məqsədlərinin reallaşacağı o qədər də inandırıcı görünmür. İran Ermənistanın tanklarını yanacaq ilə təmin etməsinə baxmayaraq, Azərbaycan ilə münasibətlərin pisləşməsini də öz geosiyasi maraqları üçün təhlükə hesab edir.

NATO 1949-cu il aprelin 4-də ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Kanada, Belçika, Niderland, Lüksemburq, Portuqaliya, Norveç, Danimarka və İslandiya arasında bağlanan Vaşinqton müqaviləsi əsasında yaradılmışdır. Təşkilatın məqsədi BMT nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq kollektiv müdafiədir. NATO hazırda Şimali Amerika və Avropanın 26 üzv dövlətindən ibarət hərbi-siyasi təşkilatdır.

Hazırda NATO beynəlxalq münasibətlərə daha ciddi təsir göstərmək iqtidarında olan bir təşkilat kimi bütün dünyada münaqişələrin ləğv edilməsinə, ölkələrdəki siyasi və iqtisadi böhranın aradan qaldırılmasına, demokratiyanın inkişafına yönəlmiş fəaliyyətini daha da genişləndirməkdədir. 1994-cü ilin yanvarında "Sülh Naminə Tərəfdaşlıq" (SNT) fəaliyyətinin əsasının qoyulması da NATO-nun bu məqsədlərinin reallaşmasına yönəlmiş bir addım idi. NATO üzvü olmayan dövlətlər də artıq fərdi şəkildə NATO ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində öz rollarını oynaya biləcəkdi. 1995-ci ilin sentyabr ayında isə NATO-da SNT mexanizminin yaradılmasına qərar verildi. 1997-ci ildə Madriddə, 1999-cu ildə isə Vaşinqtonda keçirilmiş sammitlərdə bu proses sürətlə inkişaf etdirildi.

Ümumiyyətlə, NATO-nun fəaliyyətinin nəzərəçarpan bir hissəsini təşkilat üzvü olmayan dövlətlərlə əlaqələr təşkil edir. Burada isə biz NATO-nun Cənubi Qafqaz regionu ölkələri ilə əlaqələrindən bəhs edəcəyik.

Cənubi Qafqaz regionu ölkələrinin NATO ilə beynəlxalq hərbi-siyasi əməkdaşlığı prosesi bu ölkələrin 1991-ci ildə müstəqillik əldə etmələri ilə eyni vaxtda başlamışdır.

Beynəlxalq təşkilat olaraq, NATO müasir dünyada siyasi vəziyyətə getdikcə daha ciddi təsir göstərir. Təşkilatın keçmiş SSRİ məkanındakı hadisələrə müdaxilə etməsi əsasən onunla bağlıdır ki, postsovet məkanmda yaranmış yeni dövlətlərdə baş verən milli, etnik, ərazi münaqişələri bütövlükdə beynəlxalq münasibətlər sistemi üçün təhlükə yaradır. Hərbi-siyasi təşkilat kimi isə NATO bütün dünyada, o cümlədən, postsovet məkanmda münaqişələrin ləğv edilməsində öz rolunu artırmağa, bu ölkələrə siyasi və iqtisadi böhramn aradan qaldırılmasına, demokratik islahatlar keçirilməsinə zəruri yardım göstərməyə çalışır. NATO şəraitə uyğun olaraq öz vəzifələrini daim yenidən müəyyənləşdirir, dünya siyasətində öz təsirini və xüsusi çəkisini artırmağa səy göstərir.

1994-cü il 10-11 yanvarda NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Brüsseldə görüşü keçirildi. Görüşün yekunlarına dair bəyanat qəbul edildi. Sənəddə beynəlxalq və regional siyasi şəraitin aktual problemləri barəsində NATO-nun mövqeyi əks olunmuşdu. Bəyanatın 21-ci bəndində NATO-nun üzvü olan ölkələr Cənubi Qafqaz regionundakı vəziyyət haqqında öz mövqelərini bildirdilər. Güc işlədilməsi ilə ərazilər ələ keçirilməsini pisləyən NATO ölkələri Azərbaycan, Ermənistan və Gürcüstanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə hörmət edilməsini həmin bölgədə sülhün, sabitliyin, əməkdaşlığın bərqərar olması üçün zəruri hesab edirdilər.

NATO-nun Cənubi Qafqaz strategiyasında üç respublika ilə eyni dərəcədə əməkdaşlığın planlaşdırılması məsələsi öz əksini tapır. NATO Cənubi Qafqaz respublikaları ilə ayrı-ayrılıqda yaratdığı münasibətlərin bir-birinə xələl gətirəcək istiqamətdə inkişafına imkan verməməyə çalışır. Təşkilatm Azərbaycan, Gürcüstan və Ermənistan arasında regional formatda əməkdaşlıq təklifləri də bu məqsədə xidmət edir.

SSRİ dağıldıqdan sonra müstəqilliklərinin ilkin çağlarında Azərbaycan, Gürcüstan və Ermənistanın Qərblə, xüsusən də, NATO ilə ikitərəfli və çoxtərəfli hərbi-siyasi əlaqələr qurmağa çalışması bir sıra səbəblərlə bağlı idi:

1. Rusiya o dövrdə çox zəifləmişdi və bu ölkələrin hərbi-siyasi müdafiəsinə heç bir təminat verə bilmirdi.

2. Rusiyadakı yeni hakimiyyətin nə edəcəyi məlum deyildi və hələ çox zəif olan region dövlətlərinin müstəqilliyi sual altına düşə bilərdi.

3. Yeni yaranmış bu dövlətlərin Rusiyadan asılı olmadıqlarını nümayiş etdirmələri zəruri idi.

Yeni əlaqələrin qurulması üçün ən perspektivli istiqamət də məhz Qərb idi. Qərblə əməkdaşlıq yeni müstəqillik qazanmış bu dövlətlərin müstəqilliklərinə verilən zəmanət idi. Bu əməkdaşlıq da müxtəlif – iqtisadi, siyasi, hərbi və digər sferalarda müşahidə olunurdu ki, Cənubi Qafqaz regionu ölkələri ilə hərbi əməkdaşlığı məhz NATO öz üzərinə götürmüşdür. Cənubi Qafqaz regionu hələ SSRİ-nin mövcudluğu dövründən Qərbin hərbi-strateji planlarının mərkəzində duran bir bölgədir. SSRİ-nin süqutu və region dövlətlərinin müstəqillik qazanması Qərbi artıq əməli addımlar atmağa sövq etdi. Bu addımlar isə ilkin çağlarda daha çox iqtisadi xarakter daşıyırdı. Lakin Qərbin buradakı marağı heç də iqtisadi əməkdaşlığa nail olmaq deyildi. Qərb üçün əsas olan Cənubi Qafqazın dünyanın müasir hərbi-siyasi konfiqurasiyasında mühüm strateji mövqeyə malik olması idi. Rusiya siyasi tədqiqatçıları məsələyə bu kontekstdən yanaşırlar və bunları qeyd edirlər:

1. Azərbaycan Cənubi Qafqazın güclü iqtisadi potensialı ilə fərqlənən, həmçinin zəngin enerji ehtiyatlarına malik olan yeganə dövlətidir. Lakin Azərbaycanın imkanları Səudiyyə Ərəbistanı, İraq, İran, xüsusən də, Rusiya kimi dövlətlərdən müqayisə olunmayacaq dərəcədə məhduddur.

2. Gürcüstanın iqtisadi üstünlüyü yalnız onun dünya okeanına çıxışı olan dəniz dövləti olması ilə xarakterizə olunur.

3. Ermənistanın isə müasir dünya geosiyasətində heç bir nəzərəçarpan əhəmiyyəti yoxdur.

ABŞ yeni müstəqillik qazanmış Cənubi Qafqaz respublikalarını tanıyana qədər və bundan sonrakı dövr ərzində "xüsusi qafqaz siyasəti"nə malik deyildi. Yalnız 1997-ci ildə B.Klintonun hakimiyyəti dövründə ABŞ-ın strategiyasında Cənubi Qafqaz regionu öz yerini tutmağa başladı. Buna səbəb isə ABŞ-ın Bakı-Tblisi-Ceyhan layihəsinə göstərdiyi diqqət idi.

Cənubi Qafqazda nüfuz dairələri uğrunda mübarizə aparan dövlətlərin əsas geosiyasi maraqlarını qısa olaraq aşağıdakı kimi ifadə etmək olar:

Rusiya hələ imperiyanın yeni yarandığı dövrdən, XVIII əsrdən başlayaraq Cənubi Qafqaza sahib olmaq uğrunda aktiv siyasət həyata keçirir. Rusiya üçün bu regionun geosiyasi əhəmiyyəti Cənubi Qafqazın Rusiyanı cənub yarımkürəsinə çıxaran bir körpü, həmçinin əsası Pyotrun dövründən qoyulan "isti dənizlərə çıxmaq" strategiyasının həyata keçirilməsi üçün bir zəmanət olmasıdır. Həmçinin burada enerji amili də nəzərə alınmalıdır.

ABŞ üçün Cənubi Qafqaz Rusiya ətrafında "sanitar kardon"u yaratmaqda dayaq nöqtəsi olmaqla yanaşı, bu super gücün Yaxın Şərqlə bağlı planlarının, həmçinin, Xəzər regionu və Mərkəzi Asiyada mövqe qazanmaq strategiyasının həyata keçirilməsində əsas geosiyasi istinadgahdır.

Türkiyə Cənubi Qafqazda mövqeyini möhkəmləndirərək öz milli təhlükəsizliyini və dövlət maraqlarını Rusiya təcavüzündən qorumağa çalışır.

İran Rusiyanın əsas tarixi strateji müttəfiqi olaraq Cənubi Qafqazda daima öz təsirini saxlamağa çalışmış və bu gün də bunu etməkdədir. Bugünkü vəziyyətdə Cənubi Qafqazda Qərbin mövqeyinin güclənməsi İranın geosiyasi maraqlarını təhdid etməklə yanaşı, onun milli təhlükəsizliyini də təhlükə altına alır.

## 7.3. Qafqaz-Xəzər regionu NATO-nun müasir geostrategiyasında

1990-cı illərin əvvəllərində dünyanın iki fövqəldövlətindən biri olan Sovet İttifaqının çökməsi nəticəsində Cənubi Qafqaz bölgəsində üç müstəqil dövlət yarandı. Bütün bunlar Qərbin, xüsusən də NATO-nun Avrasiya məkanında aktivliyinə təkan verdi ki, bu da Qafqaz regionu ilə bağlı keçmiş zamanlarda danılmaz olan geosiyasi reallıqların yenidən baxılmasma gətirib çıxardı. Hələ XIX əsrin əvvəlində Rusiya-İran və Rusiya-Türkiyə müharibələri nəticəsində Rusiyanın regiondakı möhkəmlənən ağalığına son qoyuldu.

Bir çox böyük qonşu və hətta uzaq dövlətlərin regiona göstərdiyi geniş maraq ancaq burada olan nəhəng təbii sərvətlər və birinci növbədə neft və qaz yataqları ilə bağlı deyil, həmçinin, regionun dünyanın rəqib qüvvələrinin mübarizəsindəki əlverişli mövqeyi ilə izah oluna bilər. XX-XXI əsrlərin astanasmda Qafqazda yeni nüfuz dairələri uğrunda amansız geosiyasi mübarizə baş verməkdədir ki, Azərbaycan da özünün əlverişli geostrateji yerləşməsi səbəbindən bu mübarizənin episentrinə çevrilmişdir.

ABŞ-ın sabiq prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Z.Bjezinskinin fikrinə görə "məhdud ərazi miqyası və az əhali sayına baxmayaraq böyük enerji resurslarına malik olan Azərbaycan geosiyasi cəhətdən həlledici əhəmiyyət kəsb edir. O, Xəzər dənizi və Orta Asiyada yerləşən zəngin resurslara çıxışın həlledici nöqtəsidir. Bundan əlavə yerli və beynəlxalq korporasiyalar tərəfindən Xəzər dənizindən çıxarılan neft və qazın nəqli marşrutlarının seçimi həm Qərb, həm Rusiya və İran, eləcə də Cənubi Qafqaz respublikaları üçün ən ciddi geoiqtisadi problemlərdən biridir".

Amerika politoloqu davam edərək yazır: "Rusiyanın nəzarəti altında olmayan ərazilərdən keçən neft kəmərləri vasitəsi ilə Qərb bazarlarına çıxış alan müstəqil Azərbaycan, həm də

qabaqcıl və enerjiyə tələbatı olan ölkələrin, Orta Asiya respublikalarının zəngin enerji mənbələrinə çıxış üçün böyük magistrala çevrilir. Rusiyanın geosiyasət problemləri üzrə mütəxəssisi A.Duqinin fikrincə isə, Xəzər-Qara dəniz hövzəsindəki ərazilərə nəzarət Atlantizm və Avrasiyaçılıq arasmda gedən qlobal qarşıdurmanın strateji məsələsidir.

Hazırda anti-amerikan, anti-Atlantik və geosiyasi cəhətdən aktiv olan, NATO-nun cənub istiqamətində Şərqə genişləndirilməsinin əleyhinə çıxış edərək Rusiya ilə bir çox məsələlərdə maraqları üst-üstə düşən İran, özünün Qafqazdakı mövqelərini gücləndirməyə çalışır.

Həmçinin yaranmaqda olan Moskva-Tehran ittifaqımn ən vacib strateji üzvü kimi Rusiya ilə İranı daha da sıx birləşdirən və NATO üzvü olan Türkiyəni Avrasiyanın qitədaxili məkanlarma çıxışdan məhrum edən bir platsdarm kimi Azərbaycanla silahlı qarşıdurmaya əl ataraq, onun 20% ərazisini zəbt etmiş Ermənistan çıxış edir.

Əsrlərin qovuşuğunda Xəzər regionu ətrafmda formalaşmış yeni geostrateji mərkəzlər arasında geosiyasi mübarizə və digər tərəfdən Qərbin, ilk növbədə NATO-nun aparıcı üzv-dövlətlərinin, ABŞ və İngiltərənin Cənubi Qafqaz və Mərkəzi Asiya dövlətlərinin Rusiya Federasiyasmdan yan keçən qlobal magistral kommunikasiyalar (ilk növbədə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Böyük İpək Yolunun inkişafı) ətrafında birləşməsinə açıq-aydın yardım etmək cəhdləri qızğm şəkildə davam edir. Bu, ABŞ-ın (NATO) geostrateji sxeminə Türkiyə, Gürcüstan, Azərbaycan kimi ölkələri daxil edəcək. Öz növbəsində, Rusiya hələ daha əvvəl Rusiya-Ermənistan-İran üçbucağını yaratmağa başlamışdır.

Yaranmış yeni geosiyasi şəraitdə dövrümüzün ən güclü və yüksək dərəcədə təşkilatlanmış struktura malik olan və dünyanın istənilən, həmçinin, Qafqaz bölgəsində geostrateji məqsədlərinə nail olmaq üçün bütün imkanlara malik olan bir təşkilat olan NATO-nun rolu nəzərə çarpacaq dərəcədə artmışdır.

NATO-nun Qafqaza göstərdiyi geosiyasi maraq heç də təsadüfi deyil. Məhz postsovet məkanının bu regionunda aparıcı dövlətlərin həyati əhəmiyyət kəsb edən maraqları toqquşmaqdadır; burada olan siyasi, ictimai, milli, dini və etnik ziddiyyətlərin mərkəzi hərbi gücün istənilən səviyyədə işə salınması ehtimalını çox real perspektivə çevirir. 1990-cı illərdə baş verən Dağlıq Qarabağdakı Ermənistan-Azərbaycan, gürcü-abxaz və gürcü-osetin münaqişələri bunun bariz nümunəsidir. Heç də təsadüfi deyil ki, Mərkəzi Kəşfiyyat İdarəsi İnformasiya-Analitika direktorluğu çərçivəsində bu regionda baş verən hadisələrin izlənilməsi və ABŞ-ın siyasi rəhbərliyinə tövsiyələr hazırlanması məqsədilə xüsusi bölmə yaradılıb.

XX-XXI əsrlərin qovuşuğunda Qafqazda yaranmış geosiyasi vəziyyət NATO ilə Azərbaycan arasında hələ 1992-ci ilin oktyabr ayından ilk əlamətləri özünü büruzə verən qarşılıqlı maraqların meydana gəlməsinə şərait yaratdı. Türkiyədə təşkil edilən Alyansın üzv-dövlətlərinin seminarı zamanı Azərbaycan nümayəndə heyətinin NATO-nun baş katibi M.Varner ilə görüşləri zamanı qarşılıqlı əhəmiyyət kəsb edən bir çox məsələlər müzakirə olunmuşdur.

Öz növbəsində, Şimali Atlantika Alyansının Azərbaycana olan marağı blokun 1993-cü ildə özünün maraqlar zonasının bütün Cənubi Qafqaza genişləndirilməsi haqqındakı bəyanatından sonra xeyli artdı. NATO-nun Cənubi Qafqaz regionundakı vəziyyətə dair münasibəti ilk dəfə 10-11 yanvar 1994-cü ildə blokun üzv-dövlətlərinin Brüssel sammiti zamanı açıqlanmışdır. Birgə bəyannamənin 21-ci bəndində Alyansın bu bölgədə yaranmış vəziyyətlə bağlı narahatlığı qeyd olunur, ərazi mübahisələri zamanı güc tətbiq edilmiş, dünyanın bu bölgəsində sülh, əmin-amanlıq və əməkdaşlığa nail olunmasının əsas şərtləri kimi Cənubi Qafqaz respublikalarının ərazi bütövlüyü və müstəqilliyinə dəstək verilməsi ifadə olunurdu.

Ümumilikdə isə, anti-Azərbaycan və anti-Türkiyə yönümlü Rusiya-Ermənistan hərbi-strateji əməkdaşlığı Azərbayca-

nı NATO-nun üzv dövlətlərindən olan Türkiyə ilə daha da sıx hərbi-texniki əməkdaşlıq qurmağa, Alyans ilə xüsusən də "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində xüsusi əlaqələr qurmağa vadar edirdi. Bu istiqamətdə NATO ilə Azərbaycanın maraqları tam üst-üstə düşərək, Brüsseldə 1994-cü ilin yanvarında NATO-nun üzv dövlətlərinin dövlət və hökumət başçılarının növbəti sammiti zamanı qəbul edilmiş "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində hərtərəfli və səmərəli əməkdaşlıq üçün real perspektivlər açırdı.

NATO-nun beynəlxalq münasibətlərdə yeni rolunu və dünya siyasətindəki yeni tendensiyaları nəzərə alaraq ümummilli lider Heydər Əliyev ölkənin "Sülh Naminə Tərəfdaşlıq" proqramında iştirakı haqqında prinsipial qərar qəbul etdi. Öz potensial maraqları mövqeyindən çıxış edərək, 4 may 1994-cü ildə Azərbaycan suveren bir dövlət kimi "Sülh Naminə Tərəfdaşlıq" proqramında iştirak sazişini imzaladı ki, bu da ölkə prezidenti Heydər Əliyevin 3-5 may 1994-cü ildə Brüsselə tarixi səfəri ilə bağlı idi. Beləliklə, Azərbaycan MDB dövlətlərindən NATO-nun bu proqramma qoşulan dördüncüsü idi (Ukrayna, Moldova, Gürcüstandan sonra). Bu hadisə ilə bağlı nitqində ümummilli lider Heydər Əliyev vurğulayırdı ki, "Biz NATO ilə əməkdaşlığa böyük ümidlər bəsləyirik. Bizim üçün bu həm Azərbaycanın Qərb demokratiyasına uyğunlaşması nöqteyi-nəzərindən, həm də NATO ilə birlikdə regiondakı vəziyyətin sabitləşdirilməsi, müharibənin dayandırılması, sülhün bərqərar olması və Azərbaycan ilə Ermənistan arasında əmin-amanlığın əldə edilməsi üçün əlavə çıxış yolları axtarmaq məqsədilə mühüm əhəmiyyət kəsb edir". "Çərçivə sənədin" səkkizinci bəndi buna ümidlər yaradırdı. Burada deyilirdi ki, "NATO hər hansı tərəfdaşlığın fəal iştirakçısının fikrinə görə onun ərazi bütövlüyünə, siyasi müstəqiliyinə yaxud təhlükəsizliyinə birbaşa təhlükə olduqda həmin tərəfdaş ilə konsultasiyalar keçirəcəkdir". Azərbaycan son illər ərzində bu bənddən istifadə edərək, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqları

azad etmək məqsədi ilə, NATO ilə fəal, amma nəticəsiz məsləhətləşmələr aparmışdır.

Bununla belə, Şimali Atlantika bloku ilə sıx əlaqələr və əməkdaşlığın yaradılmasının böyük əhəmiyyəti ondan irəli gəlirdi ki, "Sülh Naminə Tərəfdaşlıq" proqramına birləşərkən, Respublika NATO-nun müxtəlif struktur və institutları vasitəsi ilə beynəlxalq təhlükəsizlik sisteminə qoşulmaq imkanı, həmçinin hər hansı blokun dövləti birbaşa və bütün üzvlərlə birlikdə Kosovo kimi humanitar və sülhü bərqərar məqsədi ilə keçirilən aksiyalarda iştirak əldə edir. Alyans ilə əməkdaşlığın digər vacib aspekti də bundan ibarətdir ki, Azərbaycan bütün Qafqaz regionunu əhatə edən strateji balans və təhlükəsizlik sisteminin yaranmasında iştirak etmək, mübahisəli məsələləri beynəlxalq hüquq normaları və vasitələri ilə həll etmək, ölkələrin təhlükəsizlik problemlərinin həlli yolunda NATO-nun böyük nüfuzu və təsir mexanizmlərindən istifadə etmək üçün real imkanlar əldə edir. Həmçinin "Sülh Naminə Tərəfdaşlıq" proqramı Azərbaycana NATO-nun sülh naminə hərbi strukturları ilə əməkdaşlığa, birgə təlim və manevrlər keçirməyə, hərbi quruculuq, kadr hazırlanması və s. məsələlərdə blokun üzv dövlətlərinin, xüsusən də Türkiyənin böyük təcrübəsindən bəhrələnməyə imkan yaradır.

Ümumilikdə isə, Azərbaycanın NATO ilə əməkdaşlığını həm də respublikanın xarici siyasət strategiyasının bir sıra əsas amilləri nöqteyi-nəzərindən qiymətləndirmək lazımdır. Birincisi, Azərbaycan öz xarici siyasətində müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük əhəmiyyət verir; ikincisi, Azərbaycan beynəlxalq təşkilatların bütün üzv dövlətləri ilə əməkdaşlıqda maraqlıdır və çoxtərəfli diplomatiya aparır. Nəhayət, üçüncüsü, Azərbaycanın faktiki olaraq Ermənistan ilə müharibə vəziyyətində olması bütün vasitə və yollarla dünya ictimaiyyəti ilə sıx əlaqədə olmaq və onu həm Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həllində, həm də Xəzər dənizinin statusu ilə bağlı problemlərdə daha da fəal iştiraka cəlb etməyi

tələb edir. Bütün bu amillər Azərbaycanın NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmasında həlledici rol oynadı. Azərbaycanın NATO proqramına qoşulması, həmçinin ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsi kimi də qiymətləndirilə bilər, amma qeyd etmək lazımdır ki, "Sülh Naminə Tərəfdaşlıq" proqramı öz-özlüyündə ölkəyə dərhal və kifayət qədər effektiv beynəlxalq hərbi-siyasi dəstəyi təmin etmir.

Belə bir vacib amili qeyd etmək lazımdır ki, Azərbaycan ilə NATO arasında əməkdaşlıq ancaq bizim respublika üçün yox, həm də Şimali Atlantika Alyansı üçün də səmərəlidir. Bu birinci növbədə onunla bağlıdır ki, Azərbaycanm əlverişli geosiyasi və geoiqtisadi əhəmiyyəti nəticəsində o, NATO-nun cənub istiqamətinə doğru genişlənməsi perspektivləri ilə bağlı mühüm strateji platsdarm rolu oynaya bilər. Böyük əhəmiyyət kəsb edən digər amil də ondan ibarətdir ki, üç Cənubi Qafqaz dövlətləri sırasında Azərbaycan yeganə dövlətdir ki, ərazisində hər hansısa bir xarici dövlətin nə hərbi bazası, nə də silahlı qüvvələri yerləşir və bu da öz növbəsinlə NATO ilə Azərbaycan Respublikası arasında fəal əməkdaşlıq üçün təkanverici amildir.

Beləliklə, bütövlükdə Qafqaz və həmçinin Azərbaycan Orta Şərqin böyük əhəmiyyət kəsb edən geosiyasi mərkəzlərindən biridir ki, onların ətrafında XXI əsrin əvvəlində formalaşmaqda olan yeni geosiyasi mərkəzlər arasmda qızğın geosiyasi qarşıdurma başlanmaqdadır və Qərbin bu istiqamətdə əsas zərbə gücü kimi NATO çıxış edir.

## ƏDƏBİYYAT:

1. Алиев И. Каспийская нефть Азербайджана. М., 2003.
2. Айзенстат С. Каспийские ресурсы укрепят надежность мирового энергоснабжения // "Вышка", 1998, 17 апреля.
3. Архитектура международной безопасности. Американский ракурс: НАТО расширяется. // "Возрождение - XXI век", 1999, № 16.
4. "Финансовые известия", 1998, № 25.
5. "Красная Звезда", 2000, 27 сентября.
6. "Независимая газета", 1999, 24 октября.
7. Справочник НАТО. Брюссель, 2001.
8. Стратегическая концепция Североатлантического Союза. Брюссель, 2001.
9. Уткин А. "Политика США на североатлантическом направлении США". ЭПИ., 1995.

## 7.4. NATO-nun Şərqə doğru genişlənməsi və Azərbaycan Respublikası

Müasir dövrdə köklü geostrateji dəyişikliklər, Azərbaycanın, bütövlükdə Xəzər regionunun rolu və yeri özünəməxsus əhəmiyyət daşıdı. XX-XXI əsrlərin hüdudlarında Qafqaz-Xəzər regionu öz zəngin karbohidrogen ehtiyatları ilə dünya siyasətinin mühüm geostrateji mərkəzinə, iri və regional dövlətlərin rəqabət meydanına çevrilmişdir.

Dünyanın iri və regional dövlətləri tərəfindən Azərbaycana xüsusi maraq Xəzər dənizində karbohidrogen yataqlarının olması və XXI yüzillikdə bu hövzənin dünyanın "dünya yanacaqdoldurma məntəqəsinə" çevilməsi ilə deyil, daha çox dünyanın rəqabət aparan qüvvələrinin geostrateji rolu ilə izah olunur. Şərqi Aralıq dənizindən Xəzər regionuna qarşıdurmaların yerdəyişməsi baş verir ki, burada da əsas rolu bir tərəfdən ABŞ və NATO, digər tərəfdən isə İran və Rusiya oynayır. Dünya Xəzər regionunda nüfuz dairəsi uğrunda mübarizənin dəfələrlə şahidi olmuşdur. Geostrateji cəhətdən də ən əlverişli şəraitdə yerləşən güclü dövlət Azərbaycandır.

Z.Bjezinski qeyd edir ki, məhdud əraziyə və o qədər də çox olmayan əhaliyə malik Azərbaycan təbii ehtiyatlarına və yerləşdiyi geostrateji mövqeyinə görə bu regionda mühüm mövqeyə malikdir. Xəzəryanı ölkələrin, o cümlədən qonşu dövlətlər olan Gürcüstan və Türkiyənin üzləşdiyi əsas problem Xəzər dənizindən hasil edilən neftin və qazın daşınması marşrutu olmuşdur. Z.Bjezinski fikrini davam edərək qeyd edir ki, Qərbin neft bazarları ilə birbaşa, Rusiyanın nəzarəti olmadan əlaqəli olan Azərbaycan Mərkəzi Asiyada enerji cəhətdən zəngin dövlət olmaqla neft və neft məhsullarının daşınmasında magistral rol oynayır. Bunlarla yanaşı, Azərbaycanın geostrateji əhəmiyyəti həm də onunla izah olunur ki, "Əgər Azərbaycan tam şəkildə

Moskvanın himayəsinə keçmiş olsa, Orta Asiya ölkələrinin müstəqilliyinə baxmaq mənasızdır".

Xəzər neftinin daşınmasında marşrutun seçilməsi məsələsinin ən iti geosiyasi məsələ olduğunu nəzərə alaraq Rusiya ondan ehtiyat edir ki, məsələnin həllində Xəzərin təbii resursları üzərində transmilli nəzarəti həyata keçirməyə cəhd göstərən Britaniya-Amerika neft kompaniyaları mühüm rol oynayacaq. Rus mütəxəssisi Duqinin fikrincə Xəzər dənizi və Xəzər-Qara dənizi üzərində nəzarət altantizm və avroasiya qlobal qarşıdurmasının ən mühüm vəzifəsi hesab olunur. Duqinin sözlərinə görə burada Rusiyanın əsas vəzifəsi "Moskva-Tehran" oxu yaratmaqla özünün çoxdankı arzusuna – "isti dənizlərə çıxış" əldə etmək və "anakonda həlqəsi"ni parçalamaqdır.

Hazırda Xəzər regionunda öz nüfuzunu gücləndirməyə çalışan digər dövlət xarici siyasətində anti-amerikan və antiatlantik xətt yürüdən İran İslam Respublikasıdır. Taktiki cəhətdən İranın mövqeyi əsasən Rusiya Federasiyasının mövqeyi ilə üst-üstə düşür. Rusiyanın Xəzər regionunda NATO-nun Şərqə və Cənuba genişlənməsinin qarşısını almaqda ən yaxın müttəfiqi məhz İrandır. "Moskva-Tehran" oxunda əlavə dayaq rolunu oynayan Azərbaycanla müharibə vəziyyətində olan digər dövlət Ermənistandır.

Beləliklə, XX-XXI əsrin astanasında Xəzər regionunda gərgin geostrateji rəqabət gedir, digər tərəfdən isə dünyanın iri ölkələri olan ABŞ, İngiltərə, NATO və s. Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinin Rusiyadan yan keçməklə qlobal magistral kommunikasiyalar ətrafında, ilk növbədə Bakı-Tbilisi-Ceyhan və Böyük İpək Yolu ətrafında möhkəmləndirməyə cəhd göstərir. ABŞ-ın geostrateji sxeminə Gürcüstan, Azərbaycan və Türkiyə daxildir. Bununla yanaşı Rusiya da hələ çoxdan Rusiya-İran-Ermənistan vertikal oxunu yaratmışdır.

Müstəqilliyin ilk çağlarında Azərbayanın NATO üzvü olan Türkiyə ilə əməkdaşlığının qurulması da bu prosesin tərkib hissəsi sayıla bilər. Lakin bu dövrdə Türkiyənin Cənubi

Qafqazdakı məsələlərlə bağlı atdığı addımlar bir qədər ehtiyatlı idi. Türkiyə özünün Cənubi Qafqaz siyasətini Rusiyanın regiondakı maraqları ilə kəsişəcək səviyyəyə çatdırmamağa çalışırdı. O dövr Azərbaycanın xarici siyasətini qismən də olsa bu cür xarakterizə etmək olar. Bir tərəfdən Azərbaycan Türkiyənin güclü dəstəyini alır, digər tərəfdən İran və Rusiya ilə münasibətləri balansda saxlamağa çalışırdı.

Azərbaycanın NATO ilə əməkdaşlığının inkişaf mərhələlərindən birinə də Böyük Britaniya ilə münasibətlərin qurulmasını daxil etmək olar. Böyük Britaniyanın regionda aktivlik nümayiş etdirməsi həm o dövrki şəraitlə, həm də Birləşmiş Krallığın neft maraqları ilə bağlı idi. Böyük Britaniya ilə əlaqələrin qurulmasında ümummilli lider Heydər Əliyevin əvəzolunmaz rolu olmuşdur. 1993-cü ildən başlayaraq Böyük Britaniya Azərbaycanda bir sıra böyük humanitar proqramların təşkilatçısına çevrildi və beynəlxalq arenada Azərbaycanın mövqeyini müdafiə etməyə başladı. 1994-cü il fevral ayında Londonda tərəflər arasındakı əməkdaşlığın ümumi prinsiplərini müəyyən edən səkkiz ikitərəfli müqavilə imzalandı. Bu müqavilələrə eyni zamanda neft layihələri və Dağlıq Qarabağla bağlı sənədlər də daxil idi.

Ümumiyyətlə, Azərbaycan-NATO əməkdaşlığı çox stabil bir axarda inkişaf edir. Azərbaycanın hərbi təmsilçilərinin 2008-ci il fevral-mart aylarında iştirak etdikləri NATO tədbirlərini bu fikrə bir sübut kimi göstərmək olar. Aşağıda NATO üzvü olan ayrı-ayrı dövlətlər ilə keçirilmiş toplantılar və digər görüşlər göstərilmişdir.

NATO ilə hərbi əməkdaşlıq xətti ilə Avroatlantik məkana inteqrasiya ilə paralel şəkildə Azərbaycan Ermənistan ilə mübarizə əzmini göstərərək öz daxili hərbi imkanlarını genişləndirməkdədir.

Azərbaycanın Qərb ilə hərbi əməkdaşlığının qurulmasında bir vasitəçi kimi əsas rolu Türkiyə oynayır. Türkiyə regionda öz maraqları ilə yanaşı, Şimali Atlantika blokunun da regiondakı

maraqlarını müdafiə edir. Türkiyənin hərbi mütəxəssisləri artıq 10 ildən çoxdur ki, Azərbaycanın silahlı qüvvələrinin qurulması işində yaxından iştirak edir. Hərbi analitiklər hətta bir fikir də irəli sürürlər ki, NATO-nun himayədarlığı ilə Türkiyə - Azərbaycan hərbi bloku yaradılması planı artıq reallığa çevrilib. Azərbaycan - Türkiyə hərbi əməkdaşlığının əsasını rəsmən 1996-cı ildə imzalanmış ikitərəfli müqavilə qoymuşdur. Həmçinin bu müqavilədən sonrakı müddət ərzində də bir sıra sazişlər və müqavilələr olmuşdur. Azərbaycan və Türkiyə arasındakı hərbi əməkdaşlıq ənənəvi yol olan kadr hazırlığı, həmçinin, silah yardımı və digər sahələrdə gedir. Hətta rus mütəxəssislər Qarabağ münaqişəsinin kəskinləşdiyi dövrdə Azərbaycanda türk hərbi məsləhətçilərindən ibarət aparatın formalaşdırıldığını da söyləyirlər. ABŞ konqresmeni Frenk Palloun çıxışında qeyd etmişdir ki, "Azərbaycan əsgərlərinin Qarabağ istiqamətində atəş açdıqları silahlar Amerika istehsalı olan NATO silahlarıdır və Azərbaycana Türkiyənin əli ilə verilmişdir".

Ümumiyyətlə, tədqiqatçıların da söylədikləri kimi SSRİ-nin süqutundan sonra NATO dövlətləri heç də bu hərbi bloku saxlamaq planlarından və onu siyasi bir struktura çevirmək strategiyalarından əl çəkmədilər. Əksinə, bu dövrdən başlayaraq NATO-nun genişlənməsinin növbəti mərhələsi başlandı. Bunu qarşısına məqsəd qoyaraq NATO rəhbərliyi 1991-ci ildə Şimali Atlantika Əməkdaşlıq Şurasını yaratdı. Bu, çoxtərəfli, konsultativ bir orqan idi və tezliklə Şərqi Avropanın 9 dövləti bu orqanda təmsil olunmağa başladı. SSRİ dağıldıqdan sonra 1992-ci ilin iyun ayına qədər Rusiya istisna olunmaqla SSRİ-nin tərkibində olmuş bütün dövlətlər bu Şuranın tərkibinə qatıldılar. 1997-ci ildə bu şura Avroatlantik Əməkdaşlıq Şurası kimi yenidən təşkil olundu.

Cənubi Qafqaz regionu dövlətlərinin bu quruma daxil olmaları haqqında qeyd etmək lazımdır ki, NATO-nun müxtəlif ölkələrdə təbliğatının aparılması və dövlətlərin NATO-ya hazırlanması yönümündə bir sıra işlər Avroatlantik Əməkdaşlıq Şurasının səlahiyyətlərinə daxil olan məsələlərdir. Bu proseslər

isə Cənubi Qafqazda da getməkdədir. İndi isə Cənubi Qafqaz regionu dövlətlərinin NATO ilə münasibətlərinin başqa tərəflərinə, region dövlətləri üçün perspektivli olacaq cəhətlərinə və eləcə də NATO-nu regiona cəlb edən məsələlərə toxunmaq lazımdır.

Son illərdə Gürcüstanın Qərblə, xüsusilə də ABŞ və NATO ilə əməkdaşlığı daha da genişlənib. NATO-nun assosiativ üzvü olan Gürcüstan, yalnız 1999-cu ildə NATO ilə əməkdaşlıq çərçivəsində onlarla tədbir, o cümlədən, Rusiyanın narazılıqla qarşıladığı geniş miqyaslı hərbi-dəniz təlimləri keçirib. NATO-nun Cənubi Qafqaza doğru genişlənməsi strategiyasında NATO-ya ilk üzv olacaq dövlət kimi də Gürcüstan nəzərdə tutulurdu. Bunun üçün "Qızılgül inqilabı"ndan bəri çox iş görülmüşdür. Lakin Rusiyanın Gürcüstana hərbi müdaxiləsi Cənubi Qafqaza nəzarət uğrunda mübarizə aparan bu regional gücün regiona nəzarəti əldən vermək niyyətində olmadığını bir daha sübut etdi.

Rusiya Cənubi Qafqazı daima milli-etnik zəmində münaqişələr törətməklə əlində saxlamağa çalışmışdır və nəticədə Qarabağ konfliktindən sonra Gürcüstanda da analoji münaqişə ocaqları meydana gəlmişdir.

NATO-nun üzvlük şərtlərinin yumşaldılması, daha doğrusu, formallaşması blokun öz üstünlüyünü keyfiyyət yox, kəmiyyət etibarı ilə təmin etməyə çalışmasından xəbər verir. Belə bir nəticəyə gəlmək olar ki, NATO hazırda Qərbin geosiyasi maraqlarına xidmət edən bir qurumdur.

NATO-nun Cənubi Qafqaz regionuna doğru genişlənməsi haqqında danışarkən qeyd olunmalı başqa bir məsələ Ermənistanın NATO ilə əməkdaşlığı məsələsidir.

Ermənistanın da NATO ilə əməkdaşlığı SSRİ dağıldıqdan sonra başlayır və indiki dövrə qədər bunun Ermənistan üçün bir sıra əhəmiyyətləri olmuşdur. ABŞ 2005-ci ildə terrorizmlə mübarizə proqramı çərçivəsində Ermənistana 5 milyon dollar yardım etmişdir. Bu maliyyə vəsaiti Ermənistan Silahlı Qüvvələrinin, xüsusilə Hərbi Hava Qüvvələrinin maddi-

texniki bazasının genişlənməsi üçün xərclənməli idi. Bundan əlavə, ABŞ 2005-ci ildə Ermənistan Silahlı Qüvvələrinin hərbi kommunikasiya sisteminin modernləşdirilməsi üçün daha 7 milyon dollar yardım etmişdir. Lakin NATO ilə əməkdaşlıq etməsinə baxmayaraq, Ermənistan NATO sisteminə keçmək niyyətində deyil. Rusiyanm bu ölkədəki güclü mövqeyi bu prosesə təsir edən əsas amildir.

Ümumiyyətlə, Cənubi Qafqaz ölkələrinin Avroatlantik məkana inteqrasiya məsələsindəki mövqelərini, hazırki vəziyyətlərini qısa olaraq aşağıdakı kimi xarakterizə etmək olar:

1. Gürcüstan baş verənlərə baxmayaraq NATO-ya üzv olmağı qarşısına məqsəd qoyub.

2. Azərbaycan hələ də gözləmə mövqeyi tutur, baxmayaraq ki, Azərbaycanda həm sosial-demokratik vəziyyət, həm də iqtisadi potensial Gürcüstandakından daha güclüdür. Azərbaycanı bu məsələdə ehtiyatlı davranmağa məcbur edən əsas səbəb isə əlbəttə ki, Qarabağ məsələsi və Rusiyanm münaqişənin həllində oynayacağı roldur. Amma yenə də Azərbaycan - NATO münasibətləri yüksələn xətlə inkişaf edir. Səməd Seyidovun söylədiyi kimi: "Azərbaycan Avroatlantik məkanın ayrılmaz hissəsi kimi burada gedən prosesləri mənimsəyərək onun iştirakçısı olmaq niyyətindədir. Bu proseslərin Azərbaycanda implementasiya olunmasımn tərəfdarıdır. Çünki Azərbaycanın seçdiyi yol Qərb sivilizasiyasına yanaşmaq, Avropa dəyərlərini mənimsəmək, demokratik dəyərləri Azərbaycanda implementasiya etməkdən ibarətdir. Bununla yanaşı, Azərbaycan çox mürəkkəb bir geostrateji məkanda yerləşir. Bu mürəkkəblik rəsmi Bakını vadar edir ki, çox yüksək səviyyədə düşünülmüş, balanslaşdırılmış siyasət həyata keçirərək Azərbaycanı regionda aparıcı dövlətlərdən birinə çevirsin. Artıq Azərbaycan regionda bir neçə il əvvəllə müqayisədə daha da güclənib".

3. Ermənistan NATO ilə hər hansı bir yaxınlaşma haqqında fikirləşmir. Son dövrdə Türkiyə ilə yaxınlaşmaq cəhdləri bunun

əksini söyləməyə əsas versə də, məsələ hazırda söylənildiyi kimidir.

Gürcüstanın NATO-ya üzv olmasına təşkilat üzvlərinin heç də hamısı birmənalı yanaşmırlar. Məsələn, ABŞ-dan fərqli olaraq Almaniya və Fransa Gürcüstanın NATO-ya üzv olmasının əleyhinədirlər. Bir məsələyə də toxunmaq lazımdır ki, adları çəkilən iki dövlət Rusiyanın Qərbi Avropaya dair enerji siyasətinə loyal yanaşma tərzləri ilə fərqlənən dövlətlərdir. Lakin ABŞ hökuməti Almaniya və Fransanın bu mövqelərinin dəyişdirilməsi üçün cəhdlər göstərməkdədir.

Burada əsas məsələ NATO-nun Cənubi Qafqaza gələcəyi halda regionda yaranacaq yeni qüvvələr balansının Rusiyanın əleyhinə olmasıdır. Bu proses Avropanın çoxdankı strategiyası olan Rusiya ətrafında sanitar kardonu yaratmaq planının reallaşması deməkdir.

Yaranmış şəraitdə Azərbaycan Respublikası müasir geostrateji rəqabətin mərkəzinə çevrilmişdir. Əsrlər astanasında ümumilikdə Xəzər regionu və həmçinin Azərbaycan ətrafında formalaşmış geostrateji reallıqlar NATO və Azərbaycan arasında qarşılıqlı maraqların yaranmasına səbəb olmuşdur.

Hələ 1993-cü ilin fevralında NATO-nun Brüsseldə keçirilən konfransının iştirakçılarına Azərbaycanın daxilində baş verən proseslər, Dağlıq Qarabağ problemi ilə əlaqədar məlumatlar paylanmışdır. O dövrdə Azərbaycanın beynəlxalq təşkilatlarla, xüsusilə NATO ilə sıx əlaqələr yaratmağa ehtiyacı vardı. Öz növbəsində NATO-nun Azərbaycana marağı 1993-cü ildə NATO-nun bütün Cənubi Qafqazda nüfuz dairəsinin genişlənməsi barədə istəyini bildirdikdən sonra daha da artmışdır. Gələcəkdə bu, Xəzər regionuna yayılacaq. NATO-nun Cənubi Qafqaz regionuna dair münasibəti ilk dəfə 10-11 yanvar 1993-cü ildə Brüsseldə keçirilən konfransda elan edilmişdir. Birgə bəyannamənin birinci bəndində hazırki vəziyyətdən narahatlıq, mövcud problemlərin güc tətbiq etməklə həlli yolları qeyd edilirdi. Sənəddə ATƏT üzvlərinin BMT və ATƏT-in

rəhbərliyi altında yaranmış problemlərin həllinə dəvət öz əksini tapmışdır.

Ümumiyyətlə açıq şəkildə anti-Azərbaycan siyasəti yürüdən erməni-rus siyasəti və hərbi-strateji əməkdaşlıq Azərbaycanı Türkiyə ilə hərbi-texniki əməkdaşlığı, 1994-cü ilin yanvarında Brüsseldə qəbul edilmiş "Sülh Naminə Tərəfdaşlıq" proqramına əsasən alyansla əlaqələri möhkəmləndirməyə məcbur etmişdir. Bu məsələdə Azərbaycan və NATO-nun geosiyasi maraqları tamamilə üst-üstə düşürdü ki, bu da proqram çərçivəsində hərtərəfli və məhsuldar əməkdaşlıq üçün əsas yaradırdı.

Azərbaycan və NATO arasında sıx əlaqələr onunla müəyyən olunurdu ki, "Sülh Naminə Tərəfdaşlıq" proqramma qoşulmaqla o, bu proqram tərəfindən nəzərdə tutulan kollektiv təhlükəsizlik sisteminə daxil olmuşdur. NATO çərçivəsində əməkdaşlıq sayəsində Azərbaycan bütün Qafqaz-Xəzər regionunda strateji balans və təhlükəsizliyin təmin edilməsinə, beynəlxalq hüquq normaları çərçivəsində mübahisəli məsələlərin həllinə nail olmağa çalışır. Azərbaycan NATO-nun nüfuzundan istifadə etməklə regionda öz mövqeyini gücləndirməyə və Dağlıq Qarabağ probleminin həllinə nail olmağa çalışır.

"Sülh Naminə Tərəfdaşlıq" proqramının əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan kollektiv təhlükəsizlik sisteminə daxil olan ABŞ və Qərbi Avropa ölkələri ilə əməkdaşlıq üçün müəyyən imkan əldə etmişdir. Bu, Azərbaycana NATO-nun hərbi strukturları ilə əməkdaşlıq etməyə, birgə təlim və manevrlər etməyə, hərbi quruculuqda onların təcrübəsindən istifadə etməyə, milli kadrların yetişdirilməsinə imkan vermişdir.

Ümumilikdə Azərbaycan və NATO-nun qarşılıqlı münasibətləri respublikanm dövlətlərlə əməkdaşlığa cəhdlə, demokratik prinsiplərə sadiqliklə, istənilən ölkənin ərazi bütövlüyünə hörmətlə xarakterizə olunan xarici siyasi strategiyasının əsas faktorlarından biridir.

Bütün bunlar Azərbaycanın "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmasmda mühüm rol oynayır. Digər tərəfdən

bu o deməkolardı ki, Azərbaycan demokratik və suveren respublikadır və o, yalnız özü daxili və xarici siyasətini müəyyənləşdirir. Nəhayət, ölkənin bu addımı onun dünya arenasında mövqeyinin möhkəmləndirilməsi deməkdir, baxmayaraq ki, proqramda iştirak ona təhlükəsizliyin təmin olunmasına tam təminat vermir. O qədər də az əhəmiyyətə malik olmayan faktı da vurğulamaq lazımdır ki, Azərbaycanla NATO arasında sıx əlaqələr yalnız Azərbaycana sərf etmir, həm də Şimali Atlantika üçün də sərfəlidir. Bu, onunla əlaqəlidir ki, Azərbaycan öz əlverişli geostrateji mövqeyi ilə Qafqaz-Xəzər regionunda stabilliyin təmin edilməsində platsdarm rolunu oynaya bilər.

Bu faktoru da nəzərə almaq lazımdır ki, Avropa və Asiyanın kəsişməsində, Xəzər dənizinin qərb sahilində 700 km məsafədə yerləşən unikal geosiyasi əraziyə malik Azərbaycan bu regionda dayaq kimi Şimalla Cənub, Şərqlə Qərb arasında ən mühüm rol oynayır. Məlumdur ki, Qafqaz bütövlükdə Avropa geosiyasi xəritəsinə daxildir və bu qitənin bir hissəsi hesab olunur. Az əhəmiyyətə malik olmayan digər faktor odur ki, Qafqazın üç dövləti arasında Azərbaycan yeganə dövlətdir ki, burada heç bir xarici dövlətin hərbi bazası və ya hərbi qüvvələri yoxdur. Bu da öz növbəsində Azərbaycanın NATO ilə münasibətlərində stimullaşdırıcı rol oynayır. Azərbaycanla Şimali Atlantika arasında münasibətlərdə əlavə impuls odur ki, respublika yalnız coğrafi mövqeyi, siyasi təsiri ilə deyil, həm də enerji resursları və nəqliyyat imkanlarına görə Xəzər regionunun mühüm mərkəzi hesab olunur.

Öz növbəsində NATO-nun Azərbaycana olan marağının oyanmasına səbəb olan əsas şərtlərdən biri ölkənin müstəqil və suveren siyasət yürütməsi, suverenliyin möhkəmləndirilməsində prinsipial mövqe nümayiş etdirməsidir.

İri qərb dövlətləri ilə neft müqaviləsi imzaladıqdan, ilk növbədə 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"ndən sonra Azərbaycanın müasir beynəlxalq münasibətlərin qlobal və siyasi strategiyasının müəyyən edilməsində rolu eynidir,

investorların ölkəyə marağı artmış, onun beynəlxalq münasibətlərdə rolu artmışdır.

NATO ilə hüquqi münasibətlər Azərbaycanın silahlı qüvvələri üçün bu beynəlxalq təşkilata daxil olan ölkələrdə hazırlıq görmək, Azərbaycan hərbi qüvvələrinin NATO tərəfindən həyata keçirilən hərbi əməliyyatlarda, məsələn, Kosovo, Əfqanıstan və İraqda iştirakı, milli ordu quruculuğunda iştiraka imkan verir.

NATO-nun beynəlxalq münasibətlərdə rolunu və dünya siyasətində yeni tendensiyaları nəzərə alaraq, ümummilli lider Heydər Əliyev öz dövründə NATO proqramı çərçivəsində iştirak haqqına prinsipial qərar qəbul etmişdir. Öz maraqlarından çıxış edərək Azərbaycan Respublikası 4 may 1994-cü ildə "Sülh Naminə Tərəfdaşlıq" proqrammda çərçivə müqaviləsi imzalamışdır. NATO rəhbəri ilə danışıqlar zamanı alyansla ölkə arasında siyasi və hərbi münasibətlərin üsul və metodları, Qafqaz Xəzər regionunda baş verən münaqişələrin həlli yolları müzakirə edilmişdir. Danışıqların gedişində NATO-nun regionda sülh və təhlükəsizliyin təmin edilməsində öhdəlikləri də müzakirə edilmişdir. NATO rəhbərliyi ilə danışıqlarda o nəticəyə gəlinmişdir ki, "Sülh Naminə Tərəfdaşlıq" porqramının regionda baş verən konfliktlərin aradan qaldırılmasında, regionda sülh və təhlükəsizliyin təmin edilməsində, postsovet məkanında meydana gəlmiş ölkələrin suverenliyinin möhkəmləndirilməsində, "soyuq müharibə" ideologiyasından azad edilmiş yeni dünya nizamının formalaşmasında mühüm əhəmiyyətə malik olması bir daha vurğulanmışdır. NATO katibinin müavini Azərbaycan Respublikasının dünyanın siyasi proseslərində iştirakım yüksək qiymətləndirərək bəyan etmişdir ki, çərçivə müqaviləsinin imzalanması bütün Qafqazda sülhün təmin edilməsində mühüm rol oynayır. 1994-cü ildə Brüssel sessiyasında qəbul olunmuş və əsas məqsədi "bütün Avropada" stabilliyin möhkəmləndirilməsi olan "Sülh Naminə Tərəfdaşlıq" proqramında irimiqyaslı təşəbbüs öz əksini tapır. Sonradan bu

əməkdaşlığa qoşularaq müqaviləni imzalamış Şimali Atlantika Müqaviləsi Təşkilatının üzvləri və digər dövlətlər bildirirlər ki, onlar demokratik dəyərlərin, ərazi bütövlüyünün saxlanılması, dövlətlərin siyasi müstəqilliyi, sərhədlərin toxunulmazlığı prinsipinə sadiq olduqlarını vurğulamışlar.

Bu, öz növbəsində "Sülh Naminə Tərəfdaşlıq" proqramında iştirak edən dövlətlər üçün kodeksdir. Onlar beynəlxalq münasibətlərin elə mühüm və kardinal məsələlərinə aiddir ki, onlara milli müdafiə və büdcənin hazırlanmasında transəməkdaşlıq, müdafiə qüvvələri üzərində demokratik nəzarəti təmin etmək, NATO ilə əməkdaşlığa əsaslanan hərbi sahədə əməkdaşlığın həyata keçirilməsi və s. aiddir.

Öz növbəsində NATO-nun sənəd imzalayan üzv dövlətləri digər dövlətlərlə birlikdə öz üzərlərinə Şimali Atlantika qüvvələri ilə birgə təlimlərdə, hərbi əməliyyatlarda iştirakı, planlaşdırma, hərbi hazırlıq, doktrinanm hazırlanması və öyrənilməsi də daxil olmaqla NATO ilə hərbi və siyasi koordinasiyanı öz üzərinə götürmüşdür.

"Sülh Naminə Tərəfdaşlıq" proqramının rəhbəri tərəfindən həyata keçirilməsi məqsədilə hazırlanmış əməkdaşlıq mexanizmi üzv-ölkələrin hərbçilərinin NATO-nun mənzilqərargahında yerləşdirilməsi üçün xidməti yerləşdirilməsini nəzərdə tutur. Hazırda Azərbaycan Respublikasının bir neçə ali hərbiçiləri daimi olaraq Brüsseldə xidmət göstərir. Əməkdaşlığın koordinasiyası qrupu və "Sülh Naminə Tərəfdaşlıq" proqramının hərbisiyasi rəhbər komitəsi Monsedə yerləşir.

Ümumilikdə "Sülh Naminə Tərəfdaşlıq" proqramı gənc demokratik ölkələrə onların silahlı qüvvələrinin təşkili və onlar üzərində demokratik nəzarətin təmin edilməsində, bu sahədə büdcənin hazırlanması və tətbiq edilməsində şəffaflıq, Şimali Atlantika bloku ilə əməkdaşlıq, bu sahədə kollektiv planlaşdırılmanm daha dərindən başa düşülməsi, hərbi doktrinanm yeni formasımn öyrənilməsi, ekoloji nəzarət, kasıblığın aradan qaldırılmasma kömək etmək üçün təşkil

edilmişdir. O, NATO çərçivəsində elə bir sxem təşkil edir ki, hətta ayrıca müttəfiqlər böhranm idarə edilməsi, sülhməramlı tədbirlər və s. məsələlərdə qarşılıqlı şəkildə fəaliyyət göstərə bilər. Beləliklə, "Sülh Naminə Tərəfdaşlıq" proqramı XX-XXI əsrlərin qovuşuğunda Avropa təhlükəsizliyinin ümumi alətinə çevrilə bilər. Bu proqramın əhəmiyyəti və onun mexanizminin həyata keçirilməsinin mühümlüyü 1999-cu ildə Vaşinqtonda qəbul edilmiş NATO-nun yeni konsepsiyası barədə sənədin qəbulu ilə bir daha təsdiq olunmuşdur.

Azərbaycanın "Sülh Naminə Tərəfdaşlıq" proqramında iştirakı qarşıya qoyulan məqsədlərə nail olmağa imkan verir. Regionda hərbi qarşıdurmanı nəzərə alaraq, Azərbaycan NATO ilə əməkdaşlığa böyük ümid bəsləyir. Azərbaycanın "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulması ilə NATO-nun üzv-dövlətləri ilə əlaqələri daha da yaxmlaşacaq.

NATO-nun bəyannaməsində qeyd edilirdi ki, NATO-nun üzvü olan dövlət başçıları Cənubi Qafqazdakı vəziyyətlə bağlı narahatlıqlarını bildirmiş və ərazi işğalına qarşı güc tətbiq edilməsinin vacib olduğunu vurğulamışlar. "Əməkdaşlığa dəvət" adlandırılan sənəddə xüsusilə qeyd edilmişdir ki, NATO bu sənədə üzv qəbul edilmiş istənilən dövlətlə həmin dövlətin ərazi bütövlüyünə birbaşa hədə hesab etdiyi halda, məsləhətləşmələr aparmağa hazırdır. Bu məsələ Azərbaycan üçün xüsusi əhəmiyyətə malikdir.

Görkəmli siyasi xadim Heydər Əliyev NATO ilə əməkdaşlıq məsələsinə münasibətini bu sözlərlə ifadə etmişdir: "Azərbaycan Respublikası Şimali Atlantika Təşkilatına böyük hörmətlə yanaşır, onun son illərdə sülhün təmin edilməsilə bağlı fəaliyyətini yüksək qiymətləndirir. Biz NATO-ya gənc Azərbaycana qərb dövlətləri ilə hərtərəfli münasibətlər qurulmasında və Qərbin zəngin təcrübəsindən yararlanmaqda ona kömək etməyə qadir təşkilat kimi baxırıq.

Sonra o, ümid bəslədiyini bildirmişdir ki, Azərbaycan "Sülh Naminə Tərəfdaşlıq" proqramında iştirakı ilə Dağlıq Qarabağ

probleminin sülh yolu ilə, ədalətli həllinə, işğal edilmiş ərazilərin azad edilməsinə, o ərazilərin bərpasına nail olacaq. NATO-nun üzv-dövlətləri sərhəd məsələlərinin silah tətbiqi yolu ilə həllini yolverilməz hesab edir. Sənəddə nəzərdə tutulmuş bu hallar ona ümid etməyə əsas verir ki, NATO-nun üzv dövlətləri Qafqaz regionunda baş verən hadisələrin tənzimlənməsində lazımi addımları atacaq.

Ümummilli lider Heydər Əliyev bu proqramda iştirakın mühüm olduğunu nəzərə alaraq demişdir: "Biz Azərbaycanda bu sənədi təfsilatlı öyrəndik, orada Azərbaycan üçün maraqlı, cəlbedici məqamları aşkara çıxardıq".

NATO ilə əlaqələrin dərinləşməsində mühüm rol oynayan məqam Azərbaycan Respublikası ilə Avropa dövlətləri arasında əlaqələrin inkişafında mühüm rol oynamış və 22 aprel 1996-cı ildə Azərbaycanla Avropa İttifaqı arasında Əməkdaşlıq və Tərəfdaşlıq haqqında müqavilənin imzalanması olmuşdur. Növbəti gün, 23 aprel 1996-cı ildə Brüsseldə NATO-nun qərargahında təntənəli şəkildə Azərbaycan Respublikasının NATO ilə əməkdaşlıq etmək niyyətində olması barədə sənəd H.Solanaya təqdim edilmişdir. Bu sənədin təntənəli şəkildə təqdim edilməsi Azərbaycana əlavə üstünlüklər verdi. Azərbaycanın məsələlərin həllində və qərarların qəbul edilməsində müstəqil olduğunu göstərən formul "NATO+1" adlanır. Azərbaycan bu yolla kollektiv müdafiə ittifaqına üzv qəbul olmaq imkanı əldə etdi, NATO-nun digər üzv dövlətləri ilə sülhyaratma və humanitar əməliyyatları həyata keçirmək imkanı verdi.

1997-ci ilin əvvəlində NATO baş katibi H.Solananın Bakıya səfəri zamanı Azərbaycanın hərbi qüvvələrinin dünya standartlarına uyğun səviyyədə inkişaf etdirilməsi mövzusunda danışıqlar aparılmışdır. NATO-nun Baş katibi, həmçinin, Madriddə keçirilməsi nəzərdə tutulan sammitə qədər Cənubi Qafqaz ölkələri ilə münasibətlərin genişləndirilməsinin mümkünlüyünü, region ölkələrinin Rusiyaya münasibəti məsələlərini müzakirə etmişdir. O, belə bir fikir səsləndirmişdir ki, NATO bu təşkilata

üzv olmayan və ya başqa təşkilatların üzvü olan dövəltərlə əməkdaşlıq prinsipinə üstünlük verir. Şimali Atlantik bloku İttifaqı NATO və Varşava Müqaviləsi Təşkilatının üzvlərinin ümumi təhlükəsizlik üzrə müəyyən məsələlərin müzakirə edilə biləcəyi forumunu nəzərdə tutur. NATO-nun baş katibi bir faktı xüsusilə vurğulamışdır ki, özünün 3 il mövcudluğu müddətində "Sülh Naminə Tərəfdaşlıq" proqramı Avropa tarixində hərbi əməkdaşlıq sahəsində ən müvəffəqiyyətli vasitə olmuşdur.

NATO-nun Xəzər regionuna geostrateji imperativ kompleksindən yanaşdıqda xüsusi əhəmiyyətə malik məsələ regionun ən iri dövləti olan Rusiyanın bu məsələyə münasibətidir. NATO-nun regionda baş verən münaqişələrin həllinə müdaxiləsi və regionda genişlənməsi cəhdi Rusiyanın əks reaksiyasını doğura bilər. Rusiyanın bəzi dairələri müxtəlif yollarla NATO ilə Qafqaz arasında *münasibətlərə mane olmağa çalışır. Bu prosesdə* Qazaxıstan və Türkmənistandan istifadə etməyə cəhd göstərilir.

Digər tərəfdən Cənubi Qafqaz ölkələri olan Azərbaycan və Gürcüstanın Rusiyanın bu mövqeyini *dəstəkləməməsi onların* qərb dəyərlərinə sadiq olduqlarını göstərir. Digər tərəfdən isə Rusiya Federasiyası özü 1994-cü ildə Çərçivə proqramına qoşulmuşdur.

Amma heç də az əhəmiyyətə malik olmayan digər faktoru da nəzərə almaq lazımdır ki, Rusiya ilə NATO arasında münasibətlər qlobal dəyişikliklər baş verdikdə dəyişə bilər. Ona görə də Azərbaycan Rusiya ilə regionun digər dövlətləri arasında münasibətlərin dinamikasını diqqətlə öyrənir və öz xarici siyasətini buna müvafiq qurur.

Onu da qeyd etmək vacibdir ki, Cənubi Qafqaz dövlətlərinin NATO-ya münasibətləri həmişə üst-üstə düşmür. Azərbaycan və Gürcüstan NATO-nu dəstəklədiyi halda, Ermənistan ona xüsusi maraq göstərmir, Rusiya ilə hərbi-siyasi əməkdaşlığa üstünlük verir, NATO-nun Şərqə genişlənməsinə qarşı çıxır.

Eyni zamanda NATO Ermənistandan fərqli olaraq heç bir hərbi bazanın yerləşmədiyi Azərbaycana xüsusi diqqət yetirir.

Çətin ki, regionda baş verən hazırki hadisələr fonunda Azərbaycan bu quruma üzv seçilə bilsin. Çox güman ki, bu, regionda baş verəcək hadisələrin gələcək dinamikasından asılı olacaq.

Məlumdur ki, İran və Rusiya Azərbaycanın NATO-ya daxil olmasına qarşıdırlar. Qafqaz-Xəzər regionunu Rusiya özünün nüfuz dairəsi hesab edir. Digər tərəfdən Rusiyanın regionda yürütdüyü siyasət NATO, ABŞ və Qərb dövlətlərinin narazılığına səbəb olur.

Öz növbəsində Rusiya ABŞ-ın regionda genişlənməsinə qarşı çıxır və bu işdə İrandan istifadə etməyə çalışır. Bu da təsadüfi deyil, belə ki, İran NATO-nun Şərqə genişlənməsinə qarşı çıxan Rusiyanın müttəfiqidir. Rusiyanın Xarici İşlər naziri bəyanat vermişdir ki, əgər Azərbaycan və Gürcüstan NATO ilə əməkdaşlığı genişləndirsə, Rusiya onların bu bloka daxil olmalarına imkan verməyəcək.

Amma müasir geostrateji reallıqlar Rusiyanı Qafqaz ölkələrinə qarşı daha konstruktiv olmağa, öz siyasətində korrektələr etməyə vadar edir. Bu yanaşma Rusiya prezidenti Putinin 9-10 yanvar 2001-ci ildə Azərbaycana səfəri zamanı bir daha öz təsdiqini tapmışdır. İmzalanmış sənədlər və birgə bəyanatlar arasında ən çox səslənən fikir Xəzərin statusunun müəyyən edilməsidir. İki dövlət arasında strateji sahədə əməkdaşlığa cəhd Rusiya prezidenti V.Putinin 2003-cü ildə Azərbaycana səfəri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyaya səfəri ilə bir daha təsdiq olunmuşdur. Bütün bunlar öz əksini Prezident İlham Əliyevin Rusiyaya səfəri zamanı imzalanmış sənədlərdə tapmışdır.

Yuxarıda göstərilənlərə yekun olaraq qeyd etmək lazımdır ki, Qafqaz-Xəzər regionu geostrateji cəhətdən dünyanın ən mühüm regionlarındandır. NATO-nun bu regiona olan marağı onunla şərtlənir ki, məhz bu regionda dünyanın super dövlətlərinin maraqları kəsişir, burada sosial, siyasi, iqtisadi, etnik, milli qarşıdurmaların yumağı yerləşir.

NATO və onun lideri olan ABŞ-ın Xəzər regionunda geosiyasi maraqları bu regiondan neft-qaz ehtiyatlarının daşınması üçün Şərq-Qərb nəqliyyat dəhlizinin yaradılması və bu işdə hər hansı bir region ölkəsinin liderliyi ələ keçirməsinə imkan verməməkdir.

XX-XXI əsrlərin qovuşuğunda həm Qafqaz, həm də Azərbaycanda yaranmış geosiyasi vəziyyət Azərbaycanla NATO arasında münasibətlərin yaranmasına və genişlənməsinə səbəb olmuşdur ki, bu da öz əksini Azərbaycanın "Sülh Naminə Tərəfdaşlıq" proqramına daxil olmasına gətirib çıxarmışdır. Bu strateji vəziyyət Azərbaycana digər dövlətlərin maraqlarına xələl gətirmədən bütün Xəzər-Qafqaz regionunda strateji balans və təhlükəsizlik sisteminin yaranmasına, NATO-nun nüfuzundan istifadə etməklə regionda sülh və təhlükəsizliyin təmin edilməsinə kömək edəcək.

## ƏDƏBİYYAT:


1. Аббасбейли А. Политика России на Кавказе на пороге XXI века. Б. 1999.
2. Аббасбейли А., Гасанов А. Азербайджан в системе международных организаций. Б. 1999.
3. Аббасбейли А.Н., Дарабади П.Г. Азербайджан и Каспий в системе современных геополитических отношениях // БГУ-80: Материалы научных конференций. Б. 2000.
4. Азербайджан на международной арене. Б. 1996.
5. Бжезинский З. Великая шахматная доска. М. 1998.
6. Дарабади П.Г. Каспийский регион: геополитическое прошлое, настоящее и будущее // Возрождение-XXI век 2000.
7. Дугин А. Основы геополитики. М. 1997.
8. Справочник НАТО. Брюссель. 2001.
9. Sokolsky R. Charlick Paley, NATO and Caspian Security/ A missiona to Far.- W., 1999

## 7.5. Xəzər hövzəsi ölkələrinin hərbi-siyasi təhlükəsizlik problemləri

Müasir şəraitdə dünyada baş verən köklü dəyişikliklər "Avroasiya Balkanı" adlandırılan Xəzər hövzəsinin əhəmiyyətini kifayət qədər yüksəltmişdir. XXI əsrdə geniş karbohidrogen ehtiyatlarına malik olan bu region geostrateji cəhətdən mühüm mərkəzə və iri dövlətlərin rəqabət mərkəzinə çevriləcək.

Son dövrlərdə Xəzər hövzəsinə xüsusi marağın artmasına səbəb orada zəngin karbohidrogen ehtiyatlarının olmasından daha çox bu regionun geostrateji cəhətdən əlverişli olması ilə əlaqədardır. Geosiyasi vəziyyətin qaçılmaz nəticəsi olan və regionda durmadan artan gərginlik geosiyasi rəqabətə səbəb olur.

Regionda hərbi-siyasi təhlükəsizlikdən danışarkən ilk növbədə regionda geosiyasi vəziyyətə nəzər salmaq lazımdır, bu da göstərilən cəhətlərlə xarakterizə olunur: a) Rusiya Federasiyasının iqtisadi, siyasi və hərbi sahədə rolunun zəifləməsi, b) iri dövlətlərin artmaqda olan iştirakı və onlar arasında rəqabətin güclənməsi.

Bu qarşıdurmanın başlanğıcı kimi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə 12 dövlətin neft şirkətləri arasında Xəzər dənizinin Azərbaycana məxsus sektorunda neft yataqlarının birgə hasilatı və işlənməsinə dair 20 sentyabr 1994-cü ildə Əsrin Müqaviləsinin imzalanmasını götürmək olar. Rusiya Azərbaycan və İngiltərəyə yazılı nota, ABŞ-a şifahi nota və BMT Təhlükəsizlik Şurasına 5 məktub göndərərək narazılığını bildirərək qeyd etmişdir: "Xəzər dənizinin ehtiyatlarının işlənməsi sahəsində birtərəfli müqavilənin imzalanması düzgün deyil və Rusiya vəziyyətin nizama salınması üçün əlindən gələni edəcək". Qeyd edək ki, bu yolda Rusiya Federasiyası Azərbaycanın qarşısında dayanmışdır. Hələ

müqavilənin imzalanmasına qədər 21 iyul 1994-cü ildə Rusiya Federasiyasının keçmiş prezidenti Yeltsin 396 nömrəli "Xəzər dənizində Rusiya Federasiyasının maraqlarımn təmin edilməsi" barədə gizli sənəd imzalamışdır. Burada Rusiya Federasiyasının bütün orqanlarına Azərbaycana qarşı faktiki iqtisadi və siyasi blokadanın yaradılması əmri verilmişdir.

Azərbaycan Respublilkasına qarşı belə qeyri-düzgün davranışlar sonra da davam etmişdir. Amma reallıq öz sözünü dedi və Moskvada Azərbaycan Respublikası ilə normal, mehriban qonşuluq münasibətləri quruldu.

Bu fonda iki qütb arasında çəkişmə baş verdi. Məlum olduğu kimi, Xəzəryanı dövlətlər arasında qarşıdurma başlanğıc mərhələdə iki qütb yaratmışdı, bir tərəfdən Türkmənistan və İran, digər tərəfdən isə Azərbaycan və Qazaxıstan.

Amma "üçlüyün" monolitliyi "ikiliyin" monolitliyini üstələyirdi. Rusiya, İran və Türkmənistan dəfələrlə nümayiş etmişlər ki, özlərinə əlverişli olan təqdirdə onlar bir-biri ilə əməkdaşlıqdan boyun qaçıra bilərlər. Belə ki, 1995-ci ilin dekabr ayında İranın Neft naziri Qulam Rza Ağazadə bəyanat vermişdir: "İran Xəzərin neft-qaz yataqlarının işlənməsi məsələsində siyasi deyil, iqtisadi maraqlarından çıxış edəcək".

İlk olaraq bu ittifaqdan Azəbaycan və Qazaxıstanla möhkəm ittifaq yaradan Rusiya çıxdı. Yaranmış vəziyyətdə parodoksal hal ondan ibarət idi ki, Rusiya özü Qərb ölkələrini onu Xəzər regionundan uzaqlaşdırmağa vadar edirdi. Rusiyanın yürütdüyü siyasət ona gətirdi ki, regionda nüfuz dairəsi uğrunda yarışmanın internasionallaşması baş verdi. Rusiya bu regionda praqmatik siyasət yürüdə bilmədi. Düşünülməmiş addımlar atmaqla o, özü regionda öz mövqeyini zəiflətdi.

Xəzərin coğrafi mövqeyi, rus Şimali Qafqazının, Qazaxıstan, Türkmənistan və İranın yaxınlığı, müxtəlif resursların kifayət qədər ehtiyatı, eyni zamanda ABŞ tərəfindən Xəzər hövzəsinin "Həyati vacib zona" elan edilməsi Rusiyanın bu regionda maraqlarına təhlükəni artırdı. Rusiyaya siyasi, iqtisadi, infor-

masiya xarakterli psixoloji təzyiq artmış, bu ölkənin beynəlxalq konfliktlərə gizli şəkildə cəlb edilməsi prosesi başlamışdır.

Qeyd edək ki, Xəzər regionu Rusiyanın milli təhlükəsizliyinə təsir göstərən bir sıra xüsusiyyətlərə malikdir:

a) Şimali Qafqazda yaşayan xalqların spesifik milli xüsusiyyətləri;

b) etnik və dini problemlərin baş qaldırması riski;

c) daxili silahlı münaqişələrin baş verməsi üçün uzunmüddətli əsas;

ç) Qərbin Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrində nüfuzunu gücləndirmək cəhdi.

Qeyd etmək lazımdır ki, Rusiyanın Qafqaz-Xəzər regionu ilə paralel olaraq, Qafqaz-Qara dəniz regionunda da problemləri mövcuddur. Ukraynanm müstəqillik əldə etməsi Rusiyanın Qara dənizdəki mövqeyinə sarsıdıcı zərbə vurdu. Ukraynanın itirilməsi Rusiyanın geosiyasi seçiminin azalmasında mühüm rol oynadı. Mövcud şəraitdə Ukraynanın NATO ilə apardığı birgə təlimlər və Türkiyənin Qara dənizdə mövqeyinin güclənməsi Rusiyanı narahat etməyə bilməz.

Buradan Şimali Qafqazın Rusiyanm Cənubi Qafqaz və Xəzərdə maraqlarınm forpostu kimi rolu güclənir. Müəyyən şəraitdə bu region dünya iqtisadiyyatı və dövlətlərarası münasibətlərə mühüm təsir göstərə bilər. Rusiyanın cənub sərhədləri ölkənin təhlükəsizliyində mühüm rol oynayır. Bütün bu region strateji cəhətdən mühüm qovşaq rolunu oynayır, belə ki, burada məskunlaşmış xalqlar böyük sosial dinamikaya, qədim geosiyasi ənənələrə malikdir. Onlar özü birbaşa sərhəd zonalarına nəzarət edən Türkiyə ilə həmsərhəddir. Qafqaza nəzarət ilk növbədə isti dənizlərə çıxış imkanı verir və hər bir keçid, hətta sərhədlərdən şimala və ya cənuba əhəmiyyətsiz keçid bütün kontinental gücün qazanılması və ya itirilməsi deməkdir. Qafqazda öz mövqeyini möhkəmləndirməklə Rusiya Mərkəzi Asiyada iştirak üçün əlavə təminatlar alacaq. Rusiyam narahat edən əsas məsələ ABŞ-ın bu regiona daxil olmaq istəyidir.

Amma geostrateji reallıqlar Rusiyam Xəzəryam ölkələrə münasibətdə daha çevik geosiyasi xətt yürütməyə, bu istiqamətdə geostrateji korrektələr etməyə vadar edir. Bu, öz əksini Rusiya Federasiyasının Prezidenti Putininin 2001-ci ildə Azərbaycana səfəri zamanı tapmışdır. İki dövlət başçısı arasında imzalanmış sənədlər arasmda Xəzərin statusunun müəyyən edilməsi üzrə Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında birgə bəyannamə mühüm rol oynayır.

Zənnimizcə Rusiya Xəzər hövzəsi ölkələrinə münasibətdə həmin ölkələrin milli xüsusiyyətlərini, tarix və ənənələrini nəzərə almalı, Xəzər hövzəsinin yeni müstəqillik əldə etmiş ölkələrinə münasibətdə diferensiallaşma xətti yürütməli, hər bir dövlətə qarşı açıq, dəqiq siyasət yürütməli idi.

Rusiya ilə paralel olaraq ABŞ da burada öz nüfuz dairəsini genişləndirir və Mərkəzi Asiyada da yaxşı mövqeyə malikdir. Bjezinski qeyd edir ki, "Tarixdə ilk dəfə olaraq qeyri-Avropa dövləti Avropada nəinki hakim rolunu oynayır, eyni zamanda o, dünyanın super dövlətinə çevrilir".

ABŞ Xəzərdə mühüm nəqliyyat və enerji layihələri (TRASEKA layihəsi, Bakı-Tbilisi-Ceyhan) üzərində himayədarlıq edir, Avropanm mərkəzi hissəsinin "Balkanlaşdırılması"na cəhd göstərir. Bjezinskinin "Avroasiya Balkanı" layihəsi ABŞ-ın xarici siyasətində aparıcı istiqamətdir və burada əsas məqsəd Avropada təşəbbüsü ələ almaq, Rusiyanm burada möhkəmlənməsinə imkan verməmək və burada yerləşən dövlətləri daima təsir altında saxlamaqdır.

Aydındır ki, ABŞ Xəzər-Qara dəniz regionunda kifayət qədər güclü oyunçudur. Hələ 2001-ci ilin yanvar ayında Davosda keçirilən Ümumdünya İqtisadi Forumunda Amerika tərəfindən bir daha Xəzər regionunun onların həyati vacib maraqlar regionu olduğu və Fars körfəzinə alternativ neft mənbəyi olduğu vurğulandı.

Perspektivdə ABŞ-ın inkişafı 20 il ərzində neftə olan tələbatın 33%, qaza olan tələbatm isə yarıdan çox faiz nisbətində artacağı güman edilir.

Buş administrasiyası şərq-qərb nəqliyyat dəhlizi variantını dəstəkləməyə, dünyada öz maraqlarını həyata keçirməyə, bu sahədə öz məqsədlərinə nail olmaq üçüm hərbi potensialı artırmağa davam etməkdədir.

Ağ Evin fikrincə ABŞ həyati cəhətdən mühüm olan strateji zonalarda, o cümlədən, Qafqaz-Xəzər regionunda baş verən yerli konfliktlərə biganə yanaşa bilməz. Bu regionda ABŞ siyasətinin əsas məqsədləri region dövlətlərinin suverenliyi və müstəqilliyini möhkəmləndirmək, onları Rusiyadan uzaqlaşdırmaq, Cənubi Qafqaz ölkələrinin Avropaya inteqrasiyası prosesini sürətləndirməkdir.

ABŞ-ın marağı ilk növbədə Vaşinqtonun ölkəni enerji resursları ilə təmin etmək cəhdindən irəli gəlir. Burada əsas diqqət enerji mənbələrinin diversifikasiyasına, neft və qazın regiondan daşınması istiqamətinin genişləndirilməsinə yönəlmişdir. Bunu nəzərə alan ABŞ Şərqdən Qərbə gedən layihələri Rusiya və İranın rolunu minimallaşdırmaqla maliyyələşdirir.

ABŞ üçün bu regionda siyasi mövqe iqtisadi mövqeyə nisbətən daha böyük əhəmiyyətə malikdir. Xəzər regionu üç geosiyasi rəqiblərin ABŞ və Avropa, Rusiya, Çin və İranın maraqlarınm kəsişdiyi regiondur. Bu regionda nəzarəti ələ keçirmək onun dünyada hegemonluq etməsi niyyətinin həyata keçirilməsində mühüm rol oynayacaq. Bunun üçün Xəzərin karbohidrogen resursları üzərində nəzarəti həyata keçirmək, bu resurslarm onun özünə rəqib saydığı ölkələrin əlinə keçməsinə imkan verməmək ABŞ-ın qarşısında duran birinci dərəcəli vəzifədir. Bunun üçün ABŞ özündən və Türkiyədən asılı olan və ərazilərindən qərb nəqliyyat dəhlizinin keçəcəyi müstəqil dövlətlər yaratmalıdır.

ABŞ-ın regiona daxil olması üsulları müxtəlifdir. Bura aşağıdakılar daxildir:

- enerji layihələrinin reallaşdırılmasına yardım və Şərq Qərb enerji dəhlizinin formalaşdırılması;
- maliyyə yardımının göstərilməsi;
- təhlükəsizliyin təmin edilməsi məsələsində əməkdaşlıq;
- Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri ilə hərbi əməkdaşlığı genişləndirmək.

ABŞ bu regionda öz kapitalını yerləşdirib və iri neft-qaz layihələrinə əsasən genişləndirməyə davam etməklə sonradan bu kapitaldan regionda daha da möhkəmlənmək məqsədilə istifadə etməyə cəhd göstərir. Bir həqiqəti də nəzərə almaq lazımdır ki, İraqda keçirilən hərbi əməliyyatlarla əlaqədar olaraq, Xəzər ABŞ üçün hələ ki, ehtiyat karbohidrogen ehtiyatı olmaqda qalır və təxminən 2015-ci ildən sonra bu region ABŞ üçün iqtisadi cəhətdən cəlbedici ola bilər və neft hasilatı gündə 3-4 milyon barrelə çata bilər.

Beləliklə də ABŞ Xəzər regionunda neft hasilatından çox onun üzərində nəzarətə daha maraqlıdır. Qarşıdakı son bir neçə il ərzində regionda ABŞ-ın rolunun artmasını gözləmək olar.

Rusiya üçün İran İslam Respublikası ilə münasibətlər xüsusi əhəmiyyətə malikdir, belə ki, bu iki dövlətin iqtisadi, siyasi cəhətdən bir çox sahələrdə maraqları üst-üstə düşür. Siyasi nöqteyi-nəzərdən hər iki dövlət yaxın yerləşdikləri üçün bir-birindən asılılığı tarazlaşdırmağa, burada ABŞ-m mövqeyinin möhkəmlənməsinin qarşısını almağa, özlərini iqtisadi cəhətdən təmin etməyə çalışırlar, həm də İran Rusiyadan silah, hava və dəniz gəmiləri, təyyarə, raket, tank alır.

Bununla yanaşı Rusiya nüvə sahəsində də İranla əməkdaşlıq edir, İranı nüvə xammalı ilə təmin edir. Digər tərəfdən İran fars körfəzində zəngin neft-qaz yataqlarına malikdir ki, bu da Rusiyanı təmin edir.

Hazırda İran qaz ehtiyatına görə dünyada üçüncü, neft ehtiyatına görə isə ön sıralardan birini tutur. İran və Rusiya Qərbin, ilk növbədə ABŞ-ın rəqibləridir. İran və Rusiya arasında idarəçilik formasında, dini etiqadlarda və hətta Rusiyanm

yumşaq formada İrana qarşı sanksiya tətbiq edilməsində iştirakına baxmayaraq bu dövlətlər arasında uzun müddət müttəfiqlik münasibətləri mövcud olmuşdur.

İranın bu regionda hər hansı bir münaqişə baş verəcəyi təqdirdə öz quru və dəniz sərhədlərinin təhlükəsizliyini qorumağa ehtiyacı var, belə ki, bu regionda yerləşən hər hansı dövlətdə baş verəcək iri dəyişikliklər bu və ya digər səviyyədə ölkənin təhlükəsizliyinə toxuna bilər. İran nəzərə almalıdır ki, o, çoxmillətli, bir çox problemlərə malik bir dövlətdir.

Hər zaman islam dünyasına sadiq olduğu barədə bəyanatlar verməsinə baxmayaraq, İran Ermənistanla yaxın münasibətlər qurur, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemindən öz məqsədləri üçün, ilk növbədə Türkiyənin burada genişlənməsinin qarşısını alınmaqda istifadə etməyə cəhd göstərir. İrana görə separatizmin potensialı kimi həm Cənubi Qafqaz, həm də Mərkəzi Asiya çıxış edə bilər və onun stimullaşdırıcısı həm Türkiyə, həm də ABŞ və digər qərb dövlətləri ola bilər. Xəzər regionu İrana həm iqtisadi-bazar maraqlarının, həm də milli təhlükəsizliyin təmin edilməsi baxımından vacibdir.

Türkiyənin mövqeyinə gəldikdə isə, zəngin təbii sərvətlərə malik türkdilli dövlətlərin meydana gəlməsi Türkiyəyə bu regionda irəliləmək üçün əlavə imkanlar verir. Buna görə də təəccüblü deyil ki, Türkiyə lap əvvəldə yeni yaranmış türk dövlətlərini dəstəkləmiş, onları mərkəzi Ankara olan vahid türk bayrağı altında birləşdirməyə çalışır.

Artıq 1980-ci illərin sonlarından etibarən Türkiyə Rusiyanın tərkibindən çıxmış bir sıra türkdilli dövlətlərlə tez bir zamanda mədəni, siyasi, iqtisadi əlaqələr yaratmışdır. Həmin vaxt yeni yaranmış və iqtisadi cəhətdən hələ çox zəif olan bu dövlətlər türk iqtisadi modeli hesabına öz iqtisadiyyatlarının möcüzəli şəkildə dirçələcəyinə ümid bəsləyirdilər.

Bir neçə müddətdən sonra Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda bir neçə müstəqil dövlət yarandıqdan sonra

Qərb Türkiyənin yeni rolunu bu cür müəyyənləşdirdi: "Türkiyə yeni yaranmış dövlətlərə yardım etməklə demokratiyanın təminatçısına çevrilməyə cəhd göstərir. O, Qərb, Balkan və Yaxın Şərq arasında körpü rolunu oynayır. Qərbin həyati vacib təhlükəsizliyinin təmin edilməsində mühüm dayaq rolunu oynayır. Müxtəlif münaqişələrin baş verdiyi regionda Türkiyə ilə əməkdaşlıq Avropa üçün heç vaxt olmadığı qədər mühüm əhəmiyyət kəsb edir".

Xəzər hövzəsinə maraq həm də onunla izah olunur ki, üç Xəzəryanı dövlət: Azərbaycan, Qazaxıstan və Türkmənistan türkdilli dövlətlərdir.

SSRİ-nin süqutundan sonra 200 ildən artıq bir müddət-də Rusiya-İran iqtisadi və siyasi maraq zonası olan Xəzər hövzəsi indi beş dövlətin – Rusiya, İran, Azərbaycan, Qazaxıstan və Türkmənistanın maraq dairəsidir.

Postsovet məkanında, Xəzər hövzəsində meydana gələn gənc, suveren və müstəqil dövlətlər Xəzərin təbii ehtiyatlarına öz iddialarını irəli sürdülər ki, bu da Xəzərin statusu məsələsinin keyfiyyətcə yeni səviyyəyə qalxmasına gətirib çıxarmışdır.

## ƏDƏBİYYAT:

1. Алиев И. Касиийская иефть Азербайджана. М., 2003.
2. Бжезинский З. Великая шахматиая доска. М.,1998.
3. Дипломатический вестиик. М., 2001.
4. Чернявской С.И. Иовый путь Азербайджана. М.,2002.

## 7.6. Müasir dövrdə Azərbaycan-Rusiya münasibətləri

Azərbaycan-Rusiya münasibətləri çoxəsrlik tarixə malikdir. Bu da təsadüfi deyil. Çünki biz qonşuyuq, qonşuları isə seçmirlər. Taleyin hökmü ilə biz, iki xalq uzun illər boyu eyni dövlətdə – əvvəlcə Rus imperiyasmda, sonra isə Sovet imperiyasmda yaşamışıq. Nəhayət, SSRİ-nin dağılması və totalitar rejimin süqutu nəticəsində ölkələrimiz müstəqilliyə nail oldu, xalqlarımız azadlığa qovuşdu.

18 oktyabr 1991-ci ildə ölkəmizin ali qanunvericilik orqanı Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Bununla ölkəmiz 28 aprel 1920-ci ildə bolşevik Rusiyasının Azərbaycana hərbi müdaxiləsi nəticəsində itirdiyi milli müstəqilliyini bərpa etdi. Azərbaycan Respublikasınn suverenliyini və müstəqilliyini tanıyan ilk ölkələrdən biri Rusiya Federasiyası – yeni, azad və demokratik Rusiya oldu.

4 aprel 1992-ci ildə Rusiya Azərbaycanla diplomatik münasibətlər yaratdı. Hazırda Azərbaycanın dövlət müstəqilliyi dünyanm 160 dövləti tərəfindən tanınmışdır. 50-dən artıq ölkə, o cümlədən, ABŞ, Türkiyə, Böyük Britaniya, Fransa, Rusiya, Çin, Almaniya, Misir, Pakistan kimi iri dövlətlər Azərbaycan Respublikası ilə səfirlik səviyyəsində diplomatik münasibətlər qurmuşdur.

Azərbaycan Respublikası artıq aparıcı beynəlxalq təşkilatların tamhüquqlu üzvüdür. Azərbaycan dövlət bayrağı Nyu-Yorkda, BMT-nin binası qarşısında dalğalanmaqdadır. Dünyanın böyük dövlətlərinin paytaxtlarmda – Vaşinqtonda, Moskvada, Londonda, Parisdə, Pekində müstəqil Azərbaycanın səfirlikləri fəaliyyət göstərir. Dövlətimiz BMT-dən başqa bir sıra digər nüfuzlu beynəlxalq təşkilatların – ATƏT-in, İKT-nin, Avropa Şurasınm, MDB-nin, YUNESKO-nun, QİƏT-in, GUAM – ın tamhüquqlu üzvüdür.

1993-cü ilin ortalarından etibarən Azərbaycan Respublikasının xarici siyasət xəttinin prinsipləri – ölkədə və dünyada sülh, bütün ölkələrlə bərabərhüquqlu əməkdaşlıq, hərbi bloklarda iştirak etməmək, başqa ölkələrin daxili işlərinə qarışmamaq, dövlətlərin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri dəqiq cizgilər kəsb etməyə başladı. Azərbaycan xalqının ümmilli lideri, zamanın dahi siyasi xadimi Heydər Əlirza oğlu Əliyevin 1993-ci ildə hakimiyyətə qayıdışı ilə bu prinsiplər xarici siyasətimizdə tam bərqərar oldu. Əbədi və böyük qonşumuz Rusiya Federasiyası ilə münasibətlərimiz yüksələn xətlə inkişaf etməyə başladı. Ötən illər ərzində suveren dövlətlərimiz demokratik cəmiyyət quruculuğu yolunda mürəkkəb, bəzi hallarda dramatik dövrlər yaşamalı oldu. Həm Rusiyanın, həm də Azərbaycanın gələcəyi normal qarşılıqlı münasibətlərdən, şimal, cənub, qərb və şərq qonşularla sıx əməkdaşlıqdan asılıdır. Təbiidir ki, Rusiya üçün sərhədlərindən min kilometrlərlə uzaqda tərəfdaş axtarmaqdansa, tarixi qonşuları ilə xeyirxah münasibətlər qurmaq yaxşıdır. Çünki Rusiyanın da sülhə və beynəlxalq təhlükəsizliyə ehtiyacı çoxdur. Qonşu ilə qonşuluq etmək lazımdır. Rusiya dünyaya yüzlərlə dahi, şair, yazıçı, alim, sərkərdə bəxş etmişdir.

Azərbaycan xalqının M.F.Axundov, A.Bakıxanov, Ə.M.Topçubaşov kimi görkəmli xadimləri Rusiya ictimai fikri ilə sıx əlaqədə olmuşlar. Rus silahına böyük şöhrət qazandıran "artilleriyanın allahı" Ə.Şıxlinski, generallardan S.Mehmandarov, C.Şıxlinski, D.İlisulu, B.Ərəblinski, F.Ağayev, H.Ağalarov, İ.Usubov, H.Naxçıvanski, Həzi Aslanov, general-polkovnik T.Ağahüseynov, vitse-admiral A.Aslanbəyov, vitse-admiral H.Qasımbəyov və başqaları rus və sovet ordusunda xidmət edən azərbaycanlılar idi və onlar orduya şöhrət gətirən insanlardır.

Şərqdə ilk respublika olan ADR-in yaradıcılarından bir çoxu Moskva, Sankt-Peterburq, Rostov və başqa şəhərlərdə ali təhsil almışdılar.

Rusiyanm görkəmli alimlərindən V.İ.Razumovski, N.A.Dubrovski, İ.V.Kurçatov, A.S.Şepotyev, S.N.Usatıy, K.V.Pokrovski, S.A.Kovalevski və başqaları Azərbaycanda ali təhsil sisteminin yaradılmasında mühüm rol oynamışlar. Azərbaycanda ilk ali məktəbin – Bakı Dövlət Universitetinin ilk rektoru V.İ.Razumovski, Azərbaycan Neft Akademiyasının ilk rektoru N.A.Dubrovski olmuşdular. Akademik İ.V.Kurçatov böyük elmə gedən yolu Azərbaycandan başlamışdı.

Öz növbəsində Rusiya Federasiyasmda elmin və təhsilin inkişafına Azərbaycanın ali məktəblərini bitirmiş yüzlərlə məzunumuz böyük təsir göstərmişdi. Bunlardan Nobel mükafatı laureatı akademik L.D.Landau, akademiklərdən Z.Ə.Əliyeva, X.İ.Əmirxanov, V.E.Xain, A.S.Leybenzon, R.Mirqasımov, D.Kərimov, professorlardan A.V.Tixomirov, N.M.Tişenko, T.X.Marqolova, A.Y.Hacıqasımov, E.M.Mövsümzadə, R.A.Ləmbəranski və başqalarının adları Rusiyada hörmətlə çəkilir. Rusiyanın iqtisadi və hərbi qüdrətinin yüksəlişində Sosialist Əməyi qəhrəmanı, Dövlət Mükafatı Laureatı, RFEA-nın müxbir üzvü F.Salmanovun Sosialist Əməyi Qəhrəmam, Dövlət Mükafatı Laureatı N.K.Baybakovun, Sosialist Əməyi qəhrəmanı, general-leytenant A.Kərimovun, üç dəfə Dövlət Mükafatı Laureatı E.İ.Tağıyevin, Dövlət Mükafatı Laureatı S.A.Orucovun, M.A.Evsenkovun, Y.V.Zaytsevin, T.F.Rüstəmbəyovun xidmətləri böyük olmuşdur. Onlar müxtəlif dövrlərdə RF xalq təsərrüfatının müxtəlif sahələrinə rəhbərlik etmişlər.

Hazırda Azərbaycan alimlərinin böyük bir qrupu RF-nın Moskva, Sankt-Peterburq, Samara, Smolenski, Tümen, Kazan, Ufa və başqa şəhərlərindəki ali məktəblərdə şərəflə fəaliyyət göstərir və öz zəhmətləri ilə suveren Rusiyanın çiçəklənməsinə yardım göstərirlər. Vaxtilə Rusiyanın ali məktəblərində ali təhsil almış Azərbaycan alimlərinin böyük bir qrupu suveren respublikamızın ali məktəblərinə, fakültə, kafedra və elmi-tədqiqat laboratoriyalarına başçılıq edirlər. Azərbaycandan bir qrup

tələbələr Moskvada, Sankt-Peterburqda, Kazanda, İrkutskda və s. keçmiş Sovet İttifaqının aparıcı ali məktəblərində təhsil almışlar. Bunlardan akademik Əli Abbasov, AR Prezidentinin İcra Aparatının şöbə müdirləri, professorlar – F.Abdullazadə, Ə.Həsənov, Azərbaycan Dövlət Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanov, akademiklər Cəlal Allahverdiyev, Fikrət Əliyev, Mirabbas Qasımov və başqalarını göstərmək olar. Vaxtilə Moskva, Sankt-Peterburq, Kiyev, Novosibirsk, Minsk, İrkutsk, Yekaterinburq, Odessa və s. şəhərlərdə yerləşən tanınmış ali məktəbləri bitirmiş çoxsaylı məzunların bir qrupu elmi yaradıcılıq işlərini uğurla davam etdirmiş və hazırda BDU-nun müxtəlif ixtisaslar üzrə tanınmış alimləridir.

Bunlardan, Bakı Dövlət Universitetinin rektoru, akademik A.M.Məhərrəmov, habelə, professorlardan: A.Abbasbəyli, A.Ağamalıyev, R.Xəlilov, F.Sadıxov, V.Əfəndiyev, İ.Əliyev, A.İbrahimov, V.İsmayılov, A.Hacıyev, İ.Nəcəfov, Q.Quliyev və başqaları Azərbaycanda elmi və ali təhsilin inkişafında mühüm rol oynayırlar.

Qeyd etmək lazımdır ki, məhz 1970-80-ci illərdə ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə minlərlə azərbaycanlı gənc Sovet İttifaqının aparıcı ali məktəblərində təhsil almış, həmin illərdə ittifaqın ali təhsil ocaqlarını 20000 nəfərə yaxın məzun bitirmişdi ki, hazırda onlardan bir çoxu müstəqil Azərbaycanın elm və təhsil sahəsindəki başlıca mərkəzlərinə rəhbərlik edirlər.

Əlbəttə, Rusiyanın Cənubi Qafqazda geosiyasi maraqları var və bu da təbiidir. Amma bu maraqların reallaşdırılmasına sivilizasiyalı formada, regionun digər dövlətlərinin maraqlarını nəzərə almaqla yanaşmaq lazımdır. Rusiya MDB-nin bir üzvünün – Ermənistanın ərazisində hərbi bazalar saxlayır və bu hərbi güc MDB-nin digər üzvünə – Azərbaycana qarşı yönəlmişdir. Bununla əlaqədar sual yaranır: Ermənistanı kim hədələyir? Əlbəttə, heç kim. Şübhəsiz, regionda qüvvələr balansını qoruyub saxlamaq, Cənubi Qafqazda hərbi bazalar

yaratmaqdan imtina etmək Rusiyanın, bütövlükdə MDB-nin xeyrinə olar, amma bu qarşılıqlı münasibətlərdə etimad abhavası yaradardı. Belə bir şəraitdə hər hansı mübahisəni yaxud münaqişəni tənzimləmək asan olardı.

Beynəlxalq təhlükəsizlik müasir dünyanm ciddi problemlərindəndir. Bu məsələnin həlli eyni zamanda ayrı-ayrı dövlətlərin milli təhlükəsizliyinin təmin edilməsindən asılıdır. Hazırda beynəlxalq təhlükəsizliyin taleyi həm regional münaqişələrdən və qarşıdurmalardan, həm də iri miqyaslı, dövlətlərarası münaqişələrdən asılıdır. Belə hadisələrin hər biri beynəlxalq miqyasda münaqişəyə, gərginliyə səbəb ola bilər, istər Ərəb-İsrail, istərsə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişələri nə qədər ki öz siyasi həllini tapmayıb, dünyanı gərgin vəziyyətdə saxlamaqda davam edəcəkdir.

Beynəlxalq təhlükəsizliyin qorunub saxlanması məsələlərində birtərəfli yanaşma olmamalıdır. Keçmişin təcrübəsi göstərir ki, potensial təcavüzkara hüsn-rəğbət özünü doğrultmur və problemin həllinə gətirib çıxarmır. Bu mənada Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi üzrə ATƏT-in Minsk konfransının üç həmsədrindən – ABŞ, Rusiya və Fransadan konkret, real kömək tələb olunur.

Məlumdur ki, istər Şimali Qafqaz hadisələrinin, istərsə də keçmiş Yuqoslaviyada baş verən proseslərin qızğın çağında Rusiya rəhbərliyi Rusiyanın və Yuqoslaviyanm ərazi bütövlüyünün müzakirə mövzusu ola bilməyəcəyini birmənalı şəkildə bəyan edirdi. Əlbəttə, biz də hər hansı dövlətin ərazi bütövlüyünə tərəfdarıq. Çünki dövlət içərisində dövlət ola bilməz. Amma bu prinsip bütün dövlətlərə şamil edilməlidir. Nə qədər qəribə olsa da, dünya ictimaiyyətinin gözü qarşısında, yumşaq desək, Rusiyanm razılığı ilə Azərbaycanm ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığını təsbit edən ATƏT-in "Helsinki Yekun Aktı"na imza atmış dövlətlər arasında Rusiya və Ermənistan da var. Ermənistan təcavüzkar dövlətdir və bu təcavüzkarlıq beynəlxalq təşkilatların sənədlərində qeyd olun-

muşdur. Bu dövlət işğalçı siyasət yeritməkdə davam edir. Bəs bu siyasətə, dolayısı ilə olsa da, dəstək verən Rusiya kimi böyük və qonşu dövlətin mövqeyini necə başa düşməli?

Bəşəriyyət XXI əsrin əvvəllərini yaşayır. Belə bir tarixi dönəmdə böyük dövlətçilik ambisiyalarını bir kənara qoyub dünyanın reallıqlarını ayıq başla qiymətləndirmək Rusiyanın və rusiyalıların xeyrinədir. Bununla növbəti əsrdə Rusiya daha çox qazanar, beynəlxalq aləmdə ləyaqətli yer tutar. Tarixin dərslərindən ibrət götürərək vaxtilə rus imperiyasının müstəmləkəsi olmuş, indi isə müstəqillik qazanmış ölkələrə hərtərəfli kömək göstərmək Rusiya üçün məqsədəuyğun olardı. Bununla Rusiya bu ölkələrin xalqları qarşısında əvvəlki hərəkətlərinə görə bəraət qazanar, onların dirçəlişinə şərait yaradardı. Belə bir şəraitdə keçmiş müstəmləkə xalqları Rusiyaya daha da yaxınlaşıb ona etibar edərdi. Müasir tarixdə bununla bağlı konkret faktlar var: Fransa ilə onun Afrika və Asiyadakı keçmiş müstəmləkələri arasında münasibətlər, Böyük Britaniya ilə onun çoxsaylı müstəmləkələrinin qarşılıqlı əlaqələri və s. bütün bu keçmiş imperiyalar və müstəmləkələr, indiki suveren ölkələr sülh və anlaşma şəraitində yaşayır, bir-birinin inkişafına kömək edir. Rusiyanın və onun qonşularının qarşılıqlı zənginləşməsi, sıx əməkdaşlığı və inkişafı üçün hər cür şərait var.

Burada da təşəbbüs Rusiyanın əlindədir. O, keçmiş sovet məkanında yaranmış müstəqil dövlətlər üçün çox şey edə bilər. Bu hər iki tərəfin xeyrinə olar. Rusiyanı indiki suveren dövlətlərlə uzun illər boyu bir-birinə bağlamış iqtisadi tellərə nəzər salmaq kifayətdir. Bu telləri bərpa etməklə Rusiya əvvəlki qüdrətini bərpa edər, əmtəə dövriyyəsindən böyük məbləğdə gəlir əldə edər, yüzlərlə zavod və fabriki işə salıb milyonlarla rusiyalını işlə təmin edə bilər.

Ötən dövrlərdə Azərbaycanla Rusiya arasında sıx iqtisadi ticarət əlaqələri olmuşdur. Biz indi də Rusiyadan maşın və avadanlıqlar, kənd təsərrüfatı məhsulları alıb əvəzinə beynəlxalq standartlara uyğun neft yağları, neft avadanlığı, dəzgahlar,

şərab məhsulları, meyvə, pambıq və s. sata bilərik. Lakin Rusiyanın əvvəlki rəhbərliyi tərəfindən Azərbaycana münasibətdə atılmış bir sıra qeyri-konstruktiv addımlar əlaqələrimizin inkişafının ləngiməsinə səbəb olmuşdur. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri zamanı çoxsaylı sənədlər imzalanmışdır. Xalqlarımız bu hadisəni iki dövlət arasında əlaqələrin möhkəmləndirilməsinin əlaməti kimi sevinclə qarşılamışlar. Təəssüf ki, xeyirxah niyyətlərin çoxu elə niyyət olaraq qalır.

Sual olunur: Ermənistan Respublikası Rusiyanın köməyi ilə kimə qarşı silahlanır? Kim onun suverenliyini pozmaq istəyir? Rusiyanın Ermənistanla hərbi ittifaq yaratmasını, bir neçə il bundan öncə qeyri-qanuni yolla bir milyard dollar məbləğində müasir silah verməsini necə başa düşməli? Rusiyanın təşəbbüsü ilə bu məsələni araşdırmaq üçün üçtərəfli hökumətlərarası komissiya yaradılmışdı. Bəs nəticə? Rusiya sadəcə olaraq bu birgə qərara məhəl qoymadı. Bundan sonra qarşılıqlı etimad haqqında nə demək olar? Bir müddət də keçdi. Rusiya ATƏT-in İstanbul sammiti (noyabr 2000-ci il) zamanı əldə olunmuş razılaşmaya uyğun olaraq Gürcüstandakı hərbi bazalarını ləğv etməli oldu və bu ölkədən çıxardığı hərbi texnikanın bir hissəsini Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirməyə başladı. Doğurdanmı Rusiyada başa düşmürlər ki, bütün bunlar Rusiya-Azərbaycan münasibətlərinin yaxşılaşdırılmasına kömək etmir?

Qarşılıqlı əlaqələrimizə kölgə salan bu cür misallar çoxdur. Amma geriyə yox, irəliyə baxmaq, əsas diqqəti bizi birləşdirən cəhətlərə yönəltmək lazımdır. Ümumiyyətlə, Azərbaycan Rusiya ilə münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldırmaq üçün hər şey edir.

Eyni zamanda qeyd etmək lazımdır ki, Rusiya Federasiyası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında həlledici rol oynaya bilər. Rusiya bu münaqişəni həll etməklə həm qonşularında özünə qarşı inam yara-

dar, həm də digər beynəlxalq münaqişələrin tənzimlənməsində əhəmiyyətli rol oynaya bilər. Çünki Rusiya Bosniya və Kosovo münaqişələrinin həllində iştirak edib, son vaxtlar yarıməsrlik tarixə malik Fələstin-İsrail münaqişəsinin nizama salınmasında Rusiyanın rolu daha da fəallaşıb. Elə isə Ermənistan-Azərbaycan münaqişəsində Rusiyanın qərəzsiz və ədalətli hakim olmasına maneçilik törədən nədir? Azərbaycan gec-tez öz torpağını geri qaytaracaq, çünki indi XVIII yaxud XIX əsr yox, XXI əsrdir. Amma istərdik ki, bu məsələ qan tökməklə yox, dinc vasitələrlə yoluna qoyulsun. Biz öz ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının bərpası istiqamətində Rusiyanın səylərini tamamilə dəstəkləyirik. Elə isə başqa dövlətlərə münasibətdə Rusiya niyə belə səylər göstərmir? Nə mane olur? Aydındır ki, hər bir dövlət öz siyasi maraqlarına uyğun siyasət yeridir. Biz belə bir siyasətin əleyhinə deyilik, sadəcə olaraq Rusiyadan öz cənub qonşularına bərabər münasibət gözləyirik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etməklə Rusiya Azərbaycan, Gürcüstan və Ermənistanla birlikdə ümumi Qafqaz bazarı təşkil edilə bilər və bazara gələcəkdə Türkiyə, İran, Mərkəzi Asiya ölkələri də qoşula bilər. Bu hamı üçün, ilk növbədə də Rusiya üçün faydalı olar.

Hazırda Azərbaycan-Rusiya əlaqələrini daha da genişləndirib inkişaf etdirmək üçün hər cür imkan vardır. Belə ki, son dövrlərdə Prezident İlham Əliyevin Rusiyaya, Rusiya Prezidenti D.A.Medvedyevin Azərbaycana səfərləri zamanı imzalanmış çoxsaylı sənədlər Azərbaycan-Rusiya münasibətlərinin nikbin perspektivlərini proqnozlaşdırmağa imkan verir.

## ƏDƏBİYYAT:

1. Azərbaycan-Rusiya münasibətlərində yeni mərhələ. B., 2001
2. Mehdiyev R. "Azərbaycan: qloballaşma dövrünün tələbləri". B., 2004.
3. Алиев И. Каспийская нефть Азербайджана. М., 2003.
4. "Азербайджан-Россия: новая веха в развитии отношений дружбы и сотрудничества". Б., 1997.
5. "Азербайджан-Россия: новые взаимоотношения, новые горизонты". Б., 2002.
6. Документы, подписанные в ходе официального визита президента РФ В.В.Путина в Азербайджан 9-10 января 2001 года, №2.
7. Мещеряков В. Россия-Азербайджан: новый уровень партнерства. "Содружество НГ". М., 2001, №2

## 7.7. Humanitar sahələrdə Azərbaycan-Rusiya əməkdaşlığı

Azərbaycan-Rusiya münasibətləri arasında mühüm əhəmiyyətə malik olan məqam qədim tarixə malik mədəni qarşılıqlı əlaqələrdir.

Azərbaycan Respublikasının müstəqillik əldə etməsinə qədər rus-Azərbaycan humanitar əlaqələri sistemli xarakter daşımırdı. Amma 90-ci illərin ikinci yarısmdan etibarən Azərbaycan Respublikası ilə Rusiya arasında humanitar sahədə intensiv əlaqələr müşahidə olunmaqdadır. Buna humanitar əməkdaşlığın fundamentini qoyan hökumətlərarası müqavilələrin imzalanması kömək etmişdir.

5 noyabr 1999-cu ildə "2002-2003-cü tədris ili, elm və mədəniyyət sahəsində Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında uzunmüddətli əməkdaşlıq proqramı" imzalanmışdır. Bu sənəddə iki dövlət arasında bu sahədə əməkdaşlığın davam etdirilməsi nəzərdə tutulmuşdur. 6 iyul 1995-ci ildə elm və mədəniyyət sahəsində əməkdaşlıq barədə razılıq, 3 iyul 1997-ci ildə bu sahədə informasiya-mədəni mərkəzlərin fəaliyyəti eləcə də təhsil şərtləri barədə razılaşmanın əsasında hazırlanmışdır. Nəzərdə tutulan tədbirlərin reallıqda həyata keçirilməsi üçün Azərbaycan Respublikası və Rusiya Federasiyası "Uzunmüddətli Əməkdaşlıq Proqramı" təsis etmişdir ki, burada da mədəniyyət, təhsil, elm sahəsində əməkdaşlığa dair konkret tədbir və müddət nəzərdə tutulurdu.

Bu razılaşmaya Azərbaycan Respublikasınm prezidenti İlham Əliyevin 2008-ci ilin yanvar tarixli Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialınm təsis edilməsi haqqında əmr tam uyğun gəlir.

16 oktyabr 2000-ci ildə Moskvada informasiya sahəsində əməkdaşlıq haqqında müqavilə imzalanmışdır və o, kütləvi informasiya orqanlarınm qarşılıqlı münasibətlərini beynəlxalq normalara uyğun şəkildə tənzimlənməsini nəzərdə tutur.

Mühüm əhəmiyyətə malik digər razılaşma 5 oktyabr 1999-cu ildə Bakıda imzalanmış təqaüdçülərin hüquqlarının təmin edilməsi haqqında razılaşmadır. Bu sənəddə Azərbaycan və Rusiyada yaşayan təqaüdçülərin statusu reqlamentləşdirilir, onlarm sosial hüquqlarının təmin edilməsinə təminat verilir.

2001-ci ildə kütləvi informasiya vasitələri müxbirlərinin statusunu reqlamentləşdirən hökumətlərarası razılıq imzalanmışdır. Yeni yüzillikdə humanitar sahədə əməkdaşlıq iki dövlət arasmda etimad, dövlətlərarası münasibətlərin möhkəmlənməsində mühüm faktor olaraq qalır.

Azərbaycanda 22 aprel 2002-ci ildə keçirilən Rusiya Federasiyasının Mədəniyyət günləri gedişində iki dövlətin mədəniyyət nazirlikləri arasında 2002-2003-cü illərdə əməkdaşlıq haqqında protokol imzalanmışdır.

Azərbaycan-Rusiya mədəni əlaqələrində mühüm hadisə 2003-cü ilin sentyabrında Bakıda keçirilən rus mətbuatının V Ümumdünya Konqresinin keçirilməsi olmuşdur.

Azərbaycan humanitar sahədə Rusiyanın ayrıca iri əyalətləri ilə də əməkdaşlıq edir. Buna misal olaraq 2000-ci ilin may ayında Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyasınm Sverdlovsk Əyalətinin rəhbərliyi arasında ticari-iqtisadi, mədəni və elmi sahədə əməkdaşlıq haqqında protokolu göstərmək olar.

2003-2004-cü illər strukturların təşkili, fəaliyyətlərin həyata keçirilməsi və Azərbaycan diasporunun birgə təşkilatlarının Rusiyada Ümumrus Azərbaycan Konqresi ətrafında birləşməsi illəri kimi xarakterizə olunur. Üummilli lider Heydər Əliyev və Vladimir Putinin təşəbbüsü ilə təsis edilmiş Ümumrusiya Azərbaycan Konqresi hazırda 73 regional bölməni və Rusiyanın 67 bölgəsində təsis edilmiş ictimai təşkilatları birləşdirir.

Konqresin fəaliyyətinin mühüm istiqamətləri kimi rus-Azərbaycan humanitar, ticari-iqtisadi əlaqələrinin və Azərbaycanla Rusiya arasında münasibətlərin inkişafı mühüm rol oynayır. Konqres iqtisadi münasibətlərin yeni formalarının

inkişafına kömək göstərmişdir: Rusiya Federasiyası regionlarında Azərbaycan əmtəə və xidmətləri bazarının formalaşdırılması və inkişafı; iki ölkə ticarətçiləri arasında əməkdaşlığın sıx şəkildə inkişafına kömək göstərmişdir.

Ümumrus Azərbaycan Konqres yarandığı ilk zamanlardan etibarən Rusiyada yaşayan Azərbaycan vətəndaşlarının mədəniyyət, milli mənsubiyyət və tarixi yaddaşınm qorunub saxlanmasında mühüm rol oynamışdır.

2004-cü ilin fevral ayında Rusiya və Azərbaycan arasında "Moskva Bəyannaməsi" imzalanmışdır ki, burada iki dövlət arasında münasibətlərin əsas istiqamətləri əks olunmuşdur. Həmçinin iki ölkə arasında 2004-2006-cı illərdə humanitar sahədə əməkdaşlıq barədə də razılıq əldə edilmişdir.

Rusiya-Azərbaycan münasibətlərində yadda qalan məqamlardan biri də 2005-ci ildə Rusiyada Azərbaycan ilinin keçirilməsi olmuşdur. Azərbaycan ilinin keçirilməsində əsas məqsəd iki dövlət arasında strateji əməkdaşlığın möhkəmləndirilməsinə kömək, siyasi münasibətlərin dərinləşdirilməsi, iqtisadiyyat, elm, təhsil, mədəniyyət sahəsində ikitərəfli əlaqələrin genişləndirilınəsi və s.-dir.

Bu gün rus dili Azərbaycanda aktiv şəkildə işlənən dillərdən biridir. Rus dilində qəzetlər, jurnallar çap edilir, tədris vəsaitləri buraxılır.

Tədrisin rus dilində aparıldığı çoxlu sayda orta və ali təhsil müəssisələri mövcuddur. Azərbaycanda yaşayanların təxminən 100.000 nəfəri rus dilində təhsil alır. 19 məktəbdə təhsil yalnız rus dilində aparılır.

Azərbaycanla Rusiya arasında humanitar əlaqələr yalnız ikitərəfli deyil, MDB çərçivəsində çoxtərəfli əlaqələr əsasında da həyata keçirilir.

2005-ci ildə MDB-nin Kazanda keçirilən sammitində MDB dövlətlərinin humanitar sahədə əməkdaşlığı barədə Bəyannamə qəbul edilmişdir. Bu sənəd üzv-dövlətlər arasında humanitar sahənin bütün istiqamətlərində mədəniyyət, elm və təhsil daxil

olmaqla əlaqələrin genişlənməsində əsas baza olacaq. Qeyd edək ki, MDB ölkələrinin humanitar sahədə əməkdaşlığı kifayət qədər real cəhətlərlə xarakterizə olunur.

Humanitar sahədə mühüm vəzifələrdən biri də digər sahələrdə inteqrasiya proseslərinin stimullaşdırıcı vasitəsi kimi elm, təhsil, mədəniyyət sahəsində sonrakı inkişafa nail olmaqdır.

1997-ci ilin yanvar ayında Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya Federasiyası və Tacikistan arasında MDB-də vahid maarifləndirici zonanın yaradılması haqqında Konsepsiya imzalanmışdır.

14-15 aprel 2006-cı ildə MDB ölkələrinin elmi və yaradıcı intellegensiyasının I Forumu keçirilmişdir. Konfransda Azərbaycan, Rusiya və MDB-nin digər üzvləri humanitar əməkdaşlığm yenilənməsi məsələsini müzakirə etmişlər.

Mahiyyət etibarilə MDB-nin üzv-dövlətlərinin möhkəmlənməkdə olan iqtisadiyyat əsasında humanitar əməkdaşlğı Birliyin yenidən təşkilində mühüm istiqamətlərdən birinə çevrilmişdir. O, MDB ölkələri arasında münasibətlərin dərinləşməsinə, humanitar dəyərlər və ümumi mədəni irsin saxlanılmasına, insan potensialının və elmi tədris imkanlarının inkişafına, iqtisadi inkişafa nail olmağa imkan verir.

2006-cı ildə "Azərbaycanda Rusiya ili" elan edilmişdir. "Azərbaycanda Rusiya ili"nin açılış mərasimində iştirak edən Rusiya Federasiyasının prezidenti Vladimir Putin qeyd etmişdir ki, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında münasibətlərin pozitiv xarakteri – bütün Qafqazda geostrateji sabitliyin əsas göstəricisidir. 4 dekabr 2006-cı ildə Rusiya hökumətinin başçısı Mixail Fradkov Bakıda rəsmi səfərdə olmuşdur. O, Azərbaycanda keçirilən Rusiya ilinin bağlanış mərasimində iştirak etmişdir. Səfər əsnasında bir neçə ikitərəfli müqavilə, o cümlədən 2007-2009-cu illərdə humanitar sahədə əməkdaşlıq barədə proqram, fiziki şəxslərin poçt vasitəsilə nəğd pulların keçidi sahəsində əməkdaşlıq barədə razılıq imzalanmışdır.

2006-cı ilin fevral ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin siyasi, iqtisadi, hərbi və humanitar sahələrdə çoxplanlı əməkdaşlığın həyata keçirilməsi yolu ilə dövlətlərarası münasibətlərin yeni səviyyəyə qaldırılması niyyətində olduqlarını ifadə edən birgə bəyannamə imzalamışlar. Onlar qeyd etmişlər ki, humanitar əlaqələr dinamik və məhsuldar şəkildə inkişaf edir, hansı ki, milli-etnik, dini və digər bağlarla bir-biri ilə möhkəm şəkildə bağlı olan xalqları bir-birinə cəlb edir. Rusiya hökuməti onun ərazisində yaşayan azərbaycanlıların humanitar əhatəsini genişləndirmək üçün şəraitin yaradılmasına cəhd göstərir. Beləliklə, Rusiya Federasiyasında ilk dəfə olaraq Azərbaycan, rus və ingilis dillərində "İnter-Az" radiokompaniyası qeydiyyatdan keçmişdir və aktiv şəkildə fəaliyyət göstərir, Azərbaycan teatrı açılmışdır, paytaxtın şimalında 157 nömrəli Azərbaycan dilində orta məktəb fəaliyyət göstərir, tərkibində Rusiya elmi bazası çərçivəsində Azərbaycan üçün müasir ixtisaslı milli kadrların yetişdirilməsini nəzərdə tutan universitetin təsis edilməsi haqqında məsələ müzakirə edilmişdir.

Beləliklə, iki dövlət arasında siyasi, humanitar və iqtisadi əlaqələrin dinamik inkişafı, mal mübadiləsinin dövriyyəsinin uğurla artması, biznes struktur səviyyəsində əlaqələrin aktivləşməsi, enerji sahəsində müvəffəqiyyətli əməkdaşlıq, ikitərəfli humanitar əlaqələrin sonrakı inkişafı növbəti yüzillikdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlərin dinamik şəkildə inkişaf edəcəyinə dair bariz nümunədir. Bu daha çox müxtəlif səviyyələrdə müxtəlif məsələlər üzrə son beş ildə iki dövlət arasında qarşılıqlı münasibətlərin intensivliyi sayəsində reallığa çevrilmişdir, belə ki, onların keyfiyyəti nəticədə Azərbaycan-Rusiya münasibətlərində keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur. Son illərdə Rusiyanın yeni hökumətinin nümayiş etdirdiyi konstruktiv mövqe və Azərbaycan Respulikasının prezidenti İlham

Əliyevin yürütdüyü məqsədyönlü siyasət nəticəsində Rusiya-Azərbaycan münasibətlərində strateji tərəfdaşlıq səviyyəsində yaxşılaşma müşahidə edilmişdir.

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında humanitar əlaqələrin genişlənməsi və möhkəmlənməsi iki dövlət arasında qarşılıqlı anlaşılmada və etibarın formalaşmasında mühüm faktordur. Təhsil, elm, səhiyyə, mədəniyyət, turizm və digər humanitar sahələrdə mühüm müqavilə hüquqi bazası yaradılmışdır ki, bu da ikitərəfli münasibətlərin daha yüksək səviyyədə inkişafına kömək edir. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin formalaşmasında böyük əhəmiyyətə malik olan faktor ali səviyyədə müqavilələrin imzalanması nəticəsində demək olar ki, bütün sferaları: siyasi, iqtisadi, humanitar əhatə edən möhkəm müqavilə-hüquqi əsas yaradılır.

Bütövlükdə, müasir mərhələdə Rusiya-Azərbaycan humanitar əməkdaşlığı öz dinamikliyi və məhsuldarlığı ilə seçilir.

## ƏDƏBİYYAT:

1. Milli Məclisin sənədləri, № 2, 2001, 28 fevral; № 3, 2001, 31 mart; № 7, 2001, 31 iyul.

2. Азербайджанская диаспора в региональном измерении // Конгресс азербайджанцев/ Информационный бюллетень, 2002, № 2.

3. "Бакинский рабочий" гязети, 2005, 17 февраль, 2002, 23 апрел; 2003, 21 сентябрь, 2000, 17 май.

4. Меликли Т. Азербайджанский "Очаг" в Москве // Наследие, 2004, № 1.

# VIII FƏSİL

# AVROPA

## 8.1. Avropa geostrategiyası müasir şəraitdə

XXI əsrin əvvəllərində Avropa strategiyası hadisələrin hazırki, gələcək və uzunmüddətli inkişafına yönəldilmişdir. Müasir Avropa siyasi xəritəsini üç siyasi-coğrafi sahəyə bölmək mümkündür:

Birinci Avropanın qərb kontinental hissəsidir ki, buraya İspaniya, Portuqaliya və Fransa daxil edilir. Ora həmçinin Böyük Britaniya, İrlandiya, eləcə də Şimali Avropa ölkələri olan Danimarka, İsveç, Norveç, Finlandiya, Hollandiya, Lüksemburq, Lixtenşteyn və Belçika da aiddir. İkinci, mərkəzi Avropa ölkələridir: Avstriya, İsveçrə, Albaniya, Yunanıstan, Almaniya, İtaliya və s. Üçüncü qrupa isə Çexiya, Slovakiya, Xorvatiya, Serbiya, Bosniya bə Herseqovina, Makedoniya, Türkiyə, Bolqarıstan, Rumıniya, Macarıstan eləcə də, Rusiya Federasiyasının Avropa hissəsi, həmçinin, Polşa, Belarus, Ukrayna, Moldova, Baltikyanı ölkələr və Cənubi Qafqaz ölkələri aiddir.

Göstərilən siyasi-coğrafi və geostrateji şərtlər müəyyən dərəcədə Avropa qitəsində gərginliyə səbəb ola bilər. Onlar üçün başlıca bu amillərdir: ərazi bütövlüyü, etnik, iqtisadi, diplomatik, siyasi və hətta hərbi məsələlər. Sovet İttifaqı dağıldıqdan sonra Avropada olan əvvəlki təhlükəsizlik strukturları öz funksiyalarını itirdilər, hətta süqut etdilər. Avropanın şərqində kommunist təhlükəsi sovuşduqda NATO öz əsl funksiyasını itirməyə başladı. NATO və digər əlaqədar

Qərb dövlətləri arasındakı siyasi razılıq qərb dövlətlərinin və eləcə də, Şərqi Avropa dövlətlərinin təminatında davam edir. Eyni zamanda, mərkəzdə və şərqdə təhlükəsizlik hökm sürür. Keçmiş sosialist Yuqoslaviyasında və Qafqazda müharibə şəraitində belə NATO heç də həmişə öz tərkibində olan dövlətlərin təhlükəsizliyini təmin etmək iqtidarında deyil. Gələcək Avropa nizamının əsas məqsədi – Şərqi Avropa və eləcə də, keçmiş Sovet respublikalarını NATO-ya və ya Avropa İttifaqına daxil etməkdir. Rusiya Federasiyası və Avropa ölkələri arasındakı münasibətlərin dəyişikliyi, Polşanın, Macarıstanın və Çexiyanın NATO-ya daxil olmasından başladı.

Şərqi Avropa ölkələrinin fikrincə, NATO-ya üzv olmaq hər şeydən əvvəl Avropa İttifaqının suverenliyinin, iqtisadi və siyasi strukturlarının saxlanılmasıdır. Digər tərəfdən NATO-ya üzv olmaq sosial, iqtisadi və siyasi kimi məsələlərin həllidir. Nəhayət alyansa üzv olmaq milli müstəqilliyin və təhlükəsizliyin qarantidır. Şərqi Avropa ölkələri Sovet İttifaqının dağılmasından sonra əldə etdikləri müstəqilliyi beynəlxalq hüquq çərçivəsində Avropa arenasına çıxarmağa maraqlı idilər. Onlar üçün NATO-ya üzv qəbul olmaq məsələsi hərbi xərclərdən azad olmaq, özlərinin iqtisadi və siyasi məsələlərində etimad qazanmaq maraqlarını önə çəkirdi. Eyni zamanda, avropalılar Şimali Atlantika Alyansında, Avropa təhlükəsizlik siyasətinə yönəldilmiş ünsürləri görürlər. Bu məsələ köhnə Yuqoslaviyada da aktual mövzulardan biri olmuşdur.

NATO tək Avropanın təhlükəsizliyinə deyil, həm də Avropanın zəmanətinə xidmət edir. Özünün gələcək təhlükəsizliyini Amerikanın siyasi hərbi qüvvələrini Avropada və Avropadan kənarda saxlamaqla təmin edir. Rusiyanın keçmiş prezidenti V.Putinin fəal və davamlı addımı təkcə Rusiyanın güclənməsini ifadə etmir, hətta ölkədaxili problemlərin olmasına baxmayaraq, NATO-nun Şərqə genişlənməsinə xidmət edirdi. Mərkəzi və Şərqi Avropa ölkələrində və Baltikdə Şimali Atlantika Təşkilatına üzv olmaq cəhdləri artırdı. B.Yeltsinin

gözlənilmədən NATO-nun Şərqdə genişlənməsinə etiraz edirdi, lakin ilkin mərhələdə ABŞ-m səyi nəticəsində az sayda dövlətin, Polşa, Macarıstan və Çexiyanın NATO-ya daxil olması onu sakitləşdirirdi. Lakin, nəticə etibarilə, Rusiyanın NATO-nun Yuqoslaviyada S.Miloşeviç rejiminə qarşı əməliyyatma mane ola bilməməsi, Rusiyanın nüfuzunun nə dərəcədə zəiflədiyini göstərdi və Rusiyanm Balkanlarda nüyuzun saxlamağa çalışan Putin hökuməti üçün müəyyən çətinliklər yaratdı.

Moskva və NATO arasında isti münasibətlərin yaradılması cəhdinə baxmayaraq, alyans gələcək Rusiya mövqeyini müdafiə edən faktor rolunu oynamaqda davam edir. Buraya eləcə də Ukrayna və Gürcüstan da aid edilir. Bəzi Avropa ölkələri Almaniyanın Avropaya təsirinin qarşısını almağın yolunu alyansda görürlər. Onu da unutmaq olmaz ki, bu, NATO-nun Şərqə genişlənməsi təşəbbüsü idi.

NATO-nun genişlənməsi ABŞ-m birqütblü dünya şərtəlri altında öz uğurlarım inkişaf etdirmək cəhdi ilə əlaqədardır. Bu proses dolayı və birbaşa yolla Rusiyaya qarşı yönəldilmişdir və "anakonda" strategiyasınm davamı hesab edilir. Bu prosesin nəticəsində ABŞ "heartland"dən mümkün qədər əraziləri öz geosiyası nəzarətinə keçirmək niyyətindədir. Bütün bunlarla yanaşı NATO-nun genişlənməsi ABŞ-a Rusiya və Almaniya arasında Şərqi-Avropa dövlətlərindən ibarət və amerikan hərbi qüvvələrinin iştirak edəcəyi ehtiyat zonası yaratmaq imkanı verəcək. Eyni zamanda birləşmiş Almaniya da alyansdakı özünün mühüm yerini tutmağa çalışır. Müasir şərtlərə görə hələ Almaniya, Amerika hərbçilərinin Avropada olmamasında maraqlı deyil, AFR-in iqtisadiyyatı iki əsas Avropa ölkəsi olan Fransa və Böyük Britaniyadan asılıdır. Bundesfer artıq NATO-nun tərkibindən çıxmışdır, lakin AFR hərbi yüksəlişdə məhdudiyyətlə qarşılaşır.

Məlumdur ki, Almaniyanm keçmiş kansleri Şreder Əfqanıstanda və Kosovoda terror əleyhinə çıxışlar etmişdir. Eyni zamanda, anti-İraq kompaniyalarına qarşı Almaniya

ABŞ-dan asılı olmadığını bir daha göstərdi. Bununla əlaqədar olaraq, ABŞ xatırlaya bilər ki, bu son 100 ildə Almaniyanın 3-cü fəallığıdır. Belə nəticəyə gəlmək olar ki, AFR-in və Fransanın ABŞ-Britaniyanın İraqa qarşı olan hərbi kampaniyalarını dəstəkləməməsi alyans üzvlərinin fəaliyyətində atlantik həmrəyliyinin balanslaşdırılmamasının göstəricisi hesab olunur. Atlantizm ideyasının təzələnməsi zamanın tələbinə cavab verir. Bu hallar Sovet Şimali Atlantika əməkdaşlığı qurulmasını təmin etdi və neçə illərdir "Dünyəvi əməkdaşlıq" proqramı mövcuddur ki, bu da çox xalqların gücünü Fars körfəzi müharibəsində, köhnə Yuqoslaviya və Əfqanıstanda 2003-cü ildə NATO-nun əsas təmsilçiləri olan ABŞ və İngiltərənin rolunu, 400 min insanın İraqda hərbi hərəkatda çıxış etməsində göstərdi.

NATO-nun genişlənməsi Almaniyanın fəallığı ilə müşahidə olundu, və eləcədə NATO ilə yanaşı Şərqi Avropaya Almaniya hökmranlığında yol açdı. Şərqi Avropa dövlətləri İkinci Dünya müharibəsinin nəticəsini nəzərə alaraq Alman hərbi qüvvələrinin mövcudluğunu qəbul etmədilər. Hazırda NATO-nun təhlükəsizliyində duran bütün əsas postlar Almaniyanın iqtisadiyyatının, siyasətinin asılılığına çalışırlar. Bir zamanlar olduğu kimi AFR-in kansleri G.Şreder və Rusiya Federasiyasının Prezidenti V.Putinin 11 aprel 2003-cü ildə Sankt-Peterburqda, eləcə də AFR-in kansleri Merkelin RF Prezidenti Putinlə olan müsbət görüşlərinə arxalanaraq Almaniya yenə də Rusiyanın hesabına öz mövqeyini möhkəmləndirməyə çalışır. Moskva-Berlin görüşləri Rusiya və Almaniyanın rastlaşdığı problemləri həll edə bilər. Bu alyansda Rusiya Avropanın iştirakı ilə yüksək texniki və iqtisadi yüksəlişə çata bilər. Öz növbəsində Almaniya strateji təcrübəyə əsaslanaraq siyasi azadlıq əldə etməklə ABŞ-ın dominantlığından qurtula bilər.

AFR hazırda bütün münasibətlərdə və əsasən də, iqtisadi məsələlərdə Avropanın mərkəzində duran böyük dövlətdir və böyük siyasi geostrateji ambisiyaya malikdir. Rusiya Federa-

siyası isə əksinə, böyük geostrateji səyləri və məhdud iqtisadi və texnoloji imkanları olan dövlətdir. Moskva-Berlin oxu gələcək perspektivdə müəyyən dərəcədə hər iki tərədaşa müəyyən zaman üçün bir-birinin hesabına öz maraqlarını balanslaşdırmağa imkan verə bilər. Almaniya ilə bu strateji münasibəti nəzəri olaraq proqnozlaşdırmaq olar, lakin taktiki olaraq da mümkün ola bilər. Rusiya aparıcı Qərb dövlətləri ilə öz münasibətinin uzunmüddətli olmasına çalışır ki, bu da Rusiya Federasiyasının Xarici siyasət Konsepsiyasında öz əksini tapmışdır. Orada göstərilir ki, "Qərbi Avropa ölkələri ilə, ilk növbədə, Almaniya, İtaliya, Fransa kimi nüfuzlu qarşılıqlı münasibətlər Avropa və Rusiya iqtisadiyyatınm stabilləşməsi və yükləməsi üçün ümumdünya məsələlərində Rusiyanın milli maraqlarınm müdaifəsi üçün mühüm resurs ola bilər". Hazırki şərtlərə görə isə Rusiya Federasiyasının siyasi, iqtisadi və hərbi gücü durğunluq səviyyəsindədir. 2003-cü ilin əvvəllərində Rusiyanın Almaniyaya olan borcu 60 milyard dollar idi.

Alman iqtisadiyyatı isə uzun müddət hərbi sahəyə vəsait xərcləmədiyinə görə əlverişli şəraitdə idi. Əgər Almaniya ABŞ-ın dominantlığından imtina etsə, Avropa ilə xərcləri öz üzərinə götürməli olacaq. Lakin əgər Rusiya öz iqtisadiyyatını dirçəldərsə, yalnız o halda Moskva-Berlin münasibətlərindən söhbət gedə bilər.

"Dünyəvi tərəfdaşlıq" proqramından danışdıqda qeyd etmək lazımdır ki, 1994-cü ilin yanvarında Berlin sammitində NATO Rusiyaya alyansla münasibətdə uzunmüddətli vaxt vermişdir. Eyni zamanda çoxtərəfli inkişaf, NATO ilə ikitərəfli hərbi münasibət Rusiya ilə Qərbi Avropa dövlətləri arasında xoşagəlməz həddə çatdı. Rusiyada "Dünyəvi tərəfdaşlıq" proqramı qəbul olundu və bu da prosesin inkişafı kimi deyil, sadəcə olaraq NATO-nun genişlənməsinin bir alternativi oldu. Moskva tərəfindən irəli sürülən qısamüddətli "Dünyəvi tərəfdaşlığı"na qoşulma şövqü keçmiş sovet sisteminə daxil olan ölkələri və Şərqi Avropa ölkələrini təmin etdi.

Paris əsasnaməsinə görə Rusiya və NATO arasında yeni parametrlər meydana gəldi. Rusiya və NATO-nun ikitərəfli münasibəti Rusiyanın alyansla olan münasibətini yüngülləşdirdi. Rusiyanın NATO ilə münasibətində "Xüsusi status" əldə etməsi ona tək Avropa ölkələri ilə yaxınlıq deyil, həm də alyans üzvü kimi bir status verdi. NATO və Ukrayna arasında baş verən xüsusi əməkdaşlıq xartiyası şübhəli təsir bağışlayırdı, bu da alyansla Rusiyanın münasibətindən çox, tərəflərin qarşılıqlı münasibətinə yönəldilmişdir.

V.Putin tərəfindən səsləndirilən Rusiyanın NATO-ya üzvlüyü ideyasının məşhurluğu Rusiya avroatlantiklərinin Şimali Amerika, Avropa və Rusiyanı birləşdirən vahid ümumi identik sivilizasiya haqqında təsəvvürlərinə əsaslanırdı. B.Klinton və C.Buş administarasiyası dövründə NATO-nun genişlənməsinin tərəfdarlarından biri olan cənab Ross ən əvvəl Rusiyanm etirazını onu problemin müzakirəsinə cəlb etmək yolu ilə neytrallaşdırmağı təklif etdi. O, hesab edirdi ki, bu zaman Rusiya özü özünü alyansa üzv olmağa namizəd kimi hiss edəcək. Bunu sübut edən fakt o idi ki, genişlənmənin tərəfdarı olan bütün aktiv tərəflər alyansın işində Rusiyanın hər hansı iştirakını qarşı çıxırdılar və ya əksinə S.Tallbotti və U.Perri kimi şəxslər Rusiya ilə strateji əməkdaşlığı müdafiə edirdilər, lakin onlar azlıq təşkil edirdi. Avroatlantiklərin düşüncələri özündə NATO ilə münasibətdə avroatlantik meyilliliyini nümayiş etdirməklə nə vaxtsa bu quruma düşmə istəyini aşılayırdı.

Bununla bağlı Amerikalı politoloq D.Saymsın qeyd etdiyi kimi "NATO-nun genişləndirməsilə bağlı məsələnin ümumiyyətlə, gündəmdə qalmasına görə Rusiya hökuməti gərək özünü günahkar bilsin". Buna sübut olaraq 1993-cü ildə Varşavada və Praqada Rusiya Federasiyasınm keçmiş Prezidenti B.Yeltsinin belə bir nitqi səsləndi ki, Rusiya Şərqi avropalıların NATO-ya üzvlüyünə etiraz etmir.

NATO ilə Rusiyanın daha münaqişəli münasibəti Baltikyanı dövlətlərin alyansa daxil olması məsələsi idi. Keçmiş baş nazir

E.Primakovun baş nazir olduğu zaman bəyan etmişdir ki, "keçmiş SSRİ-nin ərazisi qırmızı sərhəddir və NATO-nun genişlənməsi Rusiya üçün tamamilə yolverilməzdir". Rusiyanın Şimali Atlantika alyansının genişlənməsinə qarşı olan münasibətini Rusiya siyasətçiləri özünəməxsus şərh edirlər. Birinci Latviya, Litva və Estoniyanın NATO-ya qəbul edilməsi hərbi aspektdə Rusiya və Belarusun müdafiə maraqlarına toxunur. İkinci tərəfdən Avropada parçalanmasının dərinləşməsi prosesi güclənir və bu, gələcəkdə Baltikyanı ölkələr və Şərqi Avropa dövlətlərinin hesabına NATO-nun hərbi-siyasi gücünün artmasını səbəb olacaq. Üçüncü bir tərəfdən isə, Rusiya-NATO Əsasnaməsi öz əhəmiyyətini itirir. Buradan dördüncü məqam ortaya çıxır. Rusiya hərbi infrastrukturun möhkəmləndirilməsi üçün tədbirlər həyata keçirəcək və bu, onun Belarusla hərbi əməkdaşlığının, Rusiya Federasiyasının Şimal və Baltikyanı donanmasının möhkəmlənməsində öz konkret əksini tapdı. Rusiyanın keçmiş müdafiə naziri S.İvanovun 2003-cü ilin 27 iyulunda Şimal donanmasının 70 illiyinə həsr olunmuş çıxışında deyilirdi: "burada Rusiyanın hərbi dəniz donanmasının 80%-i toplanmışdır". Bura Rus ordusunun yeganə ağır raketdaşıyıcı kreyseri və admiral Kuzniçovun adım daşıyan aviadaşıyıcı və 2007-ci ildə İvanovun iştirakı ilə Yuri Dolqoruki adına super müasir sualtı raketdaşıyıcısı suya buraxılmışdır. Onun fikrincə bu, hələ başlanğıc idi.

Rusların siyasi maraqlarının tapdalanması onların siyasi arenadan təcrid olunmasına gətirib çıxarır. Əgər Qərb sivilizasiyası NATO-nu hərbi, siyasi ekvivalent kimi qəbul edirsə, qərb rusların seçim qarşısında qoyur, ya gərək Rusiya NATO-nun göstərişinə tabe olsun, ya da Rusiya nə qərb nə də Avropa dövləti olsun. Rusiya Avropada öz mövqeyini yalnız o zaman tuta bilər ki, Avropanın maraqlarına xidmət etsin. NATO-nun genişləndirilməsi Moskvanı azad sivilizasiya manevrindən ləğv edir.

Hansı resurslarla NATO-nun genişləndirilməsinin qarşısını almaq olar? Daimi məsləhətlər çərçivəsində bu minimaldır,

baxmayaraq ki, qeyd etdiyimiz bu fikir nəzəri xarakter daşıyır. Asiya dövlətləri ilə Hindistanla, Çinlə, Yaxın və Orta Şərq ölkələri və eyni zamanda, neytrallığını qorumağa çalışan Avropa ölkələri ilə münasibətlərin genişləndirilməsi NATO-ya dolayı yolla təsirin ən yaxşı vasitəsidir.

NATO-ya yeni dövlətlərin daxil olmasına Rusiyanın etirazı onu risk qarşısında qoyur. Buna misal olaraq 2003-cü ildə NATO-nun İraqdakı əməliyyatını misal gətirmək olar. İlk növbədə məsələ NATO-nun coğrafi mövqeyindən kənarda olan dövlətlərdir.

Bir neçə yüzillik ərzində Şərqi Avropa dünya siyasətinin obyekti yox, subyekti olmuşdur. Son onillərdə Avropa və Amerikanın maraqları toqquşmuşdur. Ona görə də iki dünya müharibəsi burada baş vermişdir. Rusiya bu dövlətlərlə normal münasibət qurmaq marağındadır.

XXI əsrin əvvəllərində Rusiya Avropaya yalnız Latviya, Litva, Estoniya vasitəsilə çıxa bilər. Son illərin hadisələri Avropanı beynəlxalq gərginliyə aparıb çıxarmışdır. Bu gərginlik nəinki Şərqi Avropanın sosialist ölkələrində yaşanır, hətta Rusiya Federasiyasının Kalininqrad vilayətində də yaşanır. Kalininqradda yaşanan bu gərginlik keçmiş SSRİ-nin dağılması və Rusiya rəhbərliyinin siyasi və diplomatik səhvinin nəticəsində baş verdi.

Hazırda Rusiya Baltik dənizində heç bir hərbi strateji gücə malik deyil. Baltikyanı ölkələr ərazisində o, hərbi dəniz donanmalarını itirmişdir. Bunun nəticəsində o, elə qonşular qazandı ki, onlar da NATO-nun üzvləri və Avropa Birliyinə üzv olan dövlətlər olmuşlar. Kalininqradda baş verən bu hadisələr elə cərəyan etdi ki, Rusiyanı tam olaraq o sferadan çıxara bilər.

Bunu da vurğulamalıyıq ki, Kalininqrad Rusiya Federasiyasının forpostudur. Bu ərazi Rusiya və Almaniyanın maraqlarının toqquşduğu yerdir. Rusiyanın bu addımı Avropada müəyyən dərəcədə hərbi tarazlığın pozulmasına gətirib çıxarır.

Varşava müqaviləsinə əsasən böyük hərbi kontingentlər və külli miqdarda olan hərbi sursat bu ərazidə yerləşdirilmişdir. Bu vilayətin Rusiya ilə birbaşa əlaqəsi olmadığı halda qərbdə Rusiyanın forpostu oldu ki, buradan da Polşa, Latviya, Litva və Estoniyaya təzyiq gücünə malikdir. Ancaq bu hal Rusiyanın hərbi iqtisadiyyatına dirənir. Hazırda Rusiya bunu saxlamaq iqtidarında deyil, ona görə də o qərb qonşularını qıcıqlandırmamağa çalışır. Əsası budur ki, burada müəyyən mənada mövqeyi qorumaq lazımdır.

Bu Kalininqrad münaqişəsində Amerikanın və Almaniyanın dəsti-xətti görünür. Onların məqsədi Avropa Birliyinə mane olmaqdır. Burada məqsəd Amerika, Almaniya müharibəsi zamanmda zərər çəkmiş Polşa, Çexiya, Slovakiya, İsveçrə kimi dövlətlərdən istifadə etmək və bununla da Kalininqrad vilayətini Rusiya Federasiyasının tərkibindən ayırmaq idi.

Öz növbəsində Rusiyanın imkanları genişlənirdi, lakin Rusiya Federasiyasının nə iqtisadi, nə də siyasi gücü buna imkan vermir. Rusiya Federasiyası Kalininqrad vilayətini yalnız öz daxili iqtisadi problemini həll etdikdə saxlaya bilər. Bu, mövcud şəraitdə əsas şərtlərdən biridir. Bu, Rusiya, Ukrayna və Belarusun vahid siyasi razılaşması nəticəsində ola bilər. Bu, problemli bir məsələ hesab olunur və nəhayət, Rusiyanm çevik geostrateji mövqeyindən asılıdır. Əsas məsələ bundan ibarətdir ki, Avropa bazarında öz yerli malını bazar iqtisadiyyatında rəqabətdə saxlaya bilsin. Bu işdə ölkənin əsas və yerli orqanlarının rolu mühüm məsələ hesab olunur.

Avropada hazırki vəziyyət Birinci Dünya müharibəsində olan vəziyyəti xatırladır: Almaniyanın başçılığı, çar Rusiyasının sosial-siyasi anlaşılmazlığı, Balkanlarda baş verən qarşıdurma, Böyük Britaniya və Fransanın eyni mövqedən çıxış etməməsi. Hazırki şəraitdə isə Qərbi Avropanı mədəni və siyasi gərginlikdə saxlayır. "Soyuq müharibə"nin qurtarması nəticəsində bir çox Avropa ölkələrində separatçı şəraiti genişləndirdi: Bretan və Korsika Fransada, Basklar və Kataloniya İspaniyada, Padaniya

İtaliyada, Şimali İrlandiya, Şotlandiyada və Uels Birləşmiş İngiltərə Krallığında. Qərbi avropalıların isə öz regional problemlərinə başları qarışmışdır. Şərqi Avropadan ruslarm çıxması nəticəsində böyük siyasi və hərbi boşluq meydana gəldi ki, bu boşluq Almaniya Federativ Respublikasının, Almaniya Demokratik Respublikası ilə birləşməsi nəticəsində başlıca amil oldu. Müasir Avropa Birliyi strateji yüksəlişə qadirdir.

Öncə ilk baxışdan bu proses ləng gedirdi, lakin ümumi Avropa valyutası olan avro Almaniyanı önə çəkdi. Ümumi valyuta olan avro Avropa Birliyinə böyük iqtisadi və maliyyə gücü gətirdi.

Bu, Sovet İttifaqı deyil, onun özünəməxsus xüsusiyyətləri var. Burada heç bir totalitar rejim, marksist, leninizm, eləcə də Kommunist Partiyasının diktaturası mövcud deyil. Ancaq heç kim Avropa Birliyində bu göstəricilərin yenidən meydana gəlməməsinə təminat verə bilməz. Məsələn: Keçmiş SSRİ-də çoxmillətli dövlətlər var idi, ümumi sərhəd, vizasız gediş-gəliş, ümumi NATO ordusu, ümumi hakimiyyət, Ümumi Avropa Parlamenti, ümumi avro valyutası, Avropa məhkəməsi və s. Bu nə deməkdir? Bu ilk növbədə kim üçün əlverişlidir? Əlbəttə ki nə Amerika, nə də Rusiyadır. Avropa maliyyə sərmayəsi olan güclü tərəfdir. İndiki dövrdə Mərkəzi Avropada bu, 80 milyonluq əhalisi olan inkişaf etmiş Almaniyadır. Onun düzgün qurulmuş iqtisadiyyatı, müasir texnologiyası, uzaqgörən, nizam-intizamlı xalqı, kifayət qədər qızıl və valyuta ehtiyatı olan avrosu var.

Hazırki mərhələdə Avropa Birliyində heç bir strateji münasibətlərdə irəliləyiş yoxdur. Belə bir fakt üzə çıxır ki, Rusiyaya Avropa İttifaqı tərəfindən iqtisadi kömək çox zəifdir. Ən çox, o Mərkəzi və Şərqi Avropaya, Baltikyanı ölkələrə, Yaxın Şərqə köməklik edir.

Rusiyanın geostrategiyasında Avropada İtaliya ilə Yunanıstan kifayət qədər mövqe tutur. Bu ölkələr arasında nə iqtisadi, siyasi və ya ərazi iddiası problemi yoxdur. Həlledici məqamlardan biri də fikrimizcə ondan ibarətdir ki, Moskva,

Roma və Afina arasında olan münasibətlər İtaliya və Yunanıstanm geosiyasi yerləşməsindən irəli gəlir. Müasir İtaliya və Yunanıstan hazırda Avropada öz siyasi və iqtisadi marağım qoruyur və əsas geosiyasi ərazilər hesab olunur. İtaliya və Yunanıstan Rusiyanın mövqeyini nəinki Aralıq dənizində, hətta Avropada belə qorumaqdadır. NATO-nun mövqeyinin şərqdə dəstəklənməsinə baxmayaraq Rusiyanın mövqeyini də qorumaqda maraqlıdır, NATO-nun Şərqə genişlənməsi Rusiyada gərginlik yaradacaq və biz əks nəticə əldə edə bilərik.

Rusiyanın əsas geosiyasi mövqeyi – Balkanlardır, hələ XIX əsrdən bəri Balkanlar Rusiya geosiyasətində əsas mövqe tutur. Rusiyanm bu regionda əsas mövqeyi Moskvanı Belqraddan təcrid etməmək idi və aparıcı rol Balkan oyununda Rusiyaya həvalə olunsun.

Hazırki şəraitdə Balkanlarda Amerika və Almaniya öz rolunu oynamaqdadır. Rusiyanın rolu isə burada çox zəifdir. Rusiyanm Balkanlarda yeganə tərəfdaşı Serbiya olaraq qalır. Ancaq Serbiya da yavaş-yavaş Atlantizm tərəfkeşlik mövqeyini tutmağa çalışır, buna səbəb hakimiyyətə demokratik qüvvələrin yol tapmasıdır.

Rusiya Yuqoslaviyanın simasında nəinki Balkanlarda, hətta Avropada Serbiyanı itirdi. İndi Yuqoslaviya anlayışı yoxdur, onun yerinə Serbiya və Çernoqoriya meydana gəlmişdir. Bolqarıstanın və Serbiyanın qərbə birləşməsi nəticəsində Rusiya tamamilə bu regiondan kənarlaşdırıldı. XXI əsrin əvvəlində Rusiyanın mövqeyi Avropa İttifaqında Rusiyanın özündən asılıdır. Rusiya müasir dünyanın reallıqlarını, mövcud şəraitdə özünün yerini və rolunu dərk etməli, qeyri-stabilliyə can atmamalı, əksinə, gələcək istiqamətini müəyyənləşdirməlidir. Rusiya Federasiyası öz iqtisadiyyatım Avropa və dünya iqtisadiyyatı səviyyəsinə qaldırmalıdır.

## ƏDƏBİYYAT:

1. Бжезинский З. Великая шахматная доска. М.,1998.
2. Бовин А. Евразия: мифы и реальность. М., 2001.
3. Панарин А.С. Реванш истории: Российская стратегическая альтернатива в XXI веке. М., 1998.
4. Савицкий П.И. Утверждение евразийсцев. Континент Евразия. М., 1997.
5. Салмин А. М. Россия, Европа и новый мировой порядок. М., 1999.
6. Goldgates J.M. Not whether but when: The US Decision to Enlarge NATO. Wash., 1999.
7. Gress D. The Weak of Postmodern Europe "Orbis", 2000, Winter.

## 8.2. Avropa inteqrasiyasının yaranması, mahiyyəti və ilkin şərtləri

Avropa İttifaqının yaranma tarixi öz kökləri ilə qədim zamanlara gedib çıxır. Neçə əsrlərdir ki, Avropa ideyası inteqrasiyanın əsas siyasi aparıcı qüvvəsi hesab olunur.

Avropa Birliyinin birinci məqsədi sülhün bərqərar olunması idi. Orta əsrlərin görkəmli filosofları, alimləri və dövlət xadimlərindən P.Dübua, de Sülli, Erzam Roterdamski, Ş. de SenPyer, U.Penn, Y.A.Komenski, İ.Kant, İ.Q.Gerder Avropa evinə müxtəlif üsullar, metodlar və formalar təklif edirdilər. Bu ideyanı reallaşdırmaq üçün xalq və monarx birliyi, avtoritar idarəetmə rejimi təklif olunurdu. Avropa mütəfəkkirlərinin və Avropa ideyasının iln nəzəriyyəçilərinin düşüncəsində dayanırdı: sülhü saxlamaq üçün Avropa Dövlətlər Birliyi məşğul olmalıdır. Bu istiqamətdə müxtəlif ideyalar var idi. Ayrı-ayrı müəlliflər öz variantlarım təklif edirdilər. Belə ki, Sen-Pyer Avropa Birliyini federativ bir qurum kimi görürdü. Penn konfederativ, digərləri isə xristian humanizmi və pasifizm birləşməsi qurmağı təklif edirdi. Zaman və ideya dəyişsə də onun mənası eynin olaraq qalırdı.

Müasir şəraitdə vahid Avropaya bəzi dəyişikliklər gəldi. Elə ki daimi və ədalətlə sülh şüarları federal quruluşla uzlaşırdısa ancaq XVIII əsrin sonlarında – XIX əsrin əvvəllərində Avropa ideyası milli rəngə boyanmışdır. Bu layihənin müəllifləri məşhur filosoflar, mütəfəkkirlər və siyasətçilər J. De Mester, İ.Qeres, T.Joffrua, D.la Martin, G.Hegel idi.

XIX əsrin 30 və 40-cı illərində Milli Azadlıq Hərəkatı zamanı Avropa evində demokratik tendensiya yaranır. Bu, ideyanı C.Madzininin rəhbərliyi altında gənc İtaliya təşkilatı aparırdı. Sonra bu ideyanı patifislər davam etdirdi. Bu B.Hüqo və B.Blan tərəfindən idarə olunurdu, tədricən o, öz yerini liberallığa verirdi. Ancaq onların apardığı rəqabət nəticəsində

XIX və XX əsrlərdə Birinci Dünya müharibəsində bu ideyanı bir neçə il geri atdı.

Birinci Dünya müharibəsindən sonra Avropa ideyası yeni ruhda arenaya çıxır. Bu ideyanın müəllifləri müharibənin nəticəsini görərək Avropa Birliyinin yaranmasını xilasedici bir qüvvə kimi qəbul edirdi. 1923-cü ildə Avropa İttifaqının yeni planı üzə çıxdı. Bu planın müəllifi Avstriyalı qraf Kudenhove-Kalergi öz kitabında "Pan-Avropa" birliyinə çağırırdı. İki il sonra yeni bir kitab çap edir və kitabın adı "Avropa manifesti" adlanır. Bu kitabda o, demokratik dövlətləri birliyə çağırır. Kitabda əsas məqsəd bu dövlətlər arasında müharibə əleyhinə məcburi arbitraj mexanizmi yaratmaq, gömrük sərhədlərini ləğv etmək və bu ölkələrdə malların sərbəst dövriyyəsini təmin etmək idi.

Kudenhove-Kalerginin ideyası Avropa ölkələrində böyük dəstək aldı və 1927-ci ildə Vyanada Birinci panavropa konqresi açıldı. Konqresin sədiri Fransanın siyasi xadimi A.Brian seçilmişdir. 3 il sonra A.Brian Millətlər liqasına "Avropa Federal İttifaqının Memorandumu"nu təklif etmiş, lakin Avropa bu birliyə hələ hazır deyildir. Çünki yeni dünya alovu başlayırdı.

İkinci Dünya müharibəsi ərəfəsində bu ideya ilə Almaniyanın millətçi dairələri çıxış edirdi: "A.Hitler Üçüncü Reyx təşkil etmək və ona bütün Avropanı, həmçinin də işğal olunmuş Şərqi Avropa ölkələrini daxil etmək və beləliklə, Almaniyanın nəzarəti altında Avrasiya yaratmaq. Eyni zamanda, Müqavimət Hərəkatında Avropanı faşizm və millətçilikdən qorumaq ideyası meydana gəldi.

A.Spinelli və E.Rossi "Avropa Birləşmiş Ştalarının yaradılması Manifesti", E.Kolumbo "Federalların Avropa Hərəkatı" və "Avropa Müqavimət Manifesti" layihələrini yaratdılar. İkinci Dünya müharibəsindən sonra Avropada bir-birinə zidd olan ictimai-siyasi sistem yarandı. Bəzi ölkələr bu birlikdə Şərqdən gələn təzyiqin qarşısını almaq üçün təşəbbüs göstərirdilər.

İkinci Dünya Müharibəsindən sonra əsas birləşmə faktorundan biri də müstəmləkəçi sistemin ləğv olunması, öz iqtisadi strategiyasını dəyişmək, ticari və təsərrüfat əlaqələrini bərpa etmək idi. Bu birliyin yaranmasında Avropa dövlətləri və xalqları ağır hərbi böhrandan xilas olma yolunu görürdü. Qərbi Avropa inteqrasiyasında dövlət və onların xalqına ikili rol verilirdi: 1.Şərqdən gələn kommunizm ideyasından xilas olmaq; 2.Amerikanın Qərbi Avropa ölkələrinin iqtisadiyyatına təsiri. Məlumdur ki, müharibə illərindən sonrakı dövrdə Qərbi Avropa ölkələrində iqtisadi böhran baş verdi və onlar okeanın o tayından dəstək gözləyirdilər. Həmin illərdə "Marşall planı", BVF, DB və s. kimi nəhənglər yarandı. Təbii ki, bu, bir tərəfdən Qərbi Avropa ölkələrinin ABŞ-dan asılılığını artırdı, eyni zamanda, onların amerikan siyasi-iqtisadi gkpansiyasımn təzyiqi qarşısında birləşməsinə yol açdı.

Qərbi Avropanın inteqrasiyasında hərbi siyasi faktor mühüm rol oynadı. Avropada iki dünya müharibəsinin baş verməsi, milyonlarla insanın məhvi, onları öz aralarında hərbi münaqişələri və müharibələrə son qoymağa məcbur etdi. Beləliklə, onlar iki nəhəng dövlətlərin qarşısım ala bilərlər. Avropalılar anlayırdılar ki, təkbaşına heç kim heç nə edə bilməz. Bu faktorları nəzərə alaraq avropalılar bu prosesi tezləşdirməyə çağırdılar. "Birləşmiş Avropa"nın təməlin qoyanlar sırasında: Ş. de Qoll, K.Adenauer, U.Çerçill, R.Pleven, R.Şuman, J.Monne, A. de Qaspere, P.A.Spaak, L.Erxard adları xüsusi çəkilməlidir.

Bütün bu faktorlar Qərbi Avropada qüvvələri bir araya gətirdi və XXI əsrin astanasında real qüvvəyə çevirdi.

İnteqrasiya anlayışı heç də birmənalı deyil. Bu prosesin yaranmasına və fəaliyyətinə nəzər saldıqda görürük ki, bu müəyyən elementlərin birləşməsi zamanı, tarixi bir şəraitdə yeni dəyərlərin əmələ gəlməsinə səbəb olur. Bəzi Qərbi Avropa tədqiqatçıları inteqrasiya anlayışı altında elə mülahizələr yürüdürlər ki, guya onlar korlanmış beynəlxalq münasibətləri

belə yeni hərtərəfli ittifaq bağlamaqla bərpa edə bilərlər. Nəzəriyyəçilər və təcrübəçilər inteqrasiya haqqında nə söyləsələr, nə yazsalar da bu proses Qərbi və Şərqi Avropada meydana gəldi və müasir beynəlxalq münasibətlərdə yenilməz bir faktor kimi formalaşdı.

Avropa inteqrasiyası əvvəl iqtisadiyyatda, sonra hərbi, siyasi, ideoloji, sosial sahələrdə də formalaşdı.

Əvvəlcədən məlum olduğu kimi, Qərbi Avropa inteqrasiya prosesləri beynəlmiləl iqtisadiyyatda da öz təsir dairəsini genişləndirirdi və eləcə də beynəlxalq əməyin bölünməsində dərinləşirdi. Qərbi Avropa inteqrasiya prosesi iki cür cərəyan edirdi: bir tərəfdən milli təsərrüfatın dirçəlməsi ilə, regional və daxili bazarların yüksəlişi ilə, digər tərəfdən isə bu proses dövlət tərəfindən tənzimlənirdi və milli strukturun yaradılmasına dəlalət edirdi.

İnteqrasiya mövcudluğu bu və ya digər formada XX əsrdə, İkinci Dünya müharibəsindən sonra meydana çıxdı. Burada bir neçə inteqrasiya proseslərini qeyd etmək olar: Qərbi Avropanın, Şərqi Avropanın, Ərəbsayağı, Afrikasayağı, və eləcə də Amerikasayağı. İnteqrasiyanın sərhədləri dəyişkəndir, ən başlıcası da Avropada. İki qarşıdurma sistemi zamanı sərhəd dəyişikliyi dondurulmuşdur. SSRİ və Berlin divarı məhv edildikdən sonra bu inteqrasiya Şərqə doğru irəliləməyə başladı. Qərbi Avropa inteqrasiyası həmin vaxtdan dünyəvi faktor kimi tarixə düşdü. Bu prosesin formaları mərhələlər üzrə cərəyan etdi: Avropa İttifaqı, Qərbi Avropa İttifaqı, Avropa Kömür və Polad Birliyi, Avropa İqtisadi Qurumu, Avropa İttifaqı. İnteqrasiya tarixi proses olduğu üçün bir neçə mərhələlər keçmiş və hər mərhələdə öz müəyyən formasım qəbul etmişdir. Bunlardan biri və ən sadəsi azad ticarət, gömrük ittifaqı, daha sonra isə vahid daxili bazarın yaranmasıdır.

Avropa inteqrasiyası inkişaf mərhələlərini belə keçmişdir:

1. 1957-ci ildə AİB çərçivəsində ərazi inteqrasiyası.
2. 1950-ci illərin sonu – 70-ci illərin sonunda əməkdaşlığm çiçəklənmə dövrü oldu. 1957-ci ildə Roma sazişinin başlanğıc

mərhələsi başladı. Gömrük İttifaqının yaranması. Avropa İqtisadi İttifaqına üç nəhəng dövlət olan İngiltərə, Danimarkanın və İrlandiyanın daxil olması.

3. Durğunluq dövründə 1970-ci illərin ortalarında "Yeni iqtisadi valyuta sisteminin yaranması".

4. Yeni Vahid Avropa Aktının qəbul olunması, Vahid Daxili Bazarın meydana gəlməsi.

5. Sonuncu mərhələ 1993-cü ildə başa çatdı, burada valyuta və siyasi ittifaqın fəaliyyəti tamamlandı.

Avropa inteqrasiyasının bir neçə parametrləri vardır. İnteqrasiyanın başlıca parametrlərindən biri – könüllülük prinsipidir. Müharibədənsonrakı Qərbi Avropa inteqrasiyası könüllü prosesdir. O, bu cəhətilə nasizmin hakim olduğu zaman bir çox Qərbi Avropa ölkələrində mövcud olan və yaxud Mərkəzi və Şərqi Avropa ölkələrində sovet istiqaməti üzrə həyata keçirilən inteqrasiyadan fərqlənirdi.

İnteqrasiyanın – geniş ölçülüyü. Avropa inteqrasiyası tarixi prosesdir. Bu tarixi prosesin bir neçə ölçüləri mövcuddur: iqtisadiyyat, siyasət, təhlükəsizlik, mədəniyyət və s. Onların daimi, nisbətən monoton, yavaş fəaliyyəti gələcəkdə inteqrasiyanın üzvi hissəsinə çevrildi.

Subsidiya prinsipi. Bu prinsipə əsasən ayrı-ayrı üzv-dövlətlərin səviyyəsində ola biləcəyindən daha da effektli şəkildə reallaşa bilən səlahiyyətlər İttifaqa verildi.

İnteqrasiyanın digər parametrləri arasında müxtəlif proseslər nəticəsində meydana çıxan hadisələrlə əlaqədardır. XX əsrin 50-60-cı illərində nəzəriyyəçilər J.Monne, Q.Mürdal, Y.Tinberqen belə bir fikir yürütdülər ki, xalqlar arasında olan etibarsızlığa və düşmənçiliyə son qoyulsun. Digər fransız iqtisadi nəzəriyyəçisi M. Allenin fikrincə Qərbi Avropada olan idarəedici qüvvələrin birləşməsi nəticəsində kommunist və sovet təhlükəsinin qarşısı alınmalıdır. Digər nəzəriyyəçilər J.Servan-Şrayber və D.Ştoltse əmin edirdilər ki, inteqrasiya Amerikanın təzyiqi altında həyata keçirilmişdir və bu hakimiyyətin vasitəsilə

şərqdən və qərbdən gələn qüvvələrin qarşısını almaq üçün üçüncü tərəf yaradılsın.

Buna baxmayaraq elmi dairələrdə belə bir mövzu dolaşırdı ki, inteqrasiyanm yeni forması, metodu yaransın.

Beynəlxalq əməkdaşlığın hərtərəfli təhlili üçün onu beynəlxalq aləmdə müşahidə olunan inteqrasiya prosesləri ilə müqayisə etmək vacibdir. Əməkdaşlıqla inteqrasiyanın münasibətinə dair ədəbiyyatda iki bir-birinə zidd fikir vardır. Birinci fikrə əsasən, dövlətlərarası əməkdaşlıq inteqrasiya proseslərindən fərqlənir, çünki dövlətlərarası əməkdaşlıq dövlətlərin suverenliyi ilə məhdudlaşırsa, yəni onu uca tutursa, inteqrasiya dövlətin suverenliyinin müəyyən hissəsindən inteqrasiya naminə əl çəkməyi nəzərdə tutur. Digər fikrə əsasən, bu iki proses bir-birilə bağlıdır. Daha konkret desək, inteqrasiya dövlətlərarası əməkdaşlığın inkişaf mərhələsidir.

Məlum olduğu kimi, İkinci Dünya müharibəsindən Avropa gücsüz və talan olunmuş halda çıxmışdır. Ona görə də Avropa yaşamaq üçün birliyə can atırdı. Beləliklə də, Qərbi Avropa Federasiyasının yaranmasının tərəfdarları çox idi.

XX əsrin 50-ci illərinin mövqeyi 40-cı illərin planını ikinci plana çəkdi və avropalılar belə bir qərara gəldilər ki, inteqrasiyada birinci mərhələdə iqtisadi layihələr üstünlük təşkil etməlidir.

İnteqrasiya probleminin elmi cəhətdən öyrənilməsi dünyada baş verən real inteqrasiya proseslərinin dərk olunması ilə bağlıdır. Bu problemin tədqiqi ilə daha çox üç nəzəri məktəb məşğuldur: funksionalizm və ya neofunksionalizm məktəbi, federalizm və transnasionalizm (yaxud plüralist) məktəbi.

1. Funksionalizm nəzəriyyəsi: D.Mitrani, E.Haas, L.Lindenberq.
2. Federalizm nəzəriyyəsi: K.Fridrix, A.Spinelli, J.Elezer.
3. Plüralist məktəbi: K.Doytç.

Funksionalizm dövlətlərarası əməkdaşlığı müxtəlif sahələrdə inkişaf etdirməyi vacib hesab edərək onu dövlətlərin

suverenliyinin zəifləməsi vasitəsilə dövlətlərin inteqrasiyasına nail olmaqda mühüm bir faktor kimi dəyərləndirir. Funksionalizmə əsasən, milli dövlət iqtisadi, sosial və texniki problemləri həll etməyə qadir deyil. Bu problemləri beynəlxalq əməkdaşlıq səviyyəsində həll etmək mümkündür. Beynəlxalq əməkdaşlıq dövlətlərin bir-birindən asılılığım elə bir səviyyəyə çatdıracaqdır ki, onların arasında hərbi münaqişə qeyri-mümkün olacaqdır.

Funksionalizmin müddəalarının real praktikada tətbiq edilməsi müəyyən problemlərin yaranmasına səbəb oldu. Dövlət suverenliyinin əhəmiyyətinin azalması ilə bərabər ixtisaslaşdırılmış beynəlxalq təşkilatların suverenliyinin güclənməsi müşahidə olunurdu. Bundan başqa dövlətlər hərbi və siyasi sahədə öz hüquqlarından inteqrasiya naminə əl çəkmək istəmirdilər. Neofunksionalizm (E.Haas, L.Lindenberq) funksionalizmin ideyasını inkişaf etdirərək göstərir ki, iqtisadi, sosial yaxud mədəni fəaliyyətin bu və ya digər sahəsində əməkdaşlığın inkişaf etdirilməsi zərurəti bu fəaliyyətləri əlaqələndirmək məqsədilə ixtisaslaşdırılmış beynəlxalq institutların yaradılmasına gətirəcəkdir. Nəticədə siyasi inteqrasiya prosesləri daha da sürətlənəcəkdir. Neofunksionalizmə görə, hər bir dövlət siyasi plüralizm, fundamental dəyərlərə dair razılıq kimi inteqrasiyanın mühüm şərtlərinə şərait yaratmalıdır.

Əgər funksionalizm siyasi institutları iqtisadi, sosial və digər proseslərdən asılı hesab edirsə, "federalizm" məktəbi siyasi institutları əsas hesab edərək onları konsepsiyalarmm mərkəzinə qoyur. Bu məktəbin nümayəndələri (A.Etsioni, A.Spinelli, K.Fridrix və başqaları) federalizmi mərkəzçilikdən imtina etmə, müxtəlif mərkəzlər arasında səlahiyyətlərin paylaşdırılması kimi qələmə verirlər. Onlar beynəlxalq inteqrasiyanın iştirakçılarının siyasi iradəsinin inteqrasiya prosesləri üçün əhəmiyyətini və səlahiyyətlərin paylaşdırılmasının rolunu göstərirlər.

Federalizm konsepsiyası Qərbi Avropada gedən inteqrasiya proseslərində özünü tədricən göstərməyə başlayıb. 1984-

cü ildə Avropa parlamenti Avropa İttifaqı haqqında A. Spinellinin hazırladığı müqavilənin layihəsini qəbul etdi. Bu layihədə Avropa İttifaqının fəaliyyətinin əsas istiqamətləri əks olunurdu. Xüsusi fikir İttifaq ilə dövlətlər arasında səlahiyyətlərin bölüşdürülməsinə xüsusi fikir verilirdi. İttifaq dövlətlərin ayrılıqda səmərəli şəkildə həyata keçirə bilmədikləri məsələləri öz üzərinə götürürdü. Lakin federalizm əvvəlcədən Avropa inteqrasiya prosesinin konseptual əsası kimi çıxış etmirdi. Bu prosesin başlanğıcında nəzəri cəhətdən üç mümkün yol var idi:

1. Suveren və müstəqil qalan dövlətlər arasındakı birliklərin yaxud assosiasiyaların çərçivəsində əməkdaşlıq. Bu, ən ənənəvi yol idi;
2. Müəyyən sahələrdə milli dövlətlərin hüdudlarını aşan vahid siyasi hakimiyyət. Bu, ən cəsarətli yol idi;
3. İxtisaslaşdırılmış institutların çərçivələrində ümumi qaydada fəaliyyət göstərməyə imkan verən funksional inteqrasiya. Bu isə ən orijinal yol idi.

Qeyd olunan yollardan birincisi zəruri və faydalı olmasına baxmayaraq, kifayət deyildir. İkinci yol qeyri-mümkün idi. Buna görə də inteqrasiya prosesi funksional modelin inkişafı yolu ilə gedərək adi əməkdaşlığın çərçivəsindən çıxdı və mümkün federasiya üçün şərait hazırladı.

Beynəlxalq inteqrasiyanın federalist modelinin əsas çatışmazlığı ondan ibarətdir ki, funksional model ilə müqayisədə onun reallaşma şansları azdır. Bu çatışmazlığın əsas səbəbi federalist modelində normaların çoxluğu ilə bağlıdır. Yuxarıda qeyd olunan yanaşmaların çatışmazlığını nəzərə alaraq beynəlxalq inteqrasiyanın real prosesini bu yanaşmaların hər birinin üstünlüyünü kompleks şəkildə dərk etməklə anlamaq olar.

Federal nəzəriyyənin əsasında Avropa Birliyinin siyasi institutları var idi ki, onların müəllifləri də federalizmi belə xarakterizə edirdilər. "Mərkəzləşməyə qarşı çıxma". XX əsrin son illərində Qərbi Avropa inteqrasiyasının yeni nəzəriyyələri

və məqsədləri meydana çıxdı. Bu nəzəriyyələrin başında Fransanın Prezidenti F.Mitteran dayanmışdır. Avropa İttifaqına 12 dövlət daxil idi.

Transmilli (plüralist) yanaşma obyekti məhz kompleks şəkildə öyrənir. Bu yanaşmada inteqrasiya prosesi kommunikasiya şəbəkələri terminlərində tədqiq olunur. Plüralist yanaşmanın tərəfdarlarından biri Karl Doytç hər birinin öz inteqrasiya prosesi olan siyasi birləşmələrin iki növünü göstərir: amalqam və plüralist. Amalqam inteqrasiya əvvəllər müstəqil olan iki və ya daha çox siyasi qurumun ümumi birləşməsini nəzərdə tutur. Birləşmənin nəticəsində qurumlar müstəqilliklərindən məhrum olurlar. Plüralist inteqrasiyada qurumlar müstəqilliklərini saxlayırlar. Bundan başqa, amalqam inteqrasiyada əhali yeni yaranan siyasi institutlara loyal yanaşmalı, bir-birinin adət-ənənələrini qəbul etməli, hətta milli dəyərlərindən əl çəkməli və birləşdiyi xalqla birgə yaşamağı bacarmalıdır. Plüralist inteqrasiyada isə belə sərt şərtlər yoxdur. Orada sadəcə olaraq birləşən xalqların mədəni dəyərləri arasında ziddiyyətlər olmamalıdır. Doytçun fikrincə, plüralist inteqrasiya Avropada inteqrasiya proseslərinin vacibliyini göstərərək xalqların milli dəyərlərini inkar etmir. Buna görə də Avropada inteqrasiya prosesləri plüralist modelə əsaslanmalıdır.

Beləliklə, funksionalizm, federalizm və plüralizm inteqrasiya problemini müxtəlif səpkidən tədqiq edir. Bu konsepsiyaların hər birinin mühüm praktiki əhəmiyyəti vardır. Onlar inteqrasiyanı əməkdaşlığın daha yüksək forması kimi qələmə verərək beynəlxalq inteqrasiya proseslərinin yollarını araşdırırlar. Bu konsepsiyaların nümayəndələri tədqiqatlarından irəli gələn ideyaları tövsiyə şəklində Avropa Birliyinin fəaliyyətinin təkmilləşdirilməsi üçün təklif edirlər.

Bu konsepsiya ilə 1994-cü ildə Fransanın baş naziri E.Balladürun "Üç dairə" adlanan nəzəriyyəsi meydana gəldi. Ötən əsrin 80-90-cı illərinin əvvəllərində D.Palmerin yeni nəzəriyyəsi meydana çıxdı. Bu nəzəriyyə "Qlobal regionlar"

adlanırdı. Son illərdə ingilis nəzəriyyəçisi olan A.Milvordun fikrincə, inteqrasiya Avropada daha da genişlənməyə və irəliləməyə başladı. Yarım əsr bundan əvvəl nəzəriyyəçilərin fikirləri XXI əsrin əvvəllərində özünü doğrultmağa başlamışdır.

## ƏDƏBİYYAT:

1. Азбука права ЕС // Евразийский Союз. М., 1994.
2. Единый Европейский Акт. Европейский Союз, М., 1994.
3. Натан Р.П., Хофман Э.П. Современный федерализм // Международная жизнь, 1991, №1.
4. Milvard A.S. The Reconstruction of western Europe. 1945-1951. London, 1984.
5. Palmer I. Europe without America the crisis in Atlantic relations. Oxford, 1987.
6. The Frostiest of National Sovereignties History and Theory 1945-1992. London, 1993.
7. Wallace W. From Twelve to Twenty Four? The Challenges to the Posed by the Revolutions in Eastern Europe. Oxford, 1993.

## 8.3. Müasir dövrdə Avropa İttifaqının enerji siyasəti

Hazırda 25 dövləti öz tərkibində birləşdirən inteqrasiyanın ən bariz nümunəsi hesab edilən Avropa İttifaqı bugünkü səviyyəyə gələnə kimi yarım əsrlik inkişaf yolu keçmişdir. Müharibədən sonra Avropa ölkələrinin bir çoxunun iqtisadiyyatı bərbad hala düşmüş, infrastruktur dağıdılmış, sənaye müəssisələri zərər çəkmişdi. Avropa dövlətlərinin o dövrkü liderləri birgə fəaliyyətsiz, əməkdaşlıq olmadan inkişafın qeyri-mümkün olduğunu dərk edirdilər. İnteqrasiyaya doğru ilk addımları az əvvəl rəqib, hətta düşmən olmuş Fransa və Almaniya atdı. Məlum olduğu kimi, Almaniyada kömür (Saar, Rur hövzəsi), Fransada isə dəmir filizi yataqları (Elzas-Lotarengiya) mövcud idi.

XIX-XX əsr boyu iki rəqib hər iki ehtiyatı öz əlində cəmləməyə cəhd etmişdilər. Bəzən isə hətta buna nail də olmuşdular. Müharibədən sonra isə hər iki dövlət keçmiş inciklikləri yaddan çıxarmaq və əməkdaşlığının yeni erasına başlamaq qərarına gəldilər. Kiçik dövlətlər olan Belçika, Niderland. Lüksemburq tarix boyu öz qonşularınm mübarizəsindən daim əziyyət çəkmişdilər. Odur ki, əməkdaşlıq təklifini çox razılıqla qarşıladılar, bu inteqrasiya onların iqtisadiyyatlarının inkişafı üçün də yeni perspektivlər açacaqdı. İtaliya da iki qitə nəhənginin mübarizəsində həmişə cəbhələrdən birində özünə yer seçmişdi. Müharibə nəticəsində İtaliya iqtisadiyyatı da xeyli zərər çəkmişdi və o da inteqrasiya təklifini alqışladı. 18 aprel 1951-ci ildə Fransa, Almaniya, İtaliya, Belçika, Niderland, Lüksemburq hökumət səlahiyyətliləri Paris müqaviləsini imzaladılar, bununla Avropa kömür və polad Birliyinin (AKPB) əsası qoyuldu. Müqaviləyə əsasən AKPB-nin Ali hakimiyyət orqanı, Nazirlər Şurası, Parlament Assambleyası, Ədalət məhkəməsi yaradılılır. Müqavilə 50 illiyə imzalanırdı. 10 avqust 1952-ci ildən AKPB-nin 9 nəfərdən ibarət Ali hakimiyyət orqanı fəaliyyətə başladı.

25 mart 1957-ci ildə AKPB iştirakçıları Roma müqavilələri ilə Avropa İqtisadi Birliyi (AİB) və Avropa Atom Enerjisi Birliyinin (AAEB) əsasını qoydular. İmzalanmış üç müqavilədən ikisi məhz enerji sahəsində əməkdaşlığı nəzərdə tuturdu. Paris müqaviləsinə əsasən ümumi kömür-polad istehsalı, bu sahənin inkişafı ilə əlaqədar 6 dövlət arasında ümumi kömür-polad bazarı yaradılırdı. AAEB isə iştirakçı dövlətlər arasında atom enerjisi sahəsində əməkdaşlıq və ümumi atom enerjisi bazarının yaradılmasını nəzərdə tuturdu. Atom enerjisi bazarı qeyri-üzv dövlətləri də atom enerjisi ilə təmin edəcəkdi.

Üç müqavilə 6 Avropa dövlətinin müxtəlif sahələrdə inteqrasiyasını nəzərdə tuturdu, məhz 1965-ci il 8 apreldə Brüsseldə imzalanmış "Birləşmə" müqaviləsi ilə 3 sahədə inteqrasiya birləşdirildi və Avropa Birliyini yaradıldı. Müqavilə AKPB, AİB, AAEB-nin idarəsini həyata keçirmək üçün Avropa Komissiyası, Avropa Birliyi Şurasını və ümumi büdcəni təsis etdi.

1973-cü il Yaxın Şərq böhranı, İran inqilabı və İran-İraq müharibəsi dövründə enerji daşıyıcılarının qiymətinin kəskin surətdə qalxması Avropanı düşünməyə vadar etdi. Uzun illər inteqrasiyaya doğru irəliləmiş Avropanın hərbi təhlükəsizliyi NATO hesabına yüksək səviyyədə təmin olunmuşdu, lakin enerji təhlükəsizliyi və onun fonunda iqtisadi təhlükəsizliyə qarşı yeni hədələr yaranmışdı. Məhz bu dövrdə Vahid Avropa Enerji Birliyinin yaradılması ideyası meydana çıxdı. Bununla əlaqədar Niderlandın Baş naziri Rud Lübbers 1990-cı il 25 iyunda Avropa Şurasının Dublində keçirilmiş iclasında Avropa Enerji Xartiyası (AEX) ideyasını irəli sürdü. Bu təklif Avropa Birliyi və ATƏM tərəfindən də dəstəkləndi.

1991-ci il 17 dekabrda (artıq SSRİ-nin süqutundan sonra) Haaqada AEX bir çox Avropa dövlətləri, AB, Avstraliya, Kanada, Türkiyə, ABŞ, Yaponiya tərəfindən imzalandı. Əlbəttə, Asiya və Amerika ölkələrinin də imzalamasından sonra Xartiya Avropa Enerji Xartiyası deyil, sadəcə Enerji Xartiyası adlanmağa başladı. Enerji Xartiyası daha çox siyasi sənəd idi və

onu imzalayan dövlətlərin "soyuq müharibə"dən sonrakı dünya nizamına əsas baxışlarını ifadə edirdi. Burada ümumi enerji təhlükəsizlik sisteminin yaradılması, enerji mənbələrinə azad daxil olma, sabit, daimi, kəsintisiz enerji təchizatı barədə ümumi konsepsional ideyalar əks olunmuşdu. Odur ki, Xartiyanın hüquqi öhdəlik halına gətirmək üçün Enerji Xartiyasına (EX) iştirakçıların maraqlarını təmin edən çoxtərəfli müqavilə (EXM) əlavə edilməsi zərurəti ortaya çıxdı.

Bu müqavilənin hazırlanması bir neçə il çəkdi. Buna qədər isə Avropa öz seçimini etdi və Avropa İttifaqı Maastrixt müqaviləsi ilə müasir vəziyyətini almış oldu. Müqavilə 7 fevral 1992-ci ildə imzalansa da, 1 noyabr 1993-cü ildən qüvvəyə mindi. Üç müxtəlif sahənin inteqrasiya birliyindən daha sıx siyasi, iqtisadi ittifaq halına düşmüş oldu. Bundan sonra Enerji Xartiyası Müqaviləsi (EXM) və onunla bağlı digər sənədlər enerji effektliliyi və ətraf mühitlə bağlı Enerji Xartiyasına əlavə Protokolun mətni müəyyənləşdirildi və 1994-cü il 17 dekabrda imzalandı, müqavilə 1998-ci ildə 30-cu ratifikasiya qramotasının Brüsseldə depozitariyaya təqdim olunmasından sonra qüvvəyə mindi. Hazırda müqavilə 51 dövlət tərəfindən imzalanmış (yalnız 46 dövlət ratifikasiya edib), 17 dövlət və 10 beynəlxalq təşkilat müşahidəçi statusu ilə buraya daxildir.

Enerji Xartiyası Müqaviləsinin əsas məqsədi – enerji sahəsində xartiya prinsipləri əsasında uzunmüddətli əməkdaşlığa nail olmaqdır. Müqavilənin ən əsas şərtlərindən biri enerji daşıyıcıları və məhsullarına investisiya qoyuluşu, ticarəti, nəqli və bu zaman meydana çıxa biləcək mübahisələrin həlli ilə bağlıdır.

Müqaviləni imzalayan tərəflər enerji sahəsində xarici investorlara əlverişli, sabit, şəffaf şərait yaratmalı idilər. Enerji daşıyıcıları və məhsullarının (EdM) ticarəti ÜTT qaydalarına uyğun aparılmalı idi. Bu o deməkdir ki, əgər müqavilə tərəfdarı ÜTT üzvü olmasa belə, enerji ticarəti siyasətini ÜTT-yə uyğun aparmalıdır.

EdM-nin ticarəti zamanı meydana çıxa biləcək mübahisələr qarşılıqlı anlaşma şəraitində həll olunmalı idi. Bu zaman əgər mübahisə Dövlət və fərdi investor arasında yaranarsa, beynəlxalq arbitraj məhkəməsi işə baxacaq. Əgər mübahisə iki dövlət arasında yaranarsa, diplomatik yolla ya da beynəlxalq arbitraj qaydası ilə həll olunacaq;

rəqabət qaydaları – hər bir üzv-dövlət enerji sektorunda məhdudiyyət və baryerləri aradan qaldırmalı, qanunvericiliyi azad rəqabətə uyğunlaşdırmalıdır;

şəffaflıq – tərəflərdən hər biri enerji sektorunda qanunvericilik, məhkəmə qərarları və inzibati qaydalar haqqında digər tərəfdaşını xəbərdar etməlidir;

suverenlik – hər bir üzv-dövlət beynəlxalq hüquqa əsasən öz ərazisi və təbii resursları üzərində suverenlik hüququna malikdir;

ətraf mühit – Müqaviləyə ətraf mühitin çirkləndirilməsi müqabilində müəyyən ödəmələr verilməsi prinsipi də əlavə edilmişdir. Hər bir üzv dövlət çalışdığı qədər enerji tsiklində ətraf mühitə təsirini azaltmalıdır;

vergilər – Müqavilə yeni vergi hüququ və öhdəlikləri yaratmır. Birbaşa vergilər milli qanunvericiliyin səlahiyyətində olaraq qalır.

dövlət və imtiyazlı müəssisələr - üzv dövlətin eksklüziv və xüsusi imtiyaz verdiyi dövlət müəssisələri və qurumları müqavilənin öhdəliklərini qəbul etməli, ona əməl etməlidir;

müqavilənin bütün şərtləri ratifikasiyadan sonra dərhal qüvvəyə minməyə də bilər. Bu, xüsusilə, keçid iqtisadiyyatlı ölkələrə aiddir. Onlar xüsusi qaydalarla müqavilənin bir hissəsini qəbul edə bilərlər;

Enerji üzrə Konfrans – müqavilə təşkilati struktur, vəzifə və maliyyə məsələləri ilə bağlı konfrans təşkil edir. Konfrans ildə iki dəfə toplanır, katibliyi Brüsseldə yerləşir;

müddət – müqavilə üzv-dövlətlərə onun qüvvəyə minməsindən 5 il sonra çıxma hüququ verir.

Göründüyü kimi, bu müqavilə Sovet İttifaqının dağılmasından sonra Qərb dünyasının, Qərb liberal iqtisadi metodunun qələbəsi demək idi. Avropanın Enerji təhlükəsizliyinin təmin olunmasında EXM böyük əhəmiyyət daşıyır. Avropa şirkətləri məhz EXM müddəalarına əsasən vaxtilə onların üzünə bağlı olan Xəzər və Mərkəzi Asiyanın enerji mənbələrinə çıxış əldə etmişlər. Enerji Xartiyası Müqaviləsi əvvəldə qeyd olunduğu kimi, bir çox ölkələr tərəfindən imzalansa da, bəzi dövlətlər müxtəlif səbəblərdən ratifikasiya etməmişlər. ABŞ müqavilənin hazırlanmasında yaxından iştirak etsə də, son məqamda ona qoşulmaqdan imtina etmişdir, əsas səbəb ABŞ-m istədiyi zaman Rusiya ilə ticarəti məhdudlaşdırma hüququnun onda saxlanılmasını tələb etməsidir. Rusiya və Norveç 1994-cü ildə onu imzalayan ilk dövlətlərdən olsalar da, hələ də ratifikasiya etməmişlər. Rusiya 1969-cu il Vyana konvensiyasının beynəlxalq müqavilə hüququndan çıxış edərək müqavilənin bir hissəsini qəbul etmişdir. Rəsmən Rusiya bildirir ki, tranzit tarifləri və atom yanacağı tsiklinə qarşı tətbiq edilən məhdudiyyət onu qane etmir, əslində isə Rusiya öz enerji bazarına xarici şirkətləri buraxmaq istəmir. 1996-cı və 2001-ci ildə Rusiya dumasında EXM-in ratifikasiyasma cəhd edilsə də, Qazpromun güclü lobbisi onun ratifikasiyasına imkan verməmişdir.

Hazırda Aİ-nin enerji siyasətində istehlakçılar daha ucuz enerji çatdırılması, daha yüksək keyfiyyətli, kəsintisiz xidmət göstərilməsi əsas hədəfi təşkil edir. Bu hədəfə çatmaq üçün bir sıra aspektlər nəzərə alınmalıdır. Buraya Avropadaxili enerji bazarınm tamamlanması, enerji daşıyıcılarının çatdırılmasmın təhlükəsizliyi, ekoloji problemlərin nəzərə alınması daxildir.

Bu gün Avropanın 20 dövləti (Avstriya, Belçika, Çexiya, Danimarka, Finlandiya, Fransa, Almaniya, Yunanıstan, Macarıstan, İslandiya, İrlandiya, İtaliya, Lüksemburq, Nidererland, Polşa, Portuqaliya, İspaniya, İsveç, İsveçrə, Böyük Britaniya) hər gün 37 mln. şərti enerji (ş.e.) istehlak edir.

Bu ş.e.-nin 40%-i neft, 24%-i təbii qaz, 12%-i nüvə enerjisi, 18%-i kömür, 6%-i isə hidroenerji şəklində istehlak olunur. Aİ-nin istehlak etdiyi enerjinin 50%-i əsasən neft və qaz şəklində Yaxın Şərq, Rusiya, Şimali və Şərqi Afrikadan idxal edilir. Əgər mövcud vəziyyət davam edərsə, 2030-cu ildə Avropanın 70% enerji tələbatı idxal əsasmda ödəniləcək.

Məhz yuxarıda sadalanan cəhətlər Aİ-nin enerji sahəsində zəif nöqtələrini əyani şəkildə göstərdi. Hazırda Aİ-yə daxil olan ölkələrdən yalnız Finlandiya, Böyük Britaniya və qismən Niderland enerji tələbatını öz ehtiyatları hesabına ödəmək qabiliyyətindədir, lakin getdikcə mövcud enerji mənbələrinin tükənməsi hasilatı çətinləşdirir və bahalaşdırır. Norveç dünyada adambaşına düşən enerjiyə görə birinci yerdədir, Aİ-yə üzv olmasa da onun enerji təhlükəsizliyi zəncirinin mühüm həlqələrindən birini təşkil edir. Aİ tam miqyasda enerji təhlükəsizliyinə nail olmaq üçün kompleks tədbirlər həyata keçirməli, enerji ixracatçıları ilə əlverişli sazişlərə nail olmalıdır.

Avropa hazırda dünya iqtisadiyyatının üç ən böyük mərkəzlərindən biridir. Sabit iqtisadi inkişaf davamlı və kəsintisiz enerji ilə bağlıdır. Enerji təchizatında 1 saatlıq kəsinti Avropa iqtisadiyyatı üçün milyardlarla avro zərərlə nəticələnir. Ukraynanın aqibəti çoxları üçün əsl dərs olmuşdur. Artıq dövlətlər üçün silahla hədələmək. atom şantajından istifadə "soyuq müharibə" ilə birgə tarixin arxivinə atılmışdır.

Avropanm hər gün istehlak etdiyi 37 mln. ş.e. insan fəaliyyətinin ərzaq istehsalmdan sənaye istehsalı, müdafiə imkanlarına qədər, hər bir evdə istilik və elektrik enerjisi ilə təminatma qədər bütün sahələrini əhatə edir. Avropamn enerji infrastrukturu 10 minlərlə km. boru kəmər, 115 emal zavodu, yüzlərlə elektrik stansiyalarından və kompleks elektrik şəbəkəsindən ibarətdir. Avropanm enerji təhlükəsizliyi bir sıra elementin kompleks təhlükəsizliyini tələb edir. Buraya infrastrukturun fiziki sazlığı, paylanma sisteminin bütövlüyü, qısa müddətli fasilə zamanı strateji ehtiyatların mövcudluğu daxildir.

Avropanın enerji infrastrukturu onun sərhədlərindən kənara çıxır, beləliklə Avropa dövlətləri öz enerji təhlükəsizliyi kontekstində ona qonşu regionların siyasi və hərbi təhlükəsizliyində, sabitliyində maraqlı olurlar.

Müasir şəraitdə Avropa üçün əsas enerji tədarükçüsü rolunda Rusiya, Azərbaycan, Qazaxıstan, Türkmənistan, İran, Səudiyyə Ərəbistanı və Şimali Afrikanın Ərəb dövlətləri çıxış edə bilərlər. Ancaq məlumdur ki, bu regionlar heç də sabit, problemsiz regionlar deyildir.

Aİ-nin enerji təhlükəsizliyində problemlər bir sıra daxili və xarici səbəblərlə bağlıdır. İlk növbədə Aİ-nin dövlətüstü qurum olmaması qeyd olunmalıdır. AB/Aİ tarixində bu məsələ çox müzakirə edilən mövzu olsa da, hələ də tam həlini tapmamışdır. Son illərdə Konstitusiya uğursuzluğu da bu qeyri-müəyyənlikdən irəli gəlir. Aİ, ilk növbədə, müstəqil dövlətlərin daha çox iqtisadi birliyidir. Müstəqil dövlətlər çox zaman enerji siyasətlərini öz trans-milli kompaniyalar vasitəsilə Enerji Xartiyası Müqaviləsinə uyğun şəkildə müstəqil yürüdürlər. Bu isə digər üzv-dövlətlərin narazılığı və problemlərlə müşayiət olunur. Bu problemlər bir-biri ilə sıx surətdə bağlıdır və dayanıqlı enerji təhlükəsizliyinə nail olmaq üçün problemlərin kompleks həlli gərəkdir. Daxili səbəblər:

1. Avropanın özünün enerji mənbələrinin tükənmə ehtimalı:

Avropa Kömür və Polad Birliyi bir neçə onillik ərzində Avropanın iqtisadi inkişafının əsas stimulu olmuşdur. Lakin yeni neft-qaz erasının başlanması, duru yanacağa tələbatın daha da artması, mövcud kömür hövzələrinin effektliliyinin azalması hasilatın baha başa gəlməsi yaxın gələcəkdə alternativ enerji mənbələrinin axtarılmasına gətirib çıxarmışdır;

Böyük Britaniyanın və Norveçin Şimal dənizindəki neft yataqlarında hasilat 1990-cı illərdə pik səviyyəsinə çatsa da tədricən azalmaqdadır. Qroninqen və Hollandiyanın qaz sektorundan təbii qaz təchizatı 1996-cı ildə maksimum səviyyədə olmuş, hazırda kəskin aşağı düşmüşdür. Avropanın kömür

hövzələrində üst qatda ehtiyatların tükənməsilə əlaqədar hasilatın baha başa gəlməsi daha ucuz idxalı şərtləndirir;

Atom enerjisi hazırda Avropa enerji təlabatının 12%-ni ödəyir, lakin gələcəkdə onun artacağını gözləmək olmaz. Belə ki, AES-lərdə qəzaların mümkünlüyü (Çernobıl qəzasının nəticələri hələ də Avropada qorxu yaradır), nüvə tullantılarının saxlanması və xərcləri problemi, köhnə AES-lərin bağlanması ehtimalı atom enerjisinin uzun müddət üçün Avropanın etibarlı enerji mənbəyi kimi götürməyə imkan vermir.

1957-ci ildə II Roma müqaviləsi ilə Avropa Atom Enerjisi Birliyi təsis edilmişdir. Əsas məqsəd altı üzvün atom sahəsində əməkdaşlığı və vahid atom enerji bazarını formalaşdırmaq olmuşdur. Yarım əsr ərzində atom enerjisi Avropanı sabit enerji ilə təchiz etmişdir.

Gələcəkdə yeniləşən (hidroenerji) alternativ enerji mənbələrinin Avropa enerji təchizatında əhəmiyyətli yer tutacağı şəksizdir. Yenilənən enerji mənbələri olan külək, hidro, günəş enerjisi və biokütlə sahələrinin inkişafı Avropa Komissiyasının enerji sahəsində ən əsas hədəflərindəndir.

Bunun səbəblərindən ən əsası artan Karbon dioksidin ($CO_2$) emissiyasını azaltmaqdır. Yeniləşən enerji mənbələrinin inkişafı enerji təchizatında davamlılığı artıra, digər enerji mənbələrindən asılılığı zəiflədə bilər. Yaxın gələcəkdə yeniləşən alternativ enerji mənbələrinin ənənəvi enerji mənbələri ilə uğurla rəqabət aparacağı gözlənilir. Avropa Komissiyasının "Ağ kitabı"na əsasən Aİ 2010-cu ilə qədər alternativ enerjinin payını 2 dəfə artırmağı (6%-dən 12%-ə qədər) nəzərdə tuturdu. Hazırda Avropanın bir çox tanınmış energetika şirkətləri olan BP, Total, ENİ şirkətləri alternativ enerji istehsalında mühüm nailiyyətlər əldə etmişlər. BP günəş enerjisinin tətbiqinə geniş investisiya yatırır, Fransanın Total şirkəti isə Atlantik sahilində külək və dəniz dalğalarından enerji almaq sahəsində tədqiqatları genişləndirir.

Əvvəldə də qeyd olunduğu kimi, Aİ-nin əsası 1951-ci ildə "Kömür-polad birliyi" haqqında əslində enerji sahəsində müqavilənin imzalanması ilə qoyulsa da, yarım əsrdən çox vaxt keçməsinə baxmayaraq hələ də Aİ-də vahid liberal enerji bazarı formalaşmamışdır.

Avropa Birliyi çərçivəsində daxili bazarın formalaşdırılması (maddə 95) və rəqabət qaydaları (maddə 81-89) haqqında ümumi şərtlər enerji sektoruna da aiddir. Ancaq müqavilənin 1985-ci ildə qəbul olunması və 1992-ci ildən etibarən Ümumi Avropa bazarının yaradılmasına başlanmasına baxmayaraq, enerji sektorunun açılması daha uzun sürmüşdür. Bu isə sektorun strateji önəmi, üzv-ölkələr arasında enerji sahəsinin dövlət mülkiyyətində və ya özəl şirkətlərdə olmasındakı fərqlərlə bağlı olmuşdur.

Avropa dövlətlərinin hər birinin daxili enerji bazarı liberallaşmanın müxtəlif səviyyəsindədir. 1996-cı ildə "Avropanın Daxili Enerji bazarı direktivi" qəbul edilmişdir, direktiv Avropada açıq və rəqabətli enerji bazarının yaradılması yolunda ilk qanunverici təşəbbüs olmuşdur. Layihəyə görə hər bir Aİ üzvü 1999-cu ilə qədər öz daxili enerji bazarına ən azı 25,37%-ni xarici şirkətlərin üzünə açmalı idi. Avropa Komissiyasının 13 mart 2001-ci il tarixli qərarı isə 2005-ci ilə qədər qaz və elektrik qiymətlərinin tam sərbəstləşməsini nəzərdə tutmuşdur. 2005-ci ildən etibarən bütün istehlakçılar öz elektrik təchizatçısını seçməkdə müstəqildir. Enerji bazarının liberallaşdırılmasında lider Böyük Britaniyadır, 1989-1998-ci illərdə burada enerji sahəsi tamamilə özəlləşdirilmişdir. Lakin bunu digər üzv-dövlətlərə aid etmək olmaz, Fransada, İspaniyada və s. enerji sahəsi hələ də yalnız dövlətin inhisarında qalmaqda davam edir. Bu isə oraya digər şirkətlərin daxil olmasını və vahid enerji bazarının formalaşmasını çətinləşdirir.

Enerji təhlükəsizliyini yalnız Aİ daxilində görüləcək kompleks tədbirlər nəticəsində gücləndirmək olar, lakin enerji təhlükəsizliyi fundamental olaraq xarici siyasət məsələsidir. Hər

bir dövlət öz enerji siyasətini müstəqil həyata keçirir. Hazırda Avropanın iri neft-qaz şirkətlərinin çoxu TMK-ya çevrilib və Avropadan kənarda neft və qaz sahələrinə investisiya qoymaqla Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verməkdədirlər. Bunlardan BP (BP-Amoco Böyük Britaniya-ABŞ), STATOİL (Norveç), TOTAL S.A. (Fransa). ENİ/Agip (İtaliya), Shell (Böyük Britaniya-Niderland) daha aktiv fəaliyyət göstərirlər. Bu şirkətlər əsasən hasilatın pay bölgüsündə iştirak edir, qoyduğu kapital müqabilində müəyyən pay (%-lə) alırlar, hasil olunduqdan sonra enerji daşıyıcısının həmin %-i o şirkətin ixtiyarına keçir, həmin şirkət bu payla istədiyi kimi davrana bilər, onu sata və yaxud daha uyğun qiymətə satmaq üçün müəyyən müddətə saxlaya bilər. Bu baxımdan bu şirkətlərin Aİ-nin enerji təhlükəsizliyinə xidmətləri danılmazdır.

Böyük Britaniya öz enerji siyasətini müstəqil yeridir, bu baxımdan Britaniyanın öz enerji mənbələrinin olması və öz-özünü enerji ilə təmin etməsi Ümumavropa enerji siyasətinə müəyyən maneələr yaradır. Britaniyanın Avropadan kənarda, dünya üzrə enerji siyasətini BP və Royal Dutch/Shell reallaşdırır.

BP hazırda dünyanın ən iri neft şirkətlərindən biri olaraq qalır, 1998-ci ildə ABŞ-ın Amoco şirkəti ilə birləşdikdən sonra fəaliyyəti daha da güclənib. Hazırda BP/Amoco dünyanın bir çox bölgələrində enerji daşıyıcılarının hasilatında, geoloji kəşfiyyat və nəqlində iştirak edir. BP/Amoco Şimal dənizi, Alyaska, Tunis, Rusiya, Azərbaycan, Qazaxıstanda fəaliyyət göstərməkdədir. Məsələn, Azərbaycanda Azəri, Çıraq, Günəşli yataqlarının istismarı üzrə bağlanan "Əsrin müqaviləsi"nə görə BP/Amoconun payı 31,11%, Şahdəniz yatağı üzrə 25,50%-dir.

Royal Dutch/Shell MLC 1907-ci ildə ABŞ-ın Standard Oil şirkətinə qarşı holland və ingilis şirkətlərinin birləşməsi nəticəsində yaranıb. Hazırda gəlirlərinə görə ikinci ən böyük neft şirkətidir. Daha çox Şimali Amerikada fəaliyyət göstərsə də, Əlcəzair, Tunis və Azərbaycanda (İnam yatağında 25%) bəzi layihələrdə iştirak edir.

Norveç krallığı Aİ-yə daxil olmasa da, onun enerji təhlükəsizliyində mühüm həlqəni təşkil edir. Lakin Norveç də öz enerji siyasətini müstəqil yeridir, hətta EXM-i ratifikasiya etməməsi də bununla əlaqədardır. Norveçin də transmilli şirkəti olan Statoil dünyada onun enerji siyasətini reallaşdırır.

Statoil 1972-ci ildə Norveç hökuməti tərəfindən yaradılan bu şirkət tezliklə Avropanın və dünyanın ən iri rəqabətə davamlı şirkətlərindən birinə çevrildi. Norveç hökuməti hələ də 70,9% səhmi öz əlində saxlayır. Statoil Şimal dənizi və Norveçin şelf zonasından əlavə Əlcəzair, Anqola, Azərbaycan ("Əsrin müqaviləsi" 8,56%, BTC-8,71%), Braziliya, Çin, İran, Liviya, Nigeriya, ABŞ, Venesuelada neft hasilatı və nəqli ilə məşğul olur. Statoil BTC, Zeepipe (Şimal dənizi-Belçika qaz kəməri), Franpipe (Şimal dənizi-Fransa qaz kəməri), Europipe kəmərlərinin səhmdarıdır.

Fransa öz enerji mənbələrinin məhdud (Fransada yalnız uran yataqları iqtisadi cəhətdən sərfəli hesab olunur) olması ilə əlaqədar həm Ümumavropa enerji siyasətini dəstəkləyir, həm də enerji ixracatçıları ilə əlverişli sazişlər imzalamağa çalışır. Fransanın Total şirkəti Fransa enerji siyasətində mühüm rol oynayır.

Fransanın Total S.A şirkəti XX əsrin əvvəllərində yaradılmış, hazırda dünyanın karbohidrogenlə zəngin bir çox yerlərində geoloji kəşfiyyat, hasilatla məşğuldur. 90-cı illərin əvvəlində İraqa qarşı iqtisadi sanksiyalar tətbiq edilən dövrdə Total "Ərzaq müqabilində neft" proqramı əsasında İraq neft potensialının 25%-ni təşkil edən Məcnun və Nəhr Umar yataqlarını istismar etmək hüququnu almışdı. Total hazırda Əlcəzair, Nigeriya, Azərbaycanda (Abşeron yatağında 20%, Lənkəran yatağınm 15%, BTC-də 5%) da yataqların istismarı və nəqli ilə məşğul olur.

İtaliya Avropanın digər bir iri enerji istehlakçısı olan İtaliyanın əlverişli coğrafi mövqeyi onu enerji ixracatçılarının ən etibarlı tərəfdaşı etmişdir. Şimali Afrika, Xəzər regionunun

nefti dəniz vasitəsilə İtaliya limanlarına və neft emalı zavodlarına daşınır. Emal olunmuş neft sonradan Avropaya çatdırılır. İtaliyanın ENİ şirkəti onun enerji siyasətinin əsas daşıyıcısıdır.

ENİ S.p.A./AGİP (Ente Nazionale İdrocarburi) İtaliya hökuməti tərəfindən 1953-cü ildə enerji strategiyasını vahid mərkəzdən idarə edilməsi məqsədilə yaradılmışdır. ENI S.p.A. Cənubi Avropada ən iri neft emalı zavodlarına malikdir, gün ərzində 933.000 barrel xam nefti emal edə bilər. Xam neft, əsasən, Liviya, Misir, Nigeriya, Konqo, Azərbaycandan gətirilir. Çin, Tunis, Əlcəzair və Azərbaycanda hasilatda iştirak edir. Azərbaycanda ENİ-yə məxsus AGİP şirkətinin Kürdaşı yatağında 25%-lik payı var.

BP və “Gaz de France Rusiyanın” Qazprom şirkəti ilə Avropanın şimalına mayeləşdirilmiş təbii qazın birgə çatdırılması barədə müqavilə imzalamışlar. Gələcəkdə Qazprom Sankt-Peterburq yaxınlığında iri həcmli mayeləşdirilmiş təbii qazın zavodu tikməyi planlaşdırır.

Artıq “ucuz neft” erası başa çatmışdır və 1970-ci illər neft şoku Avropa iqtisadiyyatını silkələdikdən sonra Avropa ölkələri dünya bazarında neftin qiymətindən nə dərəcədə asılı olduğunu bir daha dərk etdi.

1973-cü il “Yom Kippur” və ya “Məhşər günü” müharibəsinə qədər “ucuz neft” dövründə neftin 1 barreli 3-3,5 dollardan da aşağı olmuşdur. 1973-cü il Ərəb-İsrail müharibəsindən sonra qiymət 3 dəfədən çox artaraq 9.35 dollar (38,42 dollar, 2006) təşkil etmişdir. Bundan sonra isə İran inqilabı və İran-İraq müharibəsi dövründə neftin qiyməti XX əsr ərzində ən yüksək səviyyəyə 37,42 dollara (92,26 dollar, 1980) çatmışdır. “Səhrada tufan” əməliyyatı zamanı da neftin qiymətində qalxma müşahidə olunmuşdur. Bəzən OPEK də xam neftin qiymətinə təsir edir.

1997-ci ilin əvvəllərindən Asiya iqtisadi böhranı ilə əlaqədar qiymətlərin aşağı düşməsi müşahidə olunur, Kioto protokolunun imzalanmasından sonra daha da ucuzlaşır. 1998-ci ildə

OPEK öz rıçaqını iki dəfə işə salmalı olur, apreldə 1,25 mln., iyulda isə 1,335 mln. barel hasilatı azaldır. Lakin qiymətlərin qalxmasına yalnız 1999-cu ilin əvvəlində nail olunur.

11 sentyabr 2001-ci il ABŞ-da baş vermiş terror hadisələrindən sonra C.Buşun anti-terror əməliyyatları ilə bağlı çıxışlarının da neftin qiymətinə necə təsir göstərməsini görmək olar. Ümumiyyətlə, hazırda qlobal miqyaslı bir hadisənin baş verməsi neftin qiymətində öz əksini tapır. 2002-ci ilin dekabrında Venesuelada prezident Hüqo Çavesin əleyhinə qiyam baş verdi və bu hadisədən sonra neftin qiymətində dərhal artım müşahidə olundu, bu artım ABŞ-ın İraq kompaniyasma qədər davam etdi. Qalibiyyətli müharibə nəticəsində İraqa daxil olan ABŞ administrasiyası "İraqın neft kranı"nı açmaqla neftin qiymətini lazımi səviyyəyə gətirdi.

Lakin bundan təbiət öz şıltaqlığı ilə neftin qiymətində öz təsirini göstərdi. 2004-cü ilin avqustunda "Katrina" qasırğası nəticəsində neftin qiyməti 1,7 mln. barrel aşağı düşdü, qiymət 45 dollara qalxdı.

Hazırda xam neftin qiyməti 1 bareli 60 dollardan aşağı düşmür, bu OPEK, Rusiya, Mərkəzi Asiya, Şimali Afrika, Cənubi Amerika neft ixracatçıları üçün əlverişli olsa da, Avropa üçün qəbuledilməzdir. Avropa çalışır ki, dünyada statuskvo qalsın, məhz bu səbəbdən idi ki, Fransa, Almaniya NATO-nun Yuqoslaviya və ABŞ-ın İraq kompaniyasma razılıq verməmişdilər. Avropa dövlətlərinin Venesuelada çevriliş zamanı da Hüqo Çavesi dəstəkləməsi bu səbəbdən qaynaqlanır. Son dövrdə Asiya "pələng"lərinin böhrandan sonra inkişafa doğru irəliləməsi və Çinin enerji tələbatının artması ilə əlaqədar neftin qiyməti də tələb-təklif qanununa əsasən artmaqdadır.

Aİ özünü sabit enerji ilə təmin etmək üçün "neft ölkələri"nin şıltaqlığına göz yummalı olur, qeyri-sabit regionda mümkün qədər konfliktlərin açıq şəkil almamasına və ya mövcud konfliktlərin dondurulmasına (konservləşdirilməsinə) nail olmağa çalışır. Son illərdə Avropanm Yaxın Şərq sülh

prosesində aktiv fəaliyyəti bununla izah edilməlidir. Oslo-2 sazişi Avropanın böyük güclərinin təşəbbüsü və dəstəyilə bağlanmışdır. 1995-ci il 28 sentyabrda FAT və İsrail arasında Qərb sahili və Qəzza bölgəsi barədə müvəqqəti saziş imzalandı. Bu saziş sülh prosesini ölü nöqtədən çıxaran müqavilə olmuşdur. Sazişin imzalanmasında ABŞ, Aİ, Norveç, Rusiya fəal iştirak etmişdir. Sazişə görə Fələstinin 82 nəfərlik müvəqqəti hökumətinin seçilməsi və İsrailin nəzarətində olan ərazilərin tədricən Fələstinin idarəsi altına keçəcəkdi. Ərazilər 3 zona A, B, C zonalarına bölünür: A zonası 6 şəhər (Cenin, Kalkiliya, Tulkarem, Vifleem, Ramallah, Nablus cəmi 3% ərazi) daxil olmaqla bütünlüklə Fələstin Milli Administrasiyasının (FMA) hakimiyyəti altına keçir, B zonasında (cəmi 27% ərazi) FMA mülki, İsrail isə müdafiə sferasını həyata keçirir. C zonası tədricən danışıqlar prosesi gedişində FMA-ya ötürüləcəkdi.

Əvvəldə qeyd olunan ATƏT Avropaya qonşu olan regionlarda sabitliyin saxlanmasında əsas alətə çevrilmişdir. ATƏT-ə bir çox Avropa ölkələri ilə yanaşı, Qazaxıstan, Özbəkistan, Türkmənistanın da daxil edilməsi onu Avropada enerji təhlükəsizliyini həyata keçirən təşkilat adlandırmağa əsas verir. (Organisation Securite et Cooperation Energetique).

Aİ ölkələri, Avropa Şurası, ATƏT vasitəsilə Qafqazdakı münaqişələrin həllinə də cəhd göstərirlər. İlk növbədə, Azərbaycanın Ermənistanla müharibəsi, Gürcüstanın Abxaziya və Cənubi Osetiya münaqişəsi qeyri-müəyyən müddətə dondurulub. Hər iki dövlətdə münaqişə olması Xəzər regionu və Mərkəzi Asiya enerji daşıyıcılarının Avropa bazarına çıxarılmasında maneə ola bilər, odur ki, Avropa üçün münaqişənin ədalət prinsiplərinə əsasən dövlətlərin ərazi bütövlüyü çərçivəsində həlli əsas prioritet deyil, əsas məqsəd yeni toqquşmalara yol verilməməsidir. Azərbaycan və Ermənistanın Avropa Şurasına qəbul edilməsinin əsas şərti Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll edilməsi olmuşdu.

Əgər Avropa insan haqları və humanizm prinsiplərindən çıxış edirsə, nə üçün dünyada ABŞ-ın meydan sulamasına göz yumur. Avropa strukturları müxtəlif zamanda separatçı dövlətlərin keçirdikləri qanunsuz seçki və referendumları pisləməklə kifayətlənirlər, münaqişələrin həlli üçün konkret heç bir addım atmırlar. Moldova enerji nəqlinə mühüm dəhliz rolunu oynaya bilər. Moldovanm Dnestryanı münaqişəsi də eyni qayda ilə dondurulub, həmin müddətdə isə bəzi Avropa şirkətləri separatçı qurumlarla ticarət əlaqələrini genişləndirir, nəzarətsiz ərazilərdə geoloji kəşfiyyat işləri aparır, rəqabətsiz məkanda imtiyazlı bizneslə məşğul olurlar.

Aİ ABŞ-ın "demokratiya standartı"na uyğun gəlməyən Liviya, Əlcəzair, İran, Venesuela ilə münasibətləri inkişaf etdirməkdədir. Aİ-nin təbii qaza olan ehtiyacım 40%-ni Rusiyadan, 20%-ni Əlcəzairdən, cəmi 20%-ni Norveçdən idxal olunan təbii qaz hesabına ödəyir. Hazırda getdikcə artmaqda olan Rusiyadan təbii qaza görə asılılıq Aİ-ni narahat etməkdədir.

Dünya təbii qaz ehtiyatınm 1/3, neft ehtiyatmın 5%-nə malik olan Rusiya SSRİ dağıldıqdan sonra "Siyasi super güc" statusunu itirsə də, son illərdə özünü "Enerji super gücü" kimi göstərməyə başlamışdır. Rusiyanın əsas siyasi güc faktorunu "təbii qaz" oynayır. Məlumdur ki, Beynəlxalq təbii qaz bazarı mövcud deyil bu isə qaz ixracatçılarına qiymətlər üzərində monopoliya hüququ verir. Təbii qaz ticarətində "Take or pay" prinsipi fəaliyyət göstərir. 2006-cı ilin noyabrında Britaniyanm "Financial-Times" qəzetinin bir məqaləsi geniş diskussiyalara səbəb oldu. Məqalədə bildirilirdi ki, NATO-nun iclaslarından birində məxfi hesabatda gələcəkdə Rusiyanın qaz "OPEC"-i yaratmaq planı olduğu bildirilir.

Avropa təbii qazının 40%-ə qədərini verən Rusiya gələcəkdə onun əsas ixracatçısma çevrilmək istəyir. Rusiya keçmiş SSRİ müttəfiqləri və qonşu ölkələrin qaz hasilatında iştirak etmək, digər iri təbii qaz ixracatçıları İran, Əlcəzair, Qatar, Qazaxıstan, Türkmənistanın köməyilə "Qaz OPEC-i" (əslində OGEC)

yaratmaq istəyir. Lakin Rusiya məqalə çıxan kimi dərhal bunu təkzib etməyə tələsdi. Lakin Rusiya qaz birliyinin rəhbəri Valeri Yazov müsahibələrindən birində qeyd etmişdir ki, təbii qaz kartelinin yaradılması ideyası əslində V.Putinə məxsusdur. Onun fikrincə, gələcəkdə qaz istehsal və nəql edən ölkələrin milli qeyri-hökumət təşkilatlarının Beynəlxalq Alyansı yaradıla bilər. Bu məqaləyə Qazpromun da münasibəti birmənalı olmamışdır, onlar şərh verməkdən çəkinmişlər, qeyd etmişlər ki, qaz məsələsi çox incə yanaşma tələb edir və kəskin reaksiyaya səbəb ola bilər, xüsusilə Ukraynada. Lakin bəzi Qərb analitiklərinin fikrincə Rusiyanın bu ideyanı reallaşdırması imkansız görünür, hazırda Avropanın əsas qaz ixracatçıları Rusiya, Norveç və Əlcəzairlə razılaşacağı şübhə ltmdadır. Onaların razılığı olmadan isə Rusiya heç nəyə nail ola bilməz, çox güman ki, Rusiya bununla öz "enerji super gücü" olmasmı və nələrə qadir olduğunu göstərmək istəyir.

Hazırda Rus kapitalı başda QazpromBankQrup olmaqla Avropanm digər böyük banklarınm Kommersbank, Drezdenbank, Raiffeisenbank, Deutschebankın səhm paketinə malik olmaqla Avropa maliyyə bazarma daxil olmaqdadır. Rusiyanm dövlət payı 50,01% olan Qazprom şirkəti Avropa və dünyada həyata keçirilən layihələrdə səhm paketinə sahib olaraq onların fəaliyyətində iştirak edir. Bu, Rusiyanın strateji siyasətinə cavab verən faktorlardan biridir.

İranın özünün "dinc" nüvə proqrammın inkişaf etdirilməsində inamlı göstərməsində Avropanın və eləcə də ABŞ-ın ondan nə dərəcədə asılı olduğunu dərk etməsi də az rol oynamamışdır. Dünyada neft ehtiyatına görə ikinci olan İran dünyada neftin qiymətinə kifayət qədər təsir imkanına malikdir. ABŞ da nə vaxta qədər ki, İran neftinə alternativ tapmayıb. Molla rejiminə qarşı hərbi əməliyyatlara başlamağı gözləmək sadəlövhlük olardı. Lakin İraq nefti və Bakı-Tbilisi-Ceyhanm da işə düşməsi, görünür, ABŞ-a yetərli alternativ verməyib.

2002-ci ilin dekabrmda İran İslam Respublikası Prezidenti M.Hatəmi rəsmi səfərlə İspaniyada olmuşdur. Bu səfər İranm beynəlxalq təcriddən çıxması və Avropa ilə yaxınlaşmasını göstərməkdə böyük rol oynamışdır. İranm ən böyük ticarət tərəfdaşları İtaliya, Almaniya və Fransa olsa da, İspaniya ilə də ticarət 5 mlrd. avro həcmində qiymətləndirilir. İspan şirkəti Cespa isə İranda əlverişli şərtlər daxilində körfəz neftinin hasilatı ilə bağlı müqavilə imzalamışdır. Avropa dövlətlərindən İtaliya, Almaniya və Fransanın Yaxm Şərqdə ən mühüm ticarət tərəfdaşlarından olan İran neft ehtiyatına görə ikincidir və Avropa üçün çox əhəmiyyətlidir.

2005-ci il seçkilərində İranda Mahmud Əhmədinejatın hakimiyyətə gəlməsindən sonra İran açıq şəkildə anti-İsrail və anti-ABŞ şüarlar səsləndirməkdədir. Hətta yeni administrasiya İranın Atom proqramını da yenidən başlamaq qərarma gəlmişlər. 2006-cı ilin fevralında ATEBA-da İranm atom məsələsinə baxılmış və 27 səs lehinə, 3 əleyhinə (Venesuela, Kuba, Suriya), 5 bitərəf (Əlcəzair, Belorus, İndoneziya, Liviya, CAR) olmaqla BMT-nin TŞ-da baxılmasına qərar vemişlər. 2006-cı ilin 13 aprelində M.Əhmədinejat rəsmən İranın uranı zənginləşdirdiyini bəyan etdi, Rusiya da İranm dinc atom proqramına yardım etməklə barədə bəyanatla çıxış etmişdir.

Cənubi Amerikada Venesuela anti-ABŞ cəbhəsinə başçılıq edir. Hüqo Çaves 2002-ci ilin aprelində hərbçilərin çevrilişi nətcəsində 3 günlük hakimiyyətdən uzaqlaşdırılmışdı. Az sonra öz postuna qayıdan Çaves dövlət çevrilişində ABŞ-ın əli olmasını bildirdi, çevriliş zamanı Venesuelanın sahillərində radarda ABŞ hərbi vertolyotunun görünməsi onun əsas dəlilidir.

ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi bunu təkzib etsə də, bəzi qəzetlər MKİ-nin bu uğursuz əməliyyatını ifşa etdilər. Məhz bu dövrdən Venesuela prezidentinin Buş administrasiyasma qarşı antipatiyası daha da güclənmişdir.

Hazırda Çaves Fidel Kastrodan sonra Latın Amerikasında anti-ABŞ hərəkatına başçılıq edir. Bu hərəkata Latın

Amerikasının sosialist inkişaf yolu seçmiş. Venesuela, Boliviya, Kuba, Salvador, Çili dövlətləri daxildir. Son illər Cənubi Amerikada seçkilərdə sosialist meyilli partiyalar uğur qazanır, 2006-cı il seçkilərində Venesuelada yenidən Hüqo Çaves, Boliviyada solçu Evo Morales, Çilidə mərkəz-solçu xanım Mişel Boşe prezident seçilmişlər bu isə, ABŞ-ın "Monro doktrinası" ilə öz həyati məkanı elan etdiyi Cənubi Amerikanın getdikcə onun əlindən çıxması deməkdir. Hüqo Çaves 2006-cı ilin sentyabrında BMT-nin Baş Assambleyasındakı çıxışında Corc Buşu dünya ağalığına cəhddə ittiham etmiş, onu "Şeytan" adlandırmış, törətdiyi cinayətlərə görə cəzasını alacağını bildirmişdi. Çaves, həmçinin, Venesuelanm BMT TŞ-na daimi üzvlüyə qəbul olunmasını təklif etmiş, Rusiya, Çin, Ərəb Liqası, Boliviya, Çili, Kuba, Afrika dövlətləri Birliyinin bu təklifə müsbət münasibət bildirdiklərini elan etmişdi.

Liviya Afrikada ən çox neft ehtiyatına malik ölkədir. Təsdiq olunmuş ehtiyatı 3,7 trln. barel, ildə 274 mln barrel hasil edir. 1969-cu il dövlət çevrilişindən sonra Liviyada neft sənayesi milliləşdirilmiş, 1973-cü il neft embarqosunda yaxmdan iştirak etmişdir. Liviya xüsusi xidmət orqanları 1988-ci il Pan Am Flight 103 və 1989-ci il UTA Flight 772 təyyarə reyslərində terror aktlarınm həyata keçirilməsində ittiham edilirlər. Bununla da Liviya terroru dəstəkləyən dövlətlər sırasına daxil edilmiş və 1993-cü ildən BMT-nin sanksiyalarına məruz qalmışdı. 2003-cü ildən Liviya lideri M.Qəddafi Qərb dünyası ilə münasibətlərin normallaşdırılmasına doğru addımlar atmışdır. Liviya rəsmən kütləvi qırğın silahı istehsalından əl çəkdiyini və Pan Am Flight 103 və UTA Flight 772-dən zərərçəkmişlərə 3 trln. dollar kompensasiya ödəməyə hazır olduğunu bildirmişdir. Liviya Aİ ilə münasibətlərini də normallaşdırır.

Hazırda Liviya da "arzuolunmaz" dövlətlər sırasına daxil olsa da, neft faktoru öz sözünü deyir. Aİ ona ən yaxm olan enerji mənbələrindən biri olan Liviyanı itirmək istəmir, onunla əməkdaşlığı artırır. Liviya da Avropa üçün öz əhəmiyyətini dərk

edir və öz mövcudluğunu sürdürür. Son illər Liviyanın adı İran, Suriya, Şimali Koreya olan "qara siyahı"da səslənmir, burada son illər Liviyanın mövqeyindəki dəyişikliklərin də müəyyən rolu olmuşdur.

Bütün qeyd olunanlara əlavə onu qeyd etmək olar ki. sadalanan dövlətlər arasında yaxınlaşma meyli sezilir. Rusiya-İran atom enerjisi sahəsində, Rusiya-Venesuela hərbi sahədə, İran-Venesuela siyasi sahədə əməkdaşlıq edir, bir-birilərini dəstəkləyirlər. Qeyd olunan Qaz Opekinə Rusiya, İran, Liviyanın da qatılmaq ehtimalı səslənməkdədir. Bu dövlətlər bəzi böyük dövlətlər üçün "arzuolunmaz" hesab olunsalar da, onlar qarşısında aciz deyillər, ən azı enerji faktoru onlar üçün etibarlı silah və sipərdir.

Aİ-nin birbaşa danışıqlar yolu ilə enerji təhlükəsizliyini təmin etmək cəhdləri istiqamətində Aİ-Rusiya dialoqu 2000-ci ilin oktyabrında başlanıb. Dialoqa görə Rusıya Avropa şirkətlərinin öz iri enerji mənbələrinə girişini asanlaşdırmalıdır. 2001-ci ildə EXM-ə tranzit qaydaları haqqmda əlavə uzun sürən müzakirələrdən sonra qəbul olunmamışdır. Rusiyanın əsas ehtiyatı odur ki, EXM-nə görə ümumi enerji infrastrukturuna malik olaraq Mərkəzi Asiya dövlətləri rus kəmərlərindən istifadə etməklə öz daha ucuz qaz və neftini Avropa bazarına çıxaracaqlar, bu, Rusiyanm bazarına mənfi təsir göstərə bilər.

Avropa-Rusiya dialoqu 2006-cı ildə "Böyük səkkizlərin" Sankt-Peterburqdakı sammitində də müzakirə olunmuşdur. Lakin enerji təhlükəsizliyini hərə özünə sərf edən qaydada təfsir edir. Əgər Avropa bunu Rusiyanın daxili enerji bazarının rəqabət üçün açılması, Qazpromun monopoliyasına son qoyulması, biznes mühitinin inkişafı, Kioto Protokoluna əsasən ekoloji əməkdşlıqda görürsə, Rusiya Avropanm enerji təhlükəsizliyində müstəsna rol oynamaq istəyir. Onun əsas enerji təminatçısına çevrilmək istəyir. Aİ üçün Rusiya olduqca əhəmiyyətli qaz ehtiyatına malikdir. Lakin Avropa ölkələri Rusiyanın səmimiliyinə inanmır və ona alternativ olaraq

digər enerji daşıyıcıları ixracatçıları ilə də paralel danışıqlar aparır.

Hazırda əsas müzakirələr iqtisadi hüquqi, təhlükəsizlik, tədqiqat sahələrində aparılsa da ümumi nəticəyə gəlinməmişdir. Aİ ölkələri ayrı-ayrılıqda Rusiya ilə danışıqları davam etdirirlər.

Aİ-OPEK dialoquna gəlincə, OPEK Avropanın enerji təhlükəsizliyində həmişə müstəsna – həm müsbər bəzən də mənfi rol oynamışdır; 1970-80-ci illərin neft şoku məhz OPEK ölkələri ilə bağlı olmuş, bəzən OPEK neftin ucuzlaşmasının qarşısını almaq üçün hasilatı azaltmaqla onun qiymətinə təsir etmişdir. Avropa iqtisadiyyatını çətin sınaqlar qarşısında qoymuşdu.

Aİ hazırda neftin 40%-ni OPEK ölkələrindən idxal edir. Aİ-OPEK arasında ilk ikitərəfli görüş 10 iyun 2005-ci ildə olub. Aİ OPEK ölkələrindən səhmlər, investisiyalar sahəsində şəffaflığı təmin etməyi istəmişdir. OPEK öz növbəsində Aİ-ni barreli 35-55 dollar olmaqla daimi neftlə təmin etməyi öhdəsinə götürmüşdür. Lakin son illərdə neftin qiyməti daha da artmışdır. 2006-cı ildə Aİ növbəti ikitərəfli görüşdə qiymətin daha da artmasına təsir etməyi, daşınma və çatdırılmada problemləri həll etməyi müzakirə etmişdir.

Xəzər regionu Bakı-Tbilisi-Ceyhan Avropanın enerji təhlükəsizliyi zəncirində son dövrdə əhəmiyyəti daha da artan həlqələrdən biridir. BTC haqqında müqavilə 1999-cu ildə ATƏT-in İstanbul sammitində imzalanmış, uzun sürən müzakirələrdən sonra bütün problemlər həll olunmuş, 2002-ci ilin sonlarında kəmrin inşasına başlanmış, dörd ilə hazır edilmişdir. Rusiya bu kəmərin çəkilişinə mane olmaq üçün bütün vasitələrə əl atmışdır. Gürcüstanda Borjomi dərəsinin ekoloji vəziyyəti əlavə xərclər tələb edilmişdi. Hətta Rusiya Prezidenti B.Yeltsin BTC haqqında müqavilənin imzalanmasına etiraz əlaməti olaraq sammiti yarımçıq tərk etmişdi.

Kissincerin sözləri ilə desək, Azərbaycan Mərkəzi Asiyanın zəngin neft ehtiyatlarının Qərbə çatdırılmasında əsas tıxac

rolunu oynayır. BTC-nin reallaşdırılması Azərbaycanın rolunu daha da artırmış, artıq Qazaxıstan da kəmərə qoşulmuşdur. Hazırda qazax nefti tankerlərlə Sanqaçal terminalından BTC-yə ötürülür.

2006-cı ilin 25 mayında işə düşmüş BTC, əsasən, Qərbin qeyri-sabit OPEK. Orta Şərq və Rusiyadan enerji asılılığını zəiflətmək üçün istifadəyə verilmişdir. BTC-nin daha bir enerji idxalçısı olan İsrail üçün də əhəmiyyətli rol oynayacağı proqnoz edilir.

Orta Şərq və İran körfəzi ölkələrinə gəlincə Aİ Yaxın Şərq sülh prosesində əsas aktor və regionda təhlükəsizliyin əsas agenti olmaq ambisıyasındadır. OPEK-lə dialoqla yanaşı, Aİ Komissiyası Körfəz Əməkdaşlıq Təşkilatının (KƏT) üzvü olan 6 dövləti ilə də əməkdaşlıq sazişləri imzalamışlar. Əməkdaşlıq 1990-cı illərin əvvəlində dayandırılsa da 2001-ci ildən bərpa edilmişdir. KƏT dövlətləri dünyanın 45% neft ehtiyatına malikdirlər. Aİ-Körfəz adlı növbətı görüş 2 aprel 2005-ci ildə keçirilmişdır.

Cənubi-Aralıq dənizi istiqaməti də əhəmiyyətldir. 1995-ci ildə Barselonada başlanan Avropa İttifaqı ölkələri ilə Əlcəzair, Misir, İsrail, İordaniya, Livan, Mərakeş, Fələstin muxtariyyəti, Suriya, Tunis və Türkiyə xarici işlər nazirlərinin görüşü keçirilmişdir. Bu görüş həm siyasi, həm də iqtisadi əhəmiyyət daşımışdır. Aİ Aralıq dənizi regionunda əsas oyunçu kimi özünü göstərmiş, bu regionu sülh regionuna çevirmək istəyini bildirmişdir. Təbii ki, Avropaya ən yaxın neftlə zəngin olan bu bölgə onun üçün həyati əhəmiyyət daşıyır və bu regionda sabitlik Aİ-nin ən əsas məqsədidir. 2010-cu ilə kimi Avro-Aralıq regionunun Azad Ticarət zonasına çevrilməsi nəzərdə tutulurdu. Əlcəzairin təbii qaz ehtiyatı Aİ-nin Rusiyadan olan asılılığının zəifədilməsində əsas rol oynaya bilər. Hazırda Aralıq dənizinin dibi ilə neft və qaz kəmərlərinin layihələşdirilməsi və reallaşdırılması davam edir. Son illər mayeləşdirilmiş qazın ixracı da armışdır.

Cənub-Şərqi Avropa Enerji Birliyi (CŞAEB) 2005-ci ilin yayında imzalanmışdır. CŞAEB elektrik və qaz sektorlarını əhatə edən, Aİ ilə imzalayan tərəflərin enerji qanunvericiliyini koordinasiya etmək və inteqrasiya edilmiş bazara malik olmaq üçün imzalanmışdır. İmzalayanlar Aİ tərəfindən Avstriya, Yunanıstan, Macarıstan, İtaliya, Sloveniya, digər tərəfdən Albaniya, Bosniya və Herseqovina, Bolqarıstan, Xorvatiya, Makedoniya, Rumıniya, Serbiya-Çenoqoriya, Türkıyə və Kosovodur. Müqavilə Cənub-Şərqi Avropada siyasi-iqtisadi sabitlik və inkişafa nail olmağı əsas hədəf seçmişdir.

Baltik Dənizi Regionunun Enerji Əməkdaşlığı (BDREƏ) 1999-cu ildə Almaniya. Danimarka, Estoniya, Finlandiya, İslandiya, İsveç, Latviya, Litva, Norveç, Polşa və Rusiyanın enerji nazirlərinin və Aİ-nin fəaliyyəti ilə başlamışdır. BDREƏ-də Rusiyadan enerji asılılığının azalması kontekstində sabit enerji təchizatı təhlükəsizliyi, regiondakı qaz tranzit xətlərinin vəziyyəti əsas prioritet məsələlərdəndir. Gündəlikdə, həmçinin, enerji effektliliyi, iqlim dəyişkənliyi, bioenerji kimi yeniləşən enerjiyə keçid də qoyulmuşdur. 2005-ci ildə Rusiya 5 mlrd. dollar dəyərində ŞAQ-ın tikintisinə başlayacağını bəyan etmişdir. Bu da BDREƏ çərçivəsinə sığmır.

Arktika enerji gündəliyi ABŞ, Aİ, Norveç, Rusiya arasında Arktikanın enerji ehtiyatlarının gələcəkdə işlənməsinə dair ilk dəyirmi masa 7 iyul 2005-ci ildə keçirilmişdır. Tərəflər birgə bəyanatla Arktikanı Avropanın yeni neft əyaləti elan etmişdilər. Lakin qeyd olunmuşdu ki, iqtisadi fəaliyyət Arktikanının ekologiyasını pozmamalıdır.

Aİ mayeləşdirilmiş təbii qazın idxalını artırmalıdır. Avropaya Xəzər və İran təbii qazının çatdırılması üçün yeni Nabucco qaz kəmərinin çəkilişı planlaşdırılır. Azərbaycanda tikintisinə başlanılmış Bakı-Tbilisi-Ərzurum qaz kəməri bu layihənin bir hissəsi hesab olunmalıdır. Layihəyə görə ildə Azərbaycan 10-14 mlrd. kub metr, İran 10-20 mlrd. kub metr, Misir 8-10 mlrd. kub metr qaz verəcək. Layihəyə İraqın və

Qazaxıstan və Türkmənistanın da qoşulacağını nəzərə alsaq, bu layihə Avropa üçün çox əlverişli ola bilər.

2007-ci ildən Rumıniya və Bolqarıstan da Aİ-nin tam hüquqlu üzvü oldu. Üzvlüyə namizəd ölkə olan Türkiyənin Aİ-yə qəbul olunması ilə birgə onun tranzit ölkə kimi əhəmiyyəti daha da artmış olar. Aİ çərçivəsində əlverişli daşınma haqqında sazişlərin imzalanması ilə enerji daşıyıcılarının qiymətini azalmağa nail olmaq mümkündür. Lakin Türkiyənin Aİ-yə qəbul olunması hələ uzun müddətli müzakirə mövzusu olaraq qalmaqdadır. Bundan əlavə, uzaq perspektivdə Azərbaycan və Gürcüstanın da Aİ-yə qəbul olunması Avropanın enerji təhlükəsizliyi baxımından səmərəli ola bilər. Mərkəzi Asiya enerji daşıyıcılarının BTC vasitəsilə Avropa bazarına çıxarılmasında əsas dəhliz rolu oynayan Azərbaycanın Aİ-yə daxil edilməsilə birgə Avropada öz enerji mənbəyinə malik olan dövlətlərin sayı arta bilər, enerji sahəsində əlverişlı zəmanətə sahib olmaq olar. Lakin ilk öncə bu ölkələrdə münaqişələrin tamamilə həlli olunması lazımdır. Bu isə iqtisadi yox, daha çox siyasi məsələdir.

## 8.4. Almaniya Federativ Respublikasının müasir Avropada yeri

Almaniyanın birləşməsi Avropa geosiyasi qüvvələr balansı üçün əsl partlayış oldu. ADR-in birləşdirilməsi AFR-ə Şərqi Avropa dövlətinə çevrilməsinə və Avropada aparıcı qüvvə olmağa imkan verdi. Makinder qeyd etmişdir ki, "Şərqi Avropanı idarə edən, "hartləndi" də idarə edir, "hartləndi" idarə edən isə dünyanı idarə etmiş olur". Almaniya bütün dünyada dominantlıq etməsə də, amma birləşməklə o, öz müvqeyini əhəmiyyətli dərəcədə gücləndirmiş və Avropanın aparıcı dövlətlərindən birinə çevrilmişdir.

AFR Avropa İttifaqında inteqrasiya siyasətini aktiv şəkildə həyata keçirən dövlətlərdən biridir. Məhz AFR Avropanın özünəməxsus inteqrasiya siyasətinin təkanverici qüvvəsi olmuşdur. Aİ-də Alman iqtisadiyyatının xüsusi çəkisi 40%-dir. Bu, İngiltərə və Fransanın birlikdə götürülmüş potensialından daha çoxdur. Almaniyanın payına Aİ-də olan bütün büdcə gəlirlərinin 30%-i düşür. Aİ əhalisinin 22%-i AFR-in payına düşür. Almaniya güman edir ki, məhz o, bütün Avropanı birləşdirməlidir və bu ideya bir çox Avropa dövlətini təmin edir.

Ukrayna, Moldova və Baltikyanı ölkələr üçün Almaniya ilə ittifaq daha məntiqə uyğundur. Rus alimi A.Duqinin haqlı olaraq qeyd etdiyi kimi, "keçmiş SSRİ-nin qərb rayonları böyük Avropa ərazisinin şərq sərhəd rayonu olmaq şansı əldə edəcəklər". Almaniyanın məqsədi BMT-nin Təhlükəsizlik Şurasının tamhüquqlu üzvü olmaqdır. AFR-in hərbi qüvvələri, şübhəsiz ki, Avropada ən güclüdür. Onun sayı NATO silahlı qüvvələri tərkibində Mərkəzi Avropada və Şimal dənizi rayonlarında quru qüvvələr 50%, tank birləşmələri 60%-dən çox, 30% döyüş təyyarələri və hərbi dəniz qüvvələri təşkil edir. Bundesfer NATO-nun Avropada özəyi rolunda çıxış edə bilər. Hazırda Almaniya nüvə silahına və onun daşınması vasitələ-

rinə – strateji aviasiya, operativ-strateji və strateji raketlərə, kosmik silah sisteminə malik deyil. AFR-in hərbi sistemi ABŞ hərbi qüvvələrinin Avropada saxlanılması kimi formalaşmışdır ki, bu da ona sərbəst şəkildə hərbi əməliyyatlar keçirməyə imkan vermir. Beləliklə, AFR-in iqtisadi zona yaratmaq üzrə fəaliyyəti onun hərbi cəhətdən zəif olduğuna görə əvvəlcədən mümkünsüz görünür. Bundan əlavə, Almaniyanın bir neçə obyektiv geosiyasi problemləri var:

Birincisi, Fransa ilə mübarizə. O, kifayət qədər müstəqil siyasət yürüdür, nüvə silahına, strateji və ballistik raketlərə, kosmik sistem və strateji aviasiyaya malikdir. Almaniyanın soyuq müharibə ərəfəsində parçalanmış vəziyyətdə olması və XX əsrdə onun başına gəlmiş hadisələrdən tam özünə gəlməməsini nəzərə alsaq, Fransa Avropanın birləşdirilməsi ideyasını öz üzərinə götürə bilərdi. İlk dəfə olaraq suveren dövlət ideyasını ortaya qoyan və millətçilik ideyasını dövlət dini səviyyəsinə qaldıran bir dövlət təbii olaraq eyni pafosla Avropanın birləşdirilməsi ideyasını irəli sürməkdə haqlı idi. Başda Fransa olmaqla Avropanın qüdrəti həm də Fransanın qüdrəti demək olardı.

Fransa nə az, nə çox, orta rütbəyə malik Avropa dövlətidir. Buna görə də, vahid Avropanın qurulması üçün Almaniya Fransanı dəsətəkləməyə hazırdır, lakin, Avropada təhlükəsizliyin təmin olunmasında Fransanı izləmək istəmir. Almaniya o mövqedən çıxış edir ki, Avropa təhlükəsizliyində mərkəzi rolu məhz ABŞ oynamalıdır. Bu reallıq Fransaya hörmətsizlik Almaniyanın birləşməsindən sonra daha aydın ifadə olunmağa başladı. Bu zamana qədər franko-alman barışığı dinamik Alman iqtisadiyyatı üçün əlverişli dayaq olan Fransanın siyasi liderliyi fonunda görünürdü. Belə təəssürat yaranmışdı ki, Avropa quruculuğunun başında iqtisadi cəhətdən Qərbi Almaniya dinamik şəkildə dəstəklədiyi Fransa dayanır. Amma Almaniya və Fransa öz dostluqlarını axıra qədər qoruyub saxlaya bilmədilər və bu gün Avropada liderlik uğrunda

mübarizə aparırlar. Berlin divarınm çökməsindən sonra Fransa prezidenti Almaniyanın birləşməsinə mane olmağa çalışdı.

1989-cu ilin dekabr aymın əvvəlində Çində olan Mitteran qeyd etdi ki, Almaniyanın birləşməsinə imkan vermək olmaz, bu, Avropada qüvvələr balansım məhv edə bilər. Amma Almaniyanın birləşməsi də Avropa siyasətinin xarakterini dəyişdi. O, eyni zamanda, Rusiya və fransa üçün siyasi məyusluq doğurdu. Birləşmiş Almaniya nəinki Fransanın gənc müttəfiqi olmaqdan məhrum oldu, həm də avtomatik olaraq Avropanın aparıcı dövlətinə çevrildi və bir sıra mühüm beynəlxalq institutların maliyyə cəhətdən dəstəkçisinə çevrildi.

Yeni reallıq Fransa-Almaniya qarşılıqlı münasibətlərində məyusluq yaratdı, çünki Almaniya gələcək Avropanın idarə edilməsində artıq Fransanın əlaltısı deyil, sərbəst şəkildə iştirak etmək istəyini ifadə etdi.

Almaniyanın Avropam öz rəhbərliyi altında birləşdirməsinə mane olan digər faktor ABŞ-dır. Uzun illər "soyuq müharibə" dövründə ABŞ AFR-in təhlükəsizliyinə zəmanət vermişdir. Digər tərəfdən AFR ABŞ-ın Avropada mövqeyinin əsas aparıcısı idi. "Soyuq müharibə"nin başa çatmasından sonra Almaniya üçün bu əlaqələr daha mühüm əhəmiyyət daşımağa başladı. Əvvəllər ABŞ Almaniyanı xarici hədələrdən qoruyur və ölkənin birləşməsi üçün ən mühüm şərt idi. SSRİ-nin buraxılması və Almaniyanın birləşməsindən sonra Amerika ilə əlaqələr "çətir" rolunu oynamağa başladı və onun qanadları altında qonşularına təhlükə yaratmadan Avropanın birləşdirilməsində liderliyə daha sərbəst iddia edə bilərdi. Amerika ilə əlaqələr yalnız xoşməramlı münasibətlərin göstəricisi deyil, eyni zamanda, Almaniyanın qonşularına bu iki ölkə arasında əlaqələrin sıx olduğunu göstərdi. Bütün bunlar Almaniyaya öz siyasi prioritetlərini daha aydın şəkildə müəyyənləşdirməyə imkan verdi. Amma Almaniyanm birləşməsindən sonra o, Avropa siyasətində mərkəzi rol oynamağa iddia etdi ki, bu da ABŞ-ın maraqlarına cavab vermirdi. Belə ki,

Bjezinskiyə görə "ABŞ üçün Avropada rəhbərliyə iddia edəcək dövlətin meydana gəlməməsi həyati vacib idi". Almaniya bilir ki, Avropanın birləşdirilməsi ABŞ-ın iştirakı olmadan mümkün deyil.

Almaniyanın Birləşmiş Avropada açıq şəkildə özünü təsdiq etməsi məsələsində çevriliş məqamı 90-cı illərin ortasında Almaniya-Polşa münasibətlərinin tənzimlənməsi oldu. Başlanğıcda istəyin olmamasına baxmayaraq, birləşmiş Almaniya Polşa ilə Oder-Neys xətti üzrə daimi sərhədləri tanidi və bu addım Polşaya Almaniya ilə daha sıx münasibətlər yaratmağa imkan verdi.

Polşa və Almaniya arasında ticarətin həcmi birdən artdı: Bundan əlavə Polşa Aİ və NATO-ya üzv seçilməsi üçün daha ciddi səy nümayiş etdirdi. Mübaliğəsiz demək olar ki, 1990-cı illərin ortalarında alman-polyak münasibətləri franko-alman tənzimlənməsinin həyata keçirildiyi Qərbi Avropaya nisbətən Mərkəzi Avropa üçün daha böyük əhəmiyyət kəsb edirdi. Polşa vasitəsilə Almaniyanın nüfuzu şimalda Baltikyanı respublikalara, şərqdə Ukrayna və Belarusa yayıla bilər. Bundan əlavə, alman-polyak əməkdaşlığı müəyyən dərəcədə Polşanm bir neçə dəfə Avropanm gələcəyi məsələsinə dair mühüm franko-alman diskussiyalarında iştirakı nəticəsində də genişlənmişdir. "Veymar üçlüyü" Avropa qitəsində aydın ifadə olunmuş milli mənsubiyyət hissinə malik 18 milyon əhalini əhatə edən geosiyasi "ox" yaratmışdır. Bir tərəfdən, bu, Avropada Almaniyanm rolunu daha da möhkəmləndirdi, digər tərəfdən isə üçtərəfli dialoqda Fransa və Polşanın iştirakım bərabərləşdirdi.

Almaniyanm birləşməsindən sonra çevik reaksiya ruhunda alman-rus münasibətləri inkişaf etməyə başladı. Almaniyanm birləşməsinə razılıq verməklə SSRİ kobud səhvə yol vermiş oldu ki, bunun da nəticəsini Rusiya çəkməli oldu. O, geosiyasi cəhətdən güclü simaya çevrildi və Qərbə Şərqi Avropaya çıxmaq imkanı verdi. Əlbəttə, Almaniyanın birləşməsi ani bir birləşmə

ola bilərdi, amma tarixi şəraitdə o, həqiqətən də ani oldu. Ola bilsin ki, Rusiyadan daha böyük güzəşt gözləmək lazım idi. Amma Rusiya və Almaniya NATO-nun genişlənməsi, Yuqoslaviyada baş verən hadisələrə müxtəlif prizmadan yanaşır, Avropa təhlükəsizliyinin təmin edilməsi məsələsində tez-tez mübahisə edirdilər. İkitərəfli münasibətlərdə də çoxlu həll edilməmiş məsələlər qalmaqda idi, Almaniyanın əsas cəhdi Avropanı birləşdirməkdir və Rusiya özü üçün əlverişli olmayan vəziyyətə düşmək istəmirsə, bu prosesə qoşulmalıdır. Belə olan halda Almaniya və Rusiyanın Fransaya qarşı geosiyasi ittifaq yaratmaq perspektivi ortaya çıxır və qarşılıqlı əlaqələrin möhkəmlənməsi vədləri ilə Rusiyadan Almaniya ilə mübarizədə istifadə etmişdir.

Beləliklə, belə bir nəticə çıxarmaq olar ki, Almaniyanm birləşməsi onun geosiyasi və geostrateji mövqeyini yalnız Avropada deyil, bütün dünyada əhəmiyyətli dərəcədə gücləndirmişdir. Xüsusilə də, Almaniya ADR-in birləşdirilməsindən sonra yaranmış bir çox problemləri həll etməlidir. 3 oktyabr 1990-cı ildə 62 milyon qərbi almanlar 16 milyon şərqi almanlarla formal cəhətdən birləşən zaman bu iki dövlətin əhalisinin inkişaf səviyyəsi arasındakı fərq kifayət qədər böyük idi.

Şərqi Almaniyada işsizlərin sayı 15-17% təşkil edir ki, bu da qərbdəkindən iki dəfə çoxdur. Burada orta əmək haqqı Qərblə müqayisədə 25% azdır. Şərq infrastrukturunu qərbin səviyyəsinə çatdırmaq üçün daha 300-400 milyon avro tələb olunur. Əgər Şərqi Almaniyanın harada olmalı olduğuna deyil, haradan başlanmasına baxsaq, bu zaman tamamilə başqa bir şəkil canlanır. Kommunizmin süquta uğramasından sonra Şərqi Almaniya sovet blokuna daxil olan bütün digər dövlətlər kimi siyasi və iqtisadi dağıntılar içində qalmışdı.

Amma bu dövlətlərdən fərqli olaraq, Şərqi Almaniya cəmi bir gecədə onun tərəfindən hazırlanmayan və onun maraqlarına cavab verməyən tamamilə yeni bir sistemi qəbul etməyə məcbur olmuşdu. Birləşmə siyasi liderlərin uzunmüddətli

düşüncələrinin nəticəsi deyildi. Yalnız bir neçə siyasətçinin riskdən danışmağa cəsarəti çatırdı. Bundan əlavə, Şərqi Almaniya üçün mərkəzləşdirilmiş idarə sistemindən kapitalizmə keçid şok yaratdı. Belə ki, artıq köhnəlmiş idarə və zavodlar yeni şəraitə tab gətirməyərək öz fəaliyyətlərini dayandırdı, minlərlə insanlar işsiz qaldı. Şərqi alman valyutasınm mübadilə kursunun güclü qərbi alman markasına qarşı davamlılığı məsələsi də gündəmdə duran mühüm məsələlərdən idi. Siyasi cəhətdən bu, ola bilsin ki, təsdiqlənmişdi, iqtisadi cəhətdən isə fəlakət demək idi. Məzənnələrin yeni ağlasığmaz nisbəti Şərqi Almaniyada əmək haqqının aşağı düşməsinə, qiymətlərin qalxmasına səbəb olmuş, şərqi alman məhsullarınm rəqabət qabiliyyəti xeyli aşağı düşmüşdü. Bundan əlavə, şərqi alman əhalisi daha yaxşı pul qazanmaq məqsədilə Qərbə öz tutur, əmək qabiliyyətli əhalinin sayı kəskin şəkildə azalırdı.

Amma nəzərə çarpacaq uğurlar da əldə edilmişdi. Əmək haqqı, qocalığa görə təqaüd əhalinin sayı ilə nisbətdə ikiqat artmışdı. Şərqdə istehsalın həcmi 41%-dən 67%-ə qədər yüksəlmişdi. Həyat səviyyəsi də əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. 1993-cü ildə 750000 yeni evlər tikilmişdir ki, onlardan çoxu müasir tələblərə yüksək səviyyədə cavab verir. 40%-dən çox şərqi alman əhalisi şəxsi evlərə sahibdir ki, bu da demək olar ki, qərbi Almaniya ilə bərabərdir. Burada qərbin təklif edəcəyi tez bir zamanda inşa olunan yeni fabriklər, yüksək texnologiyaya məxsus araşdırma mərkəzləri, iri komplekslər tikilməkdədir. 1990-cı ildən 4/3 nisbətində şərq sənaye zavodları inşa edilmişdir. Ölkənin hər yerində yeni yollar salınır. Dəmir yolları elektrikləşdirilmiş və müasirləşdirilmişdir. Bu gün Şərqi Almaniya həm də dünyada özünün yeni telefon sistemi ilə fəxr edə bilər. Kommunizm erasının ən qorxulu cəhətlərindən olan ətraf mühitin çirkləndirilməsi dövrü demək olar ki, başa çatmışdır. Şərq gölləri indi yenə balıq və bitkilərlə doludur. Əvvəllər enerji resurslarından əlverişsiz istifadəyə görə dünyada

üçüncü yeri tutan Şərqi Almaniya kömür əsasında işləyən dünyada ən effektli elektrik stansiyalarına malikdir.

Hava və suyun təmizlənməsini Qərb standartlarına çatdırmaq üçün daha bir neçə milyon dollar tələb olunur. Amma birləşmə məğlublarla yanaşı, qalibləri də müəyyənləşdirdi. 60% almanın həyat səviyyələrinin yüksəlməsini etiraf etməsinə baxmayaraq, 16% əhali bunun əksini iddia edir. Qadınlara karyera və ailə həyatını birgə yürüdəcək pulsuz uşaq idarələri çatmır. Şərqi Almaniya əhalisinin özlərini ikinci növ vətəndaş hiss etmələri barədə fikirlər artmaqdadır. Onlar qərbi alman vətəndaşları ilə eyni işi görmələrinə və hətta gün ərzində onlardan daha çox işləmələrinə baxmayaraq, daha az əmək haqqı alırlar. Bir çoxları hesab edir ki, dövlət həyat səviyyəsini Qərbdəki səviyyəyə çatdırmaq üçün kifayət qədər əmək haqqı ödəmir. Artan narazılıq fonunda şərqi alman elitasının nümayəndələri olan universitet işçiləri, kütləvi informasiya vasitələrinin işçiləri, hüquq sahəsində çalışanlar və s. Qərbin əlinə keçir. On il keçməsinə baxmayaraq, onlar hələ də oradadırlar. Beləliklə, Şərqi Almaniyada olan nazirlərin, demək olar ki, hamısı qərbi almanlardır. Bu da obyektiv haldır. Belə ki, 40 illik iqtisadi gerilikdən sonra şərqi almanların idarəçilik üçün bilik və təcrübəsi bəs etmir. Qərbi almanların təxminən 80%-i heç vaxt keçmiş ADR ərazisində olmamışlar.

Şərqi Almaniyada istehsalın nisbətən aşağı səviyyədə olması investisiyanın kifayət dərəcədə olmamasından deyil, tənbəllikdəndir. O zaman niyə zəhmətkeş qərbi almanlar onları dəstəkləməkdə davam etməlidirlər? Qərbi Almaniyanın Şərqi Berlində olan keçmiş diplomatı Eskel Şmit deyirdi ki, Şərqi Almaniyanın əksər əhalisi çox sadəlövh idi və əldə etdikləri ilə kifayətlənirdilər. XXI əsrin əvvəllərində Avropanın aparıcı dövləti olan Almaniyanın vəziyyəti bu cürdür.

## ƏDƏBİYYAT:

1. Бжезинский З.. "Великая шахматная доска". М.,1998.
2. Дугин А. "Основы геополитики". М.,1999.
3. Киссинджер Г. Дипломатия. М.,1997.
4. Панарин А.С. Реванш истории: российская стратегическая альтернатива в XXI веке. М.,1998.
5. Питер Кальвокоресси "Мировая политика после 1945 года", М., 2000.
6. Салмин А.М. Россия, Европа и новый мировой порядок. Полис.1999.

## 8.5. Yuqoslaviya Federasiyasının dağılması və beynəlxalq nəticələri

XX əsr bir-birilə sıx bağlı olan iki mühüm hadisə ilə tarixə düşmüşdür. Bunlardan birincisi, sosializm sisteminin yaranması, digəri isə bu sistemin tənəzzülü oldu. Əsrin əvvəllərində baş verən hadisələr nə dərəcədə rezonans doğurmuş və dəyişikliklərə səbəb olmuşdusa, 1980-ci illərin sonları – 90-cı illərin əvvəlləri dünya və xüsusilə Avropa üçün daha böyük dəyişikliklər dövrü oldu.

Uzun müddət bir-birinə qarşı duran iki ictimai quruluşdan biri özünü doğrultmayaraq sıradan çıxdı və sosialist lagerinə daxil olan ölkələr bazar iqtisadiyyatı yolu ilə inkişaf etməyə üstünlük verdilər. Beləliklə, Avropanm iki düşmən lagerə bölünməsi aradan qaldırılmış oldu və həm Şərqi, həm də Qərbi Avropanın uzunmüddətli inteqrasiyası prosesi başlandı. Bu dəyişikliklər öz əksini Avropanın siyasi xəritəsində də tapdı. Bəzi dövlətlər – SSRİ, Yuqoslaviya və Çexoslovakiya dağıldı və yeni müstəqil dövlətlər yarandı. Lakin əgər Çexoslavakiyanın parçalanması sülh şəraitində, razılaşma yolu ilə baş verdisə, Yuqoslaviyanın dağılması qanlı müharibələr, etnik münaqişələrlə müşahidə olundu. Bu isə çoxsaylı insan itkilərinə, dağıntılara, iqtisadi tənəzzülə çox-saylı qaçqınlar ordusunun yaranmasma səbəb oldu.

İkinci Dünya müharibəsindən sonra Avropa qitəsində ilk dəfə müharibə ocağı yarandı və bu müharibə ocağının məhz Yuqoslaviyada yaranması heç də təsadüfi deyildi. Balkan yarımadası həmişə dünyanın ən narahat regionlarından olmuş, dəfələrlə müharibələrə və etnik münaqişələrə meydan olmuşdu. Unutmaq olmaz ki, Birinci Dünya müharibəsi də məhz Balkanlardan başlamışdı. Yuqoslaviyanın çoxmillətli dövlət kimi yaşaması mümkün deyildi. Bu ittifaqın uzun müddət yaşamasınm tək səbəbi və təminatçısı İ.B.Tito hakimiyyəti

və onun rəhbərlik etdiyi sərt Kommunist partiyası idi. Artıq 80-90-cı illərdə dünya sosializm sisteminin dağılması YSFR-nin də dağılmasını qaçılmaz edirdi. Ancaq Serbiya rəhbərliyi bunun qarşısını silah gücünə almağa çalışdı və bundan ötrü hər bir vasitədən istifadə etdi ki, bu da çox ağır nəticələr verdi – Balkanlar yeni müharibələrlə üz-üzə qaldı.

1980-ci illərdən başlayaraq bütün sosialist ölkələrində, o cümlədən, Balkanların qonşuluğundakı Şərqi Avropa ölkələrində, xüsusilə, əvvəlcə Polşa və Macarıstanda, sonra isə Çexoslavakiyada başlanan proseslər köklü dəyişikliklərlə nəticələndi. 1989-cu ildə beynəlxalq münasibətlər lövhəsində elə radikal dəyişikliklər oldu ki, sanki Sovet sistemi ilə Varşava Müqaviləsi Təşkilatının üzv-dövlətlərinin daxili vəziyyətindəki dəyişikliklər arasında heç bir qarşılıqlı əlaqə olmamışdır.

1980-ci illərin sonunda dünya sosializm cəbhəsində baş verən böhran Yuqoslaviyadan da yan ötmədi. Hələ 70-ci illərdən başlayaraq Federasiyanm subyektlərində, hətta ayrı-ayrı vilayətlərdə milli əhval-ruhiyyə özünü büruzə verirdi. Bu, ilk növbədə, Xorvatiyada və Serbiya Sosialist Respublikasının tərkibində olan Kosovo və Voyvodina muxtar vilayətlərinə aid idi. Qeyd edək ki, hər iki vilayətin əhalisinin çox hissəsini hələ İkinci Dünya müharibəsi zamam nasist işğalı altında olan Albaniyadan qaçıb bura gələn etnik albanlar təşkil edirdilər. Bu isə yerli əhali olan serblər və çernoqoriyalılarla albanlar arasında ilk ziddiyyətlərin başlanğıcı olmuşdur.

Bəs Balkanların vaxtaşırı olaraq müharibələrlə üzləşməsinin əsas səbəbi nədir? Bildiyimiz kimi, burada çoxlu sayda etnik azlıq yaşayır və belə şəraitdə konfliktin baş verməmə halı qeyri-mümkündür. Ümumiyyətlə, millətlərarası münaqişələrin səbəbləri müxtəlif ola bilər. Məsələn, tarixi düşmənçilik və ya inciklik, sərhədlərin özbaşına dəyişdirilməsi, hər hansı millətin ərazisinin qonşu dövlətin tərkibinə zorla daxil edilməsi və ya millətin müxtəlif dövlətlər arasında bölünməsi, hər hansı millətin vahid dövlət çərçivəsində öz statusu uğrunda mübarizəsi,

maddi ehtiyatlara sahib olma və yaxud da keçirilən islahatların (iqtisadi, siyasi, ictimai-mədəni) ayrı-ayrı regionlarda qeyri-bərabər aparılması və s.

Diqqət etsək, sadaladığımız amillərin çoxunu Balkanlarda müşahidə edə bilərik. Məhz bu amillərin qarışığından yaranan böhran Balkanları növbəti müharibə ilə üzləşdirdi.

1991 və 1992-ci illər 1956-cı il SSRİ-nin Macarıstana hərbi müdaxiləsindən sonra Avropa qitəsində ilk müharibə illəri idi. Bununla belə, 1991-ci ildə Yuqoslaviyada başlanmış müharibə I və II Balkan müharibələrini, I və II Dünya Müharibələrini və Yunanıstandakı vətəndaş müharibəsini nəzərə alsaq, XX əsrdə Balkanlarda baş vermiş altıncı müharibə idi. Əslində bu müharibə bir çox cəhətdən özündən əvvəlki silahlı münaqişələrin davamı idi. Bu müharibə məhdud ərazili, çoxmillətli dövlətdə etnik münaqişələr nəticəsində meydana gəlmiş, dövlətlərarası müharibənin və vətəndaş müharibəsinin qarışığı olan bir müharibə idi.

Bütöv Yuqoslaviyanın yaradılması cəhdləri bir neçə dəfə olmuşdu. İlk Yuqoslaviya 1918-ci ilin dekabrında "Serblər, xorvatlar və slovenlərin krallığı" adı altında Habsburqlar monarxiyasının xarabalıqları üzərində meydana gəldi. Lakin əslində bu, Serbiyanın dominantlıq etdiyi və avtoritar idarə olunan dövlət idi. 1943-1945-ci illər arasında "xalq demokratiyası" adı altında yenidən yaradılan "ikinci Yuqoslaviya" - "Yuqoslaviya Sosialist Federativ Respublikası" dağıdıcı vətəndaş müharibəsindən sonra yarandı və bu müharibə xarici işğalçılarla birbaşa döyüşlərdən daha çox insan tələfatına səbəb oldu. İstər "birinci", istər də "ikinci" Yuqoslaviyada millətlərarası münaqişənin baş verməsi üçün kifayət qədər səbəb vardı. 90-cı illər hadisələrinin baş verməsi isə birbaşa "ikinci" Yuqoslaviya ilə bağlı idi. Altı respublika – Serbiya, Xorvatiya, Sloveniya, Makedoniya, Bosniya-Herseqovina, Çernoqoriyadan və Serbiyanın tərkibinə daxil olan, lakin konstitusiyanın 1-ci maddəsinə görə ayrılmaq hüququna malik olan iki

muxtar vilayətdən (Kosovo və Voyvodina) ibarət olan YSFR Kommunist Partiyası tərəfindən ömürlük prezident seçilmiş İosif Broz Tito tərəfindən təkbaşına idarə olunurdu.

1980-ci il mayın 4-də Tito vəfat etdikdən sonra prezident hakimiyyəti kollektiv rəhbərlik adlandırılan federal rəyasət heyətinə keçdi. İllik rotasiya əsasında hər il bir respublikadan nümayəndə federasiyaya rəhbərlik etməli idi. Digər tərəfdən, ölkədə daxili iqtisadi vəziyyət gərgin idi. Ölkəni bu vəziyyətdən çıxarmaq üçün Xorvatiyadan rəhbər seçilmiş Ante Markoviç "şok terapiyasına" üz tutdu. Müəyyən qədər nailiyyət də əldə etdi – inflyasiya aşağı düşdü, işsizlərin sayı azaldı, ancaq bu iqtisadi islahatlar ayrı-ayrı millətlərə məxsus elitalar arasmda narazılıq yaratdı və sonrakı münaqişə üçün yeni bir zəmin yarandı.

Qeyd edək ki, böhranın kəskinləşməsində dini faktor da az rol oynamamışdır. Belə ki, Sloveniya və Xorvatiyada əhalinin çox hissəsi katolik idisə, serblər, çernoqoriyalılar və makedoniyalılar pravoslav idilər, üstəlik Bosniya və Herseqovinada müsəlman-slavyan əhali dominanthq təşkil edirdi, həmçinin, Kosovo albanları da müsəlman idilər.

1981-ci ilin martında Kosovo Muxtar Vilayətində (burada albanlar o zaman əhalinin 75 %-ni təşkil edirdilər) vilayətin respublika dərəcəsinə qaldırılması tələbi ilə güclü nümayişlər baş verdi. 1981-ci ildə Kosovoya bu statusun verilməsi Yuqoslaviya adlı barıt çəlləyinə düşən od oldu. 1988-ci ilin dekabrında Kosovo və Voyvodina Muxtar Vilayətlərinin statusu ətrafında mübahisələr yenidən qızışdı. 1989-cu il martın 28-də, nəhayət ki, Serbiya konstitusiyasına dəyişikliklər qüvvəyə mindi. Bu dəyişikliklər Kosovo və Voyvodinada regional özünüidarəetməni əhəmiyyətli surətdə məhdudlaşdırırdı. 1987-ci ilin ortalarında Serbiya Kommunist Partiyasına rəhbərliyi ilə Slobadan Miloşeviç 1990-cı ilin 9 yanvarında Serbiyada ilk çoxpartiyalı seçkilərdə qalib gələrək prezident oldu. O, Yuqoslaviyanm ərazi bütövlüyünün saxlanılmasınm tərəfdarı

idi və buna qarşı baş vermiş hər hansı cəhdin hərbi yolla belə qarşısını almağa hazır idi. Buna görə də Miloşeviçin rəhbərliyi ilə konstitusiyada dəyişiklik edildi, 1990-cı ilin sentyabrm 28-də muxtariyyət statusunun tam geri götürülməsi - likvidasiyası və Kosovo və Voyvodinanın birləşdirilməsi haqda qərarla Serbiyanın yeni konstitusiyası ilə həyata keçirilmiş oldu. Bu isə Kosovoda alban əhalisinin təhqir olunmasına və yadlaşmasına yardım etmiş oldu.

Belqradın azğınlaşmış təbliğatı ilə federasiyaya daxil olan digər respublikalarda və muxtar vilayətlərdə – təkcə Kosovoda deyil, həmçinin, Xorvatiya və Bosniya və Herseqovinada (Serbiya Respublikasının hüdudları kənarında 2 milyon serb yaşayırdı) yaşayan, milli azlıq olaraq "təhlükə altında olan serblərin" milli hisslərinin qızışdırılması bir tərəfdən destabilizasiyaya, digər tərəfdən Sloveniya və Xorvatiyada əks hərəkatlar səbəb oldu. Bu isə respublikalarda keçirilən ilk azad seçkilərdə millətçi və əsasən anti-kommunist qruplaşmaların qələbə qazanması üçün həlledici əhəmiyyətə malik oldu. 1990-cı ildə Sloveniya, Xorvatiya və Makedoniyada müxalifət, yəni vətənpərvərlər qalib gəldi, yalnız Serbiyada əvvəlki kommunistlər çoxluğu saxlaya bildilər. Hələ bundan bir qədər əvvəl Sloveniya konstitusiyasına dəyişiklik etmək haqqında qərar qəbul edildi ki, bu dəyişiklik YSFR-in tərkibindən çıxmaq hüququnu bir daha təsbit edirdi. Bu, Yuqoslaviyanın dağılması yolunda atılan ilk addım idi. Bu konstitusional qeyri-müəyyənliyə son qoymaq üçün Sloveniya və Xorvatiyada "xalq səsverməlbegi" təyin olundu və bu səsvermələr böyük əksəriyyətin bu respublikaların müstəqilliyi lehinə səs verməsi ilə nəticələndi. Sloveniyada 1990-cı il dekabrın 23-də 80%-lə, ardınca Xorvatiyada keçirilən referendumlarda isə 95%-lə federasiyanm tərkibindən çıxmaq haqqında qərar qəbul edildi. Eyni zamanda, Xorvatiyanm yeni konstitusitası qebul olundu ki, burada Xorvatiya "xorvat xalqının dövləti" adlandırılırdı. Ancaq həmin dövrdə Xorvatiyada əhalinin 30%-nin serblər olduğunu və Belqradın da məhz

serblərə dəstək verdiyini nəzərə alsaq, hadisələrin sonrakı gedişi aydın olar. Belə ki, hələ II Dünya Müharibəsindən sonra inzibati sərhədlər müəyyənləşdirilərkən Titonun təkidi (Tito özü xorvat idi) ilə serblərin kompakt halda yaşadığı bu ərazi, o cümlədən, Bosniyanın Adriatik sahilləri Xorvatiyaya verildi. Bu, sonralar Bosniya və Herseqovina ilə konfliktin əsas səbəblərindən biri də bu oldu.

Xorvatiyada yaşayan serblər "Serb Vilayət Respublikası" adı altında öz dövlətlərini yaratdıqlarını elan etdilər. Yaranmış gərginliyi nisbətən azaltmaq üçün 1991-ci il yanvarın 9-da dövlət prezidiumu tərəfindən bütün qeyri-qanuni polislərin tərksilah olunması barədə ultimativ qərar verilsə də, bu qərara əməl olunmadı və 1991-ci ilin martın 31-də Plitviç milli parkında serb könüllüləri və xorvat polisi arasında silahlı toqquşmalar başladı. Toqquşmalar daha da qızışdı və 1991-ci ilin aprel və iyun aylarında Knində və Şərqi Xorvatiyada ilk qanlı kuliminasiya nöqtəsinə çatdı. Artıq 1991-ci il martın 12-də prezident Joviç dövlət prezidiumunun iş qabiliyyətini itirdiyini və "Yuqoslaviyanın idarəolunmaz vəziyyətə gəldiyini" bildirdi. 1991-ci ilin mayın 15-də rotasiyaya uyğun olaraq xorvat Stefan Mesiç 13-cü federal prezident seçilməli idi, ancaq rəsmi Belqrad buna mane olduqdan sonra Xorvatiya və Sloveniya burda iştirak etməkdən imtina etdiklərini bildirdilər. Beləliklə, Yuqoslaviya 1991-ci ilin mayın 16-dan etibarən qanuni dövlət rəhbərliyinə də malik olmadı və konstitusional-hüquqi cəhətdən hərəkət etmək qüvvəsini itirmiş oldu. Sloveniya və Xorvatiyanın 1991-ci ilin iyunun 26-da YSFR-dən çıxmaları ilə "ikinci Yuqoslaviya" de-fakto dağılmış oldu. Əlbəttə, Belqraddakı federal hakimiyyət bunu qəbul etmədi və hadisələr hərb meydanına keçdi, Xorvatiyada, bütövlükdə Yuqoslaviyada vətəndaş müharibəsi başladı.

"Balkanlar hətta bir Pomeraniyalı qrenaderin (seçmə əsgər) həyatına belə dəyməz" – Bismark Balkanlar haqqında məhz belə fikirləşirdi.

"Bismark məktəbinin" davamçıları hesab edirlər ki, nə ABŞ-ın, nə də Avropa dövlətlərinin heç birinin bu regionda heç bir marağı yoxdur. Daha doğrusu, onlar regionu öz problemleri ilə üz-üzə qoymağı üstün tuturlar. Bu qarışmamaq siyasətinin tərəfdarları Balkan regionunu "siyasi bataqlığa" bənzədirdilər. Onlara görə burda olan liderlər, adətən, irrasional, əhali isə dözülməz olur. Bununla belə, regionla bağlı fikirlər yekdil deyil. Müasir dövrümüzdə geniş yayılan ikinci yanaşmamn tərəfdarlarının fikrincə isə "qarışmamaq" siyasəti düzgün deyil və sonradan öz mənfi nəticələrini göstərəcək. Onların bənzətməsində isə Balkanlar "lakmus kağızıdır". Dolayısı ilə burada baş verənlər mütləq digər ərazilərdə də öz əksini tapacaq. Bunun üçün də Balkanlarda baş verən hər hansı bir konfliktin qarşısı tez bir müddətdə alınmalı və bu işdə beynəlxalq ictimaiyyət, NATO, BMT və Aİ mütləq iştirak etməlidirlər. Başqa sözlə, onlar Balkanların "protektoratlığa" götürülməsinin tərəfdarıdırlar.

Təəssüf ki, XX əsrin sonunda baş verən Balkan böhranında Qərb birinci yanaşmaya üz tutdu. Əslində bu əsl "qarışmamaq" deyildi. Bəlkə də əsl "qarışmamaq" siyasəti başqa nəticələr verərdi. Qərb Yuqoslaviyanın dağılmasına imkan verməməklə, federasiyadan çıxmaq istəyənlərə təzyiq göstərməklə və silah çatdırılmasına embarqo qoymaqla, dolayısı ilə təcavüzlə təcavüzə məruz qalanı eyni tutmaqla məsələlərə birbaşa olmasa da, müdaxilə etmişdi. Ancaq bu qeyri-effektli bir müdaxilə idi və hadisələrin sonrakı gərginləşməsinin qarşısını almaqdansa, daha da qızışdırdı. Qərb çox gec anladı ki, Balkanlar Avropanın və NATO-ya çox yaxındır, baş verən hadisələr mütləq öz təsirini göstərəcək. Nəzərə alınmalı idi ki, digər etnik azlıqlarla bərabər, macarlara qarşı törədilənlər qonşu Macarıstanda narazılıq yarada bilər. Kosovo albanlarına qarşı aparılan ayrıseçkilik və serb millətçilərinin törətdikləri qonşu Albaniyada, o cümlədən, Makedoniyada yaşayan alban əhalisi arasında narazılığa səbəb ola bilərdi. Digər tərəfdən, Makedoniyanı tut-

mağa çalışan, ən yaxşı halda parçalamağa çalışan Serbiya ilə Makedoniyaya qarşı zidd mövqeyi ilə tanınan Yunanıstan arasında hər hansı razılaşma və ya fikir eyniliyi ola bilərdi. Bununla belə, Yunanıstan NATO-da bu hadisələrlə dolayısı ilə bağlana biləcək yeganə dövlət deyildi. Türkiyə də tarixi, mədəni, dini əlaqələri ilə müsəlman bosniyalılarla bağlıdır və ərazisində xeyli sayda bosniya əhalisi yaşayır. Beləliklə, göründüyü kimi, hadisələr Balkanlarla məhdudlaşmaya da bilərdi. Məhz buna görə də tezliklə regiona müdaxilə edilməsinə ehtiyac vardı.

Qeyd etmək lazımdır ki, Avropa dövlətləri arasında Yuqoslaviyada baş verən hadisələrə münasibət birmənalı deyildi. Xüsusilə, Almaniyanm mövqeyi digər Avropa dövlətlərinin mövqeyindən çox fərqlənirdi. Belə ki, Almaniya 1991-ci ilin dekabrmda Sloveniya və Xorvatiyanm müstəqilliyini tanıdı və Avropa Birliyinin digər üzv-dövlətlərindən də onları tanımağı tələb etdi. Alman korporasiyaları hesab edirdilər ki, yeni yaranmış bu dövlətlərin ərazisində olan "iqtisadi vakuumdan" istifadə etmək Almaniya üçün xeyirli olacaq və xeyli gəlir gətirəcək. Fransanın mövqeyi isə Almaniyanın mövqeyindən çox fərqlənirdi. Fransada hesab edirdilər ki, yeni yaranmış bu dövlətlər Balkanlardakı separatizmin nəticəsidir və eyni hal hətta Fransanın özündə də baş verə bilər. Bu cəhətdən Fransa hökuməti daim mərkəzdənqaçma ıneyilləri ilə seçilən Korsika adasından ehtiyat edirdi. Ancaq bu mövqedə duran tək Fransa deyildi. Böyük Britaniyada da, Belçikada da və o cümlədən, öz ərazisində separatizmdən ehtiyat edən digər Avropa dövlətlərində də bu cür qorxular var idi. Amerika isə "gözləmə" mövqeyində durmuşdu. Amerikanın əsas ehtiyat etdiyi məsələ o idi ki, baş verən hadisələr Qərblə Rusiya arasmdakı münasibətləri gərginləşdirə bilər. Katolik ölkələrinə dəstəyini heç vaxt əsirgəməyən rəsmi Vatikan da çox tezliklə Xorvatiyanın müstəqilliyini tamdığım bəyan etdi.

1992-ci ilin əvvəllərində Rusiya Federasiyasının Xarici İşlər Naziri A.V.Kozırev Xorvatiya və Sloveniyanm müstəqilliyinin tanın-

ması haqqında Almaniyanın mövqeyinə dəstək verərək öz dövlətinin də mövqeyini açıqlamış oldu. Nəhayət ki, 1992-ci il yanvarın 15-də Avropa Birliyi Xorvatiya və Sloveniyanın müstəqilliyini tanıdı. Rusiya da eyni addımı atdı. Buna qədər Yeltsin hökuməti orta xətt siyasətini yeridirdi – həm ortodoksal serblərə rəğbətini gizlətmir, həm də Rusiyanın Qərbdən ayrı düşməsini istəmirdi. Hətta 1993-cü ilin əvvəllərində yüzlərlə Rusiya vətəndaşının Serbiya tərəfindən vuruşduğu və hətta onları silahlandırdığı haqqında da məlumatlar gəzirdi. Beləliklə, Qərb dünyasından hər iki dövlətin tanınması yolunda ən son addım atan ABŞ oldu.

İslam dünyasını Qərbi Bosniya müsəlmanlarına yetərli dəstəyi verməməkdə günahlandırırdılar. İran lideri bütün müsəlmanları Bosniyadakı müsəlmanlara kömək etməyə çağırdı, Səudiyyə Ərəbistanı isə ölkə daxili fundamentalist qüvvələrin təzyiqi ilə Bosniyaya həm maliyə, həm də silah yardımları göndərirdi.

Dediyimiz kimi, Yuqoslaviyada vətəndaş müharibəsi ilk öncə Sloveniya və Xorvatiyada başlandı. Ancaq bu hadisələrdən ən az zərər çəkən, bir növ kənarda qalan Sloveniya oldu (o cümlədən, Makedoniya da tamamilə bu hadisələrə qarışmadan 1991-ci ilin 18 sentyabrında öz müstəqilliyini elan etdi. 1992-ci ilin martında isə bu haqda referendum keçirildi və müsbət səs çoxluğu ilə nəticələndi). Belə ki, demək olar ki, təkmillətli Sloveniya ilə federal hakimiyyət arasında kompromis əldə olundu və ordu hissələri bura daxil olduqdan iki həftə sonra Sloveniyanı tərk etdilər. Bundan öncə isə Qərbin vasitəçilik səylərinə baxmayaraq, 1991-ci il iyunun 26-da Yuqoslaviya Xalq Ordusu və Sloveniya Ərazi Müdafiə Qüvvələri arasında başlanmış ağır döyüşlər davam etdirildi və 1991-ci il iyulun 4-də Yuqoslaviya dövlət rəyasət heyətinin Sloveniyanın beynəlxalq sərhədlərinin 1991-ci il 7 iyula kimi mərkəzi hökumətin nəzarəti altına qaytarılması haqqında qərar qəbul etdi.

1991-ci il iyulun 10-da Sloveniya parlamenti Aİ tərəfindən təklif edilmiş “Brioni planı” adlanan planın lehinə səs verdi,

bunun isə nəticəsində vəziyyət nəzərə çarpacaq dərəcədə mülayimləşdi və 1991-ci ilin iyulun 18-də YXO-nun Sloveniyadan çıxarılması ilə nəticələndi. YXO-nun Sloveniyadan çıxarılması ilə döyüşlər Xorvatiyaya keçmiş oldu.

Ümumiyyətlə, Balkan tarixi üzrə mütəxəssislər hələ XIX əsrdən kainatdakı bütün serbləri birləşdirəcək "Böyük Serbiya" dövləti yaratmağa can atan serb millətçilərinin baş verən hadisələrdəki xüsusi "əməyini" qeyd edirlər. Maraqlıdır ki, sosilalizmin süqutundan sonra bütün Şərqi Avropanı milli hərəkatlar bürüdü, o cümlədən, Balkanlarda da dünənki marksistlər birdən-birə bu günün "qatı millətçilərinə" çevrildilər.

Serb millətçiləri ilə xorvatlar arasında qarşıdurma Sloveniyada olduğundan daha da kəskin xarakter aldı. Qeyd edək ki, təkcə 1991-ci il üçün 84 000 nəfərlik əhalisi olan Şərqi Xorvatiyada-Bukovarda əhalinin 44%-ni etnik xorvatlar, 37%-ni etnik serblər, qalan hissəsini isə rus, slovak, macar və ukraynalılar təşkil edirdilər. Azlıq təşkil etməsinə baxmayaraq, Belqraddan dəstək alan serblər xorvatlara qarşı apardıqları müharibədə uğur qazandılar. Bu uğur minlərlə dinc sakinin ölümü ilə nəticələndi. Rəsmi statistikaya təkcə Bukovardakı döyüşlər 1851 nəfərin ölümü, 679 nəfərin itkin düşməsi ilə nəticələnmişdi. Əlbəttə, bütün məsuliyyəti və günahları serblərin üzərinə atmaq da düzgün olmazdı. Xorvatlar da tamamilə günahsız deyildilər və az sonra baş verəcək Bosniya və Herseqovina hadisələrində onların rolu az olmamışdı. Bir faktı da qeyd etmək lazımdır ki, istər Bukovarda, istər də Sarayevoda müharibənin başlıca səbəbkarları Belqradın hər cür dəstəyini alan fanatik millətçi serblər idi – onlar terror və zorakılıq vasitəsilə etnik təmizləmə siyasəti apararaq Balkanlarda baş verən hadisələrin əsas səbəbkarı qismində çıxış edirdilər.

1991-ci il sentyabrın 7-də, nəhayət ki, Haaqada Lord Karrinqtonun sədrliyi altında Yuqoslaviya ilə bağlı Aİ-nin sülh konfransı işə başladı. Sonda qəbul olunan Haaqa sülh bəyannaməsinin mərkəzi maddəsi "sülh yolu və qarşılıqlı

razılaşma ilə əldə olunmayan sərhəd dəyişiklikləri heç zaman qəbul etməmək" haqqında qərar oldu.

Belə bir şəraitdə, dünyada sülhün və millətlərarası əməkdaşlığın dayağı hesab olunan BMT isə Avstriya, Macarıstan və Kanadanın təşəbbüsü ilə 1991-ci il sentyabrın 25-də qəbul etdiyi 713 saylı qətnamə ilə Yuqoslaviyanın bütün bölgələrinə silah çatdırılmasını qadağan etdi. Bu isə təcavüz edənlə təcavüzə məruz qalan arasında heç bir fərqin qoyulmaması demək idi. Digər tərəfdən, əvvəlcədən "qarışmamaq" siyasəti yeridən Qərb və BMT müharibə gedən əraziyə humanitar kömək göndərdi və bu humanitar yardımın təhlükəsizliyini təmin etmək üçün BMT-nin 1991-ci il 25 dekabr tarixli 724 saylı qətnaməsi ilə az sayda BMT kontingenti əraziyə çıxarıldı.

1991-ci il oktyabrın 22-də Yuqoslaviya prezidiumu YXO-nun adının "Yuqoslaviya Silahlı Qüvvələri" adı ilə dəyişdirilməsi və ümumi səfərbərlik haqqında qərar qəbul etdi. 1992-ci il yanvarın 1-də prezidium serb azlığınm Xorvatiya və Bosniya və Herseqovinada qala bilməsinə razılığını elan etdi, lakin əlavə beynəlxalq təminatlar verilməsi şərtini irəli sürdü.

1992-ci il yanvarın 9-da Serbiya Prezidenti Miloşeviç Xorvatiyada müharibəni bitmiş elan etdi. Müharibənin dəhşətlərini nəzərə alaraq TŞ artıq 1992-ci ilin fevralın 21-də 743-cü qətnamə ilə Yuqoslaviyaya müdafiə qüvvələri göndərməyi qərara aldı. Bu zaman 12 ay müddətinə 14400 əsgərdən ibarət sülhyaratma qüvvələri göndərmək nəzərdə tutulurdu. Bununla da YXO hərbi məqsədlərinə çatmışdı. Həm də serb azlığı BMT nəzarətçilərinin yerləşdirilməsi ilə xorvat hücumlarından qorunmuş olurdu.

1991-ci ilin iyulunda Sloveniyada və 1992-ci ilin yanvarında Xorvatiyada hərbi əməliyyatlar dayandırıldıqdan sonra müharibə indi də Bosniya və Herseqovina ərazisinə keçdi və həmçinin, başqa xarakter almış oldu. Əsas səbəblərdən biri də Bosniya və Herseqovinanın müstəqilliyinin elan olunması oldu. Belə ki, 1991-ci il oktyabrın 15-də Bosniya və Herseqovina özünü

müstəqil elan etdi və öz ərazisində yaşayan serblərə müvafiq muxtariyyət statusu verməyə söz verdi. Buna baxmayaraq 1992-ci il fevralın 24-də səsvermə hüququna malik əhalinin 64%-nin iştirak etdiyi və serblərin boykot etdiyi referendumda 99,4% Bosniya və Herseqovinanm müstəqilliyinin lehinə səs verdi. Bu zaman 1992-ci ilin martmda Çernoqoriya eyni əksəriyyətlə – 95% səslə ümumi Yuqoslaviya dövlətinin tərkibində qalmağa səs verdi. Bu isə ondan ibarət idi ki, Serbiyanm burada hərbi məqsədi açıq-aşkar "etnik təmizləmə" və səpələnmiş serblər tərəfindən məskunlaşdırılmış ərazilər arasındakı torpaqları və dəhlizləri ələ keçirmək idi. Bosniya və Herseqovinada "xalqlar qarışıqlığına" (müsəlmanlar 44%, serblər 32%, xorvatlar 24%) əsaslanaraq bu hərbi məqsəd bütöv əhali qruplarınm dəhşətli yolla kütləvi surətdə qovulmasını və köçürülməsini nəzərdə tuturdu. Avropa Birliyi və ABŞ 1992-ci il aprelin 7-də Bosniya və Herseqovinanı müstəqil dövlət kimi tanıdılar. Onun prezidenti müsəlman icmasının rəhbəri Aliya İzetbeqoviç oldu.

YSFR de-yure 1992-ci il aprelin 27-də qeyri-hüquqi Yuqoslaviya parlamenti tərəfindən "üçüncü Yuqoslaviyanın", yəni Serbiya və Çernoqoriya tərəfindən yaradılan "Yuqoslaviya Federativ Respublikasmm" konstitusiyasını qəbul etməsi ilə buraxılmış oldu. Beynəlxalq aləm isə elan olunan "Yuqoslaviya Federativ Respublikasını" tanımadı və YSFR-in BMT-dəki yerini YFR-ə verməkdən imtina etdi.

Referendumdan sonra Bosniya və Herseqovinada milli qruplar arasında qanlı toqquşmalar başlandı. Belə ki, Bosniya və Herseqovinanın ərazisində yaşayan serblər və xorvatlar az sonra öz müstəqilliklərini elan etdilər. Radovan Karaciçin rəhbərliyi ilə 1992-ci ilin yanvarında serblər, 1992-ci ilin iyununda isə xorvatlar oz dövlətlərini yaratdıqlarım elan etdilər. Artıq 1992-ci il konfliktindən başlayaraq bütün ölkə ərazisində serblər, xorvatlar və müsəlmanlar arasında qızğın döyüşlər başladı. "Hamının hamıya qarşı olduğu" bu müharibənin xarakteri bir qədər fərqli idi. Belə ki, əgər Xorvatiyada

serblər xorvatlara həqarətlə baxırdılarsa, Bosniyada artıq bu, müsəlmanlara qarşı nifrətə çevrilmişdi. Qərbin isə müsəlmanları müdafiə etməməsi onun ən böyük səhvlərindən idi. Bu, bir qədər sonra Bosniyada ekstremist islamçı qüvvələrin meydana gəlməsini şərtləndirmişdi.

Nəhayət,1992-ci il martın 18-də üç suveren ərazinin federasiyası planı irəli sürüldü: Bosniya və Herseqovina müsəlmanlar, serblər və xorvatlar arasında bölünməli idi, bu zaman xarici sərhədlər toxunulmaz qalmalı idilər. Bu plan tezliklə rədd edildi və 1992-ci il aprelin 6-da döyüşlər yenidən başladı, 1992-ci il mayın 22-də isə Bosniya və Herseqovina Sloveniya və Xorvatiya ilə birlikdə, nəhayət ki, BMT-yə qəbul olundu. Bu isə, xüsusilə ABŞ-ın mövqeyində dəyişikliyə səbəb oldu. ABŞ qəti tədbirlər görməyə başladı, ancaq artıq 200 min insanın həyatına son qoyulmuşdu.

1992-ci il mayın 27-də Aİ YFR üzərinə ticarət embarqosu (neft məhsulları çıxılmaqla) qoydu. Bu embarqo 1992-ci il iyunun 10-da qüvvəyə minməli idi. 1992-ci il mayın 30-da BMT TŞ 757-ci qətnamə ilə bu embarqoya qoşuldu və öz tərəfindən YFR-in üzərinə ticarət, neft və hava embarqosu qoydu.

1992-ci il iyunun 20-də Bosniyada hərbi vəziyyət və ümumi səfərbərliyin elan edilməsi nəticəsində vəziyyət daha da mürəkkəbləşdi. Çünki bu zaman Bosniya və Herseqovinada ən azı 17 silahlı qruplaşma bir-birinə qarşı mübarizə aparırdı. Bosniya və Herseqovinada müsəlmanların vəziyyəti daha da ciddiləşirdi, xüsusilə ona görə ki, onlar silah embarqosundan daha çox ziyan çəkirdilər. Serb polisləri isə YXO-nun hərbi ehtiyatlarından sərbəst istifadə edirdilər. Bu səbəbdən Bosniya Prezidenti İzetbeqoviç Xorvatiyanın yardımım əldə etməyə çalışırdı və 1992-ci il iyulun 21-də prezident Tucman ilə Bosniya və Xorvatiya arasında hərtərəfli əməkdaşlıq barədə müqavilə imzalandı. Bosniya və Herseqovinada vəziyyət pisləşməkdə idi və iyulda artıq qaçqınların sayı 2,2 milyon təşkil edirdi. Din qardaşlarınm (xüsusilə də İrandan gələn) kütləvi köməyinə

baxmayaraq, Bosniya müsəlmanlarının vəziyyəti daha da ümidsizləşirdi və 1992-ci ilin yayın sonlarmda onlar ölkənin yalnız 1/5 hissəsinə nəzarət edirdilər. 1992-ci il avqustun 13-də YFR Sloveniyanı rəsmi olaraq YSFR-in hüquqi varisi kimi tanıdı və bu, o zamankı prezident Paniçin ilk müvəffəqiyyəti kimi qiymətləndirildi.

1992-ci il iyulun 25-də Böyük Britaniya Yuqoslaviya ilə bağlı London konfransmı çağırdı. Bu konfransa BMT və AB həmsədrlik edirdi və 40 dövlət və təşkilatdan təxminən 400 təmsilçi iştirak edirdi. London konfransının qərarına əsasən 22 nəfərlik idarəedici komissiya yaradıldı. Komissiyaya BMT nümayəndəsi kimi Sayrus Vens və Aİ-nin nümayəndəsi kimi Lord Devid Ouen başçılıq edirdilər. Bu komissiya 1992-ci il sentyabrın 3-də Cenevrədə öz işinə başladı. Burada AB adından Böyük Britaniya, Portuqaliya və Danimarka, Fransa, ATƏM adından ÇSFR, İsveç və Almaniya, İslam ölkələri adından Seneqal və köhnə Yuqoslaviya ilə həmsərhəd ölkələrin nümayəndəsi kimi Ruminiya və İtaliya iştirak edirdilər. ABŞ və Rusiya da bu komissiyanın tərkibində idi.

Amma Qərbin bu gecikmiş müdaxiləsi öz mənfi nəticəsini verdi. Belə ki, elə müsəlmanlarla xorvatlar arasındakı müharibənin başlanmasına təkan verən də məhz bu plan oldu. Plan özündə Bosniya ərazisinin etnik əlamətlərinə görə 10 hissəyə (kantona) bölünməsini ehtiva edirdi. Bu isə heç bir tərəfi qane etmirdi. Vens-Ouen planı 1993-cü ilin mayında Bosniya serbləri tərəfindən də referendumda yekdilliklə rədd edildi.

1992-ci il sentyabrın 2-də Bosniya və Herseqovinaya yardım daşınmalarını qorumaq üçün NATO 6000 əsgəri BMT-nin ixtiyarına verməyi qərara aldı, lakin birbaşa hərbi müdaxiləni rədd etdi. 1992-ci il oktyabrın 6-da TŞ 780-ci qətnamə ilə köhnə Yuqoslaviyada hərbi cinayətlərin araşdı-rılması üçün ekspertlər komissiyasının yaradılmasını qərara aldı, 1992-ci il oktyabrın 9-da isə 781-ci qətnamə ilə Bosniya-Herseqovina üzərində hərbi uçuşları qadağan etdi.

1992-ci il sentyabrın 30-da prezidentlər Cosiç və Tucman arasında hər iki dövlət arasındakı "Münasibətlərin möhkəmləndirilməsi və normallaşdırılması barədə ümumi bəyannamə"nin imzalanması serb-xorvat münasibətlərinin ilk normallaşması oldu.

Ümumiyyətlə, serblərlə müqayisədə xorvatlar və müsəlmanlar daha çox yaxın idilər. Ümumi mənafə yaxınlığı sonralar da özünü göstərdi. Artıq 1992-ci ilin sonları üçün serblər əhalinin 32%-ni təşkil etməsinə baxmayaraq, Bosniya ərazisinin 70%-nə nəzarət edirdilər. Müsəlmanlarla xorvatları birləşdirən amillərdən biri də bu idi. Hələ 1993-cü il yanvarın 30-da İzetbeqoviç və Karaciç Bosniya-Herseqovina üçün sülh planını qəti rədd etmişdilər, bununla da, Cenevrə sülh konfransı beş aylıq müddətdən sonra tam uğursuzluğa düçar olmuşdu. Nəticədə sülh planı BMT TŞ-yə ötürüldü və artıq burada baxılmalı idi. Digər tərəfdən, bu qəribə bir vəziyyətə gətirib çıxardı. Hərbi cinayətkar kimi ABŞ-ın siyahısında olan Karaciçə TŞ qarşısında sülh planına öz münasibətini bildirməsi üçün ABŞ-a gəlməyə icazə verildi.

Vens-Ouen planı 1993-cü ilin mayında Bosniya serbləri tərəfindən də referendumda yekdilliklə rədd edildikdən sonra 1993-cü il iyulun 27-də və avqustun 21-də Vens və Ouen tərəfindən irəli sürülmüş daha bir layihə - "Birləşmiş Bosniya Respublikaları İttifaqı" layihəsi də uğursuzluğa düçar oldu.

ABŞ administrasiyası 1993-cü ildə Bill Klinton hakimiyyətə gəldikdən sonra serblərə və onları dəstəkləyən Serbiyaya qarşı qəti addımlar atmaq qərarına gəldi. ABŞ-ın təşəbbüsü ilə NATO rəhbərliyi Bosniyayadakı qanlı hadisələrə son qoymaq üçün hərbi güc tətbiq etmək qərarına gəldi.

1994-cü il martın 1-də yenə ABŞ-ın təşəbbüsü ilə Vaşinqtonda əldə edilmiş çərçivə şərtləri əsasında 1994-cü il martın 14-də Bosniya müsəlmanları və xorvatları öz aralarında "Bosniya Federasiyasının" yaradılması haqqında razılığa gəldilər, bu federasiya isə öz növbəsində Xorvatiya Respublikası ilə "konfe-

derasiya" şəklində birləşməli idi. Bu federal dövlət Bosniya və Herseqovina ərazisinin 58%-ni təşkil etməli və səkkiz hissədən (kantondan) ibarət olmalı idi, bunlardan dördü müsəlmanlar, ikisi xorvatlar, ikisi isə qarışıq idarə olunmalı idi. 1994-cü il mayın 30-da federasiyanın parlamentinin iclası rəsmi olaraq yeni konstitusiyanı qəbul etdi. Lakin bu, xorvat-müsəlman federasiyasının yaradılması üçün nəzərdə tutulan altı aylıq keçid müddətindən daha çox vaxt apardı. Xüsusilə də, 1993-cü il avqustun 24-də Bosniya xorvatları tərəfindən birtərəfli qaydada elan olunmuş "Herseqovina Bosniya Xorvat Respublikası" ilə bağlı problemə görə bu qurum Bosniya və Herseqovinanın əsasən xorvatlar məskunlaşmış ərazilərini əhatə edirdi və paytaxt Mostar idi. Az sonra rəsmi Vaşinqton Sarayevo hökümətinə qarşı tətbiq edilən silah embarqosunun ləvğ edilməsi və NATO hərbi hava qüvvələrinin serb mövqelərinə zərbə endirməsi təşəbbüsü ilə çıxış etdi. Nəhayət ki, 1994-cü ilin fevral ayının 28-də Şimali Atlantika Alyansının tarixində ilk dəfə olaraq Alyansın hərbi qüvvələri NATO sərhədləri çərçivəsindən kənarda fəaliyyətə başladı. Bundan sonra NATO-nun Bosniya hadisələrinə müdaxiləsi getdikcə artmağa başladı.

1994-cü ilin sonunda Bosniyada 33 aylıq müharibədən və Sarayevonun 1000 günlük müharibəsindən sonra sabiq ABŞ prezidenti Karterin vasitəçiliyi ilə 4 aylıq atəşkəs barədə və 1994-cü il dekabrın 31-də Bosniya hökuməti, Bosniya serbləri və BMT arasında "bütün düşmənçilik hərəkətlərinin tam dayandırılması barədə razılaşma" əldə olundu. Bu razılaşmaya, həmçinin, Bosniya xorvatları və Fikrət Abdiçin başçılıq etdiyi müsəlman birlikləri də qoşuldular. Baxmayaraq ki, Bosniya və Herseqovinadakı müharibədə iştirak edən hər üç tərəf atəşkəs müqaviləsinə və düşmənçiliyin dayandırılması barədə müqaviləyə cəlb olunmuşdular, çox tezliklə serblər BMT nəzarəti altında olan ərazilərə hücum etməyə başladılar və mülki əhali Bosniya serblərinin məqsədyönlü hücumlarına məruz qaldı. Atəşkəs müqaviləsinin pozulmasından sonra TŞ-

nin 21.04.1995-ci il tarixli 988-ci qətnaməsi Yuqoslaviyaya qarşı hissəvi sanksiyaları daha 75 gün uzatdı.

Hadisələrin bu cür gedişatını görən Serbiya rəhbərliyi -prezident Miloşeviç Xorvatiya prezidenti Tucman ilə gizli kompromis əldə etməyə nail oldu. Bu razılaşmaya əsasən Serbiya Xorvatiya daxilində separatçı Serb Vilayət Respublikasına dəstəyini dayandıracaq, əvəzində isə Xorvatiya Bosniyanın serblər yaşayan hissəsinin Serbiyaya birləşdirilməsinə mane olmayacaqdı. Eyni zamanda, müsəlman-xorvat federasiyasinin taleyi Serbiyanı maraqlandırmadığından bu məsələdə də Xorvatiyaya güzəştə gedirdi.

1995-ci il iyunun 16-da bosniyalilar Sarayevonun mühasirəsini yarmaq üçün 15 000 əsgərlə hücuma keçdilər. Digər tərəfdən, elə həmin gün BMT TŞ 998-ci qətnamə ilə 12500 nəfərlik sürətli müdaxilə qoşununun göndərilməsini qərara aldı. Bu qoşun əsasən NATO tərəfindən təşkil olunmalı idi. Artıq 1995-ci il iyulun 21-də Londonda böhran üzrə konfransın iştrakçı dövlətləri Bosniya serblərinə xəbərdarlıq etmək barədə razılığa gəldilər. Lakin buna baxmayaraq, serblər öz "etnik təmizləmələrini" və BMT nəzarəti altında olan altı təhlükəsizlik zonasına hücumlarını davam etdirirdilər. BMT nəzarəti zonalarına bu hücumlar NATO-nu 1995-ci ilin avqust-sentyabr aylarında "Deliberate Force" adlı əməliyyatı həyata keçirməyə sövq etdi. Bu əməliyyat çərçivəsində təxminən 300 təyyarə 3000 dəfə Bosniya serblərinin mövqelərinə qarşı reydlər keçirdilər. Bu müvəffəqiyyətli hərbi əməliyyatın təsiri altında Bosniya və Herseqovina, Xorvatiya və Yuqoslaviya xarici işlər nazirləri 1995-ci il sentyabrın 8-də Cenevrə konfransında Bosniyada sülh əldə edilməsinin əsas istiqamətləri üzrə razılığa gəldilər. Bosniya serbləri buna öz dövlətlərini yaratmaq səylərinin tanınması kimi baxdıqları halda, bosniyalılar və xorvatlar ümumi Bosniya və Herseqovina dövlətinin saxlanması mövqeyindən çıxış edirdilər. Lakin serblərin hücumları xorvatları da 1995-ci il avqustun 4-də Krajinanın yenidən işğalı məqsədi ilə "Tufan

əməliyyatının" həyata keçirməyə sövq etdi və bu əməliyyat bir neçə həftə ərzində müvəffəqiyyətlə başa çatdırıldı.

Ancaq serb mövqelərinə zərbələrin endirilməsi Rusiyada narazılıq yaratdı. Dinc sakinlərin də zərər çəkdiyini bəyan edən Rusiya Dumasında prezident B.N.Yeltsin və Xarici İşlər Naziri A.V.Kozırevin kəskin tənqidinə başlandı. Xüsusilə sol müxalif qüvvələr və mühafizəkarlar onları Rusiyanın milli maraqlarına zidd siyasi kurs yeritməkdə ittiham edirdilər. Ancaq bu narazılıqlar aparılan əməliyyatlara təsir etmək gücünə malik deyildi.

1995-ci il sentyabrın 26-da Nyu-Yorkda keçirilən konfransda "Bosniya və Herseqovinanın gələcək siyasi quruluşu üçün çərçivə razılaşması" əldə edildi. Buna əsasən Bosniya və Herseqovina 2 hissədən – "Bosniya-Xorvat Federasiyasından" (ölkə ərazisinin 51%-i) və yeni "Serb Respublikasından" (49%-i) ibarət olmalı idi.

1995-ci il oktyabrın 12-də Bosniyadakı müharibə aparan tərəflər 60 günlük atəşkəs barədə razılığa gəldilər. Bu zaman ərazilərə sahiblik vəziyyəti belə idi: əhalinin 17,3%-ni (1991) təşkil edən xorvatlar ərazinin 28%-ni, əhalinin 31,3%-ni təşkil edən serblər ərazinin 48,5%-ni əllərində saxlayırdılar. Bunun əksinə əhalinin 43,7%-ni təşkil edən müsəlmanlar ərazinin yalnız 24%-ni öz əllərində saxlaya bildilər. Bu ərazilərin sahə və yerləşmə qiymətlərini vermək xüsusi ilə çətin idi və bu da ABŞ-ın vasitəçiliyi ilə keçirilən sülh danışıqlarında əsas mübahisə nöqtəsinə çevrildi.

1995-ci il noyabrın 1-də Deytonda ABŞ-ın Ohayo ştatında Serbiya, Xorvatiya, Bosniya və Herseqovina prezidentləri Miloşeviç, Tucman və İzetbeqoviç arasında Rusiya, ABŞ və AB-nin iştirakı ilə sülh danışıqları başladı və noyabrın 21-də "Deyton sülh razılaşmasının" imzalanması ilə müvəffəqiyyətlə başa çatdı. Bir gün sonra TŞ-nın iki qətnaməsi ilə, nəinki, 1991-ci ilin sentyabrında sabiq Yuqoslaviyaya qarşı tətbiq olunmuş hərbi embarqonun tədrici ləğvi, həmçinin, YFR-ə qarşı iqtisadi

sanksiyalar da qüvvədən düşmüş elan olunurdu. Bundan sonra Londonda bu sülh müqaviləsinin həyata keçirilməsi ilə bağlı konfrans keçirildi və burada isveçli Karl Bildt yenidənqurma işləri üzrə "ali təmsilçi" seçildi, Deyton sülh sazişi 1995-ci il dekabrın 14-də Parisdə rəsmən imzalandı və bu andan etibarən qüvvəyə mindi. Deyton sülh müqaviləsi ərəfəsində, həmçinin, daha iki mühüm müqavilə imzalanmışdı: 1995-ci il noyabrın 10-da Bosniya və Herseqovina Respublikası və "Bosniya-Xorvat Federasiyası" arasında "Bosniya və Herseqovina Federasiyasının yaradılması haqqında Deyton sazişi" bağlanıdı. Bu müqaviləyə, həmçinin, Mostar şəhərinin müvəqqəti idarəçiliyi barədə prinsipal razılaşma daxil idi. 1995-ci il noyabrın 12-də Bosniya serbləri və xovatları arasında Şərqi Sloveniya, Baranya və Qərbi Srmium regionu barədə prinsip razılaşması bağlandı. Bu da Deyton sülh müqaviləsi üçün mühüm ilkin şərt idi.

Deyton sülh müqaviləsi, ilk növbədə, "sülh üçün ümumi çərçivə sazişindən" və buna 11 əlavədən ibarətdir. Bu əlavələr müstəqil beynəlxalq-hüquqi müqavilələrdir və sülh nizamlanmasının çox müxtəlif aspektlərinə toxunur: əlavə 1A – Hərbi aspektlərə, əlavə 1B – regional sabitləşməyə aiddir. Əlavə 2 – ərazi-sərhəd məsələsini, əlavə 3 – azad seçkilər keçirilməsini, əlavə 4 – Bosniya və Herseqovina ümumi dövlətinin yeni konstitutsiyasını, əlavə 5 – arbitraj sisteminin tətbiqini, əlavə 6 insan hüquqlarının qorunmasını, əlavə 7 –qaçqınların öz yerlərinə qaytarılması məsələsini, əlavə 8 – milli abidələrin qorunmasını, əlavə 9 – ümumi ictimai müəssisələrin yaradılmasını, əlavə 10 – sülh nizamlanmasının mülki tətbiqini və "Ali təmsilçinin" tətbiqini, əlavə 11 – 1700 nəfərlik "Beynəlxalq polis qoşununun" yaradılmasını əhatə edirdi. Bununla YFR və Bosniya və Herseqovina bir-birini beynəlxalq-hüquqi cəhətdən tanıyırlar.

Sülh sazişinin hərbi aspektlərinin tətbiqinə gəldikdə, bunun özəyini çoxmillətli silahlı qüvvələrin yaradılması təşkil edirdi. Bu qüvvə "İmplemetation Force" (İFOR) adlandırıldı və 1995-ci il dekabrın 20-də sülhyaratma qüvvə-lərinin varisi

kimi fəaliyyətə başladı. TŞ-nın 1031-ci qətnaməsi ilə qəti olaraq formalaşan İFOR artıq BMT deyil, NATO komandanlığı altında idi və atəşkəsə riayət olunmasına, qoşunlarm ayrılmasına nəzarət etməli idi. Bununla NATO-ya onun kollektiv müdafiə ittifaqı kimi funksiyasmı aşan bir rol ayrılmış oldu. Onun əsas vəzifəsi "peace enforcement" – "sülhyaratma sahəsində" tədbirləri əhatə edirdi. Beləliklə, 1995-ci ilin dekabrında Bosniya və Herseqovinaya NATO-nun quru qoşunları çıxarıldı. Bu yerləşdirilmə BMT TŞ sanksiyası əsasında həyata keçirildi. Münaqişə iştirakçıları Deyton sazişinin imzalanmasından sonrakı 30 gün ərzində ağır silahları geri çəkməli və əsgərləri kazarmalara qaytarmalı idilər. Bütün hərbi əsirlər dərhal buraxılmah idilər. 1993-cü ilin aprelindən BMT TŞ-sı tərəfindən Bosniya və Herseqovina üzərindən uçuşa qoyulan qadağaya nəzarət etməli olan NATO-nun "DENY FLİGHT" hava əməliyyatı 1995-ci il dekabrın 21-dən etibarən rəsmi olaraq dayandırıldı. 1996-cı il yanvarın 9-da, həmçinin, tarixdə ən böyük hava körpüsü olan "Provide Promise" əməliyyatı da dayandırıldı. Bu əməliyyat 1992-ci il iyulun 3-də başlanmışdı və təxminən 13 000 uçuş vasitəsilə Sarayevoya 170 min ton yardım malları daşımışdı.

1996-cı il fevralın 18-dən etibarən 16 NATO dövlətinin və 17 qeyri-NATO dövlətlərinin (həmçinin, Rusiya və Ukrayna da daxil olmaqla "sülh üçün əməkdaşlıq" proqramı çərçivəsində 14 tərəfdaş) ümumilikdə 60 000 əsgərlə hərbi çıxışı başa çatmış oldu. 1996-cı il mayın sonunda İFOR öz hərbi vəzifələrini artıq tam yerinə yetirmişdi. Lakin Deyton sülh sazişinin mülki həyata keçirilmə tədbirlərinin müddət planına riayət olunmasına nəzarət üçün onun mandatının uzadılması məsələsi qalxdı. 1996-cı il oktyabrın 18-də NATO şurası İFOR-un təyinatı müddətini 1 il müddətinə uzatdı. İFOR-un vəzifələrinə, həmçinin, yenidənqurmaya dəstək verməsi daxil idi və əsasən, mülki hissəyə diqqət yönəldilirdi. 1996-cı il dekabrın 12-də TŞ-nin 1088-ci qətnaməsi ilə İFOR mandatı, nəhayət,

18 aylıq müddətə onun varisi olan təşkilata "Stabilisation Force" - SFOR-a verildi. SFOR-ə, həmçinin, Deyton sazişinin 1A əlavəsinin tədbirlərini lazım gəldikdə hərbi yolla həyata keçirmək səlahiyyəti verildi.

Deyton sazişinin 11-ci əlavəsinə əsasən, TŞ-nin 1035-ci qətnaməsi (1995) ilə təsis olunmuş "Beynəlxalq polis qüvvələrinin" də mandatı 1997-ci ilin sonuna qədər uzadıldı. 1997-ci il dekabrın 17-də 16 NATO dövləti və 28 PFP üzvü SFOR-un mandatının 1998-ci il iyunun 30-nu aşmaqla uzadılması lehinə səs verdi. DFOR ("Deterrence Force") adlanmalı olan yeni qoşun SFOR-un əksinə olaraq müddətsiz mandata malik olmalı və sayca azaldılmalı idi.

Sülh sazişinin qeyri-hərbi tərəflərinə gəldikdə, Bosniya və Herseqovina müsəlman-xorvat "Federasiyasının" hər iki tərəfindən və "Serb Respublikasından" təşkil olunmaqla vahid, federal dövlət kimi qalmalı və Sarayevo əvvəlki kimi ümumi dövlət paytaxtı olmalı idi. Lakin Deyton sülh nizamlanması çərçivəsində beynəlxalq-hüquqi sazişlərdə müstəqil iştirak etmək vasitəsilə həm "Federasiya", həm də "Serb Respublikası" hissəvi beynəlxalq hüquq subyektivliyi qazandılar. Bu status, həmçinin, Bosniya və Herseqovina Respublikası konstitusiyası ilə (1995-ci il dekabrın 14-də qüvvəyə minmişdir) təsdiq edildi.

Bosniya və Herseqovina Respublikasında mərkəzi hökumət, vahid parlament (42 deputatlıq aşağı palata və 15 deputatlıq yuxarı palata), sədrlik (doqquz nəfərlik), konstitusiya məhkəməsi və mərkəzi bank yaradıldı. İnsan hüquqlarınm müdafiəsi üçün Deyton sazişinin 6-cı əlavəsinə əsasən, insan hüquqları komissiyası yaradıldı. Komissiya insan haqları palatasından 8-i AŞ-nın nazirlər komitəsi tərəfindən təyin olunan 14 üzvdən ibarət məhkəmə və ombudsmandan ibarət idi. Bununla yanaşı, "Ali təmsilçi" yanında xüsusi insan haqları mərkəzi yaradıldı. 1996-cı ilin payızına planlaşdırılan seçkilərə gəldikdə seçici qeydiyyatı silahları 1991-ci ilin əhali hesablamaları əsasında təşkil olundu və qaçqınlar yalnız müharibədən əvvəlki

yaşayış yerlərindən seçki hüququna malik idilər. Bu seçkilərdə kommunal nümayəndəliklər (icma və şəhər şuraları), 10 kantonun parlamentləri, müsəlman-xorvat "federasiyasınm" deputatlar palatası, "Serb Respublikasının Milli Yığıncağı" və Bosniya Respublikasmın ümumi parlamenti seçilməli idi.

Deyton sazişləri ilə ATƏT-ə də bir sıra mühüm tapşırıqlar verilmiş oldu: 1B əlavəsində, əsasən, etibaryaradıcı tədbirlər və silahlanmaya nəzarət tədbirləri görülməsi vasitəsilə regional təhlükəsizliyin təmin edilməsi; 3-cü əlavə vasitəsilə seçkilərin həyata keçirilməsi və 6-cı əlavə vasitəsilə insan haqlarınm təmin olunması.

Bosniya və Herseqovinanın tərkibində xorvat süni dövlətinin paytaxtı olan Mostar xüsusi problem təşkil edirdi. Bununla bağlı Bosniya-müsəlman "federasiyası" konstitusiyasının 18.3.1994-cü il tarixli yekun müddəalarının 10 və 11-ci maddələri AB-ni rəsmi olaraq 2 il müddətinə müvəqqəti idarəçiliyi üzərinə götürməyə dəvət edirdi. 1994-cü il iyulun 5-də Aİ və Qərbi Avropa Birliyi üzv-dövlətləri və "federasiyanın" Bosniya və Herseqovina Respublikası, Mostar şəhər rəhbərliyi arasında Mostar şəhərinin Aİ tərəfindən idarə olunması barədə saziş bağlandı. Bu saziş 1996-cı ilin sonuna kimi qüvvədə olmalı idi. Alman Hans Koşnik, ispan Rikkardo Perez Kasado, britaniyalı Martin Qarrod Aİ təmsilşisi olaraq növbə ilə birbirini əvəzlədilər. 1996-cı il dekabrın 31-də AB idarəçiliyi qəti olaraq başa çatdı və idarəçilik "Ali təmsilçiyə" - isveçli Karl Bildtə təhvil verildi.

1997-ci il dekabrın 9-10-da Bonda Bosniya və Herseqovinada sülhün təmini Şurasmın (PİC) illik tam yığıncağı keçirildi. Burada hərbi implementasiya sahəsində uğurlar, mülki tədbirlərin həyata keçirilməsi sahəsində isə hələ də böyük çatışmazlıqların olduğu müəyyən edildi. Sonuncu, hələ də həll olunmamış qaçqın probleminə aid idi. Ümumilikdə, təxminən 1,6 milyon Bosniya qaçqını vətəndən kənarda yaşayırdı.

Deyton sülh sazişində beynəlxalq ictimaiyyət 1999-cu ilə kimi Bosniya-Herseqovinanm bərpası üçün ümumilikdə 5,1 milyard ABŞ dolları verməyi öhdəsinə götürmüşdü. Onlardan təxminən 3 milyardı 1995-97-ci illərdə 3 konfransda AB, onun üzv-dövlətləri, ABŞ və dünya bankı tərəfindən vəd olunmuşdu.

Bu səbəbdən də PİC konfransımn ən mühüm nəticəsi kimi "ali təmsilçinin" mövqeyinin mülki işlərin həyata keçirilməsində mərkəzi instansiya kimi möhkəmləndirilməsi barədə razılaşmanı göstərmək olar. 1997-ci il mayın 30-da ispan Karlos Vestendorp Karl Bildtin əvəzinə mülki yenidənqurma üzrə baş koordinator təyin olundu. Buraya, həmçinin, üç xalq qruplaşması razılaşmaya gələ bilmədikdə və Bosniya və Herseqovina prezidiumu və hökuməti qərar vermək gücündə olmadıqda arbitraj səlahiyyətinin verilməsi də daxil idi. Bu da Vestendorpa daha başqa səlahiyyətlərin, hətta münaqişə vəziyyətində məcburi olan qanunlar verə bilmək səlahiyyətinin də verilməsi ilə və ümumdövlət məsələlərində tərəflər üçün məcburi olan qərarlar vermək səlahiyyəti ilə birlikdə Bosniya və Herseqovinada de-fakto protektorat qurulması demək idi.

Sloveniya və Xorvatiyanm 1991-ci il iyunun 25-də, Bosniya-Herseqovinanın 1991-ci il oktyabrın 15-də, həmçinin, "Bosniya və Herseqovina Serb Respublikasının", "Herseqovina-Bosniya Xorvat Respublikasının" müstəqilliklərini elan etmələri ilə bir sıra suallar ortalığa çıxmış oldu ki, onlar beynəlxalq hüququn ən mürəkkəb problemləri sırasına daxildir, yəni: öz müqəddəratını təyin etmə hüququ və dövlət varisliyi məsələləri.

Dövlət varisliyi bir ərazinin beynəlxalq əlaqələri üçün cavabdehlik baxımından bir dövlətin digər tərəfindən əvəz olunmasıdır. Bu zaman bu məsuliyyətin ötürülməsi müvafiq olaraq dövlətlər birliyi tərəfindən tanmmahdır. Bu səbəbdən bu bir tərəfdən hüquqi varis olmaq üçün subyektiv istək, digər tərəfdən bunun, xüsusilə də aidiyyatı olan dövlətlər tərəfindən tanınması məsələsidir. Xorvatiya və Sloveniya 1991-ci il

dekabrın 23-də Almaniya, 1992-ci il yanvarın 15-də bütün digər AB dövlətləri, həmçinin, Avstriya, İsveçrə, Kanada, Norveç, Bolqarıstan və Macarıstan tərəfindən tanındılar.

1991-ci il avqustun 27-nə təyin olunmuş Aİ arbitraj məhkəməsi komissiyasmm nəticələri tanınma üçün həlledici oldu. Həmçinin, Makedoniyanm da suveren dövlət dərəcəsi almaq hüququ tanındı. O cümlədən, 1991-ci ilin 18 sentyabrında öz müstəqilliyini elan etmiş Makedoniya da 1993-cü il aprelin 8-də "Sabiq Yuqoslaviya Respublikası Makedoniya" müvəqqəti adı altında BMT-yə qəbul olundu və 1993-cü ilin dekabrında AB üzvlərinin əksəriyyəti tərəfindən də rəsmən tanındı. Yunanıstan bu respublikanı tanımaqdan imtina etdi və 1994-cü il fevralın 16-da ona qarşı ticarət embarqosu tətbiq etdi.

1992-ci il aprelin 7-də Bosniya-Herseqovina da AB üzv dövlətləri tərəfindən tanındı. ABŞ da bu dəfə bu qərara qoşuldu, həmçinin, Xorvatiya və Sloveniyanı da tanıdı. 1992-ci il aprelin 27-də Serbiya və Çernoqoriya tərəfindən bərpa edilən, özünü YSFR-in dövlət, beynəlxalq-hüquqi və siyasi-hüquqi varisi adlandıran "üçüncü Yuqoslaviya" – "Yuqoslaviya Federativ Respublikası" bunun əksinə tanınmadı və YSFR-in hüquqi varisi kimi də qəbul olunmadı.

YXO-nun 1991-ci il oktyabrın 25-də Sloveniyadan çıxarılması ilə YSFR üçün dövlət hökmranlığını güc vasitələri ilə yenidən bərpa etmək demək olar, qeyri-mümkün olmuşdu, hərçənd ki, bu zaman YSFR-in saxlanması uğrunda mübarizə siyasi baxımdan heç də qurtarmamışdı. Xorvatiya məsələsində YXO-nun 1992-ci il yanvarın 9-da geri çəkilməsi eyni effekt verdi. Bosniya və Herseqovinada isə hərbi əməliyyatlar 1992-ci ildə tanınması zamanı da davam edirdi. Bu səbəbdən sonuncu tanınma formal, "vaxtından əvvəl" baş vermiş bir tanınma idi və sonda mənfi nəticələrə gətirib çıxarmalı idi.

Əgər dövlətin bir hissəsi ayrıldıqda həmin dövlət beynəlxalq hüquq subyekti kimi qalırsa və yalnız ərazi dəyişiklikləri

baş verirsə, parçalanma zamanı isə dövlət tamamilə məhv olur və onun ərazisində bir sıra yeni dövlətlər yaranır. Bu hüquqi vəziyyət Yuqoslaviya məsələsində yaranmış oldu – 1992-ci il iyunun 29-da "Badinter komissiyası" müəyyən etdi ki, Yuqoslaviyanın buraxılması prosesi tam başa çatıb və "Yuqoslaviya Federativ Respublikası" YSFR-in varisi sayıla bilməz. Hüquqi varis məsələsini yalnız bütün yeni yaranmış dövlətlərlə razılaşmaqla həll etmək olar.

Beləliklə, müqavilələr, borclar və beynəlxalq təşkilatlara üzvlük kimi sahələri əhatə edən dövlət varisliyi məsələsi ortaya çıxdı. Ümumi beynəlxalq hüquqa əsasən siyasi və ratifikasiya olunmuş müqavilələr fərqləndirilirlər. Əgər ratifikasiya olunmuş müqavilələr (yəni əraziyə aid müqavilələr) yeni dövlət tərəfindən qəbul olunmalıdırsa, siyasi müqavilələrə varislikdən imtina edilə bilər. Borcların varisi dövlətə keçməsi baxımından həm lokal borclar, həm də idarə borcları müvafiq yeni dövlətin üzərinə düşür. "Ümumi dövlət borcları" isə bütün varis dövlətlər arasında bölünməlidir. Varis dövlətlərin maraqlarına qarşı olan borcların, məsələn: sabiq dövlətin hərbi borclarının ödənməsi məcburi deyil. Bununla bağlı maraqlıdır ki, 1991-1992-ci illərdə Yuqoslaviyanm ümumi büdcəsinin 2/3-dən çoxu YXO-ya xərclənmişdi və YXO sonradan məqsədyönlü olaraq Serbiyanın xeyrinə döyüşlərə girdi. Beynəlxalq təşkilatlara üzvlüyə varislik məsələsində həmin təşkilat söz sahibidir. Bununla bağlı 1992-ci il sentyabrın 19-da BMT TŞ-nın qəbul etdiyi qətnamədə göstərilirdi ki, "Yuqoslaviya Federativ Respublikası (Serbiya və Çernoqoriya) sabiq YSFR-in BMT-də üzvlüyünü avtomatik olaraq davam etdirə bilməz və buna görə də qərar gəlir ki, YFR BMT-yə üzvlük üçün ərizə verməlidir və Baş Yığıncağın işində iştirak edə bilməz". Bununla "Yuqoslaviya Federativ Respublikası" BMT-dən çıxarılmalı idi, yalnız onun hüquqi varisi kimi YSFR-in BMT-dəkı yerini tutmaq iddiası rədd edildi. Nəticədə "YFR" xüsusi qəbul metodunun tətbiqinin zəruriliyi ilə üzləşməli oldu. Lakin şərtləri ödəyə bilmədi. 4-cü maddəyə

əsasən qəbul ərizəsi verən bir tərəfdən sülhsevər olmalı, digər tərəfdən BMT-nin iclas öhdəliklərini yerinə yetirməyə qabil və istəkli olmalıdır.

Klassik hərbi-beynəlxalq hüququn rəsmi müharibə anlayışının əksinə olaraq müharibə qurbanlarının müdafiəsi barədə Cenevrə Konvensiyasından (1949) və onun iki əlavə protokolundan (1977) bəri müharibənin fərqli təsviri üstünlük təşkil edir. Bu təsvir maddi müharibə anlayışma istiqamətlənir. Buna əsasən vətəndaş müharibəsi zamanı da humanitar-hərbi hüquqa əməl edilməlidir. Lakin bu, üçüncü tərəflərin qarışmasına bəraət üçün istifadə olunmalıdır, eyni dərəcədə bütün vasitələrlə dövlətdə ictimai qayda-qanunu qorumağa və yaxud milli bütövlük və ərazi toxunulmazlığım müdafiə etməyə çalışan hökumətin məsuliyyətə cəlb olunması üçün istifadə edilə bilməz.

Beləliklə, Yuqoslaviya federativ hökuməti respublikaların ayrılma cəhdlərinin qarşısmı almaq üçün bütün "qanuni" vasitələrdən istifadə edə bilərdi. Bu zaman bu qanunilik həm konstitusion, həm də beynəlxalq-hüquqi mənada başa düşülməlidir. Fərqi yoxdur, söhbət sözün əsl mənasında müharibədən, yoxsa vətəndaş müharibəsindən, yaxud dövlət daxilində silahlı üsyanın yatırılmasından gedir. Humanitar davranış qaydaları minimumuna riayət olunmalıdır. Onun pozulması bir tərəfdən dövlətin, digər tərəfdən ayrı-ayrı şəxslərin məsuliyyət daşımasına səbəb ola bilər.

Sloveniya və Xorvatiyanm müstəqilliyindən əvvəl onların ərazisindəki silahlı toqquşmalar zamanı söhbət bir tərəfdən (nə qədər ki, YXO-nun hərəkət tərzi konstitusiyaya uyğun idi) ayrılmaq istəyən respublikalarına qarşı YSFR-in qanuni "federativ cəza tədbirlərindən", digər tərəfdən isə Genf müqaviləsinin əlavə protokoluna əsasən vətəndaş müharibəsindən gedirdi. Bu vətəndaş müharibəsinin xüsusiliyi onda idi ki, o, zahirən YXO-nun özü tərəfindən deyil, serb polis birlikləri tərəfindən aparılırdı. Sloveniya, Xorvatiya və Bosniya və

Herseqovinadakı serb "muxtar ərazilərinin" və respublikalarının çağırışından və öz müqəddəratım təyin etmə hüququna istinad etməsindən sonra bu polis dəstələri burada yaşayan serblərin köməyinə gəldi. Bu zaman maraqlıdır ki, serblər özlərini rəsmən heç zaman "milli azlıq" adlandırmırdılar. Onların fikrincə, onlar YSFR-in tərkibində əksəriyyət təşkil edən xalq kimi daxili respublikalarda da bu statusu daşıya bilməzlər, baxmayaraq ki, sayca az idilər. Serb polislərinin əvvəl gizli, sonra isə getdikcə açıq-aşkar YXO tərəfindən dəstəklənməsi də xüsusi polis birliklərinin davranışınm əvvəl YSFR, sonra isə YFR-in ayağına yazılması üçün əsas verir. Ən nəhayət, Sloveniya və Xorvatiyanın 1991-ci ilin iyununda müstəqilliklərini elan etmələrindən və tanınmalarmdan sonra vətəndaş müharibəsi dövlətlərarası müharibəyə çevrilmiş oldu.

Sabiq Yuqoslaviyadakı müharibə, həmçinin, mülki əhaliyə və mülki obyektlərə hücumlarla fərqlənir. Mülki əhali adı altmda "legitim döyüşçü" olmayan, yəni hərbi əməliyyatlarda iştirak etməyən şəxslər başa düşülür. Mülki əhali həm qurudan, həm də havadan hər hansı hücuma məruz qalmamalıdır.

Sloveniya, Xorvatiya və Bosniya və Herseqovina müstəqillik müstəqillik əldə etdikdən sonra hələ də onların ərazisində yerləşən YXO qoşunları beynəlxalq müqavilələrə əsasən işğalçı qüvvə rolunu oynayırdılar və mülki əhaliyə münasibətdə yalnız müəyyən hüquqlara malik idilər. Məsələn, işğalçı qüvvə 18 yaşından yuxarı mülki şəxsləri öz ordusunun ehtiyacları üçün işləməyə cəlb edə bilər, lakin hərbi əməliyyatlarda iştraka cəlb edə bilməz. İşğalçı qüvvəyə mülki əhaliyə münasibətdə fiziki və mənəvi məcburetmə vasitələrindən isti-fadə etmək, qəddarlıq etmə qəti qadağandır. O, həmçinin, ayrı-ayrı şəxslərin hərəkətinə görə kollektiv cəza da tətbiq edə bilməz. Mülki şəxslər işğal olunmuş ərazidən zorla çıxarıla və ya köçürülə bilməz. Yalnız işğalçı qüvvənin təhlükəsizliyi təcili olaraq bunu tələb etdikdə, mülki şəxslər məcburi köçürülə bilərlər. Bosniya-Herseqovinadakı "etnik təmizləmələri" isə bir çox əlamətlərinə

görə soyqırım kimi qiymətləndirmək olar. Sabiq Yuqoslaviya üzrə hərbi cinayətkarlar üçün tribunal da bu baxışı müdafiə edir.

Hərbi və humanitar hüquqların pozulması ilə prinsipcə dövlət məsuliyyəti meydana çıxır. Lakin buna əlavə olaraq müharibə cinayətlərinə görə adi hüquq olaraq fərdi beynəlxalq cinayət-hüquq məsuliyyəti işlənib hazırlanmışdır. "Hərbi cinayətlərlə" yanaşı, Nürnberq və Tokio hərbi məhkəmələrinin hökmləri nəticəsində ali hökumət orqanlarının fərdi məsuliyyəti üçün daha iki cinayət-hüquqi cinayət tərkibləri - "sülh əleyhinə cinayət" və "bəşəriyyət əleyhinə cinayət" - formalaşdırıldı. Artıq hərbi cinayətkarlar üzrə London sazişində onlar öz əksini tapmışlar.

1993-cü il martın 20-də Beynəlxalq Məhkəmə yanında soyqırım konvensiyasının pozulmasına görə Bosniya-Herseqovina tərəfinin Yuqoslaviya əleyhinə iddiası bu beynəlxalq-hüquqi məsuliyyətdaşımanın ilk tətbiqi oldu.

22 fevral 1993-cü il tarixli 808-ci qətnamə ilə BMT TŞ "1991-ci ildən bəri sabiq Yuqoslaviyada humanitar-beynəlxalq hüququn kobud pozulmalarına görə məsuliyyət daşıyan şəxslərin təqib olunması üçün beynəlxalq məhkəmənin yaradılmasını" qərara aldı. TŞ bunu onunla əsaslandırırdı ki, humanitar-beynəlxalq hüququn kobudcasına pozulmaları "dünyada sülhə və beynəlxalq təhlükəsizliyə" təhlükə təşkil edir. YFR buna etirazını bildirdi və göstərdi ki, BMT-nin baş orqanının tərkibində olan orqan müstəqil orqan ola bilməz.

Məhkəmə hər biri üç hakimdən ibarət olmaqla iki cinayət işləri üzrə məhkəmə kollegiyasından və beş hakimdən ibarət appelyasiya palatasından, həmçinin, 1 müstəqil ittiham idarəsindən ibarətdir. 11 hakim (italyan Antonio Kassese sədr seçildi) 1993-cü ilin sentyabrında BMT Baş Yığıncağı tərəfindən təyin olundu və ittiham idarəsinin rəhbəri cənubi afrikalı Riçard Qoldston 1993-cü il oktyabrın 21-də BMT TŞ tərəfindən seçildi. Məhkəmə 1993-cü il noyabrın 15-də Haaqada özünün

ilk iclasına toplandı və 1994-cü il fevralın 11-də öz prosedura qaydalarını müəyyən etdi. Məhkəmə BMT-nin büdcəsindən maliyyələşdirilirdi.

Prosedura uyğun olaraq məhkəmə yalnız ayrı-ayrı şəxsləri təqib edə bilər, lakin dövlətləri və ya təşkilatları təqib edə bilməz. Bununla birmənalı olaraq, beynəlxalq hüquq pozuntusuna görə dövlətin ümumi məsuliyyəti və beynəlxalq hüquqi cinayətlərə görə fərdlərin fərdi cinayət-hüquqi məsuliyyəti fərqləndirilir. Buna əsasən "əmrlə hərəkət etmək" cəzasım istisna edən səbəb ola bilməz. Məhkəmə, müttəhimi yalnız onun iştirakı ilə ittiham edə bilər. Əgər bir dövlət şübhəli bilinən hərbi cinayətkarları təhvil verməzsə, ona qarşı iddia qaldırıla bilər, lakin onun haqqında hökm çıxarıla bilməz. Məhkəmə həmçinin, ölüm hökmü çıxara bilməz və azadlıqdan məhrum edilmə cəzası yalnız BMT-yə üzv-dövlətlərin həbsxanalarında çəkilməlidir. Məhkəmənin "yerindəcə" istintaq aparmaq, həbs qərarları vermək, şahidləri məhkəməyə çağırmaq səlahiyyəti vardır.

Məhkəmənin yaradılması zamanı mərkəzi problemi tətbiq edilməli hüquq məsələsi təşkil edirdi. Bu hüquq hərəkətin baş verdiyi zaman kəsiyində qüvvədə olmalı idi. Nürnberq və Tokio hərbi məhkəmə hallarında olduğu kimi əks qüvvəyə malik olmalı deyildi. Nürnberq-Tokio tribunalının üç cinayət tərkibinin əksinə olaraq Yuqoslaviya tribunalının nizamnaməsi dörd cinayət tərkibi müəyyənləşdirir:

a) 1949-cu il Cenevrə Qırmızı Xaç konvensiyasının kobudcasına pozulması; b) müharibə qanun və adətlərinin pozulması; c) soyqırım və d) bəşəriyyətə qarşı cinayət, mülki əhaliyə qarşı sistematik, qəddarcasına hücumlar.

Nizamnamə Yuqoslaviya tribunalının və milli cinayət məhkəmələrinin rəqabət təşkil edən səlahiyyətlərini belə nizamlayır: milli məhkəmələr də ittiham olunan cinayətləri araşdırmaq səlahiyyətinə malikdir. Lakin tribunala isə milli məhkəmə qarşısında qaldırılmış işi hər hansı prosedura mərhələsində öz ixtiyarına keçirmək səlahiyyəti verilir. İkiqat cəzalandırmanın

qadağan olunması prinsipinə bununla əməl olunur ki, tribunal tərəfindən hökm çıxarılması milli məhkəmə tərəfindən təkrar hökm çıxarılmasını istisna edir. Əgər hökm çıxarılması beynəlxalq humanitar hüququn pozulması nəticəsində baş tutmazsa, milli prosedura obyektiv olmazsa və ya yalnız zahiri prosedura xarakteri daşıyarsa, milli məhkəmənin baxdığı iş təkrarən Beynəlxalq Tribunal qarşısında qaldırıla bilər. Lakin artıq milli səviyyədə çəkilmiş cəza tribunal tərəfindən nəzərə alınmalıdır.

Hərbi cinayətlərdə şübhəli bilinən şəxslərin istintaqına gəldikdə isə həm Deyton müqaviləsində, həm də Bosniya-Herseqovina Respublikasınm konstitusiyasında nəzərdə tutulurdu ki, Bosniya və Herseqovina idarələri Yuqoslaviya üzrə tribunal ilə onun elan etdiyi şəxslərin təqib olunması üçün əməkdaşlıq etməlidirlər. Həmçinin, bu şəxslərə ictimai vəzifələrə təyin olunmaq və seçkilərdə namizədliyini irəli sürmək qadağan olunurdu. 1997-ci ilin ortalarına kimi 75 şübhəli bilinən hərbi cinayətkarlar ittiham olunmuşdu: onlardan 54-ü serb, 18-i xorvat və 3-ü müsəlman idi.

İlk dəfə məhkəmə qarşısında hərbi cinayətkarlar üzrə iş 1994-cü ilin payızında qaldırıldı. Bundan sonra Balkan hadisələrində günahkar olan istər serb, istər xorvat və istərsə də müsəlmanlar tutularaq Beynəlxalq məhkəməyə verildilər. 1997-ci il iyulun 10-da isə ilk dəfə olaraq SFOR dəstələri iki hərbi cinayətdə şübhəli bilinən, 1992-ci il yazında Priyedorda baş vermiş "etnik təmizləmələrə" görə məsuliyyət daşıyan şəxslərin həbs edilməsi üçün Priyedorda axtarışlar həyata keçirdilər.

Bununla belə, ən böyük müvəffəqiyyət əsas müttəhim - serb Prezidenti Slobadan Miloşeviçin həbs olunaraq Haaqa tribunalına verilməsi oldu. Ancaq bununla belə bütün problemlər həll olunmadı və ən mühüm məsələ kimi Kosovo və Makedoniya problemləri meydana çıxdı.

Yuqoslaviyanın parçalanmasının ən böyük beynəlxalq nəticəsi dünyanın siyasi xəritəsində 5 yeni müstəqil dövlətin

meydana gəlməsi oldu: Serbiya və Çernoqoriya, Xorvatiya, Sloveniya, Bosniya və Herseqovina və Makedoniya. Ancaq son illərin ən böyük böhranlarından hesab olunan Balkan böhranı nəticəsində bu ölkələrin iqtisadiyyatına böyük ziyan vuruldu, güclü dağıntılarla müşayiət olunan maddi zərbələrdən başqa, insanların psixologiyasmda da silinməz izlər qaldı. Bu ölkələr hələ bu gün də müharibənin fəsadları və nəticələri ilə mübarizə aparmalı olurlar. Müstəqillik və sülh şəraitində keçən bir neçə il ərzində bu ölkələr artıq müəyyən müvəffəqiyyətlər əldə etmişlər. Lakin onların iqtisadi və siyasi inkişaf səviyyəsində hələ böyük fərqlər var.

Bu ölkələrdən Sloveniya iqtisadi və siyasi sahədə daha çox müvəffəqiyyətlər əldə edərək 2004-cü ildə AB-yə üzv kimi qəbul olunmuşdur. Xorvatiya, Serbiya və Çernoqoriya iqtisadi cəhətdən nisbətən ondan geridədirlər. Serbiya və Çernoqoriyada, ümumiyyətlə, demokratiya hələ ki tam möhkəmlənməyib və rüşvətxorluğun geniş miqyas aldığı ölkələr sırasındadır. Müharibədən ən çox zərər çəkmiş Bosniya və Herseqovina beynəlxalq yardımlar hesabına çoxsaylı problemləri həll etməyə çalışır və buradakı beynəlxalq sülhməramlı qüvvələr sülhün və sabitliyin təminatçısı rolunu oynamaqdadırlar. Makedoniya çox zəif inkişaf etmişdir və hələ ki iqtisadiyyatında irəliləyiş hiss olunmur.

Yeni dövlətlər artıq Qərbə istiqamətlənmiş siyasət yürüdür və ümumavropa inteqrasiyası prosesində yaxından iştirak edir. Sloveniyadan başqa digər dörd dövlət də AB-nin üzvü olmağa can atır, NATO və ABŞ-la sıx əməkdaşlıq edir. Lakin Serbiya və Çernoqoriyada həmişəki kimi Rusiyanın təsiri çox güclüdür və Belqrad bu tarixi bağlılığm saxlanmasında maraqlıdır.

Yuqoslaviya üzrə tribunal digər beynəlxalq məhkəmələr üçün nümunə rolunu oynadı. Oxşar bir tribunal Ruandada hərbi cinayətləri araşdırmaq üçün təsis edildi və "beynəlxalq cinayət məhkəməsinin" yaradılması üzrə layihənin hazırlanması sürətləndi.

## 8.6. Kosovonun müstəqilliyinin elan edilməsi və beynəlxalq nəticələri

Kosovoda böhran vəziyyəti və onun ətrafındakı hadisələr bir daha təsdiqləyir ki, bu münaqişə, ümumən Balkan regionunda stabillik və sülhün perspektivi kimi, son həllindən hələ uzaqdır. Ötən yüzilliyin sonunda Kosovo böhranının ən təhlükəli dövrləri əsasında tərəflərin qarşılıqlı güzəştlərinə dayanan kompromis razılıqların işlənib hazırlanması ilə başa çatdı. Ancaq bu, Avropa dünyasına potensial təhlükə təşkil edən qarşıdurmanı aradan qaldırmadı, yalnız onun kəskinliyini müvəqqəti azaltdı. Yuqoslaviyaya qarşı NATO-nun 1999-cu il martın sonunda başlamış hərbi aksiyası Kosovo böhranının beynəlxalq böhrana gətirib çıxarıb.

Geridə qalan dövr təsdiq edir ki, Kosovo böhranı təhlükəli nəticələrə gətirib çıxaracaq Balkandaxili vəziyyətə birbaşa təsir edir. Bu münaqişə, bir daha baş qaldıracağı halda Avropada sülh üçün neqativ nəticələrlə müşayiət olunan bu konfliktə Serbiya, Albaniya, Makedoniya, Yunanıstan və Türkiyənin qoşulması qaçılmaz olacaq ümumbalkan böhranının mənbəyi kimi çıxış edir. Serb şərhçisi V.Vekariçə görə, həll olunmamış Kosovo münaqişəsi "soyuq müharibə"nin başa çatmasından sonra Balkan dünyasının üzləşdiyi bütün təhlükə və həyəcanları doğurdu və gücləndirdi: etnoslararası münaqişələr, terrorizm və insan hüquqlarının pozulmasından tutmuş nəzarət olunmayan miqrasiyalara, narkotik alverinə, kriminal strukturların genişlənməsinə qədər.

Avropa xarici siyasətinin Yunanıstan fondu 1995-ci ildə Kosovo münaqişəsinin nizamlanması üzrə konkret təkliflər hazırlamaq məqsədi ilə "Kosovoda münaqişənin aradan qaldırılması strategiyası" mövzusunda layihə hazırladı. Əsas nəticələr münaqişə tərəfləri arasında onların inandıqları beynəlxalq vasitəçilərin iştirakı ilə danışıqlar aparmaq zərurətinə

hesablanmışdı. Müəlliflərin fikrincə danışıqların başlanmasının əsas şərti Yuqoslaviyanın ərazi bütövlüyünün təsdiqi və Kosovoya geniş muxtariyyət verilməsi ola bilərdi. Yuqoslaviyanın federativ xarakterinin və Kosovonun onun inteqral hissəsi olmasının qarantı kimi BMT, AB, ATƏT və AŞ ola bilərdi.

Kosovo böhranınm Yunan ekspertlərinin təqdim etdiyi sülh yolu ilə həllində aşağıdakı konkret tövsiyələr də nəzərdə tutulurdu: a) Kosovonun muxtar statusunun bərpası, b) Kosovonun müstəqilliyini və onun qonşu dövlətlərlə birləşməsini istisna edən Yuqoslaviyanın ərazi bütövlüyünün beynəlxalq zəmanəti, c) Kosovoya birgə serb-alban layihələrinin maliyyələşdirilməsi üçün beynəlxalq yardım göstərilməlidir, ç) Kosovo albanları qarşıdan gələn ümumrespublika seçkilərində iştirak etməyə razılıq verməlidirlər, d) qoşunlar yaşayış məntəqələrindən çıxarılmalı, hərbi birləşmələr isə buraxılmalıdır, e) serb və alban nümayəndələrinin paritet qaydada təmsil olunduğu, hər iki tərəfin inandığı neytral şəxsin sədrlik etdiyi vahid hüquqi orqanın yaradılmasınm mümkünlüyü.

Yunan layihəsinə əsasən inamın razılaşdırılmış tədbirləri separatizm təbliğatı və aksiyalarmın qadağan edilməsi, ikidilli Priştin Universitetinin və KİV-lərin fəaliyyətlərinin bərpası, eləcə də Ombudsman postunun yaradılmasını nəzərdə tuturdu. Yunan proyekti Kosovoda sülhün maraqlı Balkan dövlətlərinin vasitəçiliyi ilə bərqərar edilməsi üçün danışıqların pozitiv əsasını özündə ehtiva edir. Bu ideyalar Belqrad və Kosovo albanları arasındakı 1996-cı il danışıqlarında müəyyən dərəcədə öz əksini tapmışdı. T.Veremisin fikrincə Bosniyadakı vəziyyət Kosovo üçün bir növ model ola bilərdi. Bu, gələcəkdə ən azı 3 ehtimal yarada bilərdi: geniş konfederasiyanın yaradılması (Bosniyada artıq mövcud olan, Kosovodakı Serb tərəfi üçün isə qəbuledilməz olan), çoxetnoslu vətəndaş cəmiyyəti haqqında "Amerika arzusu"nun reallaşması (Balkanlarda bu gün bu, az inandırıcıdır), geniş miqyaslı münaqişələrin yenilənməsi halında bölgənin parçalanması.

ABŞ adminsitrasiyası Kosovo böhramna müdaxiləsi zamanı öz strateji maraqları ilə yanaşı, bu münaqişənin nizamlanmasının mümkün variantlarını diqtə edən spesifik özəllikləri də nəzərə alınağa məcbur idi. Münaqişənin nizamlanması üzrə plan və təkliflərin çoxu onun həllinin 3 əsas variantı ilə formulə edilir: a) Kosovoya Serbiya çərçivəsində geniş muxtariyyət verilməsi, b) bölgənin serb və alban hissələrinə bölünməsi, c) Kosovonun Serbiyadan ayrılması.

1999-cu ilin martına kimi daha çox müzakirə olunan variant Kosovoya 1974-cu il konstitusiyasındakına uyğun geniş muxtariyyət verilməsi variantı idi. Bu zaman Kosovonın gələcək statusu haqqında qərar minimum 3 illiyə təxirə salınırdı. Bu "gələcək status" modeli Kosovoda "yumşaq" beynəlxalq protektoratın yaradılması və bölgənin hərbsizləşdirilməsini nəzərdə tuturdu.

"Muxtar" variantının reallaşması istiqamətində ikinci addım ABŞ-ın 11 noyabr 1998-ci ildə irəli sürdüyü Kosovo probleminin dinc yolla həllinin ilkin planı oldu.

Amerika planına görə Kosovo albanları Yuqoslaviyanın federal assambleyasında yerlərin 1/5 hissəsini, federal məhkəmədə nümayəndəlik və Yuqoslaviya Respublikasının Ali Müdafiə Şurasında üzvlük almalı idilər.

Güman edilirdi ki, vilayətin sakinləri öz prezidentlərini seçəcək, qanunlarını qəbul edəcək, vergi toplayacaq, öz polislərini, mülki və cinayət məhkəmələrini formalaşdıracaqlar. Bu zaman "Amerika planı" bölgənin statusunun dəyişdirilməsinin mümkünlüyünü yazılı təsdiq etmir və Kosovonun öz konstitusiyası olmasına və Yuqoslaviyanın tərkibində formal respublika statusuna zəmanət vermirdi. Bu isə ABŞ və koordinasiya qrupusının təklif etdiyi muxtariyyətin hətta alban icması daxilindəki mülayim qüvvələri də təmin etmədi. Bu variant Serb azlığının hüququnun müdafiəsi, özəlləşməyə nəzarət problemi və sənaye müəssisələri və şaxtaların gəlirləri kimi vacib məsələrə toxunmurdu. 1998-ci ilin sonu – 1999-cu ilin başlanğıcında Kosovoda sülhün nizamlanması üzrə hamını

təmin edəcək planın hazırlanmasında beynəlxalq vasitəçilər fəal iş apardılar (3 ay ərzində təkcə Amerika tərəfi 7 variant işləyib hazırladı). Əlaqə qrupu özünün 29 yanvar 1999-cu il tarixli London iclasında münaqişə tərəflərinin əsasında Amerika planının son variantına dayanan sülh layihəsi üçün danışıqların təşkil olunması haqqında qərar çıxardı.

1999-cu ilin fevralında bu danışıqlar Böyük Britaniya və Fransanın Xarici İşlər Nazirləri R.Kuk və Y.Vedrinin sədrliyi, ABŞ, AB və Rusiya nümayəndələri – K.Hill, V.Petriç, B.Mayorskinin vasitəçiliyi ilə Parisin yaxınlığındakı Rambuye şəhərciyində baş tutdu. Əlaqə qrupunun münaqişə tərəflərinə təklif etdiyi siyasi razılaşma layihəsi Yuqoslaviya sərhədlərinin dəyişməzliyi fonunda Kosovoya 3 illik "keçid" dövründə "genişlənmiş muxtariyyət" verilməsini nəzərdə tuturdu.

Rambuyedə danışıqların iflasa uğramasından sonra Amerika diplomatiyası öz gücünü sülh sazişi mətnini Kosovo albanları ilə razılaşdırmaq üzərində cəmləşdirdi.

Sülh planının yeni variantında özünün ayrılmaz hissəsi kimi Belqrad üçün qəbuledilməz olan nizamlanmanın polis və hərbi aspektlərini nəzərdə tutan bəndlər də vardı.

Münaqişənin uzunmüddətli həlli kimi muxtariyyətin istənilən variantının həyata keçirilməsində əsas maneə Kosovonun özündə alban tərəfinin onu qəbul etməməsi, ən yaxşı halda bu varianta son məqsəd – Serbiyadan asılılığın aradan götürülməsi yolunda ara həlqə kimi baxılmasıdır. Kosovo üçün "geniş muxtariyyət" variantının reallaşmasında ciddi zərbəni NATO-nun Yuqoslaviyaya qarşı 24 mart 1999-cu ildə başladığı hərbi əməliyyatlar vurdu. Bununla da ABŞ və NATO bu problemin sülh yolu ilə nizamlanmasında obyektiv vasitəçi rolunu oynamaq imkanını itirdilər. Kosovoda vəziyyətin kəskinləşməsi və münaqişəyə beynəlxalq müdaxilənin güclənməsi zəminində bölgənin serb və alban hissələrinə bölünməsi ideyası daha real görünürdü (heç olmazsa birinci mərhələdə Serbiyanın suverenliyinin formal saxlanması şərti ilə).

Kosovonun bölünməsini çətinləşdirən əsas xarici faktor kimi Albaniyanın olduqca geosiyasi zəifliyini göstərmək olar. Beynəlxalq hüquq və siyasət üzrə Amerika ictimai qrupunun məruzəsində "aralıq suverenliyi" modeli təklif olunurdu. Bu modelə görə Kosovoya 3 ildən 5 ilə qədər spesifik suveren hüquqlar (daxili siyasət və təhlükəsizlik, iqtisadi inkişaf, təhsil, vergi yığımı, təbii resursların əldə olunması və emalı, nəqliyyat, səhiyyə, mədəniyyət və KİV sahələrində qanunverici, icraedici və məhkəmə nəzarətinin həyata keçirilməsi) verilirdi.

Öz növbəsində Kosovo albanlarından Kosovoda yaşayan bütün etnik azlıqların hüquqlarının müdafiəsinə xüsusi zəmanət verilməsi, qonşu ölkələrin (Makedoniya və Albaniya) ərazi bütövlüyünə hörmət edilməsi, Albaniyaya birləşmək ehtimalından imtina və Kosovonun sərhədlərini 1974-cü il Yuqoslaviya konstitusiyasında təsbit olunduğu kimi tanımaq tələb olunurdu. Kosovonun nümayəndələri federal orqanların işində beynəlxalq statusun qazanılmasına effektli keçid üçün lazım olan qədər iştirak etməli idilər. Bu zaman Yuqoslaviya xalq ordusunun bütün birləşmələri və serb polisi Kosovodan 6 ay ərzində çıxarılmalı idi. Bu dövr qurtarandan sonra Kosovoda beynəlxalq nəzarət altında referendum keçirilməsi nəzərdə tutulurdu. Bu referendumun nəticələrinə görə vilayətin əhalisi beynəlxalq birliyə müstəqilliyinin tanmması xahişi ilə müraciət edə bilərdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konfliktinin nizamlanması ilə bağlı layihələrin mövcud olmasına baxmayaraq, onların heç biri həyata keçməmişdir. Baxmayaraq ki, NATO qüvvələrinin Kosovoya daxil olması ilə ehtiraslar bir qədər soyudu. Serb hərbçilərinin getməsi ilə sülhməramlılar Kosovonu tutdular. Növbəti dəfə toplaşmaqla böyük səkkizlik liderləri özlərinə görə problemi həll etdilər.

3 iyun 1999-cu il tarixində Yuqoslaviyanın prezidenti Miloşeviç böhranın dinc yolla həlli ilə bağlı beynəlxalq sülh planı qəbul etdi. Beləliklə, tərəflər müvəqqəti razılığa gəldilər. Sülh planı Yuqoslaviyanm sərhədlərinə hörmət etməyi təklif edirdi.

Diplomatik dildə bu, o deməkdir ki, dünya ictimaiyyəti ərazinin tam müstəqilliyini tanımır. Təhlükəsizlik Şurası isə hesab edirdi ki, iki ildən sonra, yəni 2002-ci ildə Beynəlxalq konfransda Kosovonun statusuna baxılması ilə bağlı razılıq istisna edilməlidir.

Əsasən Şimali Atlantika alyansından ibarət olan 50 minlik kontingent Kosovoda polis funksiyalarını yerinə yetirməli idi. Avropa üçün Kosovo ilə bağlı razılaşma böyük rahatlıq yaratdı. Avropa ölkələri sülhün qorunması, etimadın möhkəmləndirilməsi, infrastrukturun bərpası, Yuqoslaviyada və digər zəruri bölgələrdə normal siyasi və iqtisadi strukturun yaradılması ilə bağlı öz üzərlərinə bir sıra vəzifələr götürmüşlər. Qeyd edək ki, 2003-cü ilə kimi Kosovonun ayrılması prosesi Belqradda Serbiya prezidenti tərəfindən demək olar ki, yerinə yetirilmişdi və parlament seçkiləri nəticəsində hakimiyyətə rəsmi olaraq demokratik şəxs gəlmişdi. Ərazinin statusu ilə bağlı həll edilməmiş iqtisadi problemlər demokratiya, milli əlaqələrin yaxşılaşdırılması və ərazinin iqtisadi inkişafını önə çıxaran siyasətə diqqət yetirilməsini zəruri edir. Bu, Kosovo üçün Avropaya inteqrasiya prosesindən daha çox fayda götürmək imkam verir. Kosovonun statusunun müəyyən olunması şübhə altma alınmışdır, çünki əgər bir tərəfin danışıqları əsas götürülərsə, bu, digər tərəfə qarşı haqsızlıq olar. Beləliklə də, Kosovonun statusunun müəyyən olunmaması daha da təhlükəli hal ala bilər.

20 fevral 2006-cı il tarixində Avstriyanın paytaxtında Kosovonun statusu ilə bağlı damşıqlar başlandı. Beynəlxalq danışıqların ilk iki günü ərazinin desentralizasiyası ilə bağlı texniki məsələlərə həsr edilmişdi. Belqrad nümayəndə heyətinin başçısı Serbiya prezidenti Boris Tadiç, digər nümayəndə heyətinin başçısı isə Kosovo prezidenti Fatmir Seydiyu, "Beynəlxalq vasitəçi" rolunda tanınmış Avstriya diplomatı, Balkan üzrə mütəxəssis Albert Rohan və xüsusi təmsilçi Marti Akhtisaari çıxış etdi. Bu zaman Kosovo faktiki olaraq Serbiya daxilində yerləşirdi. Konflikte qarşı beynəlxalq təşkilatlar tərəfindən diqqətin artmasına baxmayaraq, tərəflər arasındakı yaxınlaşmalar sıfır vəziyyətində

idi. Belqrad müstəqillikdən daha çox muxtariyyət fikrinə üstünlük vermekdə davam edirdi. Lakin necə deyərlər, Serbiya Kosovonun şərti müstəqilliyini qəbul etməyə hazır idi. Bu təklif Serbiyanın öz daxilində də əks təsirlə qarşılanmışdı. Serbiyanın Konstitusiya Məhkəməsi bildirdi ki, Serbiyanın mövcud konstitusiyasına əsasən ölkə sərhədləri yalnız parlamentin qərarı ilə keçirilən referendum vasitəsilə dəyişdirilə bilər.

Kosovo baş administrasiyasının fikrinə görə, danışıqlar əsasında Kosovonun bütövlüyünün qorunması, 1999-cu ilin martına qədərki dövrdə yaranmış vəziyyətə qayıtmamaq və bütün milli azlıqların hüquqlarının qorunması durmaqla bir neçə prinsipə əsaslanmalıdır. Eləcə də Kosovo qonşu dövlətlərlə birləşdirilə bilməz. Münasibətlərinin pisləşməsinə baxmayaraq, danışıqlar zamanı Serbiya Rusiyaya güvənirdi. Rusiya hesab edirdi ki, statusun müəyyən edilməsi zamanı mərhələlilik prinsipi və beynəlxalq hüquq normaları gözlənilməlidir. Bununla yanaşı, əlaqə qrupu (ABŞ, Fransa, Almaniya, İtaliya, Rusiya və Böyük Britaniya) hesab edirdi ki, istənilən razılıq cəmiyyətin maraqlarına uyğun olmalıdır. Son illərin hadisələri ilə bağlı beynəlxalq cəmiyyətin və ilk növbədə ABŞ-ın maraqları gözlənilir. Nəzərə almaq lazımdır ki, Balkan bütün Avropada stabilliyin saxlanılmasına mənfi təsir göstərir. Buradakı vəziyyət artıq bir dəfə Birinci Dünya müharibəsinə səbəb olmuşdur.

Məlumdur ki, Marti Akhtisaari Kosovoya Serbiyadan tam müstəqilliyin verilməsini və suveren dövlətin yaradılmasını təklif etmişdir. Bunun reallaşması isə dünya xəritəsinin dəyişdirilməsinə və bir çox dünya ölkələrinin suverenlik əldə etməsinə səbəb olur. Dünyada 4000-ə yaxın millət var, dövlətlərin sayı isə 200-ə yaxındır. Uzun əsrlik təcrübə göstərir ki, respublika milli prinsiplərlə yox, coğrafi, iqtisadi və tarixi məqsədlər əsas götürülməklə yaradılır. Bunu ABŞ, Rusiya, İngiltərə, İsveçrə, İspaniya, İndoneziya, Çin və s. kimi nümunələr təsdiq edir.

Eyni zamanda, o da məlumdur ki, bir millət kimi Albanlar Albaniya Respublikasını yaratmışlar. Kosovoda yaşayan

Albanların Serbiya daxilindəki digər millətlərlə eyni hüquqlara malik olması isə başqa məsələdir.

Tamamilə haqlı olaraq Rusiya M. Akhtisaarinin təklifinə veto qoydu. ABŞ isə Kosovonun müstəqilliyi məsələsini müdafiə edirdi. Bunu Amerika prezidenti C.Buş səkkizliyin Almaniyadakı iyun sammitində (2007) də təsdiq etdi. Bir qədər sonra Buş bildirdi ki, ABŞ birtərəfli olaraq Kosovonun müstəqilliyini tanıyır. Məsələ isə ondan ibarətdir ki, Kosovodakı albanlara ikinci alban dövləti yaratmaq imkanı verilərsə, Avropa, Amerika, Asiya və Afrikada vahid dövlət daxilində yaşayan digər xalqlar arasında da narazılıqlar yarana bilər. Bu halda nə üçün Amerikanın Texas ştatında yaşayan meksikalılar Venesuella prezidentinin dərhal tanıyacağı Meksika Texas Respublikasım yaratmasınlar? Və ya ABŞ-da yaşayan eskomoslar niyə dövlət yaratmasın? Niyə bu, Kosovodakı albanlara olar, amma ABŞ-dakı milli azlıqlara olmaz? Bəs niyə Kanada əhalisinin əksəriyyətini təşkil edən fransızlar müstəqil dövlət yaratmasmlar?

Eyni fikirləri Niderland, İsveçrə, Hindistan, İndoneziya, İran, İraq, Əfqanıstan, Rusiya, Böyük Britaniya, Belçika və s. haqda da demək olar. Hər şey Amerika ssenarisinə uyğun aparılsa, XXI əsri suverenlik uğrunda qanlı döyüşlər əsrinə çevirmək olar ki, bu da acınacaqlı hallara gətirib çıxara bilər və amerikalılar bunu etdilər. 2008-ci ildə Kosovo ABŞ-ın və Aİ-nin fəal dəstəyi ilə rəsmi olaraq suveren və müstəqil dövlət elan edildi. İlk olaraq Kosovonu Türkiyə tanıdı, onun ardınca isə Aİ ölkələri, ABŞ və başqaları.

Rusiya və Azərbaycan isə tanımadı. Kosovonun suverenliyinin hansı nəticələrə gətirəcəyini demək çətindir. Onu demək olar ki, bu aktla Helsinki razılaşması üzərindən xətt çəkildi. Məsələ birbaşa olaraq Azərbaycana da aiddir, belə ki, o, dünyada ən çoxmillətli və toleyrant dövlətdir.

Aydındır ki, keçmiş SSRİ ərazisindəki seperatçı rejimlər, o cümlədən də heç kimin tanımadığı Dağlıq Qarabağ hökuməti Kosovo ətrafında baş verən hadisləri izləyir. Bu məsələlərlə

bağlı milli özünüdərk məsələsi meydana gəlib ki, bu da Dağlıq Qarabağ problemi üçün istifadə oluna bilər.

Halbuki, Kosovo problemi kök baxımından Qarabağ problemindən tamamilə fərqlidir. Həm də bu məsələ ilə bağlı beynəlxalq sənədlər mövcud deyil. Bundan əlavə məlumdur ki, BMT-nin 4 qətnaməsi ilə Azərbaycan Respublikasının ərazi bütövlüyü tanınır və Ermənistanın işğal etdiyi ərazilərin qaytarılması tələb olunur. "Özünüdərk məsələləri" ərazi bütövlüyünü bütün dünyanın və bütün beynəlxalq təşkilatların tanıdığı və 2008-ci ilin əvvəlində BMT Baş Assembleyası tərəfindən bir daha təsdiqlənən Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Dağlıq Qarabağa aid edilə bilməz.

## ƏDƏBİYYAT:

1. Interim Agreement for Peace and Self-Government in Kosovo. Rambouillet; 23 Febr.1999.
2. Intermediate Sovereignty as a Basis for Resolving and Policy Group Report Publ. by the International Crisis Group.—New York; Brussels, 9 Nov.1998
3. Finn P.Kosovo Albanians Greet Deal with Mistrust// WP.-1998 – 14 OCT; O'Connor M.Kosov's Albanians Give Truce Pact Poor Reviews//NYT – 1998 – 15 Oct.; Smith R.J. Both Sides Resist U.S. Proposals in Kosovo// WP.1998.-30 Dec.
4. Hayden R.M. Op.cit. p 45-50; Smith J.R. U.S. Proposal Outlines Kosovo Power Sharing//International Herald Tribune. 1998, 11 Nov.
5. Heraclides A. Ethnonational and Separatist Conflict Settlement and the Case of Kosovo//Kosovo: Avoiding Another Balkan War/Ed.by T.Veremis, E.Kobos – Athens: E LIAMEP, 8 Univ. of Athens, 1998.
6. Spano R. Op. cit. Kosovo: Avoiding Another Balkan War.-Athens: E LIAMEP, 1966,

# IX FƏSİL

# ASİYA

## 9.1. Mərkəzi Asiyada geostrateji qüvvələr nisbəti

Sovet İttifaqının süquta uğraması Yer kürəsində geostrateji vəziyyəti kökündən dəyişdi. Bir-birinə zidd iki ictimai-siyasi sistem arasında ideoloji, siyasi, hərbi qarşıdurma sona çatdı, dünya bazarının bu və ya digər formada hökmran olduğu birqütblü sistem yarandı. Bu əhəmiyyətli dəyişiklik daha çox beş müstəqil dövlətin formalaşdığı Mərkəzi Asiyada öz əksini tapdı. Mərkəzi Asiya ölkələrində siyasi dəyişikliklər təbii olaraq, bu regionda tamamilə yeni geostrateji vəziyyətin formalaşmasına kömək etdi. Baş verən qlobal əhəmiyyətli hadisələr nəticəsində uzun tarixi dövrdə tamamilə unudulmuş Mərkəzi Asiya indi aktiv regiona çevrilmişdir. Bu dəyişikliklər regionun qismən iri və regional dövlətlərin maraqlarının kəsişmə nöqtəsinə çevrilmişdir.

Asiya qitəsinin mərkəzində yerləşməklə Mərkəzi Asiya SSRİ-nin süqutundan sonra iri dövlətlərin geostrateji maraqlarının rəqabətinin özünəməxsus meydanına çevrilmişdir. Bu region şərqdən – inkişaf etmiş nəhəng dövlət olan ÇXR, dinamik Yaponiya, Asiya-Sakit okean regionun tez inkişaf etmiş ölkələri – Malayziya, İndoneziya, Tayland, cənubdan – Əfqanıstan, Hindistan və Pakistan, onlardan çox da uzaqda yerləşməyən Orta və Yaxın Şərq ölkələri, şimaldan – Rusiya Federasiyası və qərbdə narahat Qafqazla əhatə olunmuşdur.

Hazırda Mərkəzi Asiya Avrasiyanın geniş ərazisini əhatə edir. Bura Rusiyanın əvvəlki nüfuzunu bərpa etmək üçün

mübarizə apara biləcəyi geostrateji zonadır. Əgər Rusiya tez bir zamanda Mərkəzi Asiyada öz üstünlüyünü bərpa edə bilsəydi, o, öz geostrateji maraqlarına müvafiq olaraq Çinlə daha yaxın münasibətlər qura, Orta və Yaxın Şərq ölkələri ilə itirilmiş münasibətləri bərpa edə, İranla hərbi-siyasi əməkdaşlığı sonrakı dövrdə də inkişaf etdirə bilərdi.

Problem Mərkəzi Asiya ölkələrində hadisələrin hansı istiqamətdə inkişaf etməsindədir. Situasiya elə qurula bilər ki, Mərkəzi Asiyada baş verən hər hansı bir dəyişiklik yalnız regional səviyyədə deyil, bütün Avrasiya məkanında baş verən proseslərdə öz əksini tapacaq ki, bu da ildən-ilə artacaq və çox şey iri dövlətlərin siyasətindən, onların bu regionda rəqabəti və ya əməkdaşlığından asılı olacaq. Gələcəkdə hadisələrin inkişaf tempini nəzərə alaraq Amerika prezidentinin milli təhlükəsizlik məsələləri üzrə keçmiş köməkçisi və müasir beynəlxalq münasibətlərin məşhur təhlilçilərindən biri olan Z.Bjezinski xəbərdarlıq edir ki, Mərkəzi Asiyanın keçmiş respublikaları, Əfqanıstan və Cənubi Qafqaz da daxil olmaqla "Avrasiya Balkanı"na çevrilə bilər. Bütün bunları nəzərə alan Rusiya bu regionda öz taktikasını qəfildən dəyişmiş və postsovet zonasına mənsub dövlətlərlə maraqlanmağa başlamışdır.

Deyilənlərin təsdiqi kimi qeyd edək ki, Rusiya özündən kilometrlərlə aralıda yerləşən Tacikistanı Mərkəzi Asiyanın cənub-şərqində öz forpostuna çevirməyə nail olmuşdur. Rusiya üçün bu, MDB-nin cənub sərhədlərinin möhkəmləndirilməsi deməkdir. MDB-nin cənub sərhədlərinin qorunması bayrağı altında Rusiya Federasiyası Tacikistana batalyon, sonra əsgərlər və gücləndirilmiş ordu diviziyası göndərdi. Nəhayət, bu diviziyanın əsasında Rusiya Federasiyası Tacikistan ərazisində Ermənistandan sonra sayına və əhəmiyyətinə görə ikinci yerdə duran güclü hərbi baza yaratdı. Cənub sərhədlərində güclü hərbi qruplaşma yaradan Rusiya öz əvvəlki mövqeyini qaytarmağa başladı. Digər tərəfdən bütün bunlar Rusiyanın rəhbərliyi altında 28 aprel 2003-cü ildə MDB-nin 6 üzvünün: Rusiya

Federasiyası, Belarus, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Ermənistan arasında yeni hərbi-siyasi ittifaqın yaranmasına gətirib çıxardı. Birgə bəyannamədə qeyd edildiyi kimi, ittifaqın üzvlərindən birinə hücum avtomatik olaraq digərlərinə hücum deməkdir. Beləliklə, Rusiya keçmiş SSRİ-yə məxsus vahid hərbi qüvvələri bərpa etməyə müvəffəq oldu. Elə bu görüşdə, 28 aprel 2003-cü ildə hərbi-siyasi ittifaqın üzvləri Mərkəzi Hərbi qərargah yaratdıqlarını elan etdilər.

Bunu nəzərə alaraq Rusiya Mərkəzi Asiyada öz mövqeyini təsdiqləməkdə davam etdi. Buna ən parlaq misal kimi Moskvada Rusiya Federasiyasının keçmiş prezidenti V.Putinlə Qırğızıstanın eks-prezidenti Ə.Akayev arasında Bişkekdə Rusiya hərbi hava bazalarının yerləşdirilməsi haqqında müqaviləni göstərmək olar. Rusiya Federasiyasının birinci vitse-prezidentinin sözlərinə görə, bu bazanın fəaliyyət radiusu bütün Mərkəzi Asiyanın hava fəzasını əhatə edəcək.

Gələcəkdə hadisələrin necə inkişaf edəcəyini zaman göstərəcək. Amma bir şey aydındır ki, Qərb, ilk növbədə, ABŞ bu məsələyə cavab tədbirləri görəcək. Ən minimum səviyyədə o, Əfqanıstanda daimi fəaliyyət göstərən hərbi baza yerləşdirə bilər. Hərbi-siyasi ittifaqın üzvlərinin Ermənistan və Belarus olduğunu nəzərə alsaq, ABŞ Türkiyədə öz hərbi bazalarını gücləndirəcək, həm də İraqda, Polşa və Baltikyanı ölkələrdə, keçmiş SSRİ ərazisində olan dövlətlərdə hərbi bazalar yerləşdirəcək. Beləliklə, Rusiyanın öz əvvəlki mövqeyini geri qaytarmaq haqqında eyforiyası ABŞ tərəfindən bu ərazilərin hərbiləşdirilməsi ucbatından mümkün olmayacaq. İqtisadi cəhətdən o, buna qadir deyil və bu silahlanma onun iqtisadiyyatını çökdürə bilər.

Hamıya məlumdur ki, Tacikistan yoxsul, yarısavadlı ölkədir və heç kimə təhlükə törətmir. Amma Rusiya üçün o, cənub istiqamətində baryer kimi lazımdır. Müstəqil olan Mərkəzi Asiya ölkələrindən hər biri Rusiya Federasiyası kimi SSRİ-nin süqutundan sonra, milli suverenliyin möhkəmləndirilməsi, bərpa və inkişafın özünəməxsus yollarını axtarmağa başladı.

Mərkəzi Asiyanın cənubunda rus hərbi bazalarının yaradılması ondan xəbər verir ki, Tacikistan Mərkəzi Asiya və Orta Şərqin qovşağında yerləşən rus geostrateji maraqları üçün təyin olunmuş ölkədir. Bu seçim təsadüfən edilməmişdir. Bu o deməkdir ki, Tacikistan Rusiya Federasiyasının bütün regionda öz mövqeyini möhkəmləndirməsi üçün əsas dayaq olacaq.

Tacikistan islam dininə etiqad edən, dil və mədəni cəhətdən iran-fars xalqına yaxın millətdir. SSRİ-nin tərkibində olmaqla Tacikistan kontinental Avropa geostrategiyası sxeminə inteqrasiya olunmuşdur. Öz geostrateji cəhdlərindən çıxış edən Rusiya əlverişli məqamdan yararlanaraq, maddi xərc və diplomatik səy sərf etmədən Əfqanıstanda baş verən hadisələrdən, taliblərin baş qaldırmasından istifadə edərək, bu regionda möhkəmlənməyə müvəffəq oldu. Rusiya və ABŞ sakitcə bu regionda öz nüfuz dairələrinə bölünməsinə razılaşdılar. ABŞ Əfqanıstana daxil oldu. Təsadüfi deyil ki, Əfqanıstan Prezidenti amerikalı Həmid Kərzai olmuşdur. ABŞ prezidentinin Əfqanıstana tez-tez səfəri onu göstərir ki, ABŞ Əfqanıstana Rusiyadan daha yaxın olacaq.

Mərkəzi Asiyaya böyük nüfuz göstərməyə qadir olan digər dövlət Qazaxıstandır. İlk növbədə qeyd etmək vacibdir ki, mədəni-tarixi və dini cəhətdən ölkə hakim dinin İslam olduğu Asiya ölkələrinə aiddir. Amma coğrafi parametrlərə əsasən o, həm də Avrasiya ölkəsi hesab olunur və öz növbəsində onun müəyyən edilməsində fərqləndirici cəhətləri vardır. Əgər öz geostrateji maraqlarına müvafiq olaraq bütün postsovet məkanında stabilləşdirici rol oynamaq fikrində idisə, o zaman Qazaxıstan öz geosiyasi və geoiqtisadi imkanlarına müvafiq olaraq, Mərkəzi Asiya regionunda stabilləşdirici rol oynamağa iddia edə bilər. Bunları nəzərə alan Qazaxıstan postsovet ölkələri ilə inteqrasiya etmək istəyini vurğulamışdır. Amma Mərkəzi Asiya paytaxtlarında inteqrasiya ideyasının özü fərqli qəbul edilirdi. Beləliklə, Qazaxıstan və Qırğızıstanla ittifaq çərçivəsində Özbəkistan daxili qüvvələrə dayaq siyasətini

həyata keçirir. Ölkənin belə siyasət həyata keçirmək üçün əsası var. Hazırki dövrdə Özbəkistan daxili resursların artırılması hesabına neftin ixracında Rusiyadan tam sərbəstlik əldə etmişdir. Özbəkistan, həmçinin, qazın hasil edilməsi və eksportu sahəsində də dünyada aparıcı dövlətlərdən biridir. Respublika özünü buğda ilə tam təmin edir və dünyanın pambıq istehsalı üzrə ən mühüm ölkəsidir.

Özbəkistan tədricən aktiv atlantik xətt əldə etməklə ABŞ-ın Əfqanıstanda yeritdiyi anti-terror əməliyyatlarında aktiv rol oynayır. Özbəkistan aydın şəkildə başa düşür ki, hər bir halda Mərkəzi Asiyada tam şəkildə nüfuz qazana bilməyəcək. Amma o, bu faktı da qəbul edir ki, Özbəkistan bu regionda aparıcı dövlətə çevrilə bilər. Məhz buna görə Özbəkistanın xarici siyasətində ortaya çıxan dəyişiklikləri Qazaxıstanın inteqrasiya təşəbbüslərinə qoşulmaq cəhdini izah etmək olar. Geostrateji nöqteyi-nəzərdən Rusiya üçün bu nizamın hansı metod və üsullarla təmin ediləcəyi maraqlı deyil. Məhz bu dəstək Özbəkistanla Rusiyanın yaxınlaşmasında mühüm rol oynamışdır. Proqnozlaşdırmaq olar ki, amerikalıların çıxmasından sonra orada müvəqqəti olaraq rus qoşunları dislokasiya olunacaq və sonra qeyri-müəyyən müddətə, bəlkə də həmişəlik orada qalacaq.

Rusiya ilə yaxınlaşma siyasəti, həmçinin, Özbəkistanın GUAM-dan çıxmasında öz əksini tapmışdır.

Özbəkistandan fərqli olaraq, Qazaxıstan geosiyasi və geoiqtisadi cəhətdən Rusiya ilə bağlıdır. Qazaxıstan məhsulları üçün dünya bazarında nəqliyyat kommunikasiyaları əsasən Rusiya ərazisindən keçir və o, Rusiyanın nəqliyyat-kommunikasiya şəbəkəsinə inteqrasiya olunmuşdur. Bundan əlavə Qazaxıstanın şimal və şimal-şərqi tamamilə Rusiya qazından asılıdır. O da nəzərə alınmalıdır ki, ölkə əhalisinin 40%-dən çoxu rusdilli əhalidir. Bu, az əhəmiyyətə malik olmayan vəziyyət onu göstərir ki, Qazaxıstan 2003-cü ilin sentyabr ayında Yaltada azad iqtisadi zona haqqında müqavilə

imzalamış MDB-nin dörd dövlətindən biridir. Dördlüyün tərkibinə bu dövlətlər daxil idi: Rusiya Federasiyası, Ukrayna, Belarus və Qazaxıstan.

Digər tərəfdən, Rusiyamn Qazaxıstanla ikitərəfli dövlətlərarası münasibətlər kompleksi bir sıra faktorlarla müəyyən olunur. Bura daxildir: münaqişəli sərhəd məsələləri, Xəzərin statusunun müəyyən edilməsi, "Baykonur" kosmodromu, (onun saxlanmasında Astana qədər Rusiya da maraqlıdır), Rusiyanın Qazaxıstanda hərbi iştirakı və s. Rusiyanm əsas məqsədi Qazaxıstanın gələcəkdə Aktau-Bakı-Tbilisi-Ceyhan layihəsinə çevrilə biləcək Bakı-Tbilisi-Ceyhan layihəsinə qoşulmasına imkan verməməkdir. Moskva başa düşür ki, neftin regiondan ixracının qərb variantı Qazaxıstan, Türkmənistan və Özbəkistana ciddi iqtisadi və siyasi dividentlər qazandıra bilər. 2003-cü ildə Astanada Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və ABŞ-ın iştirakı ilə keçirilən danışıqlarda qeyd edilmişdir ki, bu layihə reallaşdırıla bilər.

Mərkəzi Asiyanın müstəqil dövlətləri xarakter, xüsusiyyət və inkişaf tempinə görə bir-birini təkrarlamır. Tacikistan və Türkmənistan sovet dövrünün iqtisadi tipi çərçivəsində qalmaqdadırlar, Özbəkistan Çin iqtisadi islahatı yolunu seçmişdir, Qırğızıstan qərbə meyilli iqtisadi siyasət yürüdür, Qazaxıstan isə öz sərbəst yolunu axtarır. Mərkəzi Asiya dördlüyü xarici investisiyaların həcminə görə postsovet məkanında aparıcı dövlətlərə çevrilmiş, bu göstərici üzrə Rusiyanı 10 dəfə ötüb keçmişlər. Moskvanın Mərkəzi Asiyada geosiyasi təşəbbüslərindən biri "Gömrük İttifaqı"na Qazaxıstan və Qırğızıstanı daxil etməkdir.

Rusiya və Mərkəzi Asiya dövlətlərinin geosiyasi fəaliyyət koordinasiyasımn təhlükəsizliyinə ümumi hədələr, digər qonşulardan təcrid olunma problemini ortaya çıxarır. Eyni zamanda, Moskvanın təhlükəsizlik və stabilliyin təminatı kimi region ölkələri ilə münasibətdə xüsusi rol oynamaq cəhdi Mərkəzi Asiyada nüfuzun azalması tendensiyası ilə paralel inkişaf edir.

Rusiya beynəlxalq hüququn yalnız bir subyektidir və Mərkəzi Asiya ölkələri xarici siyasətlərində bu reallıqla hesablaşmağı mühüm hesab edirlər. İlk növbədə onlar bir-birilə Mərkəzi Asiya ölkələrinin birliyi çərçivəsində əməkdaşlıq edirlər. Bu birliklər yalnız MDB çərçivəsində deyil, öz daxilində də kifayət qədər aktiv fəaliyyət göstərir, amma bir sıra regional ziddiyyətlər də doğurur. Fikir ayrılıqları qaçılmazdır, çünki, Mərkəzi Asiyanın hər bir dövləti öz şəxsi maraqlarını güdür.

Rusiyanın Mərkəzi Asiyada ümumi geosiyasi gələcəyi kifayət qədər problemlidir. Aydındır ki, MDB-yə və bununla Rusiyaya birinci dərəcəli istiqamətlənmə - Mərkəzi Asiya ölkələri üçün mümkün geostrateji seçimlərdən biridir.

İstiqamətlərdən biri də, qərb dəyərlərinə keçidi nəzərdə tutan inteqrativ Türkiyə modelidir. Digər model Mərkəzi Asiyanı müsəlman dünyasının əsas mərkəzi ilə birləşdirən panislamçılıqdır. Nəzəri cəhətdən Mərkəzi Asiya ölkələrinə Çin təsir dairəsini də istisna etmək olmaz.

Rusiya qarşısında duran problemlərdən biri də inkişaf yollarının seçilməsi problemidir. Alternativ variantlar Avropa və ya Avrasiya ölkəsi olmaqdır. Avropaya yol Avropa İttifaqı və NATO-dan keçir, amma Rusiyanın oraya üzv qəbul olunması ehtimalı azdır. Buna görə də güman Avrasiya istiqamətində, xüsusilə, mərkəz və qərb istiqamətində, hər şeydən əvvəl Belarus, Ukrayna və Moldova ilə inteqrasiyaya qalır. Gələcəkdə Rusiya regionda ABŞ-la mübarizədə iqtisadi zəifliklə əlaqədar olaraq geosiyasi müdafiə və hətta təcrid vəziyyətində ola bilər. Bu halda onun regionda statuskvonu saxlamaqdan başqa bir şey etməyə gücü çatmayacaq. Hazırda sosial-siyasi, iqtisadi vəziyyətin mürəkkəbliyi Moskva Mərkəzi Asiya ölkələrinə münasibətdə inkişafın yeni strategiyasını müəyyənləşdirməyə mane olur.

Mərkəzi Asiyanın Avrasiya geostrateji əlaqələrinin kəsişmə nöqtəsində yerləşməsinin unikallığı, buraya iri və regional dövlətlərin daxil olması tendensiyasının artması nəticəsində bu

regionu postsovet məkanında təhlükəsizlik bəndi hesab etmək olar.

Postsovet məkanmda Rusiya ABŞ, Türkiyə, İran, Çin və s. ölkələrin rəqabəti ilə qarşılaşır. Təsirin genişlənməsi və ABŞ-ın yeni suveren respublikalarla əlaqəsi – müəyyən dərəcədə müstəqil dövlətlərin beynəlxalq arenaya çıxışı və dünyanın iri dövləti ilə iqtisadi və siyasi münasibətlərin qurulmasında olan maraqdan irəli gələn təbii prosesdir. Bu prosesə təsir edən digər faktor Rusiyanın MDB müttəfiqlərinə qarşı yeritdiyi ikili standarta uyğun gələn siyasətidir, hansı ki, bu, Azərbaycan və Ermənistana münasibətdə açıq şəkildə nümayiş olunur. Bu, keçmiş sovet respublikalarının Rusiyaya qarşı məsafə saxlaması üçün əsas səbəbdir.

ABŞ "Sülh naminə tərəfdaşlıq" və Əfqanıstana qarşı antiterror kompaniyası bayrağı altında postsovet məkanında öz hərbi-siyasi mövcudluğunu daha da artırmaqdadır. NATO bütün Balkanlarda geniş yayılmışdır. ABŞ yeni yaranmış dövlətlərin onunla daha yaxşı münasibət qurmaq cəhdindən istifadə edərək, öz nüfuzunun genişlənməsinə və Rusiyanın burada iştirakının minimuma endirilməsinə cəhd göstərir. ABŞ rus qoşunlarının Gürcüstandan çıxarılmasını maliyyələşdirmişdir. O, GUAM-ın gücləndirilməsində iştirak edir, Mərkəzi Asiyada öz hərbi mövcudluğunu aktivləşdirir. Amerika siyasəti geosiyasi balansın qorunması istiqamətində, postsovet məkanında yaranmış müstəqil dövlətlərin dünya ictimaiyyətinə inteqrasiyasında müsbət rol oynayır.

ABŞ strategiyasının bir hissəsi Qara dəniz-Xəzər regionunun yenidən təşkili, eyni zamanda, Ermənistanın tədricən Rusiyadan təcrid olunmasına nail olmaqdır. Bu regionda ABŞ-ın mahiyyətcə yeni, "geoiqtisadiyyat" adlandırılan sahədə aktivliyi meydana gəlməkdədir. Qara dəniz-Xəzər regionunda geoiqtisadiyyat geosiyasətin mühüm aləti kimi çıxış edir. ABŞ gələcək yüzillikdə iri enerji resursları mərkəzinə çevriləcək Xəzərin enerji resursları üzərində nəzarəti ələ keçir-

məyə cəhd göstərir. Xəzərdə neft və qaz yataqlarının işlənməsi yalnız iqtisadi mahiyyət daşımır, o, həm də geosiyasi maraqları da nəzərdə tutur. Güclü dövlət kimi öz imkanları hesabına iri iqtisadi layihələrin yaradıl-masına təşəbbüsdə əsas məqsəd ilk növbədə geosiyasi cəhətdən geridə qalmış ərazilərin hərbi-strateji oriyentasiyasını təmin etməkdir. Eyni zamanda, neft-qaz daşıyıcıları olan nəqliyyat boruları yalnız enerji təminatı deyil, həm də iri dövlətlərin siyasi rəqabət xəttidir.

Məhz buna görə Bakıdan neftin daşınması yolunun seçilməsi məsələsində mübahisə sərt xarakter daşımışdır. Bakı-Tbilisi-Ceyhan layihəsi maksimal iqtisadi və siyasi müstəqillik əldə etməyə çalışan Azərbaycan və Gürcüstan, həmçinin, özünün NATO-dakı müttəfiqi olan Türkiyənin mövqeyini gücləndirməyə cəhd göstərən ABŞ tərəfindən həmişə dəstəkələnmişdir. ABŞ Şərqi Avropa və Balkanlarda nüfuz dairəsini genişləndirdikdən sonra bu region cənub sərhədlərində əsas dayağa çevriləcək.

Buna görə də Rusiyanın MDB çərçivəsində inteqrasiya əlaqələrini gücləndirməsi kifayət qədər təbiidir. Lakin MDB yalnız rus siyasətçilərinin fikirlərində mövcuddur. Bu cür vəziyyət, Rusiyanın MDB-yə münasibətdə həyata keçirdiyi siyasətdə bir sıra imperativləri diktə edir: Rusiya sözdə deyil, əməldə müstəqil dövlətlərə münasibətdə bərabərhüquqluluq, onların suverenliyinə hörmət, müstəqil siyasət, onların dünya ölkələri ilə sərbəst əməkdaşlıq etməsi prinsipinə əməl etməlidir. Rusiya müstəqil dövlətlərə qarşı yeritdiyi siyasətdə milli mənsubiyyəti, psixoloji xüsusiyyətləri, onların adət-ənənələrini, mədəniyyət və dini xüsusiyyətlərini nəzərə almalıdır. Rusiya hakim dairələri bilməlidir ki, XXI əsrdə qloballaşma dövründə nə iri, nə də kiçik dövlətlərə diktə etmək olmaz. Hakimlik və şovinizm, bərabərhüquqluluq və əməkdaşlıqla əvəz olunmalıdır.

## ƏDƏBİYYAT:

1. Гаджиев К.С. Введение в геополитику. М., 2000.
2. Ерасов Б.С. Россия в центрально-азиатском геокультурном комплексе / "Россия и мусульманский мир". М., 2002.
3. "Известия", 2003, 29 апреля.
4. Нарочницкая Н.А. Россия, СНГ и Запад. Старые геополитические проекты в новом обличье. www.nasledie.ru.2002, 7 марта.
5. Руа О. Центральная Азия набирает мощь // "Межрегиональная политика", 2001, февраль –март.
6. Bjezinski Z. The Grand Chessboard. American Primacy and its Geostrategic Imperatives. N.Y. 1997.

## 9.2. Müasir dövrdə Rusiya ilə Asiya ölkələrinin qarşılıqlı əlaqələri

Müasir şərtlər daxilində Asiya, xüsusilə, Cənub-Şərqi Asiya dövlətləri – dünyanın ən sürətlə inkişaf edən dövlətləridir. Əgər region yaxın 10-20 il ərzində bu templə inkişaf etsə, ÜDM-in həcminə görə dünyada aparıcı yerlərdən birini tutacaq və hətta ABŞ da daxil olmaqla dünyanın iri dövlətlərini geridə qoyacaq.

XX əsrin sonu – XXI əsrin əvvəli bu regionu elmi-texniki və iqtisadi inkişafın sürətlə baş verdiyi, artmaqda olan ixrac potensialının olduğu yer kimi müəyyənləşdirir. Bu gün biz dünyanın hər yerində Çin, İndoneziya, Malayziya, Tayland, Sinqapur, Cənubi Koreya istehsalı olan məhsulların şahidi ola bilərik. Bunlar dünya bazarında rəqabət qabiliyyətli məhsullardır. Asiya ölkələrində iqtisadi partlayışla yanaşı, burada daha çox inteqrasiya prosesləri mühüm əhəmiyyət kəsb etməkdədir və bu, Çin, Tayvan, Honq Konq, Aomının daxil olduğu "Böyük Çin"in yaradılmasına gətirib çıxara bilər. İkincisi – böyük Cənub-şərq inteqrasiyasında Hind-Çin ölkələri, xüsusilə, sürətlə inkişaf edən Tayvan, nəhayət, Asiya-Sakit okean ölkələri: İndoneziya, Malayziya, Sinqapur, Bruney iştirak edir.

Rusiya-Çin münasibətləri. Məlumdur ki, Rusiyanın cənub-şərqi Asiyada olan əsas qonşuları – Çin Xalq Respublikası və Yaponiyadır. Öz inkişaf tempi və həcminə görə hər iki dövlət müasir Asiyanın geostrategiyasında başlıca yer tutur. Bu ölkələr arasında uzun tarixə və müvafiq ideoloji əsaslara malik geotarixi antoqonizm mövcuddur. Rusiya Federasiyası obyektiv, iqtisadi və digər səbəbdən inteqrasiyaya cəhd göstərən Cənub-şərqi Asiyada məhz bu dövlətlərlə strateji alyans yaratmağa çalışır. Bu ölkələr yüksək texnoloji və iqtisadi qüdrətə, həmrəy cəmiyyətə malikdirlər. Bu halı nəzərə alaraq, bu dövlətlər XXI əsrdə Asiyanın geosiyasi

oxunda başlıca rol oynamağa cəhd göstərirlər. Bundan çıxış edərək Rusiya bu inteqrasiya prosesində onlarla ayaqlaşmağa çalışır. Rusiyaya bu ölkələrlə birgə kəşfiyyat, hazırlıq, istismar, neft, qaz, kömür, ağac məhsullarının istehsalı prosesində iştirak olduqca sərfəlidir. Kifayət qədər maliyyə imkanına və müasir texnologiyaya malik olmayan Rusiya bu ölkələrdən, ilk növbədə, Çin və Vyetnamdan kapital, yeni texnologiya və ucuz işçi qüvvəsi əldə etməyə çalışır.

Bu regionun Rusiya Federasiyası üçün geostrateji cəhətdən potensial təhlükə olan dövləti Çin Xalq Respublikasıdır və bu Rusiyanın keçmiş prezidenti V.Putinin qəbul etdiyi xarici siyasət konsepsiyasında öz əksini tapmışdır. Burada qeyd olunur ki, "... Asiyada xarici siyasətin mühüm istiqamətlərindən biri aparıcı Asiya ölkələri, ilk növbədə, Çinlə ikitərəfli münasibətlərin inkişaf etdirilməsidir... Rusiya və Çinin dünya siyasətinin mühüm məsələlərinə dair prinsipial yanaşmalarının üst-üstə düşməsi – Rusiyanın regional və qlobal stabilliyi üçün əsas dayaqlardan biridir." Əsrlər boyu Çinin geostrategiyası aydın ifadə olunan ikili xarakter daşıyırdı. Bu, onunla izah olunurdu ki, bir tərəfdən Çin Asiya qitəsinin böyük bir hissəsini təşkil edir, digər tərəfdən isə o, həmişə öz müstəqilliyini qoruyub saxlamağa çalışır.

XX əsrin əvvəlindən 1949-cu ilin oktyabr ayında Çində Sosialist inqilabının qalib gəlməsinə qədər Çin siyasəti öz mahiyyətinə görə Şərqi Asiya istiqamətli idi. Bəzi hallarda Çin Qərb müstəmləkəçi dövlətləri üçün Avrasiya sahil bazası rolunu oynayırdı. Sosialist inqilabının qalib gəlməsindən sonra ÇXR ilk 10-12 il ərzində mahiyyətcə postsovet, əməldə Avrasiya siyasətinə keçdi. 1960-cı illərdən sonra ÇXR avtarkiyaya, yəni öz qüvvələrinə əsaslanmaq ideologiyasına üstünlük verməyə başladı.

XX əsrin 70-ci illərinin sonunda başda Den Syapin olmaqla milli praqmatiklər tərəfindən idarə olunan ÇXR dünya dəyərləri, ilk növbədə, Qərbin texnoloji və bazar nailiyyətlərin-

dən faydalanmaq siyasəti yürütməyə başladı. Bu siyasətin əsas məqsədi şəxsi qüvvələrinə əsaslanaraq Qərbdən daha yaxşı nailiyyətləri mənimsəmək idi. Belə ki, o dövrkü Lenin siyasəti Çinə heç nə vəd etmirdi. Məhz bu siyasət Çinə 10-15 il ərzində iqtisadiyyatda qəfil sıçrayış etməyə kömək etdi və XXI əsrin əvvəlində Çin dünyanın dinamik inkişaf edən dövlətlərindən birinə çevrildi. Çin və Rusiya öz xarici siyasətlərində dünyanın çoxqütblülüyü prinsipinə əsaslanırlar. Çin nəzəriyyəsinə əsasən bu qütbə aşağıdakı dövlətlər daxildir: ABŞ, Avropa İttifaqı və Çin. Bu üçlükdə Rusiya və Yaponiya üçün yer yoxdur.

Bütün bu təsəvvürlər siyasi konkretliyindən asılı olmayaraq, Çini Rusiyanın Asiyada və xüsusilə də Cənub-Şərqi Asiyada potensial geosiyasi rəqibinə çevirir. Bunu geosiyasi aksiom hesab etmək olar. Rus analitikləri bu problemin həllinin müxtəlif variantlarını təklif edir. Məsələn, A.Duqin hesab edir ki, "Rusiyanın şərq sektoruna münasibətdə geosiyasi vəzifəsi daha geniş sərhəd zonası yaratmaqla öz təsir dairəsini maksimal dərəcədə cənuba doğru genişləndirməkdir...."

Zənnimizcə, Duqin ÇXR-ə onun zəiflədilməsi məqsədilə ona qarşı diplomatik təzyiq göstərmək və güc tətbiq etmək haqqında fikirlərində yamlmışdır. O, Rusiya Federasiyasının vəziyyətini nəzərdən qaçırır. Çünki Rusiyanın Çinə təzyiq göstərməsi bumeranq kimi onun özünə qayıda bilər və Rusiya üçün bərpa edilə bilməyən mənfi nəticələr doğura bilər. SSRİ-nin ilk və son prezidenti Qorbaçovun da məsləhətçiləri Dağlıq Qarabağ münaqişəsilə bağlı eyni təklifi irəli sürmüşdülər. Nəticədə nə baş verdi? Nəticədə Qorbaçov tərəfindən alovlandırılan Dağlıq Qarabağ münaqişəsi mahiyyət etibarilə detonator rolunu oynadı və SSRİ-nin dağılmasına səbəb oldu, Gürcüstan, Moldova və Rusiya Federasiyasında qanlı hadisələrə gətirib çıxardı.

İlk baxışdan belə bir təəssürat yarana bilər ki, XX-XXI əsrlərdə ÇXR tam daxili problemləri ilə məşğuldur. Amma daxili qüvvə və vasitələri konsentrasiya etməklə bu siyasətin

əsas məqsədi qlobal xarici geostrateji məqsədlərə nail olmaq üçün ölkənin effektli və sürətli iqtisadi, siyasi transformasiyasına nail olmaqdır. Çin Xalq Respublikası yeni başlamış XXI əsrdə müstəqil, güclü daxili iqtisadi və hərbi-texniki baza yaratmaq üçün vaxt udmağa yönəlmişdir və bu, bilavasitə ölkənin böyük dövlətə çevrilməsinə kömək edəcək. Digər tərəfdən, bu qüdrət xarici faktorun, ayrılmaq istəyən ərazilərin birləşdirilməsi hesabına da yüksələcək.

Çinin Şimal qonşusu olan Rusiyaya münasibətdə həyata keçirdiyi siyasət Pekinə tələb olunan müddətə qarşıya qoyulan tələblərin həyata keçirilməsi üçün ona vacib olan siyasəti həyata keçirməkdir. Çinin siyasəti həmişə dəyişkən olmuşdur və o, lazımi məqamın yetişdiyi anda dəyişə bilər. 1950-ci illərdən başlayan və XX əsrin sonuna qədər davam edən tarixi xatırlayaq. Yarım əsr ərzində Çinin SSRİ-yə və sonra Rusiya Federasiyasına qarşı münasibəti dəfələrlə dəyişmişdir. Burada ümumi marksist-leninist ideologiya, proletariat diktaturası, "Moskva-Pekin" ümumi qardaş himni, eyni zamanda, "Dəməşq uğrunda" açıq müharibə, ideoloji kriteriyaların dəyişməsi, yenidən müttəfiqlik əlaqələri, səfərlər mübadiləsi və s. hökm sürmüşdür. Bütün bunları nəzərə alaraq, Rusiya və Çin arasında uzunmüddətli strateji əlaqələr barədə dəqiq fikir yürütmək mümkün deyil.

Çinin yalnız bir məqsədi var ki, o da XXI əsrin əvvəllərində nəinki Rusiya və Yaponiyaya, eyni zamanda, Avropa və ABŞ-a meydan oxumağa qadir olan bir ölkəyə çevrilməkdir. Burada heç kim deyə bilməz ki, 2 milyarda yaxın əhaliyə malik Çin qarşıya qoyulan məqsədlərə nail olmaq üçün hərbi yola əl atmayacaq. Unutmaq olmaz ki, müharibə daxili siyasətin digər üsullarla davamıdır. Çin iri dövlətlərlə açıq qarşıdurmadan uzun müddət qaçacaq, amma taktiki formada o, özünün demoqrafik və iqtisadi gücü ilə rəqiblərini iflic etməyə çalışacaq. Geosiyasi maraqlardan çıxış edərək, taktiki planda Çin müəyyən zaman kəsiyində bütün mümkün dini, siyasi, diplomatik və hərbi

ittifaqlara daxil olmağa çalışacaq. Burada Çinin əsas silahı, çinlilərin sakitcə Şərqə deyil, şimala – Rusiyaya ixracıdır. Bu o deməkdir ki, bir müddətdən sonra Primorsk, Xabar vilayəti və Rusiyanın cənubu etnik çinlilərin əlində ola bilər.

Hazırda Çin faydalı qazıntılar və strateji xammal, silah və hərbi texnologiya mənbəyi kimi Rusiyaya marağını açıq şəkildə nümayiş etdirir. Rusiya alternativ siyasət yürüdə bilər, federal və yerli proqramların koordinasiyasını həyata keçirə, XXI əsrdən etibarən, xüsusilə də, ölkənin şərq hissəsinin inkişafını nəzərdə tutan proqramlar qəbul edə bilər.

Zənnimizcə, bu strategiyanın əsas məqsədi bütün Rusiya ərazisinin vahid bir nöqtədə birləşdirilməsidir. Belə strategiyanın əsas bəndi – Şərqi Sibir və Uzaq Şərqin əldə edilməsidir. Rusiya üçün Çin müəyyən zaman kəsiyində öz xammal ehtiyatını, sənaye məhsulları və xidmətlərini reallaşdırmaq üçün iri bir bazardır.

Gələcəkdə Çin Rusiya investisiyası üçün əsas mənbəyə çevrilə bilər. Hazırda Rusiya Çinin inkişafında çox maraqlıdır, belə ki, belə olan təqdirdə Çinin Rusiyaya müdaxilə etmək üçün daha az əsası olacaq və Rusiya-Çin əməkdaşlığı üçün daha uzunmüddətli, məhsuldar şərait yaranmış olacaq. Amma bütün bunlar aldadıcıdır. Bu gün bir çox Çin nəsillərinin Rusiyaya miqrasiya edilməsi Rusiya hökumətində narahatlıq doğurur. Sakit Çin ekspansiyası ona gətirib çıxara bilər ki, XXI əsrin ortalarında Rusiya Federasiyasmda 10 milyondan artıq çinli yaşayacaq ki, bu da ruslardan sonra onların ikinci yerdə olmasına gətirib çıxara bilər.

Rusiyada elmi əsası olmayan miqrasiya proqramının olması XXI əsrin əvvəllərində Rusiyada etnik qruplar arasında, bəlkə də Rusiya-Çin münaqişəsinə gətirib çıxara bilər. Ümumi sözlərlə desək, Pekində dövlət və milli maraqlar arasında fərq qoyulur. Bir tərəfdən, onlar ÇXR-in suverenliyi məsələsinə toxunur, digər tərəfdən isə yayılma arealı dövlət sərhədlərindən bir qədər geniş olan vahid millət problemidir. Çində dünyanm

istənilən yerində yaşayan həmvətənlərin hüquqları uğrunda mübarizə aparmağa hazırdırlar.

Mürəkkəbləşmiş şərtlər daxilində gələcək stabil dünya nizamınm qurulması istiqamətlərinin müəyyənləşdirilməsi Rusiya və Çin arasında qarşılıqlı münasibətlərin əsas siyasi vəzifələrindən biri hesab edilir. Demokratik və balanslaşdırılmış çoxqütblü dünya quruculuğuna cəhdin istiqamətləndirilməsi məsələsi iki dövlət başçısmın birgə bəyanatlarında dəfələrlə qeyd edilmişdir.

Dünya sisteminin gələcək quruluşunu Rusiya-Çin layihəsi bütün dövlətlərin siyasi, iqtisadi, hərbi, hüquqi, mədəni sahədə dünya quruculuğu prosesində bərabər səviyyədə inkişafında görür. Rusiya və Çin tərəfindən irəli sürülən konsepsiya beynəlxalq normalara əməl olunmasmı, mübahisəli məsələlərin sülh yolu ilə həllini nəzərdə tutur. Yeni modelin əsas prinsipləri hər bir dövlət üçün bərabər səviyyədə təhlükəsizliyin təmin edilməsi, balanslaşdırılmış hüquq və dünya iqtisadi sisteminin bütün iştirakçılarının öhdəlikləridir. Çoxqütblü dünyanın aparıcı institutları qismində Rusiya və Çin BMT və onun Təhlükəsizlik Şurasım görür. Bu dövlətlərin müasir dünyanın çoxqütblülüyünü qoruyub saxlamaq təşəbbüsü dünya ictimaiyyətinin qlobal inkişaf istiqamətinin hazırlanmasında razılığın əldə olunmasına gətirib çıxarmışdır.

İlk baxışda beynəlxalq ziddiyyətin artdığı bir şəraitdə Rusiya-Çin geosiyasi ittifaqı Amerikanın dünyadakı təsirinə kontrbalans rolunu oynaya və ya bərabərhüquqlu dünya nizamının formalaşması uğrunda dünyanın periferiyalarınm birləşərək dünyanın iri dövlətlərinə qarşı mübarizəsində birləşdirici vasitə rolunu oynaya bilər. Amerikan siyasətçiləri Moskva-Pekin əməkdaşlığmın yeni mərhələsini ikinci "Rapallo" kimi qiymətləndirirlər. Amma İraqda baş vermiş hadisələr bütün bu fikirləri alt-üst etdi.

Öz növbəsində alternativ istiqamətin tərəfdarları belə proqnozlaşdırırlar ki, Rusiya-Çin münasibətləri konflikt və

qarşıdurma çərçivəsində inkişaf edəcək; hazırki məqamda geosiyasi ritorika xarakteri daşıyan Qərb dövlətləri tərəfindən baş verəcək qarşıdurma zamanı hər iki dövlət arasında qarşılıqlı münasibət yarana bilər. Bu istiqamətin tərəfdarları Rus-Çin yaxınlaşmasını Rusiya Federasiyasının maraqlarına zidd olan səhv addım kimi qiymətləndirirlər.

İqtisadi inkişafa ilk növbədə, Qərb dünyası ilə ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq, Qərb bazar infrastrukturuna inteqrasiya yolu ilə nail olunur. Buna görə də Rusiya və Çin arasında qarşılıqlı münasibətlər və yaxınlaşma tərəflərdən birinin tamamilə Qərbə inteqrasiya olunması ilə başa çatacaq.

Rusiya-Çin təşəbbüsü, həmçinin, Qərb dövlətlərinə qarşı təzyiq vasitəsi kimi də başa düşülür və bu zaman iki iri dövlətin geosiyasi yaxınlığı qarşısında Qərb ölkələri daha yumşaq mövqe nümayiş etdirməyə məcbur olacaqlar. Maraqhdır ki, bir sıra Çin analitikləri Rusiyanın köməyilə Qərbi güzəştə getməyə məcbur etmənin mümkünlüyü haqqında açıq fikirlər irəli sürürlər. Bu halda əgər Rusiya "çoxqütblü dünyanın balanslaşdırıcısı" olmaq ideyasından imtina etməzsə, o, Çin geostrategiyasının alətinə çevriləcək.

Çin-Rusiya əməkdaşlığı hər iki tərəf üçün mühüm əhəmiyyət kəsb edir. Demək olar ki, beynəlxalq münasibətlərin bütün məsələlərinə dair mövqelərin üst-üstə düşməsi iki dövlət arasındakı münasibətlərin aktivləşdirilməsi üçün mühüm məqamdır. Hər iki tərəf birmənalı şəkildə bildirmişlər ki, Rusiya-Çin yaxınlaşması üçüncü dövlətə, o cümlədən, ABŞ-a qarşı yönəlməmişdir və bu həqiqətdir ki, ABŞ və digər Qərbölkələri nə Çin, nə də Rusiya tərəfindən düşmən dövlətlər kimi qəbul edilmir. Əksinə, hər iki tərəf onların iqtisadi inkişafına mühüm təsir göstərən və hər iki dövlətin geosiyasi maraqlarına cavab verən iqtisadi və siyasi cəhətdən Qərb dövlətləri ilə əməkdaşlıqda maraqlıdır. Amma bu da aydındır ki, Rusiya və Çin arasında əlaqələrin möhkəmlənməsi, xüsusilə, Vaşinqton tərəfindən genişləndirilən beynəlxalq münasibətlərin inkişafı

tendensiyasında bir sıra neqativ halların meydana gəlməsinə səbəb olur. Bu, hər şeydən əvvəl BMT və onun qurumlarının rolunun zəiflədilməsində, NATO-nun Təhlükəsizlik Şurasmm funksiyalarım öz üzərinə götürməyə cəhd etməsində, NATO-nun Şərqə genişlənməsi cəhdində, ABŞ-ın heç bir beynəlxalq müqaviləyə qoşulmaq istəməməsində aydın şəkildə əks olunur. Rusiyadan çox nüvə potensialına malik olmayan Çin ABŞ-ın özünün sərbəst RƏM sistemini yaratmasından əziyyət çəkə bilər. Ona görə də Çin özünün nüvə-raket bazasını yaratmaqla həm ABŞ, həm də Rusiyadan asılılığına son qoymağa çalışır.

Ümumilikdə söhbət SSRİ-nin süqutu və "Soyuq müharibə"nin başa çatmasından sonra müasir dünyanın beynəlxalq inkişafında baş verən iki tendensiyadan gedir. Qaşıdurmada kifayət qədər güclü və dünya liderliyinə iddia edən qalib ABŞ özünü o qədər sərbəst hiss edir ki, anti-İraq müharibəsi gedişində beynəlxalq hüququn əsas prinsiplərini ümumiyyətlə geridə qoydu. ABŞ beynəlxalq hüquqda ən mühüm prinsip olan dövlət suverenliyi prinsipini tapdadı. Burada söhbət İraqda olan diktaturadan getmir. Bu, tamam başqa məsələdir. ABŞ dünya ictimaiyyətinə göstərdi ki, o, dünyada yeganə güclü dövlətdir və bu ölkədə hüquq deyil, güc hökmranlıq edir. Təəssüf ki, həm BMT, həm BMT-nin Təhlükəsizlik Şurası, həm də digər dövlətlər ABŞ-ın bu təzyiqi qarşısında gücsüz idilər. XXI əsrin əvvəllərində ABŞ öz əməlləri ilə bir daha göstərdi ki, dünya birqütblüdür və onun başında ABŞ dayanır.

Hazırda nə Rusiya, nə də Çin ABŞ-la münasibətləri gərginləşdirməkdə maraqlı deyil və bu iki dövlət anti-amerikan koalisiyası yaratmaqda zəifdirlər.

Rusiya Federasiyası və Çin arasında geniş siyasi, hərbi və iqtisadi əməkdaşlıq Rusiyanın uzaq şərq regionlarının, o cümlədən, Sibir, Saxalin və Kuril adalarının inkişafına kömək edə bilər. Amma siyasətlə müqayisədə iqtisadiyyat geridə qalır. Rusiya və Çin arasında ticarət dövriyyəsi ABŞ-la Çin arasındakı ticarət dövriyyəsindən dəfələrlə geridə qalır. Məhz iqtisadi

əlaqələr hər iki dövlət arasında siyasi, strateji əməkdaşlığın inkişafına dəstək ola bilər.

Rusiya-Yaponiya münasibətləri. Rusiyanın Asiya istiqamətində xarici siyasətində Çinlə yanaşı, Yaponiya ilə münasibətlər də mühüm rol oynayır. Rusiya Xarici siyasət doktrinasında qeyd edildiyi kimi, "Rusiya Yaponiya ilə münasibətlərin ciddi şəkildə inkişaf etdirilməsi tərəfdarıdır".

Yaponiya digər ada dövləti olan İngiltərə ilə tam ziddiyyət təşkil edir. Bunun üçün səbəb az deyil. İngiltərə həmişə Avropadan təcrid olunmuş, onunla ziddiyyətli mövqe yaratmışdır. Yaponiya bunun əksinə olaraq, Çin və Koreya ilə sıx münasibətdədir.

Meydzi eposundan başlayaraq Yaponiya siyasəti onun geostrateji xüsusiyyətlərini əks etdirir. Bir tərəfdən adada yerləşməsi, əhalinin məskunlaşması, təbii resursların çatışmazlığı, digər tərəfdən yüksək intellekt, dinamik inkişaf edən iqtisadiyyat, yeni texnologiyalar Yaponiyanm bütün Asiyada təsdiq olunması cəhdlərini müəyyənləşdirmişdir.

Rusiya və Yaponiyanı ayıran problemin əsas xüsusiyyəti odan ibarətdir ki, onların çoxu tarix etibarilə rus-yapon münasibətlərinin qurulduğu 300 il bundan əvvələ söykənir. Rus-yapon qarşılıqlı münasibətlərinə uzun müddət davam etmiş müharibələr güclü təsir göstərmişdir. İki dövlət arasında olan problemlərdən ən mühümü Kuril adalarınm mənsubiyyəti məsələsidir. Bu istiqamətdə Rusiyamn geostrategiyasının iflasa uğraması Rusiyanın keçmiş Prezidenti B.Yeltsin tərəfindən İturup, Kunaşir, Şikotan və Habomay adalarmm mənsubiyyəti məsələsi haqqında ərazi müzakirəsi barədə Tokio müqaviləsinin imzalanması olmuşdur. Bunu etməklə Rusiya özü bu ərazilərin ona mənsub olması barədə məsələni sual altında qoymuşdur. Rusiyanın Cənubi Kuril adalarım itirməsi nəinki onun iqtisadiyyatma zərbə endirə bilər, eyni zamanda, bu strateji cəhətdən mühüm ərazidə onun iştirakına son qoya bilər.

Öz iqtisadi qüdrətinə arxalanan Yaponiya Rusiyanın zəifliyini nəzərə alaraq Kuril adalarma iddia irəli sürür. Kuril adalarınm Yaponiyaya güzəştə gedilməsi bütün dünyada Rusiyanm nüfuzuna xələl gətirə bilər. Bununla Rusiya onun üçün geostrateji əhəmiyyət kəsb edən 4 donmayan körfəzdən, təbii qazıntılardan və Cənubi Kurildən – dünyanın balıqçılıq təsərrüfatından məhrum ola bilər. Əgər bu adalar Yaponiyanm əlinə keçsə, Rusiya digər okeanlardan təcrid olunacaq, belə ki, digər körfəzlər gəmiçilik üçün yararsızdır.

Moskva ilə Tokio arasında münasibətləri gərginləşdirən digər bir problem ərazilərin demilitarizasiyası məsələsidir. Rusiya Kuril də daxil olmaqla öz ərazilərinin hərbsizləşdirilməsini həyata keçirir. Tokio bəyannaməsinə əsasən Cənubi Kurildən rus hərbi qüvvələri çıxarılmışdır. Onların çıxması Rusiya Federasiyasının Şərq sərhədlərinin müdafiəsində zəiflik yaratdı. Müəyyən dərəcədə Rusiya 1993-cü il rus-yapon Tokio bəyannaməsini imzalayaraq özü üçün ərazi problemlərinin yaranmasına razı olmaqla Cənubi Kuril adalarını tələb edərək Yaponiyanın əks mövqeyini daha da alovlandırır. Əgər Rusiya Federasiyası həqiqətən də şərq sərhədlərinin təhlükəsizliyi və ərazi bütövlüyünü qoruyub saxlamağa çalışırsa, o, aydın və dəqiq bildirməlidir ki, onun Yaponiya ilə heç bir ərazi münaqişəsi yoxdur.

Yaponiyanın müasir vəziyyəti, onun dünyada siyasi yeri və rolu tamamilə onun texnoloji və iqtisadi qüdrəti ilə üst-üstə düşmür. Məlumdur ki, İkinci Dünya müharibəsində məğlub olduqdan sonra Yaponiya ilə ABŞ arasında imzalanmış müqaviləyə əsasən onun geostrateji vəziyyəti məhdudlaşmışdır. Bu razılıq və müqavilələr onun fərdi xarici siyasət və strateji inkişafın seçimi sahəsindəki fəaliyyətini əhəmiyyətli dərəcədə məhdudlaşdırmışdır. Bu, həmçinin, Rusiya da daxil olmaqla onun daimi qonşularına münasibətə də aiddir. Yaponiyanın dünyada siyasi təsirini məhdudlaşdıran az əhəmiyyətə malik olan digər faktor öz tarixi köklərinə malik olan anti-yapon əhval-ruhiyyəsidir. 1930-40-cı illərdə tarixi gərginlik Mancuriya

və bir neçə Cənub-Şərqi Asiya ölkəsinin işğalı zamanı açıq qarşıdurmaya çevrilmişdir. Hazırda, bir neçə 10 ildən sonra onun sosial-siyasi strukturunun xüsusiyyətlərindən asılı olaraq meydana gəlmiş anti-yapon əhval-ruhiyyəsi yaponların digər xalqlara, ilk növbədə qonşularına qarşı sərt siyasi, psixoloji münasibətin yumşalmasına mane olur. Bütün bunlar Rusiyanın transmilli, qlobal geosiyasi imkanlarını məhdudlaşdırır.

Müasir dövrdə Cənub-Şərqi Asiyada qüvvələrin yerləşməsi aşağıdakı formada həyata keçirilir. Hərbi hegemon olan ABŞ-ın əsas vəzifələri: bir tərəfdən Yaponiya və Cənubi Koreyanı stimullaşdırmaq, regionda Qərb dəyərləri adına kollektiv təhlükəsizlik işində maliyyə-iqtisadi dəstək, digər tərəfdənsə: a) Çinə müvafiq status-kvonu dağıda biləcək səviyyədə hərbi qüdrətə malik olmağa imkan verməmək; b) Rusiyanın Uzaq Şərqdə hərbi qüvvələrinin bərpasının, o cümlədən Sakit okeanda rus hərbi-dəniz donanmasının yaranmasına imkan verməmək. Regionda formalaşmış bu cür geostrateji vəziyyət müəyyən dərəcədə və müəyyən bir müddətə Yaponiyanın nəyin bahasına olursa olsun status-kvonu qoruyub saxlamaq cəhdi ilə müşayiət olunacaq. ABŞ-dan çox Yaponiya Çinin yalnız Cənub-şərqi Asiyada lider olması deyil, superdövlət olmaq potensial imkanına qarşı həssasdır. Çin ambisiyasının qarşısını almaq üçün Yaponiya obyektiv olaraq Rusiya və Çinə qarşı hərbi-iqtisadi və siyasi təzyiqi azaltmalı olacaq.

Yaponiyanın xarici siyasəti qarşısında duran digər məsələ Koreya yarımadasında qeyri-sabitliyin qorunub saxlanılmasıdır. Belə ki, anti-yapon əhval-ruhiyyəsinin yüksək olduğu birləşmiş Koreyanın regionda inkişafı onu güclü dövlətə çevirə bilər ki, bu da Yaponiyanın maraqlarına ziddir. Birləşmiş, çoxmilyonlu xalqa, dinamik inkişaf səviyyəsinə malik Koreya Yaponiyanın Asiya, Yaxın və Orta Şərq, MDB ölkələrində yerləşən bazarlarında ona rəqib ola bilər. ÇXR obyektiv olaraq mövcud vəziyyətin dəyişilməsinə cəhd göstərir. Çin əvvəlki kimi regionda öz siyasi və hərbi potensialını genişləndirməyə

çalışacaq və geostrateji maraqlar naminə Rusiya və ASEAN ölkələri ilə müəyyənləşmiş müttəfiqlik münasibətləri qurmağa cəhd göstərəcək.

Rusiyanın Cənub-Şərqi Asiya ölkələri ilə münasibətləri də prioritet istiqamətlərdən biridir. Rusiyanın Asiya ölkələri, xüsusilə, Cənub-Şərqi Asiya ölkələrinə münasibətini Koreya, Malaziya və digər ölkələrlə münasibətinə nəzər yetirmədən qiymətləndirmək olmaz.

Bu ölkələrdən hər biri ilk növbədə qonşularmdan iqtisadi və siyasi müstəqilliyə cəhd göstərir. Son illərdə Koreya Respublikası və Malayziya son illərdə kifayət qədər iqtisadi artım göstərərək sürətlə inkişaf edən dövlətlər sırasına daxil olmuşlar. Koreya öz şimal qonşusunun ambisiyasını bilərək ABŞ-ı dəstəkləməyə və Qərb kursuna sadiqliyini nümayiş etdirməyə cəhd göstərəcək. Rusiyanın Cənub-Şərqi Asiyada yeganə geostrateji müttəfiqi müəyyən müddətə Vyetnam və İndoneziya olacaq.

2003-cü ilin aprel ayında İndoneziya prezidentinin Rusiyaya rəsmi səfərindən sonra İndoneziya Rusiya ilə xüsusilə hərbi sahədə əməkdaşlıq etmək istəyini vurğulamışdır. Vyetnama gəldikdə isə o, xüsusilə regionda ən iri Kamranda olan rus hərbi-dəniz bazasını bağladıqdan sonra o, demək olar ki, tamamilə Rusiyanın tərkibindən çıxmışdır.

Aparılmış təhlil sübut edir ki, müasir şərtlər daxilində Cənub-Şərqi Asiyada bütün geostrateji sxem ABŞ-ın burada hərbi və iqtisadi iştirakı ilə müəyyən edilir. Digər tərəfdən, bu siyasət ABŞ-ın Yaponiya, Tayland, Koreya Respub-likası, Filippin, Sinqapur, Bruney və s. dövlətlərlə yaxın münasibətlərinə əsaslanır. Rusiya Vyetnamdan çıxdıqdan və Kuril adalarında hərbi imkanları əldən verdikdən sonra bu regionda geostrateji imkanları məhdudlaşdı. Rusiya artıq Cənub-Şərqi Asiyanın heç bir ölkəsində beynəlxalq təhlükəsizliyin de-fakto subyekti deyil.

Cənub-Şərqi Asiyada öz əvvəlki mövqeyini bərpa etmək üçün Rusiya, ilk növbədə, Çinlə müttəfiqlik münasibətlərini

möhkəmləndirməlidir. Çin üçün ABŞ son illərdə ən böyük rəqibə çevrilmişdir. İqtisadi cəhətdən Çinin qüdrətli olmasına baxmayaraq, hərbi cəhətdən o, yaxın illərdə qarşısına qoyduğu geostrateji məqsədləri həyata keçirmək üçün kifayət qədər tam üstün dövlət deyil. Yalnız Çinin iqtisadi potensialı ilə Rusiya Federasiyasının strateji potensialının birləşdirilməsi Uzaq Şərqdə geostrateji qüvvələr balansının müəyyən müddətə saxlanmasına kömək edə bilər.

ABŞ-la iqtisadi, siyasi və hərbi əməkdaşlığa malik Yaponiya Rusiya ilə əməkdaşlığa getməyəcək. Ona görə də Rusiya ilə Yaponiya arasında münasibətlər yalnız iqtisadi, mədəni və humanitar sahələrdə ola bilər.

Son dövrlərdə Rusiyanın Asiya siyasəti istiqamətində əsas məqsədi Malayziya ilə münasibətlərin genişlənməsi və dərinləşməsidir. Rusiya hər şeydən əvvəl iqtisadi sahədə əməkdaşlığa can atır. Rusiyanın keçmiş Prezidenti Putinin 2003-cü ildə Malaziyaya səfəri məhz buna xidmət etmişdir. Bu səfər gedişində Rusiya Cənub-Şərqi Asiyaya pəncərə açmağa nail olmuşdur. Qeyd etmək lazımdır ki, hazırda bu pəncərə yalnız bir istiqamətə açılır ki, bu da Malayziyadır. Bir neçə müddət bundan əvvəl Rusiya İndoneziyaya hərbi texnika verməyə başlamışdır. Yaxınlarda Malayziya da ona qoşulmuşdur. Rusiya ilə Malayziya arasında "SU-30 MKM" rus hərbi təyyarələrinin Malayziyaya 1 milyard dollara satılması barədə müqavilə imzalanmışdır.

Qeyd etmək lazımdır ki, əgər bu müqavilə həyata keçirilsə, bir neçə müddətdən sonra Çin, İndoneziya və Malayziyanın səmasında təxminən 500-ə yaxın Rus hərbi təyyarələri uçacaq. Amma digər tərəfdən qeyd edilməlidir ki, bu əlaqələr sırf hərbi xarakter daşıyır və iqtisadi əlaqələrlə möhkəmlənməsə, qısamüddətli ola bilər. Əgər Rusiya Cənub-Şərqi Asiyada uzun müddət qalmaq istəyirsə, bu dövlətlərlə ikitərəfli iqtisadi münasibətləri daha da möhkəmləndirməlidir.

## ƏDƏBİYYAT:

1. Арин О. Азиатско-Тихоокеанский регион: мифы, иллюзия и реальность. М., 1997.
2. Гельбрас В. Китай в Восточной политики России. М. 2001.
3. Дугин А. Основы геополитики. М., 1997.
4. Жирнов Д. Россия-Китай, многополярность // "Свободная мысль-XXI век", 2001, №5.
5. Зюганов Г. Россия и современный мир. М., 1995.
6. Кирев Н. Стратегическое партнерство и стабильная граница // "Проблемы Дальнего Востока", 2000, №4.
7. Лукин А. Россия-Китай, друзья или соперники? // "Независимая газета", 2002, 3 августа.
8. Митрофанов А. В. Шаги новой геополитики. М.1997.
9. Титаренко М. Россия и Восточная Азия. Вопросы международных и межцивилизованных отнощений. М. 1999.
10. Уткин А. И. Американская стратегия для XXI века. М., 2000
11. Kwan C. H. Economic interdependece in the Asia-Pacific region. N. Y., 200

## 9.3. İslam dünyasının Rusiyanın xarici siyasətində yeri

Müasir beynəlxalq münasibətlərdə islam dünyası, islam dövlətləri iri və regional dövlətlərin strateji cəhdlərində mühüm yer tutur. Geosiyasi rakursda İslam dövlətləri dünya xəritəsində Avropa Asiyadan Afrikaya qədər geniş ərazidə yayılmışdır. Müasir dövrdə İslam dini insan şüuruna təsir edən ən təsirli vasitəyə çevrilmişdir. İslam dinində milli təşkiledici məqam onunla fərqlənir ki, bu və ya digər xalqın hər hansı bir hissəsi islamı qəbul edirsə, bir müddətdən sonra o, öz xalqının inanc mənbəyinə çevrilir. Bu xalqlara misal olaraq aşağıdakıları göstərmək olar: Rusiya Federasiyasında tatarlar, Moldovada qaqauzlar, Gürcüstanda acarlar, Bosniya və Hersoqovinada serb xorvatlar, Nigeriyada nigeriyalılar, Afrikada sudanlılar, somalililər, keçmiş Yuqoslaviyada albanlar və s.

Keçmiş SSRİ ərazisində əhalinin 40 %-i İslam dininə etiqad edir. SSRİ-nin süquta uğramasından sonra İslam siyasətində yeni mərhələ başladı və gərginlik ocaqlarının meydana gəlməsinə səbəb olmuş və yayılma parametrlərinə görə çox geniş əraziləri – Avropanın mərkəzində Albaniyadan Cənub-Şərqi Asiyada Malayziyaya qədər əhatə etmişdir. Qeyri stabillik yaradan bu oxa növbəti dövlətlər daxildir: Əfqanıstan, Tacikistan, Rusiya Federasiyası (Çeçenistan), İraq, İran, İndoneziya, Filippin və s.

Bir tərəfdən, demək olar ki, Qafqazda olan bütün muxtariyyət formaları mövcud olan Rusiya Federasiyasında, xüsusilə Volqa ətrafı və Sibirdə islam dininə etiqad edən əhali məskunlaşmışdır. Bu, hər şeydən əvvəl iri milli xalqlardır. Bu, Rusiyanın mərkəzində olan bir neçə milyon tatar və başqırdlar, Dağıstanda avar, ləzgi və digərləri, Şimali Qafqazda qabardinlər, balkarlar, adıgenlər, inquşlar, çeçenlər və s.-dir. Digər tərəfdən SSRİ hüdudlarında yaranmış müstəqillik əldə etmiş xalqlar da islam dininə sitayiş edir və Rusiyanın sərhəd

dövlətlərinə çevrilmişlər. Onlara azərbaycanlılar, özbəklər, qazaxlar, türkmənlər, taciklər aiddir.

Bu reallıqları qeydə alaraq, Rusiya öz xarici siyasətində müasir beynəlxalq münasibətlərdə islam faktorunun artmasını və genişlənməsini nəzərə almalıdır. Digər tərəfdən, digər iri və ya regional dövlətlər Rusiya ilə qarşılıqlı münasibətlərində islam faktorundan Rusiyanın daxilində qeyri-sabitlik faktoru kimi istifadə edəcəklər.

Bu fonda Hantinqtonun "Sivilizasiyaların toqquşması" nəzəriyyəsinə baxmaq lazımdır. Hantinqton nəzəriyyəsinə əsasən islam sivilizasiyası həm başda Qərb olmaqla xristian sivilizasiyasına, həm də başda Rusiya olmaqla provoslav sivilizasiyasına düşməndir. Onun ideyasına əsasən, ABŞ özünün mərkəzi yeri Səudiyyə Ərəbistanı, Küveyt, Pakistan, İran, İraq, Əfqanıstan və s. tutduğu islam mərkəzindən uzaq olmasından istifadə edərək, bu toqquşmalardan uzaq olmağa çalışır. Bu nəzəriyyədən çıxış edərək ABŞ öz maraqlarına uyğun olaraq, həm daxildə islam ekstremizmi ilə bağlı müxtəlif qəbildən olan yerli münaqişələr, həm də həmsərhəd islam dövlətləri ilə münaqişəyə təkan verməyə cəhd göstərir. Bu siyasət növbəti məqsədləri güdür: bir tərəfdən, islam dünyasında xüsusi həmrəylik ruhu nümayiş etdirməklə bundan Rusiya ilə mübarizədə istifadə etməyə, digər tərəfdən hər zaman və hər yerdə islam dövlətlərinə qarşı həmrəylik, onlara loyallıq göstərməklə bu dövlətlərin ABŞ və Qərbi Avropaya qarşı yarana biləcək islam düşmənçiliyinin səviyyəsini ümumiyyətlə yoxa endirməyə çalışır. Deyilənləri ABŞ-ın Küveytə köməyə gəlməsi və sonra öz silahlı qüvvələrini burada və Səudiyyə Ərəbistanının ərazisində saxlaması ilə təsdiq etmək olar.

Müasir beynəlxalq münasibətlərdə Rusiyanın İslam dünyası ilə qarşılıqlı münasibətləri Rusiya Federasiyasının gələcəkdə də vahidliyinin qorunub saxlanması ilə bağlıdır. Hazırda Rusiya Federasiyasında müsəlman əhalisi say etibarilə yerli rus əhalisini dəfələrlə ötüb keçib. Milli şovinistlər ehtiyat edir ki, XXI əsrin ortalarında müsəlman əhalisi öz sayına görə Rusiya Federasiyasında

birinci yerdə olacaq. Fikrimizcə Rusiyada müsəlman əhalisinin artmasından qorxmamaq üçün onlara bu respublikanın bərabərhüquqlu üzvü kimi yanaşaraq dövlət siyasətinin bütün xətləri üzrə onların hüquqlarını məhdudlaşdırmamaq lazımdır. Belə olan təqdirdə Rusiya heç nədən qorxmamalıdır. Amma, Rusiya dövlətinin xarici siyasət konturlarını müəyyənləşdirən zaman yenilənmiş, müasirləşmiş islam dünyasının sürətlə formalaşması prosesini nəzərə almaq lazımdır. Belə ki, beynəlxalq analitik və proqnozçuların qiymətləndirməsinə əsasən 2025-ci ildə dünyanın aparıcı dövlətləri arasında əhalinin sayına görə ilk yerlərdən birini ən çox əhaliyə malik olan və islam dininə etiqad edən İndoneziya tutacaq. Amma XXI əsrin əvvəllərində İslam dünyasında birlikdən danışmaq hələ tezdir. Məlumdur ki, müasir şəraitdə islam dünyasında tam həmrəylik yoxdur, onun daxilində müxtəlif siyasi, ideoloji, sosial cərəyanlar, eyni zamanda, bir-birinə əks mövqedə olan millətçi qruplaşmalar mövcuddur.

İslam dünyasında mövcud olan vəziyyətdən danışarkən hazırki dövrdə müəyyənedici rol oynayan məqamları qeyd etmək vacibdir. Bunlar:

1. Dövlət ideologiyası və siyasəti səviyyəsinə gətirilmiş İran şiəliyi.
2. Səudiyyə Ərəbistanının mərkəz olduğu ənənəvi, Yaxın Şərq istiqaməti.
3. Dünyəvi, türk istiqaməti.
4. Ekstremist cərəyanlar.

İslam dünyasında bu cür obyektiv vəziyyəti qeydə alaraq, Rusiya Federasiyası öz milli maraqlarından çıxış edərək hər bir islam subyekti ilə ayrılıqda münasibət qurmalıdır.

Rusiya Federasiyasının keçmiş Prezidenti V.Putinin 2003-cü ilin oktyabr ayında Malayziyada İslam Konfransı Təşkilatının növbəti konfransında iştirakı da məhz bu məqsədi güdürdü. Rusiya Federasiyası qonaq qismində çıxış edirdi və İKT-nin üzvü olmaq istəyini ifadə etmişdir.

Müasir şərtlər daxilində ABŞ "anakonda" taktikasına əsasən Əfqanıstan və İraqda həyata keçirilən hərbi əməliyyatlarda Rusiyanı üstələyir. Rusiyaya münasibətdə ABŞ-ın geostrateji siyasəti Mərkəzi Asiya, Cənubi Qafqaz, Yaxın və Orta Şərqi Rusiyadan uzaqlaşdırmaqla onun ətrafında sədd çəkməkdir.

Bu halları nəzərə alaraq, son dövrlərdə Rusiya geostrategiyasınm əsas istiqaməti Asiya-Sakit okean regionunun müsəlman ölkələrinə, xüsusilə də İndoneziya və Malaziyaya yönəlmişdir. Məlum olduğu kimi, Rusiya Federasiyasının keçmiş prezidenti V.Putinin 2003-cü ilin avqust ayında Malayziyaya səfəri zamanı Rusiya Cənub-Şərqi Asiyaya pəncərə açmağa çalışmışdır. Qeyd etmək vacibdir ki, bu pəncərə hələ ki bir istiqamətə – Malayziyaya açılır. Bir müddət bundan əvvəl Rusiya müsəlman ölkəsi olan İndoneziyaya hərbi texnika verməyə başladı. Sonradan ona Malayziya da qoşuldu. Rusiya və Malayziya arasında Rusiyaya məxsus "SU-30 MKM" hərbi təyyarələrinin Malayziyaya 1 milyard dollara satılması haqqında müqavilə imzalanmışdır.

Asiyada müsəlman-rus əlaqələri fonunda xüsusilə cənub istiqamətində İran İslam Respublikası qeyd edilir. ABŞ-ın regionda nüfuzunun artmasının qarşısını almaq üçün Rusiya Federasiyasının digər regional dövlətlərin dəstəyinə ehtiyacı var. Bu dəstəyi şəxsi maraqlarından çıxış edərək müəyyən zaman kəsiyində Fransa, Almaniya və xüsusilə İran İslam Respublikası göstərə bilərdi. İran obyektiv olaraq müəyyən səviyyədə cənubda Rusiyanın nüfuzunun güclənməsinə təsir göstərir.

Bu gün Rusiya Federasiyasının islam dünyasında əsas dayağı İrandır. Hazırda ölkənin xarici siyasətində aparıcı mövqeyə malik döyüşkən şiəlik uzun müddət Rusiya Federasiyasının müttəfiqi olmuşdur. Rusiya geostrategiyası nöqteyi-nəzərindən İran, cənub istiqamətində Rusiyanın öz siyasətini həyata keçirməsi üçün bütün tələblərə cavab verir. Hazırda iri regional dövlət olan İran Yaxın və Orta Şərq, o cümlədən, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri ilə sıx əlaqədədir. Rusiyanm cənubda

ən yaxın müttəfiqi kimi İran Rusiya geostrategiyasında mühüm rol oynayır. Bu fonda Moskva-Tehran və İrəvan oxunun yaradılması Rusiyanın bir sıra qlobal problemlərini həll edə bilər. İran və Ermənistanı öz ətrafında birləşdirməklə Rusiya hələ I Pyotr dövründə reallaşdırmağa cəhd etdiyi ideyanı isti dənizlərə çıxışı əldə edə bilər.

Amma ABŞ-ın Əfqanıstan və İraqda möhkəmlənməsi, İran ətrafında son hadisələr, atom silahlarının istehsalına gətirə biləcək nüvə maddələrinin istehsalının dayandırılması haqqında İrana edilən xəbərdarlıqlar bu regionda İranın Rusiyanın strateji müttəfiqi kimi rolunu köklü surətdə dəyişir. Məlum olduğu kimi, atom maddələri ilə "İran məsələsi" uzun müddətdir ki, MAQATE və Təhlükəsizlik Şurasının gündəliyinə çıxarılmır. Bununla yanaşı, Rusiyanı öz şəxsi problemləri maraqlandırır və ona sərfəli olanı edir. Buna misal olaraq, Xəzəryanı dövlətlərin Xəzərin dibinin bölüşdürülməsi və Xəzər dənizinin statusunun müəyyən edilməsilə bağlı ortaya çıxan mübahisəni göstərmək olar. Məlumdur ki, 2001-ci ilə qədər Xəzər dənizinin statusunun müəyyən edilməsilə bağlı Rusiya və İranın mövqeyində heç bir fikir ayrılığı aşkar edilməmişdir. Amma indi, bir müddət keçdikdən sonra bu ölkələr Xəzərin statusu ilə bağlı şəxsi mənafeyi əsas götürərək tamamilə əks mövqedən çıxış edirlər. Rusiya Xəzər dənizinin orta xətti ilə bağlı Qazaxıstan və Azərbaycanla ikitərəfli müqavilə imzalamışlar. Bu məsələdə Rusiya taktiki və strateji cəhətdən düzgün addım atdı, həm Azərbaycan, həm də Qazaxıstan Rusiyanın çoxəsrlik qonşularıdır və onlar lazımi məqamda Rusiyanı məyus etməzlər. Üçtərəfli "Rusiya-Qazaxıstan-Azərbaycan" razılaşmasının əldə edilməsindən sonra Xəzər dənizinin 20% əsasında bərabər bölünməsi məsələsi öz əhəmiyyətini itirdi, bu da XXI əsrin başlanğıcında dövlətlərin mövqelərinin sürətlə dəyişməsinə dair ən bariz nümunədir.

Moskva-Tehran potensial oxu Rusiya və islam dünyasının bir araya sığmazlığı barədə fikirləri kölgədə qoysa da, rus və iran

islamçılığı arasında mövcud olan ziddiyyətlər eyni vaxtda Moskva və Tehrana istiqamətlənmiş geosiyasi tendensiyanı üzə çıxarır.

Moskva-Tehran oxunda mühüm yeri bütün regionda destabilləşdirici mərkəz rolunu oynayan Ermənistan tutur. Rusiya üçün o, ənənəvi xristian müttəfiqidir. Rusiya ilə geosiyasi əlaqələr onlar tərəfindən həyati əhəmiyyətə malikdir. İranla Ermənistanı bir sıra tarixi maraqlar bağlayır: onun mahiyyəti çoxəsrlik İran-Türkiyə rəqabətindən ibarətdir. Türkiyə ilə əkslik onu Ermənistanla strateji müttəfiq edir. Ona görə də regionda Ermənistanla münasibətlərini inkişaf etdirir, maraqlarını müdafiə edir. İran Xəzər dənizinin statusunun müəyyən edilməsində qeyri-konstruktiv mövqe nümayiş etdirir.

Ermənistan müəyyən strateji əhəmiyyətə malik ərazidə yerləşmişdir, belə ki, Ermənistan ərazisindən Türkiyə ilə Azərbaycanı və Mərkəzi Asiyanı birləşdirən yol keçir. Moskva-Tehran oxunda İrəvan avtomatik olaraq Rusiya və İranı birləşdirən əlavə bənd rolunu oynayır və Türkiyəni qitədaxili ərazilərdən ayırır. Moskva və Tehran Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasında maraqlıdırlar.

Mərkəzi Asiyada rus-iran geosiyasi maraqları oxşardır. İlk növbədə, ABŞ tərəfindən təzyiq elementlərinin saxlandığı bir şəraitdə İran daha inadla Mərkəzi Asiya regionunda öz iqtisadi, siyasi, mədəni və ideoloji təsirini qoruyub saxlamağa çalışır. Mövcud cəhdlər öz coğrafi mövqeyinin səmərəliliyinin qiymətləndirilməsinə əsaslanır ki, bu da bu regionun enerji resurslarının dünya bazarına birbaşa çıxarılması üçün stabil daxili siyasi şəraitin olmasını nəzərdə tutur. Bundan əlavə, islam islahatlarının ixracı da İranın bəzi klerikal dairələri tərəfindən regiona müdaxilə etmək üçün vasitə olaraq qalmaqdadır. İranın öz mövqeyini Mərkəzi Asiyada mümkün qədər gücləndirməsinə dair xarakterik olan element onun Rusiya ilə müttəfiqlik münasibətlərinin davam etməsidir.

Əgər hər iki ölkənin Mərkəzi Asiya ilə bağlı iqtisadi maraqlarına diqqət yetirsək, o, bu cür səslənə bilər: Rusiya Qərbin İrana

təsirinin qarşısını almağa və bu ölkələrin xammal mənbəyinin İran və Rusiyadan daşınmasına cəhd göstərir. Bu konkret öz əksini 2007-ci ilin sonunda türkmən qazının Rusiyadan daşınmasını nəzərdə tutan müqavilə imzalanmasında tapdı. Bunun nəticəsində Rusiyanın, türkmən qazının Avropaya ixrac edilməsi nəticəsində milyardlarla dollar gəlir əldə edəcəyi barədə arzuları reallaşdı.

Mərkəzi Asiya üçün potensial konflikt kimi İran və onun ənənəvi regional rəqibləri - Pakistan, Səudiyyə Ərəbistanı və müəyyən dərəcədə Türkiyə arasında artmaqda olan qarşıdurmanı göstərmək olar. İran pantürkizm ideyaları altında Türkiyənin, sünni fundamentalizmi altında Səudiyyə Ərəbistanının liderlik etməsindən ehtiyat edir ki, bu da onun nüfuzuna xələl gətirə bilər. Müasir dövrdə İranın qarşısında duran əsas vəzifə Rusiya ilə hərtərəfli əlaqələr qurmaqla iqtisadi və siyasi izolyasiyanı dəf etməkdir. Bununla bərabər istisna deyil ki, islam dünyasında artmaqda olan ideoloji qarşıdurma, ABŞ-la qalmaqda olan qarşıdurma İrana uzunmüddətli regional geostrategiyasını həyata keçirməyə mane olacaq.

Rusiya və İranın xarici siyasi maraqları bir çox aspektlərdən siyasi və iqtisadi xarakter daşıyır. Siyasi nöqteyi-nəzərdən hər iki dövlət bir-birilərindən və ABŞ-dan gələcək təhlükələri kompensasiya etməyə çalışır. İran Rusiya silahlarını alan əsas dövlətlərdəndir: gəmi, təyyarə, raket, artilleriya və s. Eyni zamanda, İran ordusunu silahla təmin edən Rusiya İran hərbi infrastrukturunun yaradılmasına kömək edir. Rus texnologiyası və mütəxəssislərininköməyilə İran rus "Skada"sı əsasında "Şəhab" raket qurğusunu təsis etmişdir. İran ABŞ-la qarşıdurmanın alovlandığı bir şəraitdə 2006-cı ilin aprelində "Fəcr-3" ballistik raketini buraxmağa başladı. Başqa sözlə desək, bu raketin zərbə endirəcəyi ərazilər İsrail, İraq, Əfqanıstan və Türkiyədə olan ABŞ hərbi bazaları və demək olar ki, Azərbaycanın bütün ərazilərini əhatə edir. Buna paralel olaraq, İran sürətli torpedalar istehsal etməyə başladı ki, onların da sürəti 100 m/san təşkil edir.

Amerikan məlumat xidməti qeyd edir ki, onlar Rusiyanm VA-3 "Şkval" torpedası əsasında hazırlanmışdır. Amerikanın "Washington Post" qəzetinin məlumatına əsasən 2005-ci ildə Rusiya İrana 1 milyard dollar həcmində silah, o cümlədən, RƏM Tor-M1 qurğusunu verməyə razı olmuşdur. Rusiya İrana on milyon dollarlarla gəlir gətirən nüvə xammalı ixrac edir və İranı nüvə proqramını həyata keçirməkdə dəstəkləyir. Digər tərəfdən, İran Fars körfəzində zəngin neft və qaz ehtiyatlarına, o cümlədən, geniş terminala malikdir. Coğrafi nöqteyi-nəzərdən bu, Rusiya üçün böyük əhəmiyyət kəsb edir. İran qaz ehtiyatlarına görə dünyada üçüncü yeri tutur. İranın iri qonşularından yalnız Rusiya bununla maraqlanır. Burada çoxəsrlik inkişafa malik tarixi və geostrategiyanı nəzərə almaq vacibdir. Hazırda bu regionda hər iki dövlətin həm iqtisadi əlaqələr, hərbi əməkdaşlıq, həm də diqqət yayındırıcı manevr kimi münaqişələri saxlamaq məsələsində xarici siyasi maraqları üst-üstə düşür.

Həm İran, həm də Rusiya Qərbin və ABŞ-ın geostrateji rəqibləri hesab olunur. Müxtəlif siyasi rejimlərin və bir-birindən tamamilə fərqlənən dini rejimlərin olmasına baxmayaraq, İran və Rusiya XX və XXI əsr ərzində siyasi hərbi müttəfiq olaraq qalacaqlar. Amma bu əlaqələr perspektivə malik deyil və gec-tez tərəflər tamamilə başqa istiqamətlərə ayrılacaqlar. Rusiyanın gələcək inkişafında təbii yol – öz siyasətini ümumbəşəri, sivilizasiya inteqrasiyası yolunda inkişaf etdirməkdir.

XX əsrin sonlarmda dünyada gedən geostrateji dəyişikliklər Türkiyə Respublikasının müasir beynəlxalq əlaqələrdəki roluna və yerinə ciddi təsir göstərdi. Türkiyə Respublikası, dünyada gedən geostrateji dəyişikliklərlə və SSRİ-nin dağılması ilə əlaqədar olaraq Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinə, həmçinin, Rusiyanın türkdilli xalqlarına da öz təsirini göstərmək üçün tarixi şans əldə etdi. Türkiyə, NATO-nun və böyük regional dövlətin aktiv üzvü kimi Avropa və Asiyanın, Şimal və Cənubun qovuşduğu yerdə xüsusi hərbi-siyasi və iqtisadi rol oynamağa başladı.

Qərb üçün Türkiyə neft və qazı Avropaya təchiz edən və daha güclü İran mövqelərinə malik olan Fars körfəzinin alternativinə çevrildi. 2003-cü ildə İraqda baş verən hadisələrin sübutu kimi, Türkiyə amerikan-ingilis koalisiyasının fəal tərəfdarına çevrildi. Türkiyə Yaxın Şərq və Qafqaz-Mərkəzi Asiya istiqamətində hakim rol oynamağa başladı.

Türkiyənin fəallığının əsas aspektinin müasir mərhələsində onun qərb cəmiyyətinin tamhüquqlu və fəal üzvü olması üçün cəhd göstərməsi və hər şeydən öncə Avropa Birliyinin tərkibinə qoşulması qalır. Türkiyənin siyasi xətti Rusiya ilə rəqabətdə əsas etibarilə onun öz beynəlxalq imicini gücləndirməkdən və xüsusilə də Qərbə Qafqazda və Mərkəzi Asiyadakı rolunu göstərməkdən və Qərb strukturuna qoşulmaq zərurətini sübut etməkdən ibarətdir. Türkiyənin geosiyasi fəallığı ABŞ tərəfindən dəstəklənir. Türkiyə daima ABŞ-ın postsovet məkanındakı bələdçisinə çevrilmiş və Rusiyanın Qafqaz və Mərkəzi Asiya məsələləri ilə bağlı geri çəkilməsinə cəhd etmişdir.

Kürd separatçılarına rəğbət göstərən Rusiya Türkiyəni zəiflətməyə və həmçinin, onu xarici problemlərdən yayındırmağa çalışırdı. Öz növbəsində, Türkiyə də Rusiyadakı qiyamçı islam ekstremizminə mənfi rəğbət göstərir.

Dünya ictimaiyyətinə məlumdur ki, Rusiya Federasiyasının ərazisində, Moskva ətrafında və Yaroslav vilayətində muxtar kürd vilayətləri və kürd döyüşçülərindən ibarət baza mövcuddur. Elə Abdulla Öcalan özü vaxtilə Moskva yaxınlığında yerləşən kürd bazasında saxlanmışdır və Rusiya sonra onu İtaliyaya göndərməyə məcbur oldu.

Rusiyanm NTV kanalının "Yekun" ("İtoqi") verilişinin göstərdiyi sübutlara əsasən, 1999-cu ilin fevral ayının ikinci yarısında kürdlər Yaroslav vilayətindəki əraziləri 99 il ərzində ələ keçiriblər. Bu ərazilərdə kürd qayda-qanunları hökm sürür və işlə təmin edilmiş rus işçilərinin sözlərinə görə onlara hər ay əmək haqqı qismində 500 dollar ödəyirlər və onların sahibi isə külli miqdarda dollar əldə edir. Belə bir sual ortaya çıxır ki,

belə imkanları onlara kim və necə verir? Bu vəsaitləri necə əldə edirlər? Kürdlər bu bazalara necə və hansı yollarla düşürlər və onlarm maraqları nədən ibarətdir?

Bu məsələdə Türkiyə ilə münasibətdə Rusiya və Ermənistanın maraqları üst-üstə düşür. Kürd xəritəsinin köməkliyi ilə bu ölkələr dünyanm bu regionunda destabilizasiya vasitəsinə malikdir və Türkiyəyə təzyiq göstərə bilirlər.

Amma Türkiyə öz məqsədləri çərçivəsində Rusiya ilə daha geniş əməkdaşlığa və qarşılıqlı anlaşmaya cəhd edir. Məlumdur ki, 2000-ci ilin yanvar ayında, Türkiyə Respublikasının keçmiş Prezidenti Süleyman Dəmirəl "Avropada Təhlükəsizlik və Əməkdaşlıq təşkilatmın prinsiplərinə əsasən" Qafqazda stabillik Paktının bağlanması təşəbbüsünü göstərdi. S.Dəmirəl "3+2+2" formulunu təklif etdi, belə ki, Azərbaycan, Gürcüstan, Ermənistan, həmçinin, Türkiyə və Rusiya və o cümlədən Avropa birliyi buraya daxil idi. Nəticədə "yeddiliyə" İranın da əlavə edilməsi təklifi irəli sürüldü.

Layihənin müəllifləri belə bir fikir bildirdilər ki, bu "Qafqaz səkkizliyi"nin yaradılması regionda Azərbaycan, Gürcüstan və Rusiyada münaqişələrin həll edilməsinə imkan yaradacaq. Bu prosesi Rusiya, Türkiyə və İranın, həmçinin, ABŞ və Avropa Birliyinin diplomatik, siyasi və iqtisadi dəstəyi nəticəsində üç Cənubi Qafqaz respublikalari başlamalı idi. Bunun ardınca, bir il keçdikdən sonar isə, 2001-ci ilin fevral ayında İstanbulda "Qafqazda stabilliyin yollarınm axtarışı" adı altında beynəlxalq konfrans keçirildi. Türkiyə Respublikasının o zamankı Xarici İşlər Naziri İsmayıl Cem konfransı açıq elan etdikdən sonra, "Səkkizlik paktı"nın yaradılması zərurətini və əhəmiyyətini qeyd edərək Qafqazda və regionda bu paktın vəziyyəti stabilləşdirəcəyinə imkan yaradacağını söylədi. Türkiyə bir daha da qeyd etdi ki, bu prosesə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasından başlamaq lazımdır.

Bu regionda öz mövqeyini gücləndirməyə çalışan Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistanın suverenliyinin və

müstəqilliyinin dəstəklənməsində siyasi və iqtisadi faktorlar kimi ABŞ və NATO-nun roluna böyük əhəmiyyət verir. Bu məsələdə, Türkiyə Rusiya Federasiyasının dəstəyini də əldə etməyə cəhd edir. Türkiyə Qafqazdakı stabilləşdirmə prosesinə nail olmaq məqsədilə böyük Qərb dövlətlərinin və hər şeydən öncə ABŞ, Almaniya, İngiltərə və s. ölkələrin iqtisadi resurslarını cəlb etməyə çalışırdı. Geostrateji bölgüdə, Türkiyənin mövqeyi əsasən iqtisadi faktor üzərində cəmləşir. Türkiyə həmişə, Qafqazda ölkələrin müstəqillik qazanmasından etibarən bu ölkələrin dünya təsərrüfatı sisteminə qoşulmasında aktiv rol oynamağa cəhd edirdi. Bu aspektdə, türk iş dairələri mühüm rol oynadılar və Cənubi Qafqaz respublikaları ilə uzunmüddətli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında Qərb biznesinə öz köməklərini göstərdilər.

Öz növbəsində, ABŞ və Avropa Birliyinin üzv ölkələri Cənubi Qafqazın müstəqil dövlətləri ilə, xüsusilə də neft və qaz ehtiyatları ilə, zəngin olan Azərbaycan Respublikası ilə uzunmüddətli iş əlaqələrini qurmaqda maraqlı idilər. Türkiyə bu istiqamətdə xarici kapitalm bu respublikalara və ilk növbədə Azərbaycana axınına imkan yaradacaq müasir telekommunikasiya və nəqliyyat infrastrukturunun yaradılmasında, səmərəli hüquq sisteminin formalaşmasında başlıca rol oynamağa can atırdı.

Cənubi Qafqaz respublikaları Türkiyənin iqtisadi və maliyyə maraqları üçün böyük stimul daşıyırdı. Bundan irəli gələrək, Türkiyə bu ölkələrə kapital, mal və xidmətlərin mübadiləsinə cəhd edir. Türkiyə Rusiya ilə aktiv iqtisadi əlaqələrə malikdir və bunların da əksəriyyətini Rusiya qazının idxalı üzrə çoxmilyardlı, uzunmüddətli müqavilələr təşkil edir.

ABŞ-ın Qafqazdakı geosiyasətinin ümumi kontekstində, Türkiyə Xəzər dənizinin karbohidrogen enerji ehtiyatlarının nəql edilməsinə xüsusi əhəmiyyət verib. Bu işdə ən əhəmiyyətli fakt başlıca olaraq Bakı-Tbilisi-Ceyhan neft kəmərinin nəqli oldu. Amerika Birləşmiş Ştatları bu beynəlxalq layihədə,

Türkiyə və Azərbaycanı tamamilə dəstəkləyir. ABŞ üçün bu layihənin əhəmiyyətindən danışarkən, ABŞ-ın Xəzər regionunun problemləri üzrə dövlət katibinin məsləhətçisi Stiven Mann 2002-ci ilin əvvəlində bildirdi ki, Bakı-Tbilisi-Ceyhan ABŞ üçün qərb bazarlarına Xəzər neftinin nəql edilməsi məqsədilə əsas marşruta çevrildi. Əlbəttə, Türkiyənin Cənubi Qafqaz ölkələri ilə olan dövlətlərarası münasibəti eyni deyil. Türkiyə Respublikasının Azərbaycan və Gürcüstanla olan beynəlxalq münasibətləri sıx və stratejikdir. Xüsusilə də, sıx və hərtərəfli əlaqələr Azərbaycan və Türkiyə arasında oldu. Türkiyənin dövlət və siyasi xadimləri dəfələrlə qeyd etmişlər ki, Türkiyə və Azərbaycan arasındakı münasibətlər xüsusi və stabil xarakter daşıyır.

Bu kontekstdə, Gürcüstan və Türkiyə arasındakı münasibətləri də nəzərdən keçirmək lazımdır. Gürcüstanda, Türkiyəni Qərb strukturlarına ölkənin inteqrasiyasında başlıca ticari-iqtisadi əməkdaş kimi hesab edirlər. İkitərəfli Gürcüstan-Türkiyə əlaqələrinin hüquqi razılıq bazası çoxsaylı razılıqlara və müqavilələrə əsaslanır ki, bunların da arasında dostluq və əməkdaşlıq haqqında bağlanmış müqavilə daha çox önəm daşıyır.

Türkiyə, Azərbaycan və Gürcüstan arasındakı qarşılıqlı faydalı strateji əməkdaşlığın fonunda Türkiyə və Ermənistan arasında əlaqələr ikitərəfli olaraq inkişaf etdi. Ermənistan Respublikası Gürcüstanın Cavahet rayonunda yaşayan etnik erməniləri bu ölkə ilə münasibətdə destruktiv fəaliyyətə sövq etməklə Türkiyə, Azərbaycan və əksər hallarda isə Gürcüstanla qeyri-konstruktiv siyasət münasibətini saxlayır. Rusiya Federasiyası ilə bir-birinə yaxın sərhəddə olmasına baxmayaraq Ermənistan, qarşılıqlı müdafiə, birgə hava hücumuna qarşı və sərhəd müdafiəsi ilə bağlı müqavilə bağladı. Ermənistan bu regionda İranla ən sıx və hərtərəfli əlaqələrə malikdir, belə ki, bu ərazi vasitəsi ilə Ermənistan öz ticarət əməliyyatlarının əksər hissəsini həyata keçirir, İran isə Qafqazda öz geostrateji

maraqlarını təqib etməklə Ermənistana əlindən gələn bütün kömək və dəstəyini göstərir.

Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətlərinə gəldikdə isə, burada obyektiv səbəblər mövcuddur. Əsas mahiyyəti bundan ibarətdir ki, Ermənistan Azərbaycanın 20 faizdən çox ərazisini işğal etmişdir və Naxçıvan Muxtar Respublikasmı mühasirədə saxlayır. Nəticə etibarilə, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını azad etməyənə qədər həmin ölkə ilə hər hansı siyasi, iqtisadi və digər əməkdaşlıqdan söhbət gedə bilməz. Türkiyə və Ermənistan arasındakı münasibətlərdə, dövlətlərarası münasibətlərin normallaşmasında başlıca əngəl Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll edilməməsidir.

Belə halda, yuxarıda qeyd edilənlərdən göründüyü kimi, Türkiyə Respublikası Qafqazda geosiyasətin həyata keçirilməsində əhəmiyyətli yer tutur və gələcəkdə Türkiyənin bu regionunda rolu daha da artacaq.

## ƏDƏBİYYAT:


1. Аббасбейли А. Н. “Внешняя политика Российской Федерации в XXI веке”, Б., 2005.
2. Громыко А. Россия и Иран: новая реальность // “Независимая газета”. 2002, 26 марта.
3. Дугин А. “Основы геополитики”, М., 1997,
4. Малашенко А. Россия и ислам / “Россия и мусульманский мир”, М., 2001, №4.
5. Турция между Европой и Азией. Итоги европейзации на исходе XX века. Институт востоковедения РАН 2001, раздел 4.
6. Winrow G.M. Turkish Policy in Post Soviet Asia. The Sunday Times 2002, 17 March.

### 9.4. Türkiyə müasir beynəlxalq münasibətlərdə

Müasir şəraitdə Türkiyə Respublikası beynəlxalq əlaqələrini təsdiq etmək və möhkəmləndirmək üçün çoxtərəfli siyasət yürüdür.

Ankaranın daha sıx əlaqələrinin, genişmiqyaslı strateji tərəfdaşlığının yüksəldilməsinin əsasında Vaşinqton dayanır. İki tərəf arasında siyasi, hərbi, iqtisadi və digər məsələlər barədə müqavilə və razılaşmalar kompleksi fəaliyyət göstərir. Türkiyə siyasi, hərbi, iqtisadi sahələrdə, həmçinin, təhlükəsizlik sferasında ABŞ-a əsas strateji tərəfdaş kimi baxmağa davam edir. Bunun əsasında Ankaranın Amerika tərəfindən silahlanma və hərbi texnika ilə təchiz olunmasında BVF-dan kredit alınması məsələlərində və milli iqtisadiyyatın stabilləşdirilməsi proqramlarında Vaşinqtonun dəstəyi var.

ABŞ administrasiyası Türkiyənin Avropa Birliyinə inteqrasiyası məsələsində lobbiçilik və eyni zamanda Ağ evin müharibədən sonrakı İraqda Türkiyənin biznes plan və müqavilələrdə əlverişli kontraktlarında dəstəyini ləğv edir. Ankara öhdəlik və NATO bloku çərçivəsində Vaşinqtonla sıx bağlıdır. Bunun əvəzində Türkiyə Avrasiya məkanmda özünün xarici siyasətini aktivləşdirərək bir çox sahədə bəzi düzəlişlər etdi. İran və Suriya ilə yaxmlaşma prosesi başladı, Rusiya ilə əlaqələr aktivləşdi.

Yeni Türkiyə hakimiyyətinin xarici siyasət kursunda bütün bu düzəlişlər Vaşinqton tərəfindən heç də həmişə xoş qarşılanmır və mütəmadi olaraq Ankaraya diplomatik kanallar vasitəsi ilə təzyiq edilir. Vaşinqton Ankaranın İraq əməliyyatında dəstək almamasından narazılığım bildirir və Türkiyə isə müharibədən sonrakı proseslərdə yerli hakimiyyət orqanlarının formalaşdırılmasında Amerika hakimiyyətini kəskin tənqid edir. ABŞ administrasiyası Türkiyə rəhbərliyinə təklif olunmuş "Böyük Yaxın Şərq" layihəsindən və Ankaranın Moskva, Dəməşq və Tehranda münasibətlərinin genişlənməsindən məm-

nun deyil, baxmayaraq ki, Vaşinqtonun aktiv cəhdləri bunun qarşısını alır.

Türkiyə-Amerika münasibətlərinə ən böyük zərər 1 mart 2003-cü ildə Türkiyə parlamentinin Amerika silahlı qüvvələrinin İraqa qarşı hərbi əməliyyat keçirmək məqsədilə öz ərazilərindən istifadə üçün icazə verməməsi olmuşdur. Vaşinqton rəsmi olaraq Türkiyənin hərbi və siyasi hakimiyyətinin ünvanına düşünülməmiş ifadə işlətməyərək Türkiyə parlamentinin bu qərarına hörmətlə yanaşdığım elan etdi. Nəhəng kütləvi informasiya vasitələri səsverməni "Vaşinqton üçün soyuq duş" kimi xarakterizə etdilər, Türkiyənin öz mövqeyini və milli maraqlarını qoruya bilən tarixi fakt kimi meydana gəldiyini qeyd etdilər.

Türkiyə Amerika münasibətləri tarixdə ilk dəfə olaraq Vaşinqtonu NATO çərçivəsində tərəfdaş və müttəfiq kimi ona hörmət etməyə məcbur etdi. Ankaranın bu mövqeyi Türkiyə islam dünyasında görünməmiş dəstəyə səbəb oldu.

Türkiyə-Amerika münasibətlərinə ötən əsrin əvvəllərində Osmanlı imperiyasının erməni soyqırımının müzakirəsi üçün Konqres komitəsinin 11 oktyabr 2007-ci ildə qəbul etdiyi qətnamə güclü zərbə vurdu. Bu qətnamə Ağ evin xarici siyasətində qondarma erməni soyqırımı faktlarını nəzərə almağa çağırır. Ankara bunu "təhlükəli siyasi oyun" adlandırır və məsləhətləşmək üçün Vaşinqtondan öz səfirini geri çağırdır.

Eyni zamanda, Türkiyə Vaşinqtona bildirir ki, kürd məsələsində onun tutduğu xətt ardıcıl deyil. Amerika PKK-nı terror təşkilatı kimi tanımasına baxmayaraq, faktiki olaraq ABŞ İraqın şimalında silahlılara qarşı əməliyyatda onlarla birgə olacağına verdiyi sözə əməl etmədi. Ankaranın fikrincə, Vaşinqton bu təşkilata siyasi-diplomatik təzyiqi azaldaraq kürd ekstremistlərinə qarşı barışdırıcı mövqedə durur. Türk hakimiyyəti hesab edir ki, amerikalıların PKK-ya belə neytral münasibəti müharibədən sonrakı İraqda situasiyanın inkişafından asılı olaraq hərbi potensialını saxlamaq niyyətindədir, xüsusilə də, ölkənin şimal hissəsində müşahidəçilər kürd probleminə Va-

şinqtonun diqqətinin belə azalmasının səbəbini daha bir amillə əlaqələndirirlər ki, bu da neftdir.

Bununla belə, Türkiyənin bəzi xüsusi xidmət orqanlarının məlumatlarına əsasən, Amerika tərəfinin səlahiyyətli nümayəndələri PKK rəhbərləri ilə separat danışıqlar aparır, onun mahiyyəti və nəticələri haqqında isə Türkiyə tərəfi məlumatlandırılmır.

PKK-nın fəaliyyətinə qarşı hər hansı fəal hərəkətlərin həyata keçirilməməsi haqqında ABŞ dövlət katibi Kondoliza Rays qeyd edir ki, "belə fəaliyyət Vaşinqton üçün uyğun bir zamanda qəbul ediləcək". Bu açıqlama PKK-ya qarşı genişmiqyaslı hərbi əməliyyat Vaşinqtonda "ikinci cəbhənin" açılması səbəbini təsdiq edir. İraqda terrorun azğınlığı, İraq xüsusi xidmət orqanlarının faktiki zəifliyi şəraitində bunu etmək praktiki olaraq mümkün deyil. Digər tərəfdən, bu cür addımlar "partlama" həddində olan İraqı sonda diz çökdürər. Bundan başqa, PKK probleminin dondurulmuş halda saxlanılması, indiki Amerika administrasiyası regional və qlobal siyasətində Ankaranı öz nüfuz dairəsində saxlaması üçün gərəklidir. Kürd rıçağı vasitəsilə Vaşinqton Türkiyənin "Böyük Yaxın Şərq və Şimali Afrika" planlarının realizə olunmasında istənilən xeyirli qərarı ala bilər.

ABŞ bu sahədə Moskva ilə Ankara arasında qarşılıqlı münasibətlərin həcminin artmasından narahatdır, Vaşinqtonun fikrincə "qaz rıçağı vasitəsilə siyasi məsələləri həll etməyə çalışan Rusiyadan Türkiyənin asılılığı böyüyür", əvəzində Amerika tərəfi türk atom energetikasının yaradılmasında eyni zamanda, alternativ enerji mənbələrinin axtarılmasında hərtərəfli yardım edəcəyinə söz verir. Belə mənbələr arasında, adətən, Azərbaycan və Türkmənistan qazının adı çəkilir. Ümumilikdə Türkiyə ABŞ-ın təklifinə təmkinlə yanaşır. Münasibətlərin gərginliyinə baxmayaraq, 2006-cı ilin iyulunda Türkiyə və ABŞ strateji tərəfdaşlıq sənədi imzalandı, 2007-ci ilin mayında isə onun əsas hissəsi genişləndirildi və təkmilləşdirildi.

Avropa İttifaqı ilə danışıqlar prosesinin çətinliyi Türkiyəni bu günkü bazarının cəlbediciliyi heç də Avropadan geri qalmayan Rusiya ilə ikitərəfli və regional əməkdaşlığı genişləndirməyə məcbur edir. Türkiyənin Rusiya iqtisadiyyatına bugünkü investisiyanın həcmi 2 milyard dollara yaxındır. 1994-cü ilin aprelində Moskva ilə Ankara arasında hərbi-texniki və müdafiə sənayesi sahəsində dövlətlərarası müqavilə imzalanmışdır.

Məlumdur ki, Türkiyədə NATO standartları mövcuddur. Rusiya tərəfinin təklifləri Türkiyəyə amerikan təkliflərindən daha ucuz başa gələn proqramlar əsasında ixrac istiqamətli sənaye yaratmağa imkan verirdi; eləcə də, Rusiya tərəfi Türkiyəyə 10 mln dollar endirim etdi. Ancaq Türkiyə Rusiyanın "Kamov" firması ilə müqaviləni imzalamağa razı olsa da, hələ də özünün NATO üzrrə əsas hərbi müttəfiqi olan ABŞ-la münasibətində daha müstəqil mövqe tuta bilmədi, müqaviləni imzalamaq mümkün olmadı və tenderin qalibi elan edilmədən ləğv edildi.

Enerji sferasında ikitərəfli əməkdaşlıq hazırlandı. Sergey Lavrovun Türkiyənin iki ölkənin energetika sahəsində əməkdaşlığı siyasi məsələlərinə yönəlməsi fikrini məmnunluqla ifadə edir. Bu gün Rusiya Türkiyənin qaza olan tələbatının 65%-ni ödəyir. Türkiyə 11,6 mlrd kub m rus mavi yanacağını Transbalkan qaz kəmərindən və 4,5 milyard kub metr "Mavi axınla" alır. İranın göstəriciləri 3,8 milyard kub metrlə ikinci yerdədir. Bu göstəricilərlə Türkiyə rus qazına tələbatına görə Almaniyadan sonra ikinci yerdə durur. "Mavi axın" qaz xətti 17 noyabr 2005-ci ildə açıldı. Rus qazının ixracı sahəsində son illərdə bu, ən böyük layihə idi. Dövlətlərarası razılığa görə "Qazprom" Rusiya kompaniyası və Türkiyənin "Botaş" kompaniyası İtaliyanın "Eni" konserninin iştirakı ilə realizə olunur.

Qeyd etmək lazımdır ki, rus-türk maraqları Orta Asiya və Qafqaz regionlarında toqquşur, bir çox hallarda da beynəlxalq problemlərə baxışları fərqli istiqamətlərə ayrılır. Fikir ayrılığına baxmayaraq, bir sıra obyektiv faktorlar mövcuddur və onlar

tam şəkildə fəaliyyət göstərsə iki ölkənin iqtisadi inteqrasiyasına güclü təkan verər.

Türkiyə və Rusiya regional, xüsusən də, beynəlxalq birliyin böyük maraq göstərdiyi Qara dəniz ətrafı zonada əməkdaşlıqda uğurların asılı olduğu dövlətlərdir. Ekspertlər qeyd edir ki, Ankara və Moskvanın ümumxalq problemlərinə münasibətinin yaxınlığı və oxşarlığı Yaxın Şərqdə proseslərin qaydaya salınması, İran nüvə proqramı, İraq ətrafında vəziyyət, Qara dəniz regionlarında təhlükəsizlik məsələləri "Bleksifer" hərbi dəniz birləşmələri çərçivəsində əməkdaşlıq və dini ekstremizm, separatçılıq, terrorizmə qarşı birgə mübarizə aparmaq mövqeyindədir. Qonşu Zaqafqaziyanın şimalında və cənubunda, Rusiya və Türkiyənin ərazidə vacib vəzifələri var. Türkiyənin başqa ölkələrlə hərbi-texniki əlaqələrinin strukturunda İsrailin xüsusi yeri var. 1949-cu ildə yeni qurulan İsrail dövlətini rəsmi olaraq ilk tanıyan müsəlman dövləti Türkiyə olmuşdur.

İsrail tərəfi Türkiyəyə Avropa ittifaqına üzv olmasına kömək edəcəyinə söz verirdi. Bundan başqa İsrail türk-erməni əlaqələrinin qaydaya salınmasının elmi dairələr tərəfindən kəskin tənqidə məruz qalmasına baxmayaraq Ankaranın mövqeyinə anlayışla yanaşırdı. Bu mövqedə İsrail hökumətinin ABŞ-da erməni diasporu ilə yəhudi lobbisinin əlaqələri Türkiyə üçün çox vacibdir. Ankara üçün elan olunmuş Şimali Kipr Türk Respublikasının iqtisadi izolyasiyanın aradan götürülməsində İsrailin yardımı çox dəyərlidir.

Türkiyə hökuməti qonşu ölkələrlə də münasibətləri uğurla qaydaya salır. ABŞ-ın Suriya və İrana etdiyi təzyiqi nəzərə alsaq aydın olur ki, kəskin regional problemlərin həllində hakimiyyətin eyni mövqeyə yaxınlaşmasını müəyyən edir. Hər şeydən əvvəl İraqdan və İraq problemindən söhbət gedir. Hansı ki, İraqın dağılması və onun şimalında müstəqil kürd hökumətinin yaranması ilə hər üç ölkənin təhlükəsizliyi üçün təhlükə yaradırdı.

Digər tərəfdən bu ölkələr ikitərəfli siyasi, ticari-iqtisadi münasibətlərin möhkəmlənməsində də maraqlıdırlar. Onlar

Bağdadın süqutundan sonra siyasi vakuumu doldurmaq məqsədilə regionda yeni güc balansının təşkilinə can atırlar. Onlar birləşmək yolu ilə ABŞ-ın region ölkələrinə və İsrailə siyasi təzyiqlərini zəifləmtəsinə təsir göstərəcəyini hesab edirlər. Türkiyə, İran və Suriya rəhbərləri öz mövqe və güclərini birləşdirməklə hansısa regionda strateji əməkdaşlığa təsir etmir, regionda təsiri gücləndirir, daha stabil şərtlərlə yeni real siyasət elan edirdi. İİR-in Türkiyə ilə əməkdaşlığı genişləndirmək cəhdləri səbəbsiz deyil, belə ki, Türkiyənin ABŞ və NATO üzvləri ilə yaxınlığı, Türkiyə-İsrail əməkdaşlığı İranda narahatlıq yaradır.

İran-Türkiyə əlaqələrinin mühüm problemlərindən biri Mərkəzi Asiya və Zaqafqaziya nüfuzu uğrunda, həmçinin, Mərkəzi Asiya dövlətlərində enerji-nəqliyyat daşıyıcıları şəbəkəsinin inkişafı uğrunda mübarizədir. Türkiyə və İsrail arasındakı gərginliyi müəyyənləşdirən digər səbəb, İranın Türkiyədə radikal islamçı qruplaşmalarma dəstək verməsi ilə bağlıdır. İran-Türkiyə münasibətlərinin yaxşılaşması, hər iki ölkənin yüksək siyasət nümayəndələrinin görüşlərinin paylaşmaları onların beynəlxalq və regional problemlərin həllində münasibətlərin yaxşılaşması yeni siyasi güc formalaşdırır. İraq müharibəsi ilə əlaqədar olaraq ABŞ-ın regionda hərbi qüvvələrinin mövcudluğu fondunda ABŞ və Yaxın Şərq ilə münasibətləri gərginləşdirir.

Tehranda hesab edilir ki, onların nüvə məsələlərinin həllində türklər onlarla əməkdaşlıq etsələr, PKK silahlılarının məhvində və eyni zamanda, onların Şimali İraq ərazisindəki baza və düşərgələrinin ləğvində Ankaraya hər cür yardım edəcəklər. Bu, Vaşinqtonun mövqeyinə zərbədir. Belə ki, ABŞ neçə illərdir ki, Türkiyəyə PKK-ya qarşı güc tətbiq edəcəyinə söz verir, amma ABŞ PKK-nı terror təşkilatı elan etmək yolunda irəli addım atmır. Tehran isə əksinə, İran ərazisində PKK filiallarına, onların silahlı dəstələrinə qarşı uğurlu hərbi əməliyyatlar apardı, o cümlədən, İraq ərazisində bu təşkilatın həbs olunmuş bir neçə funksionerini Türkiyə tərəfinə təhvil vermişdir.

Türkiyə İranla öz ciddi qayğılarını, kəskin əlaqələrini təsdiq edir, dinc cəmiyyətlə Tehranı MAQATE ilə öz əlaqələrinin maksimum şəffaf olmasına çağırır. Ankara qonşuluqda daha bir böhran arzu etmir. İraq oxşarlığı, problemlərin güclə həlli qərarınm əksinə çıxış edir. Buna görə də Tehrana "altılıq" ölkələrinin tələblərinə cavab olaraq təcili pozitiv addımlar atmağı məsləhət görür. Ancaq bundan sonra Türkiyə İran-Amerika arasında öz vasitəçiliyinə baxa bilər. Ankara İranın nüvə enerjisindən dinc məqsədlər üçün istifadəsini dəstəkləyir. Əgər Tehran cəmiyyəti buna inandıra bilərsə Türkiyə tərəfi İran nüvə proqramı problemi ilə bağlı BMT TŞ-nın qərarına qoşulacaq.

Suriya ilə əlaqələrin intensivliyinin artması regionda yeni çətinliklər yaradır. Bu gün ölkə terrorizm əleyhinə mübarizədə PKK əleyhinə fəaliyyətdə əməkdaşlıq edir. Məlumdur ki, əvvəllər Suriya üsyançıları dəstəkləyirdi. İki ölkə arasında kürd məsələsinə münasibətdə problemli xarakter Suriyaya müstəqillik əldə etdiyi vaxtdan mövcuddur. Amma Suriya dərk edirdi ki, SƏR çətin ki, Türkiyənin qarşısında uzun müddət uğurla dayana bilər. İlk addımı Suriya atdı. PKK ilə ayrılma və onların Suriyadakı Livanda Dəməşq tərəfindən idarə olunan nümayəndəliklərinin 1998-ci ilin oktyabr ayında ləğvi Suriya-Türkiyə əlaqələrində əsas əngəlləri aradan qaldırdı. 1998-ci ilin sentyabrında Adana sərhədində Türk və Suriya generalları A.Ataş və A.Bədr Həsən müqavilə imzaladılar. Suriya PKK-ya dəstəyindən imtina edir və onun lideri A.Öcalanı öz ərazisindən çıxaracağına razı olduğunu bildirir.

Suriya həm də, ölkədə başqa təşkilatın üzvlərinin yerləşməsinə icazə vermir, PKK-nın düşərgəsini bağlayır, təşkilatın bir neçə üzvünü həbs edirdi. Türkiyə ilə münasibətlərdə problemləri qaydaya salmaqla Suriya yavaş-yavaş regional siyasətdə də yer tutmağa başladı. Bundan başqa Suriya oxşar tələbatı hiss edir və özünün böyük, təminatlı və qocalmaqda olan ordusunu da modernləşdirməyə cəhd edirdi. Bu isə o demək idi ki, gələcək perspektivdə Suriyanın silah tədarükü üçün cəlbedici bazara çevriləcək.

Türkiyə, Suriya və İranın yaxınlaşmasına mane olan səbəb o idi ki, bu ölkələr ABŞ-la münasibətlərdə müxtəlif mövqe tuturdular. Suriya və İran ABŞ-ın siyahısında "terrora dəstək verən dövlət" və Vaşinqtonla problemli əlaqələri olan dövlətlər hesab edilirdi, belə ki, onlar regionda radikal Fələstin və İslam təşkilatlarına dəstək verirdi. Suriya və İrandan fərqli olaraq Türkiyə ABŞ-la uzun illər əməkdaşlıq etmiş, onunla yaxın əlaqədə olaraq onu dəstəkləmişdi. Suriya və İrana görə İsraildə olan dövlətlər yaxın Şərqdə regional təhlükəsizliyə təhlükə yaradır. Onlardan fərqli olaraq İsraillə Türkiyənin başqa əlaqələri var. Bu gün dövlətlər arasında qonşuluq münasibətləri qaydaya salınıb.

**ƏDƏBİYYAT:**

1. Ахундов И.А. Неоколониализм и Турция, Б., 1990.
2. Бжезинский З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы, М., 2005.
3. Гурьев А.А., Региональный аспект национальной безопасности Турции, М., 2006.
4. Родионов А.А., "У истоков стратегического союза США и Турецкой Республики, С.-П., 2004.

## 9.5. Müasir şəraitdə Səudiyyə Ərəbistanı-ABŞ münasibətlər

2001-ci il 11 sentyabr hadisələrindən sonra ərəb ölkələrinin xarici siyasət fəaliyyətinin istiqaməti və xarakteri beynəlxalq terrorizmə qarşı mübarizə ilə sıx bağlıdır. Səudiyyə Ərəbistanı tərəfindən regionda Amerika Birləşmiş Ştatlarının regionda strateji məqsədlərinin həyata keçirilməsində Səudiyyə Ərəbistanının rolunun qarşısını almaq üçün həyata keçirilmiş addımlar, eyni zamanda, ərəb ölkələrində ABŞ-a qarşı düşmənçilik hisslərinin güclənməsinə təsir göstərmək, İran və İraqa qarşı siyasətin reallaşdırılması istiqamətində atılan addımlar münasibətlərdə yaxınlıq yaratdı. Bu əməkdaşlıq çərçivəsində Səudiyyə silahlı qüvvələrinin formalaşdırılmasında ABŞ-ın yaxın iştirakı, ABŞ tərəfindən xaricdən silahların idxalını nəzərdə tutan müqavilələrin imzalanması münasibətləri müttəfiqlik səviyyəsi kimi xarakterizə etməyə imkan verir. Bununla yanaşı, Səudiyyə Ərəbistanı kapitalının ABŞ iqtisadiyyatına qoyulması amerikan iqtisadiyyatının gücləndirilməsində həlledici rol oynamaqda davam edir. Səudiyyə Ərəbistanının min nəfər vətəndaşının ABŞ-da təhsil alması bu münasibətlərin əsas hissəsini təşkil edir. Səudiyyə Ərəbistanının bu münasibətlərdən əldə etdiyi ən böyük üstünlük onun Ağ Evə birbaşa çıxış əldə etməsidir. Eyni zamanda, Səudiyyə Ərəbistanının ABŞ-la xüsusi münasibətləri Ər-Riyadın ərəb ölkələri arasında rolunun güclənməsinə təsir göstərmişdir.

İran tərəfindən 1991-ci ildə Küveytin işğalı ona gətirib çıxardı ki, Səudiyyə Ərəbistanının xarici siyasəti üçün əsas məsələ ABŞ-la münasibətlər oldu. Bu dövrdə İraq Prezidenti Səddam Hüseyn tərəfindən Səudiyyə Ərəbistanı əzarisinin üç yerə – Əl-Əhsa və Əlf-Taqifin daxil olduğu Şərq regionu, Hicazın daxil olduğu Qərb və Nədjarinin daxil olduğu Cənub regionunun İraqa, İordaniya və Yəmənə birləşdirilməsi haqqında ideyalar intensiv olaraq səslənməkdə idi.

Qeyd etmək vacibdir ki, İordaniyada, Hicazda hakimiyyətdə olan Haşimilərin ərazi iddiaları tarixi çox da qədim keçmişə söykənmir, bu ərazilər hələ XX əsrin 20-ci illərində bu sülalə tərəfindən idarə olunurdu. Bu iddialar keçən əsrin 50-ci illərində Haşimilərin İranda hakimiyyətdə olduqları ərəfədə irəli sürülürdü. Bəzi müşahidəçilər fikir yürütməyə başladılar ki, Səudiyyə Ərəbistanı hələ 1991-ci ildə İraqa qarşı tətbiq olunmuş "Səhrada tufan əməliyyatın"dan sonra ABŞ tərəfindən onlarm ərazi bütövlüyünə olan hədələri hiss etməyə başlamışdılar. Həm də qeyd edilir ki, bu dövrdə ölkədə mövcud olan müxalif qüvvələr tərəfindən ölkə ərazisinin 3 yerə bölünməsi barədə fikirlərin doğurduğu narahatlıq "Səhrada tufan" əməliyyatından sonra ABŞ hərbi qüvvələrinin ölkəni tərk etməsi barədə fikirlərin intensivləşməsinə gətirib çıxardı.

ABŞ hərbi qüvvələrinin Səudiyyə Ərəbistanında yerləşdirilməsi, onların Səudiyyə Ərəbistanı üçün əhəmiyyəti onun digər dövlətlərin hücumundan müdafiəsi üçün kifayət qədər vacib olması ilə izah olunur. Əfqanıstana qarşı hərbi əməliyyatlar zamanı Səudiyyə Ərəbistanının "Kral Fəhd" hərbi-hava bazasının istifadəsinə icazə verməkdə tərəddüd etməsi, bu ölkənin hakim dairələrində islamın yaranması və yayılması, qeyri-islam ölkələrinin İslam ölkələrinə qarşı müharibəsi zamanı bu ölkələri müdafiə etməyin qəbuledilməzliyi və bunun İslam ölkələri arasında onun nüfuzuna xələl gətirəcəyi haqqında fikirlər bir araya sığmır.

Məhz bu yanaşma fonunda Səudiyyə Ərəbistanmm rəsmi nümayəndələri diplomatik cəhətdən ABŞ silahlı qüvvələrinin ölkədə saxlanmasına qarşı narazı olduqları barədə fikirlər irəli sürdülər. Buna cavab olaraq, ABŞ Konqresinin bəzi üzvləri qeyd edirlər ki, bu bazalar ABŞ-dan daha çox Səudiyyə Ərəbistanının maraqlarına xidmət edir, səudiyyəlilər ABŞ hərbi bazasının ölkədə saxlanmasına razılıq verməklə ABŞ-a xidmət edəcəklərini fikirləşməklə yanılırlar. Amma yuxarıda qeyd edildiyi kimi, Amerika hərbi qüvvələrinin iştirakı Səudiyyə

Ərəbistanı Krallığının təhlükəsizliyi üçün təhlükə yaradır. Digər islam dövlətlərinə qarşı mümkün hərbi əməliyyatların həyata keçirilməsi üçün hərbi bazaların yerləşdirilməsinə icazə verilməsi haqda fikir Səudiyyə Ərəbistanı ərazisini və daxili sabitliyini islam radikalçıları, o cümlədən, "Əl-Qaidə" tərəfindən hücuma açıq edir. Səudiyyə Ərəbistanında ABŞ hərbi qüvvələrinin yerləşdirilməsi məsələsi ABŞ hakim dairələrində də birmənalı qiymətləndirilmir. Bəzi siyasi müşahidəçilər, o cümlədən, hərbçilər qeyd etmişlər ki, bu bazaların saxlanılması regionda narahatlığa səbəb olur, Səudiyyə Ərəbistanının mövqeyinin zəifləməsi nöqteyi-nəzərindən ABŞ üçün heç də asan olmayacaq.

Bununla yanaşı, ABŞ-ın terrorizmlə mübarizə və bu regionun silahlı qüvvələrinin dislokasiyası çərçivəsində irimiqyaslı əməliyyatların zəiflədilməsi üçün bu regionda bazalara malik olma iki dövlət arasındakı münasibətlərin xarakter və səmimiliyinin göstəricisi olmalıdır. Beləliklə, körfəzdə ilk müharibə zamanı ABŞ hərbi qüvvələrinin regionda yerləşdirilməsi region dövlətlərinin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı vacib idi. Bu dövrdə hakim dairələr belə hesab edirdilər ki, İraqa müdaxilə və Küveytin işğal edilməsi Səudiyyə Ərəbistanının təhlükəsizliyinə hədə kimi qiymətləndirilirdi. Amma İraqın darmadağın edilməsindən sonra BMT Təhlükəsizlik Şurasının ona qarşı yönəlmiş sanksiyalarından sonra ABŞ hərbi saxlanılmasının mühümlüyü məsələsi ətrafında mübahisələr meydana gəlməyə başladı. Bu hal regionda ABŞ-ın planlarının yalnız İraqda hərbi əməliyyatla məhdudlaşmayacağı və daha başqa dövlətləri əhatə edəcəyi barədə fikir və proqnozların yaranmasına səbəb oldu. Qeyd etmək vacibdir ki, Səudiyyə Ərəbistanının hakim dairələrinin və ekstremist islam qruplaşmalarının Səudiyyə Ərəbistanını günahlandırmasına əsas səbəb bu ölkədə ABŞ hərbi qüvvələrinin yerləşdirilməsi olmuşdur.

ABŞ və Səudiyyə Ərəbistanı münasibətlərində yaranmış və uzun illər strateji əməkdaşlıq kimi xarakterizə olunan

bu keyfiyyət dəyişiklikləri beynəlxalq münasibətlər və ABŞ prizmasmdan aşağıdakı kimi qiymətləndirilir:

1. Sovet İttifaqının süqutundan sonra Səudiyyə Ərəbistanının strateji və siyasi tərəfdaş kimi öz əhəmiyyətini qismən itirməsi. Bu faktor, ilk növbədə, ərəb ölkələrində milli, nasirçi və bəəzçi ideyaların yayılmasının qarşısının alınmasında Səudiyyə Ərəbistanmın Pakistanla əməkdaşlığının vurğulanması ilə yanaşı, Əfqanıstanda Sovet ordularma qarşı qarşıdurmanın təşkil edilməsi, Səudiyyə Ərəbistanının bu qarşıdurmada öz maraqlarına görə tərəddüd etməsi onun əhəmiyyətini kifayət qədər aşağı salmışdır;

2. Neftin Xəzər hövzəsi və Rusiyadan daşınması ilə alternativ yolun tapılınasından sonra Səudiyyə Ərəbistanmın iqtisadi əhəmiyyətinin aşağı düşməsi. 1980-ci illərin ortalarında ABŞ-ın məsləhəti ilə İranın iqtisadi nüfuzunun zəiflədilməsi məqsədilə neftin qiyməti aşağı salmmışdır.

3. Hərbi alternativlərin yaranması. Bu vəziyyət yalnız Ərəb körfəzində İsrailin mövcudluğu ilə deyil, eyni zamanda Bəhreyn, Küveyt, Qatar, Oman Sultanlığında amerikan hərbi baza və donanmasının yerləşdirilməsi ilə də bağlıdır.

ABŞ siyasətindən kənarda Krallığın böyük müvəffəqiyyətləri çətinlik doğurur. Xarici siyasətdə Amerikaya istiqamətlənmiş birtərəfli iqtisadi kurs kommunizmin süquta uğramasından sonra Səudiyyə Ərəbistanınm strateji əhəmiyyətini aşağı salmış, yalnız onun özünə aid olan problemlərin həllini məhdudlaşdırmışdı. Amerika-Səudiyyə Ərəbistanı maraqlarının ümumi dairəsi əsasən Pakistan ətrafında razılığın əldə edilməsi ilə bağlıdır. Bununla yanaşı, baxılan məsələlərə dair Səudiyyə Ərəbistanmm mövqeyinin yumşalmasına baxmayaraq, tam güzəştə nail olmaq imkansız görünür. ABŞ-ın müxtəlif idarələrinin Səudiyyə Ərəbistanı və İsraillə siyasi kompramisə nail olması cəhdlərinə baxmayaraq, bu prosesdə hiss ediləcək. Abdullanın irəli sürdüyü təşəbbüs İsrailə qarşı kompraınisin irəli sürülməsi istiqamətində diplomatik addım

kimi qəbul edilir və Fələstin məsələsi hesabına Amerika ilə münasibətlərin qaydaya salınmasını nəzərdə tutur. Həmin ərəfədə İraqa qarşı kompaniya Səudiyyə Ərəbistanının dövlət aparatında mövcud olacaq mümkün təzyiqlərin qarşısını almaq məqsədilə bu kompaniyanın mövcudluğunun davam etdirilməsi məqsədəuyğun hesab edilmişdir.

Soyuq müharibənin başa çatmasından sonra ABŞ-ın islam coğrafiyasına üstünlük verməsi fonunda ABŞ-ın strateji əhəmiyyət verdiyi terrorizmə qarşı, mübarizə hərbi kompaniyası çərçivəsində mənsubiyyət fonunda dövlətlərə qarşı hərbi əməliyyatlara qarşı mübarizə qarşısında Səudiyyə Ərəbistanı bu strategiyanın müdafiə edilməsində o qədər də geniş imkanlara malik deyil, həm də belə dəstək ərəb ölkələrinin narazılığını doğurmamaq məqsədilə səhnə arxasında həyata keçirilə bilər. Amma ABŞ-ın "kim bizimlə deyilsə, bizə qarşıdır" şüarı altında ultimatum formasında hər bir ərəb dövləti qarşısında onun terrorizmə qarşı mübarizədə hərbi kompaniyada iştirakına dair açıq mövqe nümayiş etdirmək tələbi Səudiyyə Ərəbistanını da öz mövqeyini aydın şəkildə ifadə etməyə vadar edir ki, bu da dövləti dilemma qarşısında qoyur. Bununla yanaşı, Səudiyyə Ərəbistanının özünün hədəfə alınanların siyahısında yerləşdirilməsi onun bu kompaniyada yerinin müəyyənləşdirilməsində bir sıra ziddiyyətli məqamları aşkara çıxarmışdır.

Ümumi sözlərlə desək, ABŞ Səudiyyə Ərəbistanını apardığı təlim və iqtisadi siyasət vasitəsilə terrorizmin genişləndirilməsində və ABŞ-ın tələb etdiyi siyasi rejimin tətbiq olunması üçün demokratiyanın olmaması üzündən terrorizmin inkişafına daha da dəstək olmaqda günahlandırmışdır. Bu da terrorizmin müəyyən edilməsi və onun qarşısının alınması məsələsində ABŞ və Səudiyyə Ərəbistanının mövqeyi arasında kəskin fərqin olduğunu bir daha aşkara çıxarır. Eyni zamanda, hadisələrin gedişinə belə yanaşma Səudiyyə Ərəbistanının özünə terror probleminin tərəflərindən biri kimi baxılmasının

nəticəsidir. Bu səbəbdən Səudiyyə Ərəbistanına düşmən dövlət kimi baxan bəzi amerikan strateqləri onunla münasibətlərə məhz bu nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bununla yanaşı, güman etmək olar ki, Səudiyyə Ərəbistanına qarşı belə qəfil münasibət ABŞ-ın Fars körfəzində tam yerləşməsindən sonra iqtisadi, hərbi və siyasi planda alternativ variantların seçilməsi imkanının olmasıdır.

İnsan hüquqları və siyasi islahatlarla əlaqədar ABŞ tərəfindən həyata keçirilən demokratik institutların təşkili, hökumətin təşkil edilməsində xalqın birbaşa iştirakının təmin edilməsi ABŞ-ın siyasi maraqlarına ziddir. Bu fikrin irəli sürülməsinə əsas səbəb odur ki, demokratikləşmə bu dövlətlərdə məntiqi olaraq mərkəzi hakimiyyətə islamçıların gəlməsi ideyasını daha da gücləndirəcək və İslamçı qüvvələrin hakimiyyətə gəlməsi ilə anti-amerikan və anti-İsrail meyilləri daha da artacaq. Bu ehtimal ABŞ-ı islam radikalçılarına qarşı mübarizə şüarı altında narazı rejimlərə qarşı repressiv addımların atılması təcrübəsinin genişlənməsinə gətirib çıxarır.

Yuxarıda sadalananlara əsasən 11 sentyabr 2001-ci ildən sonra Səudiyyə Ərəbistanını aşağıdakı kimi xarakterizə etmək olar:

Siyasi kurs xarici hədələrdən müdafiə xarakteri daşımağa başladı, ölkənin siyasi fəaliyyəti milli sərhədlərdən kənara çıxmamaqla "təhlükənin dəf edilməsi" prinsipindən çıxış etdi. Daha dəqiq desək, xarici siyasət ABŞ-a istiqamətlənmiş və xarici siyasi orientirlərin koordinasiya edilməsi cəhdi müşahidə olunmaqdadır. Bu hal Fələstin məsələsinin həllində daha aydın nəzərə çarpır, Səudiyyə Ərəbistanı sərbəst qərarlar qəbul edə bilər. Bu mövqe Səudiyyə Ərəbistanının Fələstin hökümətinin Fələstini müdafiə etməkdən, onun dəyərini azaltmaq və ona maliyyə yardımı etməkdən çəkinmək haqqında tələbi açıq aşkar görünür.

Səudiyyə Ərəbistanının Fələstin istiqamətində fəaliyyəti mülayim sayılan və ABŞ-ı dəstəkləyən cərəyanlara maddi

yardım göstərilməsi təşəbbüsündə aşkar ifadə olunur. Səudiyyə Ərəbistanının xarici siyasətində ölkə siyasətinin İraq və Əfqanıstana istiqamətlənməsi haqqında fikirlər baş qaldırmağa başlamışdır. Ölkə siyasəti təsdiq etməyə çalışır ki, krallıq siyasi cəhətdən ABŞ-a qarşı əks mövqedə deyil. Eyni zamanda, o, müstəqil siyasət yürütmək üçün sərbəstlik əldə etməyə çalışır. Səudiyyə Ərəbistanının bu taktiki addımlarının ABŞ-la münasibətlərdə yaranmış gərginliyi azaltmaq istiqamətinə yönəlməsinə baxmayaraq, o strateji tərəfdaşlara malik deyil. Qeyd etmək lazımdır ki, bu şərtlər Səudiyyə Ərəbistanının xarici siyasətində əminlik və dəqiqliyin yaranmasma gətirdi.

Bu siyasət mümkün qədər çox neytrallığa yönəlmişdir. Bu siyasətin mahiyyəti ondan ibarətdir ki, Səudiyyə Ərəbistanı onun xarici siyasətilə bağlı olmayan məsələlərlə az maraqlanır, eyni zamanda ölkə üçün əlavə problemlər yaradacaq məsələlərə qarışmamaq mövqeyindən çıxış edir. Hazırda Səudiyyə Ərəbistanı ilə ABŞ münasibətləri arasında qeyri-müəyyənlik müşahidə olunmaqdadır, sonuncu ilə ABŞ-dan gələcək hədələr fonunda iki dövlət arasında düşmənçiliyin yaranacağını və ya əvvəlki dostluq münasibətlərinin bərpa ediləcəyini söyləmək çox çətindir.

## ƏDƏBİYYAT:

1. Законодательная борьба с терроризмом в итальянском и египетском праве//Ас-сияаса ад-дау-лийя – Каир, 1993.
2. Отчет об арабском гуманитарном развитии. 2003 год, Программа развития ООН. Фонд Арабского Социального Развития, Иордания, 2003 год.
3. www.aljazeera.net/NR/exers/1A27D032-34FC-42E8-920F-8710D3BF01CD.htm.
4. www.aljazeera.net/NR/exers/4B94D3FE-F544-4CAB-94F4-41E412093073h
5. www.asharqalawsat.com

# X FƏSİL

# AMERİKA

## 10.1. XX əsrin əvvəllərində ABŞ-ın təhlükəsizlik sisteminin əsasları

1990-cı illərdə yeni yaranmış dünya düzənində ABŞ-ın rolu, onun milli maraqları və təhlükəsizliyi, məqsəd və xarici siyasət metodları ölkə daxilində geniş diskussiyalara səbəb olmuşdur. Bu debatlarda ABŞ-ın milli maraqlarına cavab verən bir neçə variantlar meydana gəlmişdir.

Yeni izolyasionalizm – yeni izolyasiya siyasətini müdafiə edənlər ABŞ-ın milli maraqlarınm, suverenliyinin qorunub saxlanılması, ərazi bütövlüyü və təhlükəsizliyi sferasmdan çıxış edirdilər. Yeni izolyasiya siyasətini müdafiə edənlərin fikrincə, ABŞ-ın bu maraqlarına müasir dünyada heç nə təhlükə törətmir. Ölkənin coğrafi mövqeyi, onun nüvə gücü, hərbi gücə malik real rəqibin olmaması və gələcəkdə də, ehtimal ki, yaranmamasını bildirərək onlar öz fikirlərini sübut etməyə çalışırdılar.

Məşhur izolyasionalizm nəzəriyyəçilərindən olan E.Nordinger hesab edir ki, ABŞ "strateji əlçatmazdır". Ona görə də, özünün xarici siyasətini və hərbi xərclərini minimuma endirməlidir. Sağ respublikaçı siyasətçilərin bəziləri isə ABŞ-ı xarici torpaqlarda müharibə aparmaqdan imtina etməyə çağırırdı. Konkret olaraq söhbət hərbi bloklarda iştirakdan imtina, başqa ölkələrə yardımların, həmçinin, hərbi xərclərin azaldılmasmdan gedirdi.

Başqa bir görkəmli neoizolyasionalist nəzəriyyəçi NATO-nu "soyuq müharibə"nin başlıca törədicisi hesab edir və Avropanın təhlükəsizliyinin avropahlara verilməsini təklif edir.

Xüsusi maraqların saxlanması – bu nəzəriyyə daha çox realizm məktəbindən qidalanır və ABŞ-ın xarici siyasət maraqlarına daha çox cavab verirdi. Onlar ABŞ maraqlarından çıxış edərək onun təhlükə ola biləcək kütləvi qırğın silahalarından müdafiəsinin təmin edilməsini, Avrasiyada hegemon dövlətə çevrilməsini, enerji ehtiyatlarına sərbəst daxil olmasını saxlamağı, dünya iqtisadi-ticari və maliyyə sisteminin stabilliyini qoruyub saxlamağı, həmçinin, ABŞ müttəfiqlərinin təhlükəsizliyinin qorunmasını, xüsusilə də Avrasiyanın aparıcı dövlətləri arasında bərabərliyi müdafiə edərək onlar arasında konfliktin yaranmasına şərait yaratmağı nəzərdə tuturdu. Bu nəzəriyyə ABŞ-ın hərbi gücünün (eyni zamanda, daha çox iqtisadi sahədə) onun üçün daha əhəmiyyətli regionlarda (Qərbi Avropa, Şərqi Asiya və İran körfəzi) saxlanmasını, kütləvi qırğın silahlarının yayılmasına mane olmağı (hansı ki, böyük dövlətlər buraya cəlb oluna bilər), ABŞ-ın iqtisadi və maliyyə təşkilatlarında rolunun artırılmasını müdafiə edirdi.

Bu nəzəriyyənin tərəfdarları demokratiyanın və insan hüquqlarının müdafiəsinin milli maraqlara uyğun gəlməsini müdafiə edir, amma ABŞ-ın bu məqsədlərə birbaşa müdaxiləsini qeyri-hüquqi hesab edirdilər. Bu nəzəriyyənin tərəfdarları (L.Meyns, R.Stil, C.Ceys) təklif edirlər ki, ABŞ, aparıcı regional güclər – Avropa İttifaqı, Qərbi və Mərkəzi Avropada, Rusiya postsovet ölkələrində, Yaponiya, Çin, Şərqi Asiya və ətrafında mərhələli regional təhlükəsizlik sistemini formalaşdırmaqla "soyuq müharibə" dövründəki qlobal hərbi-strateji öhdəliklərdən azad olmalıdır. Əgər bu sistem açıq, könüllü qalarsa və bir-biri ilə əməkdaşlıq edərsə, onda onlar ABŞ-ın başçılığı altında iyerarxiyalı dünya düzəninə real alternativ olmaq iqtidarındadırlar.

Razılaşdırılmış təhlükəsizlik – bu nəzəriyyə ABŞ-da liberal məktəbdən qidalanır. Kollektiv təhlükəsizlik ideyasına söykənir. Prioritet çoxtərəfli təhlükəsizlik sistemidir. Bununla yanaşı o, təhlükəsizliyə hədəni müəyyən etmək və ona qarşı mübarizə aparılmasını da irəli sürür.

ABŞ-ın milli maraqlarına cavab verən demokratik dəyərlər çərçivəsindəki qloballaşmaya dünyanın ilk dəfə olaraq həqiqi mənada bütövlüyünü qoruyub saxlayan amil kimi baxırdılar. ABŞ Dövlət Katibinin birinci müavininin sözləri ilə desək, "bütün asılı dünyada amerikalıların maraqları müxtəlif ölkələrdə demokratik proseslərin idarə olunmasında günbəgün artır".

Bu konsepsiya tərəfdarlarınm fikrincə, mövcud olan problemlər keçmiş məcburetmə vasitələri ilə yox, ya BMT, ya da digər regional təhlükəsizlik təşkilatları (məsələn, NATO) vasitəsilə, özü də ABŞ-ın başçılığı altında güclə həll olunmalıdır.

ABŞ-ın hökmranlığı – bu konsepsiya realist məktəbinə söykənir, amma hegemonluğun stabil cəmiyyətdə olmasına əsaslanır. Bu nəzəriyyəyə görə dünyanın optimal təhlükəsizliyinin əsasında çoxtərəfli dünya yox, birtərəfli dünya, qüvvələr nisbəti yox, onun bir hegemon dövlətin xeyrinə pozulması durur. Məşhur publisist Ç.Kraxammer hesab edir ki, ABŞ-ın yeganə hərbi, diplomatik və siyasi cəhətdən güclü dövlət olması istənilən regionda baş verən konfliktdə onun həlledici rolunu üzə çıxarır. ABŞ-ın hüququ və vəzifəsi öz gücünü birtərəfli dünyanı heç bir çətinlik çəkmədən idarə etməkdir.

Müasir dönəmdə ABŞ-ın "böyük strategiyası"nın əsas məqsədləri – ölkənin təhlükəsizlik və iqtisadi inkişafını, habelə dünyada demokratiyanın yayılmasım təmin etməkdir. Sonuncu təkcə ABŞ-ın prinsipləri deyil, həm də onun maraqlarına cavab verən amildir. Çünki demokratik rejimlər bir-biri ilə ümumi təhlükəyə qarşı daha dostcasına və ciddi əməkdaşlıq edir, azad ticarəti və azad iqtisadi inkişafı təmin edirlər. Belə rejimlərdə müharibələr və öz vətəndaşlarınm hüquqlarını pozmaq halları çox az olur. Ona görə də dünya bazarı elə ABŞ-ın maraqlarına cavab verir (bu, Yeni Yüzillikdə Milli Təhlükəsizlik Strategiyasında da əks olunub).

ABŞ-ın Milli Təhlükəsizliyi doktrinası dövlətin milli maraqlarını üç prinsipdə müəyyənləşdirir:

1. Həyati əhəmiyyətli maraqlar – (yaşamaq, təhlükəsizlik və həyati fəaliyyət; – buraya ABŞ ərazisinin, onun müttəfiqinin və Amerika vətəndaşlarınm təhlükəsizliyi, ölkənin iqtisadi çiçəklənməsi və onun əhəmiyyətli infrastrukturlarının qorunması aiddir) bu maraqların qorunması üçün hərbi qüvvələrdən istifadəyə icazə verilir.

2. Mühüm və əhəmiyyətli milli maraqlar – ABŞ-ın iqtisadi qazanclarına aiddir. Eyni zamanda, Amerika səhmlərinin qorunması (məsələn, Bosniyada sülhü müdafiə) buraya aiddir.

3. Humanitar və digər maraqlar – təbiətin qorunması, qaçqınlara yardım, beynəlxalq dövlətlərarası, daxili konfliktlərin və s. nizama salınması.

ABŞ-m təhlükəsizliyinə təhlükə, həmçinin, aşağıdakı səviyyələrdə müəyyən olunur:

– regional, yaxud dövlət səviyyəsində təhlükə (hazırda İran, Suriya, Şimali Koreya əsas təşkil edir);

– təhlükəli texnologiyanın, ilk növbədə atom texnologiyasınm yayılması;

– "özünü saxlaya bilməyən dövlətlər"dən gələn təhlükə

– ilk növbədə bu daxili konfliktlərə, humanitar böhran və digər regional qeyri-stabilliyə gətirib çıxara bilər.

Son illər ABŞ-ın xarici siyasət fəaliyyətində ölkədən xaricdəki dünya düzəni və onda ABŞ-ın rolu, təkqütblü dünyada öz gücünü artırmaq kimi nəzəriyyələr görünür. Burada yalnız müasir dövrdə ABŞ-m bu dünyada lider rolu yox, həm də sistem müəyyənləşdirmə funksiyası da öz əksini tapır.

2002-ci il yanvar aymın 29-da Konqresdə "ölkədəki vəziyyət haqqında" proqram xarakterli çıxışında prezident Corc Buş ABŞ-ın terrorizmə qarşı mübarizə hədəflərini açıqladı. Əfqanıstanda taliban rejiminin sarsıdılmasına baxmayaraq, Buş "terrorizmə qarşı müharibənin hələ yenicə başladığını, konkret olaraq Şimali Koreya, İran və İraqın beynəlxalq terrorizmi hərtərəfli müdafiə və himayə etdiyini, bu dövlətlərin dünyada sülh üçün təhlükə olduğunu" bəyan etdi. Corc Buş

bildirdi ki, "bu dövlətlər tərəfindən kütləvi qırğın silahlarının (KQS) əldə edilməsinə ABŞ yol verməyəcəkdir: o, bu cəhdlərə, onları reallaşdıran siyasi rejimlərə son qoyacaqdır". Dünya kütləvi informasiya vasitələri (KİV) tərəfindən bu bəyanat "Buş doktrinası" kimi qiymətləndirildi. Bu, mahiyyət etibarilə ABŞ-m terrorizm yuvası hesab etdiyi dövlətlərə qarşı birtərəfli qaydada güc tətbiqinə haqq qazandıran, bunun üçün hüquqi baza yarada biləcək bir sənəd idi.

Deməli, ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizə hədəfləri bəllidir və onların say tərkibinin Yəmən, Liviya, Sudan və s. dövlətlər hesabına genişləndirilə biləcəyi perspektivi də istisna olunmur. İlk hədəf Əfqanıstan seçildi, sonra isə İraq, daha doğrusu, bu ölkəni 1979-cu ildən idarə edən Səddam Hüseyn rejimi.

Əlbəttə ki, bütün bu məqsədləri reallaşdırmaq üçün potensialın olması vacibdir. ABŞ-ın isə belə potensialı var. Belə ki, ABŞ dünyanın yeganə fövqəldövləti olub, qlobal "qütb" funksiyasım yerinə yetirir. "Qütb qanunu"na görə, geoiqtisadi məkanda regional və ya qlobal "qütb" öz iqtisadi gücünə görə özündən sonra gələn subyektin iqtisadi potensialından minimum iki dəfə çox göstəriciyə malik olmalıdır. Bu mənada qlobal polyus olan ABŞ 8.3 trln. dollar Ümumi Daxili Məhsul (ÜDM) ilə özündən sonra gələn Yaponiyanı (ÜDM-4 trln.) iki dəfə qabaqlayır.

Digər regional qütblər, məsələn, Latm Amerikasında Braziliya (ÜDM-743 mlrd. dollar), Afrikada CAR (ÜDM-133 mlrd. dollar), Yaxın və Orta Şərqdə Türkiyə (ÜDM-186 mlrd. dollar), Şərqi Avropada Rusiya (333 mlrd. dollar), ümumiyyətlə, ABŞ-la müqayisəyə gəlmir. Yeri gəlmişkən, Qərbi Avropada real qütb yoxdur. Məsələn, Almaniyanm ÜDM-si 2.1 trln. dollar, Fransada isə 1.3 trln. dollardır.

Beynəlxalq münasibətlərin geosiyasi strukturunu "qütb" deyil, güc mərkəzi fonu müəyyənləşdirir. Qütblərin güc mərkəzinə çevrilməsi mütləq deyil, konkret şərtlərin ödəndiyi

səviyyədə reallaşa bilər. Başqa sözlə, "qütb"ün subyekti – dövlət, digər subyekt və subyektləri öz xarici və daxili siyasət maraqlarına tabe edəcək fəal xarici siyasət yeritməlidir. Bunun üçün subyekt qütbün xarici siyasət potensialı rəqib subyektin müvafiq göstəricisini 4 dəfə üstələməlidir. Bu nisbət "güc mərkəzi" qanununu müəyyənləşdirir. Xarici siyasət qütbün təyinatında ən mühüm göstərici ölkələrin müdafiə qabiliyyəti potensialı hesab olunur. Bu baxımdan, ABŞ lokal və regional deyil, məhz qlobal "güc mərkəzi"dir.

Buş Administrasiyasınm hərbi xərcləri 2005-ci ildə təxminən 400 mlrd. dollara çatdırılmışdır. 1998-ci ildə isə bu rəqəm 260 mlrd. dollar idi. Dünyanın ümumi hərbi xərcləri (1999-cu il göstəricisi) 808.5 mlrd. dollar təşkil edirdi ki, bunun da təxminən yarısı təkcə ABŞ-ın payına düşürdü. NATO-nun hərbi xərclərinin (462.2 mlrd. dollar) 2/3-ni ABŞ ödəyir. ABŞ-ın hərbi məqsədlər üçün ayırdığı məsrəflər on aparıcı dünya dövlətlərinin (Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, İspaniya, Cənubi Koreya, Yaponiya, Çin, Hindistan və Rusiya) ümumi müdafiə büdcəsindən artıqdır.

Bir çox mütəxəssislərin təsəvvüründə administrasiyanın hərbi siyasətinə əsas təkanı mürəkkəb silahların inkişafı və ballistik raketlərdən müdafiə sistemi təşkil edir. Bunlar faktiki olaraq Administrasiya planının əsas məqsədidir, ancaq ən vacib məqsədi deyil. ABŞ-ın əsas məqsədi Amerika dövlətinin layihəsində "güclərin" qalxmasıdır. Bu güclərin mahiyyəti ondan ibarətdir ki, ABŞ Avropanın təyin olunmuş əsaslarından silahlı münaqişə zonalarma qədər, sonra isə məğlub edilmiş müttəfiqin köməyinə qədər geniş siyasət aparmalıdır. Dövlətin layihələşmiş qüvvələrinə əsasən hava münaqişə vahidləri və təyyarələri müharibə zonasına daxil edilməlidir. Layihə qüvvələrinə bombardmançılar və hərbi dəniz platformaları – müharibə edən tərəflərin hərbi hava qüvvələri və sualtı dəniz qüvvələri daxildir. Bu qüvvələrin bütün növləri Buş Administrasiyasının hərbi planında əsas prioritet almışdır.

Buş Amerika hərbi siyasəti haqqında ilk çıxışında demişdir: "bizim qüvvələrimiz gələn yüzillikdə çevik, öldürən olmalıdır, bizim hərbi dəniz qüvvələrimiz ən uzaqda olan ıneneəni vura bilməlidir, bizim hava qüvvələrimiz dünyanın istənilən yerindən istənilən obyekti vura bilməlidir".

Tarix boyu müharibələr müxtəlif adlar altında aparılmışdır. Müharibənin birbaşa günahkarı olanlar isə xalqını inandırmağa çalışmışlar ki, onlarm apardığı müharibə ədalətlidir. Müharibənin xalq üçün ədalətli olmasını inandırmaqdan ötrü isə onlarda ədalətli müharibə ideologiyasını, düşüncə tərzini formalaşdırmaq lazımdır. Müasir dövrdə isə müharibə "terrorizmlə mübarizə" adı altında aparılır. Çünki günümüzün insanları ən əzizlərini terrorizm dalğalarının təsiri ilə itirirlər. Ona görə də onlar terrorizmə qarşı mübarizəni ədalətli hesab edib döyüşürlər. Amma terrorizm anlayışının özü də bütün xalqlar tərəfindən eyni cür qarşılanmır. Məsələn, Hizbullah təşkilatı İsrail üçün terrorçu qruplaşma olduğu halda, Fələstin ərəbləri üçün milli azadlıq hərəkatının başlıca hərəkətverici qüvvəsidir.

Terrorizmin başlıca daşıyıcıları isə islam fundamentalizmi hesab olunur. Ən azı Qərb mütəfəkkirləri, Qərb siyasətçiləri belə düşünür və yaxud belə düşünmək istəyir və bununla da ictimaiyyəti də buna inandırırlar. ABŞ Prezidenti Corc Buşa sual veriləndə ki, "nəyə görə islam fundamentalizminin ABŞ-ı görməyə gözü yoxdur?" O cavabında: "Onlar bizim azadlığımıza nifrət edirlər" – demişdi. Boston universitetinin professoru E.Basseviçə görə prezident Buş öz cavabı ilə "süni olaraq imperiya yaratmaq ideyasının üstündən keçmişdir". Terrorizmlə mübarizəni Corc Buş özünəməxsus referendum kimi ifadə etmişdir: "Dünya xalqları seçim etməlidir ya onlar Birləşmiş Ştatlarladırlar, ya da ki terroristlərlə".

İndiki fundamentalistlərə qədər qərbləşmə siyasətinə qarşı XX əsrin əvvəllərində yapon millətçiləri, ruslar, faşistlər mübarizə aparırdılar. Əgər Qərb bunun qarşısında öz birliyini qoruyub saxlayıbsa, onda radikal islamçıları da Qərbin əvvəlki

əleyhdarları kimi eyni tale gözləyir – məğlubiyyət və birləşmə. Tam məğlubiyyətə qədər çox güman ki, Qərbin vətəndaşı terroristlərin əlindən öləcək. Elə ona görə də Buş islamın məhvini daha cəzbedici alternativ yaratmaqla sürətləndirməlidir. Bu müharibə də ideologiyaya qarşı əvvəlki amerikan müharibələri kimi (tərəflərdən biri total qalib olmalıdır) mümkün qədər tez başa çatmalıdır. Prezident Vilsonun layiqli davamçıları kimi bu dünyanı həyat üçün daha yaxşı qurmalıdırlar ki, etirazlar yenidən yaranmasın. Necə ki Almaniya və Yaponiya ilə mübarizə olmuşdur. Bu əleyhdarların ən pis elementləri Qərb elementlərinə tabe olublar.

XX əsrin ikinci yarısından praktik olaraq Qərbin inkişaf ideyası Qərb sosial dəyərləri və Qərb postulatlarının rədd edilməsi ilə eyni vaxtda qəbul olunub. Səudiyyə Ərəbistanının nümayəndəsi bunu belə izah edir: "Qərb əmtəələri, sadəcə olaraq, insanları kor edir. Lakin sosial və siyasi institutlar daha az cəlbedici, sərhədlərin istehlakı isə məhvedici ola bilər (İran şahı kimi). İslam bizim üçün adi din yox, həyat tərzidir. Biz Səudiyyə Ərəbistanının da müasirləşməsinin tərəfdarıyıq, qərbləşmənin yox". 2020-ci ildə müsəlmanların sayı Yer kürəsi əhalisinin 30%-ni təşkil edəcəkdir. Qərbi Avropada artıq 13 mln. müsəlman yaşayır ki, bu da buraya istiqamətlənən emmiqrantların 2/3-ni təşkil edir.

Məlum olduğu kimi, VII əsrdən yaranan islam dini qısa müddətə Asiya və Afrikanın geniş hissəsinə yayılır. Müsəlmanların uzunmüddətli ağalığı Osmanlı imperiyasının yaranması ilə daha da möhkəmlənir. Lakin 1683-cü ildə türklər Vyana yaxınlığında məğlub olduqdan sonra zəifləyirlər. Beləliklə, Qərb zaman-zaman 300 ildən artıqdır ki, bu əraziyə soxulur. Osmanlı imperiyasınm dağılması ilə müsəlman dünyasına rəhbərlik yavaş-yavaş İstanbulun hakimiyyəti altından çıxıb, Böyük Britaniya və Fransanm hakimiyyəti altına keçdi. Digər tərəfdən, müsəlmanların demoqrafik artımı (1990-cı ildə dünya əhalisinin 12%-i, 2000-ci ildə isə 30%-i), müsəlman dünyasınm başlıca sərvəti olan neftin strateji əhəmiyyətinin artması

yavaş-yavaş əks prosesin yaranmasına gətirib çıxartdı. Belə ki, Əlcəzairdən Çin Türküstanına kimi əsl mənada müsəlman beynəlmiləlinin yaranmasına gətirib çıxartdı.

Müasir islam yeni "dini tələblər"lə çıxış edir. Milyard yarıma yaxın islam dünyası geniş ərazini – Mərakeşdən Qazaxıstana, İndoneziyadan Qafqaza qədər yayılıb. Artıq XXI əsrdə istənilən müsəlman ölkə başqa cür olub, yəni daha islami, daha radikal olmuşdur. Artıq qeyri-demokratik dəyərlər altında olan islam ölkələrində funksional islahatlar keçirilir, avtoritar rejimlər sıradan çıxır və yeni liberal-demokratik rejimlər yaranır. Amma bütün bunlarla yanaşı, islama hələ də terrora dəstək verən ideologiya kimi baxılmaqdadır. Bu, hər şeydən əvvəl 11 sentyabr hadisələrindən sonra daha da çox ideologiyalaşmağa başlamışdır.

Pakistanın eks-prezidenti Pərviz Müşərrəf buna belə qiymət verirdi: "11 sentyabr hadisələri sübut etdi ki, insanlar Bin Laden üçün ölməyə hazırdırlar. İnsanlar onun ardınca ona görə gedir ki, artıq yoxsulluğa, bədbəxtliyə və gücsüzlüyə dözə bilmirlər. Ben Laden öz tələbələrinə terrorizmə haqq qazandıran layihə verdi və bu layihəni həyata keçirmək üçün onlara maliyyələşdirdi. Paradoksalcasına, islamçıların əsas məqsədi din yox, siyasətdir. Nyu-Yorka və Vaşinqtona hücum edən terroristlər Allah adamı deyildilər".

ABŞ-ın strategiyası üçün təkcə Əfqanıstan və Tacikistanın destabilləşməsi deyil, Özbəkistanın, Pakistanın və İranın da destabilləşməsi lazımdır. Pakistanda iş yalnız başda olan hərbi çevrilişlə kifayətlənir. Özbəkistan Rusiyadan və Mərkəzi Asiyanın başqa dövlətlərindən hərtərəfli yardım ala bilər.

Bin Laden öz ideyalarının Mərkəzi Asiya ölkələrinin elitasına və xalqına təsir göstərəcəyinə inanırdı. Həm də çeçenlər vəhhabiçiliyə görə deyil, öz milli suverenliyi uğrunda mübarizə aparırlar.

Amerikalılar bunu bilirlər və özlərinə yenidən haqq qazandırmalıdırlar. Qazax, özbək, qırğız, türkmən və taciklərin

ruslarla birlikdə anti-talib cəbhəsində birləşməsi Rusiyanın təsirini postvovet ölkələri olan Orta Asiya respublikalarında artıracaq və bununla da Amerika Rusiyadan uzaq olmaq təhlükəsində qalacaq. Xəzər neftinə isə yolun bağlanması təhlükəsi yarana biləcək.

Əfqanıstandakı möhkəm olmayan tarazlıq isə Amerikaya imkan verir ki, gələcəkdə vəziyyətdən maksimum istifadə etməklə və onları Rusiya, Hindistan, Pakistan və İran əleyhinə istiqamətləndirsin. Bin Laden ABŞ-m onun "fəaliyyətinə" sakit tamaşa edəcəyini gözləyirdi. Lakin hadisələrin inkişafı göstərdi ki, 11 sentyabr hadisələri ABŞ-a azad fəaliyyət göstərmək üçün geniş imkanlar verdi. Bu imkanların "əsası" isə "terrorizmə qarşı mübarizə" olmuşdur. Əslində ABŞ çoxdan onun əlinə düşən imkanı - Yaxın Şərqdə həlledici rola malik olmaq, Rusiyanın burada onsuz da zəifləyən mövqeyini tamamilə heçə endirmək, Yaxın Şərq neftindən gələcək istismar üçün təminat yaratmaq imkanını dəyərləndirmək istəyirdi. Bunun üçün isə etibarlı dayaq nöqtəsi lazım idi. Əlbəttə ki, Əfqanıstan dayaq nöqtəsi kimi bu işə yarayırdı. Həm də Əfqamstanda möhkəmlənməklə, ABŞ İraqm blokadasım da möhkəmləndirmiş olurdu ki, bu da gələcək hərbi əməliyyatlar üçün çox əhəmiyyətli ola bilərdi.

1990-cı illərin ikinci yarısında göründü ki, Rusiya ilə münasibətlər əvvəlki kimi ikilidir. Yuqoslaviyanın dağılmasından sonrakı mübarizə məhz Rusiya əleyhinə yönəlmişdir. Ancaq birdən 2001-ci ildə ABŞ xarici siyasətində Rusiyaya qarşı münasibətdə dəyişikliklər baş verdi. Anti-rus imperativi birdən öz imperativ qüdrətini itirdi. Terroristlər bunu nəzərə almamışdı. Onlar 2000-ci ildə amerikalıların Rusiyanm yenidən doğulması perspektivlərini həddən artıq qiymətləndirməyini nəzərə almamışdılar. Rusiya böyük dövlət ola bilərdi, ancaq o, obyektiv səbəblərə görə böyük dövlət ola bilməyəcək.

Rusiyanın imperiya dövrü başa çatmışdır və yaxın gələcəkdə – Yəni XXI əsrdə bu proses baş tutmayacaqdır. Bu dövr XXII əsrin axırlarında ola bilər.

Amerika siyasətinin aparıcıları belə bir əsas nəticəyə gəldilər ki, Putin dövründə və ondan sonra Rusiya hərbi və siyasi qüvvə kimi zəifləyəcək, o, gəliri qeyri-rus bölgələrində vəziyyətin stabilləşməsinə və bütün sərhəd boyu bölgələrə sərf edəcəkdir.

## 10.2. Amerika Birləşmiş Ştatlarının müasir şəraitdə neft strategiyası

XX-XXI əsrlərin qovuşuğunda enerji problemləri yenidən böyük aktuallıq kəsb etməyə başladı. Dünyanın iqtisadi və geosiyasi sistemində baş verən köklü dəyişikliklər neft bazarına da təsirsiz qalmadı. "Günəş altında yer" uğrunda OPEK-ə üzv və üzv olmayan dövlətlər arasında rəqabət gücləndi. Nəticədə, dünya neft bazarında qeyri-stabillik artmış, xüsusilə də tələb və təklif, habelə qiymət qoyma sahələrində belə meyillər özünə möhkəm yer almış, neft çıxaran dövlətlər arasında rəqabət gözlənilmədən yaranmışdır. Rusiya gözlənilmədən özünün neft hasilatını gündə 1 mln. barel artırmış və bununla da dünyada neft hasilatını ən çox artıran dövlət olmuşdur. Dünya ölkələri neftə daha çox ehtiyac duymalarına baxmayaraq, Səudiyyə Ərəbistanı və onun OPEK-dəki digər müttəfiqləri neftin gündəlik ixracını 3.5 mln.barrel azaltdılar. 1 yanvar 2002-ci ildə qiymətlərin aşağı düşməməsi məqsədi ilə "opekçilər", Norveç, Meksika və Rusiya gündəlik hasilatı 1.5 mln.barrel də azaltdılar. Rusiya hasilatını simvolik rəqəmlərlə azaltmasına baxmayaraq, OPEK ölkələri Rusiyanın neft kartelləri arasına daxil olmağına imkan vermədilər.

Məlum olduğu kimi, dünyada ən çox enerji tələbatçısı ABŞ olduğuna görə neft ölkələrinə ciddi maraq göstərməlidir ki, neft resursları üzərində, ilk növbədə də müxtəlif regionlarda ixrac-idxal üzərində öz hegemonluğunu qoruyub saxlasın. Ən böyük neft tələbatçısı olan ABŞ həm də üç ən böyük neft çıxaran ölkələrdən biridir. Ən böyük neft istehsalçısı olan Səudiyyə Ərəbistanı gündə 11 mln. barrel, Rusiya 9 mln.barrel, ABŞ isə 7 mln. barrel neft çıxarır.

Dünya energetika inkişafının XXI əsrin ilk iki onilliyindəki ssenarisinə baxaq. Neft erası qlobal siyasi və iqtisadi qüvvə kimi XX əsrin 50-ci illərindən başlamışdır. 60-cı illər ucuz neft

dövrü kimi yadda qalmışdır. Nefti istifadə edənlər bu dövrdə onu aşağı qiymətlərlə çox yüksək miqdarda əldə etmişlər. Bu, onilliklərdə OPEK meydana gəlmiş və möhkəmlənmişdir. İstehsalçı və istehlakçı arasında gərgin qarşıdurma meydana gəlmişdir. 70-ci illər neft istehsal edən dövlətlərin bayramı idi. 1973-1974-cü illərdə neftin qiyməti 4 dəfə artmışdır.

1979-cu ildə baş vermiş daha bir böhran İran inqilabı olmuşdur. Bu, ilk fundamental inqilabdır. Bu, ərəblərin yox, farsların inqilabı idi. Onun nümunəsi Qərbdə də özünü göstərdi. 70-ci illərin əvvəllərində təxminən bütün ərəb ölkələri – İran, İraq, Əlcəzair, Liviya neftin satışından monopoliya gəliri əldə etdilər. Onlar neftin qiymətini də öz nəzarətlərində saxlayırdılar. Qərb birinci neft böhranı vəziyyətinə düşdü.

Bütünlüklə böhranın iqtisadi yox, siyasi aspektləri Qərb tərəfindən təhlükə kimi qəbul edilmişdir. O dövrdə ABŞ özünü əsasən öz nefti ilə təmin edirdi və neftdən Yaponiya, Fransa, İtaliya, AFR asılı vəziyyətə düşmüşdü. Bu, onun iqtisadiyyatını iflic vəziyyətinə sala bilərdi. Buna cavab olaraq Qərbin intervensiyası və Qərblə Sovet İttifaqının əks cəbhəliyi ola bilərdi ki, bu da aydın olmayan nəticələrə gətirib çıxara bilərdi.

Artıq 80-ci illərdə neftin qiyməti aşağı düşməyə başlayır. Onu qeyd etmək lazımdır ki, hələ 1973-cü ildə Qərb könüllü olaraq neftin qiymətini qaldırmağa razı idi.

1990-cı illərdə istehlakçı dövlətlərin hakimiyyətinin möhkəmlənməsi davam edir, qeyri-ərəb torpaqlarından neftin çıxarılması inkişaf edir, qazdan istifadə çoxalır.

SSRİ-nin dağılması istehlakçı dövlətlər üçün xoşagələn "sürpriz" oldu. Ərəb dünyası nüfuzlu hamisindən məhrum oldu və dünya bazarında Qərbin siyasi və hərbi hakimiyyəti bərqərar oldu.

Belə bir vəziyyəti təsəvvür edək: Əgər ərəb nefti çox və ucuz olmasa idi, onda dünya iqtisadiyyatı və siyasəti necə dəyişərdi? Neft yenə də dünya iqtisadiyyatının əsasını təşkil etmiş olar və energetikanın şahı kömür olardı, atom enerjisi ekoloqların

müqavimətinə rast gələrdi, qazdan istifadə 1,2 və ya 1,3 dəfə artar və nəhayət, yanacaq elementlərinin inqilabı XXI əsrin birinci ongünlüyünün axırında deyil, onun əvvəlində olardı.

Ucuz başa gələn ərəb nefti XX əsrin 50-90-cı illərində daxili prioritetlərdə dəyişikliklər etdi və İnkişaf Etmiş Ölkələri pis vəziyyətə saldı. 70-90-cı illərdə ərəb dövlətlərinin elmi-texniki inkişafı tempinə və dünya iqtisadiyyatına əsaslı təsir göstərmədi. Düzdür, o, dünya enerji bazarında, xüsusilə 70-80-ci ilərdə strateji yer tutdu və dünya siyasətinə təsir göstərə bildi. Ona görə də ərəb şeyxlərinin iqtisadi hakimiyyəti Birinci neft böhranından (1973-1974-cü illər) sonra kəskin azaldı. Bahalaşmış ərəb nefti dünyanın başqa regionlarından çıxarılan neft qədər baha oldu. Ərəb neftinin qiymətinin əsası olan əlavə gəlir yalnız birinci il əlavə gəlir olaraq qalırdı. Hələ məlum deyildi ki, növbəti illər üçün də belə qalacaqdı, yoxsa qalib dövlətlər tərəfindən alınacaqdı. Çox tez bir müddətdə o hakimiyyətlərin büdcə və kölgəli öhdəlikləri oldu. Bu öhdəliklər daxili və xarici elitalar və xalq qarşısında idi.

Ərəblərin 1970-ci illərdəki arzuları özünü aldatmaq demək idi. 90-cı illərdə xarici nəzarət öz yerini tapdı. 1997-98-ci illərdə neftin qiyməti iki dəfə azalmış və 60-cı illərin səviyyəsinə enmişdir.

90-cı illər neft bazarı alıcınm bazarı oldu və ərəb dünyası yenə də tamamilə Qərbdən asılı vəziyyətə düşdü. İnflyasiya baş verdi. Əgər 70-ci illərin ortalarında 150 mlrd. dollara 10 kompaniya almaq mümkün idisə, 1999-cu ildə həmin pula yalnız bir kompaniaya almaq mümkün idi.

2000-ci ildə neftin qiyməti yenə də artmışdı – 1 bareli 20-40 dollar idi. Qərb isə ideal qiyməti 15-30 dollar hesab edirdi. 70-ci illərin əvvəllərində 1 barrelin qiyməti 6-12 dollar idi.

Qiymətlərin artması (1 barel 25 dollardan 75 dollara qədər) neft və qazdan istifadənin azalmasına gətirib çıxarmır. Söhbət iqtisadiyyatın statistik kəsilməsindən və neftin əhəmiyyətinin əsas olmasından gedir. Bu, neft istehsalçılarmın xüsusi möv-

qeyini təyin edir. Əsasən də elələrinin ki, xərcləri başqa istehsalçılara nəzərən çox olsun. Bu da neft çıxaran dövlətlərin – Yaxın və Uzaq Şərqin, Şimali Afrikanın, İrandan başqa ərəb dünyasına daxil olan dövlətlərin xüsusi mövqeyini təmin edir.

Hələ 11 sentyabr hadisələrinə qədər Amerika Yaxın Şərqdəki maraqlarına təhlükə hiss etməyə başlamışdı. Dünya neft tələbatı gündə 1,5-2 mln. ton artırdı, bu, öz-özündə pis nəticələr haqqında narahatlıqlar yaradırdı. Amerikanın Energetika Naziri və Beynəlxalq Enerji Agentliyi yekdilliklə proqnozlaşdırmışlar ki, neftə olan tələbat 20 il ərzində 77-120 mln. ton artacaqdır. Energetika üzrə mütəxəssislər və Beynəlxalq Agentlik hesab edir ki, neftin istehsalı əsasən OPEK ölkələri tərəfindən artırılmalıdır. 1998-ci ildə hasilatı gündə 28 mln. barreldən 2020-ci ildə 60 mln. barrelə çatdırmalıdır. Faktiki olaraq neftin başlıca hasilatının artırılması Səudiyyə Ərəbistanı və Yaxın Şərqdəki digər ölkələrin üzərinə düşür.

ABŞ-ın neftə olan tələbatı hələ onun tarixində görünməmiş həcmdə artmışdır. ABŞ təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edən neftə tələbatın belə artmasını prezident Corc Buş "enerji böhranı" kimi qiymətləndirmişdir. Ona görə də Buş Milli Energetika Siyasətinin İnkişafı Qrupunu (MESİQ) yaratmışdı. Bu qrup ABŞ-ın yüksək səviyyəli dövlət rəsmilərindən ibarət idi və bu qrupa başçılıq etməkdən ötrü Buş özünün ən yaxın məsləhətçisi olan, "Halliburton Company"nin keçmiş icraçı direktoru, vitse-prezident Dik Çeynini rəhbər təyin etdi.

MESİQ tezliklə aşkar etdi ki, Birləşmiş Ştatlar energetikası iki yol qarşısında dayanmışdır:

1. Aşağıya doğru yol - bu yolla getməklə ABŞ tələb olunan neftin miqdarını artırır və bununla neftin daxili istehsalının azalması nəzərdə tutulur. Bu da Amerikanın hələ indiyə qədər olmayacağı miqyasda xarici neftdən asılılığına şərait yaradar. Əlbəttə ki, bu asılılıq ABŞ-ı daha çox İran körfəzi regionuna bağlayacaqdı.

2. Alternativ vasitələrin tapılması və ABŞ-ın neftdən asılılığının azaldılması nəzərdə tutulur. Bu yol Amerika ictimaiyyəti, iqtisadiyyatı və təhlükəsizliyi üçün ciddi nəticələrə gətirib çıxara bilər.

Milli Energetika Siyasətinin İnkişafı Qrupu bu seçki ilə hələ 2001-ci ilin əvvəlki aylarından mübarizə aparmağa başlamış və mayın əvvəlinə kimi bunu davam etmişdir. Ağ Evin ehtiyatlı yoxlamasından sonra MESİQ prezident Buş tərəfindən 17 may 2001-ci il tarixində buraxılmışdı. MESİQ Amerikanın neftə tələbatının azalmasını təklif etmir, bunun əvəzinə ABŞ-ın idxal olunan neftdən asılılığının inkişafının azaldılmasını təklif edir. Daxili istehsalın artırılmasının, istifadə olunmamış ehtiyatların istismarı vasitəsilə yerinə yetirilməsi nəzərdə tutulurdu. Neftin daxili istehsalının artırılması üçün atılan yeganə addım məlumdur. Bu, MESİQ tərəfindən təklif olunmuş "vəhşi təbiətin Arktik milli sığınacağıdır". Çox böyük olan Şimal-Şərqi Alyaskanın əl dəyməmiş ərazisindən neft istismarı nəzərdə tutulurdu. Bu təklif Birləşmiş Ştatlarda böyük narazılığa səbəb oldu. Çünki o, ətraf mühitə mənfi təsir göstərə bilərdi. Bu, Ağ evə imkan verirdi ki, Administrasiya özünü azad enerji siyasətinə həsr etdiyini söyləsin. "MESİQ-in Alyaska neftinin istismarı təklifindən, yəni Amerikanın idxal olunan neftdən asılığının azaldılması üçün öz neftinin həcmini artırmaqdan başqa təklifi yoxdur" - deyən Çeyninin faktiki olaraq əsas məqsədi Birləşmiş Ştatlara kənardan gələn neftin artırılması idi. Buna görə də sonda prezident Buş Amerika enerjisinin gələcək davranışına dair aydın qərar qəbul etmişdir. Ancaq onun etdiyi seçim idxal olunan neftdən asılılığın azalması deyil, Amerikanın neft məhsuluna tələbatının artmasına baxmayaraq, "aşağıya doğru yolu" davam etdirməkdir. Bu isə xarici neftdən asılılığın artması deməkdir.

Buşun enerjiyə dair planında təklif olunurdu ki, idxal olunan neftə azalan deyil, artan əminlik olmalıdır. Bu nə keçmiş prezident Buşun müsahibələrində, nə də Çeyninin məlumatlarının ilk yeddi

başlığında əks olunmur. Bu, sonuncu – səkkizinci başlıqdadır və "Qlobal İttifaqların güclənməsi" kimi adlandırılır. Bu da administrasiyanın siyasətinin əsl məqsədidir ki, buradan da idxal olunan neftdən asılılığın artması tamamilə əks olunmuşdur.

Çeyniyə görə ABŞ məmurları xaricdən gələn mallarla təmin olunmaq haqqında müqavilə bağlamaqla yanaşı, onlar əmin olmalıdırlar ki, bununla onlar həmin ölkələrdə nə müharibə, nə inqilab, nə də vətəndaş qayda pozuntusuna mane ola bilərlər.

Çeyninin enerji siyasətinin yerinə yetirilməsi Amerika siyasətinin təklükəsizliyini təmin edir ki, bu da hər hansı təhlükə hiss olunduqda Amerika hərbi qüvvələrindən azad şəkildə istifadə edilməsini nəzərdə tutur. Bu da ABŞ-ı uzun illər boyu neftlə təmin edən dövlətlərdə daxili konfliktlərin və ABŞ-a qarşı güclü mənfi hisslərin olması ilə bağlıdır. Bu da o deməkdir ki, ABŞ-ın xaricdən aldığı neftin həcmini artırması onu gələcəkdə bir çox toqquşmalara aparacaqdır.

Belə olduqda Amerika məmurları güc tətbiq etməmək məqsədilə həmin regionları – neft çıxan və neft kəmərləri keçən yerləri Amerika əsgərləri qorumalıdır. Amma ABŞ əsgərlərinin neft istehsal olunan regionlarda olması, yerli əhalinin narazılığına səbəb ola bilər. Onlar müstəmləkəçiliyin əmələ gəlməsindən qorxaraq öz narazılıqlarını bildirə bilərlər. Nəticədə Amerikaya neft idxalını qorumaq məqsədilə yerli qayda pozuntusunun azaldılmasına deyil, artmasına səbəb ola bilər. Bu da son halda hərbi qüvvələrdən istifadəyə və qanlı toqquşmalara gətirib çıxaracaqdır.

Birləşmiş Ştatlar onu neftlə təmin edən dövlətlərin daxili işlərinə qarışır və lokal, daim artan konfliktlərə müdaxilə edir. Bunlar da Amerikanın başqa millətlərlə münasibətinə təsir edir. Bəzi hallarda neft mənbələrinə yaxınlaşmaq üçün, hərbi güc tətbiq etməmək mümkün olmur. Bu məqsədlər onu göstərir ki, Amerika öz hərbi hakimiyyətini qalmaqallı zonalarda göstərməlidir, yəni, xarici neft mənbələrinin qorunmasını təmin etməli və onlara girişi əldə etməlidir.

ABŞ-ın iki aspektli strategiyası özünü göstərir və bu da Amerika siyasətini idarə edir. Bu strategiyanm bir məqsədi dünyanm mümkün olan hissələrindən böyük miqdarda neft əldə etməkdir. İkinci isə Amerikanın belə aktiv yerlərdə mövcud olması, iştirak etməsidir. Bu iki məqsəd müxtəlif problemlərin nəticəsidir ki, biri enerjinin idarə edilməsi, digəri isə təhlükəsizliyin təmin edilməsini əhatə edir və bunlar birlikdə Amerikanın dünyaya hakim olması üçün vahid layihədə birləşmişlər.

Dünyanın enerji xəritəsində əsl nüfuzlu subyekt OPEK-dir. 1960-cı ildə yaradılan OPEK (Organisation of the Petroleum Exporting Countries) təşkilatına İran, İraq, Küveyt, Səudiyyə Ərəbistanı, BƏƏ, Qətər, Qabon, Liviya, Venesuela, İndoneziya, Əlcəzair və Nigeriya daxildir.

Dünyada kəşf olunmuş neft ehtiyatlarının 77,6%-i məhz OPEK-ə məxsusdur. OPEK ölkələri içərisində isə Səudiyyə Ərəbistanı, İran və İraqın ümumi neft ehtiyatı 71 trln. barrelə və ya dünya neft ehtiyatınm 1/3-nə bərabərdir. OPEK daxilində və ümumiyyətlə, dünya neft bazarında həlledici amil Səudiyyə Ərəbistanına məxsusdur. Kəşf olunmuş dünya neft ehtiyatlarının 1/3-i məhz bu dövlətindir. Dünya neft bazarında qiymətlərin "elastikliyi"nin formalaşmasında Səudiyyə Ərəbistanının təsir imkanları genişdir.

OPEK ölkələrinin dünya neft bazarına, burada gedən proseslərə güclü təsir imkanları və mexanizmləri vardır. Lakin bu təşkilatın daxilində də ziddiyyətlər üçün münbit şərait mövcuddur. İran və İraq OPEK-in radikal qruplaşmalarına aid edilirlər (bu siyahıya Liviya və Əlcəzair də daxildir). Bu dövlətlər ənənəvi olaraq neftə daha yüksək qiymətlərin qoyulması iddiası ilə çıxış edirlər. İranın dünya neft bazarında davranışı çətin proqnozlaşdırılır. Çünki əsasən siyasi və ideoloji motivlərlə qaynaqlamr, başqa sözlə, Qərblə və qərbyönümlü ərəb dövlətləri ilə qarşıdurma ilə səciyyələnir. İran ildə 190 mln. tona yaxın neft hasil edir və dünyada 10 əsas neft hasilatçısı arasında

dördüncü yerdə durur (İraq ildə 128.1 mln. ton hasil edir və doqquzuncu yerdədir)

Deməli, OPEK ölkələrinin gələcək perspektivdə enerji bazarında xüsusi çəkisi qorunub saxlanılacaq. Lakin bu statusun qorunub saxlanılması alternativ enerji mənbələrinin, xüsusilə də, yeni zəngin neft-qaz mənbələrinin meydana gəlməsi nəticəsində xeyli dərəcədə mürəkkəb məsələyə çevriləcək. Zəngin neft-qaz potensialına malik olan Xəzər hövzəsi belə mərkəzlərdən biri ola bilər.

Amerikanın neft siyasətini dərk etmək üçün hər bir regionda, xüsusilə də, İran körfəzində onun maraqlarını araşdırmaq lazımdır. Bu regionlar arasında Xəzər hövzəsi, Afrikanın qərb sahilləri və Latın Amerikasının da mühüm rolu var.

Dünyada İran körfəzi kimi heç bir region ABŞ-ın məsləhətlərini rədd edərək ona qarşı o qədər problem yaratmır. Dünyanın bu hissəsində elə bir demokratik dövlət tapmaq çətin olar ki, onu müdafiə etmək olsun. Amma ABŞ və digər sənayesi inkişaf etmiş demokratik ölkələr regiondakı faktiki rejimlərin ağalığına yol verməməkdə maraqlıdırlar. Çünki onların məqsədləri Qərb dövlətlərinin məqsədləri ilə ziddiyyət təşkil edir. İnkişaf etmiş ölkələrin iqtisadiyyatı İran körfəzindən gətirilən enerjidən asılıdır və orada vəziyyətin gərginləşməsi onlar üçün mənfi nəticələrə səbəb ola bilər – Şimali Afrikadan Mərkəzi Asiya və Hindistana qədər əraziyə toxuna bilər. Lakin bu geosiyasi imperativlərlə belə bir şəraitin idarə edilməsinə Körfəzin iki böyük dövlətləri olan İran və İraq eyni zamanda ABŞ-a qarşı müharibə vəziyyətində olmaqla yanaşı, öz aralarında da düşmənçilik vəziyyətində olması daha asan təsir edir.

Rəqibin iki böyük dövlət olduqda, orada daimi hərbi bazalar və inanılmış müttəfiqlər olmadıqda, bu zonada stabilliyi necə əldə etmək olar? – Ənənəvi diplomatiya bu iki dövlətdən biri ilə razılığa gəlməklə onlardan birini digərinə qarşı qoyardı. Bu gün bu şərtlər yazılarkən bu variantlardan heç birinin

lazımi qədər perspektivinin olmaması özünü göstərir. Nə qədər ki Səddam Hüseyn İraqda hakimiyyətdə idi, Bağdadla istənilən yaxınlaşma bu regionda və bütün dünyada ABŞ-ın tam məğlubiyyəti və onun nüfuzunun aşağı düşməsi kimi baxılardı. İranla münasibətlərin yaxşılaşdırılması isə prinsipcə arzuolunandır. Amma bu, Tehranda daxili qarşıdurmaya səbəb ola bilər. Burada dini liderin tərəfdarları şüurlu olaraq öz siyasətlərini uçuruma gətirib çıxardır.

Bu gün elə müttəfiqlərlə münasibəti möhkəmləndirmək lazımdır ki, onların dəstəyi həlledici olsun. Bunlardan ən əsası Türkiyədir. O, İraq, İran və münaqişələr ocağı olan Qafqazla sərhəd olduğu üçün onunla əlaqə ən ağır şəraitdə həlledicidir. Son illərdə ABŞ-da və daha çox Avropada Türkiyəni elə müttəfiq kimi qəbul edirlər ki, ondan öz problemlərinin həllində istifadə etsinlər, bunun üçün də milli türk qüruru və bu dövlətin mövcud şəraiti nəzərə alınmır. Sənayesi inkişaf etmiş dövlətlər, əsasən Avropa və ABŞ yadda saxlamalıdırlar ki, onların milli təhlükəsizliklərinin həlledici fundamental elementləri ortaya qoyulmuşdur. Ona görə də bu dövlətlərin Türkiyənin daxili problemlərinə olan münasibətləri ciddi olaraq müəyyənləşməlidir.

Bu baxımdan Səudiyyə Ərəbistanı və digər körfəz dövlətləri ilə münasibətləri müəyyənləşdirmək lazımdır. Bu dövlətlərin regionun digər iki nəhəng dövlətilə müqayisədə zəifliyi onları ehtiyatlı olmağa məcbur edir ki, bu isə onların rəsmi təkliflərində ayrılıq doğurur və ümid edirlər ki, təhlükəsizliklərini ABŞ təmin edəcək. ABŞ bu dövlətlərin mövqeyinin dəqiq olmamasını nəzərə alaraq vəziyyətin mürəkkəbləşməsinə yol verməməyə çalışır.

İran körfəzindən Birləşmiş Ştatlara daxil olan neftin 18% olmasına baxmayaraq, ABŞ-ın körfəzin enerjisinə olan marağı böyükdür. Çünki onun əsas müttəfiqləri olan Yaponiya və Qərbi Avropa dövlətləri bu bölgədən idxala ümid edirlər və ona görə də Körfəzin çox böyük olan ixrac həcmi dünya neftinin

qiymətini aşağı səviyyədə saxlamağa imkan verir. Bu isə neftdən asılı olan Amerika iqtisadiyyatına böyük xeyir gətirir. Daxili istehsalın belə azalması nəticəsində ABŞ nə vaxtsa körfəzin neftindən daha da asılı olacaqdır. Ona görə də Milli Energetika Siyasətinin İnkişafı Qrupu qeyd edir ki, İran körfəzi həmişə Amerika üçün həyati əhəmiyyət kəsb etməkdədir.

İran körfəzindən gələn neftin qorunmasına dair ABŞ siyasəti birmənalıdır: təhlükə yaranarsa, Birləşmiş Ştatlar istənilən vasitələrdən istifadə edəcəkdir. Burada hərbi vasitələrdən istifadə olunması da istisna edilmir. Bu fikir açıq şəkildə əvvəlcə prezident Cimmi Karter tərəfindən 1980-cı ildə söylənmişdir.

Güc tətbiq etməyin labüdlüyünü Amerika məmurları İran körfəzi neftinin Amerika iqtisadiyyatınm stabilliyi və çiçəklənməsi üçün gərəkli olmağı ilə izah edirlər. Amma regionda ABŞ-ın mövqelərinə cavab verən dövlətlər də var ki, bunlardan da ən əsası və həlledici mövqeyə malik olanı Səudiyyə Ərəbistamdır.

Geniş neft ehtiyatına sahib olmaqla Səudiyyə Ərəbistanı unikal neft siyasəti yürüdür – neft ixracından olan gəlirini maksimum səviyyəyə çatdırmaq. Səudiyyə Ərəbistanının istehsalına olan tələbatın artması xüsusilə əhəmiyyətlidir. Dünyanın neft ehtiyatımn böyük hissəsinə sahib olan Səudiyyə Ərəbistanı dünyada yeganə dövlətdir ki, (İraqdan başqa) Amerikanın ümumxalq maraqlarının artmasım daim təmin edir. Amerikalı mütəxəssislər hesab edirlər ki, Səudiyyə Ərəbistanı neftin istehsalım qarşıdakı 25 il ərzində 133%-ə qədər artırmalıdır. Onlar hesab edirlər ki, bu artıma çatmağın ən yaxşı üsulu ondan ibarətdir ki, Səudiyyə Ərəbistanını əmin etmək lazımdır ki, Amerika neft şirkətlərinin investisiyaları üçün neft sektorunu açsınlar. Elə Çeynin məlumatı da buna çağırır. Vaşinqtonun Ər-Riyada istənilən təzyiqi kral ailəsi tərəfindən müqavimətlə qarşılaşa bilər. Onlar qiymətlərin də Amerika tərəfindən təklif olunmasından qorxurlar.

Səudiyyə Ərəbistanmın başlıca məqsədi neft dünyasmda iqtisadi ağalığı mümkün qədər çox saxlamaqdır. Ona görə də

Səudiyyə Ərəbistanı həmişə çalışmışdır ki, özünün iqtisadiyyatını sənayeləşdirsin, neftdən asılılığını azaltsın.

Səudiyyə Ərəbistanının neft strategiyası üç istiqamətdə reallaşır:

1. Krallıq və OPEK ölkələri ilə;
2. Ər-Riyadın OPEK-in üzvü olmayan neft ölkələri ilə – Meksika, Norveç və son dövrlərə kimi Rusiya ilə;
3. Böyük neft alan ölkələrlə – Şimali Amerika, Avropa və Şərqi Asiya dövlətləri ilə.

Səudiyyə Ərəbistanının neft sektorundakı böyüklüyü onun unikal və mühüm rolunu – neftin qiymətinin müəyyən olunmasında siyasətini müəyyənləşdirir. Ər-Riyadın başlıca siyasəti neftdən gələn gəlirləri maksimallaşdırmaq və ehtiyatları maksimal səviyyədə saxlamaqdır. Amma qiymət o qədər də yüksək olmamalıdır ki, alıcıları itirmək və rəqiblərinə imkan vermək təhlükəsi yaransın. Buna baxmayaraq qiymətlər çox da aşağı olmamalıdır. Çünki Səudiyyə Ərəbistanı özünün başlıca gəlir mənbəyindəki azalmanın səbəbkarı ola bilər. Bu dövlət üçün əsas qiymətləri ona lazım olan formada saxlamaqdır. Amma qiymətlərin minimal səviyyəyə enməsinə yol verməmək üçün Səudiyyə Ərəbistanı OPEK ölkələri, hətta hərdən təşkilatın üzvü olmayan dövlətlərlə də əməkdaşlıq etməlidir.

Səudiyyə Ərəbistanının daha bir gücü onun enerji ekvivalenti olan nüvə silahının olmasıdır ki, onu, liderliyinə, yaxud da ki milli maraqlarına təhlükə törədən qüvvələrdən qoruya bilər. Bu da ABŞ-la Səudiyyə Ərəbistanı arasındakı güclü əməkdaşlıq nəticəsində yarana bilər. ABŞ özünün neft siyasətini güclü Səudiyyə Ərəbistanının ətrafında qurub. İki dövlət arasında müqavilə o vaxta qədər qalacaqdır ki, ABŞ Ər-Riyadın onu aldatmasına şahid olmasın.

Vaşinqtonla Ər-Riyad arasında mövcud əlaqələr kənardan göründüyündən daha mürəkkəbdir. Çünki onlar arasında mövcud olan müqavilələrin əsasında hər ikisi üçün mənfəətli maraqlar durur. 11 sentyabr 2001-ci il terror aktı Səudiyyə

Ərəbistanı və ABŞ arasında münasibətlərin gərginləşməsinə səbəb oldu. Bu da terror aktında Səudiyyə Ərəbistanı vətəndaşlarının iştirakı və hər iki tərəfin mövcud olan informasiyaların gizlədilməsində bir-birlərinə qarşı olan etimadsızlığın yaranmasında özünü göstərirdi.

Vaşinqton tərəfindən müəyyən edilmiş oyunun qaydasma görə Səudiyyə Ərəbistanının dünya neft bazarında, xüsusilə də, neftin qiymətinin müəyyən edilməsində böyük rolu olduğunu etiraf edir. Səudiyyə Ərəbistanı da öz növbəsində Ağ Ev tərəfindən ona verilmiş imkanları məharətlə yerinə yetirir. Krallıq ABŞ-a neft satıcıları arasmda özü üçün mühüm yer təmin etmişdir. Bu gün Səudiyyə Ərəbistanından çıxarılan neftin 1,7 mln.bareli ABŞ-a satılır ki, bu da dünyada bir ölkəyə satılan ən böyük göstəricidir.

Krallıq uzun müddət Amerikaya neft satan ölkələr arasında mövqeyini möhkəmləndirərək onun ABŞ üçün nə qədər əhəmiyyətli olduğunu sübut etməyə çalışmışdır və indi də çalışır. Səudiyyə Ərəbistanı ABŞ-a özünün strateji əhəmiyyətini göstərməklə dünya "neft quyusuna" olan hər hansı təhlükədən özünü sığortalamış olur. Bu da Ər-Riyada özünün yalnız neft ehtiyatlarını və dövlətin təhlükəsizliyini deyil, həm də krala maneəsiz xarici siyasət aparmağa imkan verir.

Səudiyyə Ərəbistanının dövlət neft şirkəti olan "Saudi Aramko" ABŞ-a nefti Avropa və Şərqi Asiyadan ucuz satır. Yəni 1 barel nefti bir dollar ucuz satır ki, bu da bir ildə 260 mln. dollar edir. Buna təşəkkür əlaməti olaraq ABŞ özünün hərbi qüvvələrini Səudiyyə Ərəbistanında yerləşdirir ki, bu da ucuz məmnuniyyət hesab olunur.

Yaxın gələcəkdə Asiya neftinə tələbatın artmasına baxmayaraq, heç bir dövlət bu rəqabətdə ABŞ-a çata bilməyəcək. Son on ildə ABŞ-ın neftə olan tələbatı dünya neft bazarında Çin və Yaponiya istisna olmaqla, istənilən dövlətin tələbatından çox olmuşdur. ABŞ-ın neft idxalına olan tələbatının artması sayəsində dünyada satılan neftin ümumi miqdarı üç dəfə,

OPEK-in 1990-cı illər boyu neft ixracatı isə iki dəfə artmışdır. Bu fakt ABŞ-ın dünya neft bazarında alıcı olması ilə onun formalaşmasındakı rolunun nə qədər böyük olduğunu göstərir.

İraq 1979-cu ilə qədər ABŞ-ın Yaxın Şərqdəki başlıca güvənilən dövlətlərindən idi. Hətta İraqdan SSRİ-nin güclü təsir gücü olan qonşu ərəb dövlətlərinə qarşı qüvvə kimi də istifadə olunurdu. Amma Səddam Hüseyn İraqda hakimiyyətə gəldikdən sonra vəziyyət dəyişdi. İraq artıq SSRİ-dən kifayət qədər yardım alırdı və öz hərbi qüvvələrini gücləndirməyə çalışırdı. Hətta vəziyyət o yerə çatmışdı ki, İran-İraq müharibəsində ABŞ tarixinin ən dəhşətli hadisəsi, yəni gizli olaraq ABŞ-ın düşməni olan və ABŞ Konqresinin dili ilə desək terrorizmə dəstək verən İrana silah satılmışdı.

Lakin hadisələrin kuliminasiya nöqtəsi 1990-cı ilin avqustundan başladı. Yəni Küveyti işğal edən İraqa qarşı ABŞ total kompaniyaya başladı və nəticədə İraqın zərərsizləşdirilməsi əməliyyatı aparıldı ("Səhrada tufan" əməliyyatı) və Küveyt azad edildi.

11 sentyabr 1990-cı ildə Müdafiə Naziri Dik Çeyni İraqın Küveytə hücumundan 5 həftə sonra Senat komissiyasına bildirmişdir ki, Səudiyyə Ərəbistanı və bu regionun digər dövlətlərinin təhlükəsizliyi ABŞ üçün çox böyük əhəmiyyətə malikdir. İraq qüvvələrini Küveytdən çıxartmaq, Səddam rejimini zəiflətmək, Küveytə və Səudiyyə Ərəbistanına yeni hücumun qarşısını almaq məqsədilə ABŞ İraqa qarşı ciddi iqtisadi sanksiyalardan istifadə etdi.

Amma müharibədə qalib gəlməsinə baxmayaraq, ABŞ Səddam rejimini devirə bilmədi və bu məsələnin həlli, 2003-cü ilin martında oğul Buşa qismət oldu.

2002-ci ilin yazında Corc Buşun Administrasiyası belə qərara gəldi ki, ABŞ-m maraqlarına zidd olan Körfəzə dair təhlükəni aradan qaldırmaq üçün daha aqressiv fəaliyyət tələb olunur. Bunun üçün də İraqın kütləvi qırğın silahına sahib olması (KQS) əsas götürülürdü.

İraqda aparılan hərbi əməliyyatlardan əvvəl Amerika və Britaniya korporasiyaları bu dövlətlərin təbii sərvətlərini mənimsəməyə hazır idilər. Dünya neft nəhəngləri İraq neftinin emalı hüququ üçün yarışa girdilər. Amerikanın həftəlik qəzeti olan "Newsweek" proqnozlaşdırırdı ki, bu yarışm qalibləri 4 böyük Amerika və Britaniya korporasiyalarıdır. Bunlar Exxon Mobil, Chevron Texaco, Shell, British Petroleum (BP) dir. ABŞ və Böyük Britaniya tərəfindən İraq xammalınm nəzarətə götürülməsi dünya neft bazarında güclərin yerləşməsini dəyişəcəkdir. İraq neft bazarına Exxon Mobil, Chevron Texaco, Shell, BP-nin gəlməsini həftəlik qəzet olan "Newsweek" aşağıdakı iki faktla izah edirdi:

1. ABŞ və Böyük Britaniya qoşunlarının hərbi fəaliyyəti başlanarsa, gec-tez onlar Bağdada daxil olub, dövlətdəki vəziyyətə nəzarət edəcəklər. Ona görə də İraqın biznes şəriklərinin seçilməsinə ən birinci Vaşinqton və London təsir göstərəcək;

2. Yalnız bu kompaniyaların əvvəlki neftçıxarma səviyyəsini bərpa etmək və eyni zamanda, yeni neft yataqlarını mənimsəmək üçün lazım olan resursları var.

"Newsweek"-in məlumatlarına görə çoxmillətli neft korporasiyalarının nümayəndələri hərbi əməliyyatların başlanmasından əvvəl Corc Buş administrasiyası və İraq müxalifətinin rəhbərliyi ilə görüş keçiriblər. Burada Səddam Hüseyn rejiminin süqutundan sonra İraqın neft sənayesinə nəzarət məsələsi müzakirə olunurdu. İraqda öz mövqelərini və investisiyalarını müdafiə etmək məqsədilə Amerika və Britaniya neft kompaniyaları, yəqin ki, məhsulun bölünməsi haqqında razılığa gəliblər. Bu razılıq onlara neft yataqlarını araşdırmağa və vergilərdən azad olmağa təminat verəcəkdir.

Xarici mütəxəssislərin fikrincə, ABŞ-m və Böyük Britaniyanın İraq ətrafında siyasi fəaliyyəti dünya neft korporasiyalarının oyununu gizlədilməsidir. Ekspertlərin qiymətləndirməsinə görə İraq neft yataqlarında 300 mlrd. barrel neft var və dünya korporasiyaları səbirsizliklə neft buruqlarmdan çoxmiqyaslı

qazıntıları gözləyirlər. Britaniya qəzeti "İndependent" yazırdı: "Səddam Hüseyn nefti arxasınca qaçışın qızğın vaxtıdır və neft kompaniyaları finiş xəttinə çatmağa can atırlar".

İraqda hərbi əməliyyatlar aparmazdan əvvəl Rusiyanın 6 kompaniyası burada fəaliyyət göstərirdi. Rusiyadan sonra Fransa, onun ardınca isə iştirakçıların uzun siyahısı var. Burada Çinin, İndoneziyanın, Kanadanın, İrlandiyanın və Vyetnamın böyük və kiçik kompaniyalarının maraqları da vardır.

"Deutsch Bank"ın məlumatına görə (2002-ci ilin oktyabrında dərc olunub) 20-ə yaxın kompaniya (1998-ci ildə İraqla əlaqədə olan) öz maraqlarını Bağdad üzərindən sanksiya götürüldükdən sonra bildirəcəklər. Bəzi məlumatlara görə İraq Neft Nazirliyində 40 kompaniyanın olduğu bildirilir. Rusiyanın və Fransanın İraq əleyhinə aparılan hərbi əməliyyatlara qarşı etdiyi çıxışların məzmununu başa düşmək olur.

Dünya neft istehsalının 2/3 hissəsini nəzarətdə saxlayan 5 böyük neft korporasiyası içərisində 4 kompaniyanın Amerika "mənsubiyyəti" (Exxon Mobil və Chevron Texaco) və Britaniya "mənsubiyyəti" (BP və Amoko) var. Bu şirkətlər və Royal Dutch Shell-in (Niderland) əcdadları İraq neftinə XX əsrin 20-ci illərindən 1972-ci ilə qədər nəzarət edirdi.

Bu kompaniyaların İraqa marağı çox sadə izah olunur. İraq kəşf olunmuş neft yataqlarının həcminə görə dünyada ikinci yerdədir (112,5 mlrd. barel və ya 11%) və yalnız Səudiyyə Ərəbistanından geri qalır. Ekspertlərin rəyinə görə bu həcmlər daha dəqiq işlənsə, 300-400 mlrd. barrelə çatar. Planetimizin başqa regionlarında neft ehtiyaclarının sürətlə azalmasının hesabatı aparılsa, bu əsrin ortasında İraqın nefti dünya neft ehtiyatlarının 30%-ni təşkil edəcəkdir.

Buna İraq neftinin istehsalına xeyirli iqtisadi rentabelliyi də əlavə etmək lazım gəlir. İraqda hər barelə sərf olunan pulun miqdarı dünyada ən ucuz göstəricidir, yəni 1 barelə 1,5 dollar. Müqayisə etsək, Malayziyada və Omanda 5 dollar, Meksikada və Rusiyada 6-8 dollar, Şimal dənizində 12-16 dollar, ABŞ

və Kanadada 20 dollardır. Bunu nəzərə alsaq, İraqa neftdən gələn illik gəlir 30 mlrd. dollardır. Müqayisə üçün qeyd edək ki, 2001-ci ildə dünyada ən iri neft çıxaran 5 kompaniyanın gəliri 44 mlrd. dollar olmuşdur.

İraqın ehtiyatlarının xammalına nəzarət dünya neft bazarın da ABŞ və Böyük Britaniyanın xeyrinə əsaslı dəyişikliklər baş verəcək. Bu dəyişikliklər Rusiyanın, Fransanın, Almaniyanın və OPEK dövlətlərinin ziyanına olacaq, başqa sözlə desək, İraq əleyhinə aparılan müharibə ABŞ və Böyük Britaniyaya potensial xeyir gətirəcəyi üçün onlar asanlıqla öz militarist ideyalarından imtina etməyəcəklər.

İraqda Səddam Hüseyn rejimi 2003-cü il aprelin əvvəlində süqut etdi. Səddamın sadiq tərəfdarları tərəfindən neft buruqlarının kütləvi yandırılması təhlükəsinə baxmayaraq, onlara demək olar ki, heç bir xətər toxunmamışdı və onların işinə bir neçə andan sonra başlamaq olardı.

Amerika Prezidenti Corc Buşun Bağdad əleyhinə olan sanksiyanı tezliklə ləğv etmək arzusu hər dəfə ciddi maneə ilə rastlaşırdı ki, bu da İraqın "qara qızıl"ımn hüquqi cəhətdən kimə aid olması idi.

İsveçrəli bir biznesmenin fikrincə, "İraq neftini alanın və satanın hüquqi statusu olmasa, o risk etməyəcək. Onlar belə bir dəhşətli fikrə gəlirlər ki, gələcək hakimiyyət bağladıqları müqavilələrin doğru olmadığım söyləyib onları ləğv etdirə bilər. Bu çox böyük məbləğdir və risk etməyə dəyməz". Cenevrədən olan bu biznesmenin şübhələri onun iş yoldaşlarının da həmin vəziyyətdə olduğundan xəbər verir. Hələ müharibə başladıqda, ümumxalq vəkil idarələri neft kompaniyalarına və ticarətçilərə demokratik yolla seçilmiş hakimiyyəti gözləməyi məsləhət görürlər. Hələ ki İraqda hər şey tam aydın deyil. Bağdadda yeganə yerli hakimiyyət olan "qara qızıl"ın satılması üçün yaradılmış "Dövlət Marketinq Neft Təşkilatı" (SOMO) bütün dünyada kompetentlik qazanmışdır. Lakin bu təşkilatın fəaliyyətinə onun əvvəlki rejimlə əlaqədə olması mane olur.

İraq neftində əsas maraqlı tərəflər olan Rusiya, Çin və Fransa (Təhlükəsizlik Şurasının üzvləri) amerikalılara və ingilislərə güzəştə getməyə hazırlaşmırlar. Rusiyanın ən böyük neft çıxaran kompaniyası olan "Lukoyl" şirkəti elan etmişdir ki, "hüquqi cəhətdən bu bizim ehtiyatlarımızdır. Lazım gəldikdə biz Cenevrə Arbitraj Məhkəməsinə müraciət edəcəyik və bu da həmin ehtiyatların dondurulmasma gətirib çıxaracaq". Moskva çalışır ki, əvvəlki rejimlə bağlanmış müqavilələrin doğru olduğunu və onların öz hüququnu itirmədiyini söyləsin.

Başda "Lukoyl" şirkəti olmaqla rus şirkətləri Səddam Hüseyn rejimi ilə müqavilə bağlamışdır. Bu müqavilələri itirmək isə neft yataqlarının minimum 5 il müddətində bağlanmasına gətirib çıxara bilər.

Problemin kəskinliyini dərk edərək prezident Buşun Respublika Administrasiyası yeni hüquqi baza yaratmaq istədi. Bu məqsədlə onlar Amerika şirkətini demokratik yolla seçilmiş hakimiyyəti – "Exxon Mobil" həm də Texas və Kaliforniya şirkətlərini təmsil etmək istəyirlər. Müharibədən əvvəl onlar İraq neft bürosundan uzaqlaşdırılmışdı. Buş administrasiyasının əlində daha güclü silah – İraq "qara qızıl"ın çox böyük ehtiyatları gizlənmiş İraq dərinliklərinin geoloji xəritəsi vardır.

"Petroleum Consultants" gizli kompaniyasında İraq neft resursları haqqında böyük informasiya vardır. "Mond" fransız qəzetində Mark Roş fərz edir ki, bu kompaniya Britaniya qrupu tərəfindən alınmışdır və Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) ilə yaxındır. Sonra məlum oldu ki, Amerikanın dəniz piyadaları Neft Nazirliyinin "dosyesini" və arxivlərini aşkar etmişdir. Bu nazirlik Bağdadda dağıdılmayan yeganə binadır.

Amerika istəyirdi ki, müharibədən sonra İraq neft zənginliklərini heç kimlə bölüşməsin. Lakin neftin bölünməsi başa çatmayıb. Regionda müharibəyə qədər fəaliyyət göstərən xarici şirkətlər öz maraqlarmın təmin olunmasmı tələb edir. Həm də hələ İraqda vəziyyət tam olaraq amerikalıların nəzarətinə keçməyib. Ayrı-ayrı dəstələr şəklində fəaliyyət göstərən terrorçu

qruplar hələ də ABŞ üçün problemlər yaratmaqdadır. Hələ demək olmaz ki, ABŞ bu problemləri axıra kimi dəf edə biləcək, yoxsa yox. Ən azı İraqdakı hadisələr Buş Administrasiyasının planlaşdırdığı kimi getmir.

Əminliklə təsəvvür edə bilərik ki, İraq koalisiya qoşunları tərəfindən işğal olunduqdan sonra dünya iqtisadiyyatında yaxın illərdə kordinal dəyişikliklər olacaq. Buna neft bazarında əmələ gəlmiş yeni vəziyyət təsir edə bilər. Nəzərə alınsa ki, İraqın neft infrastrukturu cüzi miqdarda xəsarət almışdır, onda ABŞ-ın vitse-prezidenti Çeyninin verdiyi məlumata görə neftin çıxarılması müharibədən əvvəlki səviyyəyə çatacaq – sutkada 3 mln. barel. Bir neçə ildən sonra neftin çıxarılması sutkada 6 mln. barelə çata bilər və artıq ildə İraq nəzəri olaraq 9 mln. barrel neft istehsal edə bilər. Bu da İraqı Səudiyyə Ərəbistanı ilə eyni səviyyəyə çatdırar.

Birləşmiş Ştatların İran körfəzindəki neftdən uzun müddət asılı olmasına baxmayaraq, Amerika məmurları çalışırlar ki, bu asılılığı minimum səviyyəyə endirsinlər. Bunun üçün onlar import olunan enerjinin milli mənbələrini inkişaf etdirirlər. 17 may 2001-ci ildə Corc Buş demişdir: "müxtəliflik enerji təhlükəsizliyi üçün deyil, həm də milli təhlükəsizlik üçün önəmlidir. Enerjinin istənilən mənbəyindən, xüsusilə, xarici mənbədən asılılıq, bizi qiymət zərbələrinə qarşı həssas olmağa vadar edir. Bunun qaşısını almaq üçün Körfəzdən kənar istehsalı gücləndirmək lazımdır". Buraya Xəzər dənizi hövzəsi, Afrikanın qərb sahili və Latın Amerikası daxildir".

Bu regionlar içərisində Amerika məmurlarınm diqqətini ən çox cəlb edən Xəzər dənizi hövzəsidir. Ümumilikdə Xəzər dənizinin geosiyasi sahəsi Mərkəzi Asiyanı, Cənubi Rusiyanı, Şimali və Cənubi Qafqazı və Şimali İranı əhatə edir. Böyük geosiyasi areala malik olan Avrasiyanın "ürəyi" – Xəzər regionu, keçmişdə olduğu kimi, bu gün də Yaxın və Orta Şərqin tükənməz insan və təbii resurslara malik olan böyük quru ərazisini özünə cəlb edir. Məhz burada böyük fövqəl dövlətlərin – ABŞ və Rusiyanın geosiyasi maraqları toqquşur.

Bütün Xəzər regionunda nüfuz dairələrinin yenidən bölünməsi üçün çox ciddi geosiyasi mübarizə aparılmaqdadır, xeyirli geostrateji vəziyyətinə görə bu region mübarizənin mərkəzində durur. Regionun ən böyük dövləti isə Azərbaycandır. Azərbaycan həm də zəngin təbii sərvətlərlə, xüsusilə də, enerji ehtiyatları ilə zəngindir. Z.Bjezinskinin fikrincə, "məhdud ərazi miqyasına və əhalisinin sayca az olmasına baxmayaraq, Azərbaycan öz geniş enerji sərvətlərilə geosiyasi planda həlledici əhəmiyyət kəsb edir. Bu Xəzər dənizinin və Orta Asiyanm sərvətlərini özündə toplayan qabın tıxacına bənzəyir". Bununla belə Azərbaycan və onunla həmsərhəd olan Rusiya, İran, Türkiyə, Türkmənistan, Qazaxıstan, Gürcüstan və Ermənistan üçün ən kəskin problemlərdən biri əsasən Rusiya və Qərb transnasional şirkətləri tərəfindən hasil edilən Xəzər neftinin nəqli marşrutunun müəyyənləşdirilməsidir. Amerika alimi daha sonra qeyd edir: "Rusiyanın nəzarəti altında olmayan ərazilərdən keçən neft kəməri vasitəsilə Qərb bazarlarına yol tapan müstəqil Azərbaycan həm də Orta Asiyanın varlı enerji mənbələrinin keçəcəyi böyük magistral yolun mərkəzində durur". Z.Bjezinskinin fikrincə, bundan savayı Azərbaycanın geosiyasi əhəmiyyəti həm də ondadır ki, "Əgər Azərbaycan tamamilə Moskvanın nəzarəti altında olarsa, Orta Asiya dövlətlərinin müstəqilliyini faktiki olaraq mənasız anlam hesab etmək olar".

Rusiya hərbi elitasının nümayəndələri "Xəzər neftinin nəqli marşrutunun müəyyənləşdirilməsinin Rusiya üçün ən kəskin geosiyasi məsələlərdən biri olmasını" qeyd edərək, öz narahatlıqlarım gizlətmirlər ki, "bu məsələnin həllində də tədricən Xəzərin təbii sərvətləri üzərində transmilli nəzarət qurmaq istəyən ingilis və amerikan neft şirkətləri mühüm rol oynayacaqlar". Rusiyanın aparıcı geosiyasətçi alimlərindən olan A.Duqinin fikrincə, Xəzər dənizi və bütün Xəzər-Qara dəniz məkam üzərində nəzarət atlantizm və avrasiyaçılığın qlobal qarşıdurmasının strateji məsələsidir. Rusiyalı alim hesab

edir ki, Moskvanın məqsədi Moskva-Tehran oxunun yaradılmasıdır və bu da Rusiyaya "anakonda halqasını" kəsərək geostrateji məqsədinə nail olmağa imkan verir.

Bütün bunlarla yanaşı, ABŞ təhlükəsizliyinin mühüm atributlarından olan enerji təhlükəsizliyi sistemini yaratmaq da bu regionda aktiv fəaliyyətə qoşulur. Burada ehtimal olunan ehtiyatlar 233 mlrd. barrelə çatır. ABŞ Dövlət Katibinin Xəzər regionu üzrə xüsusi nümayəndəsi Stiven Menin verdiyi rəsmi məlumatda isə Xəzər neft ehtiyatları 4 mlrd. ton (25 mlrd. barrel) həcmində qiymətləndirilir və bu da dünya neft potensialının 4%-nə bərabərdir.

Əgər bu doğru olarsa, o istifadə olunmamış yataqların ölçüsünə görə İran körfəzindən sonra ikinci yeri tutar. Bu neftin böyük hissəsi Qərbə daxil olduğundan Amerika rəhbərliyi ərazinin neft infrastrukturunun inkişafmı və paylama sistemini ələ keçirmək üçün səylə cəhd göstərir.

ABŞ Xəzərin böyük neft təminatçılarına yolu Klinton Administrasiyası dövründə axtarırdı. Bu müddətə qədər (İrandan başqa) Xəzər dövlətləri Sovet İttifaqının bir hissəsi idi və beləliklə, bu enerji ehtiyatlarına gedən yol çox sıxılmışdı. Bu dövlətlər azad olan kimi Vaşinqton intensiv diplomatik kompaniyaya başlamışdır. Bu da yeni ixrac kəmərlərinin tikilməsinə kömək edir. Prezident Klinton özü Xəzər dövlətlərinin liderlərini tez-tez telefon vasitəsilə Ağ Evə dəvət edirdi. Klinton Administrasiyasının rəhbərlərinin məqsədi ondan ibarət idi ki, Xəzərdən Qərbin bazarlarına qədər yeni ixrac marşrutlarını təmin etsin.

Administrasiya neft kəmərinin Rusiyadan keçməsinə etiraz edirdi və Amerika qanunlarına görə bu marşrutun İrandan keçirilməsi də qadağan olunurdu. Buna görə də neftin Bakı və Tiflisdən keçərək Tükiyənin Ceyhan limanına ötürülməsi ən əlverişli variant ola bilərdi. Hətta Klinton özü regional danışıqların aparılmasına sədrlik etmək üçün Türkiyəyə yola düşmüşdü. Buna əsasən təxminən 3,3 mlrd. dollara (buraya

alınmış kreditlərdən olan faizləri də əlavə etsək, 4 mlrd. dolları keçəcək) başa gəlməsi nəzərdə tutulan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsinə icazə verirdi.

Prezident Klintonun cəhdlərinə əsaslanaraq Buş Administrasiyası Xəzər istehsal vasitələrinin və kəmərlərinin inkişafını tezləşdirdi. Gələcəyə baxaraq administrasiya neft və qaz kəmərlərinin Qazaxıstan və Türkmənistandan – Xəzərin şərq sahillərindən, onun qərb sahili Bakıya qədər olan kəmərin tikilməsinə cəhd göstərir. Beləliklə, Orta Asiyadan gələn neftin Qərbə doğru Bakı-Tibilisi-Ceyhan kəməri ilə getməsinə icazə verilir.

11 sentyabra qədər Xəzər hövzəsinə və Orta Asiyaya Amerikanın müdaxiləsi, iqtisadi və diplomatik cəhdləri, məhdudlaşdırmış hərbi köməyin göstərilməsi müşahidə olunmuşdur. Əfqanıstandakı Taliban və Əl-Qaidə təşkilatları ilə mübarizə aparmaq üçün Müdafiə Nazirliyi on minlərlə qoşun dəstələri göndərmiş, Qırğızıstan və Özbəkistanda hərbi bazalar yaratmışdır. Bu qoşunların bəziləri geriyə – Birləşmiş Ştatlara çağırılmışlar. Müdafiə Nazirliyi onların əsasını Orta Asiyada saxlamağı, ümumiyyətlə planlaşdırır. Doğrudan da, bu ərazidə daim hərbi qüvvələrin olmasını planlaşdırır. Bu qüvvələr onlara terrorizm əleyhinə mübarizədə kömək edə bilərlər, ancaq onlar nefti qorumaq üçün təyin olunub.

ABŞ-ın mühüm neft istehlak etdiyi regionlardan biri də Latın Amerikasıdır. Bu region uzun illərdir ki, Amerikanın maraqları dairəsinə daxildir. ABŞ heç bir dövlətə, Latın Amerikasına da güzəştə getmək istəmir. İran körfəzindən fərqli olaraq, bu regionda ABŞ-a qarşı o qədər də böyük əks fikir yoxdur. Hətta Latın Amerikası dövlətlərinin əksəriyyəti ABŞ-la sıx dostluq əlaqəsindədirlər. Buradan istehlak olunan neftin böyük hissəsini Amerika alır.

Amerikanı neftlə təmin edən dövlətlərdən biri də Venesueladır. Bu, Birləşmiş Ştatları neftlə təmin edən dövlətlərdən üçüncüsüdür. Dördüncüsü Meksika, yeddinci isə Kolumbiyadır. ABŞ bu əraziyə gələcəkdə daha da böyük ümidlərlə baxır.

Amerika məmurları neft enerjisinin inkişafı üçün birgə struktur yaratmağı qeyd edirlər.

Meksika istehlak olunan neftin etibarlı mənbəyidir. Çeyninin məlumatında deyilirdi ki, Meksikanın neft ehtiyatları ABŞ-a məlum olandan 25% çoxdur ki, bu da Meksikanı növbəti 10 ildə neft istehsalının əsas mənbələrindən biri edəcəkdir.

Ancaq Amerikanm Meksika və Venesuela neftini almaq cəhdləri əsasən çətinliklərlə qarşılaşır: müstəmləkə və imperiya vəhşiliklərinə görə bu dövlətlər öz ehtiyatlarım dövlət nəzarətində saxlayırlar və bu da ABŞ-ın onların daxili neftinin istehsalına qarışmasına hüquqi və konstitusion sədd çəkmişdir. Milli Energetika Siyasətinin İnkişafı Qrupu Ticarət Nazirliyinə müraciətlə xahiş edib ki, sədlərin aradan qalxması və yumşaldılmasını təmin etsin. Bu cəhdlər Venesuelada ciddi müqavimətlə qarşılaşdı. Çünki neft istehsalı dövlət nəzarəti altındadır. Venesuelanın konstitusiyasma (1949-cu ildəki) görə neft sektorunda xarici investisiyalar qadağan edilir. Ona görə də prezident Hüqo Çaves bu investisiyalara mane olmaq üçün müəyyən tədbirlər qəbul etdi. 2002-ci ilin axırından – 2003-cü ilin əvvəlinə qədər davam edən nümayişdən sonra Çaves dövlətə məxsus olan ehtiyatlara nəzarəti ələ keçirdi.

Kolumbiya ilə münasibətlərdə enerji əsas əhəmiyyətli rol oynayır. Lakin ABŞ-ın qanunsuz narkotiklərlə təmin olunmasında onun da rolu məlumdur. Kolumbiya neftinin istehsalına mane olan, neft avadanlıqlarına və kəmərlərinə hücum edən partizan qrupları da mövcuddur. Bu partizan qruplarınm narkotik alverçilərinə kömək etdiklərini söyləyərək ABŞ-ı Kolumbiya silahlı qüvvələri və polisinə partizanları məhv etmək üçünköməklik göstərməyə sövq edir. Bu da ABŞ-ı Kolumbiyada vətəndaş müharibəsinə cəlb olunmağa aparır.

Buş Administrasiyasının nəzərdən keçirdiyi çoxlu neft mənbələri olan ərazilərdən biri də Qərbi Afrikadır. Administrasiya öz gücünü iki dövlətdə – Nigeriya və Anqolada bərqərar etmək istəyir.

Nigeriya ABŞ-a kifayət qədər çox neft satır ki, bunun da 2020-ci ildə iki dəfə artacağı söylənilir. Amma onlar bu artımı öz maliyyəsi hesabına yerinə yetirə bilmirlər. Ona görə də bu dövlətlər xarici köməkdən istifadə edirlər.

Xəzər hövzəsində olduğu kimi, Amerikanın Afrikadan əlavə neft alması cəhdləri də siyasi həyəcan və etnik müharibə ilə dağıla bilər. Doğrudan da, Nigeriyanın neft istehsalı bütün 2003-cü ilin yaz ayları müddətində deltanın etnik təsiri nəticəsində bağlanmışdır. ABŞ bu çağırışa çətin cavab verər. Çünki bu, kənardan müstəmləkəçilik kimi görünə bilər və bu da daxildə və xaricdə müxalif qüvvələrin yaranmasına səbəb ola bilər.

Neft artıq iqtisadi aqressiv faktor deyil, ancaq o yenə həyati əhəmiyyətli "təhlükəli" resurs olaraq qalır. Bu dövrdə onun xarakteri sakitdir. Dünyanın hər yerində, o cümlədən, də ABŞ-da neftə olan tələbat durmadan artır. Bu da son nəticədə neft çatışmazlığına gətirib çıxara bilər. Belə vəziyyət isə ABŞ və neftdən asılı olan digər dövlətlərin iqtisadiyyatına ciddi ziyan vura bilər. Bu belə baş verir: dünya neft istifadəsi indi sutkada 75-77 mln. barreldir. 2020-ci ildə bu artaraq 155 mln. barrelə çatacaq. 2010-cu ildə isə bu istifadə sutkada 93-97 mln. barrelə çatdırılacaqdır. Belə olduqda ABŞ, Kanada, Avropa, Yaponiya və Cənubi Koreyanın gündəlik neft çatışmazlığı sutkada 25 mln. barel təşkil edə bilər.

İraqdan və Ərəb ölkələrindən ixrac olunmuş neftin miqdarı sutkada 14 mln. bareldir və OPEK-in bütün dövlətləri, İraq da daxil olmaqla sutkada 26 mln. barrel neft ixrac edirlər. Yəni OPEK-in ixracı nəzəri cəhətdən Qərbin neftə olan tələbatını ödəyir.

Hazırda Qərb və ABŞ Ərəb-İran nefti, xüsusilə də Yaxın Şərq və Orta Şərq nefti olmadan yaşaya bilməz. Əgər Asiya-Ərəb neftinin ixracı hər hansı səbəbdən dayandırılsa, onda İndoneziya, Latın Amerikası, Nigeriya, Rusiya, Şimali Afrika, Şimali Avropa və Kanadanın neft ixracatından istifadə olunsa, yenə də sutkada 9 mln. barrel (əslində isə sutkada 12 mln.

barel) çatışmayacaq. Bu isə o deməkdir ki, ABŞ və Qərbin neft çatışmazlığı 28%-ə çatacaqdır.

Lakin bu regionlardan nefti gətirmək də mümkün deyil, çünki Nigeriyanın inteqrasiya üçün Afrika qonşuları var, İndoneziya üçün Çin və Hindistan daha böyük neft alıcılarına çevrilə bilər. Bu isə o deməkdir ki, ərəb dünyası ilə Qərbin konflikti baş verərsə, Qərb öz enerji tələbatlarını yalnız siyasi, iqtisadi təkrar bölgülərin aparılmasına baxmayaraq, ödəyə bilməyəcək. XXI əsrin əvvəlində Qərb ölkələrinin ərəb neftindən asılılığı tam ola bilər.

Bütün bunlarla yanaşı, Amerika Birləşmiş Ştatları neftsiz era haqqında düşünməlidir. Bu da, əlbəttə ki, alternativ yolların tapılması deməkdir. İlk alternativ vasitə kimi ehtiyatları bol olan qaz ola bilər. Belə ki, mütəxəssislər hesablayıblar ki, 2010-cu ildə Amerikanın avtomobil nəqliyyatının 1/5-i, Avropanın 1/4-i, Yaponiyanın 1/3 hissəsi qazlaşdırıldı.

Amma alternativ variant kimi qaz da o qədər uğurlu sayıla bilməz. ABŞ-ın milli təhlükəsizliyinə dayaq olan nefti elə vasitələrlə əvəz etmək lazımdır ki, ABŞ-ı yenə də xarici istehsalçılardan asılı qoymasın. Yəni qaz da xaricdən gətirilir və nə vaxtsa onun da Amerikaya çatdırılmasında neft kimi problemlər yarana bilər. Ən azı bu qazın da başlıca ehtiyatlarının "Amerikanı sevməyənlər"in ərazisində olması ilə izah edilə bilər.

ABŞ-ın alternativ variant kimi bir yolu da var ki, bu da neft hasil edən regionlarda daha da möhkəmlənmək və bu regionları öz təsir dairəsində saxlamaqdır (İraqda etdiyi kimi). Əlbəttə ki, bu, dünyanın digər neft istehlakçıları tərəfindən böyük etirazla qarşılana bilər. Ona görə də ABŞ onların maraqları ilə hesablaşmaq zərurətində qala bilər. Bu da ABŞ-a yeni baş ağrı olacaq.

Bütün bunlara baxmayaraq, alternativ yollar axtarır və necə olursa-olsun, bunu mümkün qədər tez etməyə çalışır, yoxsa ABŞ-ın dünyadakı super gücü kimi mövcudluğu sual altına düşə bilər.

## 10.3. SSRİ-ABŞ hərbi-siyasi böhranı (Karib böhranı) və onun beynəlxalq nəticələri

XX əsrin II yarısında, dünya hələ nüvə müharibəsinə yaxın deyildi, lakin 1962-ci ildə Karib böhranı zamanı yaranmış "soyuq müharibə" vəziyyəti dünyanı nüvə fəlakətinə yaxınlaşdırmışdı. İnsanlıq son anda apokalipsisin reallığını hiss etdi. Lakin insan ağlı düşünülməmiş hərəkətlərə və emosiyalara qalib gəldi. SSRİ və ABŞ-ın ictimai xadimləri ilk dəfə "nüvə müharibəsi" təhlükəsini hiss etdilər. Bu böhranlı vəziyyəti onlar hərbi yolla deyil, siyasi yolla həll etməyə çalışdılar. Karib böhranı təsadüfi hadisə deyildi, bu "soyuq müharibə" illərində baş vermişdi, hər iki tərəf qarşıdurmaya hazırlaşırdı.

1962-ci ildə Amerika qitələrarası raketlərin 87%-ni lazım olan yerlərdə yerləşdirdi, bu, onların fəaliyyətinə müsbət təsir göstərirdi. SSRİ isə bu vaxt qitələrarası raketlərin inşaatına yenicə başlamışdı. Amerikanın qitələrarası raketlərinin texniki və hərbi hazırlığı Sovet göstəricilərindən iki dəfə yüksək idi. 1961-ci ildən V-52 strateji bombardmanlarının 1/3-i havada növbə çəkirdi. Digər 1/3 hissə isə artıq 15 dəqiqə ərzində uçuşa hazır idi. Havada və yerdə növbə çəkən təyyarələrdə nüvə silahı yerləşdirildi və heyətə döyüş tapşırığı sənədi təqdim olundu.

Bundan əlavə, 1958-ci ilin oktyabrından "Refleks ekşn" sisteminə uyğun olaraq Böyük Britaniya, Şimali Afrika və İspaniyanın aerodromlarında bombardmançı təyyarələr növbə çəkirdilər. Sülh ərzində Sovet Hərbi Hava Qüvvələri (HHQ) aviasiyası sutkalıq hərbi hazırlıqda idi. Hərbi tapşırığı yerinə yetirmək üçün strateji bombardmançılar Çukot və Kolski yarımadasının aerodromlarmda bazalarmı yaratmalı idilər.

ABŞ dəniz nüvə silahlarının inkişafına görə SSRİ-ni qabaqlayırdı. "Corc Vaşinqton" atom sualtı qayıqları göyərtəsində 16 raketli "Polaris-A1" var idi və bu raketlər sualtı hücuma keçmək qabiliyyətinə malik idilər. 60-cı illərin

əvvəllərində onların bazaları Holli Lox (Şotlandiyanın qərb sahilləri) sahillərində yerləşirdi və onlar Şimali Atlantikada hərbi patrul vəzifəsini yerinə yetirirdilər. Bundan əlavə, ABŞ NATO ittifaqının üzvlərinin xahişinə görə 1962-ci ilin mayında İngiltərənin qərbində yerləşən 60 "Tor" raketlərinə əlavə olaraq Şimali İtaliya və Türkiyədə orta uzaqlıqlı 45 təyyarə hazırladılar. Bu raketlərin Böyük Britaniya HHQ və NATO-nun komandanlığı altında olmasına baxmayaraq, onların hərbi nüvə hücumlarını ABŞ planlaşdırırdı. SSRİ ərazisində bu raketlər 10 dəqiqə ərzində öz məqsədlərinə çatırdılar, bu da Sovet rəhbərliyini hər hansı hərbi cavabdan tamamilə məhrum edirdi.

Sovet Hərbi Dəniz Donanması sualtı qayıqların yaradılmasına yenicə başlayırdı. Sualtı atom qayıqları – 658 proyektli P-13 raketləri təcrübə keçirdilər. Flotun hərbi heyətində ancaq 611 proyektli 2 raketli P-11 dizel elektrik sualtı qayıqları və 629 proyektli P-13 raketi idi. Hərbi patrul nəzərə alınmırdı. ABŞ ərazisindəki sualtı qayıqları məhv etmək üçün 629 proyektli sualtı qayıqları cəlb etmək nəzərdə tutulurdu. Perl-Harborun acı təcrübəsini nəzərə alaraq 1961-ci ildə Tule (Qrenlandiya) və Faylinqdeyz-Mur (B.Britaniya) 2 stansiya sistemlərini nüvə hücumundan xəbərdar etmişdilər. Bu stansiyalar Qitələrarası raketlərin (QAR) uçuşlarını 25-30 dəqiqə ərzində ABŞ ərazisində qeydə almaq imkanı verirdi və bu da uçuşa qədər qərara gəlmək üçün lazım olan nəticə ilə onları təmin edirdi, bu isə rəqibin qəfil hücumunun qarşısını almağa imkan verirdi. 60-cı illərin əvvəllərində ABŞ kəmiyyət və keyfiyyətinə görə nüvə silahları vasitəsi ilə, Sovet İttifaqı ilə nüvə müharibəsində qələbə çala bilərdi. Bu üstünlük 1961-ci ilin iyununda Vyana görüşlərində yüksək səviyyədə öz əksini tapdı. Xruşşovun bütün Qərb və Kuba haqqındakı tələbləri Con Kennedinin Berlin təbəssümünə rast gəldi. 1961-ci ildə aparılmış kosmik tədqiqatların nəticəsi aydın göstərdi ki, Sovet İttifaqı 200 raket əvəzinə cəmi 4 QAR-a malik idi. Həmin vaxt ABŞ 40 qitələrarası

ballistik raketə malik idi. Bu vəziyyət Amerikanın nüvə silahı istifadəsini kökündən dəyişdi. Türkiyə ərazisində yerləşdirilmiş 2-3 "Yupiter" raketləri ilə (1962-ci ilin mayında başa çatmışdı) SSRİ-nin bütün qitələrarası raketlərini məhv etmək olardı. Sovet rəhbərliyinə artıq aydın oldu ki, amerikalılar onların nüvə raket qüdrətinə inanmırlar. Sovet-Amerika cəbhəsindəki "soyuq müharibə" vəziyyəti təkcə Kubanın əldən getməsi ilə deyil, həmçinin, nüvə müharibəsindəki məğlubiyyəti idi.

Bu vəziyyətdən bir çıxış yolu var idi. Bu da ABŞ ərazisindəki nüvə obyektlərinə hücum etməkdən ibarət idi. 1962-ci il mayın 24-də SSRİ-nin müdafiə şurasının iclasında qərara alındı ki, Kubada Sovet ordusu yaradılsın və onun tərkibinə 5 raket polkundan ibarət raket diviziyası, 36 raket R-12, 24 raket R-14 daxil edilsin. Bununla yanaşı, SSRİ Kubada güclü nüvə silahı topladı. Nüvə silahı 1962-ci il 4 oktyabr – 1 dekabr vaxt aralığında yerləşdi.

Kubada Sovet hərbi nüvə silahına general leytenant N.K.Beloborodov başçılıq edirdi. Rusiya Federasiyası Müdafiə nazirliyinin rəisi general-polkovnik V.N.Verxovçevin sözlərinə görə Kubada aparılmış əməliyyat (şərti adı – "Anadır" olan) zamanı onlarda nüvə silahı 6 növdə mövcud idi. Onlar 1962-ci ildə Sovet ordusunun tərkibində idi və hərbi şəraitdə istifadəyə hazır idilər.

1961-ci ildən 1968-ci ilədək ABŞ-ın Müdafiə Naziri olmuş Robert Maknomara qeyd edirdi ki, paritet hələ 1962-ci ilin oktyabrında Kuba raket böhranında artıq mövcud idi. O vaxtlar ABŞ-ın təqribən 5 min strateji hərbi silahı Sovetlərin 300 silahından çox idi. Bu böyük üstünlüklə ABŞ bir hücumla SSRİ-ni məhv edə bilərdi. Sovet İttifaqı da onlarla raketini ABŞ üzərinə göndərə bilər və bu fikir SSRİ-ni onun üzərinə nüvə hücumundan saxlayırdı.

Sovet İttifaqının Kubaya hərbi köməyi haqqındakı xəbər ABŞ-ı narahat etdi. Amerika kəşfiyyatının Kuba üzərindəki nəzarəti gücləndirildi. Tezliklə aydın oldu ki, SSRİ Kubada

zenit raketləri üçün meydançalar tikir, bu da müdafiə silahı sayılırdı. Mərkəzi kəşfiyyat idarəsinin fikrinə görə böyük balıqçılıq qəsəbəsinin tikintisi Sovet sualtı qayıqlarının bazası idi. Amerika hökuməti səfir Dobrının vasitəsilə öz narahatlığını bildirdi və Kubada keçirdiyi böyük manevrlərdə 45 hərbi gəmi, 10 min dəniz əsgəri iştirak etdi. Kubada ərazilərin hərbi çəkilişləri U-2 raket təyyarəsi vasitəsi ilə həyata keçirildi, bundan adanın hava sərhədini pozmadan da istifadə etmək olardı. Sentyabrın 4-də Kennedi hamının qarşısında öz narahatlığını bildirdi. ABŞ Kuba ərazisində yer tipli raketlərin və digər döyüş silahlarınm yerləşməsinə dözə bilməyəcəkdir. 7 Sentyabrda, prezident 150 min ehtiyat hərbçini səfərbər etmək haqqında konqresə sorğu göndərdi. Sovet hökuməti Amerika prezidentinin demarşını diqqətdən kənarda qoydu. Dobrının Robert Kennedidən xahiş etdi ki, o qardaşını əmin etsin ki, Kubada raketlər qoyulmayacaq.

Sentyabrın 12-də sovet qəzetlərində TASS xəbərləri çıxdı, bu xəbərlərdə deyilirdi: "Sovet hökumətinin cavab həmlələri üçün digər ölkələrdə hərbi qüvvələr yerləşdirmək tələb olunmur. Bizim hərbi qüvvələrimiz o qədər güclüdür ki, bu qüvvələri SSRİ sərhədlərindən kənarda yerləşdirməyə lüzum yoxdur".

Xruşşovun Con Kennediyə yazdığı şəxsi məktubunda da bu haqda danışılırdı. Xruşşov yazırdı: "ABŞ prezidenti əmin olsun ki, yer raketləri heç bir şəraitdə Kubaya göndərilməyəcək". Sentyabrın axırı – oktyabrın əvvəllərində Kubadakı güclü buludlu hava fotokəşfiyyata imkan vermədi. Bu hərbi raketlərin gizli və təcili yerləşdirilməsini asanlaşdırırdı. Xruşşov və Kastro belə hesab edirdilər ki, bu işləri tezliklə başa çatdıracaqlar və Amerika kəşfiyyatı Kubanın hansı müdafiə silahma malik olduğunu bilməyəcəklər. Bu haqda sonralar Xruşşov açıq şəkildə yazırdı ki: "Bu güc Nyu-York, Çikaqo və digər sənaye şəhərlərini dağıtmağa imkan verərdi, Vaşinqton haqqında isə danışmağa dəyməzdi, o, balaca kənddir". Şübhəsiz ki, Kubada raketlərin yerləşdirilməsi və orada inşaat

işlərinin aparılması haqqında söhbətlər amerikalılara çatırdı, amma onların əllərində aydın dəlillər yox idi. Ancaq oktyabrın 10-dan onlar fotokəşfiyyatı bərpa etdilər və alınan faktlar onları narahat etdi. Onlar 10 gün bundan əvvəl cəngəlliklər olan ərazidə avtomobil yolları gördülər. Kennedi fotokəşfiyyatı genişləndirməyi əmr etdi, lakin bu zaman Kubaya qasırğa düşdü və yeni şəkilləri ancaq oktyabrın 14-də çəkmək mümkün oldu. Amerika təyyarələri nəinki yüksəkliklərdən, hətta 130 metr məsafədən şəkil çəkirdilər. Çəkilmiş minlərlə şəkillər sübut edirdi ki indi söhbət zenit raketlərindən deyil, müharibə apara biləcək yer raketlərindən gedir. Oktyabrın 17-də çəkilmiş şəkillər yeni meydançaların tikilməsinə imkan verdi ki, bu meydançalarda 16 və 32 raket yerləşirdi.

Oktyabrın 16-da Kennedi Milli Təhlükəsizlik Komitəsini təsis etdi. Komitənin bütün üzvləri Amerikanı bürüyən təhlükəni görürdülər və cavab hərəkətləri etməyi tələb edirdilər. Lakin onlar bu hərəkətlərin miqyası və xarakteri haqqında bir qərara gələ bilmirdilər.

Hökumətdə iki qruplaşma əmələ gəlmişdir və bu problemin həlli 2 yolla mümkün idi: 1-ci qrup hərbçilər və Kennedinin silahdaşları daxil olmaqla təklif edirdilər ki, bütün silahları birdən məhv etsinlər və onlar da buna hazırlaşırdılar. Aviasiya və qoşun Kubaya yaxın əraziyə yerləşdirildi. Qəbul edirdilər ki, bu hücum zamanı Amerika 25 min ölü və yaralı Kubalıları əldə edə bilər. Sonralar qeyd edilirdi ki, qərb yarımkürəsində Amerikanın hərbi üstünlüyü böyükdür. Sovet İttifaqı qarşı tərəfə və NATO-nun mərkəzi zonasına hərbi qüvvə ilə cavab verəcək. Havadan hücumun əleyhinə olanlar məsləhət görürdülər ki, Kubaya hərbi sovet təyyarələrinin göndərilməsi dayandırılana qədər qarantin elan edilsin. ABŞ prezidenti hərbi hücum haqqında qərarı ləğv edərək əmr etdi ki, blokada və oktyabrın 24-dən karantin başlansın. Sovet İttifaqı təkidlə bildirirdi ki, Kubada raketləri yoxdur. Milli təhlükəsizlik idarəsi və hərbi kəşfiyyat tərəfindən çəkilən fotoşəkillər Amerika hərbçiləri

üçün sübutdur, amına dünya təşkilatları onların fikri ilə razılaşmaya bilər. Karib bölgəsində 180 hərbi gəmidən ibarət böyük hərbi qüvvə toplandı. Amerika ordusu bütün dünyada hərbi hazırlıq vəziyyətinə gətirildi. Nüvə sualtı gəmiləri "Polaris" gizli əmrə əsasən öz kurslarını dəyişdilər.

Strateji aviasiyanın bombardmanlarına əmr olundu ki, nüvə ehtiyatı ilə havaya qalxsınlar, biri endikdə digəri havaya qalxsın. Floridada 6 diviziya yaradıldı, əlavə yaradılmış qoşunlar isə Quantanamada hərbi bazaya göndərildi. ABŞ-ın hərbi nazirləri Kubanın işğalı və bombardman edilməsi planını hazırlayırdı. Onların hesabına görə bu əməliyyata 250 min əsgər, 90 min dəniz döyüşçüsü və 100-dən artıq desant gəmisi tələb olunur.

Kennedi, Karib dənizində sovet sualtı gəmilərinin görünməsi haqqında məlumat aldı. Bu, Amerika aviasiyası üçün ciddi təhlükə demək idi. Oktyabrın 22-də Con Kennedi Amerika televiziyası ilə çıxış etdi. O, Kubanın blokadasını elan etdi və görülmüş tədbirlər haqqında məlumat verdi: "Bu, birinci addımdır, Pentaqon digər hərbi göstərişlərin yerinə yetirilməsi haqqında əmr alıb". Kennedinin 20 dəqiqəlik nitqi nəinki ABŞ-ı, hətta Qərb ölkələrində də gərginliyə səbəb oldu.

Oktyabrın 24-də SSRİ Kubanın blokadasına və ABŞ-ın digər hərbi tədbirlərinə qarşı öz etirazını bildirdi. SSRİ təcili olaraq BMT-nin təhlükəsizlik şurasını çağırmağı tələb etdi. SSRİ-nin Müdafiə Naziri əmr etdi ki, hərbi qüvvələr hazır vəziyyətə gətirilsin, məzuniyyətlər ləğv olunsun və səfərbərlik elan edilsin. Sovet İttifaqı inkar edirdi ki, Kubada ancaq özünümüdafiə üçün silahlar var və bu texnikanın ləğv edilməsi ilə özünün müstəqilliyini qiymətləndirən heç bir dövlət razılaşmaz. Təhlükəsizlik Şurasının təcili çağırılmış iclasında Sovet nümayəndəsi V.Zorin Kubada nüvə silahının olmasını qətiyyətlə inkar edirdi. Bu zaman Kubaya doğru 20 Sovet gəmisi üzürdü, onlar blokada xəttinə yaxınlaşan kimi Fidel Kastro ümumi mobilizasiya haqqında elan verdi. Xruşşov özünü sakit aparırdı, başa düşürdü ki, okeanın o

tayından onun hər addımını izləyirdilər. Oktyabrın 23-ü axşam o Böyük teatra getdi.

ABŞ prezidenti Xruşşova blokada qaydalarına riayət etməsini əmr etdi. Kennedi yazırdı ki, ABŞ Sovet gəmilərinə atəş açmaq fikrində deyil. O, bildirdi ki, biz hər ikimiz vəziyyəti çətinləşdirməyin qarşısını almalıyıq. Lakin bu xəbər də, BMT-nin baş katibinin Kubaya silah göndərilməsini qadağan edən qanun kimi SSRİ mətbuatında dərc olunmadı. Oktyabrın 24-də sübh vaxtı sovet gəmiləri Kubadan 500 mil aralı blokada xəttinə yaxınlaşdılar. Qarşıdan göyərtəsində helikopterlər olan "Esseks" aviadaşıyıcı gəmi gəlirdi. R.Maknamor əmr etdi ki, əgər lazım gəlsə, sovet sualtı gəmiləri blokada xəttində dayansınlar. O, Amerika prezidentinə təklif etdi ki, təcili olaraq hər iki tərəf öz mövqeyində dayansın. 1-ci müraciətində Xruşşov Kennedi ilə təhdidedici tonla danışmaqdan özünü güclə saxlayırdı. O, Amerikanın bu hərəkətlərini "banditizm, imperializm ağılsızlığı" adlandırırdı və elan edirdi ki, SSRİ blokada ilə hesablaşmayacaq və öz hüquqlarını da müdafiə edə biləcək. Kennedi cavab verdi ki, o, yalnız bir şərtlə Xruşşovla görüşməyə razıdır: Kubadan sovet raketləri çıxarılmalıdır.

Hava kəşfiyyatından və agentlərdən alınmış faktlar göstərirdi ki, bu raketlər 2 gündən tez fəaliyyət göstərə bilməyəcək. Amerika təyyarələri gündə 2 dəfə Kuba üzərindən uçurdu. Digər təyyarələr sovet sualtı gəmilərini izləyirdilər. Blokada xəttinə yaxınlaşan sovet gəmiləri okeanda dayanırdılar və onların bəziləri geri qayıtma əmri alırdılar. Bombardmançıların və raket qurğularının montajı davam edirdi.

Gərginlik getdikcə artırdı. U-2 Amerika təyyarələrindən biri vuruldu və təyyarəçi həlak oldu. Amerika təyyarəçisinin ölüm xəbərini eşidən Kennedi əmr etdi ki, təyyarələrin sayını bir neçə dəfə artırsınlar. Oktyabrm 26-da Kubaya hücuma hazırlıq haqqında əmr verildi. Həmin gün axşam Kennedi Xruşşovdan məktub aldı, bu məktub digərindən fərqlənirdi. O, sovet qəzetlərində dərc olunmadı. Maknomara yazırdı ki, bu

onun gördüyü qeyri-adi diplomatik məktub idi. Məktub şəxsən Xruşşov tərəfindən diktə olunmuşdu və açıq-aydın görünürdü ki, bu məktub güclü emosional gərginlik vəziyyətində olan bir şəxs tərəfindən yazılıb. Sovet rəhbəri bir daha əmin oldu ki, dünya uçuruma hazırlaşır. İndi o Kennedidən xahiş edirdi ki, özünü təmkinli aparsın, əks halda əgər müharibə başlasa, onu dayandırmaq çətin olacaq: "Mən özüm müharibədə iştirak etmişəm və bilirəm ki, müharibə bütün kənd və şəhərlər darmadağın edildikdən sonra qurtarır".

Xruşşov artıq inkar etmirdi ki, Kubada Sovet raketləri var. O, yazırdı: "əgər bütün silahlar gətirilsə, onda Amerika blokadasmm heç bir əhəmiyyəti olmayacaq. Raketlər Sovet zabitlərinin nəzarəti altındadır və ABŞ-a hücum üçün istifadə edilməyəcək. Bu mənada siz arxayın ola bilərsiniz. Biz başa düşürük ki, biz hücum etsək, siz bizə cavab verəcəksiniz. O zaman hadisələr bizim əksimizə dönəcək və mən fikirləşirəm ki, siz bunu başa düşürsünüz. Bu ondan irəli gəlir ki, biz normal insanlarıq. Ancaq dəli adamlar bu hərəkəti edə bilər". Xruşşov Kennediyə təklif etdi ki, blokadanı götürsün və Kubaya hücum etməmək haqqında söz versin. Bu halda SSRİ Kubadan raket silahlarını çıxarıb məhv edəcək. Xruşşov yazırdı: "Biz bir iplə bu müharibəni başlamışıq, iplər nə qədər çox dartılsa, o qədər çox sıxılar və hər iki dövlət məhv ola bilər. Gəlin bu iplərin ucunu dartmayaq, bu ipləri açmaq üçün qərarlar qəbul edək və biz buna hazırıq".

Xruşşov öz bəyanatında Kennediyə kompromis təklif etdi. Xruşşov təkid edirdi ki, amerikalılar öz raketlərini Türkiyə ərazisindən çıxarsınlar. O həmçinin təklif edirdi ki, 2-3 həftə ərzində ABŞ-la bu barədə danışıqlar aparsın. Bu, Kennedini təmin etmirdi və o, bu məktuba ancaq oktyabrın 26-sı axşam cavab verdi, bu məsələləri isə diqqətdən kənarda saxladı. Kennedi bəyan etdi ki, ABŞ Kubadan blokadanı götürməyə hazırdır. Əgər SSRİ Kubadan silahları yığışdırsa, ABŞ Kubaya hücum etməyəcək. Kennedi öz məxfi kanallarından istifadə edərək

Xruşşovu əmin edirdi ki, ABŞ öz raketlərini Kuba ərazisindən ancaq böhranlı vəziyyətdən sonra çıxaracaq. Bütün hallarda Kennedi tələb edirdi ki, Kubada raketlərin quraşdırılması dayandırılsın və BMT bu adadan nəzarəti götürsün.

Kennedi Xruşşova başa salırdı ki, ABŞ prezidenti istəsə də SSRİ üzərində təzyiqini uzun müddət davam etdirə bilməz. Kennedinin bəyanatı sovet nəşriyyatında oktyabrın 27-də dərc olundu. Bu, sovet raketlərinin Kuba ərazisində yerləşdirilməsinin rəsmi təsdiqi idi. Xruşşov daxildə gedən çəkişmələrə baxmayaraq Kennedinin təklifini qəbul etdi. Onun çox vaxtı qalmırdı, seçim isə az idi: ya hərbi yolu seçməli, ya da güzəştə getməli idi. Bu barədə Xruşşov oktyabrın 28-də yazdığı məktubda məlumat verirdi: "Mən sizin həyəcanlarınızı başa düşürəm. ABŞ xalqlarının həyəcanı onunla bağlıdır ki, bu silahlar həqiqətən dağıdıcı silahlardır. Həm siz, həm də biz başa düşürük ki, bunlar necə silahlardır".

Xruşşov sonra yazırdı ki: "ABŞ bəyan edir ki, Kubaya hücum etməyəcək, bu səbəbdən SSRİ-nin Kubaya yeni silah göndərmək motivləri təxirə salınır". Bu, konfliktin ləğv edilməsi ilə bağlı idi. Buna görə də sovet hökuməti bu silahlarm yenidən SSRİ-yə qaytarılması barədə göstəriş verir. Buna əmin olmaq üçün Xruşşov hətta Amerika eksperimentlərinə icazə verir ki, sovet gəmilərinə nəzarət etsinlər. Bu Karib böhranının həll edilməsi yolunda mühüm addım idi. Bundan sonra hamı rahat nəfəs aldı və aydın oldu ki, müharibə olmayacaq. Yaranmış böhranm məsuliyyətini həm Xruşşov, həm də Kennedi bölüşdülər. Həlledici anda hər iki dövlət başçısı soyuqqanlılıq göstərdi və müharibənin başlanmasına imkan yaratmadı. Vaşinqtonda bir neçə dövlət adamları böhranm ilk günlərindən müharibəyə başlamağı tələb edirdilər. Güman etmək olar ki, Xruşşovun ətrafındakı məsuliyyətli şəxslər Kubadan raketlərin çıxarılması qərarı ilə razı deyildi. Karib böhranmdan sonra Kennedinin nüfuzu yüksəldi, çünki o, vaxtında dayanmağı və güzəştə getməyi bacardı.

Kompromis hər iki tərəfin təkidi ilə baş tutdu. Amma yaddan çıxarmaq lazım deyil ki, SSRİ raketlərinin Kubadan çıxarılması ABŞ raketlərinin bir sutkadan sonra hücum edəcəyi zaman aydın oldu. Bu əməliyyat Kuba dövləti ilə bərabər, sovet raketlərinin, zabitlərinin, mütəxəssislərinin məhvinə gətirib çıxarardı və SSRİ onlara əks cavab verə bilərdi.

Beləliklə, Birinci Dünya müharibəsindən sonrakı Karib böhranı sülh yolu ilə həll olundu. Hər iki dövlət başa düşdü ki, nüvə müharibəsi siyasətin davamı deyil, Onlar dəhşətli konfliktlə rastlaşa bilərdilər, lakin bu dövlətlər bir planetdə yaşamaq üçün kompromis axtarmağa məcbur oldular.

Buna görə də təəccüblü deyil ki, Karib böhranından sonra Moskva ilə Vaşinqton arasında dialoq bərpa edildi. Avqustun 30-u bu dövlətlər arasında birbaşa telefon əlaqəsi yaradıldı.

## ƏDƏBİYYAT:

1. Баас М. История международных отношений после 1945 года, М., 2004.
2. Владимиров В.Х. Куба в межамериканских отношениях. М., 1984.
3. Добрынин А. США и отношение с СССР. М., 1997.
4. "Индекс безопасности". М., 2007, №3(83).
5. Кастро Ф. История меня оправдает. М., 1976.
6. Кристофер Э. КГБ во внешней политике СССР. М., 1996.
7. Любимов В. Военная разведка и Карибский кризис. М., 1988.
8. Макнамара Р. Путем ошибок – к катастрофе. М. 1998.
9. Энно ди Нольфо. История международных отношений. Т.II, М., 2004.

## 10.4. Rusiya Federasiyası – Amerika Birləşmiş Ştatları: əməkdaşlıq və rəqabət

Dünyanın super dövlətlərindən biri olan SSRİ-nin mövcudluğunun sona çatması müasir şərtlər daxilində nəhəng coğrafi dəyişikliklərə gətirib çıxardı. Sovet İttifaqı ilə birlikdə dünya sosialist sistemi və onun hərbi strukturu – Varşava Müqaviləsi Təşkilatı da süquta uğradı. Yarım əsrlik ideoloji, siyasi, hərbi konfrantasiya yox oldu. Əhəmiyyətli cəhət ondan ibarətdir ki, super dövlətlərdən birinin süquta uğraması sülh şəraitində, çoxsaylı insan itkisi olmadan və bir-birinə düşmən olan iki ictimai-siyasi sistemin toqquşması olmadan baş verdi.

SSRİ-nin süqutundan sonra keçmiş qütblər, o cümlədən, SSRİ-nin varisi olan Rusiya Federasiyası ilə Amerika Birləşmiş Ştatları arasındakı məsafə ixtiyarsız olaraq, daha da yüksələn tempdə bir-birindən uzaqlaşmağa davam edirdi. ABŞ hər yerdə və bütün göstəricilər üzrə Rusiya Federasiyasını ötüb keçməyə başladı. SSRİ-nin süqutu nəticəsində çoxmillətli dövlətin 60% əhalisi və SSRİ-nin iqtisadi potensialının yarısı Rusiya Federasiyasının hakimiyyəti altında qalmışdı. Postsovet məkanında Rusiya Federasiyasından başqa, 14 müstəqil, suveren dövlət yarandı. SSRİ-nin mövcudluğunun son dövründə, yəni Qorbaçovun idarəçiliyi dövründəki iqtisadi, siyasi, daxili və xarici nizamsızlıqlarına Rusiya iqtisadiyyatının "inkişaf etmiş sosializm" dövründə görünməmiş olan ağır durğunluğu da əlavə olundu. Bu vəziyyət dövləti az qala Qərb kreditorları qarşısında iqtisadi, siyasi və mənəvi müflisliyin sərhədində saxladı. Müstəqil Rusiya dövlətinin mövcudluğundan 10 il sonra XXI əsrin ilk ilində Rusiyada ÜDM yalnız 250 milyon dollara çatmışdı ki, bu da Amerika Birləşmiş Ştatlarının ÜDM-in 3%-nə bərabər idi. Ölkənin iqtisadi qüdrətinin qəfil çökməsi avtomatik olaraq Rusiya Federasiyanın beynəlxalq nüfuzuna da xələl gətirdi və öz növbəsində dövlətin hərbi qüdrətinin dəyişilməsinə səbəb oldu.

Rusiyanın nüfuzunun genişliyi də sürətli templərlə daralırdı. Dünənki ittifaq – qardaş respublikalar müstəqil və suveren dövlətlərə çevrildilər. Rusiya politoloqlarının ifadələri ilə desək, "yaxın xarici ölkələr" kimi müəyyənləşdilər. Varşava hərbi müqaviləsi üzrə müttəfiqlərə və sosialist düşərgə üzrə qardaşlara gəlincə, onlar "uzaq xarici ölkələr" qrupuna daxil olmaqla qarşı tərəfə – Qərb düşərgəsinə qoşuldular. Bir müddət keçdikdən sonra onların çoxu tezliklə Şimali Atlantika Alyansı və Rusiya Federasiyası üçün yolların bağlı olduğu Avropa İttifaqının üzvlərinə çevrildilər və ya çevriləcəkdilər.

Müasir dünya siyasətində Rusiya Federasiyası və Amerika Birləşmiş Ştatları ayrı-ayrılıqda özünəməxsus rol oynayır və dünyada bir-birinə tam zidd yerlər tuturlar. ABŞ müasir dövlət ölçüsünün bütün parametrləri üzrə hər sahədə, hər yerdə və hər şeydə Rusiya Federasiyasını ötüb keçir. ABŞ müasir dünyada böyük iqtisadi və hərbi qüdrətə malik olan geostrateji, qlobal miqyasda yeganə super dövlətdir. ABŞ bütün beynəlxalq təşkilat və institutlarda dominantlıq edir və onların əsas maliyyə donoru rolunu oynayır. Təkcə bunu qeyd etmək kifayətdir ki, BMT-nin təxminən 200 üzvünün, yəni, 25%-nin ödənişini ABŞ həyata keçirir. Rusiya Federasiyasının payına isə cəmi 1% düşür. Bütün bu göstəricilər ABŞ-a böyük geostrateji üstünlük verir. ABŞ-ın bu üstünlüyü Rusiyanın keçmiş prezidenti B.Yeltsin tərəfindən də etiraf edilmişdir.

Amma yeni prezident V.Putinin hakimiyyətə gəlməsindən sonra qəbul etdiyi 28 may 2000-ci il yeni xarici siyasət konsepsiyasında artıq ABŞ-ın mütləq üstünlüyündən söhbət getmir. Bu sənəddə qeyd olunur ki, "Rusiya Federasiyası son dövrlərdə ABŞ-la yaranmış çətinlikləri aradan qaldırmağa, təxminən 10 il ərzində formalaşmış Rusiya-Amerika əməkdaşlığı strukturunu saxlamağa hazırdır. Müxtəlif, bəzən mürəkkəb fikir ayrılıqlarının olmasına baxmayaraq, qarşılıqlı rus-amerikan münasibətləri beynəlxalq vəziyyətin yaxşılaşdırılması və qlobal strateji sabitliyin təmin edilməsi üçün mühüm şərtdir".

Burada müasir ABŞ və Rusiya Federasiyasının dünyadakı roluna dair müxtəlif yanaşmalar əks olunmuşdur. Birinci halda, ABŞ-ın rolu və yerinin şərtsiz tanınması, ikinci, Rusiyanın müasir geostrateji şəraitdə özünü ABŞ-a bərabər tutmaq cəhdidir. Amma real dünyada bu sadəcə arzudur.

ABŞ ətrafında və onun hakimiyyəti altında ümumdünya qloballaşması prosesində yeni dünya sistemi – vahid dəyərlər bazasını paylaşan və maraqların ümumiliyinin yüksək səviyyəsinə malik beynəlxalq birlik sistemi formalaşmışdır. Bütün bunlar isə birqütblü dünya sisteminin formalaşmasına gətirib çıxarır.

İqtisadi və maliyyə nöqteyi-nəzərindən müasir Rusiya Federasiyası - mərkəz dövlət hadisələrin əlverişsiz gedişində marginal (kənar) dövlətə çevrilə bilər. Onun bugünkü mahiyyəti, tab gətirməli olduğu dağıdıcı çevrilişlərlə müəyyənləşir. Bundan əlavə, bir neçə müddət bundan əvvəl Rusiyanın Qərbdən, xüsusilə ABŞ-dan hədsiz dərəcədə maliyyə baxımdan asılılığı var. XX əsrin sonunda Rusiyanın xarici borcu 150 milyard dollar olmuşdur. Rusiya üçün daxili və xarici defolt ilə müşayiət olunan 1998-ci il maliyyə böhranı Rusiyanın iqtisadi zəifliyini və onun Qərb dövlətlərindən tam asılılığını aşkar şəkildə nümayiş etdirmişdir. Amma obyektiv olsaq, qeyd etməliyik ki, XXI əsrin əvvəllərində neft və qaz satışından əldə edilən dollarlar nəticəsində Rusiya Federasiyası öz valyuta ehtiyatlarını tamamlamağa və hətta xarici kreditorlara borc verməyə müvəffəq olmuşdur.

Bununla yanaşı, sovet imperiyası olmaqdan yaxa qurtaran Rusiya hələ də dünya arenasında özünə uyğun rol tapa bilməmişdir. ABŞ-ın gənc müttəfiqi olmaqdan imtina edən Rusiyanın əsas məqsədi çoxqütblü dünya konsepsiyası bayrağı altında ABŞ əleyhdarlarının geniş dairəsini möhkəmləndirmək və müasir dünyada super dövlətə qarşı əks qütb yaratmaqdır. Amma bu cəhdlər boşa çıxdı. Rusiyanın keçmiş baş naziri Primakovun ifadəsi ilə: "Amerika ilə rəqabət şəraitində qüvvələr balansını nəzərdə tutan çoxqütblü dünya sistemi

konsepsiyası boş səs olaraq qalardı". Rusiya hakim dairələrində bu ifadənin məşhur olmasına baxmayaraq, reallıqda bu, Rusiyanın qüvvəsi çərçivəsində deyil. Yaxın gələcəkdə Rusiya əks qütbdə ABŞ-ın birinci rəqibi olmağa davam edəcək. Bu, ABŞ-ı tarazlaşdırmaq anlamına gəlir – Konsepsiyanın siyasi məğzi bundan ibarətdir – bunun üçün Rusiya digər dövlətlərlə aktiv şəkildə ittifaqa girmək iqtidarına malikdir. ABŞ əleyhinə ittifaqın başında Çin durur, amma onunla ittifaqa girmək Rusiyanı qeyri-bərabər vəziyyətdə qoya bilər. Belə olan halda absurd vəziyyət yaranardı: ABŞ-ın sərəncamında olmaq istəməyən Rusiya Çinin himayəsi altına düşmüş olardı.

Bu halda Çinin perspektivi ABŞ-ın gələcək siyasətini proqnozlaşdırmaqdan daha çətin olardı; Rusiyanı Çinlə 4500 km-ə malik ümumi sərhəd yaxınlaşdırır. Mövcud konstruksiyanın səbatsızlığı və balanslaşdırılmamış olduğunu görən müəlliflər iki çıxış yoluna üçüncünü – Hindistanı əlavə edərək, layihəyə sarsılmazlıq gətirməyə çalışmışlar. Bu "üçbucaq"da Moskvanın nisbi zəifliyini Çin-Hindistan ziddiyyəti kompensasiya edə bilərdi, belə ki, onlar tez-tez Rusiyanın vasitəçiliyinə ehtiyac duya bilərdilər. Amma bütün bunlar ancaq nəzəriyyə olaraq qalmaqdadır. Reallıqda bənzər siyasi xəttin yeridilməsi Rusiyanın ABŞ ilə münasibətlərində Rusiyaya sərf edəcək heç bir şey vəd edə bilməz. Əksinə, Rusiyanın "geosiyasi qarşısınıalma və ziddiyyət" siyasəti anti-amerikan siyasəti kimi qəbul edilə bilərdi. Çin və Hindistan Rusiyaya anti-amerika siyasətində aparıcı fiqurlar kimi deyil, sərbəst fiqurlar kimi lazımdır. Əks halda, Rusiya daha bir ağrılı siyasi avantüra ödəməli olacaq. Rusiya ABŞ-la əməkdaşlıq və ya rəqiblik edə bilər, amma onu ötüb keçə və ya nəzərə almaya bilməz. XX və XXI əsrin qovuşağında rus-amerikan münasibətlərində keçid dövrü başa çatmış və prinsipcə əvvəlkindən fərqlənən yeni model meydana gəlmişdir. Əgər "soyuq müharibə" illərində antoqonik xarakter daşıyan Rusiya-Amerika qlobal qarşıdurması beynəlxalq münasibətlərin mərkəzi oxunu təşkil

edirdisə, müasir dövrdə ABŞ və Rusiyanın qarşılıqlı münasibətləri keyfiyyətcə dəyişmişdir. İdeoloji qarşıdurma artıq ABŞ-Rusiya münasibətlərində aparıcı faktor kimi çıxış etmir.

Son illərdə Moskva və Vaşinqton arasında əvvəlcə ikinci dərəcəli, sonra isə daha mühüm məsələlərdə uyğunsuzluqlar artmaqdadır. Rusiya və ABŞ arasında ciddi fikir ayrılıqları aşağıdakı məsələlər üzrə yaranmışdır. İlk növbədə, Rusiya təhlükəsizliyinə nəzarət, hər şeydən öncə NATO-nun Şərqə doğru genişlənməsi; ikincisi: silahlanmaya nəzarət və ABŞ-ın Raket Əleyhinə Müdafiə sistemi haqqın-da (RƏM) müqavilədən çıxması; üçüncüsü: XX əsrin sonu – XXI əsrin əvvəllərində, heç zaman olmadığı qədər Rusiya Federasiyasının iqtisadi cəhətdən zəifləməsi və ABŞ-ın güclənməsi; dördüncüsü: ABŞ-ın heç zaman olmadığı qədər hərbi cəhətdən güclənməsi. Qlobal səviyyədə ABŞ-m payına dünya əhalisinin 4,5%-i, 21% ÜDM və dünya bazarının maliyyələşdirilməsinin təxminən yarısı, Rusiyanm payına isə 2-3% əhali və 1,6 % ÜDM və kapitallaşdırılmanın 0,1%-dən azı düşür. Bu, o deməkdir ki, iqtisadi cəhətdən Rusiya ABŞ-ın rəqibi ola bilməz. ABŞ-la rəqabət dövrü başa çatmışdır, "Yetişmək və ötmək" çağırışı kommunizm tarixinin dərinliklərində hələ də qalmaqdadır. Müasir Rusiyanın başqa istiqamətləri var. Onun üçün Avropa İttifaqı ölkələrinin hətta ən aşağı iqtisadi göstəriciləri əlçatmazdır. V.Putin tərəfindən təklif olunan Portuqaliya ilə həyat səviyyəsinin keyfiyyət müqayisəsi isə gələcəyin işidir.

Dünya bazarında özünün hökmran mövqeyindən çıxış edən ABŞ Rusiyanın qlobal iqtisadiyyata inteqrasiyası şərtlərini şərh edir. Bu, yalnız Amerika bazarlarında rus mallarına amerikan kvotası – Cekson-Venik düzəlişləri qoruyub saxlamağı nəzərdə tutmur, qismən Rusiya poladına tətbiq edilən tariflərin artırılmasını və ABŞ-ın rus kompaniyalarına sanksiyasını da nəzərdə tutur. Vaşinqtondan Rusiyanın iqtisadi inkişafına dair elə mühüm məsələlərin həlli asılıdır ki, bunların sırasında: xarici ticarətin şərtləri, BVF və Ümumdünya Bankı-

nın kreditlərinin çatdırılması, xarici borcun restruksiyası və Rusiyanın qəbulu.

Bütün bunlar o deməkdir ki, ABŞ-la stabil münasibətlər Rusiya Federasiasının iqtisadi inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Ölkə iqtisadi qüdrətinin yenidən dirçəlməsi onun dünya iqtisadiyyatına inteqrasiyası ilə bağlıdır. Dünya iqtisadiyyatında və siyasətində ABŞ-ın müəyyənləşdirdiyi yeni oyun qaydaları Rusiya üçün ciddi sınaqdır. ABŞ Rusiya ilə borcların restruksiyası barədə ciddi damşıqlar aparmaq istəmir. Amma buna baxmayaraq, Rusiya bir sıra maliyyə məsələlərinin həllində ABŞ-ın iştirakımn tərəfdarıdır. Borc yükünü azaltmaq və Rusiya dövlət maliyyəsini stabilləşdirmək üçün heç olmazsa, 15 il ərzində ABŞ-ın aparıcı rol oynadığı beynəlxalq maliyyə institutları ilə normal, sabit iqtisadi münasibətlərin qurulması vacibdir. Burada nəinki ABŞ-ı keçmək, heç buna cəhd etmək də olmaz. Qeyd etmək lazımdır ki, burada heç Rusiya xəzinəsinə daxil olan və qiyməti sıçrayışla artan neft dollarları daköməyə gəlmir.

Rusiya və ABŞ-ın beynəlxalq siyasətilə bağlı mühüm məsələlərin həllində həm ümumi, həm də ziddiyyətli məqamlar mövcuddur. Ona görə də rus-amerikan münasibətlərində əməkdaşlıq elementləri olduğu kimi, rəqiblik elementləri də mövcud olacaq. Beynəlxalq terrorizmə qarşı mübarizə, kütləvi qırğın silahlarının yayılmaması kimi beynəlxalq əhəmiyyətli məsələlərdə Moskva və Vaşinqton müvəffəqiyyətlə əməkdaşlıq edirlər.

Amma Rusiya və ABŞ-ın 90-cı illərin əvvəlində elan etdikləri strateji əməkdaşlıq yalnız deklorativ xarakter daşıyırdı, belə ki, işin vəziyyətini təhlil edərək əməkdaşlığın qeyri-bərabər səviyyədə olduğu dərk edilmişdir. ABŞ başa düşürdü ki, Rusiya daha dünyanın müxtəlif regionlarında Vaşinqtonun rəqibi sayılmır. Rusiya əvvəlki kimi Qərbin tərkib hissəsi və ya etibarlı müttəfiqi hesab olunmur. Zəifləmiş Rusiya ABŞ-a müasir beynəlxalq münasibətlərin geostrateji yeni oyun qaydalarının müəyyənləşdirilməsində prioritet rol oynaya bilməz.

Rusiya ilə münasibətlər artıq ABŞ-ın xarici siyasətində prioritet təşkil etmir. ABŞ əsas üstünlüyü NATO-nun müttəfiqləri və Cənub-Şərqi Asiya ölkələri, ilk növbədə isə Yaponiya ilə mövcud strateji münasibətlərin möhkəmləndirilməsinə və inkişafına verir. ABŞ Cənub-Şərqi Asiyada xarici siyasətdə əsas üstünlüyü SSRİ-nin süqutundan sonra yaranmış boşluğu doldurmağa çalışan Çin Xalq Respublikası ilə münasibətlərə verir. Mürəkkəbləşən şərtlər daxilində tərəflərdən hər biri əməkdaşlığın səviyyəsini, öz fəaliyyətlərinin perspektivi və reallıq səviyyəsini təhlil etməyə cəhd edirlər. Deyilənlərə sübut olaraq NATO-nun keçmiş sovet ölkələri və SSRİ-nin Varşava Müqaviləsi Təşkilatında keçmiş müttəfiqlərinə doğru genişlənməsi istiqamətində fəaliyyətini ABŞ-ın postsovet ölkələrinə doğru istiqamətlənməsi, həmçinin Bosniya və Herseqovinada, Kosovoda, Makedoniyada, Əfqanıstanda və İraqda baş verən münaqişələrin lokallaşdırılması cəhdini göstərmək olar. ABŞ-ın əvvəlki kimi Rusiya ilə əməkdaşlığa hazır olduğunu elan etməsinə baxmayaraq, əməldə o, regional və qlobal problemləri Rusiyanın iştirakı olmadan həll etməyə çalışır. Bu, özünü yalmz Ərəb-İsrail münaqişəsi və keçmiş Yuqoslaviyadakı münaqişələrin həllində deyil, eyni zamanda, anti-İran kompaniyası dövründə də göstərmişdir. ABŞ Rusiyanı yalnız Avropada, Yaxın Şərqdə, Cənub-Şərqi Asiyada deyil, həm də hazırda müstəqil olan keçmiş sovet ölkələrində də sıxışdırmağa çalışır. ABŞ da Rusiyanın Asiyada, Ukraynada və Cənubi Qafqazdakı maraqları ilə daha az hesablaşmağa başlamışdır.

İş o yerə çatmışdır ki, bir müddət əvvəl ABŞ Qazaxıstanda, Özbəkistan və Qırğızıstanda – Rusiya, cənub sərhədlərində 50 minlik qüvvə ilə hərbi əməliyyat aparmışdır. Mühüm əhəmiyyət kəsb edən məsələ müasir şəraitdə ABŞ-ın rəhbərliyi altında Qərb və Şərq yarımkürəsində, Kanadadan ABŞ-a, Böyük Britaniyadan Türkiyəyə, Baltikyanıdan Cənubi Qafqaza qədər ərazidə aparıcı və dominant hərbi-siyasi qüvvəyə çevrilən NATO-nun tərkib və funksiyasının genişlənməsidir. Bütün

bunlar isə Rusiyanın beynəlxalq məsələlərin həllində izolyasiya olunmasına gətirib çıxarmışdır.

Bu faktorları nəzərə alaraq, geniş ərazi və hərbi-siyasi, iqtisadi zəiflik kimi, ictimaiyyətdə həmrəyliyin mövcud olmadığı Rusiya formalaşmaqda olan Avroatlantik təhlükəsizlik strukturuna çətinliklə yazıla bilər. Rusiya hələ indiyə qədər nə istədiyinə qəti olaraq qərar verə bilmədi: ümumavropa evinə daxil olmaq və ya Qərbdən təcrid olunmuş halda qalmaqda davam etmək. Rusiyanm Qərbə qarşı anlaşılmaz, pərakəndə münasibəti həm də onunla mürəkkəbləşir ki, son onillikdə bu dövlətin sülh dövründə milli nüfuzu qəfildən aşağı düşmüşdür.

1990-cı illərin əvvəllərində Moskvada optimist olaraq güman edirdilər ki, ABŞ və Rusiya yeni dünya nizamının iki sütunu kimi əməkdaşlıq edəcəklər. Rusiya qərblilərinin fikrincə, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Rusiyanın aktiv iştirakı ilə Avropa təhlükəsizliyinin yeni layihəsində ən nüfuzlu siyasi struktur olmalı idi. İndi, 15 il ötəndən sonra Rusiya özünü keçmiş sosialist düşərgəsinə mənsub dövlətlər – Varşava Müqaviləsi Təşkilatı hesabına genişlənən və əvvəllər SSRİ-nin tərkibinə daxil olan dövlətlərin birləşdirilməsi yolu ilə Şərqə sonrakı geostrateji irəliləməni nəzərdə tutan NATO-ya sadiq hesab edir. Moskva artıq əmindir ki, genişlənmə NATO-nun əsas vəzifəsidir. Buna baxmayaraq, 1997-ci ildə Rusiya-NATO Əsas Aktının imzalanması və Birgə Daimi Şurasının yaradılması müəyyən qədər NATO və Rusiya arasındakı münasibətlərin, ümumilikdə Avropa təhlükəsizliyinin əsasını təşkil edir. Çox güman ki, Şimali Atlantik bloku Avropada təhlükəsizliyin təmin olunması üzrə yeganə təşkilat deyil. Amma o da aydındır ki, ABŞ üçün məhz bu təşkilat mühüm rol oynayır. Onu da qeyd edək ki, indiki dövrdə Avropa təhlükəsizlik sistemi möhkəm və sarsılmaz deyil. NATO həm kəmiyyət üzrə, həm də qarşısına qoyulan vəzifələr əsasında genişlənir. ABŞ üçün Rusiyanın nüfuzunu itirdiyi Avropa geostrateji qüvvələr nisbətində prioritet olaraq qalmaqdadır. Avropa ABŞ üçün Avrasiyada

başlıca geostrateji meydandır. ABŞ-ın Avropada güclü hərbi-siyasi aləti olan NATO Avropa və ondan kənarda olan dövlətlərə siyasi və hərbi təsir etmək üçün imkan verir. Rusiyada anlamalıdırlar ki, nə təcridolunma, nə də geostrateji cəhətdən bənzər zəif qurumların – Belarus və Ermənistanla, bəlkə də postsovet məkanının digər zəif dövlətləri ilə Müdafiə İttifaqının yaradılması Rusiyanm maraqlarına xidmət etməyəcək.

ABŞ və Rusiya arasında münasibətlər qarşıdakı illər ərzində sınaq müddəti keçəcək. Aydındır ki, 2008-2010-cu illərdə NATO Gürcüstan və Ukrayna da daxil olmaqla postsovet ərazisində formalaşmış suveren dövlətləri öz sıralarına daxil etməklə genişlənmənin növbəti mərhələsini həyata keçirmək niyyətindədir.

V.Putinin NATO barədə ictimai bəyanatına baxmayaraq, Rusiyanın xarici siyasi elitası ən yaxşı halda birmənalı qəbul etmir. Avropada sovet siyasətinin əsas məqsədi ABŞ və Avropa ölkələri arasında ziddiyyəti dərinləşdirməkdir. Bu yanaşmanın əlaməti Rusiyanın Avropa siyasətində də aydın nəzərə çarpır, məsələn, raket əleyhinə müdafiə məsələsində. Şübhə yoxdur ki, Rusiya açıq və ya üstüörtülü şəkildə bu və ya digər dövlətin alyansa üzv seçilməsinə veto qoymamalıdır. Belə ki, Moskva ABŞ-ın Atlantik geostrategiyasına təzyiq etmək üçün real vasitələr əldə etmək imkanına malik olacaq.

XX əsrin sonu – XXI əsrin əvvəllərində – Avroatlantik regionda iri dövlətlərin rəqabəti məsələsi ilə bağlı təhlükəsizlik məsələləri öz əvvəlki sərtliyini itirməyə başladıqda, NATO ilə bağlı mübahisələr bu sahədə daha sərt qeyri-ənənəvi problemlərin həllinə yönəlmiş əməkdaşlığa mane ola bilərdi. Amma müasir dövrdə iqtisadi qeyri-stabillik, ətraf mühitin çirkləndirilməsi, təbiət hadisələri, nüvə maddələrinin istehsalı, saxlanması və təhlükəsizliyi məsələsi, əhalinin sağlamlığı, miqrasiya məsələləri və əlverişsiz demoqrafik tendensiyalar, artmaqda olan cinayət və korrupsiya və s. Rusiya üçün Avropada qüvvələr balansınm pozulmasından daha çox təhlükə doğurur.

Mərkəzi Asiyada 5 yeni suveren dövlətin yarandığı, həmçinin, Cənubi Qafqazda Ermənistan, Azərbaycan və Gürcüstanın müstəqillik qazandığı vaxtdan bəri Rusiyanın bu ölkələrdəki siyasəti ABŞ-la toqquşur. Rusiya Mərkəzi Asiya və Cənubi Qafqaz dövlətlərini həyati vacib ərazi kimi nəzərdə tutur. Bir tərəfdən bu dövlətlər Rusiya ilə ümumi sərhədə malikdir, digər tərəfdən də bu ölkələrin bir çoxunda etnik azlıq təşkil edən ruslar yaşayır. Rusiyanın qlobal səviyyədə öz nüfuzunu itirməsinə baxmayaraq, o, əvvəlki kimi bu regionlarda milli maraqlarını qorumaq üçün təsir göstərməyə çalışır. Amma ildən-ilə Rusiyanın Mərkəzi Asiya və Cənubi Qafqazda olan mövqeyi aşağı düşməkdədir. ABŞ Əfqanıstanda anti-terror əməliyyatı ilə bağlı dünyanın strateji cəhətdən mühüm ərazilərində öz mövqeyini gücləndirməyə çalışır. Əfqanıstanda öz plasdarmını gücləndirməklə ABŞ uzaq məqsədlər güdür: Birincisi: Rusiyanı əvvəlki mövqeyindən sıxışdırmaq; ikincisi: Mərkəzi Asiyada islam ekstremizminin yaranmasımn qarşısını almaq; üçüncüsü: Çinin ekspansiyasının qarşısını almaq; dördüncüsü: yeni boru kəmərləri vasitəsilə Mərkəzi Asiyanın karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması; beşincisi: bu regionlarda demokratik rejimin gücləndirilməsinin təmin edilməsinə yardım göstərmək, altıncısı: narkotik maddələrin Mərkəzi Asiya və Orta Şərqdən Qərbə yayılmasının kökünü kəsmək.

ABŞ-dan fərqli olaraq, Rusiya müasir dövrdə qarşısına belə strateji vəzifələr qoymaq iqtidarında deyil. O, bu geostrateji regionda ABŞ-la yalnız əməkdaşlıq edə bilər. Rusiya ABŞ-a Əfqanıstanda "Taliban" rejiminin ləğv edilməsində dəstək olmuşdur. Rusiyanı narahat edən əsas məsələ ABŞ-ın aktiv dəstəyi ilə Türkiyənin regionda fəallığının artması, xüsusilə də, enerji resurslarınm Türkiyə istiqamətində Azərbaycan və Gürcüstandan daşınmasıdır. Bu, müəyyən dərəcədə geostrateji xarakterin mühümlüyü ilə – Türkiyəyə ABŞ-ın Cənub-Şərqdə Avroatlantik əməkdaşlıqda yaxın müttəfiqi kimi yanaşması, NATO-nun Türkiyəni Qərbin, ilk növbədə, ABŞ-ın regionda

siyasətinin aparıcısı kimi rolunu möhkəmləndirməsi cəhdi ilə xarakterizə olunur. Burada Amerikanın geostrateji balansı qorumaq və regionun beynəlxalq ictimaiyyətə inteqrasiyası istiqamətində yürütdüyü siyasət Rusiyanı geridə qoyur.

Cənubi Qafqazda Rusiya-Amerika münasibətlərini qaydaya salmaq Mərkəzi Asiyada olduğundan çətin olacaq. Rusiya ehtiyat edir ki, Mərkəzi Asiyada dövlətlərin müstəqilliklərinin möhkəmləndirilməsindən fərqli olaraq, Gürcüstan və Azərbaycanın iqtisadi cəhdləri və iqtisadi cəhətdən möhkəmlənməsi daha təhlükəli ola bilər və onun öz stabilliyini təhlükə altında qoya bilər. Rusiya ondan narahatdır ki, Gürcüstanın NATO-ya daxil olması Şimali Qafqazın milli əhval-ruhiyyədə olan xalqlarının da separatçılıq meyillərini gücləndirə bilər, hansı ki Rusiyanın ölkənin cənub regionlarında nəzarətinin zəifləməsinə gətirib çıxara bilər.

Gürcüstana qarşı bəzən sərt, bəzən də təcili xarakter daşıyan münasibətə malik Moskvadan fərqli olaraq, ABŞ Cəbubi Qafqaz dövlətlərinə iqtisadi və hərbi təsir elementlərindən istifadə edərək regiona aktiv şəkildə daxil olmağa çalışır. Bütövlükdə Azərbaycan və Gürcüstanı beynəlxalq əməkdaşlıqda bərabərhüquqlu üzv kimi öz yerini müəyyənləşdirməyə çalışan dövlətlər sırasına aid etmək olar. İndi yalnız Ermənistan Cənubi Qafqazda Rusiyanın müttəfiqi olaraq qalmaqdadır.

ABŞ və Rusiya arasındakı siyasi münasibətlərin qeyri-müəyyənliyi tərəflərə bir-birinə qarşı nüvə qarşıdurması strategiyasından əl çəkməyə imkan vermir. Bundan əlavə, SSRİ-nin süquta uğramasından sonra ABŞ və Rusiyanın rolları dəyişilmişdir. Əgər "soyuq müharibə" illərində ABŞ hərbi cəhətdən kifayət qədər qüdrətli olmaması ilə əlaqədar NATO-ya əsaslanırdısa, indi alyansın Avropada adi silahlar kateqoriyası üzrə geniş imkana malik olması Rusiyanı öz nüvə ehtiyatlarına əsaslanmasına şərait yaradır. Belə bir sual yarana bilər: problemin mahiyyəti nədir? Həqiqətən Rusiya keçmiş SSRİ tərəfindən elan edilmiş nüvə silahını birinci olaraq tətbiq etməməsi və digər doktrinalardan imtina etməsi milli təhlükə-

sizliyin təmin olunmasında nüvə faktorunun dəyişməkdə olan rolunu göstərir. Geniş miqyaslı qeyri-nüvə hücumuna qarşı nüvə müdafiəsi taktiki və strateji nüvə vasitələrin tətbiq edilməsinin çevik və müxtəlif variantlarını tələb edir. 1991-ci ilin payızında Rusiya özünün taktiki nüvə potensialınm əsas hissəsini Şərqi Avropadan çıxaracağını elan etdi.

Ziddiyyətli vəziyyət, eyni zamanda, ikitərəfli paritet və nüvə sahəsində olan kateqoriyalarda da meydana çıxmışdır. Sistem böhran, təbii ki, rus nüvə arsenalmda da əks olunmuşdur. Rusiya hələ ki, ABŞ ilə strateji nüvə paritetinin saxlanılması sahəsində çətinlik çəkmir.

Rus-amerikan nüvə pariteti ilə yanaşı, nüvə ikiqütblülüyü də saxlanılmaqdadır. Rusiya əvvəlki kimi üç nüvə dövlətinin nüvə qüvvələri üzərində əhəmiyyətli üstünlüyə malikdir. 1990-cı illərdə Böyük Britaniya və Fransa özlərinin modernləşmə və nüvə qüvvələrinin genişləndirilməsi planlarmı azaltmışlar. Çin, köhnəlmiş sistemlərin yeniləri ilə modernləşdirilməsini həyata keçirir, dəniz ballistik raketlərin texnologiyasını yenidən işləyib hazırlayır. İstisna deyil ki, modernləşdirilmənin həyata keçirilməsindən sonra Çinin nüvə potensialı əhəmiyyətli dərəcədə yüksələcək. Analitiklərin proqnozlarına görə artıq yaxın illərdə onun miqyasını Rusiyanınkı ilə müqayisə etmək olacaq. Nüvə dövləti kimi tanınmamış beş dövlətdən üçü – Hindistan, Pakistan və Çin Xalq Demokratik Respublikası nüvə sınağı keçirmiş və dünya səviyyəsində nüvə dövləti kimi tanınmaq istiqamətində ciddi cəhd göstərirlər. İsrail və İran qeyri müəyyənliyi qoruyub saxlamağa cəhd göstərirlər və özlərində nüvə texnologiyasının mövcudluğunu nə inkar, nə də təsdiq edirlər. Nüvə klubunun genişlənməsi məsələsinə gəldikdə, bu məsələ hələ gündəlikdə dayanmır. Nüvə silahlarının yayılmaması üzrə müqavilə nüvənin geniş yayılması prosesini məhdudlaşdırmaqla müəyyənedici, mühüm rol oynamışdır.

1960-cı illərin əvvəllərində hesab edirdilər ki, XX əsrin sonunda 30-dan artıq dövlət nüvə silahına malik olacaq.

Reallıqda isə onların sayı 8-i keçməmişdir. Bu sırada İsrail, Yaponiya, İran və s. dövlətlər də durmağa hazırlaşırlar. Amma XXI əsrin əvvəllərində silahlar üzərində nəzarətin olmaması rus-amerikan paritetinin pozulmasına kömək etdi. İkiqütblü nüvə dünyasının yerində başda ABŞ olmaqla çoxqütblü sistem formalşmağa başladı. Nəticədə əgər Çinin nüvə potensialı Rusiyaya və sonra ABŞ-a çatarsa, nüvə çoxqütblülüyü yarana bilər. Beləliklə, nüvə silahının Rusiya geostrategiyasına təsiri keçid dövrünü yaşamaqdadır. Onun üçün 3 faktor xarakterikdir:

- Hazırda Rusiyanın dünyada yeri və geostrateji prioritetləri haqqında dəqiq və aydın ifadə olunmuş cavab mövcud deyil. Biz indi Rusiyanın hansı koalisiyaya daxil olacağı və ümumiyyətlə harasa daxil olacağı barədə dəqiq fikir yürüdə bilmirik.
- Raket-nüvə qarşısınıalma Rusiya Federasiyasının milli təhlükəsizliyinin təmin olunmasında mühüm faktor olaraq qalmaqdadır;
- Proqnozlaşdırılan perspektivdə Rusiya əvvəlki kimi nüvə dövləti kimi qalacaq.

ABŞ-Rusiya münasibətlərində nüvə qarşısını alma münasibətlərinin qorunub saxlanması, strateji paritet, eləcə də, nüvə bipolyarlığı sayəsində strateji silahlar üzərində nəzarət prosesi öz aktivliyini hələ də itirməmişdir. Amma 1980-ci illərin sonu – 90-cı illərin əvvəllərində baş verən dəyişikliklər Rusiya və ABŞ-ın milli təhlükəsizliyi prioriteti sistemində nüvə silahının rolunu dəyişmişdir. ABŞ əvvəlki kimi Rusiyanın strateji qüvvələrinin dinamikasının şəffaf və izahedilən olaraq qalmasında maraqlıdır. Rusiyada strateji nüvə qüvvələrinin məhdudlaşdırılmasının qaçılmaz olduğuna əminlik Pentaqonun təkamülə təminat verən alət olan silahlanma üzərində nəzarətə marağını zəiflədir. Hərbi qüvvə ehtiyatının saymı ən azı 2000-ə endirmək üçün amerikan strateji triadasının strukturunun qurulması tələb olunardı. Görünür, ənənəvi strateji qüvvələrin üçhəlqəli

strukturundan imtina etmək, aviasiya və yerli komponent nümayiş etdirərək ikihəlqəli sistemə keçmək tələb olunur.

1990-cı illərdə Rusiya hakim dairələrində mövcud olan qeyri-müəyyənlik Rusiya nüvə materialı və silahlarının saxlanması sahəsində ABŞ və onun tərəfdarlarının qayğısım artırmışdır. Terrorist qruplar tərəfindən yaradılan və üçüncü dünya dövlətlərinin narahatlığına səbəb olan onların itkisinin azalması problemi meydana çıxmışdır. Təhlükəsizliyin təmin olunması və artması sahəsində əməkdaşlığı, kütləvi qırğın silahlarının nəql etməsini, demontajmı həmçinin utilizasiyasını nəzərdə tutan silahlar üzərində nəzarətin yeni sferası yaranmışdır.

Mövcud əməkdaşlıq yüksək səviyyədə qarşılıqlı etibarlılıq tələb edir. Silahlanma üzərində "yeni" nəzarətin yaradılması, ikitərəfli xarici siyasi münasibətlərin diversifikasiyası, nüvə qarşısını almanın rolunun dəyişdirilməsi ona gətirib çıxardı ki, həm ABŞ, həm də Rusiya üçün strateji silahlanmaya nəzarət onlar arasında dialoqun əsas məsələsi olmaqdan çıxdı.

Strateji prioritet və nüvə ikiqütblülüyü Rusiyanın yüksək beynəlxalq rolunu müəyyənləşdirən sonuncu faktorlar deyil. Rusiya nüvə qarşısınıalmasına rus qeyri-nüvə hərbi potensialının tükənəcəyi təqdirdə nüvə hücumunun qarşısını alan vasitə kimi baxır. Ona görə də, Rusiyanın xarici siyasətində strateji silahlanma üzərində nəzarət ABŞ-a nisbətən daha mühüm yer tutur. Bu faktor ölkənin daha mühüm nüvə qüvvəsinin praktiki siyasi müstəviyə çevrilməsində mühüm rol oynamaqda davam edir. Silahlanma üzərində nəzarət Rusiyaya nüvə faktorundan xarici, müdafiə və iqtisadi siyasətin digər məsələlərində əsas vasitə kimi istifadə etməyə imkan verir. Bundan başqa, yalnız nüvə silahlarınım məhdudlaşdırılması prosesində vasitəçilik yolu ilə Rusiya paritetin saxlanılması və ABŞ tərəfindən strateji silahların Rusiya üçün mümkün olan səviyyəyə qədər endirilməsinə nail ola bilər. Rusiya çoxqütblü nüvə dünyasının formalaşmasınm vaxtını dəyişməyə və ya ləğv etməyə ona daha yüksək geostrateji statusa və təsirə malik olmağa

imkan verən mühüm faktoru aradan qaldırmağa cəhd göstərir. Bu qorxu ABŞ Prezidenti C.Buşun qismən nəzarət haqqında bəyanatından sonra daha da artmışdır.

Nüvə silahının Rusiyadan yayılması təhlükəsi raket və nüvə texnologiyalarının yayılmasını nəzərdə tutan daha bir aspektə malikdir. Onların ən başlıca idxalçılarından biri əvvəlki kimi İrandır, amma Hindistan və Liviya da Rusiya ilə bu qəbildən olan ticarətlə məşğul olurlar və bu sahədə Rusiyadan yardım alırlar. Aydındır ki, əksərən Rusiyanm dəstəyi ilə İran müvəffəqiyyətlə öz nüvə proqramını həyata keçirir. Buna cavab olaraq İranı terrorizmin fəaliyyət göstərdiyi dövlətlər sırasma daxil edən ABŞ rus cəmiyyətləri və təşkilatlarınm yardımından məhrum etmək təcrübəsindən istifadə edir.

Nəzəri cəhətdən "soyuq müharibənin" başa çatmasından sonra Rusiya strateji silahlanmaya nəzarət prosesində güclü maraq göstərmişdir. Daha zəif tərəf kimi Rusiya danışıqlarda öz mövqeyi üzərində tam şəkildə dayanmağa müvəffəq ola bilmir. Məsələn, SSM-2 (Strateji hücum Silahlarının Məhdudlaşdırılması haqqında müqavilə) müqaviləsi harada ki, başlıca hissələrə bölünmüş qitələrarası ballistik raketdən imtina edən Rusiya Amerika tərəfinin mühüm cavabına nail ola bilməmişdir. Təcrübədə silahlanma üzərində nəzarət rejimi digər tərəfin potensial dinamikasının qabaqcadan xəbər verilməsini təmin edir. 1993-cü ilə qədər böyük Corc Buş administrasiyası RƏM müqaviləsinin radikal şəkildə dəyişdirilməsini təkid edirdi. Həmin ilin yazında hakimiyyətə gələn Klinton administrasiyası SMT (Strateji Müdafiə Təşəbbüsü) proqramını ləğv edib elan etdi ki, müqaviləni möhkəmləndirmək vacibdir. Amma 1999-cu ilin yanvarında o, Rusiyaya bu sənədə yenidən baxmağı və ABŞ-a Milli Raket Əleyhinə Müdafiəni (MRƏM) yaratmağı təklif edərək öz kursunu dəyişdi. Amma kiçik Buş administrasiyası ümumiyyətlə bu müqavilədən çıxmaq qərarına gəldi.

ABŞ-ın Milli Raket Əleyhinə Müdafiəni yaratmaq istəyinin əsas səbəbi, müasir mərhələdə ölkənin milli təhlükəsizliyi-

nə hədələrin olması idi. 2001-ci il 11 sentyabr hadisələri buna sübut idi. Əgər 1972-ci ildə ABŞ SSRİ tərəfindən gələ biləcək nüvə hədəsindən ehtiyat etməli və bu məqsədlə RƏM haqqında müqavilə hazırlandısa, hazırda Şimali Koreya ABŞ ərazilərinə çata bilən raketlərə malikdir. Onlar "Toxodon-3" sistemi Havay adaları, Alyaska və Amerikanın Sakit okean sahilinin şimal hissələrində olan hədəfləri və Sakit oken hərbi-dəniz donanmasını məhv etməyə qadirdir. Yaxın gələcəkdə "raketə malik" dövlətlər sırasına İran, İsrail, Pakistan, Hindistan və Yaponiya da daxil olacaq. Bu məntiqin bəzi tərəfdarları bunu ABŞ və Çin arasmda münasibətlərə də aid etmək istəyirlər. Belə ki, Tayvana dair Amerika öhdəlikləri möhkəm deyil, Çin Los-Anclesə nüvə silahı ilə hücum etməklə hədələyərək ABŞ-ın Taybeyə müdaxiləsinin qarşısını ala bilər. Əgər ABŞ ərazisi MRƏM ilə əhatə olunmuş olsa, belə hədə daha az mümkün olacaq.

Bundan irəli gələrək, ABŞ Rusiyaya milli qanunun genişlənməsinə dair 1972-ci il müqaviləsinə yenidən baxmağı təklif etdi. İlkin mərhələdə Rusiya sərt mövqe nümayiş etdirdi. ABŞ-ın çağırışına cavab vermək və raket əleyhinə hərəkata qoşulmağa Rusiya qərar vermədi, buna sadəcə səbəb yox idi. Ondan birbaşa imtina etmək ona görə mümkün deyildi ki, bu zaman Rusiya aparıcı dövlət statusundan məhrum olmuş olurdu. Bunun əvəzində Rusiya öz geostrateji statusunu və hərbi-sənaye kompleksini dirçəltmək məqsədilə "pul sizin – raket bizim" prinsipi əsasında utopik layihələr irəli sürürdü. Amma Rusiyanın İran və qismən də Şimali Koreya ilə yaxınlaşması üzündən ABŞ bunu obyektiv olaraq qəbul edə bilməzdi.

ABŞ-ın NATO-da avropalı müttəfiqləri Rusiyanın Avropa RƏM-i yaradılması üzrə təşəbbüsünə soyuq yanaşdılar. MDB-nin bəzi üzvləri Rusiyanın bu təşəbbüsünü dəstəkləyən yeganə dövlətlər idi. Bununla əlaqədar olaraq RF-nin keçmiş prezidenti V.Putinin Şimali Koreyaya səfərini göstərmək olar. O zaman o, Pxenyanın nüvə proqramını bağlamasına cəhd göstərmişdir. Amma bütün bunların əvəzində 2002-ci ilin sonu – 2003-cü

ilin əvvəllərində Şimali Koreya Rusiyanı xəbərdar edərək, öz ballistik raketlərinin sınaq buraxılışını həyata keçirdi.

ABŞ-ın RƏM haqqında müqavilədən çıxması üzündən Rusiya-Amerika münasibətlərinin pisləşməsi prinsip etibarı ilə Rusiya-Çin hərbi-siyasi əməkdaşlığını genişləndirə bilər, hansı ki, geosiyasi səviyyədə hər üç dövlətin silahlanmasının canlanması demək olardı. Rusiya və Çin arasında alyansın yaranması Cənub-Şərqi Asiyada Çinin mövqeyinin möhkəmlənməsinə gətirə bilər, baxmayaraq ki, bütün hərbi-siyasi xarakterin güclənməsi ABŞ-ın regional müttəfiqlərinin təhlükəsizliyini zəiflədə bilərdi.

Prinsipcə "soyuq müharibə" modelinə qayıtmaq mümkündür, amma bəzi səbəblərə görə qayıtmaq ehtimalı azdır. Hər şeydən əvvəl artmaqda olan konflikt potensialı tammiqyaslı geosiyasi konfrantasiya üçün yetərli deyil. Müasir şəraitdə Rusiya qlobal hegemonluq iddia etmək iqtidarında deyil. O, alternativ dəyərlər sistemini təbliğ etmir və ABŞ-ın köklü geostrateji maraqlarına cavab vermir. Eynilə də ABŞ Rusiyanın solçu qüvvələri və millətçilərdən şübhələndiyindən Rusiyanı "əldə etməyə" çalışmır. ABŞ və Rusiya arasında NATO-nun şərqə doğru genişlənməsi, İraqda, Balkanlarda və Çeçenistanda güc tətbiq etmək, İran və Şimali Koreya ilə bağlı fikir ayrılıqları, postsovet məkanında, xüsusilə, Cənubi Qafqazda rəqabət sahəsində ziddiyyətlər miqyas və intensivliyinə görə XX əsrin 50-60-cı illərində ABŞ və Rusiya arasındakı ziddiyyətlərdən zəifdir. Bundan başqa bütün sadalanan hallarda rəqabət əməkdaşlığı kəsişir, çoxtəyinatlı konkret maraqlar nəinki bir-birindən fərqlənir, əksinə, bir çox sahələrdə, məsələn, terrorizmə qarşı mübarizədə üst-üstə düşür. "Soyuq müharibə" barəsində son dəlil: Rusiyanın ABŞ-la uzunmüddətli və ciddi geosiyasi qarşıdurma üçün kifayət qədər gücü yoxdur. Rusiya rəhbərliyi etiraf edir ki, xüsusilə, RƏM problemi üzrə konfrantasiyaya daxil olmaq özünü öldürməyə bərabərdir. Bu haqda Rusiya Federasiyasının Prezidenti 4 iyun 2000-ci ildə ABŞ Prezidenti B.Klintonla görüşdə demişdir.

"Soyuq müharibə" yalnız o təqdirdə başlaya bilər ki, Rusiyada hakimiyyəti sərt formada mərkəzləşdirmək və müharibəyə hazırlıq üçün iqtisadiyyatı səfərbər etmək, xarici siyasətdə isə qeyri-stabil rejimlərlə ABŞ əleyhinə sərt hərbi-texniki əməkdaşlıq etmək iqtidarında olan revanşist millətçi qüvvələr gəlmiş olsun. Qeyd etmək lazımdır ki, müasir dövrdə Rusiya ABŞ-ın nə müttəfiqidir, nə də rəqibi.

Gələcək rus-amerikan münasibətləri daha çox geosiyasi konsepsiya və doktrinalardan deyil, Rusiyanın keçəcəyi yoldan asılıdır. Əgər millətçi "böyük rusçular" böyük rus şovinizminə cəhd göstərsələr, Rusiya artmaqda olan diqqəti öz üzərinə çəkməyə ənənəvi üsullarla özünə hörmət edilməsinə nail olacaq: bu keçilən yola əminliklə proqnozlaşdırılmış nəticələr əsasında nail olunmuşdur. Onun tərəfdarları ABŞ-ın düşmən mövqeyini qazanacaq, amma Rusiyanın özündə boşluqlar yaradacaq. Əksinə əsas istinad ölkənin uğurlu inkişafına yönəlmiş olsa, Rusiya daha böyük enerji ilə öz yaradıcılıq qabiliyyətini reallaşdırmalı olacaq. O, iri dövlət olmaq iddiasından qismən uzaqlaşmalı, Avropaya birləşmək istiqamətində tarixi seçim etməli və qoyulmuş qaydalara uyğunlaşmalı olacaq.

Hələ uzun müddət mərkəzi geostrateji rol oynamaq iddiasında olan ABŞ-la rəqabətə girməkdən daha çox onunla qarşılıqlı münasibətlər qurmağı öyrənmək lazım gələcək. Aydındır ki, bu daimi deyil, amma uzunmüddətlidir. Mühüm olan digər bir məqamdır: o, mütləq deyil, amma Rusiyanm manevr etməsi üçün günəş imkanlar açır. Bu münasibəti konstruktiv assimetriya adlandırmaq olar.

## ƏDƏBİYYAT:


1. Внешняя политика Российской Федерации. М., 2000.
2. Дипломатический вестник. Специальный выпуск. М., 1993, №1-2.
3. Калашников В. Л. Славянская цивилизация. М., 2000.
4. Никонов В. Соблазн особого пути / "Россия в глобальной политике". М., 2003, Т.1.
5. Образ и реальность ООН. М., 1999.
6. Россия в глобальной политике. М., 2003, Т. 1, 3.
7. Хромов Г. Российско-американские консультации по договорам СНВ-3 и ПРО / "Ядерное распространение", М., 2001.
8. Borreqo V. Models of development in Europe. World investment Report, 2001.

## 10.5. Çin-ABŞ münasibətləri

XX əsrin 80-90-cı illərində siyasi proseslərlə bağlı Sovet İttifaqının süquta uğraması və "soyuq müharibə"nin sona çatması ilə əlaqədar formalaşan dünya geosiyasi vəziyyətində dəyişikliklər beynəlxalq arenada qüvvələrin yerləşdirilməsində radikal dəyişikliklərə səbəb olmuşdur. Formalaşan yeni dünya nizamında əsas rol ABŞ-a məxsusdur.

XX əsrin sonları ABŞ siyasəti üçün ikiqütblü dünyanın mövcudluğunun başa çatması və yeni qlobal proseslərin inkişafı ilə əlaqədar formalaşan beynəlxalq münasibətlər sisteminin radikal dəyişikliklərinin axtarışı və uyğunlaşmaq dövrüdür. Amma "soyuq müharibə"nin başa çatması ABŞ-da yeni imkanlarla yanaşı, çox ciddi problemlər də ortaya çıxarmışdır. Bir tərəfdən, qlobal konfrontasiyanın düşmən bloklarının "buraxılması" əsasında mövcudluğunun başa çatması ABŞ üçün real hərbi təhlükənin aradan qalxması və onların vahid hərbi blokda birləşdirilməsi demək idi. ABŞ daha böyük strateji manevr əldə etmiş oldu. Bundan əlavə, SSRİ-nin və bütün sosialist lagerin süqutundan sonra ABŞ üçün keçmiş sovet blokuna daxil olan dövlətlərdə öz nüfuzunu yaymaq məqsədilə əməkdaşlıq üçün geniş imkanlar yarandı.

İndiki dövrdə və gələcəkdə ABŞ-a qlobal səviyyədə fəaliyyət göstərmək üçün real imkanlara malik olan yeganə dövlət kimi baxılır. O, yalnız dünyanın bütün regionlarında hərbi əməliyyatlar aparmağa qadir olan hərbi qüvvələrin mühüm komponentlərinə deyil, həmçinin, elm və texnikanın son nailiyyətlərindən bəhrələnən effektli iqtisadiyyata da malikdir. Dünya siyasəti və beynəlxalq münasibətlər, əsasən, Vaşinqtonda qəbul olunan qərarlarla müəyyənləşir.

Digər tərəfdən, "soyuq müharibə"nin başa çatması ilə hərbi qüvvə devalvasiya olunmuş və ticari-iqtisadi sferası inkişaf etmiş ölkələrin rəqabət meydanına çevrilmişdir. Burada ABŞ soyuq

müharibə dövründə müttəfiq olduğu ölkələrin artan rəqabəti ilə qarşılaşır. Onun başa çatması, həmçinin, ABŞ tərəfindən bu qarşıdurmanı aparmaq üçün yaradılmış bütün qlobal-hərbi infrastrukturun mövcudluğunu sual altına qoymuşdur. ABŞ-ın təhlükəsizliyinə hədə və ona qarşı mübarizə sahəsində qeyri-müəyyənlik yaranmışdır. Bu hədə qismində ABŞ Çini görür. Aydındır ki, bu, səbəbsiz deyil.

Son bir neçə il ərzində dünya ictimaiyyəti beynəlxalq arenada Çinin mövqeyinin güclənməsinin şahidi olmuşdur. ÇXR-in xarici siyasəti yenilənməkdə davam edir.

1980-90-cı illər ərzində beynəlxalq arenada qüvvələr nisbətinin qəfil dəyişməsi Çinin xarici siyasətində bir sıra düzəlişlər olunmasına səbəb oldu. 80-ci illərin sonunda praktiki olaraq sovet-amerikan və sovet-çin münasibətlərində əsas ziddiyyətlərin güclənməsi və eyni zamanda Çin-Amerika münasibətlərinin qeyri-konfliktliliyi "böyük üçbucaq" geosiyasi strukturu yoxa çıxmışdır. Tyanmendə olan hadisələr Çinin ABŞ və digər Avropa dövlətləri ilə münasibətlərinin pisləşməsinə, eyni zamanda, SSRİ-də koordinal dəyişikliklərə gətirib çıxarması Çin rəhbərlərini ABŞ-ın beynəlxalq aləmdə həddindən artıq hegemonluğuna qarşı vasitə kimi "üçtərəfli münasibətlər"in yaradılması məsələsinə baxmağa vadar etdi. Dünyanın ikiqütblü sistemdən ABŞ-ın müəyyənedici rol oynadığı birqütblü dünya nizamına çevrilməsi, Rusiyanın dünya siyasətinin bütün istiqamətlərində ABŞ ilə qarşıdurması Koreyanı ABŞ üçün ideoloji cəhətdən qəbuledilməz olan milli inkişaf modelini irəli sürməyə vadar etmişdir.

Amerika təzyiqi qarşısında öz mövqelərini möhkəmləndirmək məqsədilə Çin Vaşinqton-Pekin-Moskva "böyük üçbucağı"nın diktə etdiyi oyun qaydaları siyasətini yenidən canlandırmağa məcbur olmuşdur. "Üçbucaq" strukturunun mövcudluğu və fəaliyyəti, hər şeydən əvvəl, tərəflərin qarşıdurması və onların qüvvələr nisbəti ilə müəyyən olunur. "Üçbucaq" məntiqi onu nəzərdə tutur ki, iki daha zəif və ya

passiv tərəflər daha güclü və ya aqressiv tərəfə qarşı müdafiə məqsədilə birləşməlidir. Beynəlxalq şəraitin sərt reallığı ilə üzləşən Çin öz siyasətini vaxtında korrektə etmiş və iri dövlətlərlə münasibətlərə xüsusi diqqət yetirərək, qonşu dövlətlərlə xoş qonşuluq və dostluq münasibətlərini möhkəmləndirib müstəqil və sərbəst xarici siyasət yürütməyə başladı. Bu siyasət 5 əsas prinsipə əsaslanırdı: suverenlik və ərazi bötövlüyünə qarşılıqlı hörmət, qarşılıqlı hücum etməmək, bir-birinin daxili işlərinə qarışmamaq, bərabərlik və qarşılıqlı mənfəət, sülh şəraitində yaşamaq.

Çinin xarici siyasətinin müasirləşdirilməsi prosesi Çin islahatı üçün xas olan tədrici xarakter daşıyırdı. Çin xarici siyasətinin mühüm cəhəti ondan ibarət idi ki, qərarların istisnasız sərtliyi digər dövlətlərə fərdi münasibətlərin qurulmasına əsas diqqətin yetirilməsi ilə xarakterizə olunur. Bu kontekstdə qeyd etmək lazımdır ki, Çin Qərbin iri dövlətləri ilə münasibətlərin inkişafına böyük əhəmiyyət verir və bu münasibətlər həm əməkdaşlıq, həm də rəqabət elementlərinə malikdir. Bu dövlətlər arasında münasibətlərin gücləndirilməsi cəhdi onlar arasında fikir ayrılığının yumşalması, əməkdaşlığın möhkəmləndirilməsi və qarşılıqlı çəkinmə sisteminin formalaşmasında aktiv rol oynamışdır.

Çin dünya siyasətində əvvəllər heç zaman müşahidə olunmayan yüksək templə iqtisadiyyatın inkişafı ilə əlaqəli yeni rolu ÇXR-in xarici siyasi doktrinasında müəyyən düzəlişlərə səbəb olur. Bu gün bu dövlətin xarici siyasi doktrinası tədrici yeniləşmə mərhələsindədir. Xarici siyasətdə sülh və Çinin bu dünyada yeri barədə hökumətin köhnə və yeni görüşləri birləşir.

Köhnə anlayışlara əsasən, sülh, maoizm dövründən fərqli olaraq, potensial düşmən və ölkənin təhlükəsizliyinə birbaşa hərbi hədə doğurmayan kimi qəbul edilir. Sülhə hegemonluğa, ilk növbədə, ABŞ-ın beynəlxalq dominantlıq iddiasına, qismən “iri dövlətlər” – Rusiya, Yaponiya və Hindistanın lokal hegemonluğuna qarşı mübarizə prizmasından yanaşılır.

Buradan, xarici siyasi prioritetlər ortaya çıxır. Birincisi, Çinin yenidənqurma və aşkarlıq siyasəti həyata keçirməsi üçün əlverişli şəraitin yaradılması, qlobal liderlərlə sülh münasibətlərinin qorunub saxlanması və yaxın qonşularla münasibətlərin normallaşdırılması nəzərdə tutulur. İkincisi, "zamanda gizlənmək", kompromiss əsasında fəaliyyət göstərmək, "kompleks dövlət qüdrəti" toplamaq və bundan sonra dünya liderliyinə iddia etmək.

Xarici siyasət doktrinasının yeni və köhnə yanaşmaları arasında uyğunluq öz əksini ÇXR-in XVI qurultaymda tapmışdır. Pekin bir tərəfdən, xarici vəziyyəti Çin islahatlarmın həyata keçirilməsi üçün əlverişli kimi xarakterizə edərək beynəlxalq münasibətlərə daxil olmaq və bunun əsasında dünyanın güc mərkəzləri ilə əməkdaşlığa hazır olduğunu qeyd etmişdir. Digər tərəfdən, kökü Çinin beynəlxalq hegemonluğa qarşı mübarizədə inkişaf etməkdə olan dövlətlərin lideri rolunda çıxış etməyə cəhd göstərdiyi yaxın keçmişə söykənən tezislər səslənmişdir. Qurultay müasir beynəlxalq siyasi və iqtisadi nizamı "ədalətsiz" və "kökündən dəyişməmiş" kimi xarakterizə etdi.

Terrorizmlə yanaşı "siyasətdə yeni hegemonluq siyasəti", sərhəd və ərazi münaqişələri, Şimal və Cənub arasında inkişaf baxımmdan fərqlər də göstərilir. Beynəlxalq münasibətlərin demokratikləşdirilməsini iddia edən iclas buna baxmayaraq, sülh quruculuğunun yeni modelini təklif etmədi. Məşhur Çin tezisi burada təkrarlanmışdır: beynəlxalq münasibətlərdə "demokratikləşdirilmə və ədalət" anlayışı altında birincisi, dünyanın müxtəlifliyi və ölkələrin inkişaf modelinin müxtəlifliyi; ikincisi, siyasi və təhlükəsizlik məsələlərinin məsləhət əsasında həll edilməsi, silah tətbiq etməmək və tətbiq edilməsi ilə hədələməmək; üçüncüsü, iqtisadi əməkdaşlıq, birgə inkişaf, sivilizasion və mədəni zənginləşmə; dördüncüsü, "hər bir dövlətin daxili məsələsini onun xalqı", amma "planetin problemlərini-bütün dövlətlər tərəfindən bərabərhüquqlu konsultasiya əsasında " həll edilir prinsipi.

Çinin xarici siyasətinin möhkəmləndirilməsində 2001-ci il 11 sentyabr hadisələri mühüm rol oynadı. ABŞ əleyhinə ilk Çin reaksiyası gözlənilən idi: Çin öz ərazisində terrorizmlə mübarizə aparacaq. Amma sonra Pekin anladı ki, ABŞ-ı müdafiə etməklə çox şey uda bilər. Nəticədə ABŞ-ın Əfqanıstanda hərbi əməliyyatlarına siyasi dəstək göstərmiş, bunun əvəzində Çinin şimal-qərb rayonlarının stabilliyinə hədə törədən Şərqi Türküstanın azad edilməsi cəbhəsi təşkilatının terrorist qruplar siyahısına daxil edilməsinə nail olmağa çalışmışdır.

Çinin Qərb dövlətləri ilə terrorizmlə mübarizə sahəsində münasibətlərinin o qədər də şəffaf olmaması və öz qaranlıq tərəflərinə malik olmasma baxmayaraq, Çin yeni hədələrin dəf edilməsi istiqamətində əməkdaşlıq xətti yürütmək niyyətini ifadə edir. Bu, o deməkdir ki, Pekin yeni xarici hədələrlə mübarizədə yalnız öz şəxsi imkanlarına deyil, eyni zamanda, beynəlxalq əməkdaşlıq mexanizminə arxalana bilər və bunun üçün o, kifayət qədər imkanlara malikdir.

Çinə müasir dünya arxitekturasmın formalaşdırılmasında əsas rol oynamağa iddialı olan dövlət kimi yanaşaraq, "Çinin öz sərhədlərindən kənara çıxmaq" strategiyasınm dörd əsas vektorunu ayırmaq olar.

Birincisi, bu, nüvə hərbi potensialının artırılması, silahların yeni formalarının yaradılması, kosmosun mənimsənilməsi proqramının sərbəst inkişafı, müasir dünyəvi elmi-texniki parametrlərə çıxış vasitəsilə ABŞ-m "strateji qüvvə"si və "aqressivlik potensialı"nın qarşısmın alınmasıdır;

İkincisi, Çinin artıq üzvü olmadığı təşkilatlarda (BMT) beynəlxalq institutlarda fəaliyyətinin aktivləşdirilməsi və mühüm dünya strukturları olan "Böyük yeddilər-səkkizlər", NATO həmçinin Avropa İttifaqı ilə dialoqların genişləndirilməsi;

Üçüncüsü, regional istiqamətlərdə: Şimal-Şərqi Asiya, Mərkəzi Asiya, Cənub-Şərqi Asiya, Afrika və Latın Amerikası istiqamətlərində aktivliyin artırılması;

Dördüncüsü, qonşularla sülh və mehriban qonşu münasibətlərinin formalaşması, problemlərin əvvəlki üsullarla həlli, problemin həllinin nəzərdə tutulmadığı hallarda onun sonraya saxlanılmasını nəzərdə tutan əvvəlki rəhbərlik siyasətinin davam etdirilməsi. Yeni nüans əvvəlkindən daha çox əhəmiyyət kəsb edən qonşularla əməkdaşlığın əsasını təşkil edən iqtisadi nüans oldu. Çin rəhbərliyinin ABŞ-la xarici siyasətə dair daha aydın əsasını əvvəlki kimi qarşılıqlı təhlükə və qarşılıqlı mənfəətin simbiozu təşkil etdiyi köhnə və yeni yanaşmalar özünü göstərir. Çin ABŞ-ın Asiya-Sakit okean regionunda iştirakını özünün milli maraqları üçün ən böyük hədə hesab edir. ABŞ Çinə hələ də kommunist ortodoksal ideyaları tərk etməmiş, hərbi və iqtisadi gücünü artıran, ABŞ-ın beynəlxalq mövqeyinin zəiflədilməsi marağında olan dövlət kimi baxır. Bununla yanaşı, nə ABŞ, nə də Çin bir-birinə birbaşa hərbi təhlükə kimi baxmır. Digər tərəfdən, Çin ticarətinin 1/4 hissəsinin və 1/3 xarici investisiyanın daxil olduğu ABŞ Çin modernləşdirilməsinin həyata keçirilməsində həlledeci rol oynayır. Pekin çox gözəl anlayır ki, Vaşinqtonla normal münasibətlər qurmadan iqtisadiyyatın yüksək templə inkişafını qoruyub saxlamaq olmaz. ABŞ Çində öz növbəsində iri aparıcı amerikalı transmilli korporasiyalar tərəfindən həyata keçirilən investisiya təsirlərinə əsaslanan dərin biznes maraqlara malikdir. Strateji planda Vaşinqton Çin iqtisadiyyatının marketinqləşdirilməsi və qloballaşdırılması, Çini dünya bazarı və informasiya məkanına daxil etməklə Çin siyasi sisteminin tədricən demokratikləşdirilmə istiqamətində transformasiyasına cəhd göstərir. ABŞ-Çin iqtisadi münasibətlərinin tədricən dərinləşməsi böhran anlarında Çin-Amerika münasibətlərinin pisləşməsinin qarşısını alır.

Tədricən qurulan Çin-Amerika əməkdaşlığı münasibətlərində əsas problem Çinin də fikirlərinin nəzərə alınacağı yeni beynəlxalq təhlükəsizlik sisteminin necə qurulacağı barədə nə ABŞ-da, nə də Çində konkret ideyaların olmamasıdır.

Yüksək vəzifəli amerikalı hərbçilər terrorizm, piratçılıq, narkotik maddələrin daşınması, təbii fəlakətlər zamanı humanitar yardım kimi real hadisələrin aradan qaldırılmasına yönəlmiş birgə təlim və fəaliyyətin həyata keçirilməsi təklifini irəli sürürlər. Tərəflər Amerika silahlarının Çinə yerləşdirilməsi məqsədilə torpaqları tədricən zondlaşdırırlar. Onlardan ən sərti – Tayvandır. Pekin ABŞ ilə strateji münasibətlərin həllində məhz Tayvan probleminə ən böyük maneə kimi baxır.

İkinci problem – insan hüquqları və "Falunqun" kimi ölkənin stabilliyinə hədə törədən təşkilatların olmasıdır. Çin rəhbərliyi ehtiyat edir ki, ABŞ Milli Təhlükəsizlik Nazirliyinin dəstəyinə arxalanan Falunqun təşkilatı bir vaxtlar "Həmrəylik" Partiyasının Polşada oynadığı qeyri-stabilləşdirici rolu indi oynaya bilər.

Üçüncü problem: 11 sentyabr hadisələrindən sonra Çin ictimaiyyəti daxilində "liberallarla" "yeni solçular" arasında diskussiyaların artmasıdır. "Liberallar" Çin-Amerika qarşılıqlı münasibətlərinin sonrakı inkişafını ölkənin qloballaşan dünya tələblərinə adaptasiyası üçün əsas şərt hesab edirlər. "Yeni solçular" qloballaşmanı ABŞ-ın Çində və dünyada öz mövqeyini möhkəmləndirmək üçün hiylə olduğunu hesab edir. Çin liderlərinin yeni nəsli hər iki yanaşmanı nəzərə almalı olacaq. Bununla yanaşı ölkədə Çinə gələcəkdə ABŞ-la rəqabətdə SSRİ-ni əvəz edəcək yüksək səviyyədə inkişaf etmiş dövlət kimi baxan yeni konservativ qüvvələrin nüfuzu da artmaqdadır.

Mövcud yanaşmanın əleyhinə Çin rəhbərliyinin praqmatik qanadı çıxış edir. O, başa düşür ki, qlobal və regional inteqrasiya prosesində iştirak etməmək və dünya bazar iqtisadiyyatı liderləri ilə qarşıdurma çin islahatlarına və modernləşmə prosesinə bərpaedilməz zərbə endirə bilər. İraqda müharibə və Şimali Koreyada böhran Çin-Amerika münasibətlərinin inkişafında yeni istiqamətlərin olduğunu göstərir. Pekin İraqda güc tətbiq edilməsini dəstəkləmirdi, amma Paris, Bonn və Moskva üçün xarakterik olan həyəcana qarşı çıxmırdı.

Nəticədə Kondoliza Raysın məşhur "Fransam cəzalandırmaq, Almaniyanı unutmaq, Rusiyanı bağışlamaq" tezisində Çin heç yada da düşmürdü. Bu, Pekin və Vaşinqton arasında BMT-də İraqla bağlı səsvermə zamanı Çinin bitərəf qalacağı təqdirdə Vaşinqtonun Şimali Koreyaya qarşı güc tətbiq etməkdən çəkinəcəyi barədə sövdələşmənin nəticəsi idi.

İraqda müharibənin başa çatmasından sonra məhz Şimali Koreya Çin və ABŞ-ın regional problemlərinin həllində qarşılıqlı xətt yürütməyə başladı. 2003-cü ilin aprelindən başlayaraq, ÇXR-ÇXDR-ABŞ-ın Pekində yaratdıqları, sonradan altıtərəfli formata çevrilən üçtərəfli danışıqlar Pekinin artıq Şimali Avropa sosializmin qarşısını almağa deyil, nüvə silahının yayılması sahəsində ABŞ-la əməkdaşlığa hazır olduğunu nümayiş etdirdi.

Öz növbəsində Asiyada Amerika-Çin qarşıdurmasınm aradan qaldırılması çətin olduğuna və Pekinin əsas fəaliyyəti Şimal-Şərqi Asiyada ABŞ-ı sıxışdırmağa, eləcə də ABŞ olmadan regional təşkilatların yarıdılmasına istiqamətləndiyinə görə ABŞ-ın əsas diqqəti ÇXR-ə "sülh yolu ilə hücum"a deyil, "Böyük Çin" proqramına yönəlmişdir.

Vaşinqtonun Çinlə bağlı münasibətini müəyyənləşdirən xarici siyasi doktrinaları arasında klassik "çəkinmə" (containment) və "cəlb etmə" (engagement) doktrinalarını birləşdirən "konqeycment" (congagement) konsepsiyasmı xatırlamaq olar. Bəzən onu "diqqətli müşahidə, xəbərdarlıq" siyasəti adlandırırlar. Daha radikal konsepsiya "çəpərləmə" və ya "strateji əhatə" "hedcinq" (hedge hedge strategy) konsepsiyasıdır. Güman olunur ki, ABŞ bu konsepsiyanı ÇXR hökuməti tərəfindən 2001-ci ilin aprelində Amerika təyyarəsinin kəşfiyyatçısının tutulması və 11 sentyabr hadisələrindən sonra işləyib hazırlamışdır. "Strateji əhatə" konsepsiyasında qeyd edilirdi ki, ABŞ-ın iki dövlətin hərbi idarələri arasında mübadilə konsepsiyası Vaşinqtonu məyus etmişdir – o, Çin silahlı qüvvələrinin hərbçilərini yumşaltmadı.

"Hedcinq" strategiyasının növbəti elementi ÇXR kosmik sisteminin neytrallaşdırılması üçün silahın yaradılması, eyni zamanda Amerika silahlı qüvvələrində Çin, fars və Mərkəzi Asiya ölkələrinin dillərini öyrənmənin sürətləndirilməsidir. ABŞ-ın hərbi hava qüvvələrinin bölmələri ÇXR-in rəqib kimi qəbul edildiyi gizli hərbi oyunlar aparırlar. İşlənib hazırlanmış məqsədlər arasında bunları qeyd etmək olar: – Çinin Tayvanı işğal etməsinin qarşısını almaq, Rusiya və Yuqoslaviyada neft mənbələrinin aşkar edilməsi, Yaxın Şərq və Asiya arasında strateji dəniz kommunikasiyalarına nəzarəti həyata keçirmək.

Çinlə bağlı göstərilən strategiyalara əlavə olaraq 2005-ci ildə ABŞ tərəfindən dərhal diqqətləri cəlb edən "məsul aksioner" strategiyası irəli sürüldü. Qeyd etmək lazımdır ki, onun müəlliflərindən biri o zaman ABŞ-ın dövlət katibi və "hedcinq" strategiyasının müəlliflərindən olmuş R.Zolikdir. Bu konsepsiya kompleksliyi və xarici "sülhsevərliyi" ilə fərqlənir: bu layihə Çini sistemin saxlanılmasında maraqlı olan aksiyanın "müdafiəçisi" rolunda beynəlxalq münasibətlərə daxil etməyi nəzərdə tutur. Pekin "məsul aksiyaçı" layihəsində öz marağını ifadə etmişdir, lakin əsaslı suallar ortaya çıxır: "bizi bu təşkilatın direktorlar şurasına deyil aksiyaçılar sırasına dəvət edirlər, beləliklə, həlledici səsə malik olmayan kiçik tərəfdaş səviyyəsində". Bu gün ABŞ-ın "Çin çağırışlarına" qarşı cavab qismində "məsul aksiyaçı" layihəsi ən məqbuludur.

Çinin mövcud dünya sisteminə inteqrasiya imkanlarına əsaslanan ABŞ ticarət nümayəndəsi R.Zolik ÇXR-in keçmiş SSRİ-dən fərqlərini qeyd edir: Pekin bütün dünyada anti-Amerika ideologiyasını yaymır; mövcud dünya nizamını öz yerini tutmaq məqsədilə dəyişməyə cəhd etmir; bütün dünyada demokratiya və kapitalizmə qarşı mübarizə aparmaq niyyətində deyil.

Qeyd etmək lazımdır ki, "Çin çağırışlarına" qarşı ABŞ-da mövcud olan hər iki konsepsiyaya alternativ kimi baxılmır. ABŞ xarici siyasi ideologiyasında onlar bir-birini çox gözəl

tamamlayır, amma təcrübədə isə "hedcinq" konsepsiyasına əsasən hərəkət edilir.

Amerika-Çin münasibətləri – geniş ticari-iqtisadi əlaqələrin və aydın rəqabətin mürəkkəb toxumasıdır. Dünyanın iri dövləti olan ABŞ Çinin qlobal səviyyədə iri dövlətə çevrilməsini təbii olaraq öz milli maraqlarına və mövqelərinə qarşı çağırış kimi qəbul edir. İki dövlətin maraqlarının kəsişdiyi və qarşı durduğu meydanlardan biri Mərkəzi Asiyadır. Mərkəzi Asiyada Çin və ABŞ arasında münasibətlərə bu region ölkələrinin və dövlətlərinin maraqları mövqeyindən yanaşmaq daha əlverişli olardı. Belə rakursdan yanaşma yalnız rəqabət üzərində dayanmağa deyil, mövcud maraqlar arasında ziddiyyətlərin təhlil edilməsinə də imkan verir.

Çinin Mərkəzi Asiya – Sakit okean regionunda olan maraqları kifayət qədər aydın və şəffafdır: birincisi, "Şərqi Türküstan" separatçı qüvvələrinin qarşısını almaq; ikincisi, Mərkəzi Asiyanın Çinin əsas dayaq nöqtəsi olmaq şərtilə təhlükəsizliyinin təmin edilməsi; üçüncüsü, regionu xarici ticarət sahəsinin obyektinə və ixrac mənbələrindən birinə çevirmək məqsədilə çoxplanlı iqtisadi münasibətləri inkişaf etdirmək.

1990-cı illərdən başlayaraq, beynəlxalq terrorizmin ümumi inkişafı fonunda "Şərqi Türküstan"ın fəallığı artmış, o, Çinin dövlət vahidliyinə və ölkənin şimal-qərb sərhədlərinin sosial stabilliyinə təhlükə törədəcək iri terrorist, separatçı və ekstremist qrupuna çevrilmişdir. Bu dövrdə siyasi, iqtisadi və ideoloji cəhətdən hələ çox zəif olan bəzi dövlətlər müxtəlif ekstremist və radikal dini qüvvələrin hücumuna qarşı mübarizə aparmaq iqtidarında deyildilər. Əlverişli xarici və daxili şərtlər altında daxili və xarici ekstremist qüvvələr sürətlə yaranır və yayılırdılar. Tarixi, milli, mədəni, dil və dini səbəblərdən "Şərqi Türküstan" hərəkatı Mərkəzi Asiya ölkələri ilə əsaslı surətdə əlaqəlidir. Nəticədə Mərkəzi Asiya Çinin şimal-qərbinin təhlükəsizliyinə xarici təsir vasitəsi kimi mühüm faktordur. Bir tərəfdən, Mərkəzi Asiya "Şərqi Türküstan" hərəkatının

mühüm xarici faktorudur. Digər tərəfdən, Mərkəzi Asiya "Şərqi Türküstan" hərəkatının beynəlxalq terrorist qüvvələri ilə münasibətlər üçün daimi münasibətlər kanalıdır.

Buna görə də Çinin xarici siyasətində Mərkəzi Asiya ilə bağlı əsas məqsədi ÇXR-in ərazi bütövlüyünü təhlükə altında qoyan fəaliyyətləri əraziyə buraxmamaq, həm də bütün Mərkəzi Asiya ölkələrinin Çin separatçılarının dəstəyindən yararlanmaması məqsədilə "Şərqi Türküstan" hərəkatının fəaliyyətini məhdudlaşdırmaq və qadağan etmək, beynəlxalq terrorizm qüvvələrinin onların ərazilərinə yayılmasının qarşısını almaq və s.-dir.

Beləliklə, məsələyə daha geniş aspektdən yanaşsaq, Mərkəzi Asiya ölkələrinin təhlükəsizliyi ÇXR-in Sintsyan-Uyğur muxtar rayonunun təhlükəsizliyindən asılıdır və Mərkəzi Asiya regionunda qeyri-stabillik Çinin şimal-qərbinin təhlükəsizliyinə mühüm təsir göstərir.

Mərkəzi Asiyanın Çinin etibarlı müttəfiqinə çevrilməsi məsələsinə gəldikdə, bu məqsəd də ÇXR-in dövlət maraqları sahəsinə aiddir, amma onu böyük strategiya və geosiyasət məsələlərinə aid etmək olar. Ona görə də onun mahiyyəti Çinin "Şərqi Türküstan" hərəkatı ilə mübarizə vasitəsilə dövlət təhlükəsizliyinin təmin edilməsi vəzifəsindən bir qədər fərqlənir.

Çinin xarici siyasi strategiyasının əsas cəhəti ondan ibarətdir ki, ölkənin qarşısında indi və gələcəkdə duran mühüm strateji tapşırıqlar nöqteyi-nəzərindən, eyni zamanda, Çinə daha çox təzyiq göstərən xarici strateji faktorlar arasında ən mühüm və aktivləri arasında şərqi və cənubi faktorları ayırmaq olar. Çinin xarici strategiyasında ən mühüm və mürəkkəb faktor – Tayvanın müstəqil dövlət statusu qazanmasına imkan verməməkdir. Amma Çinə ciddi strateji təzyiqin mühüm xarici siyasi faktoru qismində ABŞ tərəfindən Tayvanın gizli və ya aşkar, birbaşa və ya dolayı yolla dəstəklənməsini göstərmək olar ki, bu səbəbdən, Çin və ABŞ arasında xarici siyasət sahəsində qarşıdurma yarana bilər. Ona görə də Çin üçün digər

qalan strateji istiqamətlərdə sülh və stabilliyi təmin etmək daha vacibdir.

Beləliklə, Çin xarici siyasətinin strateji cəbhə və arxa cəbhələri arasında konseptual fərqlər meydana gəlmişdir, amma qeyd edək ki, müasir şərtlər daxilində belə bölgü keçmiş dövrlərə görə o qədər də sadə və birmənalı deyil. Mərkəzi Asiya Çinin Şimal-Şərqi ilə əlaqəlidir. Burada sərhədlərin müəyyən ölçüsü nəzərdə tutulur. Bu, Çinin yaxın əhatəsində olan nisbətən müstəqil geosiyasi regiondur və ÇXR-in strateji təyinatının şimal-qərb hissəsini formalaşdırır. Çinin strateji maraqlarının xüsusiyyətlərinə və Mərkəzi Asiya regionunun geosiyasi vəziyyətinə uyğun olaraq, sonuncuya ÇXR-in strateji arxa cəbhəsi kimi baxmaq olar. Ancaq vəziyyətin bu cür olması, yəni Mərkəzi Asiyanın həqiqətən də Çinin arxa cəbhəsi rolunu oynaması ÇXR-in strateji maraqlarına tam şəkildə uyğun gələ bilər.

Bunun üçün aşağıdakı şərtlər vacibdir. Birincisi, Çin və Mərkəzi Asiya ölkələri arasında mövcud olan sərhəd problemlərinin birdəfəlik həlli, sərhəd rayonlarında sülh və təhlükəsizliyin təmin edilməsi. Bu, Çinin region ölkələri ilə münasibətləri üçün əsas şərtdir. Bu məsələ də qəti şəkildə həll edilmişdir. İkincisi, Mərkəzi Asiya dövlətlərinin Çinə qarşı dostluq xarici siyasi kursunun və Çinlə bu dövlətlər arasında mehriban qonşuluq münasibətlərinin formalaşdırılması üçün şəraitin yaradılması vacibdir. Nəhayət, Mərkəzi Asiyanın Çinə qarşı olan hər hansı bir dövlətin təsiri altına düşməsinə yol verməmək çox vacibdir. Bütün bunlar Çinin Mərkəzi Asiya dövlətlərinə münasibətdə xarici siyasi kursunun yeni baza prinsip və məqsədlərini müəyyənləşdirir.

Regional iqtisadi əməkdaşlıq Çin üçün geniş iqtisadi maraq doğurur. Energetika – Çinin Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığında mühüm faktordur. Çin 1993-cü ildən neftin əsas ixracatçısı kimi çıxış edir. O vaxtdan bəri onun neft məhsullarının ixracı sahəsindəki inkişaf səviyyəsi getdikcə yüksəlməkdədir. İndi Çin öz enerji resurslarına olan tələbatı-

nın ödənilməsində xarici bazara istiqamətlənir. Onun xarici bazardan enerji asılılığı 50%-ə çatmışdır. Hazırda ölkəyə neft məhsullarının 50%-i Yaxın Şərq ölkələrindən, 22%-i isə Afrikadan daxil olur. Hər iki region üçün xarakterik olan qeyri-stabilliyi və uzaq dəniz marşrutu ilə bağlı riskləri nəzərə alsaq, qeyd etməliyik ki, ÇXR-ə enerji resurslarının çatdırılması stabilliyinə potensial hədədir.

Buna görə də enerji təhlükəsizliyinin təmin edilməsi strateji cəhətdən mühüm məsələdir. Məsələ burasındadır ki, Afrika və Yaxm Şərqin gələcəkdə də Çinin mühüm neft ixracatçısı olacağına baxmayaraq, bu regionlardan neftin idxalını azaltmaq lazımdır. Əsas enerji mənbələrini diversifikasiya etmək üçün yeni ixracatçıların axtarılması və enerji ixracının daha rasional strukturunu yaratmaq tələb olunur. Beləliklə, Çin riskləri azaltmalı və enerjinin nisbətən stabil çatdırılmasını təmin etməli olacaq. Bu mənada bu gün Mərkəzi Asiya Çin üçün ən mühüm perspektiv tərəfdaşdır.

Çinin Mərkəzi Asiya regionuna daxil olması Mərkəzi Asiya dövlətlərinin müstəqillik qazanmasının təbii nəticəsidir. Bu dövlətlər müstəqillik əldə etdikdən sonra Çin regionda müəyyənedici nüfuza malik olmağa başladı. Birincisi, bu, coğrafi yaxınlıqla bağlıdır. Sərhəd məsələsi Çinin Mərkəzi Asiya dövlətləri ilə münasibətində əsas məsələdir. Bu dövlətlər sərhəd məsələləri barədə Rusiya-Çin danışıqlarının getdiyi bir zamanda müstəqillik qazandılar. İkincisi, sərhəd məsələlərinin həll edilməsindən sonra sərhəd rayonlarında təhlükəsizliyin həll edilməsi sahəsində Çin ilə Mərkəzi Asiya dövlətləri arasında həqiqi münasibətlər qalmaqda idi. Üçüncüsü, ÇXR-in şimal-qərb bölgələrində yaşayan milli azlıqlar etnik, dini, mədəni, tarixi və digər sahələrdə Mərkəzi Asiya dövlətləri ilə əlaqəlidir. Bununla bağlı olaraq, Çin və Mərkəzi Asiya dövlətləri arasında spesifik münasibətlər də formalaşmaqdadır. Dördüncüsü, Çin və Mərkəzi Asiya dövlətləri ümumi tarixə malikdirlər. Son yarım əsr ərzində Çinlə bu dövlətlər arasmda münasibətlərdə qırılma

baş vermişdir. Region ölkələri müstəqillik əldə edəndə tarixi yaddaş Çinlə Mərkəzi Asiya dövlətlərini yaxmlaşmağa sövq etdi. İnsanların düşüncələrində Böyük İpək Yolu formalaşmağa başladı. Bütün göstərilən səbəblər ona gətirdi ki, Mərkəzi Asiya dövlətləri dünya arenasına çıxdıqdan sonra Çin regionda mühüm təsirə malik iri dövlətə çevrildi. Amma tezliklə ÇXR-in Mərkəzi Asiyada güclənmiş mövqeyi ABŞ-ın maraqları ilə toqquşmağa gətirib çıxarmışdır.

ABŞ-ın Mərkəzi Asiyada peyda olması bu regionun dövlətləri tərəfindən onun terrorizmlə mübarizəsi kimi qəbul edildi. Amerikan hərbi qüvvələrinin regionda peyda olması taliban rejiminin məğlubiyyətə uğradılması ilə bağlı idi, belə ki, bu region Əfqanıstanla yaxındır, buraya dayaq bazası kimi baxılır. Amma ABŞ-ın regiona olan maraqlarım digər faktorlarla da izah etmək olar.

ABŞ strateji ideologiyasınm mühüm hissəsini dünya enerji resursları üzərində nəzarət təşkil edir. 2001-ci il 11 sentyabr hadisələrindən sonra ABŞ-ın dünya resursları üzərində nəzarət etmək niyyəti daha aydın nəzərə çarpmağa başladı. Yaxın Şərq regionu – dünya neft ehtiyatlarının əsas mənbəyidir. Onun payına Amerika neft ixracının 20%-i düşür. Amma Yaxm Şərqdə vəziyyət kifayət qədər sakit deyil, burada qeyri-sabitlik həmişə artmaqdadır. 11 sentyabr hadisələrindən sonra ABŞ Yaxın Şərq neftinin çatdırılmasında mümkün qeyri-müntəzəmlik məsələsini gündəmə gətirmiş və digər regionlardan, o cümlədən, Rusiya, Afrika, Mərkəzi Asiya və Xəzər hövzəsindən enerji resurslarının çatdırılmasına marağı artmışdır. Mərkəzi Asiya və Xəzər hövzəsi yaxm şərqdə sonra neft ehtiyatlarının çoxluğuna görə ikinci yerdə durur. Mərkəzi Asiya və Xəzər hövzəsində neft ehtiyatları üzərində nəzarətin həyata keçirilməsi amerikalıların qarşılarında duran mühüm vəzifədir. ABŞ-m Mərkəzi Asiya və Xəzər hövzəsindəki enerji resursları üzərində nəzarətin həyata keçirilməsinə cəhdi yalnız daxili tələbatlarla izah olunmur.

Enerji daşıyıcılarından beynəlxalq işlərdə böyük təzyiq vasitəsi kimi istifadə etmək olar. Əgər ABŞ dünyanm əsas enerji daşıyıcılarının ehtiyatları üzərində nəzarəti həyata keçirməyə nail olsa, o, dünyanın əsas dövlət və regionları, o cümlədən, Çin, Rusiya və Qərbi Avropa kimi iri dövlətlər üzərində nəzarəti həyata keçirə bilər. Enerji idxalçılarına qiymətləri tənzimləyərək və satışa kvota qoymaqla, ixracatçılara isə qiymətləri aşağı salaraq təzyiq göstərmək olar. Bu mənada ABŞ-ın Mərkəzi Asiya və Xəzər hövzəsindəki strateji məqsədləri izahedilləndir. Enerji resursları üzərində nəzarətin effektli üsullarından biri – onların nəqliyyat yolu ilə nəzarətdir. ABŞ-ın regionda qaz və neft daşıyıcıları üzərində nəzarəti məhz bu məqsədi güdür.

Əgər ABŞ-ın Mərkəzi Asiyadakı məqsədlərinə geosiyasi aspektlərinə yalnız terrorizmin qarşısının alınması nöqteyi-nəzərindən yanaşsaq, o zaman təhlil olduqca sadə olacaq. Geosiyasi maraqlar ABŞ-ın Mərkəzi Asiyada yerləşməsi cəhdi ilə izah olunur. ABŞ oradan çox uzaqda yerləşir və bu regionla heç bir əhəmiyyətli tarixi və strateji əlaqələrə malik deyil. 11 sentyabr hadisələrindən sonra terrorizmlə mübarizə bayrağı altında öz qoşunlarını əvvəllər Rusiyanın nüfuz dairəsində olan bu regiona yerləşdirməyə başladı. Çinə gəldikdə, ABŞ düz onun yaxınlığında peyda oldu. Heç bir zaman Mərkəzi Asiyada ABŞ-ın bilavasitə hərbi qüvvələri olmamışdır, xüsusilə də ABŞ orada hərbi baza yaratmamışdı. Bu bazalar ABŞ-a Çin və Rusiya nüfuzunun artmasının qarşısını almağa, Mərkəzi Asiya ölkələrinin Rusiyadan azad siyasi sistemin stimullaşdırılmasına, anti-Amerika istiqamətinə malik Rusiya-Çin ittifaqının yaradılmasma imkan verməməyə kömək edir. ABŞ-ın Mərkəzi Asiyadakı qüvvələrinin Rusiya və Çinə qarşı yönəlməməsi, əksinə, onlarla əməkdaşlığa cəhd etməsi haqqında bəyanatına baxmayaraq, Rusiya və Çin sərhədlərində Amerika hərbi qüvvələrinin yerləşdirilməsi yeni geosiyasi situasiya yaratmışdır.

Mərkəzi Asiyada Amerikanın iştirakı strateji cəhətdən Rusiya-Çin iştirakından fərqlənir. ABŞ region dövlətləri üçün

nə Rusiya kimi keçmiş dövlət, nə də Çin kimi yaxın qonşudur. Amerikanm Mərkəzi Asiya dövlətləri ilə heç zaman sıx əlaqələri olmamışdır. ABŞ-da terror aktları Mərkəzi Asiyanı qəfildən ABŞ xarici siyasətinin mərkəzinə çevirdi. ABŞ və Çinin Mərkəzi Asiyada maraqları, məqsəd və siyasətini qeyd edən zaman Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) toxunmamaq olmaz. Məsələn, belə bir fikir mövcuddur ki, Şanxay Müqaviləsi Təşkilatı anti-Amerika istiqamətə malik olmaqla və ABŞ və Qərbi Avropa dövlətlərinin əleyhdarları tərəfindən formalaşdırılmışdır. Bu təşkilat Rusiya-Çin münasibətlərinin inkişafınm və Rusiya-Amerika, Rusiya-Çin münasibətlərinin pisləşməsinin pik nöqyətə çatdığı zaman formalaşmışdır.

1996-cı il Rusiya-Çin münasibətlərində çox yaxşı dövr idi, hər iki tərəf strateji əməkdaşlıq haqqında bəyanat verdi. Eyni zamanda, 1989-cu ildən etibarən başlayan Çin-Amerika münasibətlərində soyuqluq yaranmağa başladı. Rusiya-Amerikan "strateji əməkdaşlığı" "soyuq sülh" ilə əvəz olundu.

Beləliklə, Rusiya və Çinin ABŞ-a qarşı münasibətlərinin yaxşı istiqamətdə dəyişilməsinin müşahidə olunmadığı fonda bu iki dövlətin strateji yaxınlaşmaq cəhdi müşahidə olunurdu.

2001-ci ildə Şanxay Əməkdaşlıq Təşkilatınm yaradılması Rusiya və Çinin ABŞ-la münasibətlərinin daha da pisləşdiyi ərəfəyə təsadüf etmişdir. Bununla yanaşı, bir neçə ciddi hadisə də baş vermişdir. 1999-cu ildə iki dövlət arasındakı münasibətlərdə böhrana səbəb olan hadisə – Yuqoslaviyada Amerika təyyarələrinin Çin səfirliyini partlatması hadisəsi baş verdi. 2001-ci ilin aprelində Haynan adalarına məxsus dəniz akvatoriyasında Amerika və Çin hərbi təyyarələri toqquşdu. Çin təyyarəsi sıradan çıxmış, pilot isə xəbərsiz yoxa çıxmışdı. Amerika təyyarəsinin ekipajı da həbs olunmuşdur.

Rusiya-Amerika münasibətləri, həmçinin, neqativ hadisələrlə xarakterizə olunurdu: 1999-cu ildə Rusiyanm protestlərinə baxmayaraq, ABŞ Yuqoslaviyaya qarşı müharibəyə başladı. Eyni zamanda, Rusiyanm narazılığına baxmayaraq,

NATO Şərqə doğru ilk genişlənməsini həyata keçirdi. Bundan başqa, ABŞ 1972-ci ildə yaradılmış Raket Əleyhinə Müdafiə Müqaviləsindən çıxacağı ilə hədələyirdi ki, bu, Rusiya və ABŞ arasında strateji silahlanma balansının pozulması demək idi.

ŞƏT-in yaradılması Çinin Mərkəzi Asiya regionuna artmaqda olan marağı ilə bağlı idi. "Şanxay beşliyi" çərçivəsində 5 illik iş Çinin Mərkəzi Asiya ölkələrini daha yaxşı başa düşməsinə və onlara böyük əhəmiyyət verməsinə kömək etdi. Nəticədə ÇXR-in bu dövlətlərlə əməkdaşlığı üçün əlverişli şərait, möhkəm baza yarandı. Çin bu əsasda irəliləməyə, Rusiya və Orta Asiya ilə münasibətləri stabil şəkildə inkişaf etdirməyə ümid bəsləyirdi.

Bütün göstərilən faktorlar 2001-ci ildə Şanxay Müqaviləsi Təşkilatı çərçivəsində "Şanxay beşliyi"nin yaradılmasına şərait yaratdı. "Şanxay beşliyi" üçün Amerika faktoru ikinci dərəcəli rol oynayırdı.

Amma 1998-ci ildə "Şanxay beşliyi"ndə əsas diqqət terrorizmlə mübarizədə sərhədlərin təhlükəsizliyi və iqtisadi əməkdaşlığa veriləndən sonra o, daha mühüm beynəlxalq məsələlərə dair öz fikirlərini bildirməyə başladı.

Hələ 1999-cu ildə Bişkekdə keçirilən sammitdə birgə bəyannamə qəbul edildi. Burada beş dövlətə BMT-nin Təhlükəsizlik Şurasının sanksiyası olmadan güc tətbiq etməyəcəkləri və güc tətbiq etməklə hədələməyəcəkləri barədə fikir əks olunmuşdur. Bəyannamənin müəllifləri ədalətlilik və məqsədə müvafiqlik prinsipi əsasmda dünyada yeni iqtisadi və siyasi nizamın formalaşması fikri ilə çıxış etmişlər.

2000-ci ildə Düşənbədə keçirilən görüşün nəticəsi olaraq beş dövlət başçısının bəyanatında BMT-nin nüfuzunun qorunub saxlanılmasının vacibliyi daha qətiyyətlə qeyd olunur, istənilən dövlət və dövlətlər qrupu tərəfindən bu və ya digər beynəlxalq problemin həllinin monopolizasiyası və insan hüquqlarının müdafiəsi bayrağı altında istənilən dövlətin daxili işlərinə qarışmağa qarşı narazılıq da ifadə olunmuşdur.

2001-ci ildə Şanxay Müqaviləsi Təşkilatma üzv ölkələrin dövlət başçılarının növbəti bəyanatında beynəlxalq münasibətlərin saxlanmasının çoxplanlılığı, BMT-nin səlahiyyətlərinin təmin edilməsi tələbi, digər dövlətlərin daxili işlərinə qarışmağın qəbuledilməzliyi barədə fikirlər yenidən səslənmişdir. İctimaiyyətin məlumatlı nümayəndələri çox yaxşı başa düşür ki, bu cür fikirlər, adətən, ABŞ-a qarşı cərəyan kimi qəbul edilir. Bununla əlaqədar olaraq, "Şanxay beşliyi"nin və Şanxay Müqaviləsi Təşkilatının fəaliyyətinin anti-Amerika istiqamətində formalaşmasının mümkünlüyü fikri də formalaşmışdır.

BMT-nin Təhlükəsizlik Şurasının sanksiyası olmadan hərbi qüvvə tətbiq edilməsinin qəbuledilməzliyi prinsipi ümumi qəbul edilmiş prinsip hesab olunur və təsvir edilmiş konkret vəziyyətlərdə ilk növbədə Yuqoslaviyadakı müharibə ilə bağlı idi.

Çoxqütblü dünya nizamı Amerika birqütblü sistemindən və beynəlxalq arenada hegemonluğundan imtina etməyi nəzərdə tutur. Əlbəttə, Rusiya və Çin Şanxay Müqaviləsi Təşkilatını yaratmaqla beynəlxalq münasibətlərdə öz mövqelərini möhkəmləndirməyə, Mərkəzi Asiya regionunda strateji vəziyyətə maksimum nəzarət etməyə cəhd, ABŞ-ın təsirini azaltmağa ümid bəsləmişlər. "Soyuq müharibə"dən sonra Rusiya və Çinin yeni dünya nizamı formalaşdırmaq cəhdi "Şanxay beşliyi"nin digər üzvləri tərəfindən dəstəklənmişdir.

Kifayət qədər aydındır ki, xüsusilə, 1990-cı illərin sonunda siyasi məqsədəmüvafiqlik baxımından Rusiya və Çin "Şanxay beşliyi"ni və daha sonra Şanxay Əməkdaşlıq Təkilatını ABŞ ilə münasibətlərində ciddi problemlərin olduğu və "soyuq müharibə" illərində ABŞ-a qarşı istifadə etməyə bilməzdi. Bu münasibətlərin xüsusiyyəti ondan ibarətdir ki, onlar "sıfır həcmində oyun" xarakteri daşımır. Həm Çinin, həm də Rusiyanın ABŞ-la ümumi maraqları mövcuddur. "Dost" və "düşmən"in dəqiq müəyyənləşdirilməsi dövrü çoxdan keçmişdir. Rusiya və Çinlə ABŞ arasında yeni dünya nizamının forma-

laşmasında əsas fərq ondan ibarətdir ki, ABŞ öz siyasətini diktə və monopolizm prinsipi əsasında qurmaq istəyir ki, bu da Rusiya və Çinin maraqlarına ziddir. Məhz bu faktor Rusiya və ABŞ, ABŞ və Çin arasında siyasi konfliktlərin əsas səbəbidir. Rusiya və Çinin regional təşkilatlarda, xüsusilə, Şanxay Müqaviləsi Təşkilatı çərçivəsində əməkdaşlığa cəhdi məhz bununla izah olunur.

Amma 11 sentyabr hadisələrindən sonra regional təhlükəsizliyin zəmanəti kimi Şanxay Əməkdaşlıq Təşkilatına qarşı münasibət dəyişdi. Bu, ilk növbədə, taliban rejiminin süqutu ilə bağlıdır. Təbii ki, taliban rejiminin süquta uğraması ilə terror təhlükəsibirdəfəlik aradan qalxmadı, amma kifayət qədər aşağı düşdü. Bu da təbii olaraq, beynəlxalq təhlükəsizliyin təmin edilməsində Şanxay Əməkdaşlıq Təşkilatına münasibəti dəyişmişdir.

Şanxay Müqaviləsi Təşkilatına qarşı münasibətin dəyişilməsini şərtləndirən digər faktor ABŞ-ın regionda iştirakı ilə bağlıdır. Tarixdə ilk dəfə olaraq Amerikan hərbi qüvvələri Mərkəzi Asiyada yerləşdirildi. ABŞ-m regionda peyda olması Mərkəzi Asiya ölkələri üçün təhlükəsizliyin təminatı demək idi. Onların ABŞ-dan asılılığını və ümidlərini gücləndirmişdir. ABŞ-m Mərkəzi Asiya ölkələrinin daxili işlərinə qarışmaq imkanı da güclənmişdir. Belə ki, ABŞ Şanxay Müqaviləsi Təşkilatının fəaliyyətinə müəyyən dərəcədə təsir edə bilər. Bu, təşkilatm inkişafına təsir göstərən gizli faktordur.

Qeyd etmək lazımdır ki, öz növbəsində son illərdə regionda Şanxay Müqaviləsi Təşkilatının fəallığı artır ki, bu da öz növbəsində ABŞ və Qərbi Avropa dövlətlərini narahat etməyə bilməz. Deyilirdi ki, "2005-ci il sülh missiyası", əsasən Çin tərəfindən maliyyələşdirilən genişmiqyaslı hərbi təlimlər Şanxay Əməkdaşlıq Təşkilatının artmaqda olan hərbi qüdrətini bir daha göstərir. Sammitin iştirakçıları ABŞ-ın Özbəkistandan hərbi bazalarınm çıxarılmasını nəzərdə tutan qətnamə qəbul etmiş və buna müvəffəq olmuşlar. Bu müvəffəqiyyət

Şanxay Əməkdaşlıq Təşkilatını Tehranın nüvə ambisiyasına qarşı daha səbirli münasibət göstərməsinə gətirdi, xüsusilə də həmin il sammitdə İran prezidenti Mahmud Əhmədinecat da iştirak etmişdir.

Şanxay Müqaviləsi Təşkilatı üçün mühüm əhəmiyyət kəsb edən digər məsələ onun ABŞ-la münasibətləridir. Bu çox mürəkkəb məsələdir və problemin mahiyyəti regionda ən güclü oyunçunun müəyyən edilməsilə bağlıdır. Təşkilat hələ də ABŞ-la bağlı dəqiq mövqeyini bildirməmişdir. Amma təşkilat regionda baş verən dəyişiklikləri nəzərə alaraq ABŞ-la münasibətlərində mühüm konseptual və praktiki əhəmiyyətə malik prinsipial platforma hazırlamalıdır.

Müasir Amerika-Çin münasibətləri əvvəlki kimi köhnə poroblemlərlə yüklənmişdir. Bunlardan ən kəskin olanı Tayvandır. Tayvanın ÇXR-ə birləşdirilməsi – milli birləşmə məsələsi kimi ən mürəkkəb regional problem olaraq qalmaqdadır. Məsələnin kökü 1949-cu ilin payızında Çində baş verən vətəndaş müharibəsinə gedib çıxır. Həmin vaxt keçmiş Çin Respublikasının mərkəzi hakimiyyəti Milli Partiyanın sədri Çan Kayşinin rəhbərliyi ilə kommunist dairələrinin nəzarəti altında Mao Tsedun Tayvana daxil olmuşdur. O vaxtdan bəri hər bir hökumət – Pekində yeni kommunist və Taybeydə köhnə homindanlar – legitimliyə iddia etmiş və özlərini yeganə ümumçin hökuməti elan etmişlər. Sovet İttifaqı ÇXR-i, ABŞ isə Çan Kayşini tanımışdır. Pekin məhz Tayvan məsələsinə ABŞ-la münasibətlərdə əsas əngəl kimi baxır. ABŞ birmənalı şəkildə təsdiq etmişdir ki, vahid Çinin saxlanması siyasətini dəstəkləyir.

1995-1996-cı il böhranından sonra bir çox amerikan jurnalist, ekspert və siyasi liderləri ABŞ-ın Tayvanla münasibətlərinin perspektivlərinə dair diskussiyalarda aktiv iştirak etmişlər. Tayvan problemi üzrə daha məşhur mütəxəssislərdən biri M.Lasater yazırdı ki, qüvvələr nisbətinin olduğu kimi saxlanması ABŞ üçün sərfəlidir. Bu vəziyyəti M. Lasater "taktiki cəhətdən qeyri müəyyən, strateji cəhətdən aydın" adlan-

dırırdı. Hər bir ayrı götürülmüş vəziyyətdə ABŞ-ın konfliktə müdaxilə edib-etməməsi aydın deyil, amma aydındır ki, ABŞ Tayvan probleminin sülh yolu ilə həll edilməsi üçün əlindən gələni edir. M.Lasaterin dediyinə görə müasir vəziyyətdə Pekinin səhvindən qorxmaq lazım deyil. ABŞ, demək olar ki, ÇR və ÇXR-in bütün konfliktlərinə qarışır və Çində bunu çox gözəl başa düşürlər. ABŞ kifayət qədər müasir, güclü silahlara malikdir, o, bu silahlarınköməyilə Tayvanda olan münaqişənin qarşısını asanlıqla ala bilər, belə ki, bunun üçün ÇXR-ə müharibə elan etmək lazım gələcək. Pekin "öz siması"nı saxlamağa müvəffəq olacaq və çin-amerikan münasibətlərinə heç bir düzəlməsi mümkün olmayan zərbə dəyməyəcək.

Bu mövqe Amerika hökumətində özünü göstərir. 2004-cü ilin oktyabrında Çinə səfəri zamanı ABŞ-ın dövlət katibi Pauell demişdir ki, ABŞ-ın siyasəti aydındır: yalnız bir Çin mövcuddur, Tayvan heç də müstəqil deyil, "dövlət suverenliyi" hüququndan istifadə etməyə ixtiyarı yoxdur. Bundan fərqli olaraq, Pekinin fikrincə ABŞ ada ilə "Çin üçün qəbuledilməz" olan hərbi əməkdaşlıq və siyasi əlaqələr həyata keçirir. Qeyd etmək lazımdır ki, 2002-2003-cü illərdə hakimiyyətə gəlmiş Çin rəhbərliyində mövcud problemi daha da gərginləşdirən yeni məqamlar yaranmışdır. Onlara aşağıdakı faktlar aiddir: Birincisi, Çin və dünya iqtisadiyyatının qarşılıqlı asılılığının güclənməsidir. Çin dünya bazarına nüfuz edir, eyni zamanda dünya bazarında baş verən proseslər də Çinə təsir göstərir. Bu şərtlər daxilində Tayvanın özünü müstəqil elan etdiyi təqdirdə bu problemin hərbi və ya güc tətbiq edilməsi yolu ilə həlli Çin və ABŞ arasında birbaşa hərbi əməliyyatın olmayacağı təqdirdə risklidir, hər halda bu zaman Çinə qarşı ağır iqtisadi sanksiyalar tətbiq oluna bilər. Çinin "siyasi" yad kimi qəbul edilməsi sanksiyalarla bağlı qərarın qəbul edilməsini asanlaşdıra bilər.

İkincisi, Çen Şuybyanın ikinci dəfə prezident seçilməsindən sonra Tayvanda siyasi vəziyyətin dəyişməsi. 4 il əvvəl Çen Şuybyanın birinci dəfə prezident seçilməsi anlamağa

imkan verdi ki, onun Tayvanın xeyrinə seçkiqabağı ritorikasına baxmayaraq, "tayvanlılarm təhlükəsizliyi" onun üçün hər şeydən vacibdir. Bu gün vəziyyət eynidir. Konstitusiyada dəyişiklik və onun lehinə səsvermə Çenə yeni dövlətin rəhbəri kimi bir dəfə də prezident seçilmək üçün imkan yaradır. Bundan əlavə Taybeydə yaxşı başa düşürlər ki, vaxt Pekinin xeyrinə işləyir: Çin və Tayvanm güclənməkdə olan iqtisadi inteqrasiyası Taybeyin müstəqil olmaq şansmı azaldır.

Tayvanın separatçı cəhdlərini artıran digər faktor – 2008-ci ildə keçirilmiş Pekin olimpiadası olmuşdur.

Çin hərbi potensialın artırılması prosesini aktivləşdirir və 2020-ci ildə bu məsələni həll etmək üçün Tayvan "aqressivlik potensialı" üzərində hərbi üstünlüyə nail olmağa çalışır. Pekində Tayvan silahlı qüvvələrinə məhdudlaşdırılmış hərbi zərbəni nəzərdə tutan yeni doktrina mühüm rol oynayır. Bu doktrinanm əsasında o ideya durur ki, Çin və Qərbin iqtisadi qarşılıqlı asılılığı elə səviyyədədir ki, öz kapital və gəlirini riskə atmaq istəməyən Qərb Çinin məhdudlaşdırılmış hərbi əməliyyatlarmı bağışlayacaq. Ancaq, o şərtlə ki, o, sadə insanlarm itkisi ilə müşayiət olunmayacaq və tərəflərin hərbi itkisi minimuma çatacaq.

Pekinin Tayvan siyasətində riski ondan ibarətdir ki, Tayvanın müstəqillik iddialarının qarşısını almaq üçün hərbi qüvvələrin tətbiq olunması Çin üçün, onun sosial-iqtisadi və sosial stabilliyi, əlverişsiz şəraitdə isə Xu-Tsintau hakimiyyəti üçün birbaşa hərbi təhlükə yarada bilər. Son 50 ildə ABŞ-ın Tayvana olan maraqları genişlənməkdədir, Tayvan isə siyasi arenada sərbəst fəaliyyət göstərən sima kimi rolunu artırmaqdadır. Bu gün Tayvan öz əməlləri ilə ÇXR-i hərbi əməliyyat etməyə vadar edə bilər və bu halda ABŞ-ın reaksiyasmı proqnozlaşdırmaq kifayət qədər çətindir.

Şübhəsiz o da faktdır ki, bu halda bu və ya digər qərar qəbul etməklə Amerika siyasətçiləri ABŞ-ın ÇXR və Tayvanda çoxcəhətli maraqları ilə hesablaşmalı olacaq və bu maraqla-

rın müasir miqyasında Vaşınqtonu aktiv "sülhyaratma" müdaxiləsinə gətirəcək. Tayvan probleminin gələcəyi Pekində Amerikanın müdaxiləsinin nə dərəcədə düzgün qiymətləndirilməsindən və ABŞ rəhbərlərinin Taybey rəhbərlərini ABŞ-ı dəstəkləməyə inandırmasından asılı olacaq.

Çin və ABŞ arasındakı münasibətlərdə əsas detal Şimali Koreya nüvə problemi ilə bağlı elan olunmuşdur. Asiya-Sakit okean regionunda Çin onun artmaqda olan iqtisadi qüdrətinə uyğun gələn öz yeni siyasi mövqeyinin aktiv axtarışını aparır. Pekin onu nəhəng daxili vəzifələrin həllindən ayırmayan stabil beynəlxalq-siyasi mühitin yaradılmasında maraqlıdır. Stabilləşmənin mühüm faktoru Pekində Şimali Koreya ilə bağlı altıtərəfli danışıqlardır. Pxenyanın silahsızlaşdırılmasında real inkişafın olmamasına baxmayaraq, çoxtərəfli danışıqlar formatının olmasının özü əhəmiyyətlidir. Bu zonada "ağır kütlələr" – Rusiya, ABŞ, Çin, Yaponiyanın və həmçinin, Cənubi Koreyanın iştirakı zamanı bu dövlətlər ilk dəfə olaraq təhlükəsizlik və inkişafın ümumi məsələlərini ortaya qoymaq və müzakirə etmək imkanı əldə etmişlər. 2005-ci ilin sentyabr ayında qeyd olunduğu kimi, danışıqlar prosesinin iştirakçıları Birgə bəyannamə qəbul etdilər. Bu, problemlərin həllinə kömək etmədi, amma mühiti əhəmiyyətli dərəcədə yumşaltdı. Qeyd etmək lazımdır ki, əgər ABŞ konfliktin həllinə nail olmağı mühüm hesab etsə, bu, ABŞ-ın hərbi fəaliyyətini kəskinləşdirə bilər. Amma Çinin güc variantı tətbiq edilməsinə qarşı çıxması Amerika diplomatiyasına ləngidici təsir göstərə bilər. Belə qarşıdurmanın əsas səbəbi odur ki, Şimali Koreya rejiminin dayanması və Şimali Koreyada humanitar fəlakət təhlükəsi Şimal-şərqi Asiyada qaçqınlar probleminin və Koreya yarımadasında müharibənin yaranmasına gətirə bilər. Hər iki ssenari Çin üçün qəbuledilməzdir.

Şimali Koreyada humanitar fəlakətin olacağı təqdirdə Şimal-şərqi Çinin təhlükəsizliyi təhlükə altına düşəcək, böyük maddi itkilərə səbəb olacaq və bu regionda normal atmosferin yaradılması üçün ciddi cəhdlər tələb edəcək, amma Çin iqti-

sadiyyatının çökməsinə gətirib çıxarmayacaq. Müharibə ÇXDR ilə hərbi qarşılıqlı yardım haqqmda müqaviləyə malik olan Çini ağır vəziyyət qarşısında qoyacaq. ÇXDR qarşısmda öhdəliklərin yerinə yetirilməsi Çini ən ağır iqtisadi və siyasi vasitələrlə "Barrikadanın digər tərəfinə" itələyə və mövcud rejimə, hakimiyyətə təhlükə törədə bilər. ÇXDR qarşısında öhdəliklərdən imtina etməsi isə onun beynəlxalq nüfuzuna zərbə endirə bilər. Buradan belə nəticə çıxarmaq olar ki, ÇXR Tayvan məsələsini sülh yolu ilə həll etməyə çalışacaq və bu halda ÇXDR-in iqtisadi və siyasi kollapsına imkan verməyəcək.

Çin üçün "Koreya problemi" ondan ibarətdir ki, birincisi Çin Koreya yarımadasında hadisələrin neqativ, "təhlükəli" inkişaf variantında olan vəziyyəti aradan qaldırmağa nə dərəcədə nail olacaq, ikincisi, o, Koreya böhranından öz regional və qlobal mövqeyini gücləndirmək məqsədilə istifadə edə biləcəkmi?.

Çin ÇXDR-i birbaşa müdafiə etməkdən imtina etməklə təzyiq mexanizmi və kömək Pxenyanı danışıqlar masasma oturmağa vadar etdi. O, altıtərəfli danışıqların yeganə üzvüdür ki, Şimali Koreyadan bazar islahatlarının həyata keçirilməsini tələb edir və Koreyada vəziyyətin normallaşdırılmasmı məhz bu yolda görür. Eyni zamanda Pekin Koreya tənzimlənməsində öz fəaliyyətini "mübadilə" etməyə çalışır.

Bu siyasətin doğurduğu risk bir tərəfdən Çin Kim Çen İrin simasında siyasi və iqtisadi məsuliyyətin yükünü öz üzərinə götürmək iqtidarında deyil. Zaman-zaman Pekin və Vaşinqton arasında Şimali Koreya mövzusunda münasibətlər çox və ya az dərəcədə gərgin, soyuq və ya mülayim ola bilər. Digər tərəfdən, Çinin ABŞ-ın "vahid Çin" xəttinə dair diplomatik dəstəyinə nail olması üçün kifayət qədər imkanı olsa da, Amerika-Tayvan hərbi əməkdaşlığının minimallaşdırılması üçün kifayət deyil. Sonuncu, Çin tərəfindən Taybeydə olan Tayvan müstəqilliyi tərəfdarlarmm özünə əminlik hiss etməyə imkan verən "provakasion element" kimi baxılır.

## ƏDƏBİYYAT:

1.Бжезинский З. Великая шахматная доска. М., 2000.
2. Делюсин Л.П. Китай в поисках развития. М., 2004.
3. Корсун В.А. Внешняя политика Китая на пороге XXI века. М., 2002.
4. Михеев В.В. Китай: угрозы, риски, вызовы развития. М., 2005.
5. Михеев В.В. Китай и азиатский регион.// Международная жизнь, 2000, №4.
6. Островский А.В. Тайвань накануне XXI века. М.,1999
7. Рар А. Большая игра на постсоветском пространстве // Независимая газета, 2003, 29 сентября.
8. Северо-Восточная и Центральная Азия: динамика международного и межрегионального взаимодействия. Учебное пособие / Под ред.: А.Д.Воскресенского. М., 2004.
9. Уткин А.Н. Американская стратегия для XXI века. М., 2004
10. Ходаренов М. Ненужный союз // Независимая газ. 2002, 21 января.
11. Цыганов Ю. Тайвань в структуре региональной безопасности Восточной Азии. М., 1999.
12. Хуашен Ч. Китай, Центральная Азия и Шанхайская организация сотрудничества. М., 2005.
13. Maynes Ch. W. America discovers Central Asia // Foreign Affairs. 2003, March-April.

## 10.6. Latın Amerikası dünya siyasətində

Müharibədən sonrakı dövrdə Latın Amerikasının daha çox inkişaf etdiyi ölkələri onun qərb hissəsində – Argentina, Uruqvay, Çili kimi burjua sənaye inkişafına daha tez başlayan dövlətlərdir. Onlar urbanizasiyalaşmış, inkişaf edən sosial struktura, çoxsaylı, yaxşı təşkilatlanmış və aktiv işçi qrupuna malik dövlətlər idi. Latın Amerikasında xarici siyasətdə müstəqillik tendensiyası ümumi xarakter almağa başlayır. Məsələn, Dominikan Respublikasında əvvəllər iqtisadi və hərbi təsirə malik ABŞ-ın mövqeyi məhdudlaşır. Argentina və Uruqvay isə kənd təsərrüfatının inkişafı baxımdan fərqlənirlər. Bu qrupa əhali və ərazinin çoxluğu (Argentina ilə bir sırada) ilə fərqlənən dövlətlər – Braziliya və Meksika aiddir. Müharibədən sonrakı onilliklərdə bu dövlətlərin inkişafı dinamizmi ilə fərqlənirdi, bununla onlar Argentinanı istehsalın ümumi həcminə görə üstələməyə imkan versə də, Argentina hələ də urbanizasiyanın səviyyəsi və adambaşına düşən məhsulun həcminə görə öndə idi. Bir qədər sonra daha çox inkişaf etmiş dövlətlərin sırasına And subregionunun ölkələri – Kolumbiya və Venesuela da qatıldı. Bu qrupun 7 dövlətinin payına əhalinin 4/5-ü, ərazinin 4/5-ü, iqtisadiyyatın isə 80-85%-i düşürdü.

İkinci qrupu And dövlətləri – Peru, Ekvador, Boliviya və Mərkəzi Amerikanın kiçik dövlətləri təşkil edirdi. Onlarda emaledici sənaye zəif inkişaf etmişdi. Kənd təsərrüfatı və ya istehsal sənayesi üstünlük təşkil edir, kapitalizmə qədər, patriarxal qalıqlar daha çox nəzərə çarpırdı. Baxmayaraq ki, bu dövlətlər kapitalizm inkişafında müəyyən yol keçmişdilər. Onlardan bəziləri birinci qrupa yaxınlaşırdı (Kosta-Rika), digərləri isə geri qalırdılar (Nikaraqua, Honduras). Üçüncü qrupa – müharibədən sonra regionun ən geri qalmış dövlətləri – Haiti, Paraqvay və Karib hövzəsinin bir sıra kiçik əraziləri daxildir (Karib ölkələrinin bəziləri ikinci qrupa aid ola bilər:

Yamayka, Trinidad, Tobako, ABŞ-ın malikanəsi olan Puerto-Riko isə inkişaf etmiş kapitalist zonasına aid edilir). Burada kapitalizməqədər qalıqlara malik olan kənd təsərrüfatı üstünlük təşkil edirdi, inkişaf etmiş sənaye yox idi, savadsızlıq, yoxsulluq və əhalinin böyük hissəsinin patriarxal asılılığı yüksək idi (xüsusən, Haitidə). Üçüncü qrup ölkələrin regiondakı mövqeləri çox zəif idi.

Müharibədən sonrakı dövrdə Mərkəzi və Cənubi Amerika respublikalarının əksəriyyətində siyasi həyatın qeyri-stabilliyi, zorakılığın mövcudluğu xarakterik xüsusiyyətlərdən idi. Ordu nizam-intizam və stabilliyinin zəmanəti, eləcə də arbitrliyin siyasi rolunu əldə etdi. Hərbçilərin ölkənin daxili və xarici siyasətinə müdaxiləsi dövlət idarəçiliyinə militarist xarakter verdi. Məsələn, 60-cı illərdə Argentinada həqiqi xidmətdə 150 min əsgər, 104 general, 350 polkovnik vardı. 1966-cı ildə hərbi xərclər 86 mlrd. peso təşkil edirdi, amma 1970-ci ildə xərclər 256 mlrd. qədər qalxdı.

1940-50-ci illər Latın Amerikası tarixində iqtisadi planda yerli sənayenin sürətli inkişafı ilə xarakterizə olunurdu, xüsusən də, proteksionist dövlət siyasəti ilə stimullaşdırılan aparıcı ölkələrdə. Eyni zamanda, ABŞ-ın regionda mövqeyi Avropa dövlətlərinin ziyanına güclənirdi. İkinci dünya müharibəsi sənaye mallarının və xarici kapitalın Latın Amerikasına axınının kəskin ixtisarına gətirib çıxartdı (xüsusən, Avropadan). Latın Amerikası idxalının həcmi 1943-cü ildə müharibəyə qədərki səviyyədən 64% düşür (hansı ki, yalnız 1946-cı ildə yüksəlmişdir). Eyni vaxtda dünya bazarında Mərkəzi və Cənubi Amerika ölkələrinin aqrar xammal məhsullarının qiymətləri kəskin artır. Onlar üçün əlverişli xarici-iqtisadi konyuktura (vəziyyət) müharibədən sonrakı ilk illərdə də saxlanılırdı. Ancaq qeyd olunmalıdır ki, Meksikanın "Neft möcüzəsi" bumeranqa çevrilərək mövcud sosial-iqtisadi problemləri kəskinləşdirdi. Buna baxmayaraq Latın Amerikası ixracının dəyəri 1938-1948-ci ilə qədər 4 dəfə artdı. Bu, region ölkələrinə

lazımi vəsait toplamağa və onları idxal mallarının çatışmazlığı ilə stimullaşdırılan yerli istehsal sənayesinin inkişafına yönəltməyə imkan yaratdı. Belə şəraitdə hələ 30-cu illərdə başlayan "idxal əvəzedici sənayeləşmə" geniş miqyas aldı – idxal olunan sənaye mallarının istehsal olunması ilə əvəzlənməsi daha geniş sənayeləşməyə təkan verir. İlk növbədə, yüngül və ərzaq, sement, neft, tikinti və sənaye sahələri inkişaf etdi.

Regionda 1958-ci ildə sənaye məsulunun buraxılışı müharibəyə qədərki səviyyədən 3 dəfə artdı. Neft əldə olunması dünya istehsalının 1/5 hissəsini əhatə edərək 4 dəfə artdı (172 mln ton, 80%-i Venesuelada). Bir neçə dəfə elektrik enerjisinin istehsalı artdı (saatda 62 mlrd. kv qədər). Polad əridilməsi 13 dəfə (24 ton-3,1 mln ton çoxaldı. "İdxal əvəzedici sənayeləşmə" 30-50-ci illərdə, xüsusən, buna hazır ölkələri – Argentina, Braziliya, Meksika, Çili və Uruqvayı əhatə etdi. Bura Kolumbiya və Venesuela, qismən də Peru daxil oldu. Çoxlu yeni sənaye müəssisələri yarandı. 40-cı illərdə Latın Amerikası respublikalarının xarici kapitaldan asılılığı azaldı, buna bir sıra ölkələrin proteksionist milli siyasəti, xarici şirkətlərin mülkiyyətinin milliləşdirilməsi imkan yaradırdı (Argentina, Braziliya). Lakin "idxal əvəzedici sənayeləşmə" Latın Amerikası dövlətlərinin müstəqil iqtisadi inkişafı üçün lazımi şərait yarada bilmədi.

Avropa kapitalının regionda mövqeyinin zəiflədiyi şəraitdə ABŞ hətta əvvəl İngilis kapitalının üstün olduğu ölkələrdə əsas investor oldu (Argentina, Braziliya, Uruqvay). Müharibədən sonrakı illərdə isə Latın Amerikasına ABŞ investisiyalarının axını gücləndi. Hələ müharibə illərində Mərkəzi Avropada İngilis blokadasının nəticəsində satış bazarlarının itirilməsi Braziliyaya ağır zərbə vurdu, ancaq onun köməyinə idxal-ixrac bankı vasitəsilə 19 mlrd. dollar borc verən ABŞ gəldi. 1960-cı illər ABŞ-da inkişafda olan ölkələrə maliyyə yardımı, kapital ixracı sahəsində siyasət, kadrların hazırlanmasının məqsəd və şərtlərini daha sıx və operativ müəyyənləş-

dirmək tapşırığı qoyulur. Məqsəd ABŞ-ın regionda mövqeyini möhkəmləndirmək və resursların istifadəsi idi.

Yerli sahibkarların mövqeyinin güclənməsi müşahidə olunur və bu, milli tendensiyaların artımına səbəb olurdu. 1947-ci il 9 iyul Tukuman şəhərində Perron tərəfindən elan edilmiş "iqtisadi müstəqillik deklarasiyası"nda milli iqtisadiyyatı qorumaq və möhkəmləndirmək, dünya ölkələri ilə ticarət əlaqələrini inkişaf etdirmək niyyəti səslənir. Bu məqsədlə 1946-48-ci illərdə İngiltərə və Fransaya mənsub Mərkəzi bankın, dəmir yollarının milliləşdirilməsi həyata keçirilir.

Latın Amerikasında ictimai-siyasi hərəkatın mənzərəsi də ziddiyyətli idi. Mühüm sual olaraq 50-ci illərin əvvəlinə qədər Qvatemalada inqilab gedişində hələ öz həllini tapmamış aqrar məsələ qalırdı. Aqrar islahat haqqında qanun 1952-ci ilin iyun ayında qəbul olunmuşdu, bu, amerikan monopoliyasına hiss olunacaq zərbə endirdi. Ümumilikdə hökumət 600 min ha götürüb bölüşdürdü. Torpağı 100 min kəndli aldı. Qeyd edək ki, ABŞ-ın müdaxiləsi yenidənqurmaya imkan vermir. Boliviyada ABŞ-dan artan asılılıq tendensiyası, aqrar məsələ mövcud idi.

1950-ci illərdə Braziliya böhran qarşısında qaldı. Varqas hökuməti ölkədə vəziyyəti yaxşılaşdırmaq üçün yenidənqurma tədbirləri həyata keçirdi. Amma ölkədə sənayeləşmə proqramının həyata keçirilməsində lazımi neft ehtiyatlarının olmaması ciddi maneə sayılır. 1945-ci ildə Braziliya 11 mln. barrel, 1955-ci ildə isə 40 mln. 150 min dollar xərclədi.

Məhz "soyuq müharibə" illərində Qvatemala və Boliviyada inqilabi prosesler genişlənir, F.Kastronun rəhbərliyi altında kubalı inqilabçıların mübarizəsi başlayır. ABŞ-ın və Qərb monopoliyalarının təzyiqi Argentinadakı Peron hökuməti ilə Braziliyadakı Varqas hökumətini bir-birinə qarşı durmağa vadar edir, Meksika xarici siyasətdə müstəqilliyə cəhd edir, ABŞ-ın hərbi siyasətinə region ölkələrinin cəlb olunmasına qarşı hərəkatlar genişlənir. Belə etirazların olması ABŞ-a Latın Amerikası ölkələrini 1950-1951-ci illərdə baş vermiş

Koreyadakı hərbi əməliyyatlarda iştiraka cəlb etməyə mane olur, ancaq Latın Amerikası respublikalarından yalnız Kolumbiya Koreyaya çox da böyük olmayan hərbi kontingent göndərə bilir.

Soyuq müharibənin ab-havası, iki sistemin qarşıdurması, kommunistlərin təqibi, anti-kommunist və anti-sovet əhval-ruhiyyəsinin demokratik və reformist dairələr ətrafında geniş yayılması Latın Amerikasındakı Kommunist partiyasında qruplaşmanın yenidən canlanmasına stimul verirdi. Latın Amerikası zəhmətkeşləri Konfederasiyası, Beynəlxalq Amerika Regional Zəhmətkeşlər Təşkilatı (ORİT), Latın Amerikası xristian Həmkarlar İttifaqı Konfederasiyası (KLASK), Azad Həmkarlar İttifaqının Beynəlxalq Konfederasiyası (AHİBK) kimi təşkilatlar meydana çıxır. Bir çox geniş həmkarlar ittifaqları və mərkəzləri muxtar olmağa başlayır, regional birliklərdən heç birinə qoşulmurlar. Onlardan üçü muxtar status alır – Argentina ümumi əmək konfederasiyası, Çili zəhmətkeşlərinin vahid həmkarlar ittifaqı, Boliviya işçi mərkəzi. Bunların sırasında kommunistlər təsirini saxlayırdı. Bütün bunlar Latın Amerikasındakı işçi hərəkatında müxtəlif fikrin olmasını sübut edirdi.

Düşünürük ki, müharibədən sonrakı qeyri-sabitlik ölkədə gedən milli hərəkatlarla, Avropada satış bazarlarının itirilməsilə, ABŞ-ın öz siyasi və iqtisadi məqsədlərini həyata keçirməklə əlaqədar məsələlərə aktiv qarışması ilə birbaşa bağlı idi. Ancaq bunu da qeyd etmək lazımdır ki, bütün bunlar sənayenin və digər istehsal sahələrinin inkişafı, kəndlilərin vəziyyətinin yaxşılaşması, Asiya və Afrika ölkələrilə beynəlxalq əlaqələrin qaydaya salınması, eyni zamanda, milli maraqların təmin olunması üçün xarici siyasətə cəhd edilməsi kimi müsbət nəticələrə gətirib çıxardı.

1950-ci illərdə dünya bazarlarında malların qiymətinin daimi düşməsi region ölkələrinin iqtisadiyyatında öz mənfi təsirini taparaq böhranın güclənməsinə səbəb olur. İri mülkədar yerlərinə nisbətən üstünlük təşkil edən kənd təsərrüfatı

istehsalının kifayət qədər effektli olmaması və aqrotexniki cəhətdən aşağı səviyyədə olması region ölkələrinə ucuz aqrar eks-tərəfdaşları – ABŞ, Kanada, Avstraliya, Yeni Zellandiya ilə rəqabət aparmağa imkan vermirdi. Əhalinin adambaşına düşən təsərrüfat məhsulunun həcmi regionda müharibəyəqədərki dövrə qədər artmadı. 1961-1963-cü illərdə Latın Amerikasının dünya ixracatındakı payı 1948-1950-ci illərdə 12%-dən 6,3%-dək azaldı.

Latın Amerikasının ciddi ehtiyac duyduğu maşın və ləvazimatların qiyməti də getdikcə artmaqda davam edirdi. Dünya bazarlarında aparıcı sənaye hegemonların dominantlıq edən vəziyyəti onlara sərf edən və periferiya ölkələrinə sərf etməyən qiymətləri saxlamağa imkan verirdi. İnflyasiya şərtləri altında həyatın bahalaşması başlayır. Mövcud vəziyyətdən narazılıq və dəyişikliklərin labüd olması tələbi əhalinin bütün təbəqələrində özünü göstərir və 1950-ci illərdən başlayaraq zəhmətkeş, kəndli, tələbə, orta təbəqə, milli burjuaziyanın liberal dairələrinin iştirakı ilə inqilabi və demokratik hərəkatlar baş qaldırır. Birinci planda vəzifə kimi diktatura əleyhinə müqavimət, demokratik və aqrar dəyişikliklər qoyulmuşdu.

10 may 1957-ci ildə Kolumbiyada demokratik və sol qüvvələr olduğu kimi, eyni zamanda, mühafizəkarlar tərəfindən də dəstəklənən ümumi tətil nəticəsində general Roksas rejiminin diktaturası çökür. Hakimiyyət siyasi məhbusların azadlığa buraxılmasını, partizan kəndli hərəkatına qarşı aksiyanın bitməsini və ölkənin konstitusiyalı rejimə keçməsini bəyan etmiş hərbi xuntaya keçir. 1958-ci ilin mayında 4 illik prezident vəzifəsinə Milli cəbhənin iki partiyasının ümumi namizədi liberal P.Leras Kamarqo təyin olunan prezident seçkiləri keçirilir. 1958-ci ilin avqustunda hərbi xunta hakimiyyəti ona verir.

1958-ci ildə Argentinada hərbçilərin hakimiyyəti də radikalların konstitusiyalı idarəçiliyi ilə əvəzlənir. Əhəmiyyətli nailiyyətləri eyni ildə Çilinin sol qüvvələri də qazanır. Böyük Britaniyanın Karib hövzəsindəki müstəmləkələrində hərəkat-

lar başlayır. 1962-ci ilin avqustunda Yamayka, Trinidad və Tobaqo siyasi müstəqilliyə nail olurlar. Britaniyanın Karib hövzəsində yerləşən ərazisinə görə ən böyük müstəmləkəsi Qvianada müstəqillik uğrunda mübarizəyə Milli İnkişaf Partiyası rəhbərlik edirdi. Onun yaradıcısı və lideri Çeddi Caqan 1957-64-cü illərdə koloniyanın baş naziri olmuşdu. Belə ki Böyük Britaniya 1964-cü ildə koloniyada hakimiyyətə daha mötədil qüvvələr gələnədək bütün müstəqillik tələblərini rədd edirdi.

1966-cı ilin maymda Britaniya Qvianası müstəqillik əldə edir. Yeni dövlət Qayana adlanmağa başlayır. 1966-cı ildə Barbados müstəqillik əldə edir. 20 ənənəvi Latın Amerikası ölkələrinin sırasma ingilisdilli, təxminən 3,5 mln. əhaliyə malik olan daha 4 dövlət əlavə olunur.

Kubada inqilabi hərəkatın qələbəsi ilə dəyişikliklər mərhələsi başlayır. 1959-cu il mayın 17-də aqrar reformasiya ilə əlaqədar qanun imzalanır. 400 hektardan çox bütün torpaq sahibliyi ekspropriasiya edilir. Ekspriasiya edilmiş torpaqlar icarədarlara və torpaqsız kəndli zəhmətkeşlərinə verilir. Təhdid siyasətinin, danışıqlar və sabotajın qeyri-effektli olmasından əmin olan ABŞ iqtisadi təzyiqlərə keçir. Amerikan kompaniyaları Kubada neftin çıxarılması və hasilatım dayandırırlar. Buna cavab olaraq 29 iyun 1960-cı ildə Kuba hökuməti neft hasilatı sənayesinin milliləşdirilməsi və Kubanın sovet nefti ilə təchiz olunması ilə bağlı qərar çıxarır. Belə halda ABŞ mövcud öhdəliklərin pozulması ilə bağlı Kuba şəkərinin alınmasını dayandırırlar. Öz növbəsində, Kuba hökuməti 6 avqustda şəkər zavodlarının və digər Amerika müəssisələrinin milliləşdirilməsini bəyan edir. Bundan sonra ABŞ 1960-cı ilin sonuna doğru praktiki olaraq Kubanı iqtisadi blokadaya aparıb çıxarmaqla onunla ticarəti tamamilə dayandırır. 1962-ci ilin iyul-avqust aylarında SSRİ-nin rəhbəri Xruşşov F.Kastro ilə Kubaya sovet nüvə raketlərinin yerləşdirilməsi ilə əlaqədar gizli razılaşma imzalayır.

ABŞ Prezidenti C.Kennedi dərhal onların ləğv olunmasını tələb edir və 1962-ci il 22 oktyabrda oktyabrın 24-dən Kubaya gətirilmiş hücum xarakterli silahların bütün növlərinə "ciddi karantin"in həyata keçirilməsini bəyan edir. SSRİ və Kuba "karantin"i etiraf etməkdən boyun qaçırırlar. ABŞ-ın Kuba və SSRİ-nin gəmilərini nəzarətdən keçirmə hüququ etiraza səbəb olur və Kuba ətrafındakı blokadanın ləğv olunmasını tələb edirlər. Dünya nüvə müharibəsinin yaxınlaşması artıq aydın reallığa çevrilməyə başlayır. ABŞ prezidenti C.Kennedi və SSRİ rəhbəri Xruşşov arasında intensiv və gərgin danışıqlar başlayır. Hər iki tərəf geri çəkilmək istəmirdi. Bütün dünya üçün bir neçə gərgin gündüz və gecələrdən sonra dünya böhranının nizama salınması ilə bağlı Kennedi və Xruşşov arasında razılaşma olur.

Uzun sürən müzakirələrdən sonra danışıqlar Panama ilə ABŞ arasında 1977-ci il 7 sentyabrda yeni müqavilənin imzalanması ilə başa çatdı. Müqaviləyə əsasən, kanal zonasında respublikaların suverenliyi bərpa olundu. ABŞ-ın kanaldan istifadəyə görə Panamaya ödədiyi haqq bir neçə dəfə qaldırıldı. 1999-cu ildən sonra bütün kanalda idarəçilik Panamaya keçməli və ABŞ kanal zonasındakı hərbi bazalarını ləğv etməli idi.

Ekvadorda general Andres Rodriqes-Larinin (1972 fevral-1976 yanvar) və Hondurasda Osvaldo Lopesa Arelyanın (1972 dekabr-1975 aprel) hərbi hökumətləri bir sıra xarici şirkətlərin xüsusi mülkiyyətinin milliləşdirilməsi, dövlət sektorunun genişləndirilməsi və milli iqtisadiyyatın stimullaşdırılması üzrə tədbirlər həyata keçirmiş və aqrar islahatlara başlamışdılar. On minlərlə kəndli hər iki ölkədə torpaq sahələri əldə etdilər. Neçə-neçə zəhmətkeşin vəziyyəti yaxşılaşdı. Lakin Peru və Panamaya nisbətən burada dəyişikliklər daha mötədil xarakterli idi. Latın Amerikasında inteqrasiya prosesləri inkişaf etməkdə davam edirdi. Mövcud inteqrasiya birlikləri ilə yanaşı, 1969-cu ildə Latın Amerikası azad ticarət assosiasiyası daxilində And ölkələrinin (Kolumbiya, Ekvador, Peru, Boliviya və Çili) subregional

ittifaqı olan And qrupu yaradıldı, 1973-cü ildə Venesuela da oraya daxil oldu. 1971-ci ildə And qrupu ölkələri xarici kapitalın təsir sferasının və xaricə ixracatın məhdudlaşdırılması ilə bağlı qərar qəbul etdilər. Latın Amerikası ölkələri münasibətlərin hərbi-siyasi müstəvidən iqtisadi inkişafa doğru dəyişdirilməsi istiqamətində mühüm səylərlə çıxış edirdilər. 1973-cü ildə ADT təşkilata üzvlüyü ehtimal olunan ölkələrdə müxtəlif sosial-siyasi nizamlamalar barədə qətnamə qəbul etdi. 1975-ci ildə Latın Amerikası ölkələri Kubaya qarşı sanksiyalarda ADT üzvlərinin məcburi iştirakından imtinaya nail oldular. Bu vaxtdan etibarən region ölkələri Kuba ilə münasibətləri normallaşdırdılar. Dəyişilmiş şəraitdə ABŞ-da Nikson hökuməti (1969-1974) "yeni tərəfdaşlıq", "yeni dialoq" konsepsiyalarını irəli sürdü, bu konsepsiyalar əsas ağırlığın ölkələrin sosial-iqtisadi inkişafının təmin olunması üzərinə köçürülməsini və Latın Amerikası ölkələrini əsas səyləri xarici özəl kapitalla əməkdaşlığa yönəltməkdən müdafiə edilməsini nəzərdə tuturdu. Latın Amerikası ölkələrinin iqtisadiyyatının modernləşmiş sahələri ilə dünya iqtisadiyyatının müvafiq sferaları arasında istehsal-texniki əlaqələr artmaqda idi. Beynəlxalq kapitalla qüvvətlənmiş yerli monopolist təbəqələr arasında inteqrasiya üçün daha əlverişli şərait yaranmışdı.

Bir çox ölkələr, ilk növbədə, Braziliya, həmçinin Meksika, Argentina, Venesuela dünya iqtisadiyyatında mühüm rol oynamağa can atan ölkələr sırasında qabaqcıl yer tutmağa başlamışdılar. Yeni sahələrin və müasir texnologiya ilə, işçi qüvvəsinə qənaətlə işləyən müəssisələrin inkişafı milli iqtisadi sahələrdə məşğulluğun aşağı düşməsinin qarşısını ala bilmədi. Xüsusilə, 1981-1983-cü illərdə dünya iqtisadi böhranı ilə əlaqədar vəziyyət xeyli kəskinləşmişdi, ixracdan əldə olunan gəlirlər azalır, ticarət pisləşirdi. Region ölkələri borcları ödəməkdə acizlik nümayiş etdirirdilər. Onlar idxalı azaltmağa məcbur oldular, Latın Amerikası məhsullarının alıcısı olan ölkələrin proteksionist tədbirləri vəziyyəti daha da çətinləşdirdi. İstehsal

azaldı. Məsələn, neftdən gələn gəlirlərin uzunmüddətli artımını nəzərdə tutan Meksika inkişaf planı 1981-ci il üçün neftin qiymətinin aşağı düşməsilə iflasa uğradı. Eyni zamanda, xarici borcların ödəmə faizləri xeyli artdı, 1970-ci ildəki 3,8 mlrd. dollardan 1982-ci ildə 80 mlrd. dollara çatdı. Neft ixracından gələn gəlirlərin 70%-i bu faizlərin ödənilməsinə sərf olunurdu. Maliyyə böhranı kəskinləşdi. Venesuelada Karlos Andres Peresin (1974-1979) başçılığı altında Demokratik Hərəkat Partiyası özünü 1976-cı il milliləşdirməsinə baxmayaraq neftdən gələn dövlət gəlirlərinə arxalanaraq iqtisadi və sosial inkişaf layihəsi irəli sürdü. Xarici kapital başlıca olaraq kreditlər və borclar şəklində cəlb edilirdi. Təkcə Venesuela yalnız çatışmazlıqdan yox, kapitalın artıqlığından da əziyyət çəkirdi, hətta genişlənməkdə olan tikililər şəraitində inkişaf etməmiş infrastruktur, daxili bazarın darlığı, müasir texnika və avadanlıqların, ixtisaslı işçi qüvvəsinin çatışmazlığı ucbatından maliyyə vəsaitləri toplanmış istehsalata tezliklə yatırım edə bilmədi. Nəticədə xaricə kapital axını artmağa başladı. Bu, Venesuelanın qonşu ölkələrə iqtisadi ekspansiyasının genişlənməsinə səbəb oldu. Xarici borcların miqdarı 1982-ci ilin sonlarında 34 mlrd. dollara çatdı. Beləliklə, islahatçı Meksika və Venesuela kapitalist modernləşdirmə variantları onlar üçün neft ixracatçısı ölkələri olaraq əlverişli konyuktura olmasına baxmayaraq iflasa uğradı.

Digər Latın Amerikası ölkələrindən öz spesifik xüsusiyyətləri ilə seçilən Kuba qitə ölkələri içərisində yeganə ölkə idi ki, kapitalizm quruluşuna alternativ olan sosialist cəmiyyəti yolu seçmişdi. 1970-ci illərin ikinci yarısı – 80-ci illərin birinci yarısında Kubada iqtisadiyyat üzərində dövlət nəzarəti əvvəlki dövrlərdə olduğu kimi davam edirdi. Əsas diqqət sosial siyasətə ayrılırdı. Kuba da ümumi məşğulluq və altı illik pulsuz təhsillə bərabər ümumi savadlılıq siyasəti olan ölkələrdən olmağa başladı. Əvvəlki bir neçə texniki məktəbə yüzlərlə yenisi əlavə olundu. 80-ci illərdə Kuba iqtisadiyyatının inkişafında ciddi çətinliklər və nöqsanlar özünü göstərdi. Kənd təsərrüfatı

sistemində bütün sosialist ölkələr üçün ortaq olan səmərəsizlik özünü aydın göstərirdi. ABŞ-la gərgin münasibətlər Kubanı vadar edirdi ki, ölkənin müdafiəsinə daha çox diqqət və vəsait ayırsın. 1975-ci ildən sonra Kuba ADT-nin digər qitə dövlətlərinin ada ilə əlaqələrinə dair məhdudiyyətlərinin aradan qalxmasından istifadə edərək yeni texnika və avadanlıqların alınması və digər məqsədlər üçün kreditlər götürdü, belə ki, bu alınan vəsaitlərin köməyilə rəqabətədavamlı istehsalatın yaradılması sürətləndi. İxracdan sonra əldə edilmiş valyuta kreditlərin ödənilməsini tələb edirdi. Ancaq digər Latın Amerikası ölkələri kimi Kuba da eyni aqibətlə üzləşdi. Yeni rəqabətədavamlı istehsalın yaradılması və ixracdan gələn gəlirlərin artımı ilə bağlı nəzərdə tutulmuş proqram özünü doğrultmadı.

Nikaraquada 1979-1980-ci illərdə Somos diktaturasının devrilməsindən sonra sandinistlər (milli xilasın sandinist cəbhəsi) hakimiyyətə gəldilər. Bank sistemi, nəqliyyat, energetika, xarici ticarət milliləşdirildi. Amma artıq 1980-ci ildə keçmiş qvardiyaçılar Somos və "kontras" (əksinqilabçı) ləqəbli digər inqilab əleyhdarları ölkədən qaçaraq qonşu Honduras və qismən Kosta-Rika ilə həmsərhəd rayonlarda xüsusi ordugahlarda birləşdilər. Nikaraquada baş verən hadisələr digər Mərkəzi Amerika ölkələrinin hökumətləri kimi, ABŞ hökumətini də təşvişə saldı və sandinist hökumətinə qarşı əks-inqilabçılara silah-sursat yardımı etdi. ABŞ-ın konfliktə müdaxiləsi güclənirdi. Nikaraqua hökuməti müdafiə xərclərini daha da artırdı. Ölkə hərbi vəziyyətə cavab olaraq ümumi hərbi mükəlləfiyyət həyata keçirdi. Nikaraquada vəziyyət ağırlaşırdı. 1981-1988-ci illər hərbi əməliyyatlarda 50 mindən artıq insan həlak oldu, 1991-ci ilə kimi ümumi zərər isə 17 mlrd. dollara çatmışdı. Kanalın tamamilə Panama hakimiyyətinə təhvili və Amerika hərbi bazasının Panamadan çıxarılması müddətinin başa çatması yaxınlaşdıqda ABŞ müqavilənin dəyişdirilməsi lehinə tələblərini artırdı, müddət bitdikdən sonra kanal zonasında bu və ya digər formada Vaşinqtonun iştirakının təmin

olunmasına çalışırdı. 1988-ci ilin fevralında Panama prezidenti E.Delvalye Noryeqamn qəyyumluğundan azad olmağa cəhd etdi və milli müdafiə qüvvələrinin komandanı postundan kənarlaşdığını elan etdi. Noryeqa bu qərara tabe olmaqdan imtina etdi və Delvalyenin istefası və başqa prezidentin seçilməsi haqqında Qanunverici assambleyanın qərarının olmasına təkid etdi. Delvalye dəstək üçün ABŞ-a müraciət etdi. Vaşinqton yeni prezidenti tanımadı, Panamaya qarşı iqtisadi sanksiyalar tətbiq etdi və amerikan banklarındakı Panama əmanətlərini dondurdu. Panamada işgüzar fəallıq azalınağa, kapital ölkədən uzaqlaşmağa başlayır, anti-hökumət tətilləri güclənirdi. Noryeqa Vaşinqtonu onu devirməyə təşəbbüsdə iştirakda və Panamaya qarşı müdaxiləyə hazırlıqda günahlandırırdı. 15 dekabrda Panamada Amerika təcavüzündən müdafiə üçün hərbi vəziyyət elan edildi. 1989-cu ilin 20 dekabrında gecə Amerika qüvvələri Panama sərhədlərinə soxuldu. Yanvarın əvvəllərində Noryeqa Vaşinqtonun təkidi ilə təslim oldu və ABŞ-da həbs olundu.

Birləşmiş Ştatlar mühüm strateji əhəmiyyətli Panama kanalı ərazisində onun üçün əlverişli olmayan dost rejimin dəyişdirilməsinə nail oldu. Gilyermo Endarra hökuməti konstitusiyalı rejimi bərpa etdi. Hökumət 1977-ci ildə ABŞ ilə Latın Amerikası dövlətləri arasında imzalanmış müqavilənin şərtlərinə riayət edilməsini dəstəklədi. 1993-cü ilin fevralmda okeanlararası zonada Panama idarəçiliyinin yaradılması haqqında qanun qəbul edildi. 1990-1991-ci illərdə ABŞ Panamaya 1 mlrd. dollar dəyərində kredit və qarşılıqsız yardım ayırdı. ABŞ yardımları və bu cür siyasət maliyyə sisteminin stabilləşməsinə və iqtisadi artıma müsbət təsir etdi.

Xuntanın istəyi ilə 1981-ci ilin dekabrından Argentinanın prezidenti olan Leapold Qaltieri müxalifətin diqqətini yayındırmaq üçün avantürist aksiyaya başladı. 1982-ci il aprelin 2-dən Argentina silahlı qüvvələri 1833-cü ildən Böyük Britaniya tərəfindən işğal olunmuş Folklend (Malvin) adalarmı, həmçinin Cənubi Atlantikada bir neçə adanı tutdular. Böyük Britaniya

hökuməti başda "dəmir ledi" Marqaret Tetçer olmaqla Argentina ilə hər cür danışıqlardan imtina etdi və Folklend adaları ərazisində hərbi fəaliyyətə başladı.

ABŞ Rio-de-Janeyro müqavilasi ilə müttəfiqi olan Argentinaya qarşı öhdəliklərini pozaraq digər müttəfiqi Böyük Britaniyaya dəstək verdi. Böyük Britaniyanı NATO üzvü olan digər Avropa ölkələri də dəstəklədilər. Xalqın gözündən düşmüş Argentina hökuməti 1983-cü il oktyabrm 30-u seçkilər keçirdi. Seçkilərdə radikalların nümayəndəsi Raul Alfonsinin qələbə çaldı. 1983-cü il dekabrın 10-da hərbi rejim hakimiyyəti hüquqi prezidentə verdi. Lakin Alfonsin tərəfindən qəbul olunmuş iqtisadi siyasət ölkədəki vəziyyəti daha da pisləşdirdi. 1989-cu ildə Alfonsin hakimiyyəti yeni prezident Menemə verməyə məcbur etdi. 1990-cı ildə inflyasiyanın saxlanması və iqtisadiyyatı stabilləşdirmək üçün yeni fəaliyyət paketi qəbul edildi. 1992-ci ildə 1985-ci ildən ənənəvi valyuta olan – peso bərpa olundu. Menemenin dövründə Braziliya və Uruqvayla yaxınlaşma xətti götürüldü. 1991-ci il martın 26-da Argentina, Braziliya, Uruqvay, Paraqvay prezidentləri arasında Cənubi Amerika ümumi Bazarınm yaradılması haqqmda Asunsonda müqavilə imzalandı. Menemenin dövründə, nəhayət ki, 1967-ci il Latm Amerikasının atom bombasından azad zonaya çevirmək haqqında Tlatelko müqavilasini imzaladı.

1970-ci illərin birinci yarısı – 80-ci illərdə Karib dənizi hövzəsində dekolonizasiya hərakatı sürətləndi. Böyük Britaniyanm altı keçmiş müstəmləkəsini əhatə etdi: Dominikan (1978), Sent-Lüsiya (1979), Sent-Vinsent və Qrenanda (1979), Beliz (1981), Antiqua və Barbuda (1981), Sent-Kristofer və Nevis (1983). 1980-ci illərdə Braziliyada iqtisadi vəziyyət pisləşdi. 1985-ci ildə keçirilən seçkilərdə Joze Sarney qalib gəldi. 21 illik hərbi rejimə son qoyuldu.

1989-1991-ci illərdə Şərqi və Mərkəzi Avropada sosialist rejimin ləğv edilməsi, Sovet İttifaqınm süqutu Kubanın bu dövlətlərlə iqtisadi, siyasi və hərbi əməkdaşlığına son qoymaqla

ABŞ-a qarşı olan mövqeyini qəflətən zəiflətdi. Bununla yanaşı, F.Kastronun keçmiş müttəfiqləri, eyni zamanda, Rusiya Kastro rejiminin insan haqlarını pozduğuna görə ittiham edən ABŞ və digər Qərb ölkələri – BMT üzvlərinə qoşuldular. 1993-cü ilin martında Kuba hökuməti ABŞ-la bir şərtlə danışıqlara hazır olduğunu bildirdi ki, daxili-siyasi məsələlər müzakirə olunmasın.

Braziliyada J.Sarney hökumətindən konstitusiyalı rejimə keçmək tələb olundu. 1986-cı ilin fevralında "Kruzado" iqtisadi stabillik planının həyata keçirilməsinə başlanıldı.

Meksika ilə ABŞ-m iqtisadi əlaqələri möhkəm idi. ABŞ-da daxili ticarət dövriyyəsinin 75%-i Meksikanın payına düşürdü. Meksika hökuməti Latm Amerikasmın inteqrasiya proseslərində iştirakına doğru addımlar atdı. Meksika Mərkəzi Amerika ölkələri və Çili ilə 4 il müddətinə həyata keçirilən azad ticarət haqqında saziş imzaladı. Oxşar danışıqlar Venesuela, Kolumbiya, Argentina ilə aparıldı. Kubaya da həm ABŞ, həm Meksika tərəfmdən iqtisadi dəstək verildi.

Çilidə əhalinin sosial vəziyyəti aşağı olaraq qalmaqda idi, lakin bu sahədə addımlar atılırdı. 1991 - 92-ci illərdə yeni iş yerləri açıldı. Patrisio Eylvin hökuməti respublikada sosial-siyasi stabilliyə və öz mövqelərinin möhkəmlənməsinə nail oldular. Çili Latm Amerikasında inteqrasiya proseslərini dəstəklədi MERKOSUR və And qrupu ölkələri ilə əməkdaşlığı genişləndirdi. 1991-ci ildə Çili ilə Meksika arasında saziş, 1992-ci ildə Argentina ilə iqtisadi əməkdaşlığı genişləndirməsi haqqında, Vensuela ilə azad ticarət haqqında müqavilə imzalandı. 1990-cı ildə ABŞ prezidenti Corc Buşun Çiliyə səfəri ilə ABŞ-Çili münasibətləri möhkəmləndi.

1980-ci illərin sonu 90-cı illərin əvvəllərində Latın Amerikası respublikaları iqtisadi böhrandan çıxış yollarım axtarırdılar. Bununla bağlı bir sıra ölçülər götürüldü, lakin elə bir nəticə əldə olunmadı. Bu da 1988-1989-cu illərdə Venesuela, Argentina və Dominikan respublikasında kütləvi çıxışlara

səbəb oldu. Nəhayət, 90-cı illərin əvvəllərində iqtisadi uğurlar qazanıldı. İnflyasiya 1991-ci ildə 49%-ə çatdı. Latın Amerikası ölkələrinin əsas problemi maliyyə problemi idi. 1989-cu ilin martında ABŞ Maliyyə Naziri Nikolas Breydi layihə təklif etdi. 1989 - 90-cı illərdə bu plandan Meksika, Kosto-Rika, Venesuela, Uruqvay istifadə etdilər. Nəticədə, onların xarici borcları və illik ödənişləri azalmış oldu. Lakin borclar problemi kökündən həll olunmadı və bu Latın Amerikası ölkələrinin maliyyə və iqtisadi siyasətini əngəlləməyə başladı. Latın Amerikası cəmiyyətinin ciddi problemlərindən biri də korrupsiya idi. 1984-cü ilin iyununda Kartaxendə (Kolumbiya) on bir ölkənin (Argentina, Braziliya, Meksika, Çili, Venesuela, Kolumbiya, Peru, Ekvador, Boliviya, Uruqvay və Dominikan Respublikası) iqtisadiyyat nazirlərinin maliyyə və xarici işlər məsələləri ilə bağlı toplantısı keçirildi. Lakin onun fəaliyyəti az effektli oldu. Bu toplantınm 7 üzvünün – Argentina, Braziliya, Meksika, Venesuela, Kolumbiya, Peru, Uruqvay və həmçinin, Panamanın səyi ilə 1986-cı ilin dekabrında Rio-de-Janeyro qrupu yaradıldı. 1991-ci il martın 2-də Argentina, Braziliya, Uruqvay və Paraqvay prezidentləri Asunsonda MERKOSUR ölkələrinin ümumi bazarınm yaradılması haqqında dördtərəfli müqavilə imzaladı. 1990 - 91-ci illərdə Meksika ABŞ ilə Şimali Amerika azad ticarət zonasının yaradılması haqqında danışıqlar başlandı. 1992-ci ildə razılaşma əldə olundu və 1994-cü ildən qüvvəyə mindi. And dağlıq rayonunda, Amazon hövzəsi meşələrində və digər ərazilərdə narkotik Latın Amerikası cəmiyyətinin təhlükəli xəstəliyinə çevrildi.

Müasir dövrdə yeni bir problem kimi ətraf mühitin dağıdılması məsələsi gündəmə gəldi. Bu problem Latın Amerikasında da ətraf mühitin, suyun çirklənməsi və meşələrin qırılması, xüsusilə də, Amazon hövzəsində özünü göstərir. Həmin illərdə ekoloji böhran ilk dəfə olaraq yalnız ictimaiyyət arasında deyil hakimiyyət sferalarında da əks-səda doğurdu. Hələ 1991-ci ildə ADT nəzdində ətraf mühitin qorunması ilə bağlı xüsusi

komissiya yaradılmışdı. Ekoloji problemlər siyasi sferaya daxil oldu və beynəlxalq aləmdə müzakirə obyektinə çevrildi.

## ƏDƏBİYYAT:

1. Строганов А.И. Новейшая история стран Латинской Америки. М., 1995.
2. Косарев Е.А. Экономическая интеграция Латинской Америки и США М., 1979.
3. Королев Ю.Н., Кудачкин М.Ф. Латинская Америка: революция XX века. М., 1986.
4. Шумов С.А. История Бразилии. М., 2003.
5. Глинкин А.Н. Латинская Америка в международных отношениях в XXI веке 2 т., М., 1988.

# NƏTİCƏ

XX əsrin ikinci yarısı və XXI əsrin əvvəlində dünya siyasətinin başlıca parametrlərinin tədqiqi qloballaşma proseslərinin başlanması ilə siyasət, iqtisadiyyat, ideologiya, din, mədəniyyət və psixologiyanın bir-birinə qarışdığı dövr bəşəriyyətin öz inkişafının həlledici dövrünə qədəm qoyduğunu təsdiq edir. Ən əsası isə ümumbəşəri dəyərləri qorumaq və artırmaqla həm böyük, həm də xırda dövlətlərin, xalq və millətlərin inkişafına yardım edilməsi zəruridir. Qloballaşma və ümumdünya unifikasiyasının burulğanında hər bir dövlət öz xüsusiyyətlərini, mədəniyyətini, dilini, dinini, adət və ənənələrini inkişaf etdirmək imkanı əldə etməlidir. Qloballaşma xatirinə milliliyin ləğv edilməsi deyil, hər bir xalqın, hər bir dövlətin nailiyyətlərinə və tarixinə əsaslanaraq ümumbəşəri evin qurulması zəruridir.

Belə nəticəyə gəlmək olar ki, bütün izah edilənlər yalnız bir şərtin yerinə yetirilməsi ilə həyata keçirilə bilər – bu, qarşılıqlı anlaşma və ümumi sülhə can atmaqdan ibarətdir. Əks halda, bəşəriyyət onun əsasını təşkil edən amilləri aradan qaldırar və bütün dünya özünü məhv olmaq qədər böyük fəlakətlə qarşılaşa bilər.

Müasir dünya siyasətinin müxtəlif aspektləri sübut edir ki, bəşəriyyət dünya müharibələrini və özgə ərazilərin zəbt edilməsi kimi dövlətlərarası münaqişələri tarixin səhifələrində saxlamaq gücünə malikdir.

Müasir dünya siyasətinin inkişaf meyilləri odur ki, dünya birliyi əvvəllər görünməmiş hadisə olan, müasir beynəlxalq münasibətlərə qeyri-sabit təsir göstərən, hazırda çoxprofilli, ümumi və çox təhlükəli faktora çevrilmiş terrorizmlə qarşılaşmışdır. Bu bəla ilə mübarizə bütün ölkələrin və xalqların, hər bir dövlətin və ümumilikdə, bütün dünyanın işinə çevrilmişdir.

A.N.ABBASBƏYLİ

# DÜNYA SİYASƏTİ

## (XX əsrin ikinci yarısı - XXI əsrin əvvəlləri)

Nəşriyyat redaktoru: Suğra OSMANOVA
Texniki redaktor: Rauf KƏRİMOV
Bədii redaktor: Elnur ƏHMƏDOV
Səhifələyici: Fəxri VƏLİYEV

Yığılmağa verilmişdir: 20.10.2011
Çapa imzalanmışdır: 11.11.2011
Nəşrin ölçüsü: 60x90 1/16
Fiziki çap vərəqi: 36,5
Sifariş: 199/11. Sayı: 1000 ədəd.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com